R. N. İVANOV

KALBALI XAN NAXÇIVANSKİ

DÖVRÜ VƏ İRSİ

(TARİXİ OÇERKLƏR)

Akademik İsa Həbibbəylinin
ön sözü ilə

R. N. İVANOV

Kalbalı xan Naxçıvanski. Dövrü və irsi. Tarixi oçerklər. *Akademik İsa Əkbər oğlu Həbibbəylinin ön sözü ilə.* "Azərnəşr"., B. 2012, 718 səh., 171 illüstrasiya, 2 əlavə

Topluya Azərbaycanın əfsanəvi Naxçıvan xanları sülaləsinin ulu babası Kalbalı xan Naxçıvanskiyə, onun yaşadığı dövrə, sonrakı nəsillər üçün qoyub getdiyi hərbi və mənəvi irsə həsr olunmuş 11 oçerk daxil edilmişdir.

Kitabda Ağa Məhəmməd şah Qacarın İranda hakimiyyətdə olduğu dövrdə Kalbalı xanın Naxçıvanın maraqlarını necə müdafiə etdiyindən, Rusiya ilə əlaqələr qurmasından şübhələndiyinə görə şah Qacarın onun gözlərini çıxarmasından bəhs edilir. Kor qalmış Kalbalı xanın dövlətçilik və sərkərdəlik fəaliyyəti 1804-1813 və 1826-1828-ci illərdə baş vermiş Rusiya – İran müharibələrinin geniş panoramı fonunda nəzərdən keçirilir; Kalbalı xanın İran hökmdarı Fətəli şahla, Rusiyanın Qafqazdakı baş komandanı knyaz Sisianovla, çarın qəzəbinə tuş gəlmiş gürcü şahzadəsi Aleksandr İrakliyeviçlə və digər məşhur tarixi şəxsiyyətlərlə münasibətləri açılıb göstərilir. Kalbalı xanın sağlığında və onun ölümündən sonra baş vermiş maraqlı hadisələr – Kalbalı xanın general A.P.Yermolovla üç görüşü, A.S.Qriboyedov tərəfindən rusiyalı əsirlərin və fərarilərin İrandan çıxarılıb Rusiyaya gətirilməsi, rus qoşunlarının Cənubi Azərbaycan müvəqqəti işğal etməsi və orada rus üsuli-idarəsinin tətbiq olunması, Türkmənçay sülh müqaviləsi əsasında ermənilərin İrandan Rusiyadakı müsəlman ərazilərinə köçürülməsi və bu qərarın neqativ nəticələri təsvir edilir. Oçerklərdən biri Rusiyanın İrandakı səlahiyyətli naziri A.S.Qriboyedovun fəaliyyətinə həsr olunmuşdur. Həmin oçerkdə müəllif A.S.Qriboyedovun ölüm səbəblərinə yeni bir nəzərlə baxmağı təklif edir.

Kitabda Rusiya Dövlət Qədim Aktlar Arxivi (RDQAA), Rusiya Hərbi-Tarixi Arxivi (RHTA) fondlarının materiallarından, həmçinin əsasən inqilabdan əvvəl çap olunmuş nadir kitab və dövri nəşrlərdən istifadə edilmişdir. 260 sənəddən sitatlar və tam mətnlər verilmişdir, oçerklər 171 şəkillə illüstrasiya olunmuşdur.

Kitab Qafqaz, Cənubi Qafqaz və Yaxın Şərqin tarixinə maraq göstərənlər üçün nəzərdə tutulur.

© Müəllif mətni R. N. İvanov, 2011
© Kalbalı xan Naxçıvanskinin şəkilləri, A. Məmmədov, 2011

4700000000
053-2013

© "Əcəmi" 2013

Tədqiqatın və şəxsiyyətin miqyası
(Ön söz)

Rusiya tarixşünaslığı Qafqaz mövzusunun tədqiqində böyük ənənəyə malikdir. Qədim salnamələrdən tutmuş dövri mətbuat səhifələrinə, müxtəlif hesabatlardan hökumət aktlarına, dissertasiyalardan monoqrafiya və məqalələrə qədər – ən müxtəlif mənbələrdə, bir çox əsrlərdir Qafqaz xalqlarının taleyi, o cümlədən Azərbaycan xalqının tarixi taleyi, onun mübarizələrlə dolu həyatının müxtəlif dövrləri barədə söhbətlər davam etdirilir. Vaxt vardı, Rusiya elmində, həmçinin bir çox Avropa və Şərq xalqlarının tarixşünaslığında Qafqazın, o cümlədən Azərbaycanın tarixi öyrənilərkən qərəzsiz araşdırmalar aparmaq, tarixi sənədləri doğru-dürüst öyrənmək əvəzinə müəyyən siyasi-tarixi görüşlərin təbliğinə üstünlük verilirdi. Həm rus, həm də rus dilli oxucular əsl həqiqətə yol tapa bilmir, bu və ya digər ideoloji prinsipləri əsaslandırmaq və təsdiq etmək məqsədilə yazılan və yaxud seçilən materialları oxumağa məcbur qalırdılar.

Eyni zamanda müxtəlif dövrlərdə tarixi şəxsiyyətləri və Qafqazda baş verən hadisələri obyektiv qiymətləndirən ciddi əsərlər də nəşr olunurdu. Belə əsərlər arasında V.N.Qriqoryevin "Ali razılıqla nəşr olunan Naxçıvan əyalətinin statistik təsviri" (1883), K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan

mahalı" (1882), V.A.Veliçkonun "Qafqaz" (1904) monoqrafiyaları görkəmli yer tutur. Bu monoqrafiyalardan əlavə, 1882-ci ildən 1921-ci ilədək Tiflisdə nəşr olunan "Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün material topluları"nı (QƏTTMT) da qeyd etmək yerinə düşərdi. Həmin toplularda Azərbaycanın müxtəlif bölgələrinin inkişafını çoxtərəfli və doğru-düzgün əks etdirən tarixi-etnoqrafik materiallar dərc olunurdu.

XX əsrin sonlarında, sovet imperiyasının süqutundan sonra yenidən ideologiyalardan uzaq, ilkin mənbələrə əsaslanaraq əsl həqiqəti əks etdirən materiallar dərc olunmağa başladı. Beləliklə, rus oxucuları Azərbaycan haqqında əsl həqiqəti öyrənmək imkanı əldə etdilər. Yuri Siqovun "Azərbaycan Şərqlə Qərb arasında" (2008), Yuri Pompeyevin "Qarabağ gündəliyi" (2010) kitabları digər nəşrlərlə birlikdə bu gün rusdilli oxucular üçün Azərbaycan haqqında doğru, obyektiv informasiya baxımından qiymətli mənbələrdir. Rusiya ziyalı təbəqəsi nümayəndələrinin görkəmli dövlət xadimi Heydər Əliyevə həsr olunmuş nəşrlərində son otuz-qırx ildə Azərbaycanda cərəyan edən siyasi proseslər öz real əksini tapmışdır. Son illərdə Moskva nəşriyyatlarında işıq üzü görən və Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikasına həsr edilən kitablar güclü iqtisadi yüksəlişdən və ölkənin uğurlu sosial inkişafından söz açır. Beləliklə, son nəticədə Rusiya tarixşünaslığında obyektiv baxış qalib gəlmişdir. Bu yeni tarixşünaslıq prosesində məşhur hərb tarixçisi, görkəmli yazıçı **Rudolf Nikolayeviç İvanov** da öz missiyasını ləyaqətlə həyata keçirir.

Rudolf İvanovun Qafqaz, xüsusilə də Azərbaycan tarixi ilə maraqlanması, onu həqiqət mövqeyindən və istisnasız olaraq sənədlər əsasında nəzərdən keçirməsinin bir çox səbəbləri mövcuddur. Hər şeydən əvvəl Rudolf Nikolayeviç Qafqazı heç də eşitdiklərinə görə tanımayan Rusiya ziyalısıdır. O,

1931-ci il mayın 18-də başı qarlı Qafqazın ən yüksək nöqtələrindən birində – Pyatiqorsk şəhərində anadan olmuş, uşaqlıq və yeniyetməlik illəri Şimali Qafqazda keçmişdir. Böyük Vətən müharibəsinin qızğın çağlarında 13 yaşında ikən Rudolf İvanov risk edərək doğma Vətəni qorumaq üçün cəbhəyə getməyə cəhd göstərmiş, ancaq geri qaytarılaraq doğma Pyatiqorskdakı tank alayının şagirdləri sırasına daxil edilmişdir. Gələcək tarixçi və qafqazşünasın şəxsiyyətinin formalaşmasında onun təhsil almaq üçün 1947-ci ildə öz şəxsi təşəbbüsü ilə Bakı hərbi-dəniz hazırlıq məktəbinə daxil olması da müəyyən rol oynamışdır. Bu təhsilini Ali Hərbi-Dəniz Məktəbində sona çatdırması, sonra isə Şimal Donanmasının gəmilərində hərbi xidmət keçməsi onun xarakterini qəti şəkildə müəyyən etmişdir. Rudolf İvanov Qafqaz dağları kimi əzəmətlidir. Onun hərb tarixçisi ixtisasını seçməsi həyatının böyük bir hissəsinin Hərbi Dəniz Donanmasında xidmətdə, sonra isə elmi müəssisələrdə və ali təhsil ocaqlarında rəhbər vəzifələrdə keçməsi ilə bağlıdır. Onun xarakterinə mərdlik, cəsarət, əminlik və qətiyyət kimi keyfiyyətlər xasdır və məhz bu keyfiyyətlər Rudolf İvanovun daxili aləminin bütövlüyünə dəlalət edir. Görəcəyi iş də məhz öz taleyinə və xarakterinə uyğun seçilmişdir: Rudolf İvanov Qafqazın hərbi tarixinə, bu torpağın öz vətənlərini abadlaşdıran və qoruyan görkəmli oğullarının həyat yolu və əməllərinə müraciət etmişdir və biz onun kitablarında daim müəllifin haqqında yazdığı insanlara və mövzulara qarşı qızğın marağını hiss edirik.

Bu gün Rudolf İvanov müstəqil Rusiyanın ən nüfuzlu tarixçi-qafqazşünaslarından biri sayılır. Rudolf Nikolayeviçin əsərləri müasir rus qafqazşünaslığının ən parlaq və ən qiymətli nümunələridir. Bu əsərlər yeni tarixi mərhələdə Rusiya oxucuları və elmi ictimaiyyəti üçün Qafqaza, o cümlədən Azərbaycana geniş qapı açır.

Əfsanəvi Hacı Murada həsr olunmuş ilk kitablarından

birində Rudolf Nikolayeviç çox sayda ilkin mənbələrdən istifadə etmiş və arxiv materiallarının dərin təhlilini aparmışdır. 1999-cu ildə Moskvada "Exo Kafkaza" nəşriyyatında nəşr olunmuş "Hacı Murad" kitabı oxuculara R.N.İvanov tərəfindən tapılan əvvəllər çap edilməmiş 88 arxiv sənədi təqdim etmiş və Rusiyanın tarix elmində yeni bir zəhmətsevər tədqiqatçının meydana çıxdığını göstərmişdir. Dahi Tolstoydan sonra bu mövzuya müraciət etmək o qədər də asan deyil, lakin bu mürəkkəbliklər Rudolf İvanovu yolundan döndərməmiş və o, çox nadir arxiv materialları və sənədləri əsasında döyüşçü və rəhbər xislətli bu əfsanəvi qəhrəmanın həqiqi obrazını və onun qəhrəmanlıqları haqqında əsl gerçəkləri bərpa edə bilmişdir.

"Məşhur əsirin – Dağıstan və Çeçenistanın üçüncü imamı Şamilin Qunibdən Sankt-Peterburqa səyahəti" adlı əsərində, bu mövzuya həsr edilən çoxsaylı məqalələrində Rudolf İvanov tarixi sənədlər və ciddi yoxlanılmış faktlar əsasında imam Şamil və Qafqaz müharibəsi mövzusuna geniş açıqlıq gətirə bilmişdir. Nəhayət, cəsur əsgər, məşhur sərkərdə və istedadlı hərbi jurnalist Maqsud Əlixanova (1847–1907) həsr olunmuş **"General Maqsud Əlixanov: zəfər və faciə"** kitabı ilə Rudolf İvanov özünü elmi ictimaiyyətə gözəl hərb tarixçisi kimi təqdim etmişdir. **"Dağıstan dağlarında"** adlı oçerklər kitabında (2005) isə general-leytenant Maqsud Əlixanovun məqalələri və yol qeydləri toplanmışdır. Həmin yazılarda ilk dəfə olaraq Qafqaz müharibəsinin indiyədək məlum olmayan, bu tarixi epoxaya tamamilə yeni bir baxış formalaşdıran hadisələri təsvir olunur. Maqsud Əlixanovun yol qeydləri və məqalələrinin toplanması və ümumiləşdirilməsi, onların elmi dövriyyəyə daxil edilməsi Rudolf İvanova ciddi tədqiqatçı-qafqazşünas nüfuzu qazandırmışdır. Bu əsərlər Rudolf İvanova Rusiyada və Qafqazda parlaq hərb tarixçisi, təcrübəli mənbəşünas və mətnşünas kimi böyük şöhrət gətirmişdir. Rudolf İvanovun şəxsində Rusiya elmi gözəl

qafqazşünas, Qafqaz xalqları isə öz tarixlərinin peşəkar tədqiqatçısını qazanmışlar.

Professor Rudolf Nikolayeviçin elmi yaradıcılığında Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan qədim və həmişə cavan Naxçıvan, onun görkəmli şəxsiyyətləri, onların fəaliyyəti və xidmətləri xüsusi yer tutur. Rudolf İvanov məşhur sərkərdələr sülaləsinin – görkəmli, yüksək mənəviyyata malik Naxçıvan xanlarının tarixi epopeyasını dünya ictimai praktikasında unikal bir hadisə kimi canlandırmışdır. Burada onun **"Bəyazitin müdafiəsi: həqiqət və yalan**" (2005), **"Əlahəzrətin general-adyutantı"** (2006), **"Sovetlər İttifaqı adından..."** (2008), **"Basqın"** (2009) və nəhayət sonuncu nəfis "**Kalbalı xan Naxçıvanski. Dövrü və irsi"** (2011) kimi monoqrafik tədqiqatlarının adlarını çəkmək yerinə düşərdi. Bu monumental əsərləri Rusiya tarixşünaslığında Naxçıvanın hərbi-tarixi salnaməsi kimi qeyd etmək lazımdır. Naxçıvanlı sərkərdə xanlar haqqındakı bu epopeya Rusiya azərbaycanşünaslığının qiymətli və parlaq səhifələrini təşkil edir və onun ciddi bir mərhələsidir.

"Bəyazitin müdafiəsi: həqiqət və yalan" kitabını Rudolf İvanov Valentin Pikulun eyni adlı romanı əsasında çəkilmiş "Bəyazit" teleserialına cavab olaraq yazmışdır. Bu əsərlərdə – həm teleserialda, həm də romanda müəlliflər 1877-1878-ci illərin Rusiya-Türkiyə müharibəsində baş verən hadisələrin təsviri zamanı bir çox hallarda həqiqəti təhrif etmişdilər. Tarixi hadisələrin gerçək mənzərəsini oxuculara çatdırmaq üçün Rudolf İvanov o dövrün dövri mətbuatına, həmçinin Rusiya Dövlət Hərb Tarixi Arxivinin materiallarına müraciət etmişdir. Əldə etdiyi zəngin materiallara əsaslanaraq, müəllif inandırıcı şəkildə hadisələrin əslində necə cərəyan etdiyini göstərməyi, Bəyazitin müdafiəsinin həqiqi mənzərəsini bərpa etməyi bacarmışdır. Bu mənzərə film yaradıcılarının və Pikulun təsvir etdiklərindən köklü şəkildə fərqlənir. Xüsusən də, Rudolf İvanovun kitabında xarakterizə

edilən general-mayor İsmayıl xan Naxçıvanski V.Pikulun yaratdığı obrazın tam əksini təşkil edir. Filmdə İsmayıl xan Naxçıvanski qorxaq, passiv, baş verənlərə biganə, rəhbərliyi aldadan sərkərdə kimi təqdim olunur. R.N.İvanovun kitabında isə İsmayıl xan ağıllı, təşəbbüskar, cəsur, heç nədən qorxub çəkinməyən bir qəhrəmandır. Rudolf İvanov müxtəlif mənbələrdən topladığı dəqiq faktlar və informasiyalar, arxiv sənədləri əsasında sübut etdir ki, İsmayıl xan Naxçıvanski əslində Bəyazitin müdafiəsinin qəhrəmanı olmuşdur. Bu qalanın müdafiəsi zamanı göstərdiyi igidliyə görə o, ən yüksək hərbi mükafata – Müqəddəs Qalib Georgi ordeninə layiq görülmüşdür. Onun adı doğma qardaşı, Bəyazitdə mühasirədə qalanların azad olunmasında iştirak edən Kalbalı xan Naxçıvanskinin adı ilə birlikdə Moskva Kremlinin Georgiyevski zalındakı mərmər lövhəyə qızıl hərflərlə yazılmışdır. Qızıl pas götürmür, həqiqət də onun kimi. O, əbədidir. Mənbə bazasından dəqiq və mükəmməl istifadə sayəsində Rudolf İvanov obyektiv elmi nəticələr əldə edə bilmişdir. İnkaredilməz arxiv materialları əsasında və hərb tarixi sahəsində nəhəng təcrübə sayəsində yazılan "Bəyazitin müdafiəsi: həqiqət və yalan" kitabı obyektiv elmi-publisistik bir əsərdir. Bu sənədli povest ictimaiyyət arasında böyük maraq doğurmuş və oxucular tərəfindən çox yüksək qiymətləndirilmişdir.

Burada onu da qeyd etmək lazımdır ki, Rudolf İvanovun "Bəyazitin müdafiəsi: həqiqət və yalan" kitabında Rusiya – Türkiyə müharibəsində baş verən hadisələrin doğru-düzgün təsvir edildiyini o dövrdə türk qoşunlarının baş komandanı olmuş Əhməd Muxtar paşanın xatirələri də təsdiqləyir. Həmin xatirələrdən parçalar tanınmış Azərbaycan publisisti və diplomatı Məhəmməd ağa Şaxtaxtlı (1846–1931) tərəfindən rus dilinə tərcümə olunmuş və hələ 1913–1914-cü illərdə "Военно-исторические дела" jurnalında dərc edilmişdir. Lakin Rusiya Müdafiə Nazirliyinin çox dar çevrəsində yayılan bu jurnal bizim günlərə son dərəcə məhdud

nüsxədə gəlib çatdığı üçün onun varlığından nə Valentin Pikulun, nə də Rudolf İvanovun xəbəri olmamışdır. Bu informasiya Rudolf İvanovun gəldiyi nəticələri təkzib etməyə səy göstərənləri, yəqin ki, öz niyyətlərindən çəkindirəcəkdir.

"Əlahəzrətin general-adyutantı" monoqrafiyasında Rudolf İvanov Naxçıvan xanları sülaləsinin daha bir nümayəndəsi, Azərbaycan və Rusiya tarixində mühüm rol oynamış general Hüseyn xan Naxçıvanski haqqında söhbət açır. Kitabda Hüseyn xanın hərbi fəaliyyətinin qırx dörd ili təsvir olunur və onu möhtəşəm hərbi karyerasının səbəbləri və əhəmiyyəti açılıb göstərilir. Bu illər ərzində Hüseyn xan sıravi əsgərdən süvari qoşun generalına qədər şərəfli bir yol keçmiş, fəxri general-adyutant rütbəsi ilə təltif olunmuşdur.

Rusiya Dövlət Hərb Tarixi Arxivində, Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Arxivində və Rusiya Dövlət Kitabxanasının fondlarında tapılan çoxsaylı və zəngin materiallar Rudolf İvanova Rusiya İmperiyasının bu məşhur sərkərdəsinin dolğun obrazını yaratmaq imkanı vermişdir. Hüseyn xan Naxçıvanski özü təşkil etdiyi 2-ci Dağıstan süvari polkunun komandiri kimi bütün rus-yapon müharibəsindən keçmişdir. Rusiya bu müharibəni uduzdu, ancaq dağıstanlılar polkovnik Hüseyn xanın rəhbərliyi altında rus silahına böyük şöhrət qazandırdılar. Bundan vəcdə gələn imperator Nikolay Aleksandroviç Hüseyn xan Naxçıvanskinin başlıca və elitar polk olan Qafqaz Ordusunun – 44-cü Nijqorod draqun polkunun komandiri təyin etdi. General Hüseyn xan Birinci Dünya müharibəsi cəbhələrində mərdliklə döyüşmüş, süvari birləşmələrinə uğurla komandanlıq etmiş, inanılmaz döyüşkənliyinə görə "Vəhşi diviziya" adlandırılan əfsanəvi Qafqaz yerli süvari diviziyasının təşkilatçısı olmuşdur. Rusiyanı hədsiz dərəcədə sevən və bolşeviklərin hakimiyyətə gəlməsi halında Rusiyanı nələrin gözlədiyini çox gözəl anlayan Hüseyn xan 1917-ci ilin Oktyabr çevrilişini qəti şəkildə qəbul etməmişdir. Unutmaq lazım deyil ki, üç mindən

çox Rusiya generalından yalnız ikisi – Hüseyn xan və onun irəli çəkdiyi, silahdaşı Feodor Keller çar II Nikolayın taxtdan düşürülməsini qəbul etməmiş və ona teleqram vuraraq öz hərbi yardımlarını təklif etmişlər. Hüseyn xan son nəfəsinədək hərbi anda sadiq qalmış və 1919-cu ilin yanvarında bolşeviklər tərəfindən gizli şəkildə öldürülmüşdür. Hüseyn xan Naxçıvanski şəxsiyyətinin əhəmiyyəti və böyüklüyü həm də bununla təsdiqlənir ki, taxt-taca sahib olmağa imkan tapmayan sonuncu Ümumrusiya imperatoru, Böyük Knyaz Mixail Aleksandroviç, Rusiya taxt-tacına namizəd, "qoca" Rasputinin qətlinin iştirakçısı Böyük Knyaz Dimitri Pavloviç, Ağlar hərəkatının gələcək liderləri – generallar P.N.Vrangel, A.İ.Denikin, A.M.Kaledin, Ukraynanın gələcək getmanı general P.P.Skoropadski, gələcək feldmarşal və Finlandiyanın prezidenti general K.K.Mannergeym Birinci Dünya müharibəsində onun yetişdirdiyi və irəli çəkdiyi şəxslər olmuşlar.

Rusiya pravoslav kilsəsi Ümumdünya rus baş kilsəsi simasında Hüseyn xanı Rusiya İmperiyasının görkəmli sərkərdəsi kimi qəbul etmiş və Rusiya Prezidenti Dimitri Medvedyevə 2008-ci il 8 avqust tarixli müraciətində xüsusilə bunları qeyd etmişdir: ***"Hüseyn xan Naxçıvanski adının Rusiya xəritəsində əbədiləşdirilməsinə haqq qazanmışdır. Moskva və yaxud Sankt-Peterburqdakı yeni küçələrdən biri Azərbaycan xalqının bu böyük oğlunun və tarixi Rusiyanın təbəəsinin adını rahatlıqla daşıya bilər".*** Ümumdünya rus baş kilsəsinin düşüncəsinə görə bu addım ***"yalnız tarixi ədaləti bərpa etməyəcək, həm də sadə rus insanı ilə azərbaycanlılar arasında dostluğu xeyli möhkəmləndirəcəkdir"***.

"Əlahəzrətin general-adyutantı" sənədli povesti, heç şübhəsiz, Rusiya tarixşünaslığının son nailiyyətlərindən biridir. Bu kitab, həmçinin Azərbaycan tarix elminə çox qiymətli bir hədiyyədir.

Rudolf İvanovun növbəti **"Sovetlər İttifaqı adından..."** ("Briqada komandiri Naxçıvanskinin həyatı və ölümü") əsəri

Naxçıvanlı generallar pleyadası haqqında tarixi sənədli povestlərin məntiqi davamıdır. Qədim Naxçıvanın daha bir ləyaqətli övladı – general Cəmşid Naxçıvanskiyə həsr olunan bu üç cildlik monumental tədqiqat hərb tarixindən bəhs edən ən qiymətli, ən mötəbər və ən əhəmiyyətli əsərlərdən biridir. Bizcə, "Sovetlər İttifaqı adından..." monoqrafiyası Rudolf İvanovun elmi yaradıcılığında xüsusi mərhələ təşkil edir. Bu elmi tədqiqat əsərini Rusiyanın müstəqillik dövrü tarixşünaslığının ən böyük nailiyyətlərindən biri adlandırsaq, heç də səhv etmiş olmarıq. "Sovetlər İttifaqı adından..." monoqrafiyası, həmçinin qafqazşünaslıq sahəsində mühüm bir hadisədir. Bu əsərdə dərc edilən tarixi sənədlər, eləcə də ciddi-səylə tərtib edilən mühüm qeydlər Azərbaycan tarixçiləri üçün böyük əhəmiyyət kəsb edir.

"Sovetlər İttifaqı adından..." üç cildliyində Rudolf İvanov, qısaca da olsa, Naxçıvan xanları pleyadasının bütün nümayəndələri – birinci və ikinci Kalbalı xan, Ehsan xan, İsmayıl xan və Hüseyn xan Naxçıvanskilər, hətta Cəmşid xanın atası Cəfərqulu xan haqqında söhbət açır. O bu kitabında yeni sənədlər və materiallar təqdim etməklə, əsərin hər bir qəhrəmanı haqda son dərəcə ciddi elmi faktlara əsaslanan gerçək təsəvvür yarada bilmişdir. Buna görə də həmin tarixi əsər ilk növbədə ümumiləşdirici xarakter daşıyır. "Sovetlər İttifaqı adından..." əsəri tarixi materiallara əsaslanan bədii-sənədli povestdir. Müəllif həmin əsərində tarix elmi tərəfindən təsbit edilmiş faktlar əsasında Rusiya və Qafqazın həyatı üçün çox mürəkkəb bir dövrün – XX əsrin birinci yarısının geniş panoramını verə bilmişdir. Bu əsəri sovet dövlətini yaradanlar və onun rəhbərləri, hərbi sərkərdələri haqqında, hərbi-tarixi və siyasi-ideoloji proseslər, o dövrün siyasi durumu haqqında elmi-tarixi epopeya adlandırmaq olar. Bu əsər görkəmli sərkərdə, çoxsaylı repressiya qurbanlarından biri olan Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinin gerçək salnaməsidir. Rudolf İvanovu FTX-nin arxivində xan nəslindən çıxan,

diviziya və briqada komandiri olmuş iri çaplı sovet sərkərdəsi Cəmşid Naxçıvanskinin məhkəmə prosesi haqqında geniş material toplamışdır. Monoqrafiyada Cəmşid Naxçıvanskinin savadlı və istedadlı bir sərkərdə kimi şəxsiyyətinin formalaşması, onun demokratik Azərbaycan Xalq Cümhuriyyəti dövründəki coşqun fəaliyyəti, sovet dövründə Azərbaycan atıcı diviziyasının yaradılmasındakı xidmətləri, Bakı qarnizonu qoşunlarına komandanlıq dövrü, Bakı və Zaqafqaziya sovetlərinin deputatı kimi ictimai fəaliyyəti, həmçinin Moskvada, M.F.Frunze adına Hərbi Akademiyadakı nümunəvi xidməti öz əksini tapmışdır. Cəmşid Naxçıvanskinin bütün şərəfli həyatı və faciəvi ölümü Naxçıvan xanları sülaləsinin sonuncu – altıncı generalının ümumiləşdirilmiş salnaməsidir.

Əvvəlki kitablarında olduğu kimi, Rudolf İvanov burada da təkcə faktların və hadisələrin təsbit və sadalanması ilə kifayətlənmir. O, hadisələrin kələfini açmağa, hərbi-siyasi proseslərin mahiyyətini işıqlandırmağa və onları görkəmli bir sərkərdə kimi Cəmşid Naxçıvanskinin şəxsiyyəti fonunda təqdim etməyə çalışır. Rudolf İvanovun bütün kitablarının, o cümlədən "Sovetlər İttifaqı adından..." kitabının bu xüsusiyyəti onlara xüsusi bir həyat, canlılıq, açıqlıq gətirir və oxunaqlı edir. R.İvanov tərəfindən Rusiya arxivlərindən toplanılan materiallar və təqdim edilən çoxsaylı mənbələr əsasında İosif Stalin, Nəriman Nərimanov, Mircəfər Bağırov, Serqo Orconikidze, Mixail Frunze, Əliheydər Qarayev, Sergey Mironoviç Kirov, Qəzənfər Musabəyov, Həsən Rəhmanov, Çingiz İldırım və bolşevizm dövrünün bir çox digər xadimləri haqqında ayrıca kitablar və məqalələr yazmaq olar.

Rudolf İvanovun görkəmli Naxçıvan xanları sülaləsinə həsr etdiyi kitab silsiləsi sonuncu **"Kalbalı xan Naxçıvanski. Dövrü və irsi"** monoqrafiyası ilə bitir. Bu tarixi əsərdə müəllif əfsanəvi Naxçıvan xanları sülaləsinin əsasını qoyan hərbi-siyasi lider Kalbalı xan Naxçıvanskinin yaşadığı və fəaliyyət göstərdiyi tarixi epoxa ilə qarşılıqlı münasibətlərini

nəzərdən keçirir. Tədqiqatın miqyası və ondakı yeniliklər haqda aydın təsəvvür yaratmaq üçün təkcə bunu demək kifayətdir ki, Azərbaycan tarixşünaslığında birinci Kalbalı xan barəsində yazanlar yalnız bir-iki səhifə ilə kifayətlənmişlər. Rudolf İvanovun monoqrafiyası isə beş yüz səhifədən çoxdur; bu da aparılan araşdırmaların həcminin və materialların əhatə dairəsinin nə qədər geniş olduğunu göstərir. Böyük zəhmət hesabına Rusiya arxivlərində üzə çıxarılan maraqlı dəlillər görkəmli bir dövlət xadimi, müdrik siyasətçi və qədim Naxçıvan torpağının vətənpərvər övladı kimi Kalbalı xan Naxçıvanski şəxsiyyətinin bütün gücünü görməyə imkan verir. Kalbalı xanın bioqrafiyası ilə bağlı aparılan araşdırmalar Rudolf Nikolayeviçə təkcə Azərbaycanın deyil, eyni zamanda Rusiyanın, Qafqazda onunla həmsərhəd olan ərazilərin, həmçinin İranın o dövrkü tarixi və siyasəti haqqında yeni materiallar təqdim etməyə imkan vermişdir. Qafqazdakı baş komandanlar – general A.P.Yermolov və general P.D.Sisiyanov, Rusiyanın İrandakı səfiri, səlahiyyətli nazir, böyük dramaturq A.S.Qriboyedov, XVIII əsrin sonlarında İran hökmdarı, qəddar olduğu qədər də məşhur, milliyətcə azərbaycanlı Ağa Məhəmməd şah Qacar haqqında müəllif tərəfindən tapılan və əvvəllər dərc olunmamış materiallar xüsusilə diqqəti cəlb edir. Kitabda oxucu, həmçinin ermənilərin Azərbaycana, o cümlədən Naxçıvana, əsasən də münbit müsəlman ərazilərinə köçürülməsi ilə bağlı yeni materiallar və məktublarla tanış ola bilərlər. Müəllif çar Rusiyasının ermənilərin İrandan köçürülməsi ilə bağlı yanlış siyasətinin nəticələrini, bu səbəbdən meydana çıxan etnik münaqişələri inkaredilməz faktlar əsasında açıb göstərmişdir. Oxucuların diqqətini, heç şübhəsiz ki, Rusiyanın Tehrandakı səfiri Aleksandr Qriboyedovun faciəvi ölümündə erməni izinin mövcud olması barədəki fakt və dəlillər də cəlb edəcəkdir.

Rudolf İvanovun **"Basqın"** (2009) kitabında 1920-1926-cı illərdə Naxçıvan Muxtar Respublikası ətrafında cərəyan edən

siyasi-ideoloji proseslərin geniş miqyaslı mənzərəsi verilir. Azərbaycan Sovet Respublikasının Naxçıvan üzrə Xüsusi Komissiyasının materiallarını, indiyə qədər "məxfi" qrifi altında saxlanılan hesabatları ilk dəfə gün işığına çıxararaq təhlil edən müəllif bolşevik hökumətinin əsl simasını, regionda günahsız insanlara divan tutulmasının səbəblərini və əhəmiyyətini açıb göstərir. Rudolf İvanovun hər bir əsərində olduğu kimi bu kitabda da ilk dəfə olaraq 160 yeni tapılmış arxiv və dövri mətbuat materialı nəşr olunmuşdur. "Basqın" kitabı Azərbaycanda sovet hakimiyyətinin ilk illəri barədə mühüm informasiya mənbəyidir.

Rudolf İvanovun əsərlərinin xarakterik cəhətini elmi axtarış və tarixi tədqiqlə materialın bədii dərkinin sintezi təşkil edir. Təcrübəli hərbçi olduğu üçün müəllif döyüş səhnələrində mübarizənin gərginliyini xüsusilə canlı təsvir etməyə müvəffəq olur. Rudolf İvanovun bütün elmi məziyyətlərlə yanaşı öz kitablarında bədii publisistika fəndlərindən də imtina etmədiyini söyləmək bəlkə də daha doğru olardı. R.İvanov müasir rus tarixi-sənədli publisistikasının əsas yaradıcılarından, ölkənin yeni dövründə bu janrda buraxılan nəşrlərin uğurunu təmin edənlərdən biridir.

Rudolf İvanovun Naxçıvan generalları haqqındakı epopeyada və digər əsərlərində təqdim etdiyi minlərlə fakt, sənəd və şəkil XIX əsrin ikinci yarısı – XX əsrin ortalarında Rusiya və Qafqazın tarixi barədə təsəvvürlərimizi xeyli genişləndirir. Rudolf İvanov Rusiya arxivlərindən Azərbaycan tarixçilərinə məlum olmayan iki mindən artıq sənəd tapıb çıxarmış və onları elmi dövriyyəyə buraxmışdır. Onun Rusiya tarixşünaslığı və əlbəttə ki, Azərbaycan tarixi qarşısında misilsiz xidmətləri məhz bundan ibarətdir.

Professor Rudolf İvanovun kitabları nadir foto şəkillərlə zəngindir. Bu foto materialları tapmaq, onlarda təsvir olunan görkəmli şəxsiyyətləri dəqiqləşdirmək lazım idi. Bu çox əziyyətli iş, heç şübhəsiz, tarixçilər üçün onun kitablarının

dəyərini, maraqlanan oxucular üçün isə cəlbediciliyini daha da artırır. Bizim fikrimizcə, bütün bu fotoqrafiyalar əsasında Naxçıvan xanları muzeyində dərin məzmunlu, maraqlı ekspozisiya yaratmaq və gözəl, irihəcmli albom tərtib etmək olar. Belə bir ekspozisiyanın və nəşrin böyük uğur qazanacağı şəksizdir.

Rudolf İvanov vaxtilə Ümumittifaq Mətbuat İnstitutunun professoru olmuşdur, hazırda isə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Rusiya Yazıçılar Birliyinin və Rusiya Federasiyası Jurnalistlər Birliyinin üzvü, tanınmış hərb tarixçisi və publisistdir. Bir yazıçı kimi onun üslubunun başlıca xüsusiyyətini elmi və bədii təfəkkürün sintezi təşkil edir, bununla yanaşı Rudolf İvanov həm hərbi-tarixi axtarışlarında, bədii-publisistik yaradıcılığında əsl peşəkarlıq, təhlilçi ustalığı, yüksək yazı mədəniyyəti, obrazlı düşüncə tərzi nümayiş etdirir. R.İvanovun kitablarını çoxsaylı hərbi memuarlardan fərqləndirən, onların parlaq özünəməxsusluğunu təşkil edən məhz bu keyfiyyətlərdir.

Rudolf İvanovu həm Rusiyada, həm də özünün ikinci vətəni hesab etdiyi Azərbaycanda yaxşı tanıyırlar, hər yerdə ona dərin hörmətlə yanaşırlar. Müasir Azərbaycan Respublikasının ictimai-mədəni inkişafında və maariflənməsində böyük rol oynayan Heydər Əliyev Fondu bu qafqazşünasın elmi fəaliyyətini hər vasitə ilə dəstəkləyir və respublika ilə əlaqələrini möhkəmləndirmək üçün ona hər cür şərait yaradır. Rudolf İvanov Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, Naxçıvan Dövlət Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun fəxri doktorudur. Görkəmli tarixçi-alimin Moskvada nəşr olunmuş əsərləri Azərbaycan ictimaiyyətinə yaxşı tanışdır. Rudolf İvanovun kitablarının Moskvada keçirilən təqdimat mərasimlərində Azərbaycan ziyalıları və Moskvadakı Azərbaycan diasporunun nümayəndələri həmişə fəal iştirak etmişlər.

Yazıçının anadan olmasının səksən illiyi münasibəti ilə

Bakıda və Naxçıvanda təntənəli yubiley tədbirləri, kitab təqdimatları keçirilmişdir. Respublika mətbuatında Rudolf Nikolayeviç İvanovun həyat və yaradıcılığına həsr edilən məqalələr görkəmli qafqazşünas və tədqiqatçıya ümumxalq sevgisinin parlaq nümayişinə çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2009-cu il tarixli Fərmanı ilə Azərbaycan – Rusiya əlaqələrinin inkişafındakı aktiv fəaliyyətinə görə "Dostluq" ordeni ilə təltif olunması, həmçinin Naxçıvan MR Ali Məclisi sədrinin fərmanı ilə "əməkdar jurnalist" fəxri adına layiq görülməsi Rudolf İvanovun xidmətlərinin Azərbaycan dövləti tərəfindən də necə yüksək qiymətləndirildiyinə dəlalət edir. Rudolf İvanovun Naxçıvan generallarına həsr olunan və Heydər Əliyev Fondunun dəstəyi ilə 2009-cu ildə Moskvada nəşr edilən beşcildliyi yeni dövrdə Azərbaycan – Rusiya əlaqələrinin inkişafına əhəmiyyətli töhfədir. **"Əlahəzrətin general-adyutantı"** kitabının filologiya elmləri namizədi dosent Qurban Qurbanov tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq 2008-ci ildə Naxçıvan Muxtar Respublikasında "Əcəmi" mətbəəsində nəşr edilməsi Rudolf Nikolayeviçin elmi yaradıcılığının pərəstişkar dairəsini xeyli genişləndirmişdir.

Öz elmi fəaliyyətini bizim ölkəmizə həsr edən Rudolf İvanov dəfələrlə Bakıda və Naxçıvanda olmuş, burada ən yüksək səviyyələrdə qəbul edilmiş, qurduğu elmi-maarifçilik əlaqələri onu Azərbaycan xalqı ilə daha da yaxınlaşdırmış və doğmalaşdırmışdır. Naxçıvan generallarının yeni nəsli ilə tanışlıq, əfsanəvi nəslin tarixi ilə bağlı xatirə yerlərinə gəzintilər, qonşu Türkiyəyə, Doğu Bəyazit şəhərinə səfər, oradakı İsaq paşa sarayını ziyarət – bütün bunların hamısı yazıçıya yeni təəssüratlar bəxş etmiş və yeni materiallar axtarışında ona yardımçılıq göstərmişdir. Çoxsaylı mənbələrə, tarixi faktlara, nadir sənədlərə əsaslanan qiymətli, obyektiv və ədalətli elmi əsərləri Rudolf İvanovu, sözsüz ki, Rusiyanın görkəmli qafqazşünası və Azərbaycanın böyük dostu hesab etməyə im-

kan verir. Bir tədqiqatçı kimi onun fədakarlığı və şəxsiyyətinin miqyası həm Rusiyada, həm də Azərbaycanda layiqincə qiymətləndirilmişdir. Rudolf İvanovun son illərdə gördüyü işlərin həcmi və əldə etdiyi elmi nəticələrlə mötəbər bir elmi-tədqiqat şöbəsi fəxr edə bilərdi. Tanınmış tarixçi və böyük yazıçı Rudolf Nikolayeviç İvanovun Azərbaycan – Rusiya münasibətlərinin, eləcə də şəxsi dostluq əlaqələrinin inkişafı üçün böyük əhəmiyyət kəsb edən, rus ziyalılığının ən yaxşı nümayəndələrinə xas məsuliyyətliliyi, qafqazlı ciddiliyi və etibarlılığı ilə seçilən dolğun fəaliyyəti bizim müasirlərimiz üçün əsl düzgünlük və səmimilik nümunəsi ola bilər.

İsa Əkbər oğlu HƏBİBBƏYLİ,
Naxçıvan Dövlət Universitetinin rektoru,
Azərbaycan Respublikası Milli Məclisinin
deputatı, akademik



Kor Kalbalı xanın gələcək nəsillərə çağırışı:
Naxçıvan xanları şərəfin xidmətində

Ağsaçlı Naxçıvan. Planetin bu qədim yaşayış məntəqəsinin yaranma tarixi minilliklərin dərinliklərinə, yeni tarixin hüdudlarından xeyli uzaqlara gedib çıxır, müasir bəşəriyyətin ulu əcdadı və patriarxı Nuh peyğəmbərin adına yazılır.

"Nuh saleh və öz nəsli arasında qüsursuz bir adam idi. O, Allahla bir yol gedirdi (...) Allah Nuha dedi: «Önümdə olan bütün bəşərin sonu çatıb, çünki yer üzü onların zorakılığı ilə dolub. Buna görə də Mən onları yer üzü ilə birgə məhv edəcəyəm (...) Özünə qofer ağacından bir gəmi düzəlt (...) Gəmini belə düzəlt: onun uzunluğu üç yüz qulac, eni əlli qulac, hündürlüyü isə otuz qulac olsun (...) Gəminin üç mərtəbəsi olsun: biri altda, biri ortada, biri də üstdə (...) Rəbb Nuha dedi: «Sən bütün ailənlə birgə gəmiyə gir, çünki bu bəşər nəsli içində yalnız səni önümdə saleh gördüm (...) Bütün yer üzündə nəsli kəsilməsin deyə hər pak heyvanın erkək və dişisindən yeddi cüt... Həmçinin göydəki hər quşun erkək və dişisindən yeddi cüt götür. Çünki yeddi gün sonra yer üzünə qırx gün-qırx gecə yağış yağdıracağam və yaratdığım bütün canlıları yer üzündə məhv edəcəyəm. Rəbb Nuha necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi

(...) Yeddinci ayın on yeddinci günü gəmi Ağrıdağ* dağlarında dayandı."

(Yaradılış, 6,7, 8 fəsillər)

Elə buradaca belə bir sual verilə bilər: axı harada deyilib ki, Nuhun gəmisi məhz Ağrıdağ dağlarında dayanıb? Bu, sübut olunmamış versiya hansı əsasla bu günə kimi işləkdir? Həqiqətən ikibaşlı Ağrıdağ (onların hündürlüyü müvafiq olaraq 5165 və 3925 metrdir) İranın, Türkiyənin bir hissəsini və Naxçıvanı özündə birləşdirən nisbətən böyük bir ərazidə yayılan çoxsaylı dağ zirvələri arasında ən yüksəyidir. Yeri gəlmişkən, Naxçıvan bölgəsində çoxlu dağ zirvələri, o cümlədən Qapıcıq (3904 m.) və İlandağ (2385 m.) kimi xeyli hündür dağlar var. Eləcə də konusşəkilli, zirvəsi paralanmış İlandağın zahiri görkəmi və bu dağ haqqında yaddaşlarda qorunub saxlanmış əfsanə sübut edir ki, Nuhun gəmisi dayanmağa yer axtararkən İlandağın o vaxtlara hələ su altında olan zirvəsinə dəyib onu parçalamışdır. Naxçıvan Muxtar Respublikasının ikinci ən böyük şəhəri olan və dəniz səviyyəsindən təxminən dörd min metr yüksəklikdə yerləşən qədim Ordubad şəhərində bu gün də üstündə çox sayda rəsmlər – petroqliflər olan bir qaya ucalır. Müxtəlif mənbələrə görə həmin petroqliflərin yeddi mindən üç minə qədər yaşı var. Qayanın özü Gəmiqaya adlanır və onun haqqında yayılan əfsanə Nuhun gəmisinin məhz bu qayaya yan aldığına dəlalət edir. Bibliyadakı ifadəni xatırlayaq: "Ağrıdağ dağlarında" . Yer kürəsinin quru hissəsinin hələ su altında olduğu vaxtlar bu ifadə konkret bir zirvəni deyil, ətrafdakı dağları nəzərdə tuta bilərdi. Yer kürəsinin hələ öyrənilməmiş olduğu bir

* Bu dağ zirvəsinin hər bir xalqda öz adı var. Türkdilli xalqlarda o, ta qədimdən indiyə kimi Ağrıdağ (əyri dağ), farslarda Kuhi-nuh, yəni Nuh dağı adlanır. İlk növbədə azərbaycanlı oxucular üçün nəzərdə tutulan oçerkimizdə bu müqəddəs iki başlı dağ zirvəsinin türkdilli Ağrıdağ (bəzən Böyük Ağrıdağ) adından istifadə olunur.

dövrdə yaranmış kitabda bu ərazini çox asanlıqla ən yüksək zirvənin adı ilə adlandıra bilərdilər. Tarixi əfsanələr bizi tədricən Nuhun gəmisindəki "sərnişinlərin" ilk məskunlaşma yerinə yaxınlaşdırır.

Quruya çıxmaq üçün yeddi aylıq əzab-əziyyətli və təhlükəli səyahətdən sonra nəhayət Nuhu, sonralar Naxçıvan adlandırılan torpağın ilahi təbiəti özünə cəlb etmiş, onun gəmisi məhz burda dayanmışdır. Başqa yer deyil, məhz İncil dövrünün qədim Naxçıvanı, bəşərin ulu əcdadı Nuhun seçdiyi bu məkan o gəminin "sərnişinlərinin" ilk məskunlaşdığı yer olmuş, onların törəmələri məhz burdan dünyaya yayılmışlar. Beləliklə, Naxçıvan bəşər övladının Yer üzündə ilkin beşiyinə çevrilmişdir. Təsadüfi deyil ki, "Naxçıvan" adı bir variantda "Nuhun qəbiləsi" kimi tərcümə edilir.

Xudavəndi – aləm buyurmuşdur ki, Naxçıvandan başlayaraq planetimizin hər yerində kin-küdurətdən, zorakılıqdan uzaq xoşbəxt həyat bərqərar olsun. Bibliyanın "Yaradılış" kitabının 9-cu fəsli, 6-cı şeirində Allahın Nuha xeyir-duasında deyilir:

> "Kim insan qanı töksə, onun da qanı insan əli ilə töküləcək. Çünki Allah insanı öz surətinə görə yaradıb."

Qədim əfsanələrin bildirdiyinə görə ulu əcdad Nuh və onun yol yoldaşları Naxçıvanda gözəl bağlar və üzümlüklər salmışlar. Bunu İncilin özü də təsdiq edir:

> "Nuh torpağı becərməyə başladı və bir üzüm bağı saldı".
> *(Yaradılış, 9. 20)*

Çox güman ki, Naxçıvanın bu gün də məşhur olan duz mədənlərini ulu əcdad Nuh kəşf etmişdir, əfsanəyə görə Nuh peyğəmbərin özü şəxsən qədim dövr insanlarının istifadə etdikləri əmək alətlərinin köməyi ilə burda çalışmışdır. Hər

halda, Naxçıvanın köhnə duz mədənlərində tapılan daş baltalar naxçıvanlıların ilk nəsillərinin çox qədim dövrlərdə yarandığına əlavə və inandırıcı dəlildir.

> "Nuh daşqından sonra üç yüz əlli il yaşadı. O, doqquz yüz əlli il ömür sürüb öldü".
>
> *(Yaradılış, 9. 28-29)*

Nuhun qəbri bizim günlərə qədər saxlanmışdır. O, Naxçıvanda, üzüm salxımları ilə örtülmüş mənzərəli bir təpədə, abad və gözəl bir sərdabədə uyuyur. Bəlkə də Nuh yer üzərində ilk dəfə məhz bu yerdə üzüm bağı salıb becərmişdir?

Naxçıvan həqiqətən bizim planetdə həyat mənbəyinin ümumdünya abidəsi olmağa layiqdir!

Qədim dövrün yazarları İsa peyğəmbər doğulmamışdan hələ xeyli əvvəllər yüzlərlə, bəlkə də minlərlə yaşayış məntəqəsinin adını çəkmişlər, ancaq xalq yaddaşı heç də bütün bu adları bizim dövrümüzə qədər gətirib çatdırmamışdır, qədim Naxçıvan isə öz adını əbədi olaraq dünyaya bəxş etmişdir.

Ulu Tanrı Naxçıvanı insanların sülh və anlaşma içərisində yaşayıb yaratsınlar deyə xeyir işlər üçün düşünsə də, Xudavəndi – aləmin itaətində olmayan şeytani qüvvələr dinc dayanmamışlar. Yer dünyasının ilkin beşiyi saysız-hesabsız sınaq və fəlakət burulğanından keçməli olmuşdur. Uzun əsrlər tiranlar müqəddəs Naxçıvan torpağına müdaxilə etmiş, murdarlamış, onu Karfagenə, ən betəri – xarabalıqları belə qalmayan yanğın yerinə çevirmişlər. Yanıb külə dönmüş bu torpaqda bundan belə sanki alaq da bitməyəcəkdi, ancaq bəşər nəslinin mənbəyi olan bu qədim diyar hər dəfə tezliklə dirçəlmiş və yenidən sürətlə çiçəklənmişdir. Yer üzərindəki

bütün insanlar öz ana torpaqlarının Naxçıvan olduğunu bilməlidirlər.

Naxçıvan hələ Miladdan əvvəl skiflər tərəfindən xarabazara çevrilmişdir, ancaq bu torpaq yenidən canlanmış, yenidən çiçəkləməyə başlamışdır. Makedoniyalı İsgəndərin orduları, Atillanın hunları dünyanın ən mühüm yollarının kəsişdiyi yerdə yerləşən Naxçıvandan keçmiş, qarşılarına çıxan hər şeyi yandırmış, dağıtmışlar. 610-cu ildə Bizans imperatoru İrakli İrana yürüş edərkən Naxçıvanı dağıtmışdır, ancaq bu da əbədi olmamışdır. Bizim eranın X əsrində Bizans yenidən Naxçıvanı bir daha yerlə yeksan etmişdir, lakin burada həyat yenidən dirçəlmişdir. XII əsrdə indiki Naxçıvan ərazisində İldəniz atabəylərinin yüksək mədəniyyətə və unikal memarlıq əsərlərinə malik Azərbaycan dövləti təşəkkül tapmışdır. Ancaq XIII–XV əsrlərdə Naxçıvanın sürətli inkişafı Çingiz, Teymurləng və digər istilaçılar tərəfindən əngəllənmiş, onlar növbə ilə müqəddəs və çiçəklənməkdə olan Naxçıvan torpağını talan etmiş, onun əhalisini qul kimi əsir aparmışlar. Nadir şah elə bilirdi ki, 1673-cü ildə o, insanların Yer kürəsində ilk dəfə məskunlaşdığı bu ecazkar məmləkəti yer üzündən artıq birdəfəlik silib atmışdır və Naxçıvan əbədi olaraq unudulacaq, ancaq bu hökmdar öz yaxınlarının əli ilə qətlə yetirildi, Naxçıvan isə qısa zaman içərisində özünün qanı axan yaralarını sağaldıb, külə dönmüş xarabalıqları çiçəklənən yaşayış yerinə çevirdi və həyatın davam etdiyini bəyan etdi.

Tarix saysız-hesabsız tiranların Naxçıvana hücumlarını xatırlayır, xalqın yaddaşı isə təsdiq edir ki, naxçıvanlılar xarici, gəlmə istilaçılara heç vaxt boyun əyməmiş, heç bir əsrdə heç bir qəddar hökmdar önündə diz çökməmişlər. Onlar öz canlarını və ailələrini əsirgəmədən qədim torpaqlarını mətanətlə müdafiə etmiş, Allahın iradəsi ilə qurban getməli olduqlarını hiss etdiklərində ölümü mərdi-mərdanə, ayaq üstə qarşılamışlar. Başı çox bəlalar çəkmiş, əyilməz, ağsaçlı Naxçıvan

planetimizin digər qədim torpaqlarından fərqli olaraq, tarix boyu üzləşdiyi bütün müsibətlərə sinə gərərək, hər dəfə yenidən dirçəlmiş, sakinləri, səyyahları və tacirləri öz gözəlliyi və zənginliyi ilə heyran qoymuşdur.

Naxçıvanlıların bu qəribə, Nuhun gəmisinin suda batmazlığına bənzəyən yaşama qabiliyyətinin mənbəyi nədədir? Bəlkə bu qeyri-adi mətinliyin, bütün bəlalara tab gətirərək, yenidən sevgi ilə qurub-yaratmaq bacarığının genləri elə o vaxtdan Nuhun gəmisinin "sərnişinləri"nə əta olunub və onlardan gəlir? Naxçıvanlıların indiki nəsil də daxil olunmaqla bir çox nəslinə əsasən bu, elə həqiqətən də belədir!

Allah özü belə buyurub: Naxçıvan bütün zamanlarda mühüm coğrafi yolların kəsişdiyi bir nöqtədə olub və kiçik Naxçıvan təkcə Şərqin deyil, Avropanın da iri dövlətlərinin geosiyasi maraq dairəsinə daxil edilib.

XVIII – XIX əsrlərdə bir yandan Rusiya, İran və Türkiyə, digər yandan Avropanın aparıcı ölkələri arasında Yaxın Şərqdə siyasi təsir altına salmaq uğrunda amansız mübarizə gedirdi. Rusiyanın imperiya düşüncəsi bütün Qafqazda, o cümlədən Cənubi Qafqazda öz sərhədlərini genişləndirməyə yönəlmişdi. Uzun əsrlər boyu İranın vassalı olmuş Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra bu tendensiya daha da güclənmişdi: Rusiya Gürcüstan sərhədinə yaxın ərazilərin onun tabeliyində və yaxud himayəsində olmasını istəyirdi. Ədalət naminə qeyd edək ki, Gürcüstanın Rusiyaya birləşməsi yalnız gürcü çarı və Rusiya imperatorunun iradəsi sayəsində həyata keçirilmişdi. Knyazlar, onların tabeliyində olan tayfalar və xalqlar Gürcüstanda Rusiya varlığının, buraya kənardan gətirilən, yerli xalqların adət və ənənələrinə yad olan rus qayda-qanunlarının qəti şəkildə əleyhinə idilər. Dövlətlərarası münasibətlər boyu Gürcüstan öz varlığı üçün hər hansı bir təhlükə hiss edəndə dərhal Rusiyanı köməyə çağırırdı. Gürcüstanda qayda-qanun və asayiş rus silahının gücü ilə təmin olunurdu. Sonuncudan əvvəlki gürcü çarı II İraklinin

ədalətsiz şəkildə varislikdən məhrum edilən və ölkəni tərk etmək məcburiyyətində qalan oğlu şahzadə Aleksandr Gürcüstan üçün xeyli çətinliklər törədirdi. Rusiya əleyhdarı olan nüfuzlu gürcü knyazlarının, həmçinin İran və Türkiyə saraylarının, Dağıstanın ayrı-ayrı tayfalarının və Naxçıvan xanlığının dəstəyi ilə şahzadə Aleksandr dəfələrlə Gürcüstana silahlı hücum etmiş, onu Rusiyadan qoparmağa və yaxud heç olmasa, özünün Kaxetiyada çar elan olunmasına çalışmışdır.

1747-ci ilin iyununda İran şahı Nadir şah Əfşar qətlə yetirildikdən sonra onun imperiyası dağıldı və Azərbaycan ərazisində iyirmiyə yaxın müstəqil xanlıq yarandı. Ağa Məhəmməd şah Qacardan başlayaraq müxtəlif tarixi dövrlərdə İran müxtəlif yollarla bu xanlıqlara öz keçmiş hökmranlığını hiss etdirə bilmişdir. Azərbaycan xanlıqları İran hökmranlığını formal şəkildə qəbul etsələr də, fürsət düşən kimi ona xərac ödəmir, qoşun göndərmir və yaxud, ümumiyyətlə İran hökmranlığını qəbul etməkdən boyun qaçırırdılar. İmperator Rusiyası isə, öz növbəsində, bu xanlıqların müstəqillik əldə etmək cəhdlərindən yararlanaraq, onları müdafiə etmək və öz sərhədlərinin təhlükəsizliyini möhkəmləndirmək adı altında öz sərhədlərinin yaxınlığında yerləşən Azərbaycan xanlıqlarını Rusiya İmperatoruna tabe etməyə, bununla da Qafqazda və Cənubi Qafqazda öz ərazilərini genişləndirməyə çalışırdı.

İranla Rusiya arasında sıxışıb qalan Azərbaycan xanlıqları öz ərazi bütövlüyü və təhlükəsizliklərini qoruyub saxlamaq naminə məcburən ikili siyasət yeridirdilər: Rusiya ilə xoş münasibətlər saxlayır, böhranlı situasiyalarda isə İran hökmranlığını qəbul edirdilər.

XVIII əsrin sonunda onlardan Naxçıvan xanlığı nisbətən daha çox müstəqillik və siyasi çəki əldə edə bilmişdi. Xanlığın yüksəlişi 1787-ci ildə – **KALBALI XAN** onun hakimi təyin ediləndə başlamışdı. Bu görkəmli dövlət xadimi xanlığın, bütün Yaxın Şərqin və Rusiya imperiyasının tarixində parlaq iz qoyub getmişdir. O, tarixə xanlığın bütövlüyü

və təhlükəsizliyinin qısqanc müdafiəçisi, görkəmli sərkərdə və igid əsgər kimi daxil olmuşdur.

Kalbalı xan Naxçıvanskinin məşhurlaşmağa başlamasına, bəlkə də o dövrün böyük tarixi hadisələri təkan vermişdir. XVIII əsrin 70-ci illərinin sonlarında bütün Yaxın Şərq, daha sonra Rusiya və aparıcı Avropa dövlətləri, o zaman hələ az tanınan, yarımköçəri döyüşkən türk tayfası qacarların başçısı Ağa Məhəmməd xanın ildırım sürətilə İran taxt-tacına doğru irəlilədiyinin şahidi oldular.

Uşaq vaxtı axtalanan, uzun illər valideyn və doğma ocaq sevgisindən məhrum edilən, güclü və nüfuzlu İran hakimlərinin təhqiramiz, aşağılayıcı asılılığında qalan Ağa Məhəmməd xan ciddi şəkildə bu fikrə düşmüşdü ki, tale ona yüksək təyinat hazırlayıb və bu məqsədə çatmaq, qeyri-məhdud hakimiyyət əldə etmək üçün o, zorakılıq yolunu seçmişdi.

Qacar tayfasının başçısı elan ediləndən sonra Ağa Məhəmməd xan 1779-cu ildə uğurla qoşun topladı. Həmin il onun İran hakimiyyətinə yüksəlişinin başlanğıcı hesab olunur. O, cəsədlərin üstündən, axıdılan qanlardan yaranmış çaylardan keçərək, evlərə od vurub, külü tüstülənən yanğın yerlərinə çevirərək, heç bir məğlubiyyətdən qorxmadan, öz doğmaları və yaxınlarını belə ən kiçik səhvlərinə görə amansızcasına cəzalandıraraq bu hakimiyyətə gəlmişdir. Öz hakimiyyətindən başqa heç bir hakimiyyət onun üçün nüfuzlu olmamışdır. Hakimiyyət hərisi Qacar Səfəvilər dövrünün böyük İran imperiyasını bərpa etməyə can atırdı. Astarabad, Mazandaran, Gilan, İsfahan və Qəzvini özünə tabe edəndən sonra o, Qacarlara qədər İranda hakimiyyətdə olmuş Zənd sülaləsinin bütün nümayəndələrini məhv etmişdir.

1791-ci ilin əvvəlində Ağa Məhəmməd xan Böyük bir ordu ilə İran Azərbaycanın ərazisinə, Təbriz şəhərinə daxil oldu və Kalbalı xan da daxil olmaqla bütün hakimlərinin ora gəlməsini tələb etdi. Gürcü çarı İraklinin Rusiyanın təcili

köməyinə inandırdığı İrəvan və Qarabağ xanlarından başqa qalan bütün xanlar Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etdilər. Xanlığı müdaxilə və dağıntıdan qorumaq üçün Kalbalı xan Naxçıvanski də Qacarın hakimiyyətini tanıdı. Qacar sədaqət əlaməti olaraq onlardan arvadlarını, uşaqlarını və qardaşlarını amanata vermələrini (girov qoymalarını) tələb etdi. Kalbalı xan Naxçıvanski qardaşını amanata verməyə məcbur oldu.

Kalbalı xanın Qacara itaəti qəbul etməsi Qarabağ hakimi İbrahim xanı bərk hiddətləndirdi və o, qohumu Ömər xan Avarın qoşunu ilə birlikdə 1792-ci ilin yanvarında çoxminlik ordu ilə Naxçıvana yürüş etdi. İbrahim xanla Ömər xan əmin idilər ki, müqəddəs Naxçıvan torpağında talan və qanlı qırğın törətməklə Kalbalı xanı onların gücünü tanımağa məcbur edə biləcəklər. Ancaq istilaçılar kökündən yanılmışdılar.

Ancaq Kalbalı xan Xoy və İrəvan xanlarının qoşunlarını özünə birləşdirib qeyri-adi sərkərdəlik istedadı və şəxsi cəngavərlik göstərərək, az qüvvə və az itki ilə sarsıdıcı qələbə qazandı, bununla da özgə torpağında asan qənimət axtaranları nümayişkaranə şəkildə cəzalandırdı. Gəlmələrin birləşmiş qoşunlarının darmadağın edilməsi və onların döyüş meydanından rüsvaylıqla qaçması ətraf xanlıqların diqqətini ilk dəfə olaraq Naxçıvanın cəsur sərkərdəsi Kalbalı xana yönəltdi. Başı çox bəlalar çəkmiş bu şanlı və qədim diyarın xalqı isə öz hakimlərinin Naxçıvan xanlığının alovlu vətənpərvəri və cəsur müdafiəçisi olduğunu hiss etdi. Xalq heç zaman səhv eləmir.

1792-ci ildən başlayaraq bir çox illər ərzində Kalbalı xan Ağa Məhəmməd xanın bayrağı altında istilaçı yürüşlərdə iştirak etməli oldu. Bu yürüşlərdə dəfələrlə öz sərkərdəlik məharətini nümayiş etdirərək, yeri gəlmişkən, uğurlu sərkərdəsi heç də çox olmayan Qacarın buz bağlamış qəlbinin qəzəbini xeyli yumşalda bildi. Təəssüf ki, tarix Kalbalı xanın

davakar Qacarın hakimiyyəti dövründə göstərdiyi qəhrəmanlıqlar və döyüş məharəti barədə bizə çox az sənədli dəlil saxlayıb.

Ağa Məhəmməd xan Osmanlı xilafəti ilə münasibət yaratmağa çalışırdı, sultan isə, öz növbəsində, Qacara söz vermişdi ki, əgər Gürcüstanı Rusiyadan qopara bilsə, onu İranın şahı kimi tanıyacaq. 1795-ci ilin yazında Ağa Məhəmməd xan Gürcüstan üzərinə yürüşə hazırlaşırdı, ancaq onun yolunu hələ tabe edə bilmədiyi Qarabağ və İrəvan xanlıqları kəsirdi. O, 1795-ci ilin yayında Kalbalı xanı İrəvan xanı Məhəmmədin yanına göndərdi. Kalbalı xanın Məhəmməd xanla qohumluq əlaqəsi vardı və o, az yaşlı xana himayədarlıq edirdi. Məhəmməd xanın yanında böyük etibara malik olan Kalbalı xan İrəvan xanlığının Ağa Məhəmməd xanın hakimiyyətinə tabe olması problemini dinc yolla həll etdi. İrəvan xanlığının Qacar hakimiyyətini qəbul etməsindən sonra Ağa Məhəmməd xan üçün Gürcüstana təhlükəsiz yol açıldı. O vaxtdan ta general Paskeviçin 1827-ci ildə İrəvana hücumuna qədər İrəvan xanlığı İranın tabeliyində olmuşdur. 1795-ci il sentyabrın əvvəlində Ağa Məhəmməd xan gürcü çarı II İrakliyə ultimatum* göndərib ondan Rusiya ilə ittifaqı pozmağı, təzminat ödəməyi və Gürcüstanın İranın tabe olmasını tələb etdi. İraklidən buna razılıq alınmadığı üçün 40 minlik İran ordusu Gürcüstan üzərinə yeridi. Qacar çox da böyük olmayan gürcü ordusunu darmadağın edib Tiflisi ələ keçirdi, səkkiz gün onu talan edib, bu şəhəri tamamilə xarabazara çevirdi. II İrakli canını qurtarmaq üçün dağlara qaçdı və elə bir uzaq və yüksək yerdə gizləndi ki, Ağa Məhəmməd xanın buyruğu ilə çarı əsir tutmalı olan Kalbalı xan 8 minlik seçmə əsgərlə bu səfərdən əliboş qayıtdı. 1795-ci il sentyabrın 25-də İran ordusu Gürcüstanı tərk etdi və hər iki

* Ultimatumun mətni səh. 76-da verilir

cinsdən olan 20 min sakini qul kimi özü ilə apardı. Ölkənin əhalisi , demək olar ki, yarıbayarı azaldı.

II İraklinin köməyinə tələsən Rusiyanın Gürcüstan üzrə baş komandanı general Qudoviçin rəhbərlik etdiyi rus ordusu yalnız 1795-ci il dekabrın əvvəlində Gürcüstan ərazisinə daxil oldu. Gürcüstandan geri qayıdarkən İran ordusunun bir hissəsi Muğan düzündə yerləşdi. Ağa Məhəmməd xan Xorasanda baş verən çaxnaşmaları yatırdandan sonra şah titulunu qəbul etdi.

1795-ci ilin noyabrında Ağa Məhəmməd şah Şamaxı xanlığını itaətə gətirmək və onu İran şahının hakimiyyətini qəbul etdirmək üçün Kalbalı xan Naxçıvanskiyə böyük bir qoşunla Şamaxıya yollanmağı əmr etdi. Ağa Məhəmməd xan Şamaxı hakimi təyin edəndən sonra Kalbalı xan geri Naxçıvan xanlığını idarə etməyə qayıtdı. Naxçıvan xanının Ağa Məhəmməd şahla növbəti görüşü il yarımdan sonra olacaq və onun üçün çox faciəvi qurtarcaqdı.

İmperatriçə II Yekaterina Ağa Məhəmməd şahın Gürcüstana xaincəsinə hücumundan xəbər tutan kimi dərhal İrana müharibə elan etdi və ora 24 yaşlı general-poruçik qraf Valeriyan Aleksandroviç Zubovun başçılığı altında 35 minlik qoşun göndərdi. 1796-cı ilin dekabrının sonunadək rus qoşunları Dərbənd, Bakı, Şamaxı və Şəki xanlıqlarını və hətta Gəncə qalasını ələ keçirdi. II Yekaterinanın reskriptinə görə qraf Zubov bütün İran Azərbaycanını fəth etməyi planlaşdırıbmış və Tehran üzərinə hücuma keçmək niyyətində imiş. Lakin 1796-cı il noyabrın 6-da imperatriçə II Yekaterina vəfat edir, onun yerinə taxta çıxan imperator I Pavel isə qalib rus dəstəsini təcili qaydada geri çağırtdırır.

Ağa Məhəmməd şah rusların geri qayıtmasını onların onun güclü ordusundan qorxmaları kimi qiymətləndirir və 1797-ci ildə dikbaş İbrahim xana divan tutmaq və Rusiya təbəəliyini qəbul edən Azərbaycan xanlıqlarını cəzalandırmaq üçün böyük bir qoşunla yenidən Qarabağa və Gürcüstana

yürüş edir. Qəddar düşməni olan şuşalı İbrahim xanla yanaşı bir çox sınaqdan çıxmış Kalbalı xan Naxçıvanski də şah Qacarın qəzəbinə tuş gəlmişdi; Qacar onun qr. Zubovun dəstəsindən olan yüksək rütbəli zabitlərlə əlaqədə olmasından şübhələnmişdi.

Ağa Məhəmməd şah yenidən Gürcüstana yürüş edərək, 1797-ci ilin yazında Naxçıvan xanlığının əhalisinin İrana sürgün olunmasını əmr etdi; bu halda əgər rus qoşunları yenidən Naxçıvana gəlsəydilər, burada heç bir həyat əlaməti ilə qarşılaşmayacaqdılar. Xanlığı bu cür böyük bir bəladan xilas etmək üçün Kalbalı xan şəxsən şahı rəhmə gətirmək qərarına gəlir və qiymətli hədiyyələrlə Ərdəbilə, onun yanına yollanır. Şah Kalbalı xandan rus zabitləri ilə yazışmalarını tələb edir – bu, ruslarla onun arasında sövdələşmə olduğunu təsdiq edə bilərdi – və aldığı cavabdan məmnun olmadığı üçün Naxçıvanın xanının gözlərini çıxartdırır, onu xanlığın idarəçiliyindən məhrum edir, böyük oğlu Nəzərəli xanı amanat kimi İrana göndərir. Çox güman ki, bu qəddar hadisə 1797-ci ilin aprel, ya da may ayında baş verib. Elə həmin ilin iyununda isə tiran özü Şuşada öz xidmətçisinin xəncəri ilə qətlə yetirilib.

Ağa Məhəmməd şah Naxçıvan xanına ağır xəsarət yetirərək, onu aktiv fəaliyyətdən nə qədər uzaqlaşdırmağa çalışsa da, Kalbalı xan çox əhəmiyyətli bir şəxsiyyət idi və o cür də qalırdı. O, getdikcə bütün Cənubi Qafqaz və Yaxın Şərq regionunda daha nüfuzlu siyasi fiqura və görkəmli sərkərdəyə çevrilirdi. Yeni və nisbətən az qaniçən Fətəli şah kor Kalbalı xanın dövlətçilik, təşkilatçılıq və sərkərdəlik qabiliyyətinə yaxşı bələd olduğu üçün Naxçıvan xanlığının idarəçiliyini üç dəfə ona qaytaracaq və hətta ona öz sədaqət andını göndərəcəkdi.

Yüksək rütbəli rus zabitləri arasında heç kəs sərt və barışmaz general A.P.Yermolov qədər kor Kalbalı xanın öz xalqının təhlükəsizliyi və rifahı yolunda göstərdiyi xidmətləri, onun şəxsiyyətinin böyüklüyünü layiqincə qiymətləndir-

məyib. Tərifləmək, xüsusən də iltifat göstərməkdə son dərəcə xəsis olan general Yermolov bu əməkdar əsgərə çox şəfqətlə yanmışdır. Rusiyanın İranda Fövqəladə Səfiri təyin olunan general Yermolov 1817-ci ildə Naxçıvandan keçərkən Kalbalı xanla üç dəfə görüşüb. Bu görüşlərin birində Kalbalı xan ona Ağa Məhəmməd xanın bayrağı altında iştirak etdiyi hərbi yürüşlər barədə danışıb. Bu da səfirliyinin gündəliyində öz əksini tapıb:

> "Kalbalı xanla bizim pristav, Əsgər xan bizə Ağa Məhəmməd xanın ordusunda öz yürüşlərindən danışdılar."
>
> *(РГАДА, f. 1406, q. 346, v. 14)*

General A.P.Yermolovun səfirliyi sonrakı nəsillərə öz xatirələrini qoyub getmişdir, biz də oçerklərin birində onları minnətdarlıqla oxuculara təqdim edəcəyik.

Tarix kor Kalbalı xanın obrazını bizim üçün xeyirxah hakim, bacarıqlı psixoloq və ağıllı təsərrüfatçı kimi qoruyub saxlamışdır. Onun xüsusən də idarəçilik sahəsindəki aşağıdakı qərarları bu qənaətə gəlməyə imkan verir. Naxçıvanın qədim duz mədənlərində hasilatla bir qayda olaraq yaxınlıqdakı Cəhri kəndinin sakinləri məşğul olurdular. Görülən işin haqqı kimi onlara çıxarılan duzun satışından alınan gəlirin üçdə biri verilirdi; bu zaman fəhlələrin öz alətləri olmalı, işin üçdə birini öz barıtları hesabına görməli idilər. 1816-cı ilin sonlarında xanlığın başına qayıdan Kalbalı xan ləzgilərlə döyüşdə göstərdikləri igidliyə görə Şıxmahmud kəndinin sakinlərini müstəsna duz çıxarmaq hüququ ilə mükafatlandırdı; eyni zamanda o, hasilatçılara ödənilən əmək haqqında dəyişiklik etdi: onlara satılan duzdan alınan gəlirin yalnız dördə birini verdi, amma artıq fəhlələrdən barıt almaq tələb olunmurdu, bunu onlara tələbata görə Kalbalı xan özü verirdi. Beləliklə, Şıxmahmud kəndinin sakinləri Naxçıvan diyarının müdafiəsi zamanı göstərdikləri igidliyə görə daimi əmək

haqqı ilə mükafatlandırıldılar və onlar Cəhri kəndinin sakinləri ilə müqayisədə daha çox haqq alırdılar. *(AKAK, c. 7, s. 92)*

Kalbalı xan Naxçıvanskinin sağlığında imperiya hakimiyyətinin Qafqazda bir-birini əvəz edən dörd canişini olmuşdur. Bu canişinlərin hər biri Kalbalı xanın şəxsiyyətini fərqli qiymətləndirmiş, onun haqqında saraya və İmperator Həzrətləri Ümumrusiya Hökmdarına öz bildiyi kimi məlumat vermişdir.

Rusiyanın səlahiyyətli naziri – Gürcüstan hakimi P.İ.Kovalenski 1800-cü il avqustun 3-də Peterburqa göndərdiyi Qeydində məlumat verirdi:

> "Məhəmməd xan İrəvanlının yanında Kalbalı xan deyilən bir adam var, o, keçmişdə Naxçıvan hakimi olub və Ağa Məhəmməd xan Gürcüstana yürüşü zamanı onu öz yerindən və gözlərindən məhrum edib. Həmin xan öz təşəbbüskarlığı, igidliyi və təmtəraqlı nitqi ilə məşhurdur, məğrur, kinli və hiyləgər adamdır; qohumu Məhəmməd xanın insansevərliyi sayəsində onun yanında özünə sığınacaq taparaq, bir çox işlərə qarışır və öz məsləhətləri ilə ona güclü təsir göstərir. Həmin kor, Məhəmməd xanın icazəsi olmadan (...) İrəvan qoşunlarına başçılıq edib"
>
> *(AKAK, c. 1, s. 119)*

.

Dəlilik dərəcəsinə qədər müvazinətsiz bir adam olan knyaz Sisianov Kalbalı xanın adı gələndə az qalırdı başını yolsun, Rusiya sarayını və xanları xəbərdar edirdi ki, onun hiyləgərliyindən qorxsunlar. Kor Kalbalı xan xırda və müstəqil Naxçıvan xanlığının çevrəsindəki iri dövlətlərin başçıları və sərkərdələri də daxil olmaqla insanları bir çox gözlülərdən daha yaxşı duyur və qiymətləndirirdi.

Böyük şəxsiyyətlər, bir qayda olaraq, bir mənalı şərh doğurmur, lakin Kalbalı xanın böyüklüyü həmişə dəyişilməz qalmışdır.

Nüfuzlu Kalbalı xan Rusiyaya lazım idi, bəlkə də Rusiya Kalbalı xana lazım olduğundan daha çox. Onun saray

çəkişmələri və ölkə daxilindəki silahlı münaqişələr ucbatından İran hakimiyyətinin qüsurlu olduğuna heç bir şübhəsi yox idi. Rusiya üsul-idarəsinin Naxçıvan xanlığının maraqlarına cavab verdiyinə əmin olan Kalbalı xan Rusiyaya münasibətdə həmişə mehriban qonşuluq mövqeyində olmuşdur. Naxçıvanın xoşbəxt gələcəyini Rusiyanın tərkibində olmaqda görürdü, ancaq Rusiyanın hakim dairələrinin onların himayədarlığını qəbul etmək barədəki çağırışlarına cavab verməyə tələsmir, Naxçıvan xanlığını Rusiyanın vaxtından əvvəl ola biləcək təsiri və hücumundan qorumağa çalışırdı.

Kor Kalbalı xan çoxminli süvari ordusunu məharətlə döyüşə aparırdı. O, heç bir vəchlə pozmaq niyyətində olmadığı Rusiya sərhədlərinə yaxınlaşanda rus qoşunları dərhal döyüşə hazır vəziyyətə gətirilirdi.

Xanlığın bütövlüyünü və müstəqilliyini mühafizə edərək, Kalbalı xan hər vasitə ilə onu istənilən müdaxilədən, o cümlədən rus müdaxiləsindən qoruyurdu. İmperator Həzrətlərinə içdikləri sədaqət andı əvəzində yüksək rütbəli rus zabitləri qonşu hakimlərə, onların regionda törətdikləri cinayətlərə – dağıntılara, qətllərə, yollarda insanlara və özgə karvanlarına hücumlara göz yumaraq və yaxud bağışlayaraq hərbi və pul yardımı göstərdikləri vaxtlarda Kalbalı xan bu cür xanlıqlarla və onların rus himayədarları ilə münasibətləri mürəkkəbləşdirməkdən çəkinməmişdir. Rusiya vassallarının regionda cinayətkar əməllərini əngəlləmək üçün o, silah gücündən də istifadə etmişdir. Qeyri-bərabər döyüşlərdə Kalbalı xan heç də həmişə qalib gəlməmişdir, ancaq məğlub olsa belə öz prinsiplərindən dönməmişdir.

Kiçik bir xanlığı idarə edən Kalbalı xan çoxsaylı ordu saxlamaq imkanına malik deyildi, ancaq qonşu ərazilərin xanları onun sərkərdəlik istedadına güvənərək, öz qoşunlarını tez-tez onun ixtiyarına verirdilər. Kor Naxçıvan xanı, atası çar II İrakli tərəfindən ədalətsiz şəkildə varislikdən məhrum edilən gürcü şahzadəsi Aleksandr İrakliyeviçi uzun illər

himayə etmişdir, şahzadə Aleksandr isə öz maraqlarını müdafiə etməyə çalışarkən qoşunlarına rəhbərliyi dəfələrlə Kalbalı xana etibar etmişdir.

Cənubi Qafqazda və Yaxın Şərqdə Kalbalı xan öz təmizliyi, alicənablığı və dar məqamda qonşulara kömək göstərməyə hazır olmağı ilə şöhrət qazanmışdır. Bu regionda ondan məşhur, hörmətli və müstəqil xan olmamışdır. Yeri gəlmişkən, kor Naxçıvan xanının nüfuzuna və təsir gücünə yaxşı bələd olan Qafqaz canişinləri – o cümlədən Sisianovun özü də – dəfələrlə onun dəstəyinə ehtiyac duymuş, lazım gələndə, hətta kömək üçün ona müraciət də etmişlər. Məsələn, kor-koranə şəkildə zəngin ermənilərin maraqlarını müdafiə edən rus hakimiyyəti xandan Eçmiədzin taxtına, guya orada qeyri-qanuni əyləşən patriarx Davidin əvəzinə erməni patriarxı Danilin oturdulmasında köməklik göstərməsini xahiş etmişdir.

> "Ali-cənabınızdan xahiş edirəm ki, – knyaz Sisianov Kalbalı xana yazırdı, – yüksək şərəfli katalikos Danilin tezliklə Ararat patriarxı taxtına çıxarılması üçün (...) bütün səylərinizdən və xahişlərinizdən istifadə edəsiniz (...) Mənə gəlib çatan xəbərlərə görə tamamilə əminəm ki, ali-cənabınız bu işin uğurla və tezliklə yekunlaşması bütün vasitələrinizi işə salmaqdan imtina etməyəcəksiniz və bununla da hər iki ali sarayın iltifatını qazanacaqsınız."
>
> *(AKAK, c. 2, s. 633)*

Adama elə gəlir ki, xristian Eçmiədzini taxtında kimin oturacağının Kalbalı xan üçün nə fərqi var? Axı o, xristian deyildi. Ancaq Allah hamı üçün birdir, buna görə də Kalbalı xan Naxçıvanski ermənilərin dini işlərdə avantüralarına – patriarxların çirkli yolla dəyişdirilməsinə biganə qala bilməzdi. Kalbalı xan möhkəm əqidə sahibi idi və İmperator Həzrətlərinin Qafqazdakı canişininə yarınmaq üçün külək hara əsdi, oraya yellənən flüger kimi hərəkət etmədi. O, patriarx

Davidin qanuni yolla seçildiyinə tamamilə əmin idi və ermənilərin proteksionizmini qəti şəkildə rədd edərək Danili patriarx taxtına yaxın buraxmadı.

Hörmətli müsəlman xanının ermənilərin dini işlərinə müdaxiləsini təsdiqləyən bu fakt müasirlərimizə uydurma kimi görünə bilər, lakin inanılmaz olsa da, XIX əsrin birinci on illiyində həqiqətən belə bir hadisə baş verib və Rusiya, İran və Türkiyənin siyasi həyatında çox böyük hay-küyə səbəb olub.

Kalbalı xan nə qədər arzusunda olsa da, Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsini görə bilmədi. Azsaylı tarixi sənədlərdə təsdiq olunduğu kimi, o, 1823-cü ildə Məkkədən Naxçıvana qayıdarkən Təbrizdə qəflətən vəfat edib. Sənədlərdə onun ölümünün təfərrüatları haqda heç nə deyilmir. Kalbalı xanın qədim Naxçıvanın ərazi bütövlüyünün və ölkədə əmin-amanlığın qorunub saxlanılmasına yönələn nəcib səylərini ölümündən sonra xanın övladları davam etdirmişdir. Əfsanəvi Kalbalı xan Naxçıvanskinin təkcə övladlarının deyil, həmçinin o, yuvadan çıxmış sonrakı nəsillərin qəlbi və xarakterlərində hələ yeniyetmə çağlarından yüksək mənəviyyat, nümunəvi ailə dayaqları, vətənpərvərlik və müqəddəs "şərəf" anlayışının möhkəm təməli qoyulmuşdur.

Kalbalı xanın törəmələrinin dörd nəsli öz böyük əcdadlarının yaxşı adını qoruyub saxlamış və bir-birlərinə – atadan oğula ötürmüşlər. Bu dörd nəsil Rusiya İmperiyasına sədaqət və ləyaqətlə xidmət etmişdir. Onlar dünyaya altı cəsur və əməkdar general bəxş etmişlər. Dünya birliyinin ictimai praktikasında buna bənzər bir şey tapmaq olarmı?

Naxçıvan xanlarının **ikinci nəslinin** ən parlaq nümayəndəsi Kalbalı xanın ortancıl oğlu **Ehsan xan Naxçıvanski** olmuşdur. Öz qəhrəmanlıqları ilə o, Rusiya – İran müharibəsinin tez bir zamanda başa çatmasına və 1828-ci il fevralın 14-də Rusiyanın xeyrinə olan Türkmənçay sülh müqaviləsinin bağlanmasına yardım etmişdir. Atası əfsanəvi Kalbalı xanın

vəsiyyətlərini yerinə yetirdiyini təsdiqləyən çoxsaylı dəlillərdən yalnız birini xatırladaq:

“QRAF PASKEVİÇİN 19 MAY 1831-Cİ İL TARİXLİ ACİZANƏ RAPORTU

1827-ci ildə İranlılarla müharibənin lap əvvəlində Naxçıvan naibi polkovnik Ehsan xan Rusiyaya bağlı olduğunu göstərmişdir (...) Abbas-abad qalasında sərbazların Naxçıvan batalyonuna komandirlik edərkən, o, həmin qarnizonun qalan hissələrinə qarşı üsyan qaldırmış və bununla da qeyd edilən qalanın bizim qoşunlara təhvil verilməsinə xeyli kömək etmişdir. Sonra isə xalq arasındakı nüfuzu vasitəsilə o diyarda sakitliyin və dincliyin qorunub saxlanmasına xeyli yardımçı olmuşdur.”

(AKAK c. 7, s. 502)

General-feldmarşal qraf İ.F.Paskeviç mərhum Kalbalı xan Naxçıvanskinin övladlarının mənəvi və döyüş keyfiyyətlərini yüksək qiymətləndirir. Rus qoşunlarının Naxçıvan xanlığı ərazisindəki qələbələrini onların xidməti hesab edir. Qraf Paskeviçə görə onlar özlərini İran şahının düşməni elan etmişdilər və qəti şəkildə xalqın şüuruna Rusiyanın xeyrinə təsir göstərirdilər.

Naxçıvan xanlığının Rusiya İmperiyasına birləşdirilməsindən sonra Ehsan xan uzun müddət Naxçıvan xanlığını idarə etmiş və Rusiya qoşunlarının Qafqazdakı baş komandanı general-feldmarşal qraf İ.F.Paskeviç-İrəvanski onunla mehriban münasibətdə olmuşdur. Ümumrusiya hökmdarı imperator I Nikolay Ehsan xanı şəxsən tanıyır və qiymətləndirirdi.

Rusiyanın Qafqazdakı yeni əraziləri ilə tanışlıq zamanı imperator 1837-ci il oktyabrın 5-də Qafqaz hərbi dairəsinin tərkibində polkovnik Ehsan xanın komandanlığı altında təzəcə təşkil olunmuş Kəngərli polkuna baxış keçirmişdir. Baxışdan məmnun qalan imperator Nikolay Pavloviç elə sabahı

günün səhəri yüksək əmr imzalamışdır. Onun mətnin əsli belədir:

"Əlahəzrət İmperator İrəvan diyarında olarkən 1837-ci il oktyabrın 6-da aşağıdakı əmri vermişdir: müsəlman Kəngərli polkuna baxış zamanı buradakı əla nizam-intizama görə Hökmdar İmperator o polkun komandiri polkovnik Ehsan xana və bütün qərargaha, ober-zabitlərə ən yüksək iltifatını elan edir, kiçik rütbəlilərə isə Əlahəzrət xüsusi pul mükafatı bağışlayır."

("Русский инвалид", 26 oktyabr 1837-ci il, N 268)

Peterburqa qayıtdıqdan sonra imperator polkovnik Ehsan xanın hərbi və dövlətçilik xidmətlərini yüksək qiymətləndirmiş, ona general rütbəsi vermişdir.

"HƏRBİ İDARƏ ÜZRƏ 9 NOYABR 1837-Cİ İL TARİXLİ ALİ ƏMR

"Əlahəzrət İmperator Moskvada olarkən aşağıdakı əmri vermişdir: Əla xidmətinə görə Naxçıvan əyalətinin hakimi Ehsan xanın rütbəsi 1837-ci il oktyabrın 5-dən polkovnikdən general-mayora yüksəldilir."

Hərbi nazir qraf Çernışev imzalamışdır.

("Hərbi rütbələr haqqında Ali Əmrlər", 9 noyabr 1837-ci il)

Maraqlıdır: Ehsan xanın rütbəsi imperator I Nikolayın Müsəlman polkuna ilk dəfə baxış keçirdiyi gündən yüksəldilmişdir.

Beləliklə, Naxçıvan xanlarının birinci nəsli imperator Rusiyasının generaliteti sırasına özünün ilk generalını – Ehsan xan Naxçıvanskini daxil etmişdir. Bu da gələcək üçün çox yaxşı bir ənənənin gözəl başlanğıcı idi. Naxçıvan xanları sülaləsinin ilk generalı heç də sonuncu olmamışdır. İrəlidə bu sülalədən hələ beş general çıxacaqdı.

Ehsan xanın nüfuzu imperiyanın hakimiyyət dairələrinin gözündə durmadan artmaqda davam edirdi və 1842-ci il dekabrın 30-da Rusiya imperatoru onun haqqında daha bir ali əmr verməyi rəva görmüşdür:

"Kəngərli süvarilərinin hərbi yürüş rəisi general-mayor Ehsan xan Cənubi Qafqaz qoşunlarının hərbi yürüş Atamanı təyin edilsin."

(Полное собрание законов Российкой империи за 1843 год.
Cild XVII, SPb. 1844, səh. 40- 41)

Rusiyanın təbəəsinə çevrilən general-mayor Ehsan xan Naxçıvanski böyük sayğı və ehtiram içərisində yaşamış və 1847-ci ilin iyulunda vəfat etmişdir. Ancaq Ehsan xanın mahnısı hələ oxunub qurtarmamışdı, zira, hərbi rəşadətlərdən əlavə Ehsan xanın ailəsi gələcək nəsillərə daha bir zəngin miras – poeziya hədiyyə etmişdi.

Ehsan xanın övladlarından biri anadangəlmə, Allahı vergisi deyilən poetik istedada malik gözəl-göyçək Qönçə bəyim Naxçıvanlı idi. Atası kimi Qönçə bəyim də pərəstiş etdiyi rus dilini gözəl bilirdi; eyni zamanda o, fars dillərini də yaxşı bilir, Şərq poeziyası sahəsində dərin biliyə malik idi. Qönçə bəyimin istedadını general Ehsan xanın evini ziyarət edən diplomat və şair A.S.Qriboyedov yüksək qiymətləndirmişdir. "Qafqaz Lermontovu", məşhur gürcü şairi Nikolas Barataşvili Qönçə bəyim haqqında böyük heyranlıqla yazmışdır. Tezliklə Qönçə bəyimin parlaq istedadına Naxçıvan darlıq etmiş, o bu diyarın hüdudlarını aşaraq Qafqazın, daha sonra isə bütün çoxmillətli Rusiyanın malına çevrilmişdir. Heç bir şişirtməyə yol vermədən Qönçə bəyim haqqında belə demək olar: *"O artıq şairə deyil, poeziyanın özüdür"* .

Öz hərbi şücaətləri ilə şöhrət tapan Naxçıvan xanları sülaləsində Qönçə bəyimə qədər poetik istedad nəzərə çarpmamışdı. Qönçə bəyim, sanki, qəflətən, birdən-birə bu sehrli boğçanın ağzını açmış, bu görkəmli sülalənin çoxşaxəli istedada malik olduğunu göstərmişdir. Dünya sakit və dinc olsaydı, Naxçıvan xanları öz mənəvi zənginlikləri sayəsində qılıncı əridib kotan tökə bilərdilər.

Naxçıvan xanlarının üçüncü nəsli öz ata-babalarının

şöhrətinin kölgəsinə sığınıb qalmaq niyyətində deyildi. General-mayor Ehsan xanın iki oğlu – **İsmayıl xan və II Kalbalı xan** onların şan-şöhrətini və mənəvi zənginliyini daha da artıraraq öz adlarını əbədi olaraq Rusiya imperiyası tarixinə və dünyanın qəhrəmanlıq və əsgər şərəfi xəzinəsinə yazmışlar. General Ehsan xan Naxçıvanskinin hərbi və dövlətçilik xidmətlərini minnətdarlıqla xatırlayan Rusiya onun oğlanlarının da igidlik və anda sədaqətlərini layiqincə qiymətləndirmişdir. Onların hər ikisi Rusiya imperiyasının generalları olmuşlar.

İsmayıl xan Naxçıvanski 5 yanvar 1819-cu ildə anadan olmuşdur. Tiflis gimnaziyasını bitirdikdən sonra 1839-cu il mayın 1-də hərbi qulluğa qəbul olunmuş, Qafqaz süvari müsəlman polkunun tərkibinə daxil edilmişdir. Hərbi xidmətdə fərqləndiyinə görə bir neçə dəfə yüksək rütbə ilə mükafatlandırılmış, 1847-ci ildə isə Kəngərli ordusunun rəisi təyin edilmişdir. Atası general-mayor Ehsan xan vəfat etdiyinə görə İsmayıl xan onu bu yüksək vəzifədə əvəz etmişdir:

> "Hökmdar İmperator Ropşe adlı yerin yaxınlığındakı hərbi düşərgədə olarkən 1847-ci il iyulun 31-də yüksək buyruğu ilə bunu rəva bilmişdir: mərhum general-mayor Ehsan xanın böyük oğlu süvari qoşun ştabs-kapitanı İsmayıl xan Kəngərli tayfasının rəisi təyin edilsin"
>
> *"Кафказ", 23 avqust 1847-ci il, N 34)*

1860-cı ildə İsmayıl xan Naxçıvanski polkovnik rütbəsinə yüksəldilmiş, rus-türk müharibəsinin (1877–1878) əvvəlində isə İrəvan qeyri-nizami süvari polkunun komandiri təyin edilmişdir.

Bəyazit qalasındakı qarnizonu gücləndirmək üçün göndərilən polk düşmənin daha iri qüvvələrinin çarpaz atəşi altına düşmüş və demək olar ki, tamamilə məhv edilmiş, dağılmışdır. Polkovnik İsmayıl xan sağ qalmış bir ovuc əsgər və ağır yaralı oğlu Aman xanla birlikdə özünü qalaya zorla çatdıra bilmiş və bundan sonra qala qapıları bağlanmışdır.

Aclıq, susuzluq və qızmar istidən əzab-əziyyət çəkən qarnizon döyüş qabiliyyətini itirmiş və onun komendantı, əvvəllər əməkdar zabit olmuş podpolkovnik Paskeviç təslim olmaq üçün ağ bayraq qaldırmağı əmr edir. Qalanı mühasirəyə alan Türkiyə kürdləri – amansız qisasçı və talançılar dərhal qala qapılarına doğru cumurlar. Mühasirədə qalan qarnizonun bəzi ağciyər əsgərləri ağ bayraq qaldırılmasını müdafiəni dayandırmaq əmri kimi başa düşərək qala qapılarını açmaq üçün irəli atılırlar. Qalanın taleyinin bir an içində həll edildiyi belə bir ekstremal situasiyada müsəlman polkovnik İsmayıl xan Naxçıvanskinin mənəvi və mübariz döyüşçü keyfiyyətləri daha aydın üzə çıxır. Əsgəri borcuna və içdiyi anda sadiq qalan polkovnik İsmayıl xan rütbəsinə görə böyük olduğu üçün əsgərlərə qaldırılan ağ bayrağı cırıb atmalarını əmr edir. Bu hərəkəti haqqında o özü belə danışır.

> "...Birdən artilleriya zabiti püfərək içəri girdi. O, həyəcanlı idi. "Paskeviç ağ bayraq qaldırıb və çox sayda türk qala qapılarına doğru axışır." Bundan sonra mən həyətə qaçdım, orada çoxlu zabit və əsgər toplaşmışdı və gördüm ki, həqiqətən qala bürcünün divarına bərkidilmiş hündür bir şüvülün təpəsində ağ bayraq yellənir və Paskeviç bir neçə zabitlə onun yanında dayanıb. "Cənablar, siz nə edirsiniz?! – deyə qışqırdım. – Bəyəm biz qorxaqcasına təslim olub, həm özümüzü, həm də rus silahını rüsvay etmək üçünmü hərbi and içmişik?! Ayıbdır! Biz damarlarımızda bir damla qanımız qalanadək Çar uğrunda döyüşməli və Bəyaziti müdafiə etməliyik. Kim başqa cür hərəkət etmək fikrinə düşərsə o xaindir və mən o adamın dərhal gülləməyi əmr edəcəm! Rədd olsun ağ bayraq, uşaqlar atəş açın ona!" Buna cavab olaraq oradakıların hamısı gur səslə "ura" deyə qışqırdılar, mən həm də bir neçə "Ölərik, təslim olmarıq" nidası eşitdim."
>
> *("Кафказ", 22 aprel 1895-ci il, N 94)*

Beləliklə, yuxarının təyinatı olmadan, yalnız yaranmış bu qəmli şəraitin tələbi ilə polkovnik İsmayıl xan Naxçıvanski Bəyazit qarnizonuna komandirlik etməyə başladı.

Əlbəttə, öz həyatı üçün çox məsuliyyətli bir anda doqquz övlad atasının düşünə biləcəyi çox şey vardı. Ağ təslim bayrağını cırıb atmaq barədə verdiyi qərar qalanın türklər tərəfindən tutulması halında İsmayıl xana həyatı bahasına başa gələ bilərdi. Onun xatirələrinin davamını izləyək:

> "Əlbəttə, mən belə bir sonluğun mümkünlüyünü inkar etmirdim, eyni zamanda həmişə təkrar edirdim ki, Bəyazitin təhvil verilməsi ilə ona görə heç vaxt razılaşmaram ki, mən müsəlmanam. Belə bir təhvil hətta min cür digər səbəblər doğursa da, onu məhz bu səbəbin ayağıma yazacaqlar."
>
> *("Кафказ", 22 aprel 1895-ci il, N 94)*

Paskeviçin könüllü surətdə ağ bayraq qaldırması onun həyatda qalmasına, çox yox, azacıq da olsa belə, ümid yeri saxlasa da, qalanın türklərin əlinə keçməsi halında İsmayıl xan birinci olaraq hamın gözü önündə dar ağacından asılacaqdı. Burada İsmayıl xanın ata-babalarının Vətənə şərəf və sədaqətlə xidmət etmək barədə öz övladlarına verdikləri öyüdləri xatırlamamaq olmur.

Bəyazitin şanlı müdafiəsi zamanı fərqləndiyinə və göstərdiyi igidliyə görə İsmayıl xana 1877-ci il dekabrın 19-da general-mayor rütbəsi verilmiş və o, ali hərbi ordenlə – IV dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif olunmuşdur. 1890-cı il oktyabrın 28-də isə general-leytenant rütbəsinə yüksəldilmişdir. İsmayıl xan 1898-ci il avqustun 18-də tam süvari generalı rütbəsində, buna müvafiq mundir və pensiya ilə istefaya çıxmışdır. Bu cəsur generalın sinəsini yüksək dərəcəli 10 orden və medal bəzəyirdi.

V.S.Pikulun məşhur "Bəyazit" romanında və sonra eyni adlı televiziya filmində İsmayıl xanın obrazı əsassız olaraq təhrif edilmişdir. O, bu əsərlərdə yalançı, xəyanətə meylli, rus zabiti adını hörmətdən salan, ömrünün sonlarında Məkkəyə getməyi arzulayan bir insan kimi təsvir olunur. RDHTA-nin tarixi sənədləri əsasında bu təhqiramiz yalan bizim tərəfimizdən

2005-ci ildə Moskvada "Vətən Qəhrəmanları" seriyasından nəşr olunan 240 səhifəlik *"Bəyazitin müdafiəsi: həqiqət və yalan"* kitabında aradan qaldırılmışdır.

Hərbi yürüşlərdə keçirdiyi vaxtlar istisna edilməklə, İsmayıl xan, demək olar ki, bütün həyatı boyu heç yana çıxmadan doğma şəhəri Naxçıvanda yaşamış, öz zəngin ruhu və uzun ömür yaşamaqda heç vaxt ona xəyanət etməyən saf ürəyinin yüksək keyfiyyətləri sayəsində, dini mənsubiyyətindən asılı olmayaraq, onu tanıyanların hamısının böyük ehtiramını qazanmışdır.

TELEQRAM:
İRƏVAN QUBERNİYASININ NAXÇIVAN ŞƏHƏRİ,
10 FEVRAL 1909-CU İL

"Bəyazitin müdafiəçisi süvari generalı İsmayıl xan Naxçıvanski bu gün səhər saat 7-də vəfat etmişdir."

("Русский инвалид", 11 fevral 1909-cu il, № 32)

Allah bu fədakar əsgərə, Naxçıvan müsəlmanlarının və Naxçıvan xanları sülaləsinin ən yaxşı nümayəndələrinin birinə rəhmət eləsin! İndi isə Ehsan xanın kiçik oğlu – II Kalbalı xan Naxçıvanskinin şəxsiyyəti haqqında.

Kalbalı xan 1834-cü ildə doğulub. Xidmət dəftərçəsində qeyd olunduğu kimi İrəvan quberniyasının xan sülaləsindən çıxmışdır. Paj korpusunda tərbiyə almışdır. Mayor Əhməd xanının qızı Xurşud-bəyimlə evlənmişdir. Arvadı Məhəmməd dininə sitayiş edirdi. Övladları bunlardır: oğlanlarından Ehsan xanın – 26, Cəfərqulu xanın (Cəmşid Naxçıvanskinin atası) – 23, Rəhim xanın – 22, Hüseyn xanın – 20; qızlarından Zeynəb bəyimin – 31, Bədrikis - bəyimin – 29, Şaycahan bəyimin – 21, Zərintac bəyimin – 16 yaşı var.

1853-cü il oktyabrın 25-də Şərq (Krım) müharibəsi başlayanda Kalbalı xan yenidən təşkil olunmuş üç yüz milisin

rəisi təyin olunmuşdur. Kalbalı xan 1854-cü ildə nüfuzlu ailələrin övladlarından ibarət Bəy drujinası təşkil etmiş və onun rəisi təyin olunmuşdu. Drujinaya komandirlik edərkən qəhrəmanlıq göstərmiş və bu barədə xəbər rus qoşunları arasında ildırım sürətilə yayılmışdı.

> "1855-ci il aprelin 15-də poruçik Kalbalı xan Ehsan xan oğlu Bəy drujinasına komandirlik edərək, düşmən batareyasının hücumu zamanı öldürücü karteç və tüfəng atəşindən qorxub çəkinmədən öz drujinasının başında bir neçə türk artilleriyaçısını öz əli ilə doğramış və döyüşdə bir topu ələ keçirmişdir."
>
> *("Kaфkaз", 14 sentyabr 1855-ci il, N 94)*

15 aprel 1855-ci il tarixli ali çar fərmanı ilə, Hərbi ordenin Süvari dumasının təsdiqnaməsinə əsasən *"türklərlə döyüş zamanı göstərdiyi əla igidlik və cəsurluğa görə İrəvan Bəy drujinasının rəisi Kalbalı xan Ehsan xan oğlu lütfkarlıqla dördüncü dərəcəli Böyük Əzabkeş və Qalib Müqəddəs Georgi Ordeni ilə mükafatlandırılmışdır."* Şərq müharibəsi başa çatdıqdan sonra Georgi ordeni kavaleri Kalbalı xan 1856-cı ilin avqustunda Əlahəzrət imperatorun qvardiya qusar polkuna keçirilmişdir. 8 il sonra polkovnik olmuş, 1874-cü il sentyabrın 14-də isə xidmətdə fərqləndiyinə və anadan olmasının əlli illiyi münasibəti ilə ona general-mayor rütbəsi verilmişdir. Rusiya – Türkiyə müharibəsinin (1877-1878) başlanğıcında Kalbalı xan Ehsan xan oğlu qeyri-nizami süvari briqadasının komandanı təyin olunmuşdur *(РГВИАА, f. 400, q. 20578, v. 138)*.

General Kalbalı xan 1877-ci il iyunun 28-də Bəyazit qalasının azad edilməsinin iştirakçısı olmuşdur. Bu qəhrəmanlıq epopeyası başa çatdıqdan dərhal sonra Kalbalı xan İrəvan qubernyasının kordon rəisi vəzifəsini qardaşı İsmayıl xana vermişdir. Özü isə Ərzurum üzərinə növbəti hücumu həyata keçirəcək ordu qrupunun süvari qoşunlarının rəisi təyin olunmuşdur. Bəyazit

epopeyası keçmişdə qaldı, həyat yeni hadisələr və igidliklərlə təzələndi, lakin 17 dekabr 1877-ci il tarixli ali fərman Kalbalı xanın yaddaşında ötən işləri həmişə yenidən canlandırırdı:

> "Hökmdar İmperator bu ilin aprel, may, iyun aylarında Bəyazitin müdafiə və mühasirədən azad edilməsi zamanı türklərlə döyüşdə göstərdiyi əla igidliyə və cəsurluğa görə həmin il dekabrın 11-də lütfkarlıqla Qafqaz ordusunun general-mayoru Kalbalı xan Ehsan xan oğlunu mükafat olaraq müvafiq qılıncla birlikdə 3-cü dərəcəli Müqəddəs Vladimir Ordeni ilə təltif etmişdir (qeyri-xristianlar üçün işarələr müəyyən olunmuş şəkildə)".
>
> *("Русский инвалид", 18 dekabr 1877-ci il, № 279)*

General-mayor Kalbalı xanın komandir vəzifələrinin uzun siyahısını 2-ci Toplu Süvari diviziyasının komandiri vəzifəsi yekunlaşdırır. Sərt döyüş həyatı Kalbalı xanın səhhətinə mənfi təsir göstərməyə başlamışdı, buna görə də 1880-ci il martında döyüş generalı Qafqaz ordusu baş komandanın sərəncamına verildi. Kalbalı xan öz şanlı həyatının, demək olar ki, 40 ilini fədakarlıqla Rusiya İmperiyasının ordusuna sərf etmiş və 1883-cü ilin aprelində öz xidməti vəzifəsini icra edərkən həyatdan köçmüşdür. Ancaq Kalbalı xan o dünyaya izsiz getməmişdir. Onun xeyirxah əməlləri çox saylı törəmələri vasitəsi ilə yaşamağa və çoxalmağa davam etmişdir. Kalbalı xanın 4 oğlu və 4 qızı qalmışdır.

General-mayor Kalbalı xana kiçik qızı Zərintac-bəyimin toyunu görmək qismət olmamışdır; Zərintac-bəyim Naxçıvan xanları ailəsinin sevimlisi, cəsur əsgər, döyüş generalı, kəşfiyyatçı, rəssam, jurnalist, yazıçı, etnoqraf, coğrafiyaşünas və poliqlot Xunzax avarı Maqsud Əlixanovun həyat yoldaşı olmuşdur. 1907-ci il iyulun 3-də 2-ci Qafqaz diviziyasının komandiri general-leytenant Maqsud Əlixanov İrəvan Quberniyasının Aleksandrapol şəhərində erməni terrorçuları – daşnaklar tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Döyüşdə

deyil, gecə vaxtı, yorğun general faytonda mürgüləyərkən öldürülmüşüdür. Xatırladaq ki, məhz Tiflis, Kutaisi və Potinin general-qubernatoru olan M.Əlixanovun müdrikliyi və fədakar şücaəti sayəsində Gürcüstan 1906-cı ildə Rusiya imperiyasının xəritəsindən silinməmişdir.

Əslində bu gün Mahaçqalada bu məşhur şəxsiyyətə, heç olmasa, büründən heykəl qoyulmalı, bu şəhərin əsas küçəsi onun şanlı adını daşımalı idi, lakin başı yerli çəkişmələrə qarışan, qruplar arasında dava-dalaş epidemiyasına yoluxmuş indiki Dağıstan öz keçmişini və əfsanəvi qəhrəmanlarını ayaq altına atmışdır. Dağıstan Azərbaycanın lap yaxınlığındadır, gərək onun rəhbərləri öz xalqının keçmişini bərpa etmək, qəhrəmanlarının xatirəsini əziz tutmaq, bu sahədə lazımi təcrübə toplamaq üçün, Məkkə kimi, Azərbaycana piyada getsinlər.

Rus silahının başlıca şərəf məbədi olan Böyük Kreml sarayının Georgi zalının divarlarındakı 1855 və 1877-ci illərə aid mərmər lövhələrdə Müqəddəs Georgi ordeni kavalerləri – həm doğma, həm də silah qardaşları olan Kalbalı xan və İsmayıl xan Naxçıvanskilərin adları parlayır. 1885-ci ilə aid bir mərmər lövhədə isə onların qohumu, sevimliləri və həmfikirləri Maqsud Əlixanovun adı həkk olunmuşdur. Qızılla yazılan adlar solmur. Qızıl əbədi bir şeydir.

Kalbalı xan Naxçıvanski nəslinin sonrakı nümayəndələrinin hamısı öz əcdadlarının vəsiyyətini yerinə yetirərək Rusiyanın yüksək rütbəli əməkdar zabitləri və qəhrəmanları olmuş, onların ən kiçiyi Hüseyn xan isə Rusiya imperiyasının hərb Olimpində ən yüksək zirvəyə qalxmışdır.

Bu şanlı sülalənin dördüncü generalı **Hüseyn xan Naxçıvanski** Naxçıvan xanlarının ***dördüncü nəslinin*** parlaq nümayəndəsi, Rusiya imperiyasının taxt-taca və Vətənə şərəf və sədaqətlə qulluq edən sonuncu cəngavəridir.

Paj korpusunu bitirəndən sonra Hüseyn xan ömrünün 20 ilini imperiyanın başlıca polku olan Əlahəzrət leyb-qvardiya

süvari polkunda keçirmiş, burada kornetdən polkovnik rütbəsinədək yüksəlmişdir. Rus-yapon müharibəsi başlayanda şəxsən özünün Dağıstanda təşkil etdiyi 2-ci Dağıstan süvari polkuna komandirlik etmişdir. İgid dağıstanlılar düşmənin arxa cəbhəsinə çoxsaylı zərbələr endirmiş və döyüş meydanlarında qələbələr qazanmışlar. Məlum olduğu kimi, Rusiya bu müharibədə Yaponiyaya uduzmuşdur, lakin polkovnik Hüseyn xan Naxçıvanskinin dağıstanlıları bu müharibədən şərəfli şəkildə qalib çıxmışlar. Müharibədən sonra Hüseyn xan Rus ordusunun ən qədim və ən şöhrətli polklarına – Qafqazda Nijqorod draqun, Sankt-Peterburqda isə Leyb-qvardiya süvari polklarına komandirlik etmişdir. Böyük müharibənin ilk günlərində Hüseyn xan döyüşən ordunun ön xəttində olmuş, 2-ci Süvari diviziyasının komandiri vəzifəsini tutmuşdur. Düşmən üzərinə sarsıdıcı və karıxdırıcı hücumlar etməklə qazandığı qələbələrə görə Vəhşi diviziya adlanan Əfsanəvi Qafqaz yerli süvari diviziyası general Hüseyn xanın komandirlik etdiyi 2-ci Süvari diviziyasının nəzdində təşkil olunmuşdu. Yalnız Vəhşi diviziyanın təşkili başa çatdıqdan sonra çar II Nikolayın doğma qardaşı, böyük knyaz Mixail Aleksandroviç onun komandiri təyin olunmuş, diviziyanın özü isə Hüseyn xan Naxçıvanskinin komandanlığı altında olan 2-Süvari korpusunun tərkibinə daxil edilmişdir. Hüseyn xan daha sonra Qvardiya süvari korpusuna komandirlik etmişdir. Əsgəri şərəf və taxt-taca sədaqət etalonu olan Hüseyn xan 1917-ci ilin Fevral inqilabını və çar II Nikolayın taxtdan imtina etməsini qəbul etməmişdir. Hüseyn xanın həyat üçün çox təhlükəli olan bu hərəkətini imperator Rusiyasının üç min yarım generalından yalnız biri – onun öz silahdaşı qraf Fedor Keller dəstəkləmişdir. Qabağa qaçaraq, qeyd edək, sonralar hər iki general müxtəlif şəraitlərdə güllələnmişdir.

Müsəlmanlar arasında yeganə olaraq Hüseyn xan Naxçıvanski nümunəvi xidmətinə görə ən yüksək və ən fəxri rütbə – İmperator Əlahəzrətlərinin general-adyutantı rütbəsi

ilə təltif olunmuşdur. Hüseyn xan Naxçıvanski 20 yüksək mükafat kavaleridir; bu mükafatların arasında 3-cü və 4-cü dərəcəli Müqəddəs Georgi ordenləri də daxil olmaqla 11 orden, "İgidliyə görə" qızıl Georgi qılıncı, 5 medal və 9 xarici orden var.

Vəhşi diviziyanın məşhur komandiri böyük knyaz Mixail Aleksandroviç, Rasputinin qətlinin iştirakçısı və Rusiya taxt-tacına namizəd böyük knyaz Dmitri Pavloviç, Ağlar hərəkatının gələcək liderləri – generallar P.N.Vrangel, A.İ.Denikin və A.M.Kaledin, Ukraynanın gələcək getmanı general P.P.Skoropadski, gələcək feldmarşal və Finladiyanın prezidenti general K.K.Mannergeym kimi tarixi şəxsiyyətlər müxtəlif vaxtlarda bir komandir kimi Hüseyn xanın tabeliyində olmuşlar.

Yeri gəlmişkən, general Hüseyn xan Naxçıvanski 1915-ci ildə Xüsusi qvardiya süvari briqadasının komandiri general-mayor Karl Mannerqeymi rüsvayçılıqdan, bəlkə də rütbəsinin aşağı salınmasından xilas etmişdir. Bir komandir kimi Qvardiya briqadasında yol verdiyi səhvlərə və əsassız qurbanlara görə Mannergeymi zabit şərəfi məhkəməsində mühakimə olunmaq təhlükəsi gözləyirdi. Həm karyerası, həm də gələcək taleyi üçün çox təhlükəli olan bu situasiyada general-mayor Mannergeym əməkdar, müdrik və xeyirxah Hüseyn xanın tabeliyinə verilir. Burada isti münasibət və qayğı ilə əhatə edilən incik və üzgün generala öz sərkərdəlik qabiliyyətlərini nümayiş etdirmək üçün hər cür şərait yaradılır. O vaxt general Mannergeymin qarşısına Hüseyn xan Naxçıvanski çıxmasaydı, bəlkə də o, gələcəkdə Finlandiyanın prezidenti ola bilməyəcəkdi.

Hüseyn xan Naxçıvanskinin öz taleyi isə çox faciəvi sonluqla başa çatır. Ali baş komandan general L.Q.Kornilovun əmri ilə Hüseyn xan Naxçıvanski Petroqrada, buradakı hərbi dairənin sərəncamına göndərilir. Bu təyinatın motivi indiyə qədər açılmamış qalır, onun sirrini, əvvəlcə ordudan xaric edilən, sonra

isə həlak olan Kornilov özü ilə qəbirə aparmışdır. Ancaq bu təyinatın xüsusi xarakteri vardı və hərbi tarixçilər hələ onun böyük tarixi əhəmiyyətini dərk edə bilməmişlər. General Kornilov bolşevikləri hakimiyyətə buraxmaq niyyətində olmadığına görə, anlamaq çətin deyil ki, bolşeviklərin, necə deyərlər, iyul məşqindən sonra Hüseyn xan kimi öz andına sadiq və cəsur bir general elə həmin ay Petroqrada məhz bolşeviklərin Qış sarayına hücumunun önləmək məqsədilə müəyyən olunmuş vaxtda onların qarşısında silahlı sədd yaratmaq üçün göndərilib. Bu işarə xarakterli təyinat məqsədinə çatmayıb. General Kornilov rüsvay olunaraq, ali komandanlıqdan uzaqlaşdırılıb və bütün vəzifələrdən məhrum edilib. Petroqradda bolşeviklər hakimiyyətə gəldikdən sonra Rusiya imperiyasına sadiq olan general Hüseyn xan burada müdafiəsiz qalır. 1918-ci ilin mayında o, Petroqradda hansısa xırda bir səbəbdən çekistlər tərəfindən həbs edilir, ancaq 1918-ci il avqustun 30-da Petroqradın baş çekisti Moisey Uritskinin qətlə yetirilməsindən sonra bolşeviklər "qırmızı terror" elan edir və "Krasnaya qazeta"nın 1918-ci il 6 sentyabr tarixli 180-ci nömrəsində girovlar arasında Hüseyn xanın da adı xatırlanır: "**Süvari korpusunun sabiq komandiri – Hüseyn xan Naxçıvanski**". Heç bir şübhə yoxdur ki, Hüseyn xan Naxçıvanski 1919-cu ilin yanvarında Petropavlovsk qalasında böyük knyazlarla bir yerdə güllələnmişdir, ancaq böyük knyazların güllələnməsi faktı təsdiq olunsa da, Hüseyn xan Naxçıvanskinin güllələnməsi indiyəcən öz təsdiqini tapmamışdır. Çox güman ki, bolşeviklər general-adyutant Hüseyn xan Naxçıvanski kimi iri bir fiqurun adının güllələnənlər sırasında göstərməyə cəsarət etməmişlər və arxiv üçün onun güllələnməsi haqda vaxtında arayış hazırlamamışlar. Onun haçan və necə güllənməsi faktının sənədli təsdiqini biz hər halda səlahiyyətli orqanlardan alacağımıza ümid edirik. Gözləyir və buna inanırıq!

Ümumdünya rus kilsəsi özünün Rusiya Prezidenti Dimitri Medvedyevə 8 avqust 2008-ci il tarixli müraciətində Hüseyn xan Naxçıvanskini *"gözəl sərkərdə"* və "*Azərbaycanın*

Naxçıvan xanları nəslinin ən parlaq nümayəndəsi" adlandırmışdır. Məktub müəllifləri xatırlatmışlar ki, çar taxt-tacdan imtinaya məcbur ediləndə Hüseyn xan öz hökmdarını satmamış, *"öz sevimli çarı üçün ölməyə hazır olduğunu"* bildirmişdir. Kilsə general-adyutant Hüseyn xan Naxçıvanskinin xatirəsini əbədiləşdirmək üçün Rusiya Prezidentinə Rusiya xəritəsində ona yer tapılmasını, Moskva və Sankt-Peterburqda yeni küçələrə onun adının verilməsini təklif etmişdir.

Naxçıvan xanlarının sonuncu, beşinci nəslini beş doğma qardaş – Ehsan, Davud, III Kalbalı və Cəmşid təmsil edir. Onların hamısı cəsur əsgər, anda və zabit şərəfinə sadiq hərbiçilər olmuşlar. Onlardan yalnız ikisi – Naxçıvan xanları sülaləsinin beşinci və altıncı generalları haqda söhbət açaq.

Əfsanəvi ulu babanın kötücəsi və adaşı olan III Kalbalı xan öz qısa ömrü boyu kor Kalbalı xanın müqəddəs adını şərəflə daşımışdır. Qanlı dünya müharibəsinin ilk günlərindən başlayaraq o, Əlahəzrət Leyb-qvardiya ulan polkunun tərkibində qəhrəmancasına döyüşmüşdür. 25 yaşı təzəcə tamam olanda artıq onun sinəsini yeddi döyüş mükafatı bəzəyirdi, yaralanmışdı və növbəti qəhrəmanlığına görə Hərbi idarənin 2 may 1915-ci il tarixli ali əmri ilə "İgidliyə görə" Georgi silahı ilə mükafatlandırılmışdı.

Rusiya imperiyasının süqutundan sonrakı qarışıqlıq dövründə, Qafqazda ilk və gənc Azərbaycan Xalq Cümhuriyyəti daşnak Ermənistanın və sovetlərin Naxçıvanın müstəqilliyinə və ərazi bütövlüyünə xaincəsinə qəsd etmək təhlükəsi üzləşəndə rotmistr Kalbalı xan Naxçıvanski öz əcdadlarının çağırışına hay verərək, ana torpağını qorumaq üçün ailə ocağına qayıtdı. Qədim Naxçıvan torpağı növbəti dəfə xarabazara çevrilmək təhlükəsi ilə üz-üzə qalanda onun ərazisində Türk-Araz Respublikası təşkil olundu, bu respublikanın ali orqanına Kalbalı xanın atası Cəfərqulu xan rəhbərlik edirdi. Cəfərqulu xan dəfələrlə Naxçıvan şəhərinin ağsaqqalı seçilmiş və İrəvan Quberniyasının fəxri barışdırıcı məhkəmə hakimi olmuşdu. Vətənə qayıtdıqdan

sonra III Kalbalı xan Türk-Araz Respublikasının sərhədlərini daşnaklardan və Qırmızı ordu qoşunlarından qorumaq üçün döyüş drujinası yaratdı. Bir müddət sonra qüvvələrin bərabər olmadığı anlaşılanda drujina buraxıldı, Kalbalı xanın özü 1920-ci ilin yayında doğma Naxçıvanı həmişəlik tərk edərək, İrana köçdü, burada orduda xidmətə qəbul olundu. Naxçıvan xanları sülaləsinin İranda general-mayor rütbəsinədək yüksələn, diviziya komandiri olan bu beşinci generalı təxminən 1931-ci ilin aprelində kürd qiyamını yatırarkən qəhrəmancasına həlak olmuşdur.

Azərbaycanın əfsanəvi Naxçıvan xanları sülaləsinin sonuncu – altıncı şanlı generalı Cəmşid xanın taleyi daha faciəvi olmuşdur.

1895-ci ilin avqustunda Naxçıvanda doğulan, zadəgan nəslindən çıxan, körpə vaxtından Vətənə məhəbbət ruhunda tərbiyə alan Cəmşid xan Naxçıvanski (sonralar Cəmşid Cəfəroviç Naxçıvanski) da öz ata-babalarının yolu ilə getmişdir. Dünya müharibəsi, iki inqilab burulğanından keçən, 6 döyüş ordeni və "İgidliyə görə" Georgi silahı ilə təltif olunan, üç dəfə yaralanan Cəmşid xan Naxçıvanski öz əmisi general Hüseyn xan Naxçıvanskinin komandanlığı altında olan məşhur Vəhşi diviziyada xidmət etmiş, sonra, AXC dövründə 2-ci Qarabağ süvari polkunun komandiri olmuşdur. Öz valideynlərindən fərqli olaraq, sovet hakimiyyətini könüllü qəbul etmiş, tam komplektləşdirilmiş polku şəxsi heyət və silah-sürsatla birlikdə sovet komandanlığına təhvil vermişdir. Polkovnik-leytenant Cəmşid Naxçıvanski təşəkkür almaq əvəzinə 1920-ci ilin iyununda polkun komandiri vəzifəsindən kənarlaşdırılmış, həbs olunmuş və Nargin adasına göndərilmişdir. Həbs olunanlar o vaxtlar Nargini yalnız ölü halda tərk edirdilər, ancaq ittihamnaməsiz həbs edilən Cəmşid Naxçıvanski 1920-ci ilin avqustunda Allahın iradəsi ilə sağ-salamat həbsdən azad olunmuşdur. Bu təhqiredici həbs hadisəsinə baxmayaraq, Cəmşid Naxçıvanski sovet hakimiyyətinə qarşı kin saxlamamış, ona sədaqətlə xidmət etmiş, insanlara sevgi ilə yanaşmış, öz böyük sərkərdəlik istedadını bu yolda sərf

etmişdir. C.C.Naxçıvanskinin rəhbərlik etdiyi Azərbaycan diviziyası doqquz il ərzində Azərbaycan SSR-in başlıca və döyüş baxımından ən qabiliyyətli ordusu olmuş, Fəhlə-Kəndli Qırmızı Ordusunun (FKQO-un) öncüllərindən sayılmışdır. Xalq komissarı M.V.Frunze şəxsən ona yüksək qiymət vermişdir. Diviziya komandiri Naxçıvanski Azərbaycanda və Cənubi Qafqazda yüksək hərbi və dövlət vəzifələri tutmuşdur. O, Bakı qarnizonunun rəisi, Azərbaycan Respublikasının ərazi qoşunlarının komandanı, Bakı rayonunun Hava Hücumundan Müdafiə qüvvələrinin rəisi təyin edilmiş, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin (MİK), Zaqafqaziya MİK-nin və s. deputatı seçilmişdir. Lakin SSRİ-nin əməkdar sərkərdəsi Naxçıvanskiyə 1931-ci ildə gizlin və əsassız şəkildə böhtan ataraq, onu ikinci dəfə həbs etmiş, bütün vəzifələrini əlindən almış, FKQO sıralarından uzaqlaşdırmışlar. İstintaqdan sonra isə güllələnməyə məhkum etsələr də, hansısa bir möcüzə sayəsində bu hökmü yerinə yetirməyə imkan tapmamışlar. Serqo Orconikidze diviziya komandiri C.C.Naxçıvanskini müdafiə etmiş və onun məsələsinə ÜK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosunda baxılmasına nail olmuşdur. ÜK(b)P MK-nin 1931-ci il noyabrın 5-də Stalinin rəhbərliyi ilə keçirilən Siyasi Bürosunun qərarı ilə C.C.Naxçıvanskini həbsdən azad etdilər, amma hər ehtimala qarşı həmin qərarda bunu da yazdılar: *"...ancaq Zaqafqaziyadan kənarda işləsin."* Bundan sonra diviziya komandiri C.C.Naxçıvanskini Frunze adına Hərbi Akademiyaya oxumağa göndərdilər. 1933-cü ildə oranı birinci dərəcə ilə bitirdikdən sonra briqada komandiri Naxçıvanski ömrünün son beş ilini FKQO üçün yüksək ixtisaslı kadr hazırlanmasına sərf etdi. C.C.Naxçıvanskinin hərbi məktəbindən minlərlə dinləyici keçmiş, onlardan bir neçəsi Böyük Vətən Müharibəsi zamanı SSRİ-nin marşallarına və görkəmli sərkərdələrinə çevrilmişlər (Qreçko, Konev, Batitski, Biryuzov, Dovator, Panfilov, Rodimtsev və b.).

Lakin bolşeviklər sabiq xanı və əməkdar çar zabitini dinc buraxmadılar. Briqada komandiri Cəmşid Naxçıvanski

1938-ci il mayın 20-də böhtan yolu ilə əks-inqilabı fəaliyyətdə günahlandırılaraq üçüncü dəfə həbs olundu. Günahsız briqada komandirinə, demək olar ki, üç ay sərasər ağır işgəncə verərək, onu Azərbaycanı SSRİ-dən ayırmaq məqsədilə Bakıda planlaşdırılan hərbi qiyamın rəhbəri olmaq kimi müdhiş bir ittihamı etiraf etdirməyə çalışdılar. Bundan əlavə, onu həm də beynəlxalq casusluqda ittiham edirdilər. Dözülməz əzab-əziyyətlərə son qoymaq üçün ağır işgəncələrdən və yuxusuzluqdan təngə gələn briqada komandiri Naxçıvanski ona qarşı qaldırılan bütün ittihamları qeyd-şərtsiz qəbul etmiş və məhkəmədə son söz söyləməkdən boyun qaçırmışdır.

Briqada komandiri Naxçıvanskinin işi ilə əlaqədar məhkəmə iclasını keçirmək üçün SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası (AMHK) müttəhimin saxlandığı Lefertovo həbsxanasına yollanmışdır. Görünür, üç aylıq fəal istintaqdan sonra C.C.Naxçıvanski artıq yerimək, bəlkə də danışmaq iqtidarında deyilmiş. Əfsanəvi Naxçıvan xanları sülaləsinin sonuncu – altıncı generalı üzərində məhkəmə cəmi 20 dəqiqəyə yaxın sürmüş və "güllələnsin" hökmü ilə başa çatmışdır.

C.C.Naxçıvanski AMHK-nın 26 avqust 1938-ci il tarixli iclasından dərhal sonra Leferrtovo həbsxanasında güllələnmiş və Moskva yaxınlığındakı "Kommunarka-Loza" adlı obyektdəki – xalq komissarı Yaqodanın keçmiş bağ evindəki qardaşlıq məzarlıqlarından birində yeri göstərilmədən dəfn olunmuşdur. "Kommunarka-Loza"da SSRİ-nin və Azərbaycanın bir çox görkəmli siyasi və hərbi xadimləri – Buxarin, Rıkov, Bünyadzadə, Qarayev, Musabəyov, 11-ci ordunun komandiri Levandovski və b. özlərinə son sığınacaq tapmışlar. Cəmşid Naxçıvanskiyə qarşı irəli sürülən bütün ittihamların yalan və böhtan olduğu yalnız 18 ildən sonra, 1956-cı ildə üzə çıxmışdır. Müttəhim həqiqətən işgəncə altında ifadə vermişdir. Azərbaycan Respublikasının mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsü sayəsində Stalin repressiyasının bu qurbanı təmiz və günahsız halda Azərbaycan xalqına

qaytarılmışdır. İndi Bakıda onun adına hərbi məktəb və küçə var, vətənində – Naxçıvanda isə xatirə muzeyi yaradılmışdır. Məşhur Naxçıvan xanları sülaləsinin sonuncu – altıncı generalı artıq Azərbaycan xalqının əfsanəvi qəhrəmanına çevrilmişdir.

Öz vətəninə hədsiz sədaqət bəsləyən bu cəsur və görkəmli sərkərdənin qısa, amma çox parlaq həyatı beş arxivin materialları əsasında bərpa edilmiş və bizim Moskvada "*Vətən Qəhrəmanları*" *seriyasından 2007-ci ildə nəşr olunan*, 2008 və 2009-cu illərdə isə iki dəfə təkrar buraxılan *832 səhifəlik "Sovetlər İttifaqı adından... Briqada komandiri Naxçıvanskinin həyatı və ölümü" adlı* kitabımızda öz əksini tapmışdır.

Azərbaycanın xanlarını və bəylərini əsassız olaraq xalq düşməni və əks-inqilabçı hesab edən qəddar sovet hakimiyyəti bu əfsanəvi və dünya ictimai praktikasında analoqu olmayan unikal Naxçıvan xanları nəslinin dinamik inkişafını ən parlaq dövründə dayandırmışdır.



Kalbalı xan Naxçıvanski
RF-nın əməkdar rəssamı Əsgər Məmmədov

Şanlı və ölməz Naxçıvan xanları sülaləsinin igid və cəsur qəhrəmanlarının ruhu şad olsun. Bu sülalənin banisi – Naxçıvan xanları nəslinə öz qədim və müstəqil diyarına hədsiz məhəbbət, yüksək mənəviyyat, möhkəm ailə dayaqları, cəngavər cəsurluğu və cəngavər şərəfi aşılamış olan Kalbalı xan Naxçıvanskiyə Allah rəhmət eləsin. Hər şeyə qadir və mərhəmətli Allah özü onun üsyankar ruhunun çox sevdiyi, bir vaxtlar başı çox bəlalar çəkmiş, indi isə çiçəklənməkdə və zənginlikdən ətrafına xoş rahiyələr saçmaqda olan müqəddəs Naxçıvan diyarı üzərində əbədi dolaşmasına kömək etsin.

Bizim sənədli povestimiz bu görkəmli və qəribə şəxsiyyət KALBALI XAN NAXÇIVANSKİ və onun irsi haqqındadır.

SƏNƏ YAXŞI YOL, ƏZİZ OXUCU!

İRAN HÖKMDARI AĞA MƏHƏMMƏD ŞAH KALBALI XAN NAXÇIVANSKİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİRDİ

AĞA MƏHƏMMƏD ŞAH QACARIN TAXTA ÇIXMASI VƏ YÜRÜŞLƏRİ

XVIII əsrin 80-ci illərinin sonlarında bütün Yaxın Şərq, bir qədər sonra isə Rusiya və aparıcı Avropa dövlətləri o vaxtlar hələ aztanınan Ağa Məhəmməd xan* (təxminən 14.03. 1741 – 17.06. 1797) adlı, türk soyundan olan yarımköçəri, cəngavər Qacar tayfası başçısının ildırım sürətilə İran taxt-tacına doğru irəlilədiyini əvvəlcə diqqətlə izləsələr də sonra bundan lərzəyə gəldilər.



Nadir şah Əfşar

Qacarlar həmişə fəal surətdə buna can atsalar da, əvvəllər heç vaxt İranda hakimiyyət zirvəsinə qalxmamışdılar: hakimiyyətdə olan Əfşarlar sülaləsinin nümayəndələri onların yolunu kəsmiş və hər vasitə ilə onlara əngəl olmuşdular. Nadir şah Əfşar† (8. 03. 1738 – 19. 06. 1747)

* Ağa Məhəmməd şahın həyat və fəaliyyətinin təsviri zamanı "Жизнеописание Ага-Магомед-хана…" (S.-P. 1835, 55 səh.) kitabçasından geniş istifadə olunmuşdur

† 1686-cı il oktyabrın 22-də Xorasan vilayətində anadan olmuşdur, İslam dininə, sünni məzhəbinə sitayiş etmişdir. 1747-ci il iyunun 19-da Xorasan vilayətində öldürülmüş, Məşhəddə dəfn edilmişdir

zamanında qacarlar xüsusi qəddarlıqla təqib olunmuş və məhv edilmişdi. Nadir şah qacarların məşhur başçısı Fətəli xanı edam etdirmişdi, yeganə oğlu Məhəmmədhəsən xan onun yerini tutmuş və bütün ömrü boyu daxilən əfşarlara nifrət bəsləmişdi.

1742-ci il (və yaxud 1741-ci il) martın 14-də Astrabadda (1930-cu ildən Gürgan adlanır) qacarların nüfuzlu başçısı Məhəmmədhəsən xanın ailəsində bir oğlan uşağı, İranın gələcək məşhur hökmdarı doğuldu. Onun adını Ağa Məhəmməd xan qoydular.

Nadir şahın qətlindən sonra bir zamanlar nəhəng İran imperiyasında xaos hökm sürürdü. Əfqanlar Qəndaharda müstəqillik elan etmiş, bütün İranı taxt-taca varislik uğrunda daxili çəkişmələr bürümüş və o, parçalanmaq həddinə çatmışdı. Nadir xanın törəmələri yalnız Xorasan ərazisini – onu da güc-bəla ilə – əllərində saxlayırdılar.

Məhəmmədhəsən xan bir müddət Xorasanda, sarayda xidmət etmişdi, Nadir şahın qardaşı oğlu və birbaşa varisi Adil şahın eşikağası olmuşdu, lakin tezliklə onun qəzəbinə gəlmiş, edam ediləcəyindən qorxaraq, qaçıb Türkmənistan çöllərində gizlənmişdi. Öz iqamətgahını Mazandaranda quran Adil şah Məhəmmədhəsən xanın iki kiçik yaşlı oğlunun ona girov verilməsini tələb edir. Onun böyük oğlunu, hələ altı yaşı tamam olmamış Ağa Məhəmməd xanı Adil şahın əmri ilə, gələcəkdə hakimiyyət barədə hətta düşünə bilməsin deyə axtalayırlar. Ətrafdakıların lağ yerinə çevrilən bu fiziki xəsarət (onu üzünə qarşı Axta xan adlandırırdılar) ona ömürlük psixoloji zədə yetirsə də, tarixi şəxsiyyət üçün gərəkli olan istedad və qabiliyyətlərdən məhrum etməmişdi.

Ağa Məhəmməd xan həyatının böyük hissəsini alçaldıcı əsirlik şəraitində keçirmişdir. Həyat ləzzətlərini duymaq imkanından həmişəlik məhrum edildiyindən o, öz ağlını inkişaf etdirmək üçün elmi biliklərə baş vurur. Axtalandığının intiqamını almaq arzusu ilə alışıb yanan və öz fiziki natamamlığını qəlbində

dərin bir yara kimi yaşadan Ağa Məhəmməd xanda hədsiz dərəcədə şöhrətpərəstlik yaranmağa başlayır və tədricən taleyin onu yüksək bir mənsəb üçün doğurduğu fikri şüuruna hakim kəsilir. Tiranın yanında amanatda qalarkən, o daha dəhşətli, daha qəddar tiran olmağa hazırlaşır.

Adil şahın ölümündən sonra Ağa Məhəmməd xan Mazandaran və Gilanın hakimi olan atasının yanına gedib çıxa bilir. Atası ilə birlikdə zəndlərə qarşı yürüşlərdə iştirak edir. Lakin 1760-cı ildə Məhəmmədhəsən xan məğlubiyyətə uğrayır, hakimiyyəti ələ keçirən, keçmişdə Nadir şahın generalı olmuş **Kərim xan Zənd** (hakimiyyət dövrü: 1763–1779) tərəfindən əsir alınaraq, boynu vurulur.



Kərim xan Zənd

1762-ci ildə gənc Ağa Məhəmməd xan qardaşları ilə birlikdə girov kimi Kərim xan Zəndə, onun paytaxtı Şiraza göndərildi. Xorasanı, onun ardınca isə İran Azərbaycanını istila etdikdən sonra Kərim xan 1763-cü ildə İranın tamhüquqlu hökmdarına çevrildi, ancaq "şah" titulunu heç vaxt qəbul etmədi və İranı qalada fəxri əsirlikdə saxladığı III Şah İsmayılın naibi kimi idarə etdi.

Kərim xan İran taxt-tacına çıxdıqdan sonra ölkədə hərc-mərcliyə son qoyuldu, onun 16 il davam edən hakimiyyəti dövründə birləşdirdiyi İran çiçəklənməyə başladı. Kərim xan incəsənətə və poeziyaya himayədarlıq edir, şəhərlərdə tikinti işlərini, xüsusilə də tarixi abidələrin tikilməsini dəstəkləyirdi.

Ağa Məhəmməd xana simpatiyası olan Kərim xan onunla yaxşı davranırdı və hətta onun qohumlarından birini özünə arvad eləmişdi. Ağa Məhəmməd xanın qeyri-adi intellektini qiymətləndirən Kərim xan onun təhsili ilə məşğul olur və çox vaxt ən mühüm dövlət işlərində onunla

məsləhətləşirdi. Bir sözlə, Kərim xan faktiki olaraq, Ağa Məhəmməd xana dövlət idarəçiliyini öyrədirdi. Bununla belə, Ağa Məhəmməd xan atasını qətlə yetirdiyinə görə Kərim xana, eləcə də bütün zənd tayfasına nifrət etməkdə davam edirdi.

Əfsanəyə görə intiqam hissini heç cür boğa bilməyən Ağa Məhəmməd xan bir dəfə xəlvətcə Kərim xanın qəbul zalına girmiş və buradakı bahalı xalçaları bıçaqla kəsib doğrayaraq bundan böyük ləzzət almışdır. (Sonralar, Ağa Məhəmməd xan tamhüquqlu hökmdar olanda bu əməlinə təəssüflənmişdir, çünki bıçaqla doğranmış həmin xalçalar ona qalmışdı.)

Kərim xanı şübhələndirməmək üçün Ağa Məhəmməd xan ona olan nifrətini gizlətmək vərdişinə yiyələnmiş və şahın tam etibarını, pul təminatın, istədiyi yerə hərəkət etmək sərbəstliyini qazanmağa nail olmuşdu. 1779-cu ildə Kərim xanın ölümündən sonra Ağa Məhəmməd xan qardaşı Rzaqulu xan da daxil olmaqla ona sadiq altı nəfərlə Şirazdan qaçmışdır. Qacar tayfasının başçısı kimi tanınaraq uğurla qoşun toplamışdır.



Şirazda Kərim xana qoyulan abidə

1779-cu il Ağa Məhəmməd xanın hakimiyyət zirvələrinə yüksəlişinin başlanğıcı hesab edilir. Hakimiyyətpərəst Qacar öz fəaliyyətinin ilk çağlarında Səfəvilər [*] dövrünün böyük İran imperiyasını bərpa etməyi düşünür və

[*] **Şeyx Səfiəddin İshaq Ərdəbili** (Ərdəbil, 1252–1334) – Şərqdə tanınmış sufi-dərviş ordeni olan Səfəviyyənin banisi və Səfəvilər sülaləsinin ulu babası. Bu ordenin əsasən də İran Azərbaycanında göstərdiyi fəaliyyət sufizmdə, tarixi sənədlərdə orden üzvlərinin baş örtüyünün rənginə görə "qızılbaş" adlanan xüsusi istiqamətin yaranmasına gətirib çıxarmışdır.

özünəməxsus bir qürrə ilə Nadir şahın böyüklüyünü belə kölgədə qoyacağına ümid edirdi.

Həmin ilin fevralında o, Astrabadı ələ keçirdi və qardaşı Murtuzaqulu xanı onun hakimliyindən kənarlaşdırdı. Dekabr ayında, digər iki qardaşının idarə etdiyi qədim Mazandaran vilayəti üzərinə hücuma keçdi. Uzun və qanlı döyüşlər nəticəsində qardaşları öldü və 1780-ci ilin sentyabrında Mazandaran Ağa Məhəmməd xanın hakimiyyəti altına düşdü. Bu zəngin vilayət pambıq parça istehsalına görə töycü ödəməyə məcbur edildi, həmçinin xanın ordusuna altı min əsgər verməli oldu. Elə həmin ay Ağa Məhəmməd xan Gilana yollandı, amma onu dərhal ələ keçirə bilmədi. Uzun sürən döyüşlərdən sonra 1781-ci ilin yazında Ağa Məhəmməd xan Rəşt şəhərini talana verib xarabazara çevirdi, sonra isə bütün Gilanı zəbt etdi. Bu vilayətə ildə iki min pud ipək parça töycü kəsir və qardaşı Murtuzaqulu xanı onun hakimi təyin edir.



Səfəvilərin İran imperiyası

Ağa Məhəmməd xanın qardaşları arasında İranda hakimiyyət uğrunda mübarizə səngimək bilmirdi. Gilan hakimliyi Murtuzaqulunu məmnun etməmişdi. O, qoşun toplayıb özünü İranın şahı elan edərək, Ağa Məhəmməd xanla qanlı döyüşə hazırlaşdı. Digər qardaş, Rzaqulu da, Ağa Məhəmməd xana xəyanət elədi, onu əsir alıb ayaqlarına kündə vurdu və onun gözlərini çıxarmaq, ya da boynunu vurmaq barədə fikirləşdi, lakin digər iki qardaş Cəfərqulu ilə Mustafaqulu öz həmfikirləri ilə birlikdə Ağa Məhəmməd xanı əsirlikdən azad edə bildilər. Ağa Məhəmməd xana Mustafaqulu da xəyanət edəcək, yalnız Cəfərqulu ona axıradək sadiq qalacaq, hər vəchlə onu dəstəkləyəcəkdi. Bütün bunlara baxmayaraq, Ağa Məhəmməd xan İran hakimiyyətinin ən yüksək zirvələrinə doğru inadla irəliləyirdi.

80-ci illərin əvvəlində Ağa Məhəmməd xan artıq iri qoşun başçısı idi və bu qoşun getdikcə daha da böyüyürdü. Ancaq 1781-ci ilin yazında Kərim xan Zəndin qardaşı oğlu **Əlimurad xan** özünü əvvəlcə İranın hakimi, sonra isə şahı (15.031781 – 11.02. 1785) elan etdi və iqamətgahını İsfahanda quraraq, Ağa Məhəmməd xanın başlıca rəqibinə çevrildi.

Elə həmin yaz Ağa Məhəmməd xan Qəzvinə yürüş etdi və iyulda onu ələ keçirdi, ancaq Əlimurad xan oraya qoşun göndərdi və 1781-ci ilin dekabrında Ağa Məhəmməd xanı Qəzvindən qovub çıxardı.

1781-ci il iyulun 30-da guya İranla ticarət əlaqələri təşkil etmək üçün Astrabad körfəzinə Rusiyadan bir eskadra gəldi. Eskadranın komandiri qraf **Marko İvanoviç VOYNOVİÇ** (1750 – 1807) özbaşına, heç bir icazə almadan körfəz sahilində istehkam tikdirdi və 18 topla təchiz edərək, Ağa Məhəmməd xanla danışıqlara başladı. O, Qacarı ticarət məqsədli kənd salmaq üçün körfəz sahilində Rusiyaya kiçik bir ərazi ayrılmasına razı salmağa çalışırdı. Ağa Məhəmməd xan bu təklifdə İranın ərazi bütövlüyünə təhlükə gördüyü üçün qraf Voynoviçi əsir almaq və batareyanı məhv etmək əmri

verdi. Adəti üzrə Ağa Məhəmməd xan hiyləyə əl ataraq 1781-ci il dekabrın 15-də qraf Voynoviçi öz məiyyəti ilə birlikdə hansısa təntənəyə dəvət edib, rus təbəələrini əsir aldı. Qraf Voynoviçin ayaqlarına kündə vuruldu. Ancaq Rusiya ilə arasının pozulmasından çəkinərək və müəyyən mükafat müqabilində 1782-ci il yanvarın sonlarında Ağa Məhəmməd xan onu azad etdi, hətta ruslara istehkam qurmaq üçün yer də ayırdı. Ruslar tezliklə burada istehkam qurmaq fikrindən vaz keçdilər və qraf Voynoviç İran sahillərində Xəzər dənizinin dərinliyini ölçmək və onun təsvirini tərtib etməklə məşğul oldu.

Bu arada Əlimurad xan Zənd hələ də Ağa Məhəmməd xanın fəthlərinə əngəl olmağa çalışırdı, ancaq 1782-ci ilin payızında öz qoşunu ilə Tehran üzərinə hücuma keçərkən iki dəfə məğlubiyyətə uğradı. Ağa Məhəmməd xan isə öz iqamətgahını müvəqqəti olaraq Mazandarana, Sar şəhərinə köçürdü.

1783-cü ildə Ağa Məhəmməd xan Rusiya ilə yaxınlaşmaq üçün yollar axtarmağa başladı və onun elçisi aprelin 11-də Sankt-Peterburqa gəldi, ancaq o, Rusiya paytaxtında 4 ay qalsa da, arzu etdiyi qəbula nail ola bilmədi. Ona təqdim edilən notada bəyan edilirdi ki, Rusiya sarayı Ağa Məhəmməd xanı İranın Astrabad və Gilan əyalətlərinin hakimi olaraq tanımır, buna görə də onunla heç bir münasibətə girə bilməz.

1783-cü il iyulun 24-də Şimali Qafqazdakı Geogiyevsk şəhərində Rusiya ilə Gürcüstan arasında traktat bağlandı, həmin traktata görə Gürcüstan çarı öz üzərində Rusiya hakimiyyətindən başqa heç bir ali hakimiyyət tanımayacağına boyun oldu. Rusiya isə, öz növbəsində, Gürcüstanı qorumaq öhdəliyini götürdü. 1783-cü ilin noyabrında Gürcüstan çarı **II İRAKLİ** (1720–1798) Rusiyaya sədaqət andı içdi. Lakin Ağa Məhəmməd xan hələ də Gürcüstanı İranın tərkib hissəsi hesab edirdi və onu Rusiyadan qoparmaq niyyətində idi – hətta Gürcüstan İrana birləşməyənədək şah titulunu qəbul etməyəcəkdi.

Əlimurad xan Zənd İsfahanlı, məğlub olmasına baxmayaraq, hələ də Ağa Məhəmməd xanı məhv etmək üçün planlar qururdu və 1783-cü ilin əvvəlində qəflətən Mazandaranın Firuzku şəhərinə hücum etdi, onu dağıdıb, Ağa Məhəmməd xanın buradakı ərzaq və hərbi sursat ehtiyatlarını məhv elədi. Əlimurad xan, Ağa Məhəmməd xanın Azərbaycan xanlıqlarını özünə tabe etmək niyyətində olduğunu bilərək, 1783-cü ilin sonlarında Naxçıvana hücum etdi, Abbasqulu xan Naxçıvanskini devirdi və onun qohumu Cəfərqulu xanı xanlığın hakimi təyin etdi.

1784-cü il əvvəlində Əlimurad xan, Hidayət xan Gilanlıya hərbi yardım göstərmək üçün Qəzvinə 6 minlik qoşun dəstəsi göndərdi. Murtuzaqulu xan Gilandan qovuldu və Ağa Məhəmməd xan Gilanda öz hakimiyyətini itirmiş oldu. Elə o vaxt Əlimurad xan Rusiyaya, II Yekaterinanın istəklisi, Saratov və Qafqazın general-qubernatoru, general-feldmarşal knyaz **Georgi Aleksandroviç POTYOMKİNİN** (1739 –1791) adına məktub göndərərək, özünün İran şahı kimi tanınmasını xahiş etdi. Əlimurad xan bunun əvəzində İrandakı əvvəlki bütün ərazilərini Rusiyaya qaytaracağını, həmçinin əlavə olaraq Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan xanlıqlarını ona verəcəyini vəd edirdi.

Əlimurad xanın elçisi Məhəmməd xanın təklifləri rus hakimiyyət dairələrini marağına səbəb oldu və o, yüksək səviyyədə qərar qəbul edilənədək Georgiyevskdə saxlanıldı. 1784-cü ilin oktyabrında Əlimurad xanın simasında Rusiya ilə İran arasında dostluq münasibətləri quruldu. İmperator sarayı Əlimurad xana hədiyyələr göndərdi. Elə həmin payız Ağa Məhəmməd xan yenidən Əlimurad xana qarşı hərbi yürüşlərə başladı.

1784-cü ilin yazında İstanbuldan Əlimurad xanın yanına rəsmi nümayəndələr gəldi və bildirdilər ki, Ağa Məhəmməd xanın Azərbaycanı özünə tabe etdirməsi İranın mənafeyinə uyğun deyil. 1784-cü ilin iyununda Porta Əhməd xan

Xoyluya Azərbaycanın ali sərəsgəri titulunu əta etdi: Azərbayacanın Rusiya ilə yaxınlaşmasını önləmək üçün Porta onun müstəqilliyini müdafiə edirdi.

Bu arada, artıq ağır xəstə olan Əlimurad xan İsfahandan çıxıb, qoşunu ilə birlikdə Tehran yaxınlığında özünə düşərgə saldı. Buradan o, oğlu Şıx Veys xanı Mazandarana göndərdi. Şıx Veys xan müttəfiqləri ilə bir yerdə Ağa Məhəmməd xanın qoşunlarını darmadağın etdi, Mazandaranı ələ keçirib, Sar şəhərinə daxil oldu. Ağa Məhəmməd xan iki doğma qardaşını – öz yanında mühafizə altında saxladığı Murtuzaqulu xanla Mustafaqulu xanı Mazandaranda qoyub Astrabada qaçdı. Bu qardaşlar Əlimurad xana tabeliyi qəbul etdilər. Şıx Veys xan, Ağa Məhəmməd xanı tutub gətirmək üçün Murtuzaqulu xana altı minlik qoşun dəstəsi verdi, ancaq bu vaxtacan o, artıq doğma Astrabad şəhərində kifayət qədər möhkəmlənmişdi. Bu qədər əhəmiyyətli bir qələbə Əlimurad xana hər yerə Ağa Məhəmməd xanın məğlubiyyəti barədə fərmanlar göndərmək fürsəti vermişdi. Qacarın bu məğlubiyyətindən istifadə edən Əhməd xan Xoylu 1785-ci ildə Şuşalı İbrahim xanla birləşərək Azərbayacanın paytaxtı Təbrizi mühasirəyə aldı və elə həmin ilin yayında Təbriz hakimi Hidayət xanı devirdi, şəhəri ələ keçirib ondan 1 milyon rubl təzminat aldı, ancaq aralarındakı sövdələşməni pozaraq, onu İbrahim xanla bölüşmədi. Bu səbəbdən onların arasında münaqişə yarandı.

1785-ci ilin fevralında İran şahı Əlimurad xan Zəndin 4 illik hakimiyyəti başa çatdı. Onun ölümü Rusiyanı məyus etdi: İranla dostluq münasibətlərinə bəslənən ümid özünü doğrultmadı. Ağa Məhəmməd xan üçün isə əksinə, bu çox xoş xəbər oldu və o, ikiqat həvəslə şah taxt-tacına sahib olmağa can atdı. O, qonşu türkmənlər hesabına daha da möhkəmlənərək, Zəncanlı Əli xanla birlikdə 1785-ci ilin oktyabrında zəndlərin paytaxtı İsfahanı mühasirəyə alıb, onu çox asanlıqla ələ keçirdi. Ağa Məhəmməd xan bu şəhəri dəhşətli şəkildə darmadağın etdi. Elə həmin il Ağa Məhəmməd xan

Qum və Tehran şəhərlərini də ələ keçirdi. İran tarixində ilk dəfə olaraq Tehranı şah iqamətgahı elan etdi və yeni paytaxtın möhkəmləndirilməsi və abadlaşdırılması ilə məşğul oldu.

Ağa Məhəmməd xanın ona xəyanət edən qardaşları – Murtuzaqulu xanla Mustafaqulu xan öz himayədarlarını itirdikdən sonra onun intiqamından qorxaraq Rusiya təəbəliyi almaq arzusunda olduqlarını bildirdilər.

1785-ci ilin lap sonunda İrəvan hakimi Ulanəli xan vəfat etdi və 12 yaşlı oğlu Məhəmməd xan varislik xətti ilə onun yerinə keçdi. Xanlıqlar arasında ittifaqı möhkəmləndirmək üçün Əhməd xan Xoylu özünün 30 yaşlı qızını kiçik yaşlı Məhəmməd xana ərə verdi, eyni zamanda İrəvan xanlığı gürcü çarı İrakliyə xərac verməkdən boyun qaçırdı və Gürcüstandan ayrılıb müstəqil oldu.



İsfahan – böyük
Şah Abbasın paytaxtı

1786-cı ilin əvvəlində Əhməd xan Xoylunun qardaşı oğlu Meik xan əmisini öldürüb Hidayət xanı əsirlikdən azad edib, Təbrizə qaytardı, Qaradağ hakimi Mustafa xan isə Qardağda öz hakimiyyətini bərpa etdi.

1786-cı ilin avqustunda Ağa Məhəmməd xan öz qoşunu ilə Gilan üzərinə hücuma keçib, Hidayət xandan iri həcmli təzminat, həmçinin öz qardaşı Murtuzaqulu xanın ona verilməsini və Hidayət xanın böyük oğlu ilə qardaşının amanat olaraq yanına göndərilməsini tələb etdi. Gilan xanı onun bu tələbləri yerinə yetirmədi. Buna görə də Ağa Məhəmməd xan hücuma keçib Rəşt və Ənzəli şəhərlərini zəbt etdi, Hidayət xan isə ailəsi və əmlakı ilə birlikdə rus ticarət gəmilərində özünə sığınacaq axtarmalı oldu.

1786-cı ilin sentyabrında Talış xanı həmin rus gəmilərini ələ keçirib, Gilan xanını öldürdü, Ağa Məhəmməd xanın qoşun rəisi isə onun əmlakını siyahı üzrə təhvil aldı. Gilan vilayəti Ağa Məhəmməd xanın tabeliyinə keçdi, Süleyman xan onun hakimi təyin edildi. Hidayət xanın kürəkəni Zəncanlı Əli xan bu qohumluq əlaqəsinə görə Ağa Məhəmməd xan tərəfindən edam edildi, halbuki sədaqətli adam hesab olunurdu.

Elə həmin vaxtda – 1786-cı ilin sentyabrındaca Ağa Məhəmməd xan Zaxariya Sisianov vasitəsi ilə Gürcüstan çarı II İrakliyə öz rəğbətini bildirdi və ondan Rusiya çariçasına məktub göndərib, ona xoş münasibət göstərilməsini xahiş etdi. 1786-cı il dekabrın 5-də Potyomkin Ağa Məhəmməd xana məktubunda imperatriçə II Yekaterinanın ona xoş münasibət bəsləyəcəyinə və Rusiya ilə İran arasında ticarət əlaqəsinin qurulacağına ümid verdi.

1787-ci ilin əvvəlində Ağa Məhəmməd xan öz elçisi Mirzə Məmmədəlini Rusiyaya göndərdi, lakin o burada çox soyuq qarşılandı və dostluq münasibətinin yaradılması perspektivləri nəzərdən keçirilmədi.

1787-ci ilin yayında Ağa Məhəmməd xanın yeni bir düşməni meydana çıxdı – Qacarın haqsız yerə öldürdüyü Zəncanlı Əli xanın oğlu Sadıq xan atasının intiqamını almağa can atırdı. İyulda o, Təbrizə hücum elədi, şəhəri ələ keçirib, Ağa Məhəmməd xana itaət eləyən Hidayət xanı əsir aldı, qardaşı Əli xan isə bütün Zəncan vilayətini özünə tabe etdi, yalnız Zəncan şəhərinin özü Qacarın əlində qaldı. Elə həmin ilin iyul ayında Sadıq xan Qəzvini mühasirəyə aldı, onun qoşunları Gilanı və Rəşti darmadağın etdi. Gilanın hakimi Süleyman xan Ağa Məhəmməd xanın əmlakını Mazandarana köçürərək xilas etdi, amma özü Gilanı tərk etmədi.

Bu arada Qarabağ hakimi İbrahim xan müttəfiqi avar Ömər xanla birlikdə Naxçıvanı ələ keçirdi və onlar İrəvan xanlığını Gürcüstan çarı II İraklidən qoparıb almaq niyyətinə

düşdülər.

İranda isə zəndlər öz mövqelərini tədricən möhkəmləndirirdilər. Sadıq xan Zəndin nəvəsi, Cəfər xanın böyük oğlu Şiraz valisi 19 yaşlı **Lütfəli xan Zənd** siyasi arenaya çıxmışdı və tezliklə özünü İran şahı (10. 07. 1789 – 30.10.1794) elan edəcək və İran taxt-tacı uğrunda Ağa Məhəmməd xanla inadla mübarizə aparacaqdı. 1787-ci ilin sentyabrında Lütfəli xan Ağa Məhəmməd xanın qoşun dəstəsi üzərində qələbə çalaraq sürətlə, Ağa Məhəmməd xanın qardaşı Cəfərqulu xanın idarə etdiyi İsfahana doğru irəlilədi.

1787-ci ilin dekabrında Ağa Məhəmməd xanın qardaşı Murtuzaqulu xan Dərbənd və Talış xanlarından qoşun alaraq Gilan üzərinə hücuma keçib onu zəbt etdi, Qacarın təyin etdiyi Gilan hakimi Süleyman xanı oradan qovdu. 1787-ci ilin sonlarında Tabas valisi Mirəhməd xan Cəfər xanın hakimiyyətinə qarşı üsyan qaldırdı, onun qoşununu darmadağın etdi, Cəfər xan isə bundan sonra qaçıb Şirazda gizləndi. 1788-ci ilin iyununda Mirəhməd xan Ağa Məhəmməd xana ağır zərbə endirmək üçün böyük qüvvə topladı. Ağa Məhəmməd xan bu vəziyyətdə zəndlərlə sülh bağlamalı oldu.

1788-ci il iyulun 30-da Lütfəli xan Abadda Ağa Məhəmməd xana sarsıdıcı zərbə endirib Qacarı əvvəlcə İsfahana, sonra isə Tehrana qaçmağa məcbur elədi.

1788-ci ilin oktyabrında Ağa Məhəmməd xan əvvəlcə Murtuzaqulu xanın məğlub etdiyi Süleyman xanı, sonra isə öz qardaşı Cəfərqulu xanı qoşunla Gilan üzərinə göndərdi və ona qardaşı Murtuzanı öldürmək və buradakı rusları qılıncdan keçirmək əmrini verdi. Cəfərqulu xan oraya yaxınlaşanda Dərbənd və Talış qoşunları Murtuzaqulu xanı tərk etdilər. Cəfərqulu xan qaçıb Ənzəlidə gizlənən Murtuzaqulu xanı addımbaaddım təqib etdi. Ənzəli qalasına hücum zamanı Cəfərqulu xan böyük itki verdi və Murtuzaqulu xanla sülh danışıqlarına başlamağa məcbur oldu. 1788-ci ilin noyabrında qardaşlar razılığa gəldilər ki, Cəfərqulu xan Ağa Məhəmməd

xandan Gilanın Murtuzaya verilməsini xahiş etsin, bunun əvəzində isə Murtuzaqulu xan öz qoşunları ilə Lənkərana çəkiləcəyinə və Ənzəlinin qala divarlarını uçuracağına söz verdi və bu vədlərini yerinə yetirdi. Ancaq bütün bu sövdələşmələr müvəqqəti idi, Murtuzaqulu xan Ağa Məhəmməd xana qarşı yenidən güc toplayandan sonra onlar pozulacaqdı.

1789-cu ilin əvvəlində Murtuzaqulu xan rus təəbəliyini qəbul etmək üçün Rusiyaya elçi göndərdi, ancaq hələlik, 1788-ci ilin noyabrında bağlanmış müqaviləni unudaraq, yenidən Ağa Məhəmməd xana qarşı qoşun toplamağa çalışdı. Bunun üçün ruslardan martın 10-da ona bir neçə gəmi ilə birlikdə qoşun göndərməyi xahiş etdi, lakin Qafqazdakı rus generallarına saraydan Murtuzaqulu xanla bütün əlaqələrə son qoymaq əmri gəldi, bu isə adi rus hiyləgərliyi idi.



Ağa Məhəmməd xan Qacar

1789-cu ilin yazında Ağa Məhəmməd xan xəzinəni yoxlamaq və dəyərləndirmək məqsədi ilə Astrabada gəldi, Sar şəhərini ziyarətdən sonra isə Tehrana qayıtdı. Zəndlərlə yeni və sonuncu mübarizə mərhələsi başlayırdı.

1789-cu ilin iyulunda Lütfəli xan ağır və gərgin döyüşlərdən sonra zəndlərin paytaxtı olan Şirazı ələ keçirdi, buranın hakimi Seyid Murad xanı əsir alıb onun və qardaşlarının gözünü çıxartdırdı. Şirazda Lütfəli xan İran taxtına çıxdı. Həmin vaxt Ağa Məhəmməd xan İsfahanı ələ keçirib, Şiraza doğru irəlilədi, ancaq Lütfəli xan Şirazın girişində Ağa Məhəmməd xanın, qardaşı Cəfərqulu xanın başçılıq etdiyi avanqard dəstəsini üç dəfə məğlubiyyətə uğratdı və Qacarın qoşunlarını geri çəkilməyə məcbur etdi.

Ağa Məhəmməd xan özbəklərdən yeni qoşun toplayaraq,

yenidən Lütfəli xanın üzərinə hücuma keçdi və çoxsaylı döyüşlərdən sonra Şirazı mühasirəyə alıb, onun ətrafla əlaqəsini tamam kəsdi, Lütfəli xan və onun adamlarının ordan çıxmaq üçün heç bir şansı qalmadı. 1790-cı ilin yazında ingilislər Hindistandan Lütfəli xana dəstək üçün 200 əsgər və 20 top göndərdilər, ancaq bu da ona kömək etmədi.

Ağa Məhəmməd xan Lütfəli xanla döyüşərkən, Qacarın qardaşı Murtuzaqulu xan kiçik bir dəstə ilə rus gəmisində Gilana gəldi və Gilan onun əlinə keçdi. Tehranda olan Ağa Məhəmməd xan bu zəngin vilayəti özünə qaytarmaq üçün təcili surətdə beş xanın rəhbərliyi altında güclü qoşun hazırladı. Lakin Murtuzaqulu xan bu qoşun üzərində üç dəfə qələbə çaldı və ona rəhbərlik edən xanların beşini də əsir götürdü. Ağa Məhəmməd xan öz qardaşlarının ona xəyanət etdiklərindən şübhələnərək bərk qəzəbləndi. Bu arada Murtuzaqulu xan Rəştə daxil oldu və rus tacirlərinə himayədarlıq edəcəyini vəd edərək, Ağa Məhəmməd xanla müharibə etmək üçün Rusiyadan yardım istədi. Lakin 1791-ci ilin martında Ağa Məhəmməd xan Murtuzaqulu xanı Rəştdən qovub çıxardı, o da Ağa Məhəmməd xanın zəbt etdiyi bəzi əyalətləri Rusiyaya qaytaracağına zəmanət verərək, Qafqazdakı rus hakimiyyət dairələrindən müdafiə və təbəəlik istəmək məcburiyyətində qaldı.



Kalbalı xan Naxçıvanski
Rəssam
Əsgər Məmmədov

1791-ci ilin əvvəlində Ağa Məhəmməd xan böyük bir ordu ilə Cənubi Azərbaycan ərazisinə, Təbrizə daxil oldu və **Kalbalı xan Naxçıvanski** də daxil olmaqla bütün Azərbaycan xanlarının oraya gəlməsini tələb etdi. Gürcüstan çarının

Rusiyanın təcili köməyə gələcəyinə əmin etdiyi İrəvan və Qarabağ xanlarından başqa bütün xanlar Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etdilər. İtaət əlaməti olaraq Qacar onlardan arvadlarını, övladlarını və qardaşlarını amanata verməyi tələb etdi. Kalbalı xan Naxçıvanski qardaşını amanata verdi, Marağa xanı arvadı ilə birlikdə özü onun yanına gəldi, Ərdəbil xanı isə arvadını və qardaşını amanata göndərdi. Digər xanlar da öz yaxınlarını amanata verdilər. Hər bir vassala illik xərac kəsib, onu bir il əvvəldən alan Ağa Məhəmməd xan verilən girovlar və topladığı xəracla birlikdə Tehrana yolland ı, Azərbaycan xanlarını öz xanlıqlarına göndərdi. Xoylu Hüseyn xan bütün Azərbaycanın hakimi təyin olundu.

Ağa Məhəmməd xanın Tehrana qayıtmasının səbəbi barədə belə bir versiya mövcuddur. Ordusundakı altı xan ona sui-qəsd hazırlayıbmış. Onların bu niyyətindən xəbər tutan Ağa Məhəmməd xan məhz buna görə Tehrana qayıdıb. Orada hər bir xanı ayrı-ayrılıqda yanına çağıraraq, sui-qəsdçilərin hamısını bir-bir gizlincə öldürdür, ancaq bu xanların yoxa çıxmalarının səbəbini qoşunlarına bildirmir. Bu onun öz yaxınlarını və qoşun rəhbərlərini daim itaət altında saxlaya bilmək üçün onları qorxutmaq vasitələrindən biri idi: onlar bu xanların nə üçün xəbər-ətərsiz yoxa çıxdıqlarını yalnız güman edə bilərdilər.

İrəvan və Qarabağ xanlarının ona boyun əymək istəmədiklərini unutmayan Ağa Məhəmməd xan Gürcüstanı zəbt etmək və onun hakimiyyətini tanımaq istəməyən bu Azərbaycan xanlıqlarını cəzalandırmaq fikrindən əl çəkməmişdi.

1791-ci ilin yazında Ağa Məhəmməd xan yenidən Lütfəli xana qarşı hərbi əməliyyatlara başladı və Şiraz üzərinə qardaşı oğlu, İsfahan hakimi, Qacarın gələcək varisi Baba xanın başçılığı altında qoşun göndərdi, lakin güclü müqavimətlə qarşılaşaraq, darmadağın edilmiş qoşunun qalıqları ilə birlikdə İsfahana qayıtdı. Bundan sonra öz qoşunlarını Şiraz üzərinə hücuma şəxsən Ağa Məhəmməd xan özü apardı,

ancaq bu dəfə də Lütfəli xan Qacar ordusunu tamamilə qırıb məhv etdi, Ağa Məhəmməd xanın özü isə döyüş meydanından rüsvaylıqla qaçaraq canını qurtardı. Hətta onun ölümü barədə xəbərlər də yayıldı, bu xəbəri eşidən Azərbaycan xanları artıq Ağa Məhəmməd xanın hakimiyyətini rədd etməyə hazır idilər. Lakin o, tələm-tələsik Azərbaycana qayıdıb, tezliklə İran taxt-tacına yiyələnəcəyinə öz inamını nümayiş etdirdi.

1791-ci ilin sentyabrında öz ordusu ilə İsfahan üzərinə yürüşə qalxan Lütfəli xan öz məşhur sərkərdəsinin qoşunlarının böyük bir hissəsini qiyama təhrik etməsi səbəbindən bu yürüşü dayandırmalı oldu. Xəyanətkar qoşun dəstələri Şiraza hücum edərək, şəhəri ələ keçirib, onu Ağa Məhəmməd xana qaytardılar. Şiraz darmadağın edildi, Lütfəli xanın özü isə Bağdada çəkilməli oldu. Beləliklə, zəndlərin ikinci paytaxtı da Qacarların əlinə keçdi.

Elə həmin ilin sentyabr ayında Ağa Məhəmməd xan Qarabağ hakimi İbrahim xanın üzərinə hücuma keçməyə hazırlaşırdı və bu işi avar Ömər xan onun köməyinə gəlməmiş görmək istəyirdi. Lakin Lütfəli xanın İsfahanı Ağa Məhəmməd xanın qardaşı oğlu Baba xanın əlindən almaq niyyəti Qacarı bərk narahat etdi və təcili surətdə İsfahana yollandı. Elə bu vaxt da avar Ömər xan öz qoşunları ilə birlikdə qohumu İbrahim xanın köməyinə yetişdi.

1791-ci ilin sonlarında Ağa Məhəmməd xan öz qoşunlarının böyük bir hissəsini qışlamaq üçün Cənubi Azərbaycanda yerləşdirdi və xanlıqlara xəbər göndərdi ki, yazda özü də oraya qayıdacaq.

Qarabağ hakimi İbrahim xan Naxçıvan hakimi Kalbalı xanın Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etməsinə görə bərk qəzəblənmişdi. Ömər xan ona köməyə gələndən sonra bundan cəsarətlənən İbrahim xan 1792-ci ilin yanvarında Naxçıvanı ələ keçirmək üçün 11 minlik qoşunla oraya doğru irəlilədi. Ancaq Naxçıvan xanı bundan qorxub çəkin-

mədi. Xoy və İrəvan xanlarının qoşunlarını özünə birləşdirərək, az saylı ordu ilə çağırılmamış qonaqları Naxçıvanın yaxınlığında qarşılayıb, onlarla döyüşə girdi. Kalbalı xan Naxçıvanı dağıdılmaqdan qoruyaraq dalbadal altı gün qəsbkarların hücumlarını dəf etdi. Gücü tükənəndə isə o öz qoşunlarının qalanı ilə birlikdə cəsarətlə əlbəyaxa döyüşə atıldı. Kalbalı xanın sürətli və cəsarətli hücumu rəqibini vahimə içərisində qaçmağa məcbur etdi. Bu döyüşlərdə İbrahim xan min, Ömər xan isə yeddi yüz döyüşçüsünü itirdi, Kalbalı xanın müttəfiqləri ilə bir yerdə itkisi cəmi yüz nəfər oldu. Ağır məğlubiyyətə uğrayan "qəsbkarlar" rüsvayçılıq içərisində Qarabağa qayıtdılar. Böyük əks-səda doğuran bu qələbəsi ilə Kalbalı xan özünü və öz hərbi istedadını xanlığın hüdudlarından kənarda da məşhurlaşdırdı.



Kalbalı xan sürətli hücuma keçərkən

Kalbalı xanın parlaq sərkərdəlik istedadı və qabiliyyətlərindən xəbər tutan Ağa Məhəmməd xan onu Tehrana çağırdı. 1792-ci ilin ortalarından başlayaraq, Kalbalı xan Naxçıvanski iki il ərzində Ağa Məhəmməd xanın bayrağı altında istilaçı yürüşlərdə iştirak edərək, öz sərkərdəlik istedadı ilə, əvvəllər bu qədər uğurlu sərkərdəsi olmayan Qacarı heyran qoydu.

1792-ci ilin iyununda qara bayram zamanı Şiraz əhalisi qiyam qaldırıb, Ağa Məhəmməd xanın təyin etdiyi Şiraz hakimini öldürdü, yenidən Lütfəli xana itaət etmək istədiyini bəyan etdi. Paytaxtı özünə qaytaran Lütfəli xan uğurlu döyüşlər həyata keçirərək, öz qoşunu ilə təcili İsfahana yollandı. O vaxt Ağa Məhəmməd xan xəstə idi, ancaq qoşunlarını

ruhlandırmaq üçün əmr etdi ki, onu onların yanına aparsınlar. Lakin irəliyə göndərilən qardaşı Əliqulu xanın dəstəsi darmadağın edildi və beləliklə, Lütfəli xan İsfahan yolunu özü üçün təmizləmiş oldu.

Qacarın Rusiyanın himayədarlığına can atan qardaşı Murtuzaqulu xan onun Lütfəli xanla döyüşdəki bu uğursuzluqlarından istifadə edərək, rus kəndi Ənzəlidə möhkəmlənməyə çalışdı. Talışlar ona kömək etməkdən boyun qaçırdılar, rusların yardımı isə son nəticədə bu oldu ki, Murtuzaqulu xan 1792-ci ilin sentyabrında rus gəmisində İranı tərk etdi. Sonradan məlum oldu ki, 1793-cü ilin yazında o öz ailəsi və 70 nəfərlik məiyyəti ilə birlikdə Rusiya tərəfindən qəbul edilmiş, cüzi bir müavinətlə yaşayış yeri kimi ona qəti şəkildə Həştərxan müəyyən olunmuşdur. Əlbəttə, daim döyüşməyə və hakimiyyətə can atmağa vərdiş edən Murtuzaqulu xan Rusiyada özünü xoşbəxt hiss etmirdi. O, hələ də İran şahının taxt-tacına yiyələnmək barədə düşünür, doğma qardaşı Ağa Məhəmməd xana qarşı silahlı mübarizədə Rusiyanın köməyinə ümid bəsləyirdi.

1792-ci ilin ikinci yarısında Ağa Məhəmməd xan Lütfəli xanın qoşunlarını məğlub edə və Şirazda öz hakimiyyətini yenidən bərpa edə bildi. Lakin bu qələbə sevincini korlayan bir hadisə baş verdi: 1792-ci ilin sonunda Ağa Məhəmməd xanın elçisi, göstərildiyi kimi, kobudluğuna və tərbiyəsiz hərəkətlərinə görə Rusiyadan xaric edildi. Aydın oldu ki, imperatoriçə II Yekaterina Ağa Məhəmməd xanın İranda hakimiyyətə gəlməsini istəmir. II Yekaterina Qacarın istilaçı yürüşlərinə əngəl olmaq üçün onun Rusiyada, öz himayəsi altında olan qardaşı Murtuzaqulu xanı dəstəkləyirdi.

1793-cü ilin yayında Ağa Məhəmməd xan Süleyman xanı Azərbaycanın canişini təyin etdi və ona İbrahim xanı itaət üçün yola gətirməyi tapşırdı. Eyni zamanda qardaşı oğlu Baba xanı Kirmanı ələ keçirməyə göndərdi, ancaq onun qoşunları döyüşdə məhv edildi və Kirman Lütfəli bəyin

hakimiyyəti altında qaldı.

Uzun əsrlər boyu İranın tərkibində olan Gürcüstanın artıq qocalmış çarı II İrakli, İran taxt-tacı uğrunda necə ağır qanlı mübarizə getdiyini görüb, elə həmin 1793-cü ildə tələm-tələsik Rusiyada özünə kömək axtarmağa başladı. O, Rusiyaya olan bu meylini xristian Gürcüstanı yad dinli iranlıların əsarətindən azad etmək və pravoslav dinin üstün təşkil etdiyi iri bir dövlətin himayədarlığına nail olmaq istəyi ilə əsaslandırırdı. Ağa Məhəmməd xan İranın ən qədim və məhsuldar əyalətlərindən birinin Rusiyanın əlinə keçməsinə heç cür yol verə bilməzdi. O, həmçinin Osmanlı xilafəti ilə münasibət qurmağa çalışırdı, sultan isə öz növbəsində Qacara əmin etmişdi ki, yalnız bir şərtlə – Gürcüstanı Rusiyadan qoparıb aldığı təqdirdə onu İranın şahı kimi tanıyacaqdır. Ağa Məhəmməd xan II İraklini ağır şəkildə cəzalandırmağa çoxdan qərar vermişdi, ancaq bunu İranda öz mövqeyini möhkəmləndirdikdən sonra həyata keçirmək niyyətində idi.



Qədim Kirman

Növbə zəndlərin sonuncu dayaq nöqtəsi və İranın minillik xalça sənətinin qədim paytaxtı olan Kirmana çatmışdı.

1794-cü ilin yayında Ağa Məhəmməd xan Kirmana yaxınlaşdı. Səkkiz aylıq mühasirədən və Kalbalı xan Naxçıvanskinin qoşunlarının da iştirak etdiyi həlledici hücumdan sonra Lütfəli xanın sonuncu mülkü Qacarın ayaqları altına düşdü. Ağa Məhəmməd xan bütün İranın hökmdarına çevrildi.

Ağa Məhəmməd xanın əmri ilə Kirman təhqir edilmək və yağmalanmaq üçün ay müddətinə qoşunların ixtiyarına verildi. Şəhər sakinlərinin əksəriyyəti öldürüldü, 20 min kişinin gözü çıxarıldı, 8 min qadını əylənmək üçün əsgərlərin quca-

ğına atdılar, qalanları qula çevrildi. 600 əsirin kəsilən başından piramida düzəldildi. Zəndlərin sonuncu hakimi Lütfəli xan Kirmandan qaçarkən tutuldu, onun əvvəlcə gözlərini çıxarıb, sonra da şaqqaladılar, onun bütün qohumlarının gözlərini oyub kor etdilər. Bəzi mənbələrdə isə deyilir ki, Ağa Məhəmməd xan Lütfəli xanın gözlərini çıxarandan sonra onu Tehrana göndərib, hər halda bundan sonra zəndlər hətta İranın bir hissəsinə belə malik olmaq şansını qəti şəkildə itirdilər və bu ölkəni uzun müddətə Qacarlara təslim etdilər.

Lütfəli xan əsir alındıqdan sonra şəhərdəki azğınlığa son qoyuldu. Kirmanda törədilən bu cinayətlər sanki İranın digər əyalətləri üçün ibrət dərsi olmalı idi: əgər bir xalq öz hakimini müdafiə etməyə qalxsa, onunla birlikdə özü də dəhşətli cəzaya məruz qalacaqdı. Şəhəri müdafiə edən və Ağa Məhəmməd xanın tələblərinə tabe olmayan əsgərlər də ağır cəzalandırıldılar. Öz əsgərlərinə isə Ağa Məhəmməd xan qazanılan qələbəyə görə mükafat olaraq, şəhərdə azğınlıq və talançılıq etmək imkanı verdi, özü də talan edilən əmlak və götürülən əsirlər bir növü qanuni şəkildə onların öz mülkiyyətinə keçirdi.

Kirmanın ali din xadimi şəhərin mötəbər sakinləri adından Ağa Məhəmməd xana əsir aparılan bəzi arvadların və uşaqların geri qaytarılması xahişi ilə müraciət edəndə, adətən din xadimlərinin xahişlərini yerinə yetirən şah bu xahişi qəti şəkildə rədd etmişdi. Təkrar həmin xahişlə ona müraciət olunandan sonra İran hökmdarı bəyan etmişdi: "*Mən bu xahişi yerinə yetirə bilmərəm, zira mənim əsgərləri icazəmlə götürdükləri şeyləri geri qaytarmağa məcbur etməklə onların hiddətlənməsinə heç vaxt razı ola bilmərəm. Ancaq kirmanlılar öz arvadları və uşaqlarını pulla geri alsalar və yaxud onların sahiblərinin özləri onları azad etsələr, mən bunun əleyhinə olmayacam"*.

1795-ci il Ağa Məhəmməd xanın hakimiyyəti üçün əlamətdar il olmuşdur. Gürcüstanı Rusiya meylli olduğuna görə nümayişkaranə surətdə cəzalandırmaq üçün onun üzəri-

nə tarixi yürüş nəzərdə tutulurdu. Ancaq oraya aparan yol hələ təmizlənməmişdi: Qarabağ, Talış və İrəvan xanlıqları hələ tabe edilməmiş qalırdı, eyni zamanda Qarabağ və Talış xanları Rusiyanın köməyinə nail olmaq üçün bu imperiya ilə əlaqələrini güclü şəkildə genişləndirməyə başlamışdılar. Ancaq Rusiya heç bir ərazi əldə etmədən qüdrətli Qacarla vuruşmaq istəmirdi. Xanlar isə belə hesab edirdilər ki, rus qoşunları onları Ağa Məhəmməd xandan müdafiə etdikdən sonra sakitcə çıxıb gedəcəklər. Onlara yalançı müdafiə ümidləri verən Rusiya əslində bu xanlıqları ələ keçirmək və imperiyanın tərkibinə daxil etmək üçün zəmin hazırlayırdı.

İrəvan xanlığını Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etməyə razı salmaq üçün Kalbalı xan İrəvan hakimi Məhəmməd xanın yanına göndərildi; Kalbalı xanın onunla qohumluq əlaqəsi vardı və həm də o, bu kiçik yaşlı hakimə qəyyumluq edirdi. Kalbalı xan İrəvanlı Məhəmməd xanın ona olan tam etibarından istifadə edərək, İrəvan xanlığının dinc yolla Ağa Məhəmməd xanın tabeliyinə keçməsinə nail oldu. O vaxtdan ta 1827-ci ildə general Paskeviçin İrəvan üzərinə hücumuna qədər bu xanlıq İran şahının hakimiyyəti altında qaldı.

İrəvan xanlığının Qacar hakimiyyətini qəbul etməsindən sonra Gürcüstan üzərinə birbaşa hücum üçün yol açıldı. Hələ Tehranda olan Ağa Məhəmməd xan Azərbaycanı, Qarabağı və Gürcüstanı istila etmək məqsədilə təcili qoşun toplamaq əmri verdi. Mövhumatçı Ağa Məhəmməd xan Gürcüstan üzərinə Ərdəbildən hərəkətə keçdi.

60 minlik ordu üç dəstə halında Gürcüstana yola düşdü. Sağ cinah dəstəsi Muğandan keçib Şirvana və Dağıstana yollanmalı idi. Sol cinah dəstəsi İrəvana gedir, orta dəstə isə Ağa Məhəmməd xanın özünün başçılığı altında Arazın sol sahilində olan Qarabağ vilayətinin başlıca qalası Şuşaya üz tutdu.

Ağa Məhəmməd xanın bütün ordusu, demək olar ki, süvari qoşunlarından ibarət idi və qalanı atəşə tutmaq üçün topları yox idi.

Artıq XVIII əsr poeziyasında ən yüksək zirvələri fəth

etmiş olan Qarabağ şairi – lirika ustası **Molla Pənah VAQİF** (1717-1797) o zaman Şuşada yaşayırdı.

Dahiyanə bədii poetik ustalıq, obrazlı Azərbaycan dili, xalq ruhuna yaxınlıq, nikbinliyə çağırış və Vaqif yaradıcılığının bir çox digər xüsusiyyətləri artıq onun adını əbədiyyətə yazmışdı. Qeyri-adi təşkilatçılıq qabiliyyəti, dilçilik sahəsində dərin erudisiya və dəqiq elmlərdə geniş təfəkkürə sahib olmasına Qarabağ hakimi İbrahimxəlil xanın şair Vaqifi xan sarayında dövləti xidmətə dəvət və tez bir zaman içərisində isə xanlığın baş vəziri təyin etməsinə səbəb olmuşdu. Qacarın hücumu Vaqifi məhz bu vəzifədə haqlamış və o, Şuşanın müdafiəsinin ön xəttində olmuşdur.

Şuşanın mühasirəsi uzanırdı və məşhur "Qarabağnamə" əsərinin müəllifi, Mirzə Adıgözəl bəyin bildirdiyi kimi, Ağa Məhəmməd xan İbrahimxəlil xanı qorxutmaq qərarına gəlir. Azərbaycan poeziyasına heç də pis bələd olmayan Qacar şair Seyid Məhəmməd Şirazinin əsərlərindən bir beyt seçib, mühasirəyə aldığı şəhərin adını ("Şuşa" Azərbaycan dilində "şüşə" deməkdir) oynadaraq onu bir qədər dəyişdirir.

"Ay ağılsız! Göylərdən dolu kimi daş yağır,
Sənsə şüşə divarda möcüzə gözləyirsən."

Bu beyti bir kağıza yazdırıb oxun ucuna bərkidir və qalaya atırlar. Məktubu alan İbrahim xan onu Vaqifə göstərir, o da dərhal kağızın arxa tərəfində Ağa Məhəmməd xana öz şeiri ilə cavab yazır:

"Məni Şüşə içinə Yaradan özü salıb,
Ancaq o şüşəyə möhkəm bir daş qoyub".

Bu məktubu alanda Ağa Məhəmməd təsvirə gəlməz dərəcədə bərk qəzəblənir, Şuşanın mühasirəsi heç bir nəticə vermir, 33 günlük uğursuz mühasirədən sonra şahın qoşunları Gürcüstana hərəkət edir.

Ağa Məhəmməd xanın Gürcüstana hücum etmək qərarından II İrakli Baqrationi hələ 1793-cü ildə xəbər tutmuş və Rusiya imperatoriçəsinə müraciət edərək, Georgiyevsk müqaviləsinə əsasən ona qoşun və artilleriya göndərməsini xahiş etmişdi. Ancaq rus hökuməti boynuna götürdüyü bu öhdəliyi yerinə yetirməyə tələsmirdi. 1795-ci ilin mayında çar İrakli Qafqazdakı baş komandan Qudoviçə məktub yazıb bildirdi ki, Ağa Məhəmməd xanın Gürcüstana basqın edəcəyindən qorxur və təkidlə ona 3 minlik qoşun göndərilməsini xahiş edir, eyni zamanda onu əmin edirdi ki, hətta 12 min nəfər əsgər üçün azuqə hazır ediləcək.



Gürcüstan çarı II İrakli

Gürcüstan sərhədlərinə yaxınlaşanda İran hökmdarı gürcü çarına ultimatum göndərdi. Ağa Məhəmməd xan II İrakli Baqrationidən Rusiya ilə əlaqələri kəsməyi, təzminat ödəməyi və Kartli-Kaxetiya çarlığının İranın tabeliyinə keçməsini tələb edirdi. II İrakli Ağa Məhəmməd xana cavab verdi ki, o öz üzərində Rusiya hökmdarı II Yekaterinanın hakimiyyətindən savayı heç bir hakimiyyəti qəbul etmir.

İRAN ŞAHI AĞA MƏHƏMMƏD XANIN GÜRCÜSTAN ÇARI II İRAKLİYƏ ULTİMATUMU

Allaha minnətdaram,
zira onun şöhrəti böyükdür.
İran şahı Ağa Məhəmməd
şahın möhürü

Əlahəzrət Gürcüstan çarına bu əmri elan edirik.

Bizim mərhəmətimizi gözləyənə məlum olsun: gürcülərin yetmiş il bundan əvvəl Qəndaharda törətdikləri əməllər və onların İranın şərəfini alçaltdıqları – bunlar indi artıq

məlumdur, hərçənd Şah Sultan Hüseyn vəfat edib və artıq bu dünyada yoxdur. İndi Əlahəzrətiniz də bilir ki, bu yüz nəsil ərzində Siz İranın tabeliyində olmusunuz.

İndi biz təəccüb içində demək istəyirik ki, Əlahəzrətiniz ruslara qoşulmuşdur, onların isə İranla necə ticarət etməkdən başqa dərdləri yoxdur, işləri ancaq ticarətdir. Sən doxsan yaşında bir adamsan, ancaq belə şeylərə yol verirsən: kafirləri gətirib onlarla birləşmisən, onlara əl-qol açmaq imkanı vermisən! Sizinlə bizim dinimiz eyni deyil, fərqli olsa da, Siz həmişə İranla əlaqədə olmusunuz. İranda tatar, gürcü, erməni, kafir, başqa din mənsubları çoxdur, buna görə də siz hamının önündə xəcalət çəkməli və belə bir işə yol verməməlisiniz.

Keçən il sən məni bir neçə gürcü öldürməyə məcbur etdin, hərçənd biz öz təbəələrimizin öz əlimizdən ölməsini heç cür istəməzdik. İndi isə gücü sayəsində bu qədər böyük qüdrətə nail olduğumuz Allahın lütfü ilə sədaqət aşağıdakılardan ibarətdir: indi bizim böyük iradəmiz budur ki, Siz, ağıllı bir adam kimi, bu cür işdən əl çəkib – xalqın da istəyi elə budur – ruslarla əlaqəni kəsəsiniz. Əgər bu əmri yerinə yetirməsən, onda biz qısa bir vaxt ərzində Gürcüstana yürüş edib, rus və gürcü qanlarını bir yerdə axıdacaq və ondan Kür boyda çay yaradacağıq. Səni xəbərdar etmək üçün bu fərmanı yazdıq ki, bizim əmrimizi qulaqardına vurmayasan və öz vəziyyətini dərk edəsən.

(СМОМПК, 1901, 29-cu buraxılış, səh. 147-148)

1795-ci il sentyabrın əvvəlində Ağa Məhəmməd xan artıq Tiflisə yaxınlaşırdı, çar II İrakli isə hələ də paytaxta kifayət qədər qoşun çəkib gətirə bilməmişdi. Tarixi ədalət naminə bunu da demək lazımdır ki, Rusiya imperiyasının himayəsində olduğu bütün dövrlərdə gürcülər öz qüvvələrinə çox az güvənmiş, həmişə Rusiyanın köməyinə ümid etmişlər. Ağa Məhəmməd xanın Tiflisə doğru hərəkət etdiyini bilən şahzadələrin əksəriyyəti öz mülklərində oturub qalmağa üstünlük vermiş, çar zümrəsindən olan digər əyanlar isə Tiflisə xırda və döyüş qabiliyyətli dəstələrlə gəlmişdilər. Şahzadələrin açıq-aşkar satqınlığı üçündən Çar İrakli nəzərdə

tutduğu 40 min döyüşçü əvəzinə, müxtəlif dəyərləndirmələrə görə, öz bayrağı altına yalnız 5 mindən 10 minə qədər döyüşçü toplaya bilmişdi. Buna baxmayaraq, Gürcüstan hökmdarı müdafiə olunmaq qərarına gəldi.



Qədim Tiflis

Sentyabrın 10-da Soğanlıq yaxınlığındakı ilk döyüşdə İran qoşununun avanqardı məğlubiyyətə uğradı. Həmişə tədbirli olan Ağa Məhəmməd xan artıq bu yürüşün uğurlu olacağına şübhə etməyə başlamışdı və geri çəkilməyə hazırlaşırdı, Gürcüstanla Rusiya ittifaqının əleyhdarları gizlicə çapar göndərib, şəhərin müdafiəçilərinin sayca çox az olduğunu ona xəbər verdilər. Bundan ruhlanan Ağa Məhəmməd xan ildırım sürətilə hücuma keçdi. Kalbalı xan Naxçıvanskinin qoşunları da onun ordusunun tərkibində idi.



Krsaniss çölündə döyüş

Sentyabrın 11-də Krsaniss çölündə, Tiflisin cənub qapısı önündə az saylı gürcü qoşunu Qacarın 35 minlik ordusu ilə qeyri-bərabər, ölüm-dirim döyüşünə girdi. Qoca yaşlı çar II İrakli ölənə qədər döyüşməyə hazır idi, lakin nəvələri onu son dərəcə gizli şəkildə döyüş meydanından çıxara bildilər.

Ağa Məhəmməd xanın güclü qoşunu Tiflisə soxuldu. Kalbalı xanın dəstəsi Tiflisin yağmalanmasında iştirak etmədi. Ona Tiflisdən qaçan çar II İraklini axtarıb tapmaq və əsir etmək barədə xüsusi əməliyyat tapşırığı verilmişdi. Tarix sənəd də bu faktın doğruluğunu təsdiq edir:

> "Ağa Məhəmməd xan İraklini tutmaq üçün 8 minlik seçmə döyüşçünü Kalbalı xan Naxçıvanskinin başçılığı altında onun ardınca göndərdi. Məhsətidə xan öz qoşununu iki dəstəyə ayırdı. Yarısını Qoriyə göndərdi, özü isə ikinci dəstə ilə birlikdə Mtiuletiyaya yollandı. Birinci dəstə Sxinvaliyə çatdı, tərk edilmiş kəndlərdən savayı yolda heç nəyə rast gəlmədi. Yalnız Qori qalasında qarnizon dəstəsi vardı. İran qoşunu geri qayıdarkən Ksan dərəsini talan etmək istədi və Lamiskana çatdı, ancaq burada onları azsaylı qoşunla şahzadə İohann qarşıladı və geriyə atdı.

Kalbalı xanın özü isə Jinvali körpüsünə qədər gedib çıxdı, burada onun qarşısını çar İrakliyə sadiq olan müsəlman Əli-sultan Şəmşədilli kəsdi... o, İran qoşunlarını qaçmağa məcbur elədi, onların bir hissəsi əsir alınıb İrakliyə göndərildi."

(Kikodze Q. "II İrakli". Tiflis, 1948, səh. 136 – 137)

Sənəddə gürcülərin qələbələri açıq-aşkar şişirdilsə də, bir sözlə bu əməliyyat uğurlu olmadı, ancaq bu uğursuzluğa görə Kalbalı xanı ittiham etmək olmaz. Burada zil qaranlığa bürünmüş bir sirr vardır.

II İrakli nəvələri tərəfindən, demək olar ki, zorla, yalnız qartalların qalxa bildiyi yüksək dağlara çıxarılmışdı, bundan əlavə, Kalbalı xanın şəxsən Gürcüstanın çarını əsir etmək arzusunda olub-olmadığı da məlum deyil. Bilinən budur ki, Kalbalı xan II İrakli ilə mehriban münasibətdə olub və çarla oğlu Aleksandr arasındakı məlum münaqişədə dəfələrlə vasitəçilik edib. Kalbalı xan Gürcüstan çarını qəddar Qacarın əlinə verməyə çətin risk edərdi. O, hətta Ağa Məhəmməd xanın amansız intiqamından belə çəkinməyərək, bu cür günahı öz boynuna götürməzdi. Uzun illərdən sonra da artıq kor edilmiş Kalbalı xan varislikdən məhrum olunmuş şahzadə Aleksandr İrakliyeviçi dəfələrlə müşayiət etmiş, Tiflisə getmiş, onun taleyinin həll olunmasında fəal iştirak etmişdi. Şahzadə Aleksandr özü də Kalbalı xana böyük rəğbət bəsləmiş, ona öz ordusunu tapşırmış və tamamilə etibar etmişdir.

Ağa Məhəmməd xan isə bu arada Tiflisdəki çar sarayını ələ keçirmiş, çarın taxtını, tacını və Rusiya imperatriçəsinin hədiyyəsi kimi 1873-cü ildə çar İrakliyə göndərilən əsanı götürmüş, sonra da Tiflisi talan və darmadağın etmişdi. Bütün pravoslav məbədləri xarabalığa çevrilmiş, kişilər qətlə yetirilmişdi. Top zavodu, cəbbəxana və sikkəxana dağıdılmışdı. Dinc sakinlərin evləri yağmalanmışdı. İran əsgərləri şəhəri yandırmış, talan etmiş, müdafiəsiz qalmış insanları öldürmüş və zorlamış, uşaqları məhv etmiş, hərəmxanaları doldurmaq üçün gözəl qadınları əsir etmişdilər. Tiflis, faktiki

olaraq, tüstülənən yanğın yerinə dönmüş, çürüyən cəsədlərin iyinə qarışmış üfunətli hava isə dəhşətli yoluxucu xəstəliklərin daşıyıcısına çevrilmişdi. İranın cəza dəstələri Kartalinin içərilərinə doğru irəliləmiş, Ömər xanın hücumundan sonra bərpa olunmuş yaşayış evlərini və zavodları dağıdaraq, dinc əhaliyə divan tutmuşdular.

Kalbalı xanın yürüşünün uğursuzluqla nəticələndiyini öyrənən Ağa Məhəmməd xan öz elçisini sülh təklifi ilə Gürcüstan hökmdarının yanına göndərir. Əgər İrakli onun hakimiyyətini qəbul etsə və öz oğlanlarından, ya da nəvələrindən birini girov kimi onun yanına göndərsə, Qacar bunun əvəzində tutulan əsirləri geri qaytaracağını vəd edirdi. Gürcüstan çarı vaxt udmağa çalışaraq, danışıqlara başlasa da, Ağa Məhəmməd xanın şərtlərinə razı deyildi. Buna görə də çar, eyni vaxtda rus komandanlığına da çapar göndərib ondan təcili kömək göndərməsini xahiş etdi, amma bu dəfə də kömək gəlmədi.

Səkkiz gün, səkkiz gecə İran qoşunları Tiflisdə heç bir maneəyə rast gəlmədən azğınlıq etdilər, Gürcüstan ərazisini viranəyə çevirib, talan elədilər. Qacarın qoşunları Gürcüstanda daha çox qala bilərdi, ancaq soyuqlar düşməyə başlamışdı, azuqəyə ehtiyac vardı, həmçinin arxada alınmamış Şuşa qalası dururdu. Eyni zamanda şaha xəbər vermişdilər ki, Xorasanda Nadir şah Əfşarın nəticəsi Nadir Mirzənin başçılığı altında çaxnaşmalar başlayıb.

1795-ci il sentyabrın 22-də Ağa Məhəmməd xanın qoşunları Gürcüstanı tərk etdi, onlar 20 min kişi və qadını qul və kəniz kimi özləri ilə apardılar. Təkcə yeniyetmə və uşaq yaşlarında olan oğlanların sayı 5 minə yaxın idi. Xüsusi gözəlliyə malik qadınlar şahın və İran əyanlarının hərəmxanalarını doldurdular, zahiri görkəmi yaraşıqlı olan kişiləri isə axtalayıb hərəmağasına çevirdilər. Təkcə şah hərəmxanası 200 yeni hərəmağası aldı ("Кавказ", 2 may 1876-cı il, N 50).

Ağa Məhəmməd xan gedəndən sonra Gürcüstanın

əhalisi, demək olar ki, iki dəfə azaldı. Bir sözlə, İran hökmdarı Gürcüstanı Rusiyadan kömək gözləmək vərdişindən çəkindirmək üçün mümkün olan hər şeyi elədi, ancaq çar II İrakli Georgiyevsk müqaviləsini şərtlərinə vicdanla riayət elədi.

Şəxsən general Qudeviçin komandanlığı altında II İraklinin köməyinə gələn rus qoşunları yalnız 1795-ci ilin dekabrında Gürcüstana daxil oldular. Ağa Məhəmməd xanın bu qələbəsi təkcə Gürcüstanla qonşu olan xanlıqlarda təntənə ilə qarşılanmadı. Qəddar İran hökmdarının amansız hərəkətlərini Rusiyanın Avropada rəqibi olan iri dövlətlər də sevinclə qarşıladılar, onlar bunu Rusiya imperiyasının özünün məğlubiyyəti kimi qiymətləndirdilər.

Gəncə hakimi Cavad xan Gürcüstana yürüş zamanı Ağa Məhəmməd xanın qoşunlarının əsas bələdçisi olduğu üçün II İrakli rus qoşunları gələndən sonra İbrahim xanla ittifaqa girərək Gəncəni mühasirəyə aldı. Qala dörd ay mühasirədə qalandan sonra Cavad xan II İrakliyə tabe oldu, ona girov olaraq 12 amanat verdi, Qacarın Gürcüstanda əsir götürdüyü insanları geri qaytardı, həmçinin ildə 15 min rubl həcmində təzminat ödəməyə boyun oldu.

Bu arada Gürcüstandakı fantastik qələbədən ruhlanan Ağa Məhəmməd xan geri qayıdarkən, Gəncəyə, sonra da ona tabe olmaqdan boyun qaçırdığına görə ciddi şəkildə İbrahim xanı cəzalandırmaq üçün Şuşaya daxil olmaq niyyətində idi, ancaq qoşunun üzünü döndərib 1795-ci il noyabrın əvvəlində Muğan çölündə – Arazın Kürlə qovuşduğu yerdə düşərgə saldı. Elə həmin ilin noyabr ayında Kalbalı xan Naxçıvanski yeni döyüş tapşırığı aldı. Ağa Məhəmməd xan ona böyük bir qoşunun başına keçib, Şirvan xanını zorla İran hakimiyyətinə tabe etdirmək üçün Şamaxıya yürüş etməyi tapşırdı. Müqavimət göstərməyə girişən Şirvan xanlığı darmadağın edildi və o, İran hakimiyyətinə tabe oldu. Ağa Məhəmməd xan Şamaxıya qacarların birini hakim təyin etdi, Kalbalı xanın öz

vətəninə qayıdıb, Naxçıvan xanlığını idarə etməsinə icazə verdi. Naxçıvan xanın Ağa Məhəmməd xanla növbəti görüşü il yarımdan sonra olacaq və Kalbalı xan üçün faciə ilə nəticələnəcəkdi.

Bu möhtəşəm qələbələrdən sonra 1796-cı ilin yazında Qacarın ətrafı Ağa Məhəmməd xanın hökmən şah titulunu qəbul etməsindən danışmağa başladılar. Yaxınları onu inandırmağa çalışırdılar ki, zəndlərin tabe və Gürcüstanın ağlasığmaz dərəcədə darmadağın edilməsindən sonra onun özünü şah elan etməsinə heç bir əngəl qalmayıb.



XIII əsr memarlığının şah əsəri: Şamaxıda Cümə məscidi

Qacar bununla dərhal razılaşmadı, onu uzun müddət yola gətirməyə çalışdılar, bəlkə də hiyləgərlik eləyirdi, anacaq buna razılıq verəndən sonra qoşunlarını toplayıb elan etdi:

> "Əgər mən şah olsam, bilin ki, sizin işləriniz yenicə başlamış olacaq. Mən bütün hakimiyyəti tacla birləşdirməsəm, heç vaxt onu başımda gəzdirməyə razı olmaram."

Qorxunc İran hökmdarının ətrafındakılar – vilayətlərin hakimləri, saray vəzir-vəkilləri, qoşun başçıları, Qacar ailəsinin üzvləri, bir sözlə Ağa Məhəmməd xana yaxın olanların hamısı bir ağızdan öz həyatlarını onun şöhrət və qüdrətinin daha da artmasına həsr edəcəklərinə and içdilər. Ağa Məhəmməd xan, Nadir şahın başdan-ayağa qiymətli daş-qaşlarla bəzədilən və üzərində dörd səltənətin – İran, Əfqanıstan, Azərbaycan və Hindistanın fəthinin rəmzi kimi dörd lələk olan tacını başına qoymaqdan qəti şəkildə imtina edib, özü üçün daha sadə bir tac seçdi. Ancaq, çox qədim ənənəyə görə

Səfəvilər sülaləsinin banisi şeyx **Səfiəddin İsaq ƏRDƏBİLİNİN** (1252–1334) qəbrində hökmən xeyir-dua mərasimindən keçməli olan şah qılıncını öz üzərində gəzdirməyə tərəddüdsüz razı oldu.

Elə həmin yaz (1796) Ağa Məhəmməd xan Ərdəbilə gəlib, gecəni şeyxin Qəbri üstündə dua-etməklə keçirdi, müqəddəs şeyx Səfidən ömrünün axırına kimi ona himayədarlıq etməsini dilədi. Yeni şah şiə müsəlmanlarını müdafiə edəcəyinə and içdi; bu təriqət Qacarlar sülaləsi hakimiyyətə gəldikdən sonra İran xalqının dini elan edilmişdi. Növbəti gün bütün İran bu tarixi hadisəni – Ağa Məhəmməd xanın şahlıq xeyir-duasından keçməsini təmtəraqla bayram etdi. Ənənəyə görə həmin gün kasıblara səxavətlə pul payladılar. Gürcüstanda qazanılan başgicəlləndirici uğurlardan sonra yeni İran şahı ümid edirdi ki, Ərdəbildə, müqəddəs şeyx Səfi türbəsində gecə sitayişi və göz yaşları ilə müşayiət olunan yalvarışları eşidiləcək və o, Səfəvilər imperiyasından daha da böyük, daha qüdrətli yeni bir İran imperiyasının yaradılması sahəsində öz müqəddəs işini davam etdirəcəkdir. Lakin, şeyxdən daha yuxarıda əyləşmiş uca Allah, hər halda başqa cür sərəncam vermiş oldu. Ağa Məhəmməd şah şeyx Səfinin himayədarlığından yararlanmış olsa belə, bu uzun çəkmədi, cəmi iki ildən bir qədər çox oldu.

Tacqoyma mərasimindən dərhal sonra Ağa Məhəmməd şah Xorasana yürüş etdi; Nadir şahın törəmələri – bütün zamanlarda qacarlara nifrət bəsləyən və onları məhv etməyə çalışan bir nəslin nümayəndələri qiyam qaldırmışdılar. Ancaq, zəndlərin üsyanını yatırmaqdan başqa, Ağa Məhəmməd şahı Nadir şahın Hindistandan gətirdiyi daş-qaşlar da maraqlandırırdı. O, belə güman edirdi ki, bu daş-qaşları Nadir şahın nəticəsi Nadir Mirzə saxlayır və eyni zamanda dövlətə məxsus olan xəzinənin mənimsənilməsini ən ağır cinayət hesab edirdi. Qacarın müəyyən etdiyi qaydaya görə şahın ölümündən sonra onun xəzinəsi dövlət mülkiyyəti hesab

olunurdu.

Ağa Məhəmməd şahın qoşunları Məşhədə yaxınlaşanda onun qəddarlığından xəbərdar olan Nadir Mirzə heç bir müqavimət göstərmədən, buna cəhd belə etmədən, atası kor Şahruhu öz yerinə qoyub arxasına baxmadan şəhərdən qaçdı. Kor ata isə heç bir hakimiyyət iddiasında olmadığı üçün Qacarı təzimlə qarşıladı.

Ağa Məhəmməd şahı Nadir şahın xəzinəsi maraqlandırırdı, o, kor Şahruhun bu xəzinənin yerini bildiyindən şübhələnirdi. Şahruh Ağa Məhəmməd şahı inadla xəzinənin onda olmadığına inandırmağa çalışsa, hətta təntənəli surətdə and içsə də, şah bu korun andlarına inanmadı və ona ən dəhşətli işgəncə verməyi əmr etdi. Qoca əvvəlcə susdu, heç nə demədi, ancaq işgəncələr ağırlaşdıqca, tədricən təslim olub sirri açdı, xəzinənin hansı quyu və divarlarda gizlədildiyini bir-bir acıb söylədi.

Yeri gəlmişkən, Qacar anadangəlmə qeyri-adi intuisiyaya malik bir adam idi və ağlına dammışdı ki, kor Şahruh Nadir şahın xəzinəsinin gizlədildiyi yerlərin heç də hamısını açıb deməyib. Onun başında xəmirdən qılaf düzəldib içinə ərinmiş qurğuşun tökəndə qoca ölməzdən əvvəl, ona qəddarcasına işgəncə verənlərə son etirafını çatdıra bildi: nəhəng və əsrarəngiz gözəlliyə malik yaqutun saxlandığı yerin adını çəkdi. Ağa Məhəmməd şah isə, görünür çoxdan bunu axtarırmış. Bir sözlə, Qacar Xorasanda, onsuz da zəngin olan kolleksiyasını Nadir şahın qiymətli əşyaları hesabına daha da zənginləşdirdi.

Zəndlərdən qatı intiqam almaq ehtirasına qapılan Ağa Məhəmməd şah hətta öz ləyaqətli qəyyumu Kərim xanın Şirazdakı, Nadir şahın isə Xorasandakı qəbirlərini açdırıb onların sümüklərini çıxarmaqdan çəkinmədi. Sonra o sümükləri Tehrana gətirib Ağa Məhəmməd şahın sarayının girəcəyində basdırdılar. Qacar bu zaman özünə xas lovğalıqla çığırdı: *"Baxın və qorxun, mən qəbirləri də gəzirəm."* Hamının, xü-

susilə də Ağa Məhəmməd şahın yaxınları və qohumlarının canına dəhşətli qorxu düşdü.

İmperatriçə **II YEKATERİNA** (1729 – 1796) Ağa Məhəmməd xanın Gürcüstana xaincəsinə hücumundan xəbər tutan kimi dərhal İrana müharibə elan elədi və 1796-cı ilin əvvəlində oraya yaxşı silahlanmış qoşun göndərdi. Bu yürüş sadəcə Ağa Məhəmməd xanın basqınına cavab deyildi, onun Dağıstan hakimləri arasında Rusiyanın nüfuzunu gücləndirmək, Gürcüstana kömək göstərmək və müdafiə etmək, İranla ticarəti davam etdirmək üçün əlverişli şərait yaratmaq və s. kimi daha mühüm məqsədləri vardı. İmperatriçə II Yekaterina 19 fevral 1796-cı il tarixli yüksək reskriptlə 35 minlik ekspedisiya dəstəsinə başçılığı 24 yaşlı general-poruçik qraf Zubov Valerian Aleksandroviçə həvalə etdi. Qraf Zubov öz cəsurluğu ilə ad çıxarmışdı və İrana yürüşdən əvvəl döyüşdə bir ayağını itirmişdi. Göstərdiyi igidliyə görə imperatriçə öz sevimli əsgərinə üzərinə qızıl çəkilmiş qoltuqağacı hazırlamağı əmr etmişdi, bundan sonra da general Zubovun *"Qızılayaq qraf"* ləqəbi meydana çıxmışdı.



General-poruçik qraf Zubov V. A.

1796-cı ilin martında Yekaterina İran xanları, hakimləri və xalqına manifest imzaladı, orada bildirilirdi ki, Rusiya Ağa Məhəmməd xanın (Yekaterina qəsdən Qacarı şah adlandırmırdı) məkrli istilaçı niyyətlərinin qarşısını almaq üçün öz qoşunları ilə İrana daxil olur. Bundan əlavə, qraf Zubova istila ediləcək ərazilərdə yayılmaq üçün fars, gürcü və digər dillərdə "Bildiriş" verilmiş və tapşırılmışdı ki, o, *"xanlara və hakimlərə göndərilməli, şəhər və kəndlərin əhalisi arasında yayılmalı, xalq bundan xəbərdar olmalıdır"*.

Qraf Zubovun ekspedisiya dəstəsi iki korpusdan ibarət idi; Xəzər dənizi sahili boyu irəliləməli olan Xəzər korpusu və marşrutu Tiflisdən keçən Qafqaz korpusu. Ancaq rus qoşunları Qafqaza doğru ağır hərəkət edirdilər. Qraf Zubov onların bir hissəsi ilə –12,5 min süngü və qılıncla – 1796-cı ilin martında Kizlərə gəlib çatdı. Şimali Dağıstan hakimlərinin bir hissəsi dərhal Rusiyaya bağlı olduqlarını bəyan etdilər, digərləri isə onun himayədarlığından imtina edib, dağlarda gizlənməyi üstün tutdular, onlar hətta bəzən rus qoşunları üzərinə qəfil basqınlar edirdilər.

1796-cı ilin aprelində qalan qoşunların gəlib çıxmasını gözləmədən qraf Zubov Xəzər dənizi sahili boyu Qafqazın dərinliklərinə doğru irəlilədi, çünki Qafqaz sıra dağlarından keçib Tiflisə gedən ən qısa yol o zaman hələ hazır deyildi. Yürüşə başlamazdan əvvəl dəstə iki piyada və iki süvari briqadasına bölündü. Yürüşün lap əvvəlindən uğur onlara yar oldu: bir həftəlik hücumdan sonra mayın 8-də "*Qafqazın qızıl qapısı*" – Dərbənd qalası təslim oldu, mayın 10-da isə Dərbənd hakimi Şeyx Əli xan qalanın açarını qraf Zubova təqdim etdi.

Zubov Bakıya doğru irəliləyərkən, 1796-cı il mayın 15-də İranda Qacarın şah elan edilməsi münasibətilə nəhəng təntənəli mərasimlər keçirilirdi.

Geridə qalanlar gəlib çatdıqdan sonra rus qoşunları Bakı qalasına yaxınlaşdılar və burada elə bir güclü müqavimətə rast gəlmədilər. İyunun 13-də bu qalanın da açarları qraf Zubova təqdim olundu. Az bir müddətdən sonra, əvvəllər zorla Ağa Məhəmməd şahın hakimiyyətini qəbul etməyə məcbur qalmış Şamaxı və Şəki xanları da tabe olub, Rusiyaya sədaqət andı içdilər.

İmperatriçə II Yekaterina 1796-cı il sentyabrın 16-da qraf Zubovu general-anşef rütbəsinə yüksəltdi. Qafqazdakı baş komandan Qudoviçə tapşırıldı ki, qoşunlara komandanlığı ona təhvil versin.

1796-cı il oktyabrın 10-da Qafqaz korpusunun komandiri general-mayor Aleksandr Mixayloviç Rimski- Korsakov qraf Zubovdan Azərbaycan hakimlərinə Rusiya hakimiyyətini qəbul etdirmək, Ağa Məhəmməd şahın onların üzərindəki təsirini aradan qaldırmaq, Gürcüstanın ərazisini İrəvan və Gəncə əyalətləri hesabına artırmaq əmri aldı; bu zaman başlıca məqsəd müstəqil və heç kimə boyun əyməyən bir qala kimi şöhrət tapmış Gəncənin ələ keçirilməsi olmalı idi. Ağa Məhəmməd xan 1795-ci ildə Gürcüstana yürüş edərkən, onun qoşunlarının əsas bələdçisi olmuş Gəncə hakimi Cavad xan qraf Zubovun yürüşünün məqsədlərini yaxşı bilirdi və buna görə də 1796-cı il noyabrın sonunda qalanın açarını könüllü surətdə özü ona təqdim etdi.

Xəzərlə Kür çayının mənsəbinə qədər gələn rus qoşunları Gürcüstanla su əlaqəsi kəşf etdilər.

Qraf Zubovun dəstəsinin uğurları rus silahına böyük şöhrət qazandırdı. 1796-cı ilin noyabrına kimi Dərbənd, Quba, Bakı, Qazıqumux, Şirvan, Qarabağ, Şəki və Gəncə xanlıqları istila edildi. Rusiya qoşunları Muğan çölündə düşərgə saldılar. Tehrana gedən yol artıq açıq idi. Gənc olmasına baxmayaraq, baş komandan qraf Zubov parlaq inzibatçılıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirdi, o bu yürüşdə ən yeni hərbi nailiyyətləri, xüsusilə də ponton körpülərin qurulması, mühasirə artilleriyası, hücum səngərlərinin hazırlanması, qoşunların ərzaq və sursatla təmin edilməsi üçün səyyar mağazalardan istifadə kimi bir çox yenilikləri məharətlə tətbiq etdi. Faktiki olaraq, o, geniş ərazilərin zəbt edilməsi sahəsində yeni metodika mənimsəmişdi. Qraf Zubov rus əsgərləri arasında yüksək nizam-intizamı təmin etmiş, onlar cəsurlaşmış, yürüşün hər bir çətinliyini səbirlə dəf etmişlər. *(Военная энциклопедия. 1912, c. 10, səh. 550-551)*

İmperatriçə II Yekaterinanın reskriptində qraf Zubova İranın içərilərinə girmək, əvvəlcə bütün Cənubi Azərbaycanı ələ keçirmək, sonra isə Tehrana hücum etmək tapşırığı veril-

mişdi. Ağa Məhəmməd şahın doğma qardaşı, Qacarın intiqamından qorxub Rusiyada gizlənən, burada imperatriçənin şəxsi himayəsi altında yaşayan Murtuzaqulu xan qardaşının tezliklə süquta uğrayacağını düşünərək, Sankt-Peterburqu təcili tərk edib, Zubovun dəstəsinə qoşulmağa tələsdi. II Yekaterina həqiqətən də Ağa Məhəmməd şahı devirmək üçün planlar qururdu və birinci mərhələdə onun əlindən İranın bir hissəsini – Gilan, Mazandaran və Astarbadı almağı və Murtuzaqulu xanı o əraziyə hakim təyin etməyi düşünürdü. Murtuzaqulu xana da elə gəlirdi ki, artıq uğurlu saat gəlib çatıb və indi onun taxt-taca ümid etməyə daha çox əsası var. Ancaq gözlənilməyən bir hadisə baş verdi.

1796-cı ilin sonlarında Rusiyada böyük dəyişikliklər baş verdi. Noyabrın 6-da imperatriçə Yekaterina vəfat etdi. Onun ölümündən sonra taxta imperator **I PAVEL** (1754–1801) çıxdı; o isə belə hesab edirdi ki, rus qoşunlarının nəinki İranda, hətta Qafqazda belə heç bir işi olmamalıdır. II Yekaterinanın ölümündən düz bir il sonra, 1796-cı il dekabrın 6-da baş komandan qraf Zubov hərbi əməliyyatları dayandırmaq əmri aldı. Komandir polka qədər bütün qoşun rəhbərlərinə öz dislokasiya yerlərinə qayıtmaq barədə şəxsən göstəriş verildi. General-anşef qraf Zubov baş komandan vəzifəsindən imtina etdi və 1796-cı il dekabrın 31-də Dövlət Hərbi Kollegiyasının sədrinə bu barədə raport göndərdi. Lakin bu xəbərlər Ağa Məhəmməd şaha o qədər də tez çatmamışdı.



İran taxtına çıxmaq arzusu baş tutmayan Murtuzaqulu xan



Hökmdar imperator
I Pavel


Rus qoşunlarının uğurlu irəliləyişi Qacarı ciddi narahat etmişdi. Məşhədi ələ keçirib oraya qacarlardan birini hakim təyin edəndən sonra şah öz qoşunlarının bir hissəsi ilə birlikdə təcili Tehrana yollandı. 1796-cı il sentyabrın 10-da Ağa Məhəmməd şah Tehrana gəldi və general qraf Zubovun şəhərə gözlənilən hücumu ilə əlaqədar müdafiə tədbirləri görməyə başladı.

O, Asrabad və Mazandaran əyalətlərində qoşun yerləşdirdi, Azərbaycana rəhbərliyi Təbrizdə qardaşı Əliqulu xana həvalə etdi, gənc Məhəmməd xanın Rusiyaya meylli olduğunu düşünərək, onu İrəvandan qovdu və oraya qoşun yeritdi. İrəvan xanı Rusiya meyli öz qəyyumu Kalbalı xanın təsiri olmadan meydana çıxa bilməzdi. Cəsur Naxçıvan xanı ilə bağlı şübhə də elə bu zaman yarandı. Lakin Ağa Məhəmməd şahın Rusiya qoşunlarının İrana doğru irəliləməsi ilə bağlı qorxusu boşa çıxdı, ruslar qəflətən geri dönüb Qafqazı tərk etdilər, şahın sevincinin həddi-hüdudu yox idi.

Qraf Zubovun qoşunlarının qəflətən geri çəkilməsindən istifadə edən Ağa Məhəmməd şah 1797-ci ildə Azərbaycana yürüş etdi. O vaxtlar burada dəhşətli aclıq tüğyan edirdi, həm də Gəncədə insanlar hansısa ağır bir yoluxucu xəstəlikdən cücə kimi qırılırdı. Çoxları yalnız bunlardan qurtulmaq üçün özlərini kölə kimi ruslara təslim edirdilər. Ağa Məhəmməd şah təcili bu ərazilərə tələsdi, çünki artıq burada heç bir müqavimətlə rastlaşa bilməzdi. Qacar nəinki ona müqavimət göstərən, həmçinin rus qoşunlarına kömək və imperiyanın himayədarlığına ümid edən Azərbaycan xanlarına divan tutmaq istəyirdi. Şah ilk növbədə Qarabağ hakimi İbrahim xanı məhv etməyə, dikbaş Qarabağı yandırıb külə döndərməyə,

sonra isə hələ də Rusiyaya birləşmək niyyətindən əl çəkməyən Gürcüstana yenidən baş çəkməyə hazırlaşırdı.

Xəstəlik dərəcəsində hər şeyə şübhə edən, eyni zamanda yaltaq təriflərə və göz yaşı içərisində içilən sədaqət andlarına düşkün olan Ağa Məhəmməd şah 1797-ci ilin yazında Gürcüstana yürüş etməzdən əvvəl qulaqlarını şəkləyib, öz yaxınlarının, o, Gürcüstanı tərk etdikdən sonra ona xəyanət edənlər barədə şayiələrlə dolu dedi-qodularını dinləyirdi. Qəddar düşməni olan Qarabağ hakimi İbrahim xanla yanaşı çətin sınaqlardan çıxmış cəsur sərkərdə Kalbalı xan Naxçıvanski də Ağa Məhəmməd şahın qara siyahısına düşdü. Tiran guya Kalbalı xanla qraf Zubovun dəstəsindən olan qoşun komandirləri arasında olmuş yazışma barədə şayiələri eşitdikdən sonra bu qərara gəlmişdi ki, xan onun əleyhinə sui-qəsd hazırlayır. Naxçıvan xanına qarşı görülən tədbirlər barədə bir az sonra danışacağıq.



Şuşa qalası

1797-ci il mayın sonunda Ağa Məhəmməd şahın avanqard dəstəsi, qardaşı oğlanları Süleyman xanla Hüseyn xanın başçılığı altında Talış xanlığı üzərinə yeridi, sonra əvvəllər qraf Zubovun düşərgəsi yerləşən Muğan düzünə çıxdı. Qacarın qoşunları may ayında Lənkəran əyalətinə daxil oldu, Ağa Məhəmməd şahın özü isə İbrahim xanın Dağıstana qaçdığını öyrənib, 12 minlik qoşunla Qarabağa yollandı. Qacarın qoşunları Şuşa qalasını bu dəfə maneəsiz ələ keçirdi, qaçmış xanın qardaşı oğlu Məmməd bəy xanlığın hakimi təyin edildi. Qarabağ xanlığının vəziri, öz vətənini tərk etməyən Vaqif, oğlu Əli bəylə birlikdə zindana atıldı. Onları edam gözləyirdi, hərçənd inanmaq istərdik ki, Azərbaycan incəsənətinə himayədarlıq edən Qacar XVIII əsirin ən savadlı azərbaycanlıla-

rından biri olan bu böyük şairin həyatına qəsd etməyə cəsarət etməzdi.

Bu arada Ağa Məhəmməd şah Azərbaycanda öz hakimiyyətini qurmağa tələsir, əvvəllər qraf Zubovun Rusiyaya sadiq canişinlər qoyduğu bütün yerlərə yeni hakimlər təyin edirdi. Elə həmin may ayında Ağa Məhəmməd şah Bakı və Gəncə xanlıqlarına daxil olub, onların hakimlərini – Hüseynqulu xanla Cavad xanı əsir aldı; Rusiyaya meyl göstərdiklərinə görə onları ölüm gözləyirdi. Qraf Zubovun qoşunlarının Qafqazdan çıxarılması barədə Rusiya imperatoru Pavel Petroviçin ağılsız əmrindən istifadə edən Ağa Məhəmməd şahın bu dəfə haralara qədər gedib çıxa biləcəyini söyləmək çətindir. Ancaq burada Əlahəzrət Hadisə böyük tarixi rol oynadı.

İranda bütün dövrlərdə həddən artıq olan falçılar Qacarın 1797-ci ildə öləcəyini bildirirdilər. Əvvəllər şah onların bu peyğəmbərliyinə heç bir əhəmiyyət vermirdi, lakin Azərbaycana son yürüşündən qabaq falçıların sözünə ciddi yanaşdı: Tehranı ən sadiq yaxınına tapşırıb, ona, əgər ölərsə, heç bir qoşunu və sərkərdəni paytaxta buraxmamağı əmr etdi; yalnız öz qardaşı oğlu, Şirazın bəylərbəyi Baba xan istisna olunacaqdı. Şah hələ də ona hədsiz etibar edirdi.

Tarixi həqiqət naminə qeyd edək ki, Ağa Məhəmməd şahın istilaçı planlarında Qarabağ xüsusi yer tuturdu. Özü azərbaycanlı olan Ağa Məhəmməd şah Qarabağı təkcə ona görə İranın tərkibinə daxil etməyə can atmırdı ki, bu vilayət əvvəllər Səfəvilər imperiyasının tərkibində olmuşdu. Ağa Məhəmməd şah haqlı olaraq Qarabağı Azərbaycanın mirvarisi, mədəniyyət və incəsənət mərkəzi hesab edirdi. Qədim Azərbaycan torpağı olan Qarabağ nəsillər boyu dünyaya məşhur müğənnilər, şairlər, rəssamlar, memarlar bəxş etmişdir. Azərbaycanda ilk dəfə olaraq dörd minarəli məscid burada ucaldılmışdı. Qarabağda unikal xalq sənətləri, onlardan heç az unikal olmayan təsərrüfat sahələri (dulusçuluq və

xalçaçılıq, atçılıq, meşə və ağac emalı sənayesi və s.) yaranır və inkişaf edirdi.

Gözəl Qarabağ atları bütün Yaxın Şərqdə məşhur idi və Avropada da yüksək qiymətləndirilirdi. XIX əsrin görkəmli animalist rəssamı Nikolay Yeqoroviç Sverçkov (1817–1898) öz yaradıcılığında məşhur Qarabağ ayğırlarına xüsusi yer ayırmış, onlara hətta şeir də həsr etmişdir:



Qarabağ atları

Altındakı at tamam qan-tər içində, zirək,
Misilsiz bir cins atı, qızıl qədər qiymətsiz.
Qarabağın şux, oynaq qüsursuz bir köhləni,
Gözü qorxuyla dolu, qulaqları şəklənib,
Fınxıra-fınxıra dik təpədən çəpəki
Baxır dalğa üstündə çapan gur köpüklərə.

Azərbaycanın münbit Qarabağ torpağı təbii ehtiyatlarla zəngin idi, bu gün də onların sayı-hesabı yoxdur. Ağa Məhəmməd şah Qarabağ xanlığının əzəmətini və əhəmiyyətini İranın əvvəlki hökmdarlarından daha yaxşı hiss edir, bu xəzinəni daha yüksək qiymətləndirirdi. Müsəlman Qarabağın zorla qoparılıb alınmasından qorxan Qacar hər vasitə ilə onu xristian təsirindən qorumağa çalışır, buna görə



1992-ci ilin erməni hücumu dövründə Qarabağ xarabalıqları

də Qarabağ xanının Rusiya himayədarlığına və hakimiyyətinə meyl göstərməsini ona bağışlaya bilməzdi. O, həmişə Qarabağın yalnız İranın hakimiyyəti altında çiçəklənəcəyinə inanırdı.

Bununla belə, Ağa Məhəmməd şahın qədim Azərbaycan torpağı Qarabağa – bu Allah vergisinə olan hədsiz meylliyi ona həyatı bahasına başa gəldi. Ağa Məhəmməd şah təxmini olaraq 1797-ci il iyunun 4-də Şuşada öldürüldü. Bu necə baş verib?

Ən inandırıcı versiyaların birində deyilir ki, şaha ən yaxın xidmətçilərdən ikisi hansısa günahlarına görə Qacarın əmri ilə növbəti gün edam olunacaqmış, məhz onlar edam olunmazdan qabaq səhər tezdən onun yataq otağına girib öz hökmdarlarını xaincəsinə qətlə yetirmişlər. Hərçənd, bu versiyada ölümə məhkum edilmiş iki xidmətçinin şahın ciddicəhdlə qorunan yataq otağına necə girə bildikləri aydın deyil. Guya bu xidmətçilər XVIII əsr İranının ən qüdrətli hökmdarlarından birinə qarşı sui-qəsd hazırlayan Şahaginli Sadıq xanın əmrini yerinə yetirmişlər. Qacar Şuşada olarkən şahın mühafizəsinə Sadıq xan rəhbərlik etmiş, onun qətlindən sonra isə şahın yanında olan bütün xəzinəni ələ keçirmişdir *(Бутков П. Г. "Материалы…" 1869, 2-ci hissə, səh. 431).*

Şahın cənazəsi şiələrin müqəddəs şəhəri Məşhədə aparıldı və böyük təmtəraqla orada dəfn edildi.

Bu vaxt Qarabağın müvəqqəti hakimi, Qacarın təyin etdiyi Məmməd bəy Cavanşir İbrahimxəlil xanın tərəfdarlarını aradan qaldırmaq qərarına gəldi. O, böyük şair Vaqifin, oğlu Əli bəylə birlikdə edam olunmasını əmr etdi. Tarix üçün hələ də aydın deyil ki, Qarabağdan qaçan İbrahimxəlil xan özünün ən yaxın tərəfdarı və sadiq vəziri şair Vaqifi nə üçün Qarabağda saxlayıb, nə üçün onu ölüm təhlükəsi ilə üz-üzə qoyub? Bəlkə Vaqif özü doğma torpağı tərk etmək istəməyib, ölümü rüsvayçı qaçışdan üstün tutub?

Vaqifin Şuşadakı evi dağıdıldı və talan edildi, qiymətli əlyazmaları isə məhv edildi.

İranda şahların ölümündən sonra həmişə olduğu kimi Ağa Məhəmməd şah da öləndən sonra, taxt-tac uğrunda yuxarıda adı çəkilən Sadıq xanla mərhum şahın qardaşı oğlu Əliqulu xan arasında qanlı mübarizə başladı. Lakin mərhum şahın qardaşı oğlanları Süleyman xanla Hüseyn xan taxt-tacın qanuni varisi, Şiraz hakimi Baba xanı vaxtında bundan xəbərdar etdilər. Süleyman xan Sadıq xanı darmadağın etdi və Ağa Məhəmməd şahın ölərkən ələ keçirdiyi şah xəzinəsini onun əlindən aldı.



Molla Pənah Vaqif

Taxt-taca sahib ola bilməyəcəyini anlayan Sadıq xan yeni şaha itaət etdiyini bildirdi. Baba xan təcili Tehrana yollandı və orda **Fətəli şah** adı ilə İranın hökmdarı elan edildi. Qanuni varisi qabaqlamağa çalışan Ağa Məhəmməd şahın qardaşı Əliqulu xanı isə Tehrana buraxmadılar, taxta çıxdıqdan sonra isə Fətəli şah bir an tərəddüd etmədən öz əmisinin gözlərini çıxartdırdı. Şahaginli Sadıq xan qaçıb şaha tabe olmayan Şirvanda gizləndi. Ancaq yeni şah əmisinin ölümünü təşkil etdiyinə və taxt-tacı ələ keçirməyə cəhd göstərdiyinə görə Sadıq xanı – ona "itaət etdiyini" bildirsə belə – bağışlamadı. Sadıq xanı aldadaraq Şirvandan çıxarıb İrana gətirdilər və burada Fətəli şahın əmri ilə onu diri-diri divara hördülər *(RDQAA, f. 1406, i. 351, v. 431).*



İranın yeni hökmdarı
Fətəli şah

Üstündən xeyli vaxt keçdiyinə görə müasir ədəbiyyat Ağa Məhəmməd şahın şəxsiyyətini obyektiv

şəkildə şərh edə bilmir. Görünür, onun hərəkətləri öz müasirlərini də ondan iyrəndirmişdir. Məsələn, tanınmış tədqiqatçı P.Q.Butkov onun haqqında yazır:

> "Ağa Məhəmməd şah böyük şəxsiyyətlərə xas heç bir keyfiyyətə malik deyildi, hamını qorxu içində saxlamaq istəyən rəhmsiz quldurun biri idi, ancaq işgüzar və qorxunc adamdı..."
>
> *(Бутков П. Г. "Материалы…" 1868, с. 2. səh. 431)*

AĞA MƏHƏMMƏD ŞAHIN ŞƏXSİYYƏTİNƏ DAİR ŞTRİXLƏR

Ağa Məhəmməd şah həqiqətən tarixə qəddar bir hökmdar kimi daxil olub, onun bu keyfiyyətini danmaq mümkün deyil. Qəddarlıq, hər şeyə hədsiz dərəcədə şübhə ilə yanaşmaq kimi keyfiyyətləri Ağa Məhəmməd xanın qadın cazibəsi və işvəsini duymaq hissindən məhrum edilməsinin nəticələri idi. Məlumdur ki, İranda hakimlər öz geniş hərəmxanaları ilə öyünərdilər. Hərəmxanalar, eləcə də şəhvət hissi bu cür axtalanmış, xədim insanları maraqlandırmırdı. Lakin Ağa Məhəmməd şah Qacar kimi qeyri-adi bir tarixi şəxsiyyəti birtərəfli dəyərləndirmək olmaz.

Heç şübhəsiz, Ağa Məhəmməd şah təhsilli və ağıllı adamdı, güclü xarakterə və iri miqyaslı dövlət xadimi keyfiyyətlərinə malik idi. O, çox gözəl psixoloq idi və heç də pis sərkərdə deyildi, öz hərbi yürüşlərinin uğurunu qabaqcadan hesablamağı bacarırdı. Ağa Məhəmməd şah öz qoşunlarını riskə atmazdı. Yürüşdən əvvəl öz planlarını heç vaxt açıqlamazdı, bircə məqsədi olardı: özünə tabe etdirə bilmədiyi istənilən hakimiyyətə silah gücünə, lazım gəldikdə, qanı su yerinə axıdaraq qalib gəlmək, onu məhv etmək, öz hakimiyyətini ona qəbul etdirmək. Ağa Məhəmməd şahın hökmranlığı altında, özünün də güman etdiyi kimi, qayda-qanun və sakitlik hökm sürməliydi. Yerləşdikləri yerlərdə soyğunçuluqla

məşğul olmaq kimi İran qoşunları üçün xarakterik xüsusiyyətə son qoyulmuşdu. Buna yalnız yürüş zamanı hələ Ağa Məhəmməd şahın hakimiyyəti altında olmayan, ya da bu hakimiyyətin sabit olmadığı ərazilərdə yol verilirdi və istənilən halda belə qarətlər İran hökmdarının razılığı ilə həyata keçirilirdi.

Ağa Məhəmməd şah anadangəlmə və yaxud vəzifəsinə görə hər hansı bir hakimiyyətə malik olan yüksək təbəqə nümayəndələrini qorxu altında saxlamağa çalışırdı. Əgər xalqı qorxutmaq lazım gələrdisə – elə qorxutmaq ki, İranın digər hissələrində də baş verən hadisədən xəbər tutanlar qorxudan tir-tir əssinlər, – Ağa Məhəmməd şah ən ağır işgəncə və edamlara əl atırdı. Ancaq ona hədsiz pərəstiş edən və satmayan əsgərlərə və sadə insanlara qarşı isə mərhəmətli idi.

Ağa Məhəmməd şah öz qohumlarına və yaxınlarına, tutduqları mövqedən tamahkar məqsədləri üçün istifadə etməsinlər deyə, diqqətlə göz qoyurdu. Hakimiyyət təkcə şaha məxsus idi, qalanların hamısı ona tabe idi. Xırda bir itaətsizlik ağır şəkildə cəzalandırılırdı və bunda heç bir istisna ola bilməzdi.

Ağa Məhəmməd xanın tarixə məlum olan beş qardaşından dördü onun rəqibinə çevrilmişdir: birinin gözləri çıxarılmış, üçü İrandan qaçmışdır. Qorxu-ürküsüz, təşəbbüskar Cəfərqulu xan isə qardaşına sadiq qalmış, hər şeydə ona kömək etmiş və Ağa Məhəmməd xanın İranda hakimiyyət uğrunda mübarizəsinin ilkin mərhələsində onun varisi elan edilmişdir.

Bir dəfə Cəfərqulu xan qardaşına müraciət edərək, İsfahanın idarəçiliyinin ona həvalə olunmasını xahiş edir, ancaq Ağa Məhəmməd şah buna razılıq vermir və Mazandaran vilayətinin hakimi təyin edir. Təhqir olunmuş Cəfərqulu xan bu təyinatdan boyun qaçırır və hətta bir daha şah sarayına ayaq basmır. Qardaşının cəsur və müstəqil bir adam olduğundan qorxuya düşən şah, dərhal onun taleyini həll etmək

qərarına gəlir, amma əvvəlcə hiyləgərcəsinə onun sayıqlığını kütləşdirir. Anasını Mazandarana, qardaşının yanına göndərir ki, o, oğlunu sakitləşdirsin və şah qardaşının İsfahanın idarəçiliyini ona verməyə hazır olduğunu, ancaq oraya yollanmamışdan qabaq Tehrana, onun yanına gəlməsini xahiş etdiyini bildirsin. Qardaşının hiyləgərliyindən xəbərdar olan və onu öldürmək istədiyindən şübhələnən Cəfərqulu xan Tehrana getməyə, lakin orda yalnız bir gecə qalmağa razılaşır. Qardaşını təşəkkür, minnətdarlıq və İsfahanı necə idarə etmək barədə öyüdlərlə uyudan şah, vidalaşmazdan əvvəl ona özünün yeni sarayını göstərmək istədiyini deyir. Cəfərqulu xan içəri girən kimi orada gizlənmiş qatillər onun üstünə atılıb öldürürlər.

Qardaşının meyitini gətirib Ağa Məhəmməd şaha göstərəndə, o özünə xas hiyləgərliklə bu hadisədən çox kədərləndiyini bildirir və dərhal qardaşı oğlu Babanı özünün sadiq və igid qardaşı Cəfərqulu xanla vidalaşmaq üçün yanına dəvət edir. Qardaşı oğlu gəlib çıxanda isə, Ağa Məhəmməd şah onun yanında mərhum Cəfərqulu xanı müxtəlif işlərdə günahlandıraraq, həyəcanla qışqırır: "*O, sənin xatirinə öldürülüb*". Baba xan həqiqətən də sonralar İran şahı oldu.

Ağa Məhəmməd şah müasirlərini özünün gözlənilməz hərəkətləri ilə heyrətə gətirirdi: bəzən birinə ağır cəza veriləcəyi gözlənildiyi halda, o daha yüksək bir vəzifəyə təyin edilirdi. Onun məşhur sərkərdəsi Hacı İbrahimin taleyi buna əyani misal ola bilər.

Ağa Məhəmməd xan Kirmana hücum edəndə, Hacı İbrahim onunla birləşməyə gəlirdi və yolda Ağa Məhəmməd xanın mühafizəçilərindən biri ilə rastlaşır. İran hökmdarına xüsusi ilə yaxın olmasına güvənən həmin mühafizəçi Hacı İbrahimə qarşı kobudluq edir. O da bu mühafizəçinin ciddi şəkildə cəzalandırılmağı əmr edir. Hacı İbrahimin silahdaşları onu, öz həyatından məhrum olmamaq üçün, bu işdən nə qədər çəkindirməyə çalışsalar, o, qorxub-çəkinmədən soyuq-

qanlılıqla deyir: *"Əgər Ağa Məhəmməd xan belə bir gədanın ədəbsizliyinə göz yumub, öz mənsəbində olan bir adamı müdafiə etməyəcəksə, onda o, Hacı İbrahim ölməyə hazırdır"*.

Hacı İbrahim Ağa Məhəmməd xanın düşərgəsinə gəlib çıxanda, o artıq bu hadisədən xəbərdar idi və dedi: *"Hacı, sən mənim nökərimi cəzalandırmaq əmri vermisən. Sənə təşəkkür edirəm! İndi isə bu gədaların ipini öz vəzifələri çərçivəsində tutmağı sənə tapşırıram"*. Və beləliklə, Ağa Məhəmməd xan Hacı İbrahimi özünün birinci naziri (baş vəziri) təyin etdi və o, 1797-ci ildə şah ölənədək bu vəzifədə qaldı.



Ağa Məhəmməd şah Qacar. Akvarel, 1810

Məlum olduğu kimi, iri tarixi şəxsiyyətlər, adi insani qüsurlardan xali deyil. Ağa Məhəmməd şah son dərəcə xəsis bir adam idi. Onun bu xəsisliyi yalnız özünün hakimiyyət hərisliyi ilə müqayisə oluna bilərdi. Bu barədə əfsanələrdən birində deyilir.

Hansısa xırda bir günahına görə sadə bir insanın qulağının kəsilməsini əmr edirlər, o da cəllada müəyyən məbləğdə pul təklif edir ki, qulağının yarısın kəssin. Bunu eşidən İran hökmdarı həmin adamı yanına çağırtdırır və bildirir ki, bu yazıq ona cəllada təklif etdiyindən iki dəfə çox pul versə, o bir şah kimi öz səlahiyyətindən istifadə edərək cəzanı ümumiyyətlə ləğv edə bilər.

Ancaq tamahkar hökmdarın öz xəsisliyi ucbatından zərər çəkdiyi hallar da olmuşdur. Bir dəfə Ağa Məhəmməd şah bir zirək dərvişlə belə razılaşır ki, o, saraya gəlib, əyanlardan pul dilənsin. Şah bu yolla öz xəzinəsini zənginləşdirmək istəyirdi. Şərtləşdikləri gün dərviş saraya gəlir. Hökmdar onu saray əyanlarına yoxsul bir adam kimi təqdim edir,

səxavətlilik nümunəsi göstərmək üçün bu adama heç də kiçik olmayan məbləğdə sədəqə verilməsini əmr edir. Saray əyanları da Ağa Məhəmməd şahdan nümunə götürərək ona xeyli məbləğdə sədəqə verirlər. Dərviş isə kifayət qədər iri məbləğdə pul yığandan sonra onu götürüb sakitcə aradan çıxır. Artıq gecə yarısı, dərviş yığdığını hökmdarla bölüşməyə gəlməyəndə Ağa Məhəmməd şah baş vəzirini yanına çağırıb ona deyir: *"Məni aldadıblar. Səhər tezdən saraya gələn o mənfur dilənçi mənə söz vermişdi ki, nəinki mənim verdiyimi geri qaytaracaq, həm də saray əyanlarından topladığı məbləği mənimlə yarı-yarıya bölüşəcək."* Hər yana çapar göndərirlər amma o dərvişi heç yerdə tapa bilmirlər. Sanki o, yağlı əppək olub göyə çıxmışdı.

Xalq arasında deyildiyi kimi, xəsis adam iki dəfə haqq ödəməli olur. Bununla belə, xəsislik bu tiranın bir şəxsiyyət kimi əhəmiyyətini heç cür azaltmır. Ağa Məhəmməd şah quldur da hesab edilməməlidir, bu, dar düşüncəli, primitiv bir baxış olardı.

Aydın məqsədi olan Ağa Məhəmməd şah totalitar tipli hökmdar idi və Səfəvilər dövlətinin sərhədləri çərçivəsində İran imperiyasını bərpa etməyə can atırdı. **O, var gücü ilə bütün Azərbaycanı vahid bir hakimiyyət altında birləşdirməyə çalışırdı.**

TİRANLAR BU DÜNYADAN İZSİZ GETMİRLƏR

Ağa Məhəmməd şah gələcəyə təsir göstəribmi? Əlbəttə göstərib. Totalitar rejim yaratmaq nümunəsi son dərəcə yoluxucu oldu. Və hələ ki, tiranlığa – bu dəhşətli virusa qarşı heç bir əks-vasitə yaradılmayıb. Tiranlar getdikcə çoxaldı və indi də çoxalmaqda davam edir. XIX əsrin tiranlarını bir kənara qoyub, XX əsr tiranlarına nəzər salaq.

XX əsrdə tiranlar az olmayıb və onların hamısı öz bəd niyyətlərinə və əməllərinə görə Ağa Məhəmməd şahı çox

geridə qoyublar. Dünya hökmranlığı uğrunda ağır rəqabət aparan iki totalitar rejimin adını çəkək: Üçüncü reyx (1933–1945) və bolşevik sovetlər ölkəsi SSRİ (1917–1991).



Nəğməkar şair
M.İ. TANİÇ

SSRİ "Bütün ölkələrin proletarları, birləşin!" şüarı altında bütün tiranların bəd niyyətlərini cəm halda belə üstələməyə, fəhlə və kəndlilərin ümumdünya dövlətini yaratmaqla dünya inqilabını həyata keçirməyə hazır idi. Böyük Vətən Müharibəsinin qanlı sınağından keçən, igidliyinə görə təltif olunan, bununla belə "söz azadlığı" uğrunda mübarizədə Stalinin "meşqırma" əməliyyatının bütün "ləzzətini" doyunca dadmış olan, xalq arasında çox sevilən görkəmli nəğməkar şair **Mixail İsayeviç TANİÇ** (1923–2008) bir vaxtlar əbədən solmaz görünən şüarı bu cür şərh etmişdir:

"Bütün ölkələrin proletarları",
buna əməl etmiş olsaydı barı,
Yalnız bir çığırqan qəzet harayı,
bolluca əyləncə, nəşə kef-damaq.
Yaxşı ki, biz o vaxt birləşməmişik
Yoxsa Yer üzündə bircə nəfər də
İnsan tapılmazdı, hamısı acından
Qırılıb məhv olar, yoxa çıxardı.

(Танич М. И. Прзводы люви М 1991. səh. 46)

Burda xatırlanan və xatırlanmayan totalitar rejimlərin heç birinin lideri axtalanmamışdır, amma bu, onların bir-birinə bənzəməsinə əngəl olmamışdır. Totalitar rejimlər liderlərinin oxşar cəhətləri fərqli cəhətlərindən daha çoxdur. Onları hakimiyyət hərisliyi, başqalarının fikirlərinə dözümsüz-

lük, böhtan atmağa həvəsli olmaq, tərifl ənməyi sevmək və s. kimi iyrənc, xudpəsənd xüsusiyyətlər birləşdirir.

İosif Stalin idealistlərin mütərəqqi düşüncələrindən istifadə edərək, totalitar sovet dövləti qurmuşdu, inamla onu genişləndirməyə çalışır və eyni zamanda öz sədaqətli silahdaşlarına divan tuturdu.

Ağa Məhəmməd şah birinin gözlərini kor etsə belə, o bədbəxtin xidmətlərini unutmurdu, bütün xalqların rəhbəri Stalin isə irimiqyaslı dövlət xadimlərini, onların keçmiş xidmətlərini nəzərə almadan məhv edirdi. Hakimiyyətə həris rəhbər sovet dövlətinin qurucuları və V.İ.Leninin silahdaşları olan Buxarin, Rıkov, Kosior, Trotski, Tuxaçevski, Əli Heydər Qarayev, Cəmşid Naxçıvanski və bir çox başqalarını dövlətə xəyanət etmək şübhəsi altında guya xalq adından, hətta zəhmətkeşlərin istəyi və tələbi ilə məhv etmişdir.



Rəhbər İ.V. Stalin göy qurşağını ayaqları altda tapdalayır
Boris Yefimovun rəsmi, 2007

Bu sətirlərin müəllifinin tibbi, hətta pedaqoji təhsili yoxdur, o texniki sahənin mütəxəssisidir, lakin 1937-ci ili noyabrın 7-də Kremldə verilən naharda, K.E.Voroşilovun mənzilində, bolqar kommunisti G.Dimitrovun yanında hələ ayıq rəhbər Stalinin dediyi tostun mətnini oxuyarkən, istər-istəməz bu tostu deyənə qəti diaqnoz qoymaq istəyirsən:

> "Sosialist dövlətinin birliyini pozmağa, onun müəyyən bir hissəsini və müəyyən bir xalqını ayırmağa çalışan hər bir kəs düşməndir, dövlətin, SSRİ xalqlarının qəddar düşməndir. Nə biz hər bir belə düşməni, köhnə bolşevik də olsa, məhv edəcəyik, onun bütün nəslini, ailəsini məhv edəcəyik. Öz əməlləri və düşüncələri ilə, – bəli, bəli, düşüncələri ilə! – sosialist dövlətinin birliyinə qəsd edən hər kəsi biz amansızcasına

məhv edəcəyik.

Bütün düşmənlərin, onların özlərinin və nəslinin məhv edilməsinin şərəfinə!"

(Невежин В.А. Застольные речи Сталина. М., 2003, səh. 147)

Stalin hətta özünün sadiq və vicdanlı köpəyi, cəllad xalq komissarı, sədaqətli it baxışı yağan gözləri ilə öz sahibini az qala yeyən Henrix Yaqodaya da rəhm etməmişdir. Stalin başqa bir itaətkar qulunu, rəhbərin hər sözünü ağzından qapan xalq komissarı Nikolay Yejovu da məhv etmişdir. Ölümə məhkum edilən bu sadiq əlaltılar, artıq onun heç cür ləğv edilməyəcəyini bilə-bilə, yenə də öz qatillərinə hədsiz sevgi və məhəbbətlərini izhar etməyi unutmurdular.

Çox qəribədir ki, sivilizasiya inkişaf etdikcə, insanların həyati təhlükəsizliyinin mühafizəsinə dair qanunlar qəbul edildikcə, tiranların bütpərəst qanunsuzluqları daha da qatılaşırdı. Artıq görkəmli şəxsiyyətləri cəzalandırarkən, bundan sonra ağlı başında və itaətkar olsunlar deyə, onların canını saxlayıb gözlərini çıxarmırdılar. Zərrə qədər kiçik bir şübhə yaranan kimi, bu cür xidmətkar insanları sadəcə məhv edirlər.

Daim Allahlıq iddiasında olan, öz ehtiyaclarının diqtəsi ilə yaşayan, qısqanc və özləri qədər qəddar lakeylərlə əhatə olunan tiranların özləri isə həyatlarını normal insanlar kimi deyil, onlardan daha betər, daha pis başa vurmuşlar. Bu müqayisəyə görə oxucu məni bağışlasın, evdə saxlanılan itlər belə o dünyaya onlardan daha yaxşı şəraitdə köçürlər.

Ancaq tiranlar bu dünyadan izsiz getmirlər. Məsələn, bizim hələ tam şəkildə formalaşmamış demokratik cəmiyyətin qüsurlarını (onlar isə göz qabağındadır!) müstəbid Stalin rejiminin yoxluğu ilə izah edən yeni peyda olmuş stalinistlər gənc və hələ yetkin olmayan nəslə bütün zamanların və bütün xalqların rəhbəri olan Stalinin ruhunun guya Kainatda gəzib dolaşdığını, kosmik boşluğu buz kimi soyuq bir hədə ilə titrətdiyini bəyan edirlər:

"GÖZLƏYİN, MƏN HƏLƏ YENƏ QAYIDACAM!"

KALBALI XAN NAXÇIVANSKİ AĞA MƏHƏMMƏD ŞAHIN HAKİMİYYƏTİNİ QƏBUL ETMİŞ VƏ ONUN BAYRAĞI ALTINDA İGİDLİKLƏ VURUŞMUŞDU, LAKİN RUSİYAYA MEYLİ ÜZÜNDƏN KOR EDİLMİŞDİ

1828-ci ildə Naxçıvan xanlığının Rusiyaya birləşməsindən sonra mənəvi zənginlik məqsədi ilə bu tanınmayan ölkəyə müxtəlif növ rus alimləri, mədəniyyət, incəsənət və xalq sənəti sərrafları axışmağa başladı. Bütün dövrlərdə Naxçıvan zəngin olan çoxsaylı tarixi abidələri tədqiq edərkən rusiyalı entuziastlar hansısa monastrda bir yığın əl yazma sənədlərinə rast gəldilər. Bu sənədlərin çoxu, gözlənildiyi kimi, dini mövzuda idi. Ancaq onların arasında tamamilə tarixə aid iki sənəd vardı. Onların hər ikisi İran hökmdarı Ağa Məhəmməd şahın az öyrənilmiş hakimiyyəti dövrünə həsr olunmuşdu.

Sənədlərin birində Ağa Məhəmməd xanın müzəffər yürüşləri təsvir olunur. İkincisində isə 1795-ci ildə Gürcüstana məlum yürüşü ərəfəsində Ağa Məhəmməd xanın gürcü çarı II İrakliyə ultimatumu öz əksini tapmışdı.

Bu iki sənəd açıqlanmaq üçün düz yetmiş il öz saatını gözləmiş və sonunda buna müvəffəq olmuşdu. Onlar 1901-ci ildə çox nüfuzlu və mötəbər, ancaq kiçik tiraja malik olan və bu gün artıq biblioqrafik nadir əşyaya çevrilən bir nəşrdə – Qafqaz əraziləri və tayfalarının təsvirinə dair materiallar”[*] toplusunda dərc edildi.

110 il sonra biz onları yenidən dərc etməyi lazım bildik, çünki digər rəsmi mənbələrdən yaxşı məlum olan həqiqi tarixi hadisələr haqqında yazı bizim kitabın qəhrəmanı Kalbalı xan Naxçıvanskinin fəaliyyətinə dair faktlarla daha canlı olur. Oxucunun diqqətini o qədər də əhəmiyyətli olmayan

[*] “Сборник материалов по описанию местностей и племен Кафказа” (*СМОМПК*)

tarixi qeyri-dəqiqliklərə cəlb etmədən yuxarıda adı çəkilən topludakı mətni çox cüzi üslubi düzəlişlərlə təqdim edirik:

"Bizim dövrümüzdə Məmməd Həsənin oğlu, böyük və qüdrətli tiran Ağa Məhəmməd xan xoşbəxtliyi sayəsində fövqəladə dərəcədə güclənərək bütün İran torpaqlarını fəth etdi, digər torpaqları da qismən ələ keçirdi və Tehran şəhərində daimi məskən salıb özünü İranın şahı elan etdi. Bizim eranın 1791-ci ilində (1240) saysız-hesabsız qoşunu ilə Təbriz şəhərinə və Mərənd vilayətinə yollandı, oradan elçilər göndərib, ölkənin bütün əyanlarını, yəni Urmiyadan tutmuş Ərdəbilə qədər Azərbaycanın xanlarını öz yanına çağırdı, Naxçıvan hakimi Həsən xanın oğlu cəsur Kalbalı xanın da onlarla birlikdə gəlməsini tələb etdi.

Onların hamısı itaətlə onun yanına getdilər və rəiyyəti oldular. Ağa Məhəmməd onları böyük hörmətlə qarşıladı və onlardan kiminin arvadını, kiminin uşağını, kiminin də qardaşını girov alaraq, hər birinin mülkünü özünə qaytardı. Ancaq Gürcüstanın mömin çarı İrakli, Şuşa və İrəvan qalalarının hakimləri ona tabe olmaq istəmədilər. Ağa Məhəmməd xan elə həmin il öz paytaxtı Tehran şəhərinə qayıtdı. İki ildən sonra isə Süleyman xanı (Azərbaycanın sərdarı təyin edilən qardaşı oğlu – R. İ.) Təbrizə göndərdi. O, Təbrizə gələndən sonra Kalbalı xan Naxçıvanskini yanına çağırdı, ancaq onun cəsurluğundan çəkinərək, birdən qiyam qaldırmasın deyə özü ilə Tehrana, Ağa Məhəmməd xanın yanına apardı. Kalbalı xan iki il orada qaldı, müxtəlif yerlərdə çoxlu şücaətlər göstərib çoxlu qələbələr qazandı, şahın nəzərində qəhrəmana çevrildi. Eyni zamanda, Kalbalı xan həmişə həqiqəti sevirdi, ədalətli idi, (...) kilsələri və monastırları sevirdi, hərb işinin mahir bilicisi idi, müharibədə şir kimi güclüydü; bir çox müharibələrdə əsgərlərini şəxsən döyüşə aparırdı və Uca Allahın köməyi ilə həmişə qələbə qazanırdı. 1789-cu ildə (1238) Əhər (Ərdəbilin şimal-qərbində şəhər) hakimi Mustafa xan Qaradağlı çoxsaylı qoşunu ilə bizim böyük həvariyun taxt-tacının vilayətinə hücum etdi, onun bütün əmlakını qarət etdi, onda Kalbalı xan gəlib böyük bir igidliklə onun qoşunlarını darmadağın etdi, özünü isə rüsvayçılıq içində qaçmağa məcbur elədi. İki il sonra Şuşa qalasının xanı İbrahim ləzgi adlanan dağlıları başına yığıb, böyük bir qoşunla Kalbalı xanın üzərinə yeridi, ancaq o, Naxçıvanda öz qalasında möhkəmləndi. Bir neçə

gündən sonra İrəvandan və Xoydan kömək alıb, qaladan çıxdı, düşmən qoşunlarını darmadağın etdi, onu qaçmağa məcbur elədi. O, çox belə başqa igidliklər göstərib ki, burada onlardan danışmaq yersizdir.



Kalbalı xan Naxçıvanski.
Rəssam Əsgər Məmmədov

Bizim eranın 1794-cü ilində (1243) Ağa Məhəmməd xan Kalbalı xanı özü ilə götürüb Kirman (İranın cənub-şərqində şəhər) hakimi Navtalı xanla (əslində Lütfəli xanla – R. İ.) döyüşə getdi. Səkkiz aylıq mühasirədən və böyük döyüşlərdən sonra, şəhəri hücumla ələ keçirdi, onun əhalisinin bir çoxunu qılıncdan keçirdi, Navtalı xanın özünü isə əsir aldı, gözlərini çıxarıb kor etdi. Bir müddətdən sonra Navtalı xan zəhərləndi, həyatını intiharla başa vurdu. Bundan sonra daha da güclənən Ağa Məhəmməd xan öz hakimiyyətini möhkəmlətdi. Və 1795-ci ildə (1244) Ağa Məhəmməd xan Kalbalı xanı da özü ilə götürüb saysız-hesabsız İran ordusu ilə Azərbaycan ölkəsinə yollandı.

Araz çayını keçib Qarabağa üz tutdu, alınmaz və böyük

Şuşa qalasının ətrafını sarıb onu mühasirəyə aldı. Orada Avand, Çovundur, Gəncə torpaqlarını yağmaladı və çoxlu əsir götürdü. Qardaşı Əliqulu xanı 12 minlik qoşunla İrəvanı zəbt etməyə göndərdi. O, qalaya yaxınlaşıb, onun önündə düşərgə quranda bizim mömin atamız, müqəddəs Eçmiədzin taxtının müqəddəs katalikosu Luka buraya onu qarşılamağa gəldi və cürətli keşiş kimi bizim dindarları qorudu. O, Əliqulu xana çoxlu hədiyyə verərək, bununla müqəddəs Taxtı böyük itkilərdən xilas etməyə çalışdı. Katalikos Luka bu məqsəd üçün çoxlu pul sərf etdi. Müqəddəs katalikosun özü xan tərəfindən iltifatla və böyük hörmətlə qarşılandı (Qeyd edək ki, katlikosu İrəvanın taleyi heç cür maraqlandırmırdı. Onu yalnız öz dindaşlarının həyatı narahat edirdi – R. İ.).

Bir neçə gündən sonra İran sərkərdəsi Əliqulu xan İrəvanlı Məmməd xanın arvadını və qardaşını girov götürüb, oradan uzaqlaşdı, Gürcüstana getdi. Zira, Şuşa qalasını mühasirədə saxlayanAğa Məhəmməd xan şəhərin mühasirəsinin həddən artıq uzun çəkdiyini və onu ələ keçirməyin çətin olduğunu görüb, mühasirəni buraxıb, özünün bütpərəst yığnağı ilə Gürcüstana doğru hərəkət etdi. Sonra gürcü çarı mömin II İraklini qaçmağa məcbur edib, paytaxt Tiflisi ələ keçirdi, onu dağıdıb, şəhərin tikililərini xarabazara çevirdi, çoxlarını qılıncdan keçirdi və saysız-hesabsız qədər çoxlu xristianı, xüsusilə də erməniləri əsir aldı, bizim ağır günahlarımıza görə, bütün əmlakı və kilsə qablarını qarət etdi. O, xüsusilə də bizin müqəddəs Eçmiədzin Taxtına məxsus olan əmlakı – qiymətli daş-qaş və mirvarilərlə süslənmiş bahalı cübbələri, tacları və mitraları, qızıl və gümüşdən olan bahalı qabları və şəhərdə saxlanılan çoxlu yaxşı kitabları qarət etdi. Bir neçə gündən sonra Ağa Məhəmməd xan oradan geri qayıtdı, Gəncə sərhədinə doğru hərəkət etdi. Kalbalı xan Naxçıvanski İrəvanlı Məmməd xanın kürəkəni olduğu üçün Ağa Məhəmməd xan oradan onu Məmməd xanın yanına göndərdi ki, onu çarın hüzuruna gəlməyə razı salsın. Kalbalı xan İrəvana, öz qayınatası ilə yollandı, onu dilə tutmağa, sakitləşdirməyə başladı, öz həyatı ilə ona zamin olacağına söz verib, onu özü ilə Ağa Məhəmməd xanın yanına gətirdi. Ağa Məhəmməd xanı öz tayfadaşı kimi onu mehribancasına və böyük hörmətlə qəbul etdi, zira İrəvanın o hakimi İranın Qacarlar tayfasına mənsub idi. Bir müddətdən sonra Ağa Məhəmməd xan oradan uzaqlaşdı, münbit və geniş Muğan düzünə gəldi,

orada düşərgə saldı. Burada İrəvanlı Məmməd xanı bahalı hədiyyələrlə mükafatlandırıb bəylərbəyi təyin etdi və öz mülkünə buraxdı. Torpaqları Kürün o tayında olan bütün xanlar – yəni Dərbənd, Bakı, Nuxa və s. xanları Ağa Məhəmməd xana tabe olmuşdular və onun qoşunlarına məvacib ödəyirdilər, Şamaxı xanı isə hələ də ona qarşı qiyam edirdi, buna görə də Ağa Məhəmməd xan özünün cəsur sərkərdəsi Kalbalı xanı böyük bir qoşunla Şamaxıya göndərdi. O, bütün vilayəti viranəyə çevirib, Şamaxı hakimin də içində olduğu qalanı mühasirəyə aldı. Ancaq bir müddətdən sonra Ağa Məhəmməd Kalbalı xanın yerinə başqa bir sərkərdə göndərdi, onu isə yanına çağırdı, mükafatlandırdı və Naxçıvana geri yolladı. Ağa Məhəmməd xanın özü isə hazırda Muğan düzündə düşərgə salıb və qış ötüb keçəndən sonra yazda yenidən Şuşa qalasına hərəkət etməyi düşünür. Gələcəkdə nə olacağını isə yalnız Allah bilir, O bütün zamanların ağasıdır..."

("CMOMПK", 1901, 29-cu buraxılış, səh. 2-10)

(Bu qeydlər yazıldığı vaxtdan bir il sonra 1797-ci ildə Ağa Məhəmməd xan Şuşa yaxınlığında öz xidmətçisi tərəfindən öldürülmüşdür. – *Red*.) Rusiyaya birləşdiriləndən sonra Naxçıvanı ziyarət edənlərin arasında bu diyarın tədqiqatçısı Vasili Nikifiroviç Qriqoryev də olmuşdur. Onun Naxçıvan əyaləti haqqındakı kitabı hazırda biblioqrafik nadir əşyadır. Biz Kalbalı xan Naxçıvanskinin həyatı və ölümünə həsr olunmuş bu dəyərli əsərdən burada müəyyən çıxarışlar təqdim edirik. Onun haqqında V.N.Qriqoryev tərəfindən yazılmış kiçik bir oçerk, sanki, Kalbalı xanın parlaq həyatının əvvəlki təsvirini davam etdirir. Bəzi təəssüf doğuran tarixi qeyri-dəqiqlikləri şərh etmədən – oxucular bizim köməyimiz olmadan da onlara diqqət yetirəcəklər, – qeyd edək ki, göstərilən iki materialda (elə sonrakılarda da) Kalbalı xan obrazının verilən xarakteristikasında heç bir fərqlilik yoxdur. Elə təsəvvür yaranır ki, xarakteristika sanki eyni müəllif tərəfindən verilib.

Kalbalı xan həm gözü sağ, həm də kor vaxtlarında, hər

yerdə və həmişə ağıllı, cəsur, müstəqil, ehtiyatlı, öz həyat prinsiplərinə möhkəm riayət edən bir insan kimi xarakterizə edilir. Ən mühüm olanı budur ki, V.N.Qriqoryev bizə Kalbalı xanın kor edilməsi və ölümü barədə danışır. Naxçıvan Rusiyaya birləşdirildikdən dərhal sonra buraya gələndə ağ saçlı diyar hələ də bu görkəmli oğlunun yasının təsirindən çıxmamışdı. Buna görə də V.N.Qriqoryev məlumatları (təkrar edirik, bəzi qeyri-dəqiqliklərinə baxmayaraq) mühüm tarixi dəyər kəsb edir.



Kor Kalbalı xan
Naxçıvanski.
Rəssam Əsgər Məmmədov

"Ötən yüzilliyin sonlarında, 1790-cı ilə qədər Naxçıvan əyaləti müstəqil xanlıq idi və Naxçıvan, Ordubad, Mehri və Kopan mahallarından ibarətdi. Bu əyalət irsi varislik üzrə keçən xanlar tərəfindən idarə olunurdu. Onların sonuncusu Kalbalı xan idi, o, ağıllı və cəsur adam idi, gürcü çarı İraklinin dostuydu. İndiki Ağa Məhəmməd şahın əmisi Gürcüstandan geri qayıdarkən Kalbalı xanı silah gücünə tabe edə biləcəyinə ümid etməyərək, hiyləgərliyə əl atıb. Ona xüsusi rəğbəti varmış kimi öz düşərgəsinə dəvət edib. Ali hakimiyyətə nəcib etibar bəsləyən Kalbalı xan həmin dəvətə razı olub, ancaq düşərgəyə gələndən sonra dərhal kor edilib və Tehrana göndərilib, orada altı ildən çox ciddi nəzarət altında saxlanılıb.

O hadisədən sonra Naxçıvan xanlığı öz müstəqilliyini itirib və onunla birlikdə iki mahal (Mehri və Kopan) Qarabağın tabeliyinə keçib. Naxçıvan mahalının idarəsi əmisi oğlu Abbasqulu xana həvalə olunub. Fətəli şah 1797-ci il iyunun 17-də taxta çıxandan sonra Kalbalı xan azad edilib ona İrəvanda yaşamağa icazə verilib.

Gözləri görməsə də, fəal iradəyə malik olduğu üçün o, səfil həyatı sürə bilməzdi. O vaxt İrəvan vilayətini iradəsi zəif və qətiyyətsiz adam olan Məmməd xan idarə edirdi, Kalbalı xan onun

hədsiz-hüdudsuz etibarını qazanmışdı və xanın bütün fərmanlarının ruhunu o təşkil edirdi. Bu vəziyyət, knyaz Sisianovun İrəvanı zəbt etmək məqsədilə oraya uğursuz ekspedisiyasından sonra bu vilayətdə Şah hakimiyyəti qurulanacan davam etdi. O vaxt şahzadə Abbas-Mirzə, – bütün Azərbaycanın idarə edilməsi ona həvalə olunmuşdu, – Kalbalı xanı yenidən Naxçıvan xanı təyin etdi. İki ildən sonra hansısa şübhələrə görə Kalbalı xan Tehrana çağırıldı və orada həbs edildi. Onun siyasi həyatı bununla bitmədi. Beş ildən sonra – bu müddət ərzinə xanlığı onun qohumları idarə etmişdi, – o, yeniən Abbas-Mirzənin diqqətini özünə cəlb etdirdi və üçünü dəfə Naxçıvan xanı təyin edildi.



Müqəddəs Məkkə

Bu təyindən üç il sonra o, xanlığın idarəsini kiçik oğlu Ehsan xana tapşırıb, Məkkəyə ziyarətə getdi. Geri qayıdarkən Abbas-Mirzə ilə görüşmək üçün Təbrizə yollandı və 1820-ci ildə çox ahıl çağında* qəflətən vəfat etdi. Deyildiyi kimi, o, daxilən ruslara meylli olmuşdur.

(Григорьев В. Н. Стат. Опис…, С.-Пб., 1833, səh. 49-51)

SƏRT AĞA MƏHƏMMƏD ŞAH VƏ CƏSUR KALBALI XAN NAXÇIVANSKİ: SEVGİNİ NİFRƏTDƏN BİRCƏ ADDIM AYIRA BİLƏR

Kalbalı xan Naxçıvanskinin böyüklüyünü tarix artıq sübut edib və təəccüblü deyil ki, Ağa Məhəmməd şah da onun istedadını vaxtilə yüksək qiymətləndirmişdir. Qəddar İran şahının hədsiz dərəcədə özünə vurğun

* Sənədlərin təhlili və faktların müqayisəsinə əsaslanaraq Kalbalı xan Naxçıvanskinin 1823-cü ildə vəfat etdiyini güman etmək olar. *Qeyd.* – R. N. İ.

olduğunu, və özünü ən böyük, ən qüdrətli insan hesab edərək, başqasını tərifləməkdə son dərəcə xəsislik etdiyini nəzərə alsaq, onun Kalbalı xan Naxçıvanskiyə heyranlığı sonuncunun dəyər və tarixi əhəmiyyətini daha da artırır. Həqiqət naminə qeyd edək ki, Kalbalı xanın hərbi istedadını yüksək qiymətləndirən Qacarın özü də qeyri-adi sərkərdəlik qabiliyyəti ilə seçilirdi, buna görə də bu fakt xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Oxucu bunu anlamaqda çətinlik çəkə və soruşa bilər ki, bəs onda Ağa Məhəmməd şah nə üçün taxt-tac və bütün İran dövləti qarşısında çoxsaylı xidmətlərinə baxmayaraq, öz sevimli sərkərdəsini kor etmək qərarına gəlib? Bunu anlamaq üçün uşaq yaşlarında axtalanmış Ağa Məhəmməd şahın psixologiyasına nüfuz etmək lazımdır, onda heç bir çaşqınlıq yaranmayacaq.

Hələ təşəkkül tapmamış bir dövlətin lideri kimi Ağa Məhəmməd şahın şəxsiyyəti qəddarlığın, satqınlığın, yalanın, inamsızlığın və şübhənin hökmran olduğu bir dövrdə formalaşıb. Bu qəddar hökmdar özünün, heç də hamıya anlaşıqlı olmayan məqsədinə doğru irəliləyərkən, tam şəkildə etibar edə biləcəyi ətrafa malik deyildi və buna görə də İran şahı bir çox hallarda öz təsəvvür və hisslərinin diqtəsi ilə hərəkət edirdi. Tamamilə aydındır ki, onun psixi tarazlığı pozulmuşdu; bunu çoxsaylı faktlar da sübut edir.

Dövlət təhlükəsizliyinə münasibətdə satqınlıqla bağlı kiçicik bir şübhə və ya qeyri-səmimilik, həmçinin hakimimütləq hökmdara xırda bir itaətsizlik tiranda qəzəb fırtınasına səbəb olurdu və Ağa Məhəmməd şah dərhal, hətta qohumluq əlaqəsini belə nəzərə almadan istənilən yaxının qətlinə fərman verirdi: bir vaxtlar Qacara hədsiz dərəcədə sədaqətli olmuş doğma qardaşı Cəfərqulu da bu mənada istisna təşkil etməmişdi. Şahın yaxınlarından kimsə artıq ona lazım deyildisə və yaxud onun gözündə etibardan düşmüşdüsə, o, amansızcasına qətlə yetirilirdi.

İranda ölüm hökmü ilə yanaşı, göz çıxarmaq cəzası da geniş tətbiq olunurdu. İran hökmdarları arasında Ağa Məhəmməd şah bu vəhşi cəza növünə bəlkə daha tez-tez əl atırdı.

Yeri gəlmişkən, İranda insanın gözünü kor etmək üçün iki üsuldan istifadə edirdilər. Birində insanın gözlərini ucu iti bir əşya, məsələn, xəncərlə oyub çıxarırdılar. İkincisində, insanın zorla açıq saxladılan gözləri önündə odda qızardılmış metal mili yavaş-yavaş o yan – bu yana hərəkət etdirirdilər. Bu zaman gözün buynuz təbəqəsi yüksək hərarətdən bulanıqlaşır və insan həmişəlik kor olurdu. Xüsusi əmrə əsasən və yaxud cəlladda qızmar dəmir və ya mis milin təsirindən sonra gözün azacıq da olsa görə biləcəyinə şübhə yarandıqda onu əlavə olaraq xəncərin ucu ilə də oyurdular.

Göz çıxarma cəzası yalnız keçmişdə bu və ya digər xidmətləri olan insanlara qarşı tətbiq olunurdu. Bu cəzanın məqsədi insanı ağıllı olmağa məcbur etmək idi. Digər tərəfdən, tiran belə güman edirdi ki, görkəmli adamlar kor olduqdan sonra artıq dövlət üçün, hökmdarın özü üçün təhlükəli ola bilməzlər.

Özünə və yaxud dövlətə ziyan vurmaq niyyətində olduğundan şübhələndiyi insanları neytrallaşdırmaq üçün şah əyalət hakimlərinin, xanların, xalq arasında böyük nüfuz sahibi olanların, həmçinin keçmiş hökmdarların, onların xəzinələrini gizlədən yaxınlarının gözlərini çıxartdırıb, kor edirdi. Ağa Məhəmməd xan satqınlıqda şübhələndiyi hətta öz doğma qardaşlarının da gözlərini kor etdirmişdi, onun bizə Baba xan və Fətəli şah kimi məlum qardaşı oğlu isə İran taxt-tacına qəsd etdiyinə görə öz əmisi Əliqulu xanın, qətlə yetirilmiş şahın doğma qardaşının gözlərini çıxartdırmışdı.

Müasir insana bu qeyri-adi bir şey kimi görünə bilər, ancaq İranda göz çıxarma cəzasına keçmiş xidmətlərinə görə müqəssirə əta edilən bir lütf, iltifat kimi qəbul edilir və ona olan etibarın hələ tamamilə itmədiyinə dəlalət edirdi. Bu isə

aydın şeydir: axı hakimi-mütləq olan şah müqəssir hesab etdiyi adamı kor etmək əvəzinə, çox asanlıqla edam da edə bilərdi.

Kalbalı xanın kor edildikdən sonrakı yazışmalarının təhlili təsdiq edir ki, Kalbalı xan həqiqətən İran hakimiyyətindən çox narazı olduğunu, hətta şaha nifrət etdiyini bildirməklə yüksək rütbəli rus zabitləri ilə əlaqə yaratmağa çalışıb. Və Qacar, heç şübhəsiz, Kalbalı xanın ruslarla yaxınlaşması barədə hansısa məlumata malik olmuşdur.

Qraf Zubovun dəstəsinin Naxçıvan istiqamətində hərəkət edən Qafqaz korpusunun komandanı general-mayor Rimski-Korsakov da öz tərəfindən, az qala Kalbalı xandan da çox, yerli nüfuzlu hakimlərlə əlaqə yaratmağa ehtiyac duyurdu və belə bir əlaqədə çox rahatca onu tərəfdaşı ola bilərdi.

Biz Kalbalı xanın yüksək rütbəli rus zabitlərinə ünvanlanan məktublardan ibarət geniş bir kolleksiyaya malikik. Naxçıvan xanı belə yazışmalardan imtina etmirdi, əksinə, ilk fürsətdəcə, özü də aydın, ağıllı məktublar yazırdı. Bu məktublar sübut edir ki, Kalbalı xanın kor olmamışdan əvvəl də rus üsul-idarəsinə simpatiyası olub, onu İran üsul-idarəsindən üstün tutub. Bu məktublarda bəzən sətir aralarında onun Rusiya hökumətinin ağıllı və cəzbedici siyasətinin yerlərdəki hərbi canişinlər tərəfindən təhrif olunması ilə əlaqədar təəssüf hisslərini də oxumaq mümkündür. Bu, həqiqətən belə idi.

Rus hökumətinin yeritdiyi siyasətin təhrif olunmasına Qafqazdakı baş komandan P.D.Sisianovun hərəkətləri misal ola bilər. Onun özü isə ədəbsizlik və hətta kobudluq nümunəsidir. Onunla yazışma prosesində Kalbalı xan bunun bilavasitə şahidi olmuşdu.

Kalbalı xanın rus hərbi canişinlərinə məktublarında bəzi qonşu əyalətlərin hakimlərindəki kimi yaltaqlıq yoxdur. Kalbalı xan öz fikirlərini adresatın rütbəsi və ya vəzifəsindən asılı olmadan, dəlillərlə əsaslandıraraq ifadə edirdi.

Naxçıvan sərhədlərinin təhlükəsizliyini bütün gücü ilə

təmin etməyə çalışan Kalbalı xanın həqiqətən də xanlığın sərhədlərinə yaxınlaşan rus qoşunlarının rəhbərlərindən onların nə niyyətlə gəldiklərini soruşmaq şakəri vardı. Əgər onların xanlığa müdaxilə edəcəyini öyrənsəydi, bu hücumu dəf etməyə hazırlaşacaqdı.

Çox güman ki, şah Kalbalı xanın ruslarla yazışdığına dəqiq əmin olmuşdu. Rus adı isə Ağa Məhəmməd şaha, qırmızı rəng döyüş öküzünü necə özündən çıxarırsa, o cür pis təsir etmiş, onu özündən çıxarmışdı. Və artıq bu yazışmaların hansı məzmunda olduğunun onun üçün heç bir əhəmiyyəti yox idi. Hətta Kalbalı bu yazışmaları ona təqdim etsəydi belə onları kim araşdıracaqdı? Yazışma faktının özü artıq hər şeyə şübhəylə yanaşan şaha Kalbalı xanı satqınlıqda günahlandırmaq üçün bəhanə vermişdi. Şahla söhbət zamanı ehtiyatlı Kalbalı xan ən etibarlı taktikanı seçmişdi. Onun yazışmaları təqdim etmək tələbinə rədd cavabı vermişdi. Kalbalı xandan daha az məşhur və yaxud daha əhəmiyyətli başqa bir xan və ya hakim dərhal edam edilərdi. Nəzərə almaq lazımdır ki, ruslarla yazışma barədə söhbət həm də Zubovun dəstəsinin İran ərazisinə müdaxiləyə hazırlaşdığı bir dövrdə gedirdi.

Ağa Məhəmməd şahın bayrağı altında iştirak etdiyi istilaçı yürüşlərdə, həmçinin xanlığı digər hakimlərin müdaxiləsindən qoruyarkən Kalbalı xan dəfələrlə döyüşdən qalib çıxmışdı. Bununla yanaşı, məlum olduğu kimi, Ağa Məhəmməd şahın bu cür istedadlı sərkərdəsi o qədər də çox deyildi və onun Kalbalı xana ehtiyacı vardı. Buna görə də şah bu cəsur əsgəri edam etdirməmişdi.

Yeri gəlmişkən, Ağa Məhəmməd şahın ünvanına nə qədər qorxunc şeylər yazılsa da, tarix bizə onun ağıl, işgüzarlıq və təşkilatçılıq sarıdan hansısa bir qüsura malik olduğunu təsdiqləyən heç bir dəlil gətirib çatdırmamışdır. Əksinə şah heç pis psixoloq olmamış, öz qərarlarını hər zaman ölçüb-biçərək verməyi, faydalı əməl və hərəkətləri qiymətləndirməyi və lazım gələndə öz ətrafının fikrinə qulaq asmağı bacarmışdır.

Ağa Məhəmməd şah güclü sərkərdələr dəstəsi yetişdirmiş və onları tez-tez müzəffər yürüşlərə göndərmişdir. Heç bir tiran təkcə qəddarlıq hesabına bu qədər uzun bir müddət ərzində özünü ətrafına və xalqına qəbul etdirə, onun dəstəyinə nail ola, müntəzəm surətdə, heç bir çətinlik çəkmədən döyüşkən ordu formalaşdıra və öz silahdaşlarının köməyi ilə yeni-yeni ərazilər fəth edə bilməz.

Bizə məlum olduğu kimi, Kalbalı xan döyüş əməliyyatlarını müstəqil şəkildə, şahın nəzarəti və rəhbərliyi olmadan həyata keçirmişdir. Uğurlu döyüş əməliyyatlarının şah tərəfindən bəyənildiyinin təzahürü sevgi və nəvaziş ola bilərdi. Bunların kimə ziyanı var, kim onlardan imtina edər? Ancaq sevgi olan yerdə qısqanclıq da mövcuddur. Axtalanmış Qacar, tarixin sübut etdiyi kimi, hədsiz dərəcədə qısqanc adam olmuşdur. Qeyri-sağlam qısqanclıq bu tip zədəsi olan insanlar üçün çox xarakterikdir.

Kalbalı xan xoş, ünsiyyətcil adam idi, döyüş meydanında qazandığı çoxsaylı qələbələrə görə isə onu sevməmək olmazdı. Şah da, heç şübhəsiz, onu çox sevirdi. Lakin hökmdar, Kalbalı xanın onun ən qatı düşməni olan ruslarla əlaqəyə girməsinə görə özünü təhqir olunmuş kimi hiss edirdi və bu əlaqəni özünə, şaha qarşı yaxşılığı yamanlıq əlamətinin təzahürü hesab edirdi. Ağa Məhəmməd şah, əsl eqoist kimi, belə hesab edirdi ki, Kalbalı xan yalnız və yalnız ona məxsusdur. Naxçıvan xanın başqa bir hakimiyyətə, xüsusilə də Rusiya hakimiyyətinə simpatiya bəsləmək hüququ yox idi.

Rusiya qoşunlarının İrana müdaxiləsindən qorxan Ağa Məhəmməd şah hələ Qarabağ və Gürcüstana yürüş etməmişdən əvvəl, 1797-ci il mart ayının əvvəllərində Azərbaycanın sərdarı Süleyman xanı Naxçıvana göndərdi və ona xanlığın bütün əhalisini İranın içərilərinə köçürməyi tapşırdı: şah istəyirdi ki, rus qoşunları irəliləyərkən burada heç bir həyat əlaməti olmasın və onlar azuqə tapa bilməsinlər; yəni bu münbit əyalət günəşdən qovurulmuş səhraya çevrilsin.

Naxçıvana hücumlar az olmayıb, ancaq Kalbalı xan hər dəfə bu ərazini dağılmaqdan qoruya, başı çox bəlalar çəkmiş xalqın doğma yurd-yuvasından qovulmasının qarşısını ala bilmişdir.

Belə bir ağır müsibətə yol verməmək üçün Kalbalı xan bahalı hədiyyələrlə Ərdəbilə gəlir və Naxçıvan xanlığı əhalisini İrana sürgün etməmək üçün Ağa Məhəmməd şahı yola gətirməyə çalışır. Şah dərhal Naxçıvan xanından rus hərbçiləri ilə əlaqə qurmaq cəhdləri barədə izahat və onlarla olan bütün yazışmalarını tələb edir. Ancaq xan yazışmaları təqdim etməkdən boyun qaçırır və bu faktı təsdiq etmir.

Kalbalı xanın satqın olması düşüncəsinə qapılan şahı bu görünməmiş dikbaşlıq daha da qəzəbləndirdi: təbəəsi onun Naxçıvan əhalisinin İrana köçürülməsi barədə verdiyi qərara tabe olmaq istəmirdi. Xasiyyətcə müvazinətsiz bir adam olan Qacarın səbir kasası aşıb-daşdı. Nə bahalı hədiyyələr, nə də Kalbalı xanın öz böyük oğlu Nəzərəli xan amanat kimi şaha verməsi onun qəzəbini soyuda bilmədi. Ancaq və ancaq ona, Qacara sadiq olan, bu vaxtadək Rusiya hakimiyyət dairələri ilə əlaqə qurmağa cəhd etdiyi görünməmiş cəsur əsgər Kalbalı xan indi etibarsız olmuşdu.

Ta qədimlərdən bəşəriyyətə məlumdur ki, qısqanclıq ən möhkəm, ən güclü sevgiyə, ən dərin etibarın özünə belə ölümcül zərbə vurmağa qadirdir. Axtalanmış Qacarda bu hissin xüsusilə kəskin olduğuna azacıq belə şübhə doğuracaq heç bir səbəb yoxdur. Bu hiss qəflətən dövlətə xəyanət, yəni xəyanət şübhəsi ilə qatılaşanda Qacar hətta doğma qardaşlarına belə rəhm eləmirdi. Ağa Məhəmməd xan hədsiz dərəcədə etibar etdiyi Kalbalı xandan belə naşükürlük gözləmirdi. Buna görə də sevgi və heyranlıqla qatı nifrət arasında yalnız bircə addım ola bilərdi, axtalanmış Qacarda isə bu addım daha qısa idi. Belə bir situasiyada dəlil-sübut tələb olunmur, yalnız emosiyalar hərəkət edir. Qəddar şah cilovlaya bilmədiyi qəzəbinin aşıb-daşdığı anda o günə qədər çox

sevdiyi cəsur sərkərdəsi Kalbalı xanın gözlərinin çıxarmasına fərman verir.

Kalbalı xan kor edildikdən sonra əvvəlcə Tehranda (ya da Qəzvində) həbs altında saxlanılır, sonra İrəvan xanlığına sürgün edilir. Orada beş ilə yaxın (1802-ci ilin sonuna və ya-xud 1803-cü ilin əvvəlinə qədər) kiçik yaşlı İrəvanlı Məm-məd xanın qəyyumu və müşaviri olur, faktiki olaraq isə xan-lığa rəhbərlik, onun qoşunlarına komandirlik edir və hətta onları döyüşə aparır *(Бутков П. Г. "Материалы…" c. 2, səh. 427 – 428).*

Əlbəttə, əgər Kalbalı xan öz hökmdarının ayaqları altına sərilib, göz yaşı tökərək yalvara-yalvara bağışlanmasını dilə-səydi, yaltaqlığa düşkün olan şah, bəlkə də onu bağışlayardı. Ancaq, öz qədir-qiymətini yaxşı bilən, hətta hakimi-mütləq tiranın önündə belə bu cür alçalmağı bacarmayan Naxçıvan xanı, özünəvurğun hökmdarı daha da qəzəbləndirmiş, buna görə də çox ağır şəkildə cəzalandırılmışdır. Öz inadcıllığı və əyilməz danışıq tərzi ilə Kalbalı xan Naxçıvanski qəzəbindən qudurmuş şaha ağır cəza üçün bəhanə verə bilərdi. Tiran ruhlu hökmdarlar, hətta axtalanmış olmasalar belə, tez-tez bu cür qəzəb azarına tutulurlar.

Naxçıvan xanlığı qayğıkeş hakimi və qısqanc müda-fiəçisindən məhrum olandan sonra bu qədim münbit əyalət xarabazara çevrildi, əhalisi isə Araz çayının o tayına köçü-rüldü. Ancaq Kalbalı xan doğma xanlığı həmişəlik tərk et-məmişdi.

O buraya kor halda qayıdacaq olsa da, dünyanı görən-lərdən daha yaxşı hiss edəcəkdi.



Kalbalı xan Naxçıvanski.
Rəssam Əsgər Məmmədov

**Ağır zədə almasına baxmayaraq,
kor Kalbalı xan cəsur cəngavər olaraq qalacaq
və əvvəlki kimi yenə qoşunlarının başına keçib
Naxçıvan sərhədlərinin təhlükəsizliyini və
onun dinc həyatını sayıqlıqla qoruyacaqdır.
Əvvəllər olduğu kimi o yenə də
silah gücündən və ölümdən qorxmadan
inadla haqq və ədaləti müdafiə edəcəkdi.**



Kalbalı xan və Fətəli şah Naxçıvanın XVIII – XIX əsrə aid əlyazma sənədlərində

KOR KALBALI XAN NAXÇIVANSKİ: İRAN SARAYI TƏRƏFİNDƏN ŞƏXSİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

Rus ekspansiyası torpaqları Gürcüstanla həmsərhəd olan və yaxud qonşu regionlarda yerləşən Yaxın Şərq hökmdarlarının qulaqlarını şəklətdi. Naxçıvan da daxil olmaqla onların hamısı imperiyanın sonrakı planları haqda heç nə bilmədən elə bir situasiyaya düşdülər ki, ya hökmən müdafiə vasitələri tapmalı, ya da elə ilk çağırışa əsasən onun təbəəliyini qəbul etməli idilər. Rusiya ilə İran arasında başlanan müharibə vəziyyəti daha da gərginləşdirmişdi. Azərbaycan ərazisindəki xanlıqlar, nominal şəkildə olsa da, İranın hakimiyyətini qəbul etmişdilər, şah taxtının təyin etdiyi sərdar Abbas Mirzənin tələbinə əsasən İrana sursat və azuqə, lazım gəldikdə isə öz hərbi qüvvələrini göndərirdilər. Rus qoşunları yaxınlaşdıqda isə onların tələbini yerinə yetirib, rus silahının gücünə tabe olur, bəzən hətta əbədi olaraq, rus təbəəliyini qəbul edirdilər. İran qoşunlarının hücumu zamanı qırğın və dağıntılardan qorunmağa çalışaraq bu kiçik əyalətlər İran hakimiyyətini qəbul etməyə məcbur idilər, Rusiya isə belə hallarda onları satqın hesab edirdi. Yalnız iki xanlıq – Naxçıvan və İrəvan xanlıqları – Rusiyanın dəfələrlə onları öz himayəsi altına keçməsinə məcbur etməyə cəhd göstərməsinə baxmayaraq (İrəvan qalasına isə rus qoşunları iki dəfə uğursuz hücum etmiş, yalnız 1827-ci ildə general Paskeviç qalanı

və bu xanlığı tabe etdirmişdi), 1828-ci ilin fevralında Türkmənçay müqaviləsi bağlanana qədər İranın tərkibində qalmışdır. Naxçıvan xanlığı öz müstəqilliyini qoruyub saxlaya bilmiş və rusların "xanlıq könüllü şəkildə Rusiyanın himayədarlığını qəbul etməlidir, yoxsa o, rus silahının gücünə vassal hüququnda imperiyaya birləşdiriləcək" kimi şərt və təhdidlərinə boyun əyməmişdir. Ədalət naminə qeyd edək ki, Naxçıvan xanlığı həmişə Rusiyaya loyal münasibət bəsləyib, rus qoşunlarına müqavimət göstərməyib, imkan daxilində onlara azuqə yardımı göstərib. Naxçıvan əhalisi XVIII əsrin sonlarında və XIX əsrin birinci rübündə Rusiyaya qarşı dost əhvalruhiyyədə olub və belə bir ictimai rəyi xanlığın hakimi Kalbalı xan özü yaradıb. Xüsusilə də "XVII – XIX əsrlərə aid Naxçıvan əlyazma sənədləri" toplusunda dərc edilən materiallar belə bir mülahizə irəli sürməyə imkan verir.

Sovet hakimiyyəti dövründə fars dilindən rus dilinə tərcümə edilən və 1936-cı ildə tanınmış sovet şərqşünası **Y.N.MARRIN** (1893 – 1935) redaktorluğu altında nəşr edilən həmin əlyazma sənədlərində (topluda bu cür 24 sənəd var) Səfəvi dövründən başlayaraq cərəyan edən hadisələr öz əksini tapmışdır; burada hətta Səfi şahın (1038–1052) fərmanı da xatırladılır. Bizim üçün Gürcüstanın Rusiya imperiyasına birləşdirilməsi (XIX əsrin əvvəli), Rusiya – İran müharibəsi (1804–1813) zamanından başlayaraq Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsinə qədər olan dövrə aid materiallar xüsusilə maraq doğurur. Burada bəhs etdiyimiz mövzu ilə bağlı həmin topludan 6 sənəd seçilmişdir.



Şərqşünas
Y. N. Marr

Bu unikal tarixi sənədlər toplusunun tərtibçi kollektivinin

əməyini itirmədən, tarixi həqiqət naminə qeyd etmək lazımdır ki, bu sənədlərə yazılan şərhlər həddən artıq siyasiləşdirilmiş, hətta biz deyərdik, sovetləşdirilmişdir ki, bu da tərcümələrin özünün düzgün anlaşılmasına əngəl törədir. Bu son dərəcə qiymətli toplunun tərtibçi kollektivi, görünür, İran sənədlərinin aid olduğu dövrdən əvvəl baş vermiş hadisələrlə ətraflı tanış olmaq əziyyətinə qatlaşmayıblar. Məsələn, müşayiət mətnlərində Rusiya ilə əlaqə qurmaqda şübhə doğurduğuna görə Ağa Məhəmməd şah Qacar tərəfindən 1797-ci ilin mayında kor edilən və Naxçıvan xanlığının hakimliyindən uzaqlaşdırılan, yalnız İran şahı Fətəli xanın iradəsi ilə üç dəfə yenidən xanlığın hakimliyinə qaytarılan Kalbalı xan Naxçıvanski kimi məşhur şəxsiyyətin, qısaca da olsa, xarakteristikası yoxdur. Kalbalı xan sonuncu qayıdışdan sonra – Naxçıvan əlyazma sənədlərinə görə bu hadisə 1816-cı ildə (yəqin ki, həmin ilin lap sonlarında) baş verib – Kalbalı xan ömrünün sonuna kimi, 1823-cü ilə qədər xanlığa başçılıq edib.

Toplu tərtibçilərinin Naxçıvan xanlığının guya İrəvan xanlığından asılı vəziyyətdə olması iddiasının heç bir dəlil-sübutu yoxdur. Əslində isə, əgər belə bir müvəqqəti asılılıq mövcud olmuşdusa da, bu, İrəvan xanlığının Naxçıvan xanlığından asılılığı ola bilərdi. Daha dəqiqi isə, burada asılılıqdan deyil, iki xanlıq arasında xanların özlərinin qohumluq əlaqəsi və bir-birinə olan etibarına əsaslanan fəaliyyət birliyindən danışmaq doğru olardı. Məsələ bundadır ki, kor ediləndən sonra Kalbalı xan Naxçıvanski Fətəli şahın buyruğu ilə bir müddət azyaşlı İrəvan xanının yanında qalmış, bu xanlığın qoşunlarına rəhbərlik etmiş, faktiki olaraq, hər iki xanlığın başında dayanmışdır.

Kalbalı xanın Naxçıvan hakimliyinə qaytarılması və bu səbəbdən onun İrəvan xanlığından geri çağırılması heç də İran şahının Kalbalı xanın Qacar tərəfindən kor edilməsinə görə peşmançılığının təzahürü deyil, məcburi bir tədbir idi.

İran İrəvan xanlığını müstəqillikdən məhrum etmək istəyirdi, Kalbalı xanın orada olması isə buna əngəl törədirdi. Digər tərəfdən, Naxçıvanda Kalbalı xan kimi təcrübəli və iradəli şəxsin – hətta kor edildikdən sonra belə, – yoxluğu İranın Rusiya ilə sərhəd zonasında forpostu olan Naxçıvan xanlığının döyüş qabiliyyətini zəiflədirdi. Rusiya – İran müharibəsinin yaxınlaşması və İran sarayının Naxçıvan xanlığının mövcud sahiblərindən – kor Kalbalı xanın qohumlarından – narazılığı İran şahını Kalbalı xanı Naxçıvan əyalətinin hakimi təyin etməyə məcbur eləmiş və bununla da faktiki olaraq İrəvan xanlığının İran hakimiyyətinə tabe olmasını gerçəkləşdirmişdi. Həmişə – həm gözü görən, həm də kor vaxtlarında bacarıqlı idarəçi və igid sərkərdə kimi böyük nüfuza malik olan Kalbalı xan isə ona həvalə olunan Naxçıvan əyalətinə inamla rəhbərlik etmişdir.

Müharibənin başlaması İran hökumətini kəngərlilərin yerdəyişmə azadlığını məhdudlaşdırmağa vadar etdi: əvvəllər köçəri tayfa olmuş kəngərlilər əkinçiliklə, müxtəlif tikinti işləri ilə məşğul olur və lazım gəldikdə sərbəst şəkildə yaşayış yerlərini dəyişdirirdilər. Kalbalı xan kəngərlilərə yaşayış yerini dəyişdirməyin qadağan olunması ilə bağlı şah buyruğunu Naxçıvan əyalətində də yerinə yetirdi və onlara yalnız hərbi xidmətlə məşğul olmaq vəzifəsini təyin etdi. Kalbalı xana kəngərlilərin baş rəisi Lütfəli xan vasitəsilə kəngərli qoşunun təşkilinə və oradakı nizam-intizama nəzarət etmək hüququ verildi. Kəngərlilər səfərbərliyə çağırılanda xan onları at, sursat və azuqə ilə təmin etməli idi.

Tərcümə olunmuş sənədlərdə daha bir mühüm ziddiyyətin şahidi oluruq. İran hökuməti Kalbalı xanın şəxsiyyəti və xidmətlərini tərifləyib göylərə qaldırıldığı halda Rusiyanın o dövrkü hərbi sənədlərində göstərilir ki, İran hökuməti şəxsən Kalbalı xana və onun bütün ailəsinə etibar etmir.

Kor Kalbalı xanın Naxçıvan əyalətinin rəhbərliyinə qayıdışından sonra İran şahı bütün müraciət və məktublarında

hər dəfə Ağa Məhəmməd şah Qacarın ona xəstəhal dərəcədə şübhə ilə yanaşmasının əksinə olaraq sarayın xana böyük etibar bəslədiyini vurğulayır. Qacarın qardaşı oğlu Fətəli şah dəfələrlə təkcə xana etibar etdiyini bildirmir, həm də özünün ona sədaqətli olacağına and içir və beləliklə də xanlığı gələcəkdə uğurlu idarə edə bilməsi üçün Kalbalı xana əvvəlcədən zəmanət verir.

Tərtibçilər oxucuya tərcümələrdə Naxçıvan xanın adı çəkilən böyük oğlu Nəzərəli bəyin, sonralar isə Nəzərəli xanın atası kor edildikdən sonra amanat kimi İrana göndərilməsi və orada Kəngərli süvari qoşunun komandiri vəzifəsinə irəli çəkilməsinin İran sarayının birbaş onun özünə və dolayısı ilə atasına olan yüksək etibarın təzahürü olması barədə heç bir məlumat vermirlər.

Kalbalı xana etibar edildiyi Fətəli şahın başqa bir fərmanında özünü büruzə verir: həmin fərmanda Kalbalı xanın kiçik oğlu, sərbaz batalyonun komandiri, polkovnik Ehsan bəy türklərlə müharibədə göstərdiyi igidliyə görə xan titulu ilə təltif edilir. Ehsan bəy döyüşdə nə qədər böyük qəhrəmanlıqlar göstərmiş olsa da, əgər saray onun atasının İrana xəyanət etdiyini düşünsəydi, ona heç vaxt xan titulu verməzdi. Oğlunun xan titulu ilə mükafatlandırılması sarayda Kalbalı xana olan hörmətin daha bir təsdiqidir. Eyni zamanda onu da qeyd edək ki, tərtibçilər bu sənədə yazdıqları şərhlərdə Ehsan bəy Naxçıvanski şəxsiyyətini əhəmiyyətini qərəzli şəkildə kiçildir, xan və bəylərə feodal və sovet xalqının düşməni kimi əbədi bolşevik münasibəti nümayiş etdirirlər.

Əgər tərtibçilər İranda XVIII əsrin sonuncu rübündə qəddar Ağa Məhəmməd xanın hakimiyyətə gəldiyi vaxtdan başlayaraq bu narahat və od tutub yanan diyarda baş verən heç olmasa əsas hadisələri nəzərə alsaydılar, tərcümələrə yazılan şərhlər daha məzmunlu ola bilərdi.

Bununla belə, bizim bu iradlarımız "XVII – XIX əsrlərə aid Naxçıvan əlyazma sənədləri" toplusunun dəyərini

azaltmaq məqsədi güdmür. Əfsanəvi qəhrəmanımız **Kalbalı xan Naxçıvanski** və onun Fətəli şahla qarşılıqlı münasibətləri haqda materialları, o cümlədən Kalbalı xanın özü tərəfindən tərtib edilən materialları bu topluya daxil etdikləri üçün tərtibçilərə səmimi-qəlbdən minnətdarıq.

Bu məşhur şəxsiyyət haqqında həmin illərə aid rus hərbi raportlarında da məlumatlar mövcuddur. İndi isə bizim ixtiyarımızda qısa bir xronoloji dövrü əhatə etsə də, İran tərəfində hazırlanmış bir neçə sənəd var. İran sarayının kor Kalbalı xana necə münasibət bəslədiyini açıb göstərən sənədli məlumatlar Qafqazın, Cənubi Qafqazın və Yaxın Şərqin tarixinə böyük töhfələr vermiş bu görkəmli şəxsiyyəti tam və obyektiv şəkildə qiymətləndirə bilmək üçün çox mühüm əhəmiyyət kəsb edir.

ŞAHIN NƏZƏRLƏRİ KÖHNƏ VƏ ƏDALƏTLİ QULLUQÇUYA – YÜKSƏK MƏNSƏBLİ KALBALI XANA YÖNƏLİB

İran rəhbərliyi Rusiya ilə müharibəyə hazırlaşdığını bəyan etdi və bu məqsəd üçün 50 min nəfər səfərbər edərək, onları *"taxt-tacın incisi"* şahzadə Abbas Mirzənin ixtiyarına verdi. Naxçıvan xanlığı ərazisində yaşayan köçəri kəngərli tayfasından da hərbi qüvvə kimi istifadə olunması planlaşdırılmışdı. Kəngərlilər döyüşkən tayfa idi; onların döyüş vərdişləri və təcrübəsindən yararlana bilmək üçün İran hökuməti onları ağılı şəkildə strateji əhəmiyyət kəsb edən, mühafizə-müdafiə funksiyalarının yerinə yetirilməsi tələb olunan sərhəd rayonlarına yaymağa çalışırdı.

İran qoşunlarına komandanlıq edən şahzadə Abbas Mirzənin yanında kor Kalbalı xan Naxçıvanskinin oğlu **Nəzərəli bəy** də vardı. 1797-ci ildə atası kor edildikdən sonra iranlılar onu amanat kimi özləri ilə götürmüşdülər. İndi atası kimi ona da etibar edilmişdi. Nəzərəli bəy tərifl ərə layiq görülmüş, ona Naxçıvan ərazisində kəngərlilərdən ibarət süvari qoşunu formalaşdırmaq

və ona komandirlik etmək tapşırılmışdı. Kəngərlilərin hazırlaşdırılmasına cavabdeh isə əyalətin hakimi Kalbalı xan Naxçıvanski təyin olunmuşdu.



Şahzadə
Abbas Mirzə

Fətəli şahın aşağıda verilən və komandirlər, sultanlar, kətxudalar və rişsefidlərə (möhtərəm qocalara) rəhbərlik üçün yazılan fərmanından aydın olur ki, Kalbalı xan İran hökumətində əvvəlki kimi şübhə altında deyil. Fərmanda kəngərli tayfasına və Naxçıvan əyalətinin hakimi Kalbalı xana iltifat ifadə olunur. Görünür, bu fərman Kalbalı xanın Naxçıvan xanlığının hakimliyinə qaytarıldığı və oğlunun yeni yüksək vəzifəyə təyin edildiyi dövrə aiddir. Fərmanda kəngərli tayfasının müxtəlif təbəqələrinin nümayəndələrinə bildirilir ki, Kalbalı xan və onun oğlu Nəzərəli bəy onların üzərində hökm sahibidirlər.

Fərman kəngərlilərin İranın içərilərinə köçürülməsi ilə bağlı əvvəlki planı ləğv edir və bu köçəri tayfa üçün daimi yaşayış yeri kimi Naxçıvan əyalətini müəyyənləşdirir. Bu da Kalbalı xan Naxçıvanskiyə etibarın bir əlamətidir. Fərmanda ona xüsusi diqqət yetirilir: *"Yüksək və ali mənsəbli, xoşbəxtlik sığınacağı, sədaqət timsalı Kalbalı xan köhnə qulluqçular sırasına daxildir və daim ədalət işığı saçan şah nəzərləri indi ona tərəf yönəlib"*. Şahın ümidləri doğrulanda isə, Fətəli şahın fərmanında bəyan edildiyi kimi, *"biz onu cürbəcür diqqət və qayğı ilə xoşbəxt edəcək, ona ehtiram və iltifat göstərəcəyik"*. Şah fərmanındakı bu cür ifadələrdən sonra, əlbəttə ki, Kalbalı xana qarşı heç bir etimadsızlıqdan söhbət gedə bilməz.

Bu fərmanda (həmçinin digərlərində də) Kalbalı xanın

kor olduğuna dair hətta eyhama belə rast gəlmirik – yeri gəlmişkən rus raportları bu cür eyhamlarla doludur – görünür, şah Kalbalı xana gözdən şikəstliyini xatırlatmağa çalışmır; bu da Fətəli şahın müdrikliyinə dəlalət edir.

Qarşıda müharibə gözlənirkən, adətən köhnə iddialar unudulur və cəmiyyətin sıx birləşməsi üçün tədbirlər görülür. Bizə elə gəlir ki, şah fərmanı bu vəzifələri ağıllı şəkildə həll edir, çünki Naxçıvana qaytarılan kor Kalbalı xan artıq ona qarşı yönələn ağır şübhələrdən qurtularaq öz şücaəti və müdrikliyi ilə doğma diyarına daha çox xeyir verə bilərdi.

Fərmanın tarixi əvvəldə 1802-ci il olaraq göstərilmiş, sonunda isə 1803-cü il kimi qeyd edilmişdir. Çox güman ki, Kalbalı xanın Naxçıvana qayıtması məhz 1803-cü ilin əvvəlində baş vermişdir və bu tarix rus sənədləri ilə ziddiyyət təşkil etmir.

Sənəd № 1

Rəhman və rəhim olan Allahın adıyla!
Fətəli şahın möhürü, tarix 1217-ci (1802-ci) il

Qərara alındı. Yüksək zatlılar, yüksək dərəcə sahibləri, şahın mərhəmətinin əhatə etdiyi bütün tayfaların səmimi sədaqəti qeyd olunan komandirləri, sultanları, kətxudaları, nüfuzlu ağsaqqalları şərəfləndirilmiş və təriflərə layiq görülmüşlər.

Onlar bilirlər ki, şahlığın, şahlıq incisinin bu qalibiyyətli əsrində şahzadə Abbas Mirzə bəzi əmir və komandirlər və şahlığın əsasını təşkil edən astanadan 50 000 cəsur döyüşçü ilə birlikdə xain rus tayfasını cəzalandırmaq, islah etmək, onların fitnə fəsadlarını dəf etmək və aradan qaldırmaq, Gürcüstanın mühüm əyalətlərində işləri qaydaya salmaq məqsədi ilə həmin sərhəd ölkələrə təyin edilmiş və göndərilmişdir. Yüksək zatlı, yüksək dərəcəli, xoşbəxt olan, sədaqət göstərən xan temperamentinə malik olan Nəzərəli bəy Kəngərliyə də bizə yuxarıda adı çəkilən birlikdə hərəkət etməyi əmr etmişik.

Yüksək zatlılar bu ədalətli astananın köhnə xidmətçiləri sırasına mənsub və özlərini qurban verməyə hazır olduqları üçün onlar yüksəklik xəzinəsi olan cənabın tayfalarıdır, buna

görə də qoşun o diyara gələndən, orada islah izləri qoyandan sonra və biz xoşbəxt düşərgə də xidmət və qəlbimizi qurban vermək qurşağının ətəyini belimizə bərkidəndən sonra onların xidmətlərini mükafatlandırmaq lazımdır.

Rəhim olan Allahın izni ilə, yaxın günlərdə, dünyanın bəzəyi şah karvanı, Allahın tam köməyi ilə hökumət, səadət iqamətgahından yola çıxanda, böyüklük günəşi o diyarın üzərində vaxtında parlayaraq, şöhrət və xoşbəxtlik yaradana qulluq və qəlbini fəda etmək dərəcəsi diqqətə alınaraq, hökmdarın qüdrətli hökumətinə xidməti üzə çıxarılacaq və ona aydınlıq gətiriləcəkdir. O zaman onlar rəngarəng şah diqqətinin və lütfünün obyektinə çevriləcəklər.

Yüksək mənsəbli, xüsusilə yüksək mənsəbli, xoşbəxtlik sığınacağı, sədaqət göstərən Kalbalı xan köhnə xidmətçilər sırasına mənsub olduğuna və daim ədalət nümayiş etdirdiyinə görə şahın nəzərləri ona tərəf yönəlmişdir, buna görə də xoşbəxt şah karvanı o hüdudlara gələndən sonra biz onu rəngarəng diqqət və lütflə şad edəcəyik, ona hörmət və ehtiram göstərəcək, o tayfanın hamısına isə öz mərhəmətimizi bəxş edəcəyik (seçmə – P.İ.). Mərhəmət və xoşbəxtlik naminə biz o tayfanın köçürülmədən azad olunmasını əmr etdik ki, köçürülmə nəticəsində onların heç biri ölməsin və onlar həmişə ağılla, parlaq günəşlə vəhdətdə ola bilsinlər, ümid və tam dinclik içərisində yaşasınlar, hamılıqla xidmətlə məşğul olsunlar, özlərini padşahın misilsiz lütflərinin obyektinə çevirsinlər və bunu öz borcları bilsinlər.

1218-ci ilin (1803) zilhiccətül-həram ayında yazıldı.

KALBALI XANIN KƏNGƏRLİ TAYFASININ RƏİSİ LÜTFƏLİ XANA VƏ SÜVARİ QOŞUNUNUN KOMANDİRİ NƏZƏRƏLİ XANA ƏMRLƏRİ

2 və 3 nömrəli sənədlər – Kalbalı Naxçıvanskinin əmrləridir, bu sənədlər İran dövlətinin Rusiya imperiyası ilə müharibə vəziyyətində olduğu dövrdə yazılıb.

Çox güman ki, şah sarayı Rusiya qoşunlarının qələbələrindən narahat idi və öz qoşunlarının sayca artırılması və möhkəmləndirilməsi üçün tədbirlər görmək məcburiyyətində qalmışdı.

Şahzadə Abbas Mirzədən 500 atlı döyüşçünün hazırlanması və İrəvan xanlığına onun sərəncamına göndərilməsi barədə əmr alınmışdı. Kalbalı xanın əmrlərindən biri bu süvari dəstəsinin hazırlanması və silah-sursatla təchiz edilməsi məsuliyyətini Kəngərli tayfasının rəisi Hacı Lütfəli xana həvalə edir.

Buna diqqət yetirək ki, Lütfəli xanın Məkkəni ziyarət edib hacı olması həm də onun İran taxt-tacına sədaqətli olduğunu göstərir.

Digər, üçüncü əmr isə Kəngərli süvari dəstəsinin komandiri Nəzərəli xana ünvanlanıb (bunu da qeyd edək ki, Kalbalı xanın oğlu artıq bəylikdən xan tituluna yüksəldilib). Naxçıvan hakimi Kalbalı xan həmin əmrdə Nəzərəli xandan atlıları müəyyən olunmuş tələblərə uyğun şəkildə qəbul etməyi, dəstədə qayda-qanun və lazımi nizam-intizam yaratmağı tələb edir.

Burada bir şeyi də qeyd etmək vacibdir. Süvari dəstəsinin komandiri Kəngərli tayfasının deyil, xan ailəsinin nümayəndəsidir. Naxçıvan Türkmənçay sülh müqaviləsinə əsasən Rusiyanın tərkibinə daxil edildikdən sonra da bu belə davam edəcəkdi.

Kəngərli süvari dəstəsinin ayrı-ayrı hissələrinə bu tayfanın üzvləri (sultanlar, kətxudalar) komandirlik edəcəkdi, ancaq bütün süvari dəstəsinin komandiri xan ailəsindən olacaq və Rusiya imperator ordusunun zabiti rütbəsini daşıyacaqdı. Tayfa qayda-qanunları süvari dəstəsinin daxilində davam etsə də, onun hüdudlarından kənara çıxmır.

Sənəd № 2

NAXÇIVAN XANLIĞI HAKİMİNİN KƏNGƏRLİ TAYFASININ RƏİSİ LÜTFƏLİ SULTANA ƏMRİ

Qərara alındı ki:

Yüksək zatlı, əyanlar irqinin yüksək sütunu, sədaqəti ilə məşhur olan, həcc nurlusu, xoşbəxt Hacı Lütfəli sultana əyan olsun:


Əlahəzrət şahənşahın və əlahəzrət şahzadənin qulları olan şah məiyyəti qərara almışlar ki, bütün Kəngərli atlıları hərbi xidmətlə məşğul olmalıdırlar.

Yüksək mənsəbli kağız bilicisi, həcc nurlusu Hacı Məhəmməd bəy İrəvana gedib, orda öyrənib ki, əlahəzrət şahzadə Abbas Mirzə 500 Kəngərli atlısının hərbi xidmətlə məşğul olmaq üçün yüksək etibar sahibi İrəvan sərdarının ixtiyarına göndərilməsini buyurub. Həmçinin əmr edilib ki, 500 nəfərdən çox olmasın. Buna görə də yüksək şah fərmanı ilə əmr olunur ki, 400 atlı Kəngərli tayfaları arasında bərabər bölüşdürülsün. Onlar at və əşyalarını özləri təmin etməli, bir aylıq azuqə hazırlamalıdırlar ki, lazım gəldiyi vaxtda atlıların çağırılmasında heç bir ləngimə olmasın.

Əlbəttə, buna diqqət etmək lazımdır ki, qərara alındığı kimi hərəkət edə bilmək üçün əyalət idarəçiləri xəbərdar etməli, qonşu tərəflərə bu haqda məlumat verməli və bunu öz vəzifəniz hesab etməlisiniz.

1221-ci (1806) ilin səfər ayında yazıldı.

Kalbalı xanın möhürü.



Altında Kalbalı xanın möhürü olan sənəd

Sənəd № 3

NAXÇIVAN XANLIĞI HAKİMİNİN KƏNGƏRLİ SÜVARİ DƏSTƏSİNİN KOMANDİRİNƏ ƏMRİ VƏ MƏLUMAT ÜÇÜN KƏNGƏRLİ TAYFASININ RƏİSİ LÜTFƏLİ SULTANIN NƏZƏRİNƏ

O

(Allahın adı)

Qərara alındı: yüksək zatlı, sədaqəti ilə məşhur olan, həcc nurlusu Hacı Lütfəli sultana bildirilib ki, verilən və yüksək mənsəbli, xoşbəxt Nəzərəli xana elan edilən qərara uyğun olaraq sultanlar, işçilər və döyüşçülər onun yüksək ixtiyarında olmalıdırlar, bildiriş alan kimi yüksək fərmanın məzmununa uyğun olaraq, – orada hər şey ətraflı göstərilib – sultanları, işçiləri və sıraviləri öz atları, silahları, yürüş ləvazimatları ilə birlikdə gecikdirmədən onun yüksək ixtiyarına göndərsin və bunu öz vəzifəsi hesab etsin.

Sənədin kənarlarında yazılıb:

Qərara alındı ki, təfərrüatlar yüksək mənsəbli, xoşbəxt Nəzərəli xana həvalə olunur.

Qərara alındı ki, Nəzərəli xan onların hər birini adbaad nəzərdən keçirsin və hamısını atları, sursatları və silahları ilə birlikdə yola çıxarsın. Hamısı bir yerdə, dəstə-dəstə, qarmaqarışıq halda deyil, birlikdə yola düşməlidir və bunu öz vəzifəniz hesab etməlisiniz.

1221-ci ilin (1806) şəvval ayı.

Möhür: **Allahdan başqa Allah yoxdur.**
Sədaqətdə möhkəm Kalbalı xan.

İRAN HÖKMDARI FƏTƏLİ ŞAHIN NAXÇIVAN VALİSİ KALBALI XANA ANDI

Növbəti – dördüncü sənəd 1808-ci ilə aiddir. Bu isə Rusiya ilə İran arasında müharibənin ən qızğın çağıdır, tərəflərin artıq müharibədən kifayət qədər əziyyət çəkib, sülh barədə düşündükləri bir vaxtdır. Sənədin altında müəllifin möhürü olmasa da, fərmanın başlığındakı "O" sözü bu mətnin

Fətəli şahın qələmindən çıxdığına dəlalət edir; mətndəki amiranə üslubdan da bunu anlamaq çətin deyil. Fərman Kalbalı xana iki illik fasilədən sonra onun yenidən Naxçıvan xanlığının idarəçiliyinə qaytarılması münasibətilə verilib. Fərmanın verildiyi tarixi Rusiya məlumatları ilə tutuşdursaq, heç bir fərq olmadığını görərik: həqiqətən də söhbət 1808-ci ilin sonlarından gedir.

İran hökuməti Naxçıvan qalasının strateji əhəmiyyətinə ciddi diqqət yetirir, buna görə də İran qoşunlarının komandanlığı yeni plan işləyib hazırlayır: qərara alınır ki, qala yenidən qurulmalı, orada yalnız atıcılar və qalanın bərpası ilə məşğul olan işçilər qalmalıdır. Göstərilir ki, "*qalada yaşayan yüksək zatlı ailələr Naxçıvan şəhərinə və onun ətraf yerlərinə köçürülməlidir*". Fərmanda bildirilir ki, bu cür tədbirlər heç bir əndişəyə səbəb olmamalı və əhali şayiələrə əhəmiyyət verməməlidir. Fərmanlar verildiyi tarixi ardıcıllığa uyğun olaraq oxunarsa, kor Kalbalı xanın şəxsiyyətinə verilən əhəmiyyətin və ona olan etibarın durmadan artdığını görərik. Bu fərmana qədər biz elə bir İran rəsmi sənədinə rast gəlmirik ki, orada Kalbalı xan Naxçıvanskinin İran üçün bu qədər qiymətli olması barədə bu cür təmtəraqla danışılsın.

İran hökuməti yenidən Kalbalı xana güvənməli olur və biz onun korluğuna cüzi də olsa, heç bir eyhama rast gəlmirik.

İndi İran şahı Kalbalı xanı Naxçıvan əyalətinin valisi adlandırır. Tutaq ki, şah hiyləgərlik edir, xanın nə üçün kor edildiyinin səbəbi hələ də təkzib olunmayıb, ona qarşı Ağa Məhəmməd şah dövründə yaranmış şübhə hələ də qüvvədədir. Tutaq ki, belədir! Ancaq Naxçıvanda ondan başqa elə bir şəxsiyyət yoxdur ki, xalqı öz ətrafına birləşdirə bilsin, insanlar bu müqəddəs torpağa sədaqətinə görə ona da öz keçmiş hakimləri qədər pərəstiş etsinlər. Kalbalı xan xalqın sevimlisidir. O, başı çox bəlalar çəkmiş Naxçıvan xanlığının mücəssəməsidir. Kalbalı xan bu torpağı heç vaxt heç kimə

satmayıb, həmişə onun müstəqilliyinə can atıb və Naxçıvanı yadelli yırtıcıların müdaxiləsindən qoruyub. Əgər hansısa güclü bir dövlətin himayəsi altına giribsə, bunu heç bir vəchlə Naxçıvan əhalisini köləliyə vermək naminə etməyib. Şah, həmçinin kəngərlilərin diqqətini satqınlığın yolverilməz olduğuna yönəldir: o buyurur ki, onlar Kalbalı xan Naxçıvanskiyə sadiq olsunlar və "*qorxu və hürkü səbəbindən yüksək mənsəbli Kalbalı xandan savayı başqasının ətəyindən yapışmasınlar*".

Kalbalı xana məktubunda isə şah ona sədaqət andı içir, özü də bu zaman, nə qədər qəribə görünsə də, ənənəvi fars ibarəbazlığından vaz keçə bilmir.

Şahın bu nadir monoloqu ilə yaxından tanış olaq: "*Uca Allaha and içirəm, mərhəmətli Allaha and içirəm, əlahəzrət şahzadənin qiymətli başına, dünyanın sığınacağı olan Hökmdarın duz-çörəyinə and içirəm ki, canım bədənimdən çıxmayanacan, mən sağ olduğum müddətcə yüksək mənsəbli Kalbalı xana, onun valiliyinə və əyalətinə münasibətdə, bütün kəngərlilərə münasibətdə mehribanlıq və yaxşılıqdan savayı, heç bir pis şey olmayacaq...*" Şah əyanlarından hansı birinəsə haçansa bu cür təmtəraqlı şah etirafını dadmaq xoşbəxtliyi nəsib olubmu? Bəlkə bu anda şahın əmisi Ağa Məhəmməd şah Qacarın qəddarlığına görə tövbəsi ifadə olunub? Bəlkə də!

Sənəd № 4

O

Yüksək səviyyədə fərman verildi ki, Kəngərli tayfasının yüksək zatlıları, yüksək mənsəbliləri, Allahın böyüklüyünü və mərhəmətliliyini təzahür etdirən kətxudaları və möhtərəm ağsaqqalları bilsinlər. Mərhəmətli şahın yüksək qullarının böyük mərhəmətinə və diqqətinə: qoy onların ümidləri bol olsun və aşağıdakılardan xəbərdar olsunlar:

Naxçıvan qalası dağıntılar, qapı və divarlarındakı sınıq-söküklər nəticəsində bir qala kimi yarasız hala düşmüşdür, o sərhəd əyalətindəki yüksək mənsəblilər real düşmənə o

qədər yaxındırlar ki, o onları ələ keçirə bilər. Allah eləməsin, sabah düşmən onların üstünə gəlsə, çox güman ki, qala heç bir insanı, əmlakı və Kəngərli ailəsini saxlaya bilməyəcək və bütün bu tayfa, Allah eləməsin qırğına və qarətə məruz qalacaq.



Fətəli şah

Buna görə də, Əlahəzrət qulları əbədi dövlətinin işgüzar adamları dəyişiklik eləyib o qalada anbar, ehtiyat, artilleriya, döyüş sursatı, tədarük və təchizat yaratsınlar ki, pis gündə bütün bunlar Kəngərli tayfasına karına gəlsin və insanların, əmlakların və o yüksək mənsəbli ailələrin xilas olmasına kömək etsin. Bu barədə yüksək mənsəbli və oranın valisi mənim qardaşım Kalbalı xanla danışıb məsləhətləşərək razılaşmışıq ki, bu yüksək mənsəblilər qaladan çıxacaq və qala məiyyətin atıcılarına veriləcək. Bunun ardınca, yüksək mənsəbli Vəlimöhəmməd xan Beluci 200 atıcı ilə ora gəlib ta yaz mövsümünə qalanın mühafizəsi ilə məşğul olacaqlar, o vaxt isə, Allah qoysa, əlahəzrətin əbədi dövlətinin işgüzar adamları o qalanın təmiri, tədarükü və təchizatına başlayacaqlar.

Beləliklə, qərara alınır ki, o yüksək mənsəblilər heç cür narahat olmasınlar, ancaq tam sakitlik əminlik içərisində qalanın təxliyəsinə başlayıb, şəhərdə və Naxçıvan əyalətində qalıb yaşasınlar, onların qulağına boş və yalan xəbərlər çatsa belə, heç vaxt bu yalan məlumatların heç birisinə əhəmiyyət verməsinlər.

Uca Allaha and içirəm, mərhəmətli Allaha and içirəm, alihəzrət şahzadənin qiymətli başına, dünyanın sığınacağı olan Hökmdarın duz-çörəyinə and içirəm ki, canım bədənimdən çıxmayanacan, mən sağ olduğum müddətcə yüksək mənsəbli Kalbalı xana, onun valiliyinə və əyalətinə münasibətdə, bütün kəngərlilərə münasibətdə mehribanlıq və yaxşılıqdan savayı, heç bir pis şey olmayacaq, bu şərtlə ki, o yüksək mənsəblilər də gah bu, gah da o tərəfə qaçmasınlar, Təbrizə məktub göndərməsinlər,

özlərinə hər tərəfdə bir ev tikməsinlər və qorxu və hürkü səbəbindən yüksək mənsəbli Kalbalı xandan savayı başqasının ətəyindən yapışmasınlar (seçmə - R. İ.).

Qərara alındı ki, tam sakitlik və əminlik içərisində biz qalanın təxliyəsinə başlayaq və bütün münasibətlərdə yüksək şah mərhəmətinin artmasına ümid edək və bunu öz vəzifəmiz hesab edək.

1223-ci ilin (1808) zilhiccətül-həram ayında yazıldı.

5 nömrəli sənəd Kalbalı xanın Naxçıvan xanlığının hakimi kimi verdiyi sərəncamlardan biridir. Əvvəlkilərin fonunda bu sənəd az əhəmiyyətlidir. O, Kalbalı xanın fəaliyyətində yalnız xırda bir səhifəni – tabeliyində olan Kəngərli qoşununa layiqli rəhbərlik etmək cəhdini əks etdirir.

Naxçıvanın mütərəqqi hakimi Kalbalı xan Kəngərli tayfasında vəzifələrdən Məhəmməd Sultan adlı bir gənci təyin edir, hərçənd bu vəzifəyə yaş həddinə görə onun əmisi Əli Məhəmməd ağa keçmək istəyirdi və ənənəyə görə də həmin vəzifəni o tutmalı idi. Kalbalı xan qohumluq əlaqələrinə etinasız yanaşmasa da, qabiliyyətli insanlara üstünlük verir. Əgər cavanlar daha qabiliyyətlidirlərsə, Kalbalı xan onları irəli çəkir. Bİr sözlə, kor Kalbalı xan gənc qardaşoğlunun əmisindən daha bacarıqlı işçi olduğunun gözü salamat olanlardan heç də pis görmür. Əlbəttə, bu hadisədən sonra əmi özünü təhqir olunmuş kimi hiss edir və məsələ İrəvan bəylərbəyi Hüseyn xan tərəfindən araşdırmaya qədər gedib çıxır. Bu şikayətin araşdırılmasındakı demokratikliyə diqqət yetirək. Hətta iyerarxiya nərdivanının daha aşağı pilləsində dayanan insanların, yəni təkcə sultanların deyil, kətxudaların da bu barədə rəyləri soruşulur. Ancaq soruşulanların hamısı Kalbalı xanın qərarını müdafiə edirlər.

Sənədin tərtib edilmə tarixinə inansaq, bu hadisə 1816-cı ilin sonunda, İran şahı növbəti – axırıncı – dəfə Kalbalı xanı Naxçıvan xanlığına hakim təyin etdiyi vaxt baş verib.

Qərara alındı. Köçlü və Kəmai tayfalarının fəxri ağsaqqalı vəzifəsi yüksək Kəngərli tayfasına aid olduğuna, bu vəzifənin yüksək zatlı Məhəmməd Sultana verildiyinə, onun əmisi Əli Məhəmməd ağa bu vəzifəyə iddialı olduğuna görə, rütbə pleyadası və məiyyət bürcünün ən parlaq ulduzu, Alihəzrət şahzadənin, qəlb ona fəda olsun, əmirinə əsasən qərar verildi ki, qüdrətli sərdarın ən möhtərəm qulu, İrəvan bəylərbəyi Hüseyn xan həqiqəti üzə çıxarsın və adı çəkilən şəxslərdən hansını qabiliyyətli hesab edərsə, həmin vəzifəni ona versin. Yuxarıda xatırladılan qulluq sahibi düşündükdən sonra müəyyən etdi ki, bu vəzifəyə yüksək zatlı Məhəmməd Sultan layiqdir.

Buna görə də biz adı çəkilən tayfanın fəxri ağsaqqalı vəzifəsinin yüksək zatlı şəxs olan Məhəmməd Sultana verilməsini əmr etdik. Bunun ardınca yüksək fərman göndərildi və buyuruldu ki, adı çəkilən tayfanın ağsaqqalları və müdafiəçiləri yüksək zatlı Məhəmməd Sultanı öz ağaları bilsinlər, adı çəkilən şəxsin nüfuzlu sözünə qarşı çıxmasınlar, bu qərara uyğun hərəkət etsinlər və bunu öz vəzifə borcları hesab etsinlər.

1232-ci (1816) il.

Kalbalı xanın möhürü:
Sədaqətdə möhkəm Kalbalı xan, hakim.
Allahdan başqa Allah yoxdur.

Unutmaq olmaz ki, Kəngərli tayfasının öz qanunları vardı və kəngərlilərə münasibətdə bu qayda-qanun, onların dövlət xidmətinə çağırılmasına baxmayaraq, Cənubi Qafqaz diyarının idarə olunmasına dair Əsasnamədə də dəstəklənmişdi. Bu vəziyyəti nəzərə alaraq, Kalbalı xanın kəngərlilər arasında böyük etibara malik olduğu qənaətinə gəlmək olar.

6 nömrəli sənəd Fətəli şahın sərbaz taburunun komandiri, türklərə qarşı müharibədə cəsarətlə döyüşmüş olan, polkovnik Ehsan bəyin xan tituluna layiq görülməsi barədə verdiyi fərmandır.

Ehsan bəyin xan titulu ilə təltif olunması barədə şah

fərmanı kor Kalbalı xanın həccə getməyə hazırlaşdığı vaxtda verilmişdir və Ehsan bəy, İran şahının haqlı olaraq güman etdiyi kimi, Kalbalı xanın layiqli əvəzedicisi ola bilərdi. Ancaq Ehsan xan gələcəkdə şahın ümidlərini doğrultmayacaqdı.



Ehsan bəyin taburundan olan sərbaz

Oğul əfsanəvi atasının yolu ilə gedəcəkdi. Atasını kor edən iranlılardan intiqam alacaqdı. Rus qoşunlarının Abbasabad qalasına hücumu zamanı Naxçıvan sərbaz taburunun komandiri polkovnik Ehsan xan komandan general Paskeviçə yardım göstərib, qalanın 1827-ci il iyulun 6-da qan tökülmədən təhvil verilməsini təmin edəcəkdi. Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra general Paskeviç Ehsan xan Naxçıvanskini Naxçıvan əyalətinə hakim təyin edəcəkdi.

Sənəd № 6

QIZILLA YAZILMIŞ ŞAH FƏRMANI

Ehsan bəyə xan titulunun verilməsi barədə

Geniş şahənşah idarəsinin vəzifə və qayğıları səbəbindən biz israrla lazım bildik ki, polkovniklərin hər biri xidmət tarlasında yarışsınlar və buna görə biz onu, fərqlənmə nümunəsi və şah lütfünün təzahürü kimi şərəf və hörmət səviyyəsinə yüksəldək, buna sübut yüksək, yüksək mənsəbli, xoşbəxtlik quşu başına qonmuş olan, təmiz ürəklə xidmət etməyə və tabe olmağa qadir olan və bu il rumlarla müharibə zamanı layiqli xidmətlər göstərən Ehsan bəylə bağlı o hadisədir.

Biz buyurduq ki, onu titullandıraq, xan rütbəsi və yüksək mənsəbli titulu ilə təltif edək ki, ümidlərimizə nail olmağımız onu səylərində və özünü fəda etməyə hazır olmasında daha da irəliyə aparsın.

Qərara alındı. Padşah naibinin – ali, xoşbəxt, cəsur və sevimli övladımız Abbas Mirzənin qələbə qapılarına açar olan yüksək

mənsəbli kargüzarlar bundan sonra adı çəkilən yüksək mənsəblini xan adlandırsınlar və onu zati-ali (üstün, yüksək mənsəbli) çağırsınlar.

Qərara alındı. Yüksəldilmişlər, yüksək mənsəblilər, zati-alilər, padşahın yüksəldilmiş yaxın ətrafı, ali idarənin yüksək nəzarətçiləri və hərbi qurumları hörmətli məmurları adı çəkilən yüksək mənsəblini bu titulla adlandırsınlar və bunu özlərinin vəzifə borcu hesab etsinlər.

1238-ci ilin (1822) rəbiülaxır ayında yazıldı.

Fətəli şahın möhürü.

Kalbalı xanın köməyi ilə İrəvan qansız tabe edilə bilərdi, ancaq knyaz Sisianovun buna ağlı çatmadı

MƏRKƏZDƏ OTURAN YENİ QƏSBKARIN – KNYAZ SİSİANOVUN QAFQAZA GƏLİŞİ

1802-ci ilin payızında Rusiya imperiyasına yenicə birləşdirilmiş Gürcüstan üçün guya təhlükə yarandığı bir şəraitdə nəzakətli, ağıllı və təmkinli general-leytenant Karl Fedoroviç Knorinq Qafqazdan geri çağırıldı. Ümumrusiya imperatoru Aleksandr Pavloviç Qafqaza yeni baş komandan təyin etdi. Bu, Peterburqda oturub qalmış, artıq o qədər də gənc olmayan general-leytenant knyaz **Pavel Dmitriyeviç Sisianov** idi (8 sentyabr 1754-cü ildə Moskvada doğulmuş, 8 fevral 1806-cı ildə Bakı qalasının önündə öldürülmüşdür).

GENERAL-LEYTENANT KNYAZ SİSİANOVA ALİ RESKRİPT 8 SENTYABR 1802-Cİ İL, SANKT-PETERBURQ

Gürcüstanda general-leytenant Knorrinqin və d.c.c. Kovalenskinin idarəçiləri barədə Mənə gəlib çatan şikayətlərə və narazılıqlara görə birincini orduya daxil edib, ikincini başqa işlərdə istifadə etmək üçün buraya geri çağırmağı, bütün vəzifələri: Qafqaz xəttinin müfəttişi, Həştərxanın hərbi qubernatoru həmçinin, oradakı mülki hissənin idarəçiliyini və Gürcüstanda baş idarəçi vəzifələrinin Sizə həvalə etməyi lazım bildim (...) Aşağıdakı qeydləri nəzərə alın (...)

1. Sizə həvalə edilən səlahiyyətlərin çərçivəsi general-leytenant Knorrinq üçün müəyyən olunmuş çərçivə ilə eynidir.

2. Gürcüstanının ilkin quruluşla bağlı ona verilən təlimatda siz nəinki onun idarə olunması qaydalarını, həmçinin bu işdə mənim başlıca niyyətlərimin izahı ilə tanış olacaqsınız (...) Sizə bu başlıca fikri ona görə aşılamağı lazım bildim ki, siz Gürcüstanın idarə olunması planının nəyə əsaslanmalı olduğunu görə biləsiniz.

3. Bunlara nəzərən Sizin üçün o diyarda şəxsən öz davranış qaydalarınızı təyin etmək çətin olmayacaqdır (...)



Hökmdar imperator
I Aleksandr

4. O qaydalara uyğun olaraq Siz sələfinizin müxtəlif rütbəli məmurlarının şikayətlərini araşdırmağı və təmin etməyi dayandırmayacaqsınız (...), yalnız o halda ehtiyatlılıq tədbirləri görəcəksiniz ki, o insanlar hazırkı üsul-idarə tərzinə qəsd etmək fikrinə düşmüş olsunlar (...)

6. Ancaq hər şeydən əfzəl Siz Gürcüstanın gəlirlərinin vəziyyətinə və o diyarda hazırkı üsul-idarə tərzi tətbiq edilərkən Gürcüstan çarı ailəsinin üzlərinin udellərinin xəbərdar edilməsinə diqqət yetirin. Mən general-leytenant Knorrinqdən şəxsən məlumat almışam ki, Gürcüstan öz gəliri ilə özünü saxlaya bilər (...) Heç cür istəməzdim ki, Gürcüstanın idarə olunmasının bütün ağırlığı təkcə Rusiyanın üzərinə düşsün.

7. Sələfinizin sənədləri arasında siz Mənim çar ailəsi üzvlərinin Rusiyaya çağırılması barədə dəfələrlə verdiyim göstərişləri tapacaqsınız. Bu təbirin nə dərəcədə vacib olduğunu anlamaq üçün (...) çariça Dariyanın şahzadə Yulonu taxta çıxarmaq səyləri, gizli də olsa, güclü təsirə malikdir. Mən general-leytenant Knorrinqdən məlumat alırdım ki, onun təhrikləri ilə qonşu hakimlər Gürcüstana hücum etmək niyyətinə düşüblər. Nəhayət, bu günlərdə o, Mənim diqqətimə çatdırıb ki, indi İranda hökmdarlıq edən Fətəli şah şahzadə Yulonu Gürcüstanın çarı elan edib, onu taxta çıxarmaq üçün artıq qoşun toplayıb və onun Gürcüstanla həmsərhəd olan digər hakimlərlə ittifaqını gücləndirmək üçün yollar axtarır (...) O ölkənin

sakitliyi, bizim öz qoşunlarımızın sakitliyi üçün bu fəsadların əsil mənbəyini aradan qaldırmaq lazımdır. Bizim Gürcüstana ilk girişimizdə bunlar qabaqcadan nəzərə alınmışdı (...)

Əminəm ki, siz öz vəzifənizi Mənim həmişə sizdə güman etdiyim və gördüyüm ədalət və düzgünlüklə icra edəcəksiniz.

İmzalandı: **Aleksandr**

(AKAK c. 2, səh. 3 – 4)

General-leytenant Knorrinqi geri çağırarkən çar sarayı ağlına belə gətirmirdi ki, knyaz Sisianovun təcavüzkar siyasəti və fəaliyyəti Qafqazda və onun hüdudlarından kənarda çoxmillətli xalqları öz diyarlarının ecazkarlığını unutmağa məcbur edəcək və Rusiya üçün fəlakətli rus – İran müharibəsinin başlanmasını sürətləndirəcəkdir. Hələ gec deyilkən, knyaz Sisianov Peterburqa qaytarılmalı idi.



General-leytenant knyaz P.D.Sisianov

Ancaq təşəxxüslü və yeni-yeni ərazilər fəth etmək arzusu ilə alışıb yanan, öz yüksək təyinatının haçan gerçəkləşəcəyini gözləməkdən yorulmuş knyaz Sisianov 1802-ci ilin sonunda Tiflisə gəldi. General-leytenant Pavel Dmitriyeviç Sisianov Gürcüstanda hökmranlıq edən çar ailəsi ilə qohumluq əlaqəsi olan qədim gürcü nəslindən idi: axırıncı gürcü çarı XII Georgi knyaginya Mariya Sisianovayla evlənmişdi. Ancaq knyaz Sisianovun gürcü mənşəyi onun ciddicəhdlə Gürcüstanı ruslaşdırılması siyasətinə çalışmasına əngəl törətmirdi. Belə ki, o, Rusiyanın Gürcüstanı idarə etməsini istəməyən Kaxetiya-Kartli çar ailəsi üzvlərinin Gürcüstandan sürgün edilməsinin təşkilatçısı olmuşdur.

Sisianov öz sələfləri haqqında bir kəlmə də xoş söz deməmişdir, ancaq ətraf xalqlara, xüsusilə də dağlılara qarşı öz

təsir qaydalarını gizlətmirdi və özünəməxsus həyasızlıqla Rusiyanın dövlət kansleri **Aleksandr Romanoviç Vorontsova** (1741–1805) yazırdı:

> "Mən burada əvvəllər mövcud olan sistemə qarşı yeni qayda qoymaq cəsarəti göstərdim, dağlı xalqları yumşaltmaq üçün onlara saxta təbəəliklərinə görə, müəyyən edilmiş məvacib və hədiyyələr şəklində haqq ödəmək əvəzinə özüm haqq tələb edirəm".
>
> *(AKAK, c. 2, səh. 758)*



Dövlət kansleri qraf A.R.Vorontsov

Knyaz Sisianov Qafqaz xalqlarına qarşı hədsiz dərəcədə kobud və qəddar davranırdı. Gürcüstanla qonşu olan Car-Balakən əyalətinin kətxudalarına – burada yaşayan xalqlar Rusiya hakimiyyətinə xərac ödəmək istəmir və gürcülərlə daim toqquşma içərisində olduqları üçün onları sevmirdi – knyaz Sisianov yazırdı:

> "Dinsiz əclaflar! Siz yəqin elə hesab edirsiniz ki, mən gürcüyəm (...) Mən Rusiyada doğulmuş, orada böyümüşəm, mənim ruhum rus ruhudur. Gözləyin, oraya da gələcəm, onda sizin evlərinizi yox, özünüzü yandıracağam, uşaqlarınızın və arvadlarınızın bətnini dartıb çıxaracam...."
>
> *(AKAK, c. 2, səh. 692)*

Lakin Rusiyada, hətta Qızılgünbəzlidə doğulmuş olsa belə, öz ruhuna və davranışına görə Sisianov rus deyildi. Bəs onda o kim idi? Müəllif cəsarətlə deyir ki, Sisianovun milliyyəti olmamışdır, o, sadəcə Sisianov idi.

Ali baş komandanın xarakterik xüsusiyyətləri və şəxsiyyət orijinallığı Qafqaz xalqlarının həyatına böyük narahatlıq gətirmişdir, buna görə də knyaz haqqında bir az geniş danışmaq lazımdır.

Knyaz Sisianov Qafqaza təyin olunanadək xidməti həyatında o qədər də yüksək vəzifələrə nail ola bilməmişdir. O vaxtacan ən əhəmiyyətli vəzifəsi 1786-cı ildə qrenader polkunun komandiri vəzifəsi olub, bu vəzifədə o, II Yekaterina dövründə baş verən 2-ci Türk müharibəsində döyüşdə iştirak edib. General V.Zubovun 1796-cı ildə Qafqaza yürüşü zamanı knyaz bir neçə ay Bakı şəhərinin komendantı olmuş, 1797-ci ildə isə 43 general bir anın içində istefaya göndərilmişdi. General üçün bu yaşda istefaya çıxmaq çox tezdir, ancaq taleyin hökmünü silə bilməzsən. Beləliklə, general işsiz qalmışdı.

Gənc imperator I Aleksandr Peterburqda işsizlikdən mürgü döyən enerjili generala diqqət yetirir və 1802-ci ilin sentyabrında knyaz Sisianovu Qafqaza təyin edir. Özü də adi bir işə yox Qafqazda ən yüksək hərbi vəzifəyə – baş komandan vəzifəsinə göndərir.

Cavanlığında knyaz qoçaq olub, o dövrdə onun qızğın enerjisinə söz ola bilməzdi, ancaq Qafqaza o, artıq at belinə bir sıçrayışda minə bilməyən qoca bir adam kimi gəlmişdi. Lakin dərhal qərar qəbul etmək, rus dilində gözəl danışmaq, uzun və ağıllı məktublar yazmaq bacarığını hələ itirməmişdi.

Çar sarayı knyaz Sisianovdan imperiyanın ərazinin genişləndirilməsinin tələb etmirdi, çünki o dövrdə Avropada hərbi münaqişələr yetişməkdə idi, ancaq knyaz Qafqazda hökmdardan daha uzağı görürdü. Onun içində qaniçən Teymurləng obrazı gizlənmişdi. Əmr etsəydilər – qanı su yerinə axıdardı.

Hədsiz-hüdudsuz və demək olar ki, nəzarətsiz səlahiyyət sahibi və paytaxtdan xeyli uzaqda olan Sisianov öz fəaliyyətinin elə ilk günlərindən özünü dərhal fateh və tiran kimi büruzə verməyə başladı. Bundan əlavə, knyaz həm də öz hərəkətlərinin səhvsiz olduğuna aludəçilik, başqasının fikrinə dözümsüzlük, ikiüzlülük, hiyləgərlik, təkcə dirilərə deyil, həm də ölülərə nifrət bəsləmək kimi digər idbar xüsusiyyət-

lərə malik idi:

Knyaz Sisianov öz fəaliyyətinin ilk çağlarında elə qərarlar qəbul etmişdi ki, onların bəziləri əhali arasında lətifələrə səbəb olmuş və bu lətifələr kimisində gülüş, kimisində isə narazılıq və hiddət doğurmuşdu. Knyaz Sisianov haqqında dərc olunmuş yazılardan bir fakt gətirək:

> "1804-cü ildə Tiflis komendantı şəhərin ruhani rəhbərliyinin xahişini yerinə yetirərək, baxımsız çöllük bir sahəni qəbiristanlıq üçün ayırmışdı. Bu torpaq sahəsi əkin üçün tamamilə yararsız idi, həm də Tiflisdən çox aralıda Vera çöllüyü ərazisində yerləşirdi.
>
> Sonra məlum olur ki, bu torpaq sahəsi Q. və Ş. adlı iki zadəgana məxsus imiş, onlar dərhal Tiflis komendantından Sisianova şikayət ərizəsi yazırlar. Ərizədə deyilirdi ki, *"qəbiristanlıq üçün ayrılmamışdan qabaq onlar bu torpaq sahəsindən orda yetişdirdikləri məhsulun onda biri həcmində təmiz gəlir əldə edirdilər. Həmin torpaq sahəsi qəbiristanlıq üçün ayrıldıqdan sonra onlar bu gəlirdən məhrum olmuşlar..."*
>
> Ona şikayət edən zadəganları dinlədikdən sonra knyaz Sisianov onlara bu barədə lazımı göstəriş verəcəyini vəd edir. Onun çıxardığı qərarda komendanta belə tapşırıq verilir: *"Zadəganlar Q. və Ş.-yə o qəbiristanlıqda dəfn edilənlərin ondan birinin gəliri alınıb o birinə verilsin və şikayətçilərə cavabda bu barədə məlumat verilsin."*
>
> Tezliklə Tiflis sakinləri bu qərardan xəbər tutdular və şikayətçi zadəganlar şən Tiflisin bütün əhalisinin ağır məsxərə obyektinə çevrildilər.
>
> *("Kaфказ", 28 aprel, № 48)*

Sisianovdan nə əvvəl, nə də sonra Qafqazda öz xidmətlərini bu qədər açıqcasına, hətta həyasızcasına tərifləyən ikinci bir baş komandan olmamışdır. Sisianov özünü Rusiya imperiyasının ərazisini bütün Qafqazda genişləndirməyə qabil olan bir şəxsiyyət rolunda hiss edirdi.

Knyaz öz sərsəm fəaliyyətinə ətraf ərazilərin hakimlərinə Rusiya himayəsini qəbul etməyin zəruriliyi fikrini aşılamağa çalışmaqla başlamışdı. Ancaq o, Hüseynqulu xanın

hakim olduğu Bakı xanlığına xüsusi diqqət yetirirdi. Təkcə knyaz deyil, bütün işgüzar Rusiya, onlardan da betər imperiya sarayı hələ Sisianov Tiflisə gəlməmişdən xeyli əvvəl əsrarəngiz, neftlə zəngin Bakı xanlığını ələ keçirmək arzusuna düşmüşdülər. Tez-tez xəstələnən və uzun müddətli yürüşlərə çıxmaq gücünə malik olmayan knyaz Sisianov hərbi əməliyyatlardan qaçmağa çalışır, vəba kimi mümkün qədər onlardan yan keçirdi. Knyaz Rusiya qoşunlarının məğlubedilməzliyi şüarını əlində bayraq edərək (yəni, rəqib onsuz da məğlub olacaq, nə üçün havayı yerə risk etməli, öz insanlarını və resurslarını itirməlidir?), yerli hakimlərin istəyini soruşmadan təkidlə onlara bir güllə belə atılmadan Rusiyaya tabe olmağı təklif edir və bunun müqabilində də onları Rusiya himayəsi ilə mükafatlandırırdı.

Yeni peyda olmuş bu "fateh"in planlarına Bakı xanlığından əlavə daha iki xanlıq – Gəncə və İrəvan xanlıqları da daxil idi. Knyaz Sisianov Gürcüstanın təhlükəsizliyini təhdid edən Gəncədən başladı.

Knyaz Sisianov ən mərhəmətli, ən xeyirxah və mələk kimi xoş xislətli imperator naminə Gəncə hakimi məğrur Cavad xandan Gəncə qalasının açarını könüllü surətdə təhvil verməsinə nail ola bilmədi. Dörd həftəlik mühasirədən sonra 1804-cü il yanvarın 3-də sübh obaşdan qala üzərinə hücuma keçdi, 1804-cü yanvarın 4-də isə Gəncənin əsas məscidi *"gerçək Allah məbədinə"* çevrildi. Həyasız və təbiəti etibarı ilə lovğa knyaz Sisianov hərbi nazir general Vyazmitinova məktubunda belə yazmışdı.



Gəncə hakimi
Cavad xan

Sayca üstünlük təşkil edən rus qoşunlarının Gəncəyə hücumu zamanı qalanın faciəvi aqibətini əvvəlcədən hiss edən Cavad xan yeni-

yetmə uşaq kimi qüllələrdən birinə cumub, qaladakı ən iri topun yanına qalxır. Onun üstündə oturub, sanki at belində çapırmış kimi, əlindəki qılıncla bütöv bir dəstə azğınlaşmış rus əsgərinə qarşı döyüşür. Cavad xan bu halda onlar üçün əla nişangah idi. Dəfələrlə ona atəş açıb vururlar, xanın pəhləvan ürəyi dayanandan sonra isə cəsədini qılıncla amansızcasına doğrayırlar. Bu igid xanın necə qəhrəmancasına həlak olduğuna, qaliblərin onun cəsədi üzərində necə azğıncasına əyləndiklərinə yalnız Göy üzü obyektiv şahidlik edə bilər. Yalnız arxiv materiallarına əsasən igid, cəsur Gəncə xanının necə romantik, gözəl bir ölümlə həlak olduğu barədə mühakimə yürütmək olar. Cavad xan Ziyad oğlu Gəncəli ölümü əsl cəngavər və öz qədim diyarının vətənpərvəri kimi qəbul etmişdir *(РГВИА, f. 1, s. 1, q. 578, v. 12-13)*.

1804-cü il yanvarın 31-də dövlət kansleri qraf A.R.Vorontsov hökmdar imperator adından Sisianova bildirmişdir ki,

> "burada Gəncə ekspedisiyasından və qazanılan uğurlardan (...) tamamilə məmnundurlar (...) sizin əqliniz və təcrübəniz yeni padşah lütfünə və hamı tərəfindən hörmətə layiqdir".

1805-ci il fevralın 5-də qraf Vorontsov knyaz Sisianova məlumat göndərir ki, *"Əlahəzrət öz şəxsi təşəbbüsü ilə sizi tam general rütbəsi ilə təltif etmişdir"* (AKAK, c. 2, səh. 595, 1016).

Qədim Gəncəni qan gölünə çevirdikdən sonra, knyaz Sisianov şəhərin adının dəyişdirilib Yelizavetapol qoyulmasını təklif etdi ki, bu da əlahəzrət imperator tərəfindən tam şəkildə dəstəkləndi. Onun buyruğu ilə 1804-cü il martın 2-də Gəncə şəhərinin adı rəsmən dəyişdirildi.

KNYAZ SİSİANOV KALBALI XANA NAXÇIVANI VƏD EDƏRƏK, ƏVƏZİNDƏ İRƏVANI İSTƏYİR

Düşmənə boyun əymək istəməyən Gəncə atəşə verildi və onun xarabalıqları üzərində rus bayrağı dalğalanmağa başladı. Şöhrətdən ağlını itirən, əlahəzrət imperator taxt-tacı önündə müti qula çevrilən knyaz Sisianov isə Qafqazdan Sankt-Peterburqa imperiya ərazisini genişlətməklə bağlı yeni planları barədə raportlar göndərirdi.

KNYAZ SİSİANOVUN 10 MART 1804-CÜ İL TARİXLİ ACİZANƏ RAPORTUNDAN

Əlahəzrət İmperatorun buyruğunun bütün maddələrinə böyük məmnuniyyətlə riayət edə və diqqət yetirərək, Rusiya İmperiyasının Kür və Arazla suvarılan ölkələri istila etməsi ilə bağlı hadisələri sürətli axınına toxunmağı özümə borc bilirəm.

Biz bu yaz Rusiya bayrağını bəlkə də ya İrəvan və Naxçıvan divarlarına taxa, ya da ən azı onları idarə edən xanları Rusiyaya xərac verməyə məcbur edə və bunu qarnizonlar deyil, amanatlar (xanların övladlarını girov alaraq) vasitəsi ilə təmin edə bilərik...

İrəvan vilayətini və Naxçıvanı istila etməyi başa çatdırdıqdan sonra (əgər yeni qüvvələr gələrsə) Kürün sol sahili ilə Bakı üzərinə yürüş kampaniyasını davam etdirəcəyəm.

(AKAK, c. 2, səh. 597)



İrəvan xanlarının iqamətgahı

Gənc hökmdar I Aleksandr özü irəli çəkdiyi bu adam üçün necə sevinməsin! Əyilməz Gəncəni ələ keçirdikdən sonra Sisianov artıq Naxçıvan və İrəvan xanlıqlarını Rusiya imperiyasına birləşdirmək fikrinə düşmüşdü. İrəvan xanlığını

zəbt etməyin yolu isə yaxşı müdafiə istehkamlarına malik İrəvan qalasından keçirdi.

İrəvan qalasının əsası şah İsmayıl Səfəvi (XVI əsr) dövründə qoyulub. 1747-ci il iyunun 10-da İranın məşhur hökmdarı Nadir şah Əfşar öldükdən sonra onun qurduğu geniş imperiya dağıldı və İrəvan xanlığı müstəqillik əldə etdi. Lakin XIX əsrin əvvəllərində Rusiya imperiyası Gürcüstanı özünə birləşdirib, Cənubi Qafqazın və Yaxın Şərqin sərhədyanı müsəlman ərazilərini zəbt etməyə can atır, bu məqsədlə yerli xanlıqları tədricən bir-bir ləğv edirdi. Növbə artıq İrəvan xanlığına çatmışdı. İrəvanın qan tökmədən təhvil verilməsi ilə bağlı hazırlıq işlərini həyata keçirən knyaz Sisianov xanlığın erməni əhalisi ilə yaxşı işləmişdi. Məlum olduğu kimi, ermənilər istənilən vədi əvvəlcədən çox asanlıqla verirlər. Sisianov birinci dəfə erməni əhalisi arasında ruspərəst əhval-ruhiyyə oyadaraq, onları İrəvanın mühasirəsi zamanı qalada qiyam qaldırmağa inandırmağa çalışdı; bununla da qalanın müdafiə qabiliyyəti zəifləyəcək və İrəvan hakimiyyətinin bu səbəbdən çaşqın vəziyyətə düşdüyü anda Sisianovun qoşunları qalaya soxularaq, demək olar ki, onu qan tökmədən ələ keçirəcəkdi. Rusiya sarayını ildırım sürətli istila və qansız qələbə strategiyaları ilə heyran qoyan Sisianov belə düşünürdü – Sankt-Peterburqda Qafqazdakı yeni baş komandanın Qafqazda və Cənubi Qafqazda Rusiya İmperiyasının sərhədlərini genişləndirməyə dair nəhəng planlarını izləməyə belə macal tapmırdılar.

Rusiya hakimiyyət dairələrində İrəvan xanın ermənilərin dini işlərinə müdaxilə etməsi xüsusi narazılıq doğurdu. İrəvan hakimi Məhəmməd xan öz qərarı ilə xanlığın ərazisində yerləşən Eçmiədzin monastırından patriarx Danili uzaqlaşdırmış, özbaşına onun yerinə patriarx Davidi təyin etmişdi. Sonra isə Eçmiədzinin xəzinəsi ələ keçirilmişdi. Xanlığın İranla münasibətlərinin gərgin olmasına baxmayaraq, guya İrəvan xanın Rusiyanın əleyhinə olan hərəkətlərini mü-

şahidə edərək, knyaz Sisianov onlardan İrəvana qarşı hərbi yürüşə keçmək üçün bəhanə kimi istifadə edirdi. Məlumdur ki, əsas məqsəd İrəvan xanlığını Rusiyaya birləşdirmək idi.

Özünə bu qədər əmin olmaq üçün İrəvan xanlığında Rusiya təmayüllü fəal tərəfdarlar və silahdaşlar tapmaq çox vacib idi. Müdrik və ağıllı mayor Montrezor knyaz Sisianova məsləhət gördü ki, Yaxın Şərqdə çox məşhur olan kor Kalbalı xanla birbaşa əlaqə yaratmaq üçün bu ən münasib fürsətdir. Lakin xudbin və heç kimə etibar etməyən knyaz Sisianov necə düzgün hərəkət etmək barədə uzun-uzadı düşünməklə qızıl kimi vaxt itirdi. Bir daha xatırladaq: mayor Montrezor general Sisianova 1804-cü martın 3-də raport vermişdi. Rus qoşunlarının İrəvan divarları önündən baş götürüb qaçmalarına hələ düz beş ay qalırdı. İndi isə baxaq görək, İrəvan xanlığı ətrafında hadisələr necə cərəyan edəcək və yüksək hakimiyyət tərəfindən tərifi göylərə qaldırılan, təbiətən lovğa infanteriya generalı knyaz Sisianov hansı addımları atacaq.

MAYOR MONTREZORDAN KNYAZ SİSİANOVA
3 APREL 1804-CÜ İL. QARAKİLSƏ

...İrəvanlı Kalbalı xan, Məhəmməd xanla ədavət və narazılıq içindədir, Kalbalı xan Aleksandrın qoşunlarının, şahın oğlu Abbas Mirzə də onunladır, İrəvana gəlməsindən narazıdır, buna görə də İran şahından çox Rusiya tərəfinə meyl edir, Məhəmməd xan isə hər iki tərəfə. Kalbalı xan öz məmurları ilə məsləhətləşdikdən sonra İran şahı ilə yaxınlaşmaq fikrindən əl çəkmək, hökmən Rusiyaya meylli olmaq qərarına gəlmişdir, zira deyir ki, mən kor bir adamam, İran şahının yanında olmaqdansa, Rusiya tərəfə keçsəm yaxşıdır, çünki şah İrəvana yiyələndikdən sonra hökmən mənim boynumu vurduracaq.

Kalbalı xan özü forştatda, həm də qalada yaşayır, heç cür ordan kənara çıxmır, bunun əks-sədası az qala Arktikdə eşidilir.

Şahzadə Aleksandrın qoşunlarına gəlincə isə, o indi Təbrizdədir, şahın oğlu da ordadır, deyilənə görə guya 40 000 adamı var, amma daha çoxdur. 4000 nəfərlik piyada qoşunu isə indi Naxçıvandadır, 9 gün əvvəl buraya gəliblər və orada

yuxarıda adı çəkilən qoşunun gəlməsini gözləyirlər, bu barədə İrəvana Kalbalı xanın oğlu xəbər gətirib, o oradan qaçıb, İrəvana atasının yanına gəlib. O qoşunun Tehrandan İrəvana gəlməsi ilə bağlı isə o, hələ hökmən gözləməlidir, oradakı şayiələrə görə bu ayın son günlərinədək, çünki qalın qar və göy otun yoxluğu buna əngəl törədir. Onların niyyəti qətidir, əvvəlcə İrəvanı ələ keçirmək, orada öz qoşunlarının sayını çoxaltmaq, sonra isə Pambak əyalətinə yürüş edib, onu darmadağın edərək, Yelizavetpola üz tutmaq, onu da ələ keçirəndən sonra nəhayət Tiflisə yollanmaq istəyirlər.

Kalbalı xan belə bir şəraitdə öz qaçılmaz məhvini görərək, səbirsizliklə Rusiya qoşunlarının İrəvana gəlişini gözləyir, özü isə gümrahdır, son həddəcən mümkün qədər onların gəlməsinə qarşı çıxacaqdır.

Məhəmməd xan isə İrəvan qalasının yanında çox yaxşı istehkam qurur, oradakıların hamısından güclü olacaqdır, özünün digər əyalətlərinin kəndlərini həmin istehkamda cəmləyir, bu şərtlə ki, onların hər birinin 2 litr barıtı, 1 litr qurğuşunu, və kifayət qədər azuqəsi olsun, eyni zamanda kimin ailəsində iki, üç və ya beş qardaş var, onlardan birini arvadı və uşaqları ilə özünə götürür, deyir ki, kim ki, mənim düşmənim tərəfə keçsə, ailəsi qalada olan adamlar hökmən cəzalandırılacaq və yaxud asılacaqdır. (...)

(AKAK, c. 2, səh. 806)

Qızğın situasiya yarananda ermənilər özlərini qorumaq məqsədilə əsas xəbərləri birinci olaraq çatdırmağa çalışırlar.

ERMƏNİ AQALO CAQATOVUN
POLKOVNİK KARYAGİNƏ MƏLUMATI
18 APREL 1804-CÜ İL. İRƏVAN

Bu günlərdə bura bizim xanın adamı gəldi, o bildirdi ki, Baba xanın oğlu Abbas Mirzə və şahzadə Aleksandr artıq İrəvana doğru yola çıxmışlar... Deyirlər, qoşun 60 000 nəfərə qədər olacaq. Baba xanın oğlu və şahzadə Aleksandr ön dəstədədirlər, onların arxasınca şah özü gələcək. Deyirlər, Şah Kalbalı xanın oğlunu və Məhəmməd xanın oğlunu xəbərdar edib ki, onların valideynləri İrəvanı versələr onların hər ikisini öldürəcək.

(AKAK, c. 2, səh. 612)

Knyaz Sisianovun Yaxın Şərqdə peyda olması İrəvan hakimi Məhəmməd xanı həmişəkindən daha cazibədar etmişdi. Bir çox maraqlı tərəflər bir-birindən xəbərsiz ona məsləhətlər verir, məktublar göndərir, xan deyilənlərlə dərhal razılaşmayanda isə onu məhv və İrəvan xanlığını tar-mar etməklə hədələyirdilər.

1804-cü il may ayının əvvəlində şahın elçiləri şahzadə Aleksandrla birlikdə onun yanına gəldilər. Onların başlıca tələbləri İrəvanın şah qoşunlarına təslim edilməsi idi, o zaman nə dağıntıya, nə də qarətə yol verilməyəcəkdi. Bu halda Məhəmməd xandan, demək olar ki, heç nə tələb olunmurdu – yalnız 4000 əsgər, 100 min samar çörək, onun səy və sədaqətinin təsdiqi üçün 12 ailənin amanat verilməsi istənilirdi. Əgər Məhəmməd xan bununla razılaşmasa, onların qoşunu İrəvanı darmadağın edəcəkdilər *(AKAK, c. 2, səh. 612).*

Məhəmməd xanın düşdüyü bu vəziyyət o qədər sadə deyildi. O, kimə arxalana biləcəyini dəqiq müəyyən etməli idi. Belə bir vəziyyətdə hər an qiymətli idi və knayz Sisianovla etibarlı danışıq aparmaq lazım gəlirdi, ancaq o, Məhəmməd xanı hansı təhlükə gözlədiyini bildiyi üçün öz şərtlərini kobud şəkildə diqtə etməyə davam edirdi. Patriarxlara bağlı dini işlər hələ gözləyə bilərdi, İrəvanı dağılmaqdan xilas etmək lazım idi. Ancaq knyaz Sisianov özünü çox qəribə aparırdı: elə təsəvvür yaranırdı ki, sanki o qəsdən vaxtı uzadır.

Kor Kalbalı xanın Rusiyaya meylli əhval-ruhiyyədə olduğundan, onun Yaxın Şərqdəki böyük nüfuzundan və öz qaynı İrəvan hakimi Məhəmməd xana təsirindən yaxşı xəbərdar olan, yaltaqlığa, gədalığa, təhqirə öyrəşmiş knyaz Sisianov həmin anda müstəqil, məğrur, cəsur və nüfuzlu, bizdə, Rusiyada ta qədimdən belə adamlar üçün deyildiyi kimi, oddan-alovdan keçmiş bir xanla qarşı-qarşıya olduğunu unutmuşdu. Knyaz Sisianov Kalbalı xana üzrsüz, nəsihət ahəngli bir məktub göndərib, özünə xas ədəbsizliklə ondan tələb edir ki, Sisianovu öz zəhmli hökmdarı kimi, lap elə

Teymurləng kimi görən Kalbalı xan onun bütün şərtlərini İrəvan hakimi Məhəmməd xana olduğu kimi dəqiq çatdırsın. Sisianov öz mövqeyi ilə həmişə alver etdiyi üçün, burda da elə bir istisna yoxdur. O öz sadəlövh ağlı ilə Kalbalı xanı doğma Naxçıvana xan təyin etməklə şirnikləndirmək istəyirdi, elə bilirdi ki, kor Kalbalı xan sevincindən hönkür-hönkür ağlayacaq və yaxud kor olmasına baxmayaraq, çırtıq çalıb dəlicəsinə rəqs edəcək. Biz knyaz Sisianovun yalnız bir ifadəsini sitat gətiririk: *"... onda siz, mənim dostum, Naxçıvan xanlığının taxtında əyləşəcəksiniz, bunun üçün Allaha and içirəm"*. Yəni, knyaz Kalbalı xanla münasibətdə "əl əli yuyar, əl də qayıdıb üzü" prinsipindən yararlanmağa çalışır. Təkcə bununla ləyaqətli adamı təhqir etmək olar. Ancaq, irəlidə görəcəyimiz kimi, öz qiymətini yaxşı bilən Kalbalı xan istənilən situasiyada özünü ləyaqətlə aparır. Axı knyaz Sisianov bütün zamanlarda öz sözünü tutan bir şəxsiyyətə öz sözlərinə cavabdeh olmadan zəmanət verirdi. Bu qeyri-ciddi və tərbiyəsiz generala etibar etmək olardımı? Axı İrəvanın Rusiya tərkibinə daxil olub-olmaması, yəni knyaz Sisianovun həyata keçirmək istədiyi bu böyük əməliyyatın bütün uğuru Kalbalı xandan asılı idi. Ancaq Kalbalı xan qarşı tərəfin kim olduğunu yaxşı bilirdi, həm də o, knyaz Sisianovun səviyyəsinə enmək istəmirdi və enə də bilməzdi. Əsas olan budur ki, Kalbalı xan qeyd-şərtsiz, şantajsız, özü üçün, demək olar ki, heç nə – hətta təhlükəsizliyinin təmin olunmasını belə (halbuki onun buna çox ehtiyacı vardı) – tələb etmədən həqiqətən Rusiyaya kömək etmək istəyirdi. Kalbalı xana göndərilən, ancaq İrəvanın təhvil verilməsi ilə bağlı şərtlərin İrəvan hakimi Məhəmməd xana ünvanlandığı həmin məktubu diqqətlə oxuyaq. Beləliklə, knyaz Sisianov həm kor xana öz etibarını göstərir, həm də onu bilavasitə İrəvan hakimi Məhəmməd xana aid olan məsələlərin həllinə cəlb edir.

KNYAZ SİSİANOV KALBALI XANA İRƏVANIN TƏHVİL ŞƏRTLƏRİNİ DİQTƏ EDİR, ANCAQ BİR ŞƏRTİ DƏ VAR: "ERMƏNİ KNYAZLARI RƏİS OLMAMALIDIRLAR"

Naxçıvan xanlığını Kalbalı xana vəd edən knyaz Sisianov ondan İrəvanı ruslara döyüşsüz təslim etmək, öz sədaqətini təsdiqi kimi girov olaraq amanat vermək üçün qaynı Məhəmməd xana təsir göstərməsini istəyir. Məhəmməd xan İrəvanlı, əlbəttə ki, İrəvanı ruslara təslim etmək arzusunda deyildi, ancaq knyaz Sisianovun etibarını da itirmək istəmirdi.

KNYAZ SİSİANOVDAN – KALBALI XANA, 5 MAY 1804-CÜ İL

Çox məmnunam ki, zati-aliniz Rusiyanın, yəni güclünün tərəfini saxlayırsınız və bu iş uğurla başa çatdıqda və inamımız gerçəkləşəndə, onda mənim dostum siz Naxçıvan xanlığının taxtında əyləşəcəksiniz, bunun üçün Allaha and içirəm. Bu arada, mənə erməni dilində yazdığınız məktuba cavab yazıram Məhəmməd xan nə qalanı, nə rəhbərliyi, nə də amanat verməyə razı deyil, belə olan halda o, mənim istəyimi necə yerinə yetirəcək və hansı işdə mənə inanacaq? Həm də molla Bədəli yanıma göndərən, onu mən hələ görməmişəm, mənim qulağıma çatdığına görə eyni zamanda axundu Babaxanın sərdarının yanına göndərib. Onun bütün ailəsi Babaxanın sərdarının olduğu halda, onda mənə nə üçün vermək istəmir. Əgər o, İranı Rusiyadan güclü hesab edirsə, qoy onun himayəsinə girsin: qalanı Babaxanın qoşunlarından, ya da Məhəmməd xandan almağın mənim üçün fərqi yoxdur. Beləliklə, mən sizə son sözümü deyirəm:

1-si, bütün danışıqlardan əvvəl Davidi göndərməli və patriarx Danili öz yerinə bərpa və elan etməlidir;

2-si, rus qoşunları qalaya girməlidir, xan öz istəyinə görə qalada və ya ondan kənarda yaşamaqda sərbəst olacaq;

3-sü xan Rusiya İmperatorunu öz hökmdarı kimi qəbul etməli və ona sədaqət andı içməlidir;

4-sü, xan iki müddətə, yəni, birinci yarısını Novruzdan sonrakı gün, ikinci yarısını isə iyuldan sonra olmaqla ildə

80 000 rubl xərac verməlidir.

Əvəzində:

1-si, xan əvvəlki hüquqlarında və rəisliyində qalacaq, təki sadiq olsun, ölüm hökmü ləğv ediləcək, bunun üçün Allaha and içirəm;

2-si, Hökmdar İmperator və hökmdarların Hökmdarı onun xan ləyaqəti barədə fərman verəcək ki, bu da onun öz təhlükəsizliyini təsdiq edəcək;

3-sü, başidarəçi hər vəchlə xan ailəsini İranda çıxarıb gətirməyə çalışacaq, bir şərtlə ki, o bu təklifləri mənim qoşunla Tiflisə girəcəyim günə qədər yerinə yetirmiş olsun.

Bu şərtləri göndərəndən sonra dərhal orduda general, general-mayor Leontiyevə göstəriş verdim ki, əgər xan bu şərtlərin hamısı ilə razılaşsa, bu barədə Pambakda olan batalyondakı mayor Montrezoru məlumatlandırsın ki, o da Danilin patriarx taxtına əyləşdirilməsinə dair hələ mənim sələfimin dövründə göndərilən ali fərmanı xana çatdırmaq üçün dərhal onun yanına yollansın; bu zaman o, iki batalyonla təcili patriarx Davidi qəbul edib, müşayiət altında mənim yanıma gətirməlidir, mən də o vaxt Məhəmməd xanı xanlığını təsdiq etmək və ondan əlahəzrət imperatora sadiqlik andını qəbul etmək, eləcə də bizə sadiq və İrəvan xanının qohumu Kalbalı xanın Naxçıvan xanlığına təyin edilməsi üçün qoşunla İrəvana doğru hərəkət edəcəyəm. Eyni zamanda sizin parlaq şəxsinizə çatdırmağı özümə borc bilirəm ki, İrəvana ən yaxın postdan çox da dəqiq olmayan belə bir məlumat alınıb ki xan İran qoşunlarının oraya doğru hərəkətə keçməsindən qorxuya düşərək, mənim təklif etdiyim bütün punktlarla razılaşmaq niyyətindədir. Bütün bunlarla yanaşı deyə bilərəm ki, İran xanlarının heç bir vədinə güvənmək mümkün deyildir, buna əminəm ki, bizim hərbi dəstənin oraya yaxınlaşmasının doğurduğu qorxudan başqa (onlara) heç bir şey təsir göstərə bilməz. **Yalnız bir fikrimi təkrar etmək qalır ki, erməni knyazları rəis təyin edilməsin, rus zabitləri təyin edilsin, çünki erməni knyazları öz tamahkarlıqları ilə hamını qaçaq salır.**

(AKAK, c. 2, səh. 614-615)

Düz 5 gündən sonra İrəvan hakimi Məhəmməd xan knyaz Sisianovdan məktub aldı.

Adətən olduğu kimi, bu məktub da kobud ultimatumlar-

la doludur və mayor Montrezorun raportundakılarla heç bir uyğunluğu yoxdur. Elə bil Məhəmməd xanın Rusiyaya iri məbləğdə borcu var. Knyaz Sisianov İrəvanla sanki özününkü imiş kimi davranır.

KNYAZ SİSİANOVDAN – MƏHƏMMƏD XAN İRƏVANLIYA, 10 MAY 1804-CÜ İL

...Siz göndərib aşağıdakı punktlara razı olmağınız barədə öz möhürünüzlə təsdiqlənmiş məktub göndərməlisiniz.

1. Qalada Rusiya qoşunları yerləşdirilməlidir, siz özünüz isə harada istəsəniz, istər qalada, istərsə də ondan kənarda yaşamaqda sərbəstsiniz.

2. Siz Rusiya İmperatorunu öz hökmdarınız kimi qəbul etməli və ona sədaqət andı içməlisiniz.

3. Yüksək mənsəbli zatınız iki müddətə, yəni, birinci yarısını Novruzdan sonrakı gün, ikinci yarısını isə iyuldan sonra olmaqla ildə 80 000 rubl xərac verməlisiniz. Onda mən gəlib sizin sədaqət andınızı təsdiq edəcək və əlahəzrət imperatorun qoşunları ilə sizi düşmənlərinizdən qoruyacağam. Bundan əlavə, bunlara razı olmağı gecikdirsəniz, heç bir əfv gözləməyin.



Qədim İrəvan

Bundan əlavə, Allaha and olsun ki, mənə qoşunlarımla o qalanı tutmadan keçinmək nə qədər mümkün deyilsə, sizin həyatınız və rəisliyiniz də o qədər əbədi olaraq toxunulmaz qalacaqdır. Mənim son sözüm budur, sizin üçün ən yaxşı çıxış yolu budur! Əgər bu yolla getməsəniz, sizin ölümünüzdə mən günahkar olmayacağam.

(AKAK, c. 2, səh. 613)

Knyaz Sisianovun İrəvan hakimi Məhəmməd xana 25 may 1804-cü il tarixli məktubundan anlaşılır ki, baş komandan İrəvanı ələ keçirmək üçün yaranmış əlverişli andan istifadə etmir, Rusiya üçün vacib, amma İrəvanın istilası ilə heç bir əlaqəsi olmayan kənar işlərlə məşğul olur. Kalbalı xanın Rusiyaya kömək etmək cəhdini düzgün qiymətləndirməyən, ancaq onun Məhəmməd xan üzərində təsirini yaxşı anlayan knyaz Sisianov Kalbalı xanın Naxçıvan xanlığına hakim təyin edilməsinə, daha dəqiq desək, xanlığı idarə etmək üçün qanuni olaraq onun Naxçıvana qaytarılmasına zəmanət verməklə bundan yem kimi istifadə etməyə çalışır. Ruslarda adətən buna: *"ölməmiş ayının dərisini bölüşmək"* deyirlər.

Knyaz Sisianov hələ İrəvana doğru hərəkət etməyə başlamamışdı, ermənilər isə onun təbiətən şöhrət düşkünü olduğunu bildikləri üçün yüksək rütbəli keşişlərə istinadən ona, Naxçıvan xanının yatanda yuxusunda da rus qoşunlarını İrəvanda gördüyü ilə bağlı informasiyalar gətirirlər. Və knyaz Sisianov təcili olaraq Sankt-Peterburqa məlumat verir:

"İrəvan xanı silahlarımızın uğurlarından qorxuya düşərək, çox səmimi şəkildə qan tökülmədən Rusiya təbəliyini qəbul etməyi arzulayır".

(AKAK, c. 2, səh. 611)

Rusiya sarayı ilə öz "dahiyanə" planlarını bölüşmək və İrəvanı ələ keçirilməsi ilə bağlı öz qaynar fəaliyyətini nümayiş etdirmək üçün knyaz Sisianov Peterburqa dalbadal məktublar göndərsə də, əməliyyat özü isə artıq yay mövsümünün gəlib çatmasına baxmayaraq hələ yerində sayırdı.

KNYAZ SİSİANOVDAN – KNYAZ ÇARTORIYSKİYƏ, 29 MAY 1804-CÜ İL

"İrəvanlı Məhəmməd xanla danışıqlara girib və bunu qarşılıqlı yazışmalarla indiyədək davam etdirərək sizin parlaq şəxsinizə çatdırmağı özümə borc bilirəm ki, sonuncu qəti məktubumda o xana öz xanlığı ilə bir yerdə Ümumrusiya Dövlətinin təbəliyinə və himayəsinə qəbul oluna biləcəyi şərtləri təklif etdim. Bu şərtlər ondan ibarətdir ki, xan hər şeydən əvvəl Danili patriarx taxtında bərpa və elan etməli, öz ailəsini İrandan geri gətirməlidir. Nə isə ixtiyar özünündür, o ya bütün şərtləri qəbul etməli və hər şeyə razı olduğunun bir əlaməti kimi patriarx adlanan Davidi göndərməlidir və bu işi başa çatdırandan sonra İrəvanı bütün düşmənlərdən, xüsusilə də Baba xanın sərdarının qoşunlarından müdafiə etmək üçün qoşunla birlikdə yolumu davam etdirərək, Naxçıvanı ələ keçirməyə gedəcəyəm; danışıqlara isə sonra başlayacağam, qızıl kimi vaxt gedir.

Allaha and olsun ki, günəş geri fırlana, Xəzər dənizinin suyu quruya bilsə də, mən bu yürüşdən vaz keçməyəcəyəm. Fərq yalnız ondadır ki, mən ya qardaşı xilas etməyə gələn qardaş kimi, ya da hökmdarlar Hökmdarının buyruğuna qarşı çıxmağa cəsarət edəni, Cavad xan Gəncəli kimi cəzalandıran düşmən kimi gələcəyəm".

(AKAK, c. 2, səh. 614-615)

Can sağlığı arzulamaq əvəzinə, – ən xeyirxah, ən rəhmli, günəş qədər nurlu imperator adından çıxış edən hər bir sərkərdə isə hökmən belə etməlidir, – ədəbsiz knyaz Sisianov hələ həyasızcasına İrəvan xanını Cavad xan Gəncəlinin faciəvi taleyi ilə hədələyir.

1804-cü ilin iyununda knyaz Sisianov öz dəstəsinin bir hissəsini general-mayor İkinci Tuçkovun rəhbərliyi altında İrəvan istiqamətində irəliyə göndərir, özü isə dəs-



Rusiyanın xarici işlər naziri A.A.Çartorıyski

tənin qalan hissəsi ilə iki gün sonra yola düşür. İyunun 10-da general-mayor İkinci Tuçkov Gümrü kəndi yaxınlığında gürcü şahzadəsi Aleksandrın da tərkibində olduğu İran qoşunu ilə üzləşir. Tuçkov İran qoşununa hücum edərək onu qaçmağa məcbur edir. Bir neçə gündən sonra İran şahzadəsi şahzadə Aleksandra kömək göndərir və iranlılar yenidən Tuçkovun qarşısına çıxırlar. İranlıların əsas qüvvələri isə Abbas Mirzənin öz rəhbərliyi altında Araz çayını keçib, İrəvan xanlığının hüdudlarına daxil olurlar.



Şahzadə
Abbas Mirzə

İyunun 19-da knyaz Sisianovun başçılıq etdiyi qoşun hissəsi Eçmiədzinə yaxınlaşır, 21-də isə iranlıların 19 minlik korpusunu knyazın qoşunu mühasirəyə alır, amma böyük itki ilə geriyə oturdulur. İyunun 25-də iranlılar təkrar hücuma keçirlər, ancaq bu dəfə də darmadağın edilirlər və Abbas Mirzə Arazın o tayına geri çəkilməli olur. İrəvan xanına bu barədə məlumat verən knyaz Sisianov ondan qalanın təhvil verilməsini və Rusiya təbəliyinə keçmək üçün sədaqət andı içməsini tələb edir. Məhəmməd xan məqsədə nail olmaq üçün bütün üsulların yaxşı olduğunu güman edərək hiyləyə əl atır. Ruslardan yaxasını qurtarmaq və İran şahının rəğbətini qazanmaq üçün Abbas Mirzəyə elçi göndərib geri çəkilməsini xahiş edir və 27 minlik qoşun geriyə çəkilib Qalagiri kəndi yaxınlığında düşərgə salır. Abbas Mirzə yaranmış fasilədən istifadə edib, ciddi şəkildə rus qoşunları ilə döyüşə hazırlaşır, ancaq knyaz Sisianov onu qabaqlaya bilir.

İyunun 30-da rus qoşunlarının üç minlik dəstəsi Zəngə çayını keçib, Abbas Mirzənin ətraf yüksəkliklərdə əlverişli mövqe tutan qoşununa hücum edir. Əvvəlcə iranlılar inadla

müdafiə olunurlar, ancaq sonda rusların hücumuna tab gətirməyib, döyüş meydanından üç verst aralı olan düşərgələrinə geri çəkilməyə məcbur olurlar. Süvari qoşunun sayca azlığı knyaz Sisianova düşməni təqib etməyə imkan vermir, ancaq iranlılar da ruslarla döyüşə girməyi istəməyərək, öz düşərgələrini tərk edib, İrəvandan keçərək sürətlə geri çəkilirlər.

Rus mənbələrinə görə, – onlarda isə düşmənin itkisi çox vaxt şişirdilmiş olur – iyunun 30-da iranlılar ölü və yaralı olaraq 7 min əsgər, özlərinin bütün arabalarını, dörd bayraq, yeddi falkonet və gəldikləri yol boyu qarət etdikləri bütün qiymətli əşyaları itirmişdilər. Bu qazanılan qələbəyə görə Sisianov 1804-cü il iyulun 22-də I dərəcəli Müqəddəs Vladimir ordeni ilə mükafatlandırılmışdır.

Rus hərbi dəstəsi isə bu zaman İrəvana doğru irəliləyirdi. Baş komandan knyaz Sisianovun sərəncamına aşağıdakı qoşunlar verilmişdi: bir qrenader, üç nişançı və 24 topu olan dörd müşketyor polku. Süvari dəstəsinə Narva draqun polku və Don kazak polku daxil idi. Ancaq bu iri birləşmə rus qoşunlarının nəzarətində olan geniş bir əraziyə səpələnmişdi. Hökmdar imperatorun qoşunlarının məğlubedilməzliyinə əmin olan lovğa knyaz Sisianov isə bunlardan 12 topu olan 4500 nəfərlik dəstə toplamışdı.

Rus qoşunları iranlılarla döyüşərək, knyaz Sisianovun dəstəsinə yol açarkən, bu dəstə 1804-cü il iyulun 2-də İrəvan divarlarına gəlib çatdı; onlar qalada nəhəng bayram atəşfəşanlığı ilə qarşılaşacaqlarına ümid edirdilər: axı xanlıqda rus qoşunlarını və Gəncənin məşhur qalibi kimi knyaz Sisianovu səbirsizliklə gözləyirdilər. Lakin qala knyaz Sisianovun qoşunlarını qaşqabaqlı sükutla qarşıladı, nə Məhəmməd xan İrəvanlı, nə də onun tapşırığı ilə başqa bir adam knyazın qabağına çıxmadı. Əksinə, qaladan onların üzərinə top atəşi açıldı. Rus qoşunları müdafiə mövqeyi tutdular. Sonra nə olsun? Yenidən ətrafa qorxunc sükut çökdü. Sisianovun ermənilərə olan ümidi özünü doğrultmadı. Onlar onu aldatmışdılar.

Knyaz Sisianov öz hökmdarı üçün yeni ərazilər istila edərkən, eyni zamanda ermənilərin Yaxın Şərqdə mənafelərini də müdafiə etdiyini anlayaraq, İrəvanın mühasirəsi zamanı onların köməyinə ümid bəsləyirdi. İrəvanda yaxşı təşkil olunmuş bir icmanı təmsil edən ermənilər, rus qoşunları qalanı mühasirəyə alanda xanlıq hakimiyyətinə itaətsizlik göstərib, bir növü qiyam qaldıra bilərdilər. Əlbəttə, belə bir tamaşa əsl müqavimət kimi qəbul edilə və müdafiənin təşkili işini poza bilməzdi. Ancaq qalanın müdafiəçilərini bir müddət çaşdıra və yeri gəlmişkən, sözdə Rusiya himayəsini bu qədər arzulayan Məhəmməd xana rus qoşunlarının qalanın içərisinə girməsinə mane olmamaq imkanı verərdi. Beləliklə, İrəvan heç bir qan tökülmədən alınardı və ermənilər İrana köçürülmək təhlükəsi gözləməzdi.

Sisianov öz hərbi praktikasında "əleyhinə" şansından daha çox "lehinə" şansına güvənirdi. Knyaz qalaya yaxınlaşarkən başa düşdü ki, ermənilər öz həyatlarını qurban vermək istəmir və qalada asayişi pozmaq məqsədilə şəhərdə qarışıqlıq yaratmaq fikrində deyillər. İrəvanın erməni əhalisinin böyük bir hissəsi hücumdan qorxub təşviş içində qalanı tərk edərək, ətrafdakı bağlarda gizlənmişdi, orada rusların İrəvanı ələ keçirəcəyi və sonra da özlərinin Rusiyaya köçürüləcəkləri xoşbəxt anları gözləyirdilər.

Gözlənilmədən rus qoşunları üzərinə qaladan açılan atəşlər susduqdan sonra xanın nümayəndəsi diplomatik bayraqla giriş qapısından çıxıb rus qoşunlarına tərəf yollandı; o, bu cür qeyri-qonaqpərvər bir yanlışlığa görə üzrxahlıq etmək və xanın təbrik məktubunu knyaz Sisianova çatdırmaq üçün gəlmişdi. Məhəmməd xan İrəvanlı o məktubda nə yazırdı?

MƏHƏMMƏD XANDAN – KNYAZ SİSİANOVA,
2 İYUL 1804 TARİXİNDƏ ALINIB

Sizin parlaq şəxsinizin qoşunla gəlməyindən mən məmnunam. Mənim borcum hər şeydən əvvəl sizə öz təbrikimi çatdırmaq üçün adamımı yanınıza göndərmək idi, ancaq bəzi şərt-

lər buna imkan vermədi, ancaq nəhayət məhz bu gün göndərməli oldum. Bununla belə, sözəbaxmayan bəzi adamlar tərəfindən topdan və tüfəngdən təsadüfən atəş açılmış və hər iki tərəfdən söyüşlər söyülmüşdür. Allaha and içirəm ki, mən bu hərəkətdən narazıyam, çünki bu səbəbdən çox mərhəmətli böyük Hökmdar İmperatorun himayəsindən və sizin rəğbətinizdən uzaq düşmüş olardım. Mən qəlbən heç vaxt sizə qarşı olmamışam, sizin mənim sədaqətimdən imtina etməyinizin başlıca səbəbini bilmirəm və nifrətə layiq deyiləm və buna görə də sizə bununla əziyyət verərək, mənə qarşı soyuqluğunuzun və mənfi münasibətinizin səbəbini mənə açıb deməyinizi xahiş edirəm. Yeri gəlmişkən, sizin əmrlərinizi həmişə yerinə yetirməyə və sizə qulluq göstərməyə hazıram və bundan şərəf duyaram.

(AKAK, c. 2, səh. 616)

Qala yaxınlığında, aydındır ki, heç də əziz olmayan bir qonaq kimi, top atəşinə tutulan knyaz Sisianov möhkəm qəzəblənib özündən çıxır və sabahı gün Məhəmməd xana məktub göndərir. Məktubda söhbət etibardan gedir. Bundan əlavə, knyaz Sisianov Məhəmməd xanı güc tətbiq etməklə hədələyir. Baxaq görək bunlar yalnız sözdürmü, yoxsa artıq sözdən işə keçilib?

KNYAZ SİSİANOVDAN – MƏHƏMMƏD XANA,
3 İYUL 1804-CÜ İL

Sizin məktubunuzu aldım, onun məzmununu anladım, ona cavab verirəm. Əgər, dediyiniz kimi, mənə təbrik üçün adam göndərməyə sizə şərait mane olubsa, sizin üçün bu daha pis, buna görə də dünən sizinkiləri kifayət qədər vurduq. Əgər sizin iradənizin əleyhinə olaraq sözünüzü eşitməyən adamlar təsadüfən top və tüfəngdən atəş açıblarsa, deyin görüm, onda Allahın ucaltdığı yüksək dövlətin böyük Hökmdar İmperatoru, təbəələri sözünü eşitməyən sizin kimi xanları nə üçün öz təbəəliyinə yığmalıdır? İndi, mənim nə üçün sizin Hökmdar İmperatora sədaqətinizdən imtina etdiyimin səbəbini soruşduğunuz üçün cavab verirəm:

1-si, Siz Əlahəzrət İmperatorun, mənim çox mərhəmətli, günəş kimi parlaq hökmdarlar Hökmdarımın himayəsinə girməyə can atırsınız, ancaq onun ötən ildən və yaxud mənim Gürcüstana gəlişimdən bəri dəfələrlə təkrarlanan buyruğunu

– Danilin patriarx taxtında bərpa olunması buyruğunu yerinə yetirməmisiniz.

2-si, Siz məndən Baba xanın oğlu Abbas Mirzənin komandirlik etdiyi İran qoşunlarından müdafiə olunmağınızı xahiş etmişdiniz. Mən onu Qanagiridən qovub çıxaranda və o, qorxaq dovşan kimi öz düşərgəsindən Araz çayının o tayına qaçmaq üçün Qarinə qaçanda, siz hədiyyələr, vədələr və xahişlərlə onu geri qayıdıb Qanagiridə dayanmağa inandırdınız ki, sonra ümumi qüvvələrinizlə mənə qarşı döyüşəsiniz. Ancaq mən az öyünüb, çox iş gördüm, o qadınabənzər qoşun üzərində necə qələbə qazandığımı siz özünüz bilirsiniz, çünki onunla dostlaşdığınız, o mənim qorxumdan düşərgədən qaçarkən bizə buraxıb getdikləri qənimətlər, İrəvanlıların yolda qaçarkən onu qarət etmələrinə əngəl olmadı.

Beləliklə, sizin müdrik siyasətinizin məhkəməsinə təslim olub indi soruşuram: hansı daha güclü təsirə malikdir – sizin səliqəli İran qələminizmi, yoxsa Rus süngüsümü?

Harda eşidilib ki, siz aman istəyirsiniz, ancaq adamlarınız atəş açır?

Nəhayət, bu məktubu alan kimi mənə qısaca cavab verin: qalanı mənə təslim edir, mənim iradəmə tabe olursunuzmu? Sizə tabe olmayanları mənə verin və əmin olun ki, onların həyatı təhlükəsiz qalacaq. Cavab üçün sabah günortaya qədər vaxt verirəm.

(AKAK, c. 2, səh. 616)

İrəvan divarları önündəki uğursuzluğa görə möhkəm qəzəblənən knyaz Sisianov isterikaya düşür. Aydındır ki, Məhəmməd xan Sisianova ya tabe ola bilmir, ya da olmaq istəmirdi. Ancaq bunun günahı kimdə idi? Əlbəttə ki, knyaz Sisianovun özündə. Artıq asan qələbələrə ümid etmək mümkün deyildi. Hərbi fəndgirlik, şücaət göstərmək və qurbanlar vermək lazım idi. Knyaz Sisianov risk etməkdən çəkinirdi – belə bir təcrübəsi yox idi. Ona döyüş şöhrətini Gəncə əməliyyatı qazandırmışdı. İrəvanın istilası isə daha mürəkkəb məsələ idi. Yanına göndərilən təxribatçıların dedi-qodularına qulaq verən Sisianov, heç nəyi aydınlaşdırmadan, artıq Kalbalı xana inanmırdı və bu inamsızlığını bütün dünyaya car çəkmişdi: qoy təkcə İrəvanda deyil, hər yerdə bilsinlər ki,

möhtərəm knyaz Sisianov artıq Kalbalı xana etibar etmir. İrəvanın öhdəsindən gəlməkdə Kalbalı xandan savayı ona kömək edə biləcək başqa qüvvələr də var.

Knyaz böyük bir təşəxxüs içərisində at oynadırdı: ətrafdakıların hamısı əmin olmalıdırlar ki, qələbə məğlubedilməz rus qoşunlarının tərəfində olacaq, İrəvan qalası isə çoxsaylı mükafatlar kavaleri və çoxsaylı titulların sahibi knyaz Sisianovun ayaqlarına düşəcək.

Özünə yeni müttəfiqlər seçərək, knyaz Sisianov xanlıqda hakimiyyətə can atan kürdlərlə də oyun oynamağa başladı.

KNYAZ SİSİANOVDAN –
İRƏVAN KÜRDLƏRİNİN RƏİSİ HÜSEYN AĞAYA,
24 İYUL 1804-CÜ İL

Bir çoxlarından sizin qəlbən həmişə Rusiyaya sadiq olduğunuzu və onun idarəçiliyini arzuladığınızı öyrənərək, sizə xəbər verməyə tələsirəm ki, mən üç həftədir burdayam, siz isə məktubla da olsa, mənimlə görüşməmisiniz. Mən artıq Baba xanın oğlunu darmadağın etmişəm, indi də qalanın önündə dayanmışam, insan qanının, başqa dindən olsa belə, tökülməsini, bir kor xana görə bir neçə min insanın qırılmasını istəsəydim, çoxdan onu almışdım.

Beləliklə, əgər siz kürdlər üzərində rəislik hüququnuzun əvvəlki gücündə və imtiyazlarda qalmasını istəyirsinizsə, öz kürdlərinizlə birlikdə mənim yanıma gəlin və əmin olun ki, mən sizi oğlum kimi qəbul edəcəyəm və Əlahəzrət İmperatorun, çox mərhəmətli Hökmdarın, mənim İmperatorumun müqəddəs adından sizə mərhəmət və iltifat vəd edirəm.

İrəvan mənim olacaq, çay geriyə dönüb öz mənbəyinə doğru axa bilər, ancaq kor və digər qadınabənzər xanlar qalanı əllərində heç cür saxlaya bilməzlər (seçmə – R. İ.).

(AKAK, c. 2, səh. 617)

Qoşun xəstəliklərdən, fərarilikdən və itkilərdən əriyib azalırdı. Məlum olduğu kimi, bədbəxtlik gələndə batmanla gəlir, bəzən xoşagəlməz hadisələr yumaq kimi bir yerə yığışır. Bir yandan da gürcü knyazları iranlılar tərəfindən əsir alınmışdı – tam xoşbəxtlik üçün bircə elə bu çatışmırdı.

GÜRCÜ KNYAZLARI İRƏVAN DİVARLARI ÖNÜNDƏ DONMAQDAN YORULMUŞDULAR, GÜRCÜSTANDA QIZINMAQ QƏRARINA GƏLDİLƏR, ANCAQ İRANLILARA ƏSİR DÜŞDÜLƏR

İyulun 25-nə keçən gecə Sisianov general-mayor Portnyagini öz qoşunlarının bir hissəsi ilə indi İrəvan yaxınlığında düşərgə salmış Abbas Mirzənin üstünə hücuma göndərdi. Döyüşdə iranlılar qələbə çaldılar və general-mayor Portnyagin qoşunu qoruyub saxlamaq üçün geri çəkilmək məcburiyyətində qaldı. Knyaz Sisianovun qoşunlarının vəziyyəti getdikcə daha da çətinləşirdi. Dözülməz istilər rus qoşunlarını əldən salmışdı, azuqə daşıyan arabalar qeyri-müntəzəm, həm də vaxtından gec gəlirdi, bəzən isə, ümumiyyətlə gəlib çıxmırdı. Pambak kəndi yaxınlığında mövqe tutan və yaranmış vəziyyət barədə knyaz Sisianova daim dəqiq məlumatlar verən mayor Montrezor iranlılar tərəfindən öldürülmüşdü, onun bütün dəstəsi isə məhv edilmişdi. Bu məqamda Dağıstan ləzgiləri canlanmış, onların basqınları intensivləşmiş qarabağlılar Yelizavetopol mahalına girmiş, osetinlər rus hakimiyyətinə qarşı qiyam qaldırmış, dəstənin baş komandanı knyaz Sisianovun Gürcüstanla əlaqəsi kəsilmişdi.

KNYAZ SİSİANOVUN ACİZANƏ RAPORTUNDAN 15 AVQUST 1804-CÜ İL

Knyaz Volkonskidən aldığım xəbərlər çox qorxuncdur, ancaq mən nə mühasirədən əl çəkib, nə də ondan bir hissə ayırıb ona köməyə gedə bilmirəm. Birincisi ona görə ki, mühasirənin qaldırıldığı barədə bircə şayiə belə gürcülərdə dəhşətli dərəcədə ümidsizlik, onların qonşularında isə məğrurluq doğura bilər və beləliklə, iki ilin bütün əziyyəti hədər gedər və rusiyalılardan qorxu hissi aradan qalxar və onda hər yerdə çaxnaşma baş verər. İkincisi, ona görə ki, ixtiyarımdakı silah altında olan 3000 nəfərdən 800-ü xəstədir. Əksinə, İrəvan

> ələ keçiriləndən sonra mühüm ixtişaşlar səngiyəcək və hər şey öz yoluna düşəcək. Burada siz Əlahəzrət İmperatorun önündə susa bilmərəm, bu qədər az saylı qoşunla yeni zəbt edilən və silahlı ərazidə qayda-qanun yaratmaq çox çətindir, sərhədlər təminatsız olduğu və ləzgilər müdaxilə etdiyi üçün onların silahlı olduğunu istisna etmək mümkün deyil.
>
> (AKAK, c. 2, səh. 328)

Peterburqa həyəcanlı xəbərlər gəlməkdə davam edirdi. Şəmşədlidə və Kaxetiyada baş verən qiyam İrəvanı blokadaya alan korpusla əlaqənin tamamilə kəsilməsinə səbəb oldu, korpus özü isə ağır vəziyyətdə idi. Sisianovun qoşunları aclıq təhlükəsi ilə üzləşmişdi, ona mühafizə olunan nəqliyyatla ərzaq göndərirdilər, lakin bu nəqliyyatların taleyi üçün heç kim məsuliyyət daşımırdı.

Daha bir çox xoşagəlməz xəbər: iranlılar Gürcüstana gedərkən yolda gürcü dəstəsini əsir almışdılar. Əsir düşənlərin arasında Orbeliani, Baratov, Tarxanov kimi məşhur knyazlar, 15 zadəgan və 20 nəfər digər təbəqələrdən olan gürcülər, həmçinin alver etmək üçün qoşunların düşərgəsinə gəlmiş müxtəlif rütbəli 15 nəfər tanınmış erməni vardı. Knyaz Sisianovun dəstəsində olan və əyləncəli həyat tərzinin ərköyünləşdirdiyi gürcü knyazları özlərinə məzuniyyət təşkil etmək qərarına gələrək, Gürcüstana gedən yolun təhlükəli olduğu barədə xəbərdar edilmələrinə baxmayaraq, vətənə yollanırlar və heç bir saat keçməmiş əsir düşürlər. Cəmi 150 nəfərə qədər adam əsir götürülür. Gürcüstan imperiyanın tərkibinə daxil olduqdan sonra gürcülər belə güman edirdilər ki, indi onların təhlükəsizliyi üçün Rusiya məsuliyyət daşıyır. Gürcü knyazları knyaz Sisianovun dəstəsinə könüllü vətənpərvərlər kimi gəlib düşmüşdülər. Kefləri çəkdi – knyaz Sisianovun qoşununa gəldilər, müharibəni uduzdular, şərait xoşlarına gəlmədi, qida kifayət qədər deyil, dəstəni tərk edib getdilər. Allaha çox şükür ki, məşhur gürcülər əsir düşmüşdü – onları satın almaq olar, əgər onlar adi rus əsgərləri olsaydılar, üstəlik müqavimət də göstərsəydilər, onların hamısı son nəfərinədək edam edilərdi.

KNYAZ SİSİANOVUN ACİZANƏ RAPORTU
15 AVQUST 1804-CÜ İL

Burda acizanə şəkildə siyahı təqdim etmək xoşbəxtliyinə malikəm, siz, Əlahəzrət İmperator o siyahıda buradakı xəstəhal hava və ərzaq çatışmazlığına görə Gürcüstana qayıtmaq istəyən knyaz və zadəganların adlarını görə bilərsiniz, mənim onları Pəmbəkə qədər yolda bir çox düşmən dəstəsi ilə qarşılaşmaq təhlükəsi barədə xəbərdar etməyimə baxmayaraq, onlar, İrəvan qalasının artıq alınmış olduğunu güman edərək bura alver üçün gəlmiş bir neçə Tiflis meşşanı ilə yola çıxdılar. Vətənə qayıdarkən onlar mənim buyruğumla azuqə dalınca göndərilən mühafizə dəstəsindən olan yoldaşlarının mühafizəsi altında olmuşlar. Həm mötəbər mənbələrdən, həm də zorla xilas olaraq buraya gələn knyaz Rafail Eriston Araqvskidən və bir neçə ermənidən alınan məlumata görə məlum olmuşdur ki, düşmən onlara hücum edib, rəisləri və düşmənə bərabər gücdə qoşunları olmadığı üçün onlar darmadağın edilib və böyük bir qismi əsir götürülüb; bunu knyaz Orbelianinin iranlıların düşərgəsindən qolu kəsilmiş halda göndərilən mehtəri də təsdiq etmişdir.

Bu faciəvi və xoşagəlməz macəranın baş verməsində onların, həm ağciyər knyazların, həm də söz eşitməyən ermənilərin özləri günahkardırlar. Bu hadisə kiçik bir fayda götürməyə ümidini itirmiş olan Baba xanı qürrələndirməlidir. Əsir düşən knyazların birinci dərəcəli nəslə mənsub olmaları onları zor gücünə və yaxud pulla geri almağa çalışmaq vəzifəsini boynumuza qoysa da, vaxtı keçdiyi üçün birinci mümkün deyil, ikincisi isə qışda icra oluna bilər, özümdə cəsarət tapıb məbləğin dəqiq müəyyən edilməsi və verilməsi barədə ali buyruğunuzu xahiş edirəm ki, sonra vədlər üzrə bölüşdürə bilim.

(AKAK, c. 2, səh. 811)

Xüsusi Qafqaz korpusu qoşunlarında Yüksək Sarayın müvəkkili olan general-leytenant knyaz **Dmitri Petroviç Volkonski** (1764–1812) paytaxta knyaz Sisianovun qoşunlarının ağır vəziyyətdə olması, buradakı fərarilik və gürcü knyazlarının iranlılar tərəfindən əsir alınması barədə məlumat göndərir.

KNYAZ VOLKONSKİNİN YÜKSƏK RAPORTU
16 AVQUST 1804-CÜ İL



Knyaz
D.P.Volkonski

...Somtexiyada və Şəmşədlidə bütün tatarlar qiyam qaldırıblar və hətta İrəvanı mühasirəyə alan qoşunlarla əlaqəni kəsirlər, iranlılar onlara kömək göndərir, gürcü knyazları da onların tərəfini saxlayır, bu günlərdə isə birinci dərəcəli soy-kökdən olan gürcü knyazlarını əsir götürüblər, bir neçəsini döyüblər, bu hadisə Gürcüstan əhalisində ruh düşkünlüyü yaradıb. Artıq bir neçə gündür onlar birləşmiş qüvvələrlə Qarakilsə postuna hücum edirlər, onu qoruyub saxlamaq hətta İrəvan ətrafındakı qoşunların mövcudluğunun özü üçün lazımdır.

İnfanteriya generalı Sisianovun azuqəyə və sursata ehtiyacı var, artıq böyük çətinliklə üçüncü nəqliyyatı ona göndərirəm. Sonuncuda nizami draqun atlarından istifadə etmək məcburiyyətində qaldım, ona güclü mühafizə versəm də mənzil başına gedib çatacağına əmin deyiləm. Gürcüstanda olan qoşunların vəziyyəti nə qədər ağır olsa da, infanteriya generalı Sisianov öz dəstəsindən kömək ayıra bilmir, sərhədlərin mühafizəsi və ölkə daxilində qayda-qanun təmin edilməsi üçün isə hökmən kömək lazımdır.

(AKAK, c. 2, səh. 328)

General sərdar İvan Orbelianinin gözüyaşlı arvadı knyaz Sisianova müraciət edərək ərinin "qəddar barbar və tiran" hakimiyyətinin əlindən xilas edilməsini – pulla geri alınmasını xahiş edir.

Belə bir vəziyyətdə İrəvanı tutmaq, yəqin ki, heç yada düşmürdü: məşhur gürcülər əsir alınmışdılar, onları qurtarmaq, bunun üçün isə pul ödəmək lazım idi. İranlılar pulu çox sevirlər, deməli adlı-sanlı gürcülər üçün ödəniləcək pulun məbləği çox böyük ola bilərdi.

Rusiya hələlik İrəvansız da ötüşə bilər, amma əgər, məsələn, Gürcüstan sərdarı general İvan Orbelianinin başına İranda bir iş gəlsə, Rusiya sarayı hətta knyaz Sisianovu belə əfv etməyəcəkdi.

KNYAGİNYA ANASTASİYA ORBELİANİDƏN –
KNYAZ SİSİANOVA
5 NOYABR 1804-CÜ İL

Böyük hüzn və sərdarın ordakı ağır vəziyyəti və əzabları barədə məktubu mən ixlaskar ana təmkinliliyini, demək olar ki, unutmağa məcbur etdiyi üçün mən parlaq şəxsiyyətinizi bu cür narahat etməyə cəsarət edirəm. Ancaq, mərhəmətli cənab, mən nə etməliyəm? Göydəki Allahdan sonra yer üzündə parlaq şəxsiyyətinizdən savayı sərdarın köməyi, himayədar və qurtarıcısı yoxdur, buna görə də siz gərək bu cəsarətli məlumatıma görə bağışlayasınız. Sərdar qollarında, ayaqlarında, belində ağır həbs alətləri altında əriyib gedir, ölməyinə lap az qalıb və belə bir vəziyyətdə o, Azərbaycan bəylərbəyi Əhməd xan Marağalının, həmçinin qəddar barbarın və tiranın hakimiyyəti altındadır. Və sərdar yazır ki, pul ödəməklə deyəsən ona kömək etmək olar. Buna görə də sizin atalıq mərhəmətinizə ümid edərək sərdar özü və mən belə bir kədərli vəziyyətdə ürəyimizin səsi ilə parlaq şəxsiyyətinizdən və çox mərhəmətli Hökmdar şanlı İmperatorun bizim məktubumuzu və təqdimatımızı qəbul etdiyi ölçüdə bizə mərhəmət göstərilməsini – sərdara kömək edilməsini xahiş edəsiniz və ona öz qayğınızı göstərəsiniz. Mənim ağam, bu qədər böyük bir kədər içində qovrularaq siz parlaq şəxsiyyətin ayaqlarını qucaqlayıram, göz yaşları içərisində hıçqıraraq sizdən adi insansevərliyinizlə kömək etməyinizi xahiş edirəm ki, yandırdığınız şam sönməsin və bütün diyar sizin bizə himayədarlığınızı və mərhəmətinizi canlı xatırlasın. Sərdar özü sizə ümid edə və güvənərək, məktubla, burada olan təbrizli bir adam vasitəsi ilə şifahi şəkildə sizdən ona kömək, himayədarlıq və qurtarıcılıq etməyinizi xahiş edir, mən də həmişə sizə hörmət və s. bəsləyərək bunun intizarındayam.

(AKAK, c. 2, səh. 813)

Sərdarın arvadının məktubunun ardınca knyaz Sisianov general İvan Orbelianin özündən bir məktub alır. Gürcüstanın birinci dərəcəli əyanlarının məruz qaldıqları işgəncələrin təsvirini hesaba almasaq, qalanları bizə artıq məlumdur.

KNYAZ ORBELİANİDƏN – KNYAZ SİSİANOVA
10 NOYABR 1804-CÜ İL. TƏBRİZ

Mənim bədbəxtliyim məni belə bir gözlənilməz tamaha satdı, bu da məni sizin qayğıkeş ata qəlbinizdən uzaqlara atdı. Bu dəfə biz ölümdən yan keçdik, sonrası isə Allahın iradəsinə qalıb. Baba xan bizi Təbriz bəylərbəyinə verdi. Təbrizdə onun əlində dustaq kimi saxlanılan əsirlərin siyahısını təqdim edirəm. İndiyə qədər bizim boğazlarımızda zəncir vardı, ancaq bir neçə gün əvvəl zəncirləri boğazımızdan çıxardılar və ayaqlarımıza qandal keçirdilər, bu vəziyyətdə saxlayırlar. Bundan artığı barədə sizə məlumat verməyə cəsarət etmirəm. Bu məktubu çatdıran mənim barəmdə ətraflı danışacaq. İnsansevərlik göstərməyinizi və nə ilə mümkünsə qayğımıza qalmağınızı xahiş edirik.

Siyahı:

1) Orbeliani İoann, 2) Orbeliani Zurab, 3) Orbeliani Solomon, 4) Barataşvili David, 5) Sumbatov Luareab, 6) Takaşvili Reval, 7) Tarxnişvili Reval, 8) Şalikov İosif, 9) Takaşvili David, 10) Türkistanişvili Betsia, 11) zərgər Xaçatur, 12) Orbeliani Aslan, 13) Muxran Batonişvili, Ermiy (bu ikisini Baba xan Tehrana aparıb), 14) Simonoviçin batalyonundan zabit Vasilli də 25 əsgərlə birlikdə Təbrizə gətirilib, 15) daha bir zabiti də əsir alıblar – kim olduğunu bilmirəm, 16) patriarx Daniil və Avo məlikin oğlu da burda Təbrizdə saxlanılır.

(AKAK, c. 2, səh. 813)

Gürcü knyazları hələ iranlıların əlində qalarkən, Rusiyada isə onların yaxınları göz yaşı axıdaraq, onları qurtarmaq üçün iri məbləğdə pul axtararkən, biz də maraqlanaq görək, bu qeyri-adi faciənin hüdudlarından kənarda nələr baş verir.

İndi söhbət İrəvanın ələ keçirilməsindən daha çox, bu

hadisənin baş vermə səbəblərinin təhlili barədə gedir. Özü də knyaz Sisianov Məhəmməd xana məktub yazıb, "əgər"-lərə ümid bağlayaraq, onu rus dəstəsinə Narın-qaladan keçməklə İrəvana yol açılmasının təmin edilməməsində təqsirləndirir, bu isə İrəvanda knyaz Sisianovu Allahdan da çox gözləyən ermənilərin vicdan işi idi və onlar buna vəd vermişdilər. Ancaq tarixdə "əgər"ləri təsdiq etmək, zamanın əsas xassəsini – onun geri dönməzliyini pozmaq kimi bir şeydir. Buna baxmayaraq, yenə də knyaz Sisianovun İrəvanı ona verməyən və buna görə də knyazın bəyan etdiyi kimi, *"öz məhvinin kənarında dayanan"* Məhəmməd xana məktubunu nəzərdən keçirək. Bu məktubu oxuyanda adamın gözləri önündə İ.S. Krılovun məşhur "Vaska həm dinləyir, həm də yemək yeyir" adlı təmsilindəki mənzərə canlanır.

KNYAZ SİSİANOVDAN – MƏHƏMMƏD XAN İRƏVANSKİYƏ, 31 AVQUST 1804-CÜ İL

Siz yüksək mənsəblinin məktubunu aldım və sizin inandırmağa çalışdıqlarınız məni təəccübləndirir. Özünüz etiraf edirsiniz ki, mənim sizə qəzəblənməyimin səbəbi var, ancaq siz günahkar deyilsiniz, kənar adamlar günahkardırlar. Mən siz yüksək mənsəbliyə necə güvənə bilərəm ki, bir xan olduğunuz halda, xanlıqda öz hökmünüzü yeridə bilmirsiniz, kənar adamların hökmü yeriyir! Əgər siz öz xoşbəxtliyinizi istəsəydiniz, iki ay ərzində mənə Narın-qalada yol açardınız, onda sizin xoşbəxtliyinizə mane olan bütün kənar adamlar qüvvələrini itirər və sizə ziyan vura bilməzdilər. Ruslar öz sözlərinin üstündə durmağı bacarırlar, əgər baş komandir sizi bağışlamağı və xanlığı sizə saxlamağı vəd edirsə, heç kəs bunu dəyişdirmək gücündə deyil. Mənim bu sözümü unutmayın ki, mən qaladan geri çəkildiyim anda, sizi Babaxana təhvil verəcəklər. O vaxt peşman olacaqsınız,



İrəvan şəhər məscidinin minarəsi

amma gec olacaq. Buna görə də fikirləşin və elə bu gecə də mənim məktubuma cavab göndərin, onsuz da, siz öz məhvinizin kandarında dayanmısınız – nə isə ixtiyar sizindir.

(AKAK, c. 2, səh. 617)

İRƏVANI HÜCUMSUZ VƏ KALBALI XANSIZ ALMAQ ÜÇÜN GÖSTƏRİLƏN YENİ CƏHDLƏR UĞURSUZLUQLA NƏTİCƏLƏNDİ. İRANLILAR DAHA FƏNDGİR TƏRPƏNDİLƏR

İndi knyaz Sisianov özünün saysız-hesabsız titullarını İrəvan şəhərinin Məhəmməd xandan tutmuş Kalbalı xana qədər bütün kübarlarına və bütün İrəvan xalqına xatırladaraq, İrəvanın dinc yolla təslim olmasının şərtlərini yenidən təkrarlayır: *"İrəvan sakinlərinin evlərini, nə də onların son azuqələri olan çörəklərini atəşə vermədən, onlar qalanı Rusiya qoşunlarına təhvil verə bilərlər"*.

KNYAZ SİSİANOVDAN – MƏHƏMMƏD XAN İRƏVANSKİYƏ, KALBALI XAN NAXÇIVANSKİYƏ, AXUNDLARA, MOLLALARA VƏ BÜTÜN XALQA 1 SENTYABR 1804-CÜ İL

Məğlubedilməz Rusiya qoşunlarının general-anşefi Qara dənizdən Xəzər dənizinə qədər geniş bir ərazinin və bu dənizlərdəki donanmanın baş komandanı, Gürcüstanın baş idarəçisi və kavaler knyaz Sisianov bu vasitə ilə yüksək mənsəbli Məhəmməd xan İrəvanskiyə, Kalbalı xan Naxçıvanskiyə, axundlara, mollalara və bütün xalqa aşağıdakıları təklif edir.

Həmin yüksək mənsəblilər və bütün şəhər aydın görür ki, Baba xan sərdarın çoxsaylı qoşunla ay yarımdan artıq bir zaman ərzində məğlubedilməz Rusiya qoşunlarını şəhərdən geri çəkilməyə məcbur etmək iqtidarında deyil və Rusiya nə İrəvan sakinlərinin evlərini, nə də onların son azuqələri olan çörəklərini atəşə vermir, halbuki iranlılar bütün ətraf ərazilərdə məhz belə ediblər; buna görə də yuxarıda adı çəkilən baş komandan axırıncı dəfə hər iki yüksək mənsəbli xana, axundlara, mollalara və bütün xalqa qalanı Rusiya qoşunlarına aşağıdakı şərtlərlə təslim etməyi təklif edir:

1) Rusiya qarnizonunu qalaya buraxmaq və iki alay üçün

azuqə vermək;

2) Böyük Hökmdar İmperatorun təbəəliyini qəbul etmək barədə and içmək və ona sədaqətli qalmaq;

3) Hər il 100 min rubl məbləğində xərac vermək;

4) Bunun qarşılığında hər iki yüksək mənsəbli xan əvvəlki hüquqları və imtiyazları ilə birlikdə öz xanlığında qala bilər;

5) Dini mərasimlər azad olmalıdır, heç bir sıxışdırmaya və yaxud məhdudlaşdırmaya yol verilməməlidir;

6) Axundlar və bütün ruhanilər, şəhər və kənd əhalisi öz əmlak və mülkiyyətləri, onlara olan əvvəlki hüquqları ilə birlikdə toxunulmaz qalacaq;

7) Arazın o tayından şəhərə buraxılan İran əsgərləri hər iki yüksək mənsəbli xanın əsiri olaraq qalacaqlar ki, onlar bu əsirlərin əvəzinə öz ailələrini Baba xandan tələb etsinlər, qalaya daxil olduqdan sonra bu iş şanlı rus silahı ilə dəstəklənəcəkdir.

Bütün bu şərtlər öz müqəddəsliyini əbədi olaraq saxlamalı və pozulmamalıdır, təki bu tələblər sentyabrın 2-nə, yəni sabahkı günədək yerinə yetirilmiş olsun.

(AKAK, c. 2, səh. 617)

Məhəmməd xan bunun cavabında bir neçə məktub yazmış və onların hamısında şahın hakimiyyətində olmaq arzusuna düşdüyünü qəti şəkildə inkar etmişdir. *"Ağa Məhəmməd xan ölməsəydi, mənim ölkəm,* – o yazır, – *tamam kölə halına düşərdi"*.

Və arxasınca: *"Yeddi ildir ki, mən özümü Baba xanın torundan qoruyuram"*. Baba xanın *"toruna düşən"* Məhəmməd xan hiyləgərlik edərək vaxt qazanmağa çalışır, azuqə qıtlığı və istidən əziyyət çəkən Rusiya qoşunlarını yorub taqətdən salır.

O məktublardan birini oxucuların diqqətinə çatdırırıq.

MƏHƏMMƏD XANDAN – KNYAZ SİSİANOVA, 2 SENTYABR 1804 TARİXİNDƏ ALINIB

Sizin parlaq məktubunuzu almaq şərəfinə nail oldum, orada siz mənim heç bir hökmümün olmadığı və buna görə də bu cür narahatlıqlar yarandığını söyləyirsiniz. Siz, parlaq cənabınız, inanın ki, heç bir ölkə mənimki qədər sadiq deyil,

mənim təbəələrimdən heç kəs mənə qarşı çıxmağa cəsarət etməz. Yalnız şərait belə gətirdi. Mən bir neçə dəfə İranda olmuşam, orda mənim işlərim çətinə düşüb, əgər Ağa Məhəmməd xan ölməsəydi mənim ölkəm tamam kölə halına düşərdi, ondan sonra indiki İran şahı məni ələ keçirmək üçün fürsət tapmayıb. Yeddi ildir ki, mən özümü Baba xanın torundan qoruyuram, özümü təhlükəyə məruz qoymuram, öz ölkəmdə yaşayıb, ona əyilmirəm. Ona qoşunum necə müqavimət göstərdiyim, mənə və mənim qalama hücumunu dəf etdiyim parlaq şəxsiyyətinizə məlumdur. Nəhayət, siz öz qoşununuzla buraya gəldiniz, dinimiz fərqli olduğuna görə bizim xalqımızın sizə rəğbəti olmayıb, həm də öyrəniblər ki, siz məsciddə öz dini mərasimlərinizi keçirirsiniz, bu da onları narahat edir. Mən bilirdim ki, sizdə bütün dinlərə dözümlü münasibət var və buna azacıq da olsun qarışmaq istəmirsiniz, amma bunu bizim xalqa təlqin etmək çətindir. Baba xanın vəziri Mirzə Şəfi burda şəhərdə oldu, hiylə ilə xalqın rəğbətini qazandı, çox hiyləgər adamdır, məndən başqa hamı sizdən üz döndərdi, ancaq mən və mənim xələflərim bütün ömrümüz boyu çox yüksək Rusiya Hökmdar İmperatoruna sədaqətlə qulluq etmək niyyətindəyik.

Parlaq cənabınızdan bunu xahiş edirəm ki, mənim xanlığım irsi olsun, digərləri də mənə baxıb nümunə götürə və Rusiyaya rəğbət bəsləyə bilərlər: Baba xan ən geci 10 gündən sonra buranı tərk edəcək. Öz istehkamlarınızda son dərəcə ehtiyatlı olun: Baba xan buranı tərk edənədək iki dəfə sizə hücum edə bilər.

İndi o məni əzizləməyə çalışır, üç dəfə məktub yazıb, şahzadə və digər əyanlar da and içərək məni inandırmaq istəyirlər. Ancaq onlar nə qədər and içsələr də mən inanmaram və Rusiya Hökmdarına söylərimi dəyişmərəm.

(AKAK, c. 2, səh. 618)

Knyaz Sisianov İrəvan qalasını ələ keçirməyə köməklik göstərməsi üçün Kalbalı xanla bir ilə yaxın yazışmışdı və biz birdən-birə knyaz Sisianovun Kalbalı xana etibar etmədiyinin şahidi oluruq. Knyaz deyir ki, *"onun sözlərində yalandan başqa heç nə olmamışdır"*.

KNYAZ SİSİANOVDAN – CƏFƏRQULU XAN XOYLUYA
3 FEVRAL 1805-Cİ İL

Yüksək mənsəb sahibinizdən aldığım xəbərə görə, sizin İrandakı vəziyyət barədə sonuncu məktubunuz yolda Kars paşası tərəfindən ələ keçirilib, bu hadisəyə çox təəssüfləndiyim kimi, o məktubun məzmunu da öyrənmək istərdim. Yüksək mənsəb sahibinizin çox məktubları indiyə qədər mənə salamat gəlib çatmışdır.

Bu sonuncu məktubunuzu alaraq, böyük məmnunluqla yüksək mənsəb sahibimizə səmimi-qəlbdən təşəkkürümü bildirəm ki, mənim səmimi və dostcasına məsləhətlərimə əməl etmisiniz və Baba xanın sərdarın adından yanınıza gələn Kalbalı xana və İrəvan xanın oğluna etibar etməyib, onların hiyləgər təkliflərini rədd etmisiniz.

Bu Kalbalı xan, siz yüksək mənsəb sahibisiniz, xeyli məşhurdur və mən onu çox sınamışam və əminəm ki, sizinlə apardığı danışıqlar zamanı onun sözlərində yalandan başqa heç nə olmamışdır. O mənə erməni dilində məktub yazıb, yazışmalarımızı yenidən bərpa etməyi xahiş etmişdi və demişdi ki, qalanın təslim edilməsi barədə heç vaxt yazmayıb, amma qulluq etməyə həmişə hazırdır. Ancaq mən onun məktubuna cavab vermədim. Çünki əgər mən onunla və yaxud İrəvan xanı ilə bir iş görməli olsam, mən o işə yalnız əvvəlcə onlar öz oğullarını amanat verməyə razı olanda başlayacağam...

(AKAK, c. 2, səh. 860)

1805-ci ilin fevralında knyaz Sisianov Qarabağ və Şuşanın hakimi İbrahim xanın Rusiya imperiya təbəəliyinə sədaqət andını qəbul etdi, may ayında Səlim xan Şəkili sədaqət andını gətirdi, Capgir xan Şaraqlı və Budaq xan Şuragəlli təbəəliyi qəbul etdiklərini bildirdilər. Rusiya sarayı imperiyanın sərhədlərinin genişlənməsini qiymətləndirdi, I Aleksandr isə Sisianovu ildə 8 min rubl həcmində pul rentası ilə mükafatlandırdı. Knyaz Sisianovun öz sinəsini başlıca döyüş ordeni – Müqəddəs Georgi ordeni ilə bəzəməklə bağlı çoxdankı və gizli arzusu sehrli yuxu olaraq qaldı.

Burada qısa bir izah vermək olar. Bu orden təkcə dö-

yüşdə şəxsi igidliyə görə deyil, həm bu döyüşə rəhbərlik etməyə görə verilirdi. Sisianov xroniki qızdırma xəstəliyindən əziyyət çəkirdi, tez-tez çəliklə hərəkət etməli olurdu, at belində çapanda isə "dayaq" müşayiətinə ehtiyac duyurdu, o "dayaq" yeri gələndə dərhal baş komandanı yəhərdən düşürüb uzun müddətə dincəlmək üçün yerə uzadırdı.

Sarayda "əzabkeş" Sisianova göstərilən bütün hörmət və izzətə rəğmən Müqəddəs Georgi ordeni haqda Əsasnamədə ona bu ordenin kiçik dərəcəsini almaq hüququ verən elə bir münasib maddə yox idi, daha üstün dərəcəsini isə kiçik dərəcəyə layiq görülənlər ala bilərdi. Nəysə. Mühisirəyədə olan İrəvanın üstünə qayıdaq.

Knyaz Sisianov hələ də məqsədsiz yazışmalar apararkən, iranlılar artıq İrəvana gəlib çatmışdılar və Məhəmməd xanın rus qoşunları ilə əlaqələrindən şübhələnərək və onun qohumu Kalbalı xanın çoxdan ruslara simpatiya bəslədiyini bilərək, Məhəmməd xanı hakimiyyətdən düşürüb, onun yerinə rus üsul-idarəsinin və xüsusilə də knyaz Sisianovun komandanlığı altında Rusiyadan gələn çağırılmamış qonaqların qatı düşməni olan iranlı Mehdiqulu xanı təyin etdilər.

GENERAL-MAYOR PORTNYAGİNDƏN – KNYAZ SİSİANOVA
25 İYUN 1805-Cİ İL

Bu ayın 23-də mənim yanıma gələn İrəvan ermənisi Asatur Aqnesov bildirdi ki, iranlı Mehdiqulu xan 10 gün bundan əvvəl özünün 3000 nəfərlik qoşunu ilə İrəvan qalasını tutub. İrəvanlı Məhəmməd xan ailəsi ilə birlikdə qarovul nəzarəti altında saxlanılır.

(AKAK, c. 2, səh. 625)

KNYAZ SİSİANOVDAN – KNYAZ ÇARTORIYSKİYƏ
1 İYUL 1805-Cİ İL

...Parlaq cənabınıza bildirməkdən şərəf duyuram ki, Qacar nəslindən olan Mehdiqulu xan İrəvan qalasını möhkəmləndirmək üçün göndərilən 3000 nəfərlik qoşunla – casuslar 2000 mindən çox olmadığını deyirlər, – qalanı ələ keçirmiş, Mə-

> həmməd xan İrəvanskini həbs etmiş, öz adətləri üzrə onun bütün mülkünü əlindən almış və qarovul nəzarəti altında saxlayır, xan Tehrana aparılıb, öz namərdliyinə layiq şəkildə edam ediləcək, zira o, həm bizə, həm də ona xəyanət edib. Ermənilər isə, deyilənlərə görə, Arazın o tayına köçürəcəklər. Əgər hazırkı müharibə şəraiti əngəl olmasa və Baba xanı Allahın bizə köməyi ilə Qarabağdan qovsaq, onda onları Gürcüstana köçürməyə çalışacağam, onlar özləri də bunu istəyirlər.
>
> *(AKAK, c. 2, səh. 625)*

Ancaq dostcasına qucaqlaşmaq vaxtı artıq əldən verilmişdi. Rusiya qoşunları azacıq gecikmişdilər. İran qoşunları İrəvan qalasına doğru irəliləyirdi və knyaz Sisianov indi Mehdiqulu xanla üz-üzə gəlməli idi. Onu xanlıq vəd etməklə ələ ala bilməzdin. İrəvanın kimin olacağını indi yalnız döyüş həll edəcəkdi.

Məşhur erməni xadimləri, əlbəttə, erməni mənafeyi barədə düşünürdülər və onlar indi təşvişə düşmüşdülər. Ermənilər İrəvanın ruslar tərəfindən tutulmasında maraqlı idilər və onların bütün səyləri ermənilər üçün fayda qazanmağa yönəlmişdi. İranlılar isə artıq İrəvanda idilər və ermənilər bu diyardan çıxarılıb İranın iç kəsimlərinə qovulacaqdı.

Ermənilər harda lazımdı knyaz Sisianovla məharətlə oyun oynayır, onu ermənilərin mənafelərini qorumağa çağırırdılar və onların heyvan kimi qeyri-adi iy bilmə qabiliyyətlərini qiymətləndirmək lazımdır: onlar gələcəkdə nə olacağını başqalarından daha tez hiss edir və özlərinə kömək etməyə çalışırlar. Onlar indi İrəvanı rus qoşunlarına verməkdə maraqlıdırlar.

Knyaz Sisianov artıq ermənilərdən məktub almaqdan yorulmuşdu: onlar bu məktublarda yalnız öz mənafeləri barədə danışırdılar – onlardan heç bir kömək yox idi və olmayacaqdı da. Ancaq ermənilər yenə də öz müdafiəçiləri qismində Kalbalı xanı irəli sürürdülər. Knyaz Sisianov gərək öz qəzə-

bini mərhəmətlə əvəz edib Kalbalı xana qayıdaydı.

Knyazın mühasirədə olan İrəvanda arxalana biləcəyi bir kimsə yox idi. Kalbalı xan isə hələ heç kimi heç vaxt pis vəziyyətdə qoymamışdı. Kor olsa da, necə deyərlər, onunla kəşfiyyata getmək olardı. Kalbalı xan insanları yaxşı tanıyırdı.

YÜZBAŞI QABRİEL İRƏVANSKİDƏN – KNYAZ SİSİANOVA, 15 AVQUST 1805-Cİ İL

1) Abbas Mirzə (Baba xanın oğlu) 15 minlik qoşun, 400-ə yaxın yaralı və çoxlu ölü əsgərlə İrəvana gəldi.

2) Burda 4 gün qaldıqdan sonra Naxçıvana yollandı, bir neçə gün orada olacaq.

3) İrəvan qalasında 3 minlik qoşunla Mehdiqulu xanı, kor Kalbalı xanı və şahzadə Aleksandr İrakliyeviçi saxladılar.

4) İrəvanlı Məhəmməd xanı ailəsi ilə birlikdə Abbas Mirzə özü ilə apardı.

5) Qalada saxlanılan Mehdiqulu xanın heç bir azuqəsi yoxdur, gündəlik azuqə tapır və kəskin azuqə qıtlığına dözməli olur, onun qoşunu sözünü eşitmir.



Gürcüstan şahzadəsi Aleksandr İrakliyeviç

Əgər İrəvana qoşun göndərmək qərarına gəlsəniz, onu asanlıqla ələ keçirə bilərsiniz, zira qalada azuqə yoxdur və xalq hələ özünə gəlməyib. Əgər gec tərpənib, ona taxıl yığmağa imkan versəniz, onda ötən ilki kimi işiniz daha çətin olacaq. İndi vaxtdır, İrəvana qoşun göndərməyinizi xahiş edirəm, Allahın köməyi ilə tezliklə məni də onunla birlikdə ələ keçirərsiniz.

Kalbalı xan mənə söz verib və and içib ki, o, böyük Rusiya imperatorunun yüksək himayəsi altına keçmək istəyir, bir şərtlə ki, onu öz himayənizə qəbul edəndə Naxçıvan xanlığına hakim təyin edilsin və onda, parlaq cənabınız, mən hansı imzanı istəyirsinizsə ondan alıb sizə təqdim edə bilərəm və İrəvanı tutduğunuzda o, maddi yardım göstərə bilər. Bu onun sözləridir, amma ixtiyar sizindir, özünüz bilərsiniz.

Mən isə 200 ailədən çox olan öz camaatımla Qarakilsəyə

keçmişəm və məlik Abram da öz camaatı ilə bura qaçmaq niyyətindədir. Bu gün, ya sabah o bura gələcək, hərçənd Mehdiqulu xan bütün ermənilərі Tehrana köçürmək niyyətindədir.

İrəvan tatarları isə Sizin bura gəlməyiniz üçün Allaha yalvarırlar, onlar mənə söz veriblər ki, sizə sadiqdirlər. Əgər parlaq cənabınız tezliklə İrəvana qoşun göndərsə, bu vasitə ilə siz bütün sakinlərin, onlar öz taxıllarını iranlılar verməmişdən əvvəl xilasına səbəb olacaqsınız. Düşmənləriniz isə, sizin igidliyiniz qarşısında tir-tir əsirlər, buna mən özüm şahidəm.

Möhtərəm knyaz! Mərhəmət göstərib, heç yerdən kömək almayan ermənilərі azad edin və bizi öz himayənizdən məhrum etməyin. Həmçinin parlaq cənabınızdan çox acizanə surətdə xahiş edirəm ki, əgər mümkünsə, bizə burda Pambaqda bir kənd ayırasınız.

(AKAK, c. 2, səh. 626)

Gözlənilmədən elə bir şərait yaranır ki, knyaz Sisianov bundan istifadə edib İrəvanı ala bilər, lakin artıq sülh yolu ilə yox.

Kalbalı xanın qalada olması Sisianovun vəziyyətini xeyli yüngülləşdirir. Kor Kalbalı xanın təsiri altında olan İrəvan əhalisi onu fəal şəkildə dəstəkləyir və rus qoşunlarına dost münasibət bəsləyir. Lakin iranlılar da mürgüləmir, Kalbalı xanı nüfuzdan salmaq üçün geniş kampaniya başlayır. Nə üçün? Bu, heç də təsadüfi deyildi.

Həssaslığını itirən knyaz Sisianova elə bir məlumat çatdırılır ki, o, knyazın İrəvanı ələ keçirmək üçün əməliyyata başlamaq qətiyyətini kəskin şəkildə zəiflədir. O məlumatı yoxlamaq mümkün deyildi və buna vaxt da yox idi.

Əlbəttə, aydındır ki, Rusiyadan xeyli uzaqda olan Sisianova belə mürəkkəb bir şəraitdə İrəvanın istilası ideyasını dəfn etmək üçün bir dəstə yalan məlumat ötürülmüşdü.

Yenidən siyasi arenada Martiros adlı hansısa, çox güman ki, iranlılar tərəfindən satın alınmış bir erməni peyda olur və o, knyaz Sisianova guya Cəfərqulu xan Xoyludan mühüm xəbərlər gətirir. Sisianovun qabağına həmişə dili topuq

vuran və eyni zamanda iranlılarla əlaqəsini kəsməyən xan Xoylu knyaza çox maraqlı faktlar ötürür.

CƏFƏRQULU XAN XOYLUNUN GÖNDƏRDİYİ, ERMƏNİ MARTİROS TƏRƏFİNDƏN GƏTİRİLƏN XƏBƏRLƏR AVQUST 1805-Cİ İL

Kalbalı xan Cəfərqulu xanın yanına gəldi və ona dedi ki, o, Cəfərqulu xanın oğlunu, arvadını və qardaşını özü ilə götürüb Baba xanın hüzuruna gedəcək və Baba xandan Xoy xanlığının ona verilməsini istəyəcək, bir şərtlə ki, Cəfərqulu xan ruslardan uzaqlaşsın, amma Cəfərqulu xan Rusiyaya rəğbəti olduğu üçün, onu qorxutsalar belə, bununla razılaşmır.

Həmçinin Kalbalı xanla Məhəmməd xan öz aralarında məsləhətləşəndən sonra Şuşa xanına adam göndəriblər ki, o, rusları aldadıb öz üzərinə çəksin və onlar şahzadə ilə birlikdə çoxlu qoşun göndərməsi xahişi ilə Baba xana adam göndəriblər, ruslar Şuşada olanda, onlar Gürcüstana yürüş edəcək, onların taxıl və əkinlərini məhv edəcəklər ki, həm sakinlər, həm də ruslar ac qalsınlar və onlar rusları qırıb, Gürcüstanı ələ keçirəcəklər.

Bundan əlavə, o xəbər verir ki, burda olan Rafii adlı irəvanlı bir tatar burda bütün xəbərləri toplayıb İrəvana xana göndərir, xan da Baba xana çatdırır, özü də Məhəmməd xan öyünür ki, Tiflisdə bütün xəbərləri müntəzəm olaraq ona göndərən belə bir adamı var.

(AKAK, c. 2, səh. 634)

Məhəmməd xanın dedikləri özünü ruslardan qorumaq üçün uydurduğu nağıllardır.

Ancaq bu, Xoylunun informasiyasıdırmı, yoxsa iranlıların təxribatımı? Bu informasiya həm də köhnədir. Məhəmməd xan artıq İrəvanda yoxdur. Ancaq bu informasiya iranlıların işinə çox yaradı. Knyaz Sisianovun Kalbalı xanın xidmətlərindən imtina etməsinə, yəni ona etibarını itirməsinə səbəb oldu. Knyaz Sisianov böyük bir strateji səhvə yol verir və bunun qarşısını heç kəs ala bilmir.



İrəvandakı Göy məscid

Bu saxta informasiyanı heç kəsə etibar etməyən və xasiyyətcə müvazinətsiz olan knyaz Sisianova necə böyük bir səhvə yol verdiyinə səbəb olduğunu zaman göstərəcəkdi. Kalbalı xandan uzaqlaşan və bununla da onun güclü dəstəyindən imtina edən knyaz Sisianov İrəvan qalasını tutmaq üçün yaranmış əlverişli fürsəti əldən buraxır, ancaq xəstəhal lovğalığı sayəsində knyaz Sisianov nə qədər dəhşətli səhv etdiyini hələ anlamırdı. Bundan əlavə, İrəvan divarları önündə aktiv əməliyyatlara başlamaq qərarına gələ bilməyən knyaz öz qiymətli vaxtını, özü də İrəvandan kənarda yeni tərəfdaşlar axtarışına sərf edir. Belə bir gərgin vəziyyətdə bu, onun nəyinə lazım idi?

KNYAZ SİSİANOVUN KALBALI XANIN XOŞU GƏLMƏYƏN ADAMLARLA DOSTBAZLIĞI VƏ "İRAN QƏLBLİ SƏBATSIZ ERMƏNİLƏRƏ" İNAMI

Məkrli və ciddiyyətsiz knyaz Sisianov Kalbalı xandan xoşu gəlməyən bir adamla – onun qardaşı oğlu **Abbasqulu xan Naxçıvanski** ilə əlaqə yaradır və onun Rusiya təbəəliyinə qəbul olunması üçün bu insanla açıq-aşkar alverə girir. İrəvan qalasının divarları önündə dayanandan sonra hara və nəyin naminə tələsəsən? Ancaq avantürist və zirək Abbasqulu xan üçün knyaz Sisianov əsl tapıntı idi, Kalbalı xanla knyaz arasında yaranmış ixtilaf onun işinə yarayırdı. Knyaz Sisianov özü üçün ən çətin məqamda ona hər kəsdən yaxşı dəstək və məsləhət verə, əməli köməklik göstərə bilən bir şəxsiyyətdən üz döndərərək, "müəmmalı" bir adamla bağışlanılmaz əlaqəyə girir.

Kalbalı xanın ağılsız, ləyaqətsiz, amma hiyləgər və zirək əmisi oğlu, baxın, knyaz Sisianova nə yazır. Hələ lap yaxınlarda knyaz Sisianov Kalbalı xana onun xanlığın hakimi kimi bərpa olunacağına söz vermişdi, indi isə çox asanlıqla bu vədi Abbasqulu xan Naxçıvanskiyə verir. Knyazla xan bənzər xarakterə malikdirlər. Knyaz Sisianov kimi Abbasqulu xan da öz tamahkar məqsədlərinə nail olmaq üçün istənilən vədi verməyə hazırdır və hətta öz qardaşı oğlu Kalbalı xanı rüsvay etməkdən belə çəkinmir. Bu mənəviyyatsız şəxsin müdhiş açıqlamalarını oxuyaq. Məşhur gürcü çarı nəslindən olan, şərəf və ləyaqətin nə olduğunu yaxşı bilən yüksək rütbəli knyaz kağızı korlayıb bu şübhəli şəxsiyyətlə əlaqəyə girməməli idi.

ABBASQULU XAN NAXÇIVANSKİDƏN – KNYAZ SİSİANOVA

...İcazə verin yazım ki, amanatsız və vergisiz mən Rusiyanın himayəsi altında ola bilmərəm: buna görə də cəsarət edib, parlaq cənabınıza çatdırmaq istəyirəm ki, himayədarlıq istəyən

adam nə amanat verməkdən, nə vergi ödəməkdən qorxmamalıdır, beləliklə, mən onlardan qorxmuram; cənabınızı narahat etməkdə gecikdiyimin səbəbi isə budur: Baba xan gic və səfeh adam olduğu üçün güman edirdim ki, mənim onun əlində olan amanatlarımı kimsə azad edəcək. İzn verin azuqə barədə də fikirlərimi yazım, guya Naxçıvanda Rusiya qoşunları üçün heç yerdə azuqə tapmaq mümkün deyil, buna görə bildirirəm, çox mərhəmətli Hökmdarlar Hökmdarının lütfü sayəsində başqa məsrəflərdən savayı 10 il ərzaqla təmin edə bilərəm.

İzn verin, adını belə xatırlamanıza layiq olmayan Kalbalı xan barədə fikirlərimi yazım: o kimdir axı və nə edə bilər? Allah qoysa, o, əl-qolu bağlı halda sizin yanınıza göndərilcək. Bir də izn verin yazım ki, əgər mən bütün xanlardan üstün tutulacamsa, onda əminəm ki, mükafatları da xidmətə alırlar. Parlaq cənabınızdan Naxçıvan kətxudalarının adına aldığım məktubu dərhal göndərdim.

Cənabınızdan xahiş edirəm ki, mənim diyarımda olan mayora əmr edəsiniz ki, mənimlə görüşsün və Naxçıvana getsin. (...) Mən əminəm ki, Arazın bu tayındakı diyar qısa bir zamanda Rusiya dövlətinin tərkibində olacaqdır

İndi isə xahiş edirəm ki, mənə lütfkarlıq göstərib, Naxçıvan xanlığına hakim təyin edilməyim barədə fərman, təlimat və xələti bir adamınız vasitəsilə, mənim adamımla birlikdə mənə göndərəsiniz, həmçinin mayora əmr edəsiniz ki, tezliklə mənim yanıma gəlsin və mənimlə birlikdə Naxçıvana yollansın. Mayor sizin əmrinizlə Sisiana gəlməlidir, mən ordayam, oradan Naxçıvana səkkiz ağac yoldur və çətin deyil...

Abbasqulu xan Naxçıvanskinin möhürü qoyulub.

(AKAK, c. 2, səh. 635)

Öz vəziyyətinin möhkəmliyinə əmin olmayan, yaltaq Abbasqulu xan Naxçıvanski knyaz Sisianova məktub məktub ardınca göndərir, öz kor əmisi oğlu Kalbalı xana qarşı knyazla günahkar, rüsvayçı sövdələşməyə girdiyini unudaraq ondan Rusiya təbəəliyinə qəbul edilmək üçün vədlər almağa, onun etibarını qazanmağa çalışır. İntriqa ustası knyaz Sisianov isə əbədi "parçala və hökm elə" prinsipindən istifadə edir.

ABBASQULU XAN NAXÇIVANSKİDƏN – KNYAZ SİSİANOVA İYUL 1805-Cİ İL

Sizin parlaq cənabınızın qulluğunda olmağı özüm üçün xoşbəxtlik hesab edirəm, ancaq buradakı şərait imkan vermədi, bundan əlavə, həm də eşitdim ki, cənabınız Şuşa qalasına getmisiniz. Böyük məmnuniyyətlə və sözlə təsviredilməz bir səbirsizliklə sizin qulluğunuzda olmaq üçün oraya gəlməyi arzulayardım, ancaq gələ bilməməyimin səbəbi budur ki, şahzadə öz qoşunları ilə bu ölkədə idi. Bundan əvvəl mən həm də bütün Naxçıvan kətxudalarına yazdım ki, onları Rusiya təbəəliyinə gətirim, onlar mənə cavab verdilər ki, adı çəkilən şahzadə xanlığın hüdudlarından kənara çıxan kimi biz təbəəliyi qəbul edəcəyik. Buna görə də parlaq cənabınızın yuxarıda göstərilən Naxçıvan kətxudalarına iltifat məktubu lazımdır, onda mən burdakı rayonları təbəəliyə gətirməyə çalışacağam. Parlaq cənabınızın özü mənim səylərimin şahidi olacaqdır.

(AKAK, c. 2, səh. 635)

Vədlər arasında çaşıb qalan knyaz Sisianov əvvəllər Kalbalı xana verdiyi zəmanətləri Abbasqulu xana təkrar edir və Naxçıvan xanlığında yeni bir adama – Abbasqulu xan Naxçıvanskiyə güvənməyə başlayır. Bu iki xanın qohum olduqlarını xatırladan, knyaz Sisianov vicdan və ləyaqəti unudaraq, əmisi oğluna kor Kalbalı xanı tutub ona təhvil verməsini təklif edir.

KNYAZ SİSİANOVDAN – ABBASQULU XAN NAXÇIVANSKİYƏ 14 AVQUST 1805-Cİ İL

Yüksək mənsəblinizin məktubunu almaqdan məmnun oldum və bütün mülklərinizlə birlikdə Ümumrusiya İmperiyasının yüksək təbəəliyinə keçmək arzunuzu bildirdiyinizə görə sizə təşəkkür edirəm. Eyni zamanda sizi əmin edirəm ki, bu vasitə ilə siz öz xoşbəxtliyinizi və rifahınızı tapacaqsınız. Bütün bunlarla yanaşı sizə deməyə bilmərəm ki, iki oğlunuzu amanata vermədən və xərac ödəmədən Ümumrusiya himayədarlığına qəbul edilməniz mümkün deyil, bunları təmiz vicdanla yüksək mənsəblinizin özü təyin etsin – buradakı xanların heç birinin hələ belə bir imtiyazı olmayıb.

Bu barədə də susa bilmərəm ki, Naxçıvan qalasına həmişəlik orda qalmaq üçün bir qarnizon göndərilməsinə qərar verilsə, onda topları və əsgər arabalarını Şuşa dağlarından keçirməyin tamamilə imkansız olması çətinliyi ilə qarşılaşacağıq, buna görə siz yüksək mənsəblidən bilmək istərdim ki, bunun üçün hansı vasitədən istifadə etmək lazımdır – dağları yaraqmı, yoxsa keçid üçün başqa bir münasib yol var? Həmçinin qoşun bir illik azuqə ehtiyatına malik ola bilərmi, zira Naxçıvana heç yerdən azuqə göndərmək mümkün deyil və uzaqdır. Möhtərəm Naxçıvan kətxudalarını arzusu ilə bağlı məndən istədiyiniz məktubu göndərdim.

Nəhayət, bunu da deməliyəm ki, mənə Kalbalı xanı ələ keçirmək lazımdır, o, ötən il mənə çox əngəl törədib, elə indi də ondan, bu əməllərindən əl çəkməyəcəyini, siz yüksək mənsəblinin faydalı işlərinə ziyan vuracağını gözləmək lazımdır. Bunun üçün hansı vasitədən istifadə etməyi uyğun görürsünüzsə, bunu mənə bildirməyinizi xahiş edirəm.

(AKAK, c. 2, səh. 635)

Mənəviyyatsız bir şəxslə əlaqəyə girən knyaz Sisianov qisas almaq üçün *"Kalbalı xanı ölü və ya diri halda ələ keçirməyi"* arzulayır.

Abbasqulu xan knyaz Sisianovdan istifadə edərək, Naxçıvanda adlı-sanlı sakinlərə məktub göndərərək, əzəldən ruslara rəğbət bəsləyən naxçıvanlılar arasında belə fikir oyatmağa çalışır ki, onların xanı indi odur, mümkün olduğu qədər kor Kalbalı xanı gözdən salmağa can atır.

KNYAZ SİSİANOVDAN – NAXÇIVANIN AXUNDLARINA, MOLLALARINA, BƏYLƏRİNƏ VƏ BÜTÜN KƏTXUDALARINA 14 AVQUST 1805-Cİ İL

İranlı rəislərin, onların əsil-nəcabətsiz şahının himayədarlıq haqqındakı bütün vədlərinin nə qədər səbatsız, yalan olduğunu və hətta öz dindaşlarını məhv etməyə əsaslandığını mənim sizə xatırlatmağıma ehtiyac yoxdur. Deyirəm ki, bunun sübutu üçün sizə nümunə gətirmək də lazım deyil, çünki İran məkrliyinin yeni təcrübəsi özünüzə yaxşı məlumdur: Baba xanın oğlu Abbas Mirzə, onunla bir yerdə olan Mustafa xanın qoşunları onun üçün döyüşən və dindaşları olan in-

sanları necə talan edib və viran qoyub. Baba xanın namərdliyinə daha bir nümunəni siz öz gözlərinizlə aydın görmüsünüz: İrana rəğbət göstərib mənə xəyanət edən sizin Məhəmməd xan İrəvanski belə bir sədaqəti nəzərə alınmadan indi xanlıqdan məhrum edilib, həbs olunub, qarət edilib və mənim bu günlərdə aldığım mötəbər xəbərlərə görə öz əsas kətxudaları və xalqı ilə birlikdə İrana aparılıb onun içərilərinə köçürüləcəkdir. İranlıların məkrliliyinin bütün məqsədi budur, yəni əvvəlcə başınızı sığallayır, sonra sizi əcdadlarınızın ev tikdiyi, bağ-bağat saldığı – orda babanızın və yaxud ulu babanızın əkdiklərinə tamaşa eləmək sizin üçün xoşdur, – torpaqlardan zorla qoparıb ayırırlar – ayırırlar deyirəm, qarət edir və aparıb İranda məskunlaşdırırlar ki, sonra da siz orada varlananda bir daha qarət etsinlər.

Əksinə, mənim ürəyiyumşaq, lütfkar və insansevər çox mərhəmətli Hökmdar imperatorumun himayədarlığı – məhz onun yüksək şərəfli və məğlubedilməz qoşunu ilə mən burada ali rəis təyin edilmişəm – günəş kimi bütün dünyanı qızdırıb işıqlandıraraq xeyirxahlıqdan başqa heç nə törətmir, mənim böyük və çox mərhəmətli Ümumrusiya Hökmdarlar Hökmdarı İmperatorumun himayədarlığı, deyirəm, onun ədalətli və sülhsevər dövləti daxilində olan xalqların əsil xoşbəxtliyini təşkil etməkdə daim sarsılmaz olub və olacaqdır.

Rusiya qanunları və o mələksimalı Hökmdarlar Hökmdarının müqəddəs iradəsi bundan ibarətdir ki, hər kəsin həyatı və mülkiyyəti hökumət tərəfindən təmin, mühafizə və müdafiə edilmiş olsun. Beləliklə, əgər siz qarşınızda duran dinclik və səadətdən istifadə etmək arzusundasınızsa, onda mən sizə öz şəxsi xeyriniz üçün yüksək dərəcəli rəisiniz Abbasqulu xanla birləşməyi, onunla birlikdə mənim vasitəmlə mənim çox mərhəmətli Hökmdarlar Hökmdarımdan özünüzə himayədarlıq və təbəəlik istəməyinizi məsləhət görürəm.

Kalbalı xana gəldikdə isə, sərasər iki ildir iranlıları torpaqlarınıza gətirməklə sizə nə qədər ziyan vurduğunu özünüz görürsünüz, onlar sizin taxılınızı yandırır, sizi azuqədən məhrum edir, ən pisi də odur ki, onun məkri ilə, ola bilsin, sizi də irəvanlılar kimi sürgün etsinlər.

Mən isə Allaha və Əlahəzrət imperatorun müqəddəs adına and içirəm ki, həyatınız təhlükəsizlikdə olacaq, eviniz və əmlakınız özünüzdə qalacaq və heç kəs dininizə toxunmayacaq, zira Ümumrusiya İmperiyasında hər bir xalqa öz dininə

qulluq və ibadət etməkdə azadlıq verilib, bundan əlavə, siz, yalnız öz xeyrini güdmək məqsədinə malik olan İran rəhbərliyinin zorakılıqları və qarətlərindən tamamilə qorunmuş olacaqsınız.

Rus rəhbərliyi isə tabeliyində olan xalqların yalnız rifahının qeydinə qalaraq, münbit taxıl tarlaları ilə zəngin olan Naxçıvan vilayətinin də məşğul ola biləcəyi ticarəti himayə etməklə yanaşı, üstəlik sakinlərin varlanması üçün lazım olan bütün vasitələri də verir.

(AKAK, c. 2, səh. 636)

Bu arada kor Kalbalı xanı şayiələr az maraqlandırır. O, ehtiyatsız hərəkətlərinə və əlaqələrinə görə knyaza kin bəsləmir. Öz müdrik duyma qabiliyyəti sayəsində İrəvanın Rusiya qoşunlarına təhvil vermək üçün əlverişli situasiya yarandığını hiss edərək, Kalbalı xan yeni plan işləyib hazırlayır.

Məhəmməd xan qaladan uzaqlaşdırılıb, Kalbalı xanın qoşunları tam hazır vəziyyətdədir. İranlıların hücum təhdidi erməni əhalisini təşvişə salıb: ermənilərin böyük əksəriyyətini İrana köçürməyə hazırlaşırlar. Bununla belə ermənilər, onların haqqını vermək lazımdır, Kalbalı xana etibar edir, onun düzgünlüyünü, igidliyini və müdrikliyini qiymətləndirir və hər bir əmrini yerinə yetirməyə hazırdırlar. Rus qoşunlarının İrəvanı tutmaq şansı sıfıra bərabər olanda Sisianovun vəziyyətini Kalbalı xan xilas etməyə çalışır. Onun planı bundan ibarət idi ki, şəhərdə İran qoşunları olmayanda bu fürsətdən istifadə edərək, ağlaşma quran ermənilər də daxil olmaqla şəhəri əhalinin qalan hissəsindən təmizləsin və özü rus qoşunlarını qarşılamağa çıxsın. İrəvan beləcə Rusiyanın ola bilərdi. Kalbalı xanın bu əməliyyatının bəzi detalları erməni mənbələrindən məlum olub. Onun ehtiyatda 10 günü vardı. Lakin Kalbalı xana qabaqcadan, ən azı 4 gün əvvəl xəbər vermək lazım idi və vaxt gözləmirdi. Özünü itirən Sisianova zaman kömək edir, təcili hərəkətə keçmək lazımdır, ancaq knyaz vaxt amilindən istifadə etmir və İrəvanı tutmaq əməliyyatını artıq uduzulmuş hesab etmək olar.

İRƏVAN ERMƏNİLƏRİNDƏN –
ABRAM MƏLİYƏ VƏ YÜZBAŞI QABRİELƏ,
25 AVQUST 1805-Cİ İL

...Biz səbirsizliklə təcili sizin köməyinizi gözləyirik. Ləngisəniz bizi qarət edib aparacaqlar. 10 gündən sonra 1000 hörmətli ailəni İran qalasına götürəcəklər və əmin olun ki, kətxudalardan savayı biz şəhər sakinlərini köçürəcəklər, bunu Kalbalı xan Əsəd ağaya deyib. Hər şey haqqında sizə yazır və sizin ixtiyarınıza buraxırıq. Əgər nə qədər sıxıntı çəkdiyimizi kağıza yazmalı olsaq, nə kağız, nə də mürəkkəb qalar. Əsəd ağanın bizə yazdığına görə Kalbalı xan xahiş edir ki, siz öz qüvvələrinizlə hərəkətə gəlməmişdən 4 gün qabaq bu barədə ona xəbər verəsiniz; ki, o özünün bütün adamlarını və qalan bütün ermənilər özü ilə götürüb sizi qarşılamağa çıxsın, şəhərdə heç kəs qalmayacaq – hamı sizi qarşılamağa çıxacaq. Bizə kömək ediləcəksə, bunu təcili etmək lazımdır ki, bütün əmlakımızdan məhrum olmayaq və qarət edilməyək, yoxsa bizi qarət edib aparandan sonra, istər kömək edin, istərsə də etməyin – bunun bizim üçün heç bir fərqi olmayacaq, Məhəmməd xan kimi. İrəvanı tamam dağıtsalar belə, indi onun nəyinə gərəkdir. Bizim də Məhəmməd xanın gününə düşməməyimiz üçün bu işi görün. Buradakı vəziyyəti sorşursunuzsa, məlumat veririk ki, deyirlər şahzadə Təbrizə gəlib. Baba xan haqqında isə bəziləri deyir ki, Təbrizdən 3 keçid aralıda, bəziləri də deyir ki, Tehrandadır.

(AKAK, c. 2, səh. 627)

Oxucu haqlı olaraq belə bir sual verə bilər: nə üçün bu qədər mühüm informasiya vasitəçilər arasında dolaşır, Kalbalı xanın özü tərəfindən bilavasitə, birbaşa knyaz Sisianova çatdırılmır? Bəli, Məhəmməd xan birbaşa knyaz Sisianova məktub yazmağı özünə rəva görə bilərdi, amma Kalbalı xan çox mötəbər insandır, öz təşəbbüsü ilə knyaz Sisianova müraciət etmək, öz dili ilə ona şəxsən məlumat vermək ona yaraşmaz. Bu həm də, knyazın bu qədər hörmətli, bu qədər namuslu xana qarşı bağışlanılmaz və təhqiramiz hücumlar etməyi özünə rəva bildiyi bir şəraitdə bu, yolverilməzdir. Kalbalı xanla şəxsi və etibarlı əlaqə qurmağın vaxtını knyaz

Sisianov artıq əldən vermişdi.

Kor xanın böyük şəxsiyyət olduğunu yaxşı anlayan müstəqil və məğrur general A.P.Yermolov özü Kalbalı xanın ayağına gəlir və bunu öz böyüklüyü üçün naqislik hesab etmirdi, ancaq knyaz Sisianovun faciəli ölümü ona kor Kalbalı xanın nəhəng və məşhur general A.P.Yermolov anlamında kim olduğunu dərk etməyə imkan verməyəcəkdir.

Bizim təsəvvürümüzdə müdrik kor Kalbalı xan gözü salamat insanlardan daha uzağı və daha geniş görən bir adam kimi canlanır. Knyaz Sisianovun faciəsi ondan ibarət idi ki, İrəvan divarları önündə tam iki ay qaldığı halda o, əsl Kalbalı xanın kim olduğunu görə bilmədi, çünki o özü kor idi.

Öz qətiyyətsizliyinə, İrəvan divarları önündə vaxt itirməyinə, nəhayət, qalanı ələ keçirməyə cəhd göstərmədiyinə bəraət qazandırmaq üçün knyaz Sisianov İrəvandakı vəziyyət barədə Peterburqa elə məlumat göndərir ki, ali komandanlığın və imperatorun İrəvan divarları önündə həyata keçirilən məqsədsiz əməliyyatları obyektiv qiymətləndirmək imkanları olmasın. Knyaz Sisianovun cinayətkar qətiyyətsizliyi ucbatından rus qoşunları, Kalbalı xanın tövsiyələrinə baxmayaraq, İrəvana müdaxilə etmədilər. İranlılar Məhəmməd xanın Kalbalı xanın təsiri altında olduğundan xəbərsiz ola bilməzdilər, buna görə də Məhəmməd xanı təcili dəyişdirdilər ki, bununla Kalbalı xanın da təsirini azaltsınlar. Çünki Kalbalı xan 1797-ci ildə kor edildikdən sonra İran sarayı ona şübhə ilə yanaşırdı. Bir sözlə, biz knyaz Sisianovun nə vəziyyətə düşdüyünü təsəvvür edirik və buna görə də bu acizanə raportu onun vicdanına buraxırıq.

KNYAZ SİSİANOVUN ACİZANƏ RAPORTUNDAN
29 AVQUST 1805-Cİ İL

Əlahəzrət İmperatora acizanə surətdə məlumat verməkdən xoşbəxtlik duyuram: İrəvan xanının başqası ilə – Mehdiqulu xanla əvəz edilməsi, qalaya 2000 İran piyada əsgərinin daxil

olması və üstəlik Baba xan sərdarın ötən il İrəvana gedən bizim Pəmbək tatarlarını, bütün İrəvan ermənilərini və hətta oradakı tatar sakinləri İranın içərilərinə köçürmək niyyəti İrəvanda qiyam qalxmasına və əhalinin böyük hissəsinin xana itaət etməkdən boyun qaçırmasına səbəb olmuşdur.

Bu hadisədən istifadə edərək, oradakı ən məşhur erməni zadəganlarından məlik Abram və yüzbaşı Qabriel 230 erməni ailəsi və onların bütün əmlakı ilə birlikdə Pəmbək əyalətinə qaçmışlar və əlahəzrət İmperatordan güclü müdafiə və himayədarlıq istəyirlər.

400 ailədən çox Pəmbək tatarı da ağaları ilə birlikdə oradan Pəmbəkə qayıdıb, peşmandırlar və bağışlanmalarını istəyirlər, siz Əlahəzrət İmperatorun ürəyinin yumşaq və mərhəmətli olduğunu bildiyim üçün mən onları bağışladım.

İndi çox bütün mötəbərliyi ilə demək olar ki, həmin hadisədən sonra heç bir gürcü, heç bir erməni və ya tatar İranlılardan himayədarlıq istəməyə cəsarət etməyəcəkdir, çünki Baba xanın bütün məqsədinin (ona təslim olan və kömək edənlər də daxil olmaqla) hamını aldadıb, zorla İranın içərilərinə köçürməkdən ibarət olduğunu yaxşı bilirlər.

(AKAK, c. 2, səh. 628)

Operativ şəkildə hərbi kömək göndərmək imkanına malik olmadıqları üçün Tiflisdə və Peterburqda knyaz Sisianovun qoşunlarının məhv edilməsi xəbərini gözləyirdilər, Tiflis özü isə müdafiəyə hazırlaşırdı. Sisianovun özü də hərbi kömək gözləmirdi, ancaq təbiətin köməyinə ümid edirdi. Knyaz belə güman edirdi ki, payız girəndə İran qoşunları İrəvan xanlığının hüdudlarını tərk edəcək, İrəvan qarnizonu isə rus qoşunlarının gücü qarşısında dayana bilməyəcək və qala Ümumrusiya Hökmdarının mərhəmətinə təslim olmağa məcbur qalacaqdır. Ancaq düşmən yatmamışdı, o, Eçmiədzin və İrəvan bölgələrində taxıl məsuluna od vurub yandırdı. Rusiya qoşunlarını qaçılmaz aclıq təhlükəsi gözləyirdi.

Baş komandan seçim qarşısında qalmışdı: mühasirəni qaldırıb Rusiya hüdudlarınamı çəkilsin, yoxsa hücumla qalanı ələ keçirsin. Öz prinsiplərinə sadiq qalan Sisianov sonuncu variantı seçir, ancaq bu qərarını hərbi şuraya çıxarmağa məc-

bur idi. Təkcə general Potnyaqin knyaz Sisianovu müdafiə etdi, qalan bütün zabit korpusu isə vahid cəbhə ilə İrəvana hücumun əleyhinə çıxdı.

Knyaz Sisianov hücum üçün əlverişli vaxtı əldən vermişdi. Faktiki olaraq tənha qaldığına görə, o, yəqin ki, ürəyində qoşunu avantüraya təhrik etdiyini anlamışdı. Qalada yaxşı müdafiə istehkamları qurulmuşdu, o, ərzaq və silahla təmin olunmuşdu, iranlılar İrəvan qarnizonuna kömək göstərmək üçün hazır dayanmışdılar. Yorğun və yarıac rus əsgərləri bu hücuma tab gətirməyə də bilərdilər. Baş komandanın şərəfi ortaya qoyulmuşdu, ancaq sağlamfikirli rus zabitləri onu xilas etdilər. Bununla belə, mühasirə vəziyyətinin davam etməsi qoşunların durumunun yaxşılaşmasına kömək etmədi.

İRƏVAN DİVARLARI ÖNÜNDƏ RUS QOŞUNLARININ MƏZARLIĞI QALA BİLƏRDİ. KOR KALBALI XAN GÖZÜ SALAMAT SİSİANOVDAN DAHA UZAĞI GÖRÜRDÜ

1805-ci il sentyabrın 4-də rus qoşunları qarşıya qoyulan məqsədə nail ola bilmədən üzü geriyə yürüşə başladı. Uzun sürməyən və düşmənlə nəinki döyüşə, hətta xırda toqquşmalara belə girmədən geri çəkilmə göstərdi ki, Sisianovun rəhbərlik etdiyi rus qoşunları artıq öz döyüş qabiliyyətini itirib. On gün çəkən geri çəkilmə zamanı 500 əsgər xəstələnmiş, onlardan 150-si yolda ölmüşdü. Xoşbəxtlikdən baş tutmayan hücum əməliyyatı həyata keçirilsəydi, onun nəticələri daha faciəli ola bilərdi. Və xudavəndi-aləmə çox şükür ki, İrəvan divarları önündə infanteriya generalı knyaz Sisianovun başçılıq etdiyi rus korpusunun məzarlığı qalmadı.

Knyaz Sisianov öz səhvlərini heç vaxt etiraf etmir, heç kimə inanmır, həmişə başqalarının səhvlərini görürdü. Və İrəvan əməliyyatının uğursuzluqla nəticələnməsində "xidməti"

olanlara içərisi iradla dolu xeyli məktub da yaza bilərdi. Ancaq knyaz Sisianov öz qəzəbini onun səhvlərinin əsas günahkarı kimi ermənilər üzərinə yönəltdi.

İrəvanın bir neçə aylıq mühasirəsi zamanı rus qoşunlarına köməyi sabotaj edən, knyaza istədiyi dəstəyi verməyən, kömək və müdafiə barədə cürbəcür xahişləri ilə onun zəhləsini tökən, ondan iranlılar tərəfindən bu ölkənin daxilinə köçürülmələrinə mane olacağına zəmanət tələb edən ermənilərin hərəkətləri knyaz Sisianovu həddən artıq qəzəbləndirmişdi. Oxuculara knyaz Sisianovun məlik Abram və yüzbaşı Qabrielin timsalında ermənilərə yazdığı vida məktubunu təqdim edirik; bu məktubda knyaz ermənilərin alçaq xəyanətkarlıqları barədə nə düşündüyünü və onlar da bunu arzuladığını bildirmək üçün özünün ən kəskin söyüş lüğətindən səxavətlə istifadə edir.

KNYAZ SİSİANOVDAN – ERMƏNİ MƏLİYİ ABRAMA VƏ YÜZBAŞI QABRİELƏ 26 AVQUST 1805-Cİ İL

Sizin adınızdan mənə göndərilən məktubu aldım və aşağıdakı cavabı verirəm.

İranqəlbli səbatsız ermənilər, siz indi çörək üçün bizə gəlmisiniz, ümid edirsiniz ki, onu bizdən satın ala bilərsiniz. Ancaq mən sizə xəbərdarlıq edirəm: əgər bura gətirdiyiniz ailələr elə bu payızda gələn il sata biləcəyiniz qədər çox taxıl əkib becərməsəniz, gələn il elə yazdaca sizi nəinki İrəvana, hətta İranın özünə qovacağam, çünki Gürcüstan tüfeyli müftəxorları yedirməyə borclu deyil. İrəvanda qalan, dinsizlərin əlində ölən ermənilərı mənim müdafiə etməyim barədə xahişinizə gəldikdə isə sizdən soruşuram: satqınlar himayə olunmağa layiqdirlərmi! Qoy onlar it kimi gəbərsinlər, onlar buna layiqdirlər, zira ötən il mən məğlubedilməz rus qoşunu ilə İrəvan qalasını mühasirəyə alanda onlar, təəssüfə layiq olmayanlar Narın qalanı tutmuşdular və onu mənə təhvil verə bildikləri halda bunu eləmədilər. Yüzbaşı Qabriel, sən isə bizimlə və hiyləgər Məhəmməd xanın birinci müşaviri olduğun halda mənə qarşı yalan və xainlikdə onu dəstəkləyirdin. İndi gördünüzmü, Allah sizi sizə



Qədim İrəvan. Zəng çayı tərəfdən qalanın görünüşü

qarşı mərhəmətli olan Ümumrusiya Hökmdar İmperatoruna xəyanət etdiyiniz üçün necə cəzalandırdı. Doğrudanmı elə fikirləşirsiniz ki, mən, general, başqaları kimiyəm, bilmirəm ki, erməni də, tatar da minlərlə insanı öz xeyri üçün qurban verməyə hazırdır, yalan danışmağa və İrəvanı almağın bütün asan yollarını təqdim etməyə hazırdır, axı siz sizi tanımayan general-mayor Nesvetayevi necə inandıra bilərsiniz? Bütün bunlardan sonra mən onları müdafiə edərək ora, özü də çörək olmayan bir yerə qoşun göndərə bilərəmmi? Yüzbaşı, sənin sözlərinə azacıq da olsa, inana bilərəmmi, bundan artıq iranlıların Rusiya qoşunları yaxınlaşanda İrəvan əhalisinin tabe olacağına inandıqlarına güvənə bilərəmmi, bu belə deyil, necə ki, ötən il də belə deyildi. Bəlkə elə fikirləşirsiniz ki, sizin 300 qorxaq erməni ailəsi 3000 nəfərli İran piyadasına qarşı nəsə eləyə bilər və yaxud bəlkə yalan dəlillərlə yeni İrəvan xanının və çox hiyləgər Kalbalı xanın guya Rusiyaya tabe olmaq və bunun üçün mənim ora hücum etməyimi istədikləri barədə sizinlə gizli danışıqlar apardıqlarına məni inandıracağınızı xəyal edirsiniz? Bunu gözləməyin. İran hiylələri mənə yaxşı məlumdur və İrəvan qalasını haçan və necə ələ keçirəcəyimi özüm bilərəm. Bu da sizə mənim cavabım! Sizsə dinc yaşayın, evlər tikin və tarla şumlayın.

İnfanteriya generalı knyaz **Sisianov**.

(AKAK, c. 2, səh. 628)



Rus qoşunlarının İrəvandan geri çəkilməsi

Rusiya hakimiyyətinə rəğbət bəsləməsinə baxmayaraq, knyaz Sisianovun ikiüzlü siyasəti Kalbalı xana yaxşı məlum idi. Bu bizim üçün də aydındır, ancaq kor Kalbalı xan onu da anlayırdı ki, sisianovlar gəldi-gedərdi, böyük Rusiya imperiyası isə yerində qalacaq. İrəvanın alınması ilə bağlı qəribə hərbi əməliyyat barədə yazdığımız oçerk sona yaxınlaşanda və ona başqa materiallar əsasında əlavələr etməyə həvəsimiz qalmadığı bir vaxtda birdən Kalbalı xanın bir məktubunu tapdıq. Kalbalı xan knyaz Sisianovun bilməli olduğu məlumatları nə üçün ermənilərə yazırdı? Ermənilər bu məktubları təkcə knyaza çatdırmayacaqdılar, həm də bütün ətraf ərazilər kor Kalbalı xanın nə düşündüyündən xəbər tutacaqdı.

KALBALI XANDAN – ARXİEREY OVANESƏ
YAY 1805-Cİ İL

Mən İrandan üz döndərmişəm, əgər onlar Allah olsaydılar belə, yenə onlara sitayiş etməzdim, çünki mən onları yaxşı tanıyıram, onlara çox qulluq eləmişəm, ancaq onlar göstərdiyim xidmətin mükafatı olaraq məni gözlərimdən məhrum etdilər və əgər bilsəydim ki, onlar o diyardan dəqiq geri qayıt-

mayacaqlar (yəni, əgər ruslar Gürcüstandan geri qayıtmayacaqlar – R.İ.), qraf Zubovun qayıtmağı kimi, buna görə bizim xanlıq yağmalandı, mən Rusiyaya xidmət edəcəyəm.

Knyaz Sisianova məni pis tanıtmışdılar.

Əgər ruslar Gürcüstanda möhkəmlənib qalacaqlarsa, onda cənabınız bunu mənə yazsın. Mən də hökmdarın qulluğunda hazır olum.

Mən 28-ində İrana şahın hüzuruna getməliyəm, İrana getməyimin səbəbi patriarx Daniili Naxçıvana, Predçevsk monastırına gətirməkdir, bundan əmin ola bilərsiniz ...

Mən cənab baş rəisə (knyaz Sisianova – R. İ.) **heç vaxt yalan söyləməmişəm və söyləmərəm də. Mən ona demişəm ki, qalanı tələb etsin, ancaq o, heç nə eləmədi. Ona nə demişəmsə, indi o sözün üstündə dururam.**

Kalbalı xanın möhürü.

(AKAK, c. 2, səh. 634)

Knyaz Sisianovun başçılıq etdiyi korpusun İrəvan qalasına ekspedisiyası epopeyasını bir daha izləsək, onda kor Kalbalı xanın açıq-aşkar söylədiyi sözlərin tarixi əhəmiyyət kəsb etdiyini və bu iki şəxsiyyətin tarixdəki yerini müəyyənləşdirdiyini görərik. 10 mart 1804-cü il tarixli acizanə raportunda knyaz Sisianov məlumat verirdi:

"Biz bu yaz Rusiya bayrağını bəlkə də ya İrəvan və Naxçıvan divarlarına taxa, ya da ən azı onları idarə edən xanları Rusiyaya xərac verməyə məcbur edə bilərik".

4 sentyabr 1805-ci tarixində isə bir çox titullara malik infanteriya generalı P.D.Sisianovun ruhdan düşmüş, döyüş qabiliyyətini itirmiş, yarıçılpaq, yarıac rus korpusu mühasirəyə alınmış İrəvan qalasının divarları önündən geri çəkilməyə, bəlkə də qaçmağa başladı. Və bizə elə gəlir ki, son məktubunda Kalbalı xan sanki gələcək nəsillərdən – bizdən lovğa və özünə çox güvənən knyaz Sisianova bu sözləri çatdırmağı xahiş edir:


"Mən cənab baş rəisə (knyaz Sisianova – R. İ.) heç vaxt yalan söyləməmişəm və söyləmərəm də. Mən ona demişəm ki, qalanı tələb etsin, ancaq o, heç nə eləmədi".



Kalbalı xan Naxçıvanski.
Rəssam Əsgər Məmmədov

Düz 205 ildən sonra,
2010-cu ilin avqustunda,
bu sətirlər yazılarkən
biz Kalbalı xanın bu
açıq etirafını knyaz Sisianovun
Kainatın hansı bucağındasa
gəzib dolaşan ruhuna ərməğan edirik.
Ola bilsin ki, özündən
çox razı və özünə
çox güvənən knyazın ruhu
indi vaxtında onun inadkar
keçi tərsliyinin öhdəsindən
gələ və müdrik və
uzaqgörən Kalbalı xanın
məsləhətlərinə uyğun
hərəkət edə bilmədiyinə görə
təəssüf hissi keçirir.

**Naxçıvan xanı özünə
həddindən artıq qürrələnən
knyaz Sisianova heç vaxt
hörmətlə yanaşmamışdır,
o ancaq Rusiya imperiyasına
rəğbət göstərmişdir.**



İrəvan xarabalıqları

Bakı qalasının qızıl haşiyəli gümüş qabda təqdim edilən açarı

İMPERATOR I ALEKSANDRIN SEHRLİ YUXUSU: ONUN GÖZÜNƏ MAVİ BİR İLĞIMDA RUSİYANIN ABŞERON BUXTASI GÖRÜNÜR

Ümumrusiya imperatoru Aleksandr Pavloviç sehrli bir yuxu görür: sanki o, qədim Qız qalasının təpəsində öz taxtında əyləşib, aşağıda isə dəniz dalğalarının həzin xışıltısı eşidilir, lap uzaqda onun suları göm-göydür. Qalanın təpəsindən ağ sahili olan mənzərəli bir buxta görünür, Əlahəzrət İmperatorun üzərində Rusiya bayrağı yellənən "Ştandart" yaxtası orada dayanıb. Uzaqda, bir az sol tərəfdə qovaq ağacları kimi şümşümal neft fontanları göyə yüksəlir, parlaq günəş şüaları arasında bu fontanlar al qırmızı qızıla bənzəyir. Rusiyaya neft almaq üçün qızıl ödəmək lazımdır, burda isə o, yerin altından fontan vuraraq sanki insanlara deyir: *"Götürün, götürün, havayı götürün!"* Sənaye üçün neft menyusu zəngin bir qidadır.



Hökmdar imperator
I Aleksandr

Hökmdar dənizin təkrarolunmaz rayihəsini ciyərlərinə çəkir. Aldığı ləzzətdən gücü çatmır ki, soruşsun: *"Biz haradayıq?"* – ancaq əsrarəngiz bir səs onun qulağına pıçıldayır: *"Böyük hökmdar, bu ki, sizin çoxdan arzusunda olduğunuz günəşli Bakıdır. Bu gün Bakıda böyük bayramdır. Bakı hakimi Hüseynqulu xan və bu günəşli diyarın bütün sakinlərin sizi salamlamaq və bu zəngin ərazini əbədi olaraq Rusiya imperiyasının tərkibinə qəbul etməyinizi xahiş etməyə gəlirlər..."* Həqiqətən də, uzaqda, mənzərəli Abşeron buxtasının sahili boyu uzun bir insan cərgəsi yavaş-yavaş ona doğru irəliləyir, onların hamısı bayram libasındadır. Adamlar başları üstündə nəhəng bir papirus gətirirlər, onun üzərinə qızılı yazma ilə Bakı xanlığının həmişəlik Rusiyanın tərkibinə daxil edilməsi ilə bağlı bakılıların böyük Hökmdarlar Hökmdarına ünvanlanan xahişi həkk olunub. İnsan cərgəsinin arxasınca altı atın qoşulduğu əsrarəngiz bir araba gəlir. Bu araba təkər üstündə qurulan, üstü qızılı naxışlarla bəzədilmiş bahalı ipəklə örtülmüş əlvan bir çadırdır. Bakı hakimi Hüseynqulu xan mühafizəçiləri ilə birlikdə şəstlə o çadırda əyləşib. Atlardan qabaqda ayaqlarını ritmlə yerə basıb taqqıldadan üç nəhəng pəhləvan addımlayır; onlar irəliyə uzanmış əllərində Bakı qalasının Ümumrusiya imperatoru I Aleksandra bəxşiş ediləcək üç qızıl açarını tutublar.

Hökmdar Bakının qızıl açarlarına toxunacağı xoşbəxt anı artıq hiss eləmişdi, ancaq bu yuxunun möcüzəli mənzərələri birdən, bir andaca, qatı dumana bürünüb yox oldu. Aleksandr Pavloviç gözləri yarı qapalı halda hələ yuxu gördüyünə inana bilmirdi, ona elə gəlirdi ki, bütün bunlar gerçəkdən olub, bəs onda üstü zümrüdlə bəzənmiş açarlar haradadır? Əsrarəngiz Bakı özünün Qız qalası və həzin dəniz pıçıltısı ilə birlikdə bir xatirə kimi imperatora yalnız baş ağrısı bəxş edərək, yasəmən rəngli qatı duman arasında əriyib itdi. *"Yox, Bakı – Atlantida deyil*, – imperator yuxulu gözlərini ovuşdura-ovuşdura fikirləşdi, – *Bakını, çoxdan batmış*

materik kimi, haradasa okeanın dibində axtarmaq lazım deyil. Bakı yer üzərində çiçəklənən bir möcüzədir, Xəzər sahilində rahatca məskən salmış, məxməri dənizli, göylərə ucalan neft fontanları ilə zəngin bir şəhərdir."

O vaxtdan Bakı fikri imperatorun yaxasını bir daha heç vaxt buraxmadı.



Qız qalası.
Bakı, XII əsr.

Əlverişli dəniz limanına malik olan günəşli Bakı, – buradan həm İrana, həm də Rusiyaya ticarət yolları uzanırdı, – öz əlçatmaz gözəllikləri və saysız-hesabsız zənginləri ilə hələ knyaz Sisianov Qafqaza gəlməmişdən qabaq rus siyasətçilərini və bütün işgüzar aləmi tamahlandırmışdı... Rusiyanın sərhədyanı ərazilər hesabına qansız genişləndirilməsi ilə bağlı yuxuları Rusiya sarayının əyanları əsasən ağ gecələr dövründə görürdülər, yer üzərinə qara zülmət çökəndə isə yatanda gürcü yuxuları onların sinəsinə çökürdü. Bu qorxunc qarabasmaları hətta yuxu adlandırmaq da mümkün deyildi. Rusiyanın idarəçiliyində olan Gürcüstanın müxtəlif rəngli məişət mənzərələri onların qapalı gözləri önündə peyda olurdu. Çariça Darya nəhəng qartal qanadlarını açıb havada süzür, günəşin qabağını tutaraq özünə yem – növbəti mühüm çar məmurunu axtarırdı; katorqadan qısa müddətə evlərinə baş çəkməyə buraxılmış qandallı gürcülər knyaz malikanələrini qarət edir, od vurub yandırırlar. Ədalətsiz şəkildə varislikdən məhrum edilən, İran və Dağıstanın sevimlisi şahzadə Aleksandr İrakliyeviç iranlıların təmin etdiyi böyük bir mühafizəçi dəstəsinin əhatəsində rus əsirlərinin Kaxetiya çarlığı ətrafına necə hündür bir divar ucaltmalarına tamaşa edir, bu divarlardan yalnız İrana geniş bir qapı açılır. İran hökmdarı Fətəli şah isə Tehrandan

Gürcüstana, hər dəfə oğurlanmış doğma övladı kimi qısqanclıqla baxır. Bu cür gürcü yuxularından sonra Rusiyanın yüksək rütbəli məmurları gündüzlər yarı yuxulu mürgü vurur, gecələr isə böyük dozada yuxu dərmanı qəbul edirlər ki, heç olmasa yatanda beyinlərinin içini didən Gürcüstanı necə yoluna qoymaq fikrindən qurtula bilsinlər.

Geniş əraziyə malik olan Gürcüstan artıq neçə il idi ki, daxili çəkişmələr və silahlı münaqişələr, rus üsul-idarəsinə silahlı çıxışlarla Rusiya ağır yük olur, sərhədlərinin qorunması orada hərbi dəstələr saxlamağa və varislikdən məhrum edilmiş şahzadə Aleksandr İrakliyeviç, ya onun qardaşları və qohumları tərəfindən qızışdırılan qiyamları yatırtmaq üçün daim ora yeni qüvvələr göndərməyə məcbur edirdi. Gürcüstanın Rusiya üçün bir faydası vardımı? Gürcülər özləri özlərini mühafizə etmək istəmirdilər, belə ağır işlərə onların vaxtı da yox idi – əyləncəli həyat onların vaxtının çoxunu əllərindən alırdı. Gürcülər bir şeyi anlamışdılar: əgər Gürcüstan Rusiyanın sərhəd ərazisidirsə, onda o qorunmalıdır. Bəs kim qorumalıdır? Rusiya! Gürcülərin özləri qorusa, onda Gürcüstan yenə İranın tərkibində olacaq. Yeri gəlmişkən, məhz bu Gürcüstan ucbatından qəddar, ancaq prinsipial bir şəxsiyyət olan Ağa Məhəmməd xan Qacar uzun müddət şah adlanmaq istəməmişdi. İranın gerbində Gürcüstana da yer ayrılmışdı və ona orada böyük İran sərhədlərini qorumaq vəzifəsi müəyyən edilmişdi. Ağa Məhəmməd xan bir vaxt demişdi ki, Gürcüstan onun hakimiyyəti altına qayıtmayana qədər, özünü şah elan etməyəcəkdir. Bununla belə, Gürcüstana uğurlu yürüşdən sonra yaltaq ətrafı onu şah titulunu qəbul etməyə inandıra bildi.

Yeri gəlmişkən, Gürcüstanı həm də yedirmək lazım idi, Rusiya olmasa orada hamı acından ölərdi. Gürcüstan işləri üzrə vəkalətli nazir Kovalenski bir vaxt demişdi ki, Gürcüstan iqtisadi cəhətdən özünü təminata keçə bilər. Bunu vəd etsə də, heç bir iş görməmişdi, bax bu fantaziyalarına və

digər səhvlərinə görə Kovalenskini Peterburqa köçürməli oldular. Gürcüstanı yedirmək, daxilini və ətrafını qorumaq lazım idi – gürcülərin rus qayda-qanunlarını və hakimiyyətini haçan sevəcəklərini gözləmək isə hələ çox vaxt aparacaqdı. Bir sözlə, Gürcüstan Rusiyaya yalnız əlavə qayğılar və məsrəflər gətirmişdi, pul su kimi harasa çox uzaqlara və dərinliklərə izsiz-tozsuz axıb gedirdi, ondan geriyə isə heç zibil də qayıtmırdı. Nə isə, əraziləri ard-arda istila edərkən, özün də çılpaq qala bilərsən, ikincisi də, uzaq hərbi yürüşlər üçün saysız-hesabsız miqdarda pul lazımdır – onu hardan alasan?

Knyaz Sisianovun, I Aleksandrın İranla müharibədən çəkinərək xeyir-dua verdiyi istila epopeyaları artıq imperatoru əsəbiləşdirməyə başlamışdı. Hökmdar yeni baş komandanının qəsbkarlıq coşqusunu məhdudlaşdırmağa çalışırdı.

> "... Hökmdar İmperatorun iradəsi bundan ibarətdir ki, – I Aleksandrın tapşırığı ilə xarici işlər naziri knyaz Çartoriyski 22 mart 1905-ci ildə knyaz Sisianova yazırdı, – İrana qarşı bizim hərbi əməliyyatlar əlimizdə olan üsullara tamamilə uyğun ölçüdə olsun (...) bundan sonrakı istilalarımız yeni əraziləri əldə saxlamaq üçün hökmən qoşunların çoxaldılmasını tələb edir (...) ancaq Avropadakı işlərin vəziyyəti qoşunlara azacıq da olsun kömək etməyə imkan vermir..."
>
> *(AKAK, c. 2, səh. 824)*

RUSİYADAN BAKIYA BAXAN RUS SƏNAYEÇİLƏRİ VƏ TACİRLƏRİ SAYSIZ-HESABSIZ ZƏNGİNLİK XƏYALINA DÜŞMÜŞDÜLƏR

Hökmdar knyaz Sisianovun qəsbkar ambisiyalarına yalnız bir səbəbə görə dözürdü: Qafqaza gəldiyi ilk gündən o, imperatoru Bakı qalasını qansız ələ keçirməyin mümkünlüyü barədə nağıllarla ovudurdu. Eyni zamanda məlum idi ki, qalaya, buradakı limana və ətrafdakı hər şeyə yiyələnmək istəyənlər növbəyə düzülmüşdü. Özü də

eyni dindən olan iddiaçılar Bakının lap yaxınlığında idilər, lakin onları ən məğlubedilməz qoşunlara malik böyük Rusiya ilə müqayisə etmək olarmı?

Günəşli Bakı haqqında məlumat verərkən knyaz Sisianov sanki hökmdar imperatoru, Rusiya sarayını, rus sənayeçiləri və tacirlərini sehrli Bakı yuxusuna daldırırdı. Knyaz Sisianov orijinal adam deyildi, dahiyanə ideyalar irəli sürmək qabiliyyəti də yoxudu, o daha çox düşünülməmiş hərəkətlərə meylli idi və bunlar da uğursuzluqla, hətta axmaqlıqla nəticələnirdi. Ancaq knyaz Sisianovun Bakını ələ keçirmək barədə militarist şüarları bütün Rusiyanın arzularına uyğun gəlirdi. Sərhədyanı yeni ərazinin istilası ilə bağlı böyük qələbə ilə əlaqədar qaldırılan hay-küydən sonra Gəncənin adını dəyişib Yelizavetpol qoydular və sonra da onu unutdular. Adı dəyişməklə Gəncə özü dəyişmədi, Rusiya da, Gürcüstanın ələ keçirməsindən sonra olduğu kimi, daha zəngin ölkəyə çevrilmədi. Ancaq, əgər Rusiya imperiyası birdən Bakını özünə birləşdirərsə, onda güclü iqtisadi yüksəlişə keçə bilər. Bu nəhəng tarixi hadisəni yalnız sivil nəsillər – yəni biz layiqincə, düzgün qiymətləndirməyə qadirik.



Qədim Bakıda
neft quyuları

Rusiyanın ağıllı insanları bilirdilər ki, – xoşbəxtlikdən bu ölkə heç bir əsrdə bu sarıdan qıtlıq çəkməyib – Bakının istilası Rusiyanın ələ keçirdiyi digər ərazilərdən yüz qat faydalı və vacibdir. Bakının əhəmiyyəti barədə nə coğrafiyaçı, nə də hansısa iri bir sənayeçi, hətta tacir deyil, tanınmış rus admiralı çox ətraflı söhbət açır.

ASİYA İLƏ TİCARƏT İCMALI

Admiral Mordvinovun Xəzər dənizinin sahillərində İranla ticarətə dair qeydlərindən

Bakı həm də ən yaxşı limandır. Gəmilər orada 7 sajın dərinlikdə təhlükəsiz dayana bilər. Bakının ətrafı neft bulaqları və ən yaxşı daş duz ilə zəngindir. Oralardakı xalqların bunlara zəruri ehtiyacı olduğu və rus mallarını almaq üçün buraya Mazandarandan, Gilandan, Lənkəran bəylərbəyliyindən və Azərbaycandan xeyli çox sayda tacirlər gəlir. Şamaxı əyalətini özündə birləşdirən bütün Şirvan, ən yaxşı ipəklə zəngin olan Şəki və Kürlə Araz arasında yerləşən digər kiçik əyalətlər, yaxınlıqda başqa bir liman olmadığına görə, istehsal etdikləri bütün malları Bakıya gətirirlər.

Əvvəlki vaxtlarda Rusiya İranla, Gilan əyaləti ilə öz ticarət əlaqələrini Rəşt şəhərində, Ənzəli limanında qurmağa üstünlük verirdi, ancaq həmin liman öz yerinə, ətrafında dayaz yerlərinin çox olmasına görə Bakı limanından müqayisəyəgəlməz dərəcədə iridir. Orada ticarət yalnız təkcə Gilan üçün faydalı ola bilər... Bundan əlavə, bu narahatlıqlarla üzləşməsək də, təkcə Ənzəli sahilində bataqlı torpağın rusiyalılar üçün fövqəladə ziyanlı iqlimi orada əsas ticarət yeri təsis etməyə əngəl olmaq üçün kifayətdir...



Admiral
N.S.Mordvinov

Beləliklə, bunlardan aşkar görünür ki, Rusiyanın İranla ticarəti üçün Bakı yeganə münasib və faydalı yerdir. Yuxarıda izah edildiyi kimi, bu limanda dəniz sahilindəki Mazandaran və Gilan, həmçinin yaxın əyalətlərlə ticarət etmək olar.

İndi quru yolu ilə ticarət barədə bir neçə söz deməyi lazım bilirəm. Bakıdan İran körfəzinin özünə qədər təhlükəsiz yol var və o, hələ böyük Şah Abbas tərəfindən abadlaşdırılan zəngin daxili əyalətlərdən keçib gedir.

... Əgər Bakı lazımı şəkildə olsa və hər kəs burda öz şəxsi təhlükəsizliyinin təmin olduğunu və öz mallarına mülkiyyət hüquqlarının sakitcə davam etdirdiklərini görsə, onda bu şəhər bütün İran ticarətinin mərkəzinə çevriləcək və bütün

zəngin sənaye adamlarını özünə cəlb edəcək. Mazandaran və Ənzəli limanları lazımsız bir şey kimi öz-özünə sıradan çıxacaq və bütün əyalətlərin istehsal etdikləri kirjimalarda Bakıya daşınmağa başlayacaqdır.

Bütün dinc xalqları hərəkətə və fəaliyyətə gətirən yeganə səbəb qazanca əminlik və onun gözəlliyidir. Beləliklə, Bakı vasitəsi ilə ticarətə düzgün yol açılanda, onda bu, yeri gəlmişkən, bir müddətdən sonra bütün İrana güclü siyasi təsir göstərmək üçün Rusiyaya lazımi vasitə kimi xidmət edə bilməzmi?

(AKAK, c. 2, səh. 857)

Bakının saysız-hesabsız xəzinələri haqqında çox şey eşitmiş olan qəsbkar knyaz Sisianov onu istila etməyə çalışırdı. O, müharibə yolunda qabağa düşmüşdü, anlayırdı ki, qaliblərin bu cür hərbi rəşadətləri çarsayağı mükafatlandırılır və onları əl üstündə gəzdirirlər. Hətta knyazın parad mundirinin sinəsində Sisianovun çoxdan arzusunda olduğu o Müqəddəs Georgi ordeni üçün layiqli yer də ayrılmışdı. Knyaz böyük bir şəxsiyyət kimi, Bakının Rusiyaya birləşdirilməsi münasibətilə Qış sarayına, şəxsən hökmdar İmperator Aleksandr Pavloviçin özünün hüzuruna dəvət olunanda Rusiyanın bu ən başlıca hərbi ordeni onun sinəsində xüsusi bərq saçacaqdı.

Qafqaza gələndən təxminən bir ay sonra 1803-cü ilin yanvarında knyaz Sisianov Bakı qalasını ələ keçirmək məqsədilə hərbi kampaniyaya başladı. Doğrudur, knyaz Sisianov bu hərbi kampaniyanı gizli tapşırıqlar və intriqalarla başlamağa üstünlük vermişdi. Bunu da demək lazımdır ki, intriqa sahəsində knyaz Sisianov anadangəlmə qabiliyyətə malik idi. Pavel Dmitriyeviç sərhədyanı ərazilərdəki xanlar arasındakı münasibətlərə dair informasiya almaq fürsətini əldən buraxmırdı və ondan öz məqsədləri üçün məharətlə istifadə edirdi. Knyazın özü həmişə qıraqda qalamağa üstünlük verirdi, ancaq tabeliyindəki vəzifəli şəxsləri –xanlarla əlaqəsi olan və sanki xidməti vəzifəsi icabı ilə onlara informasiya çatdıran və onlardan lazımi məlumatlar alan vəzifəli şəxsləri bu intri-

qalara cəlb edirdi.

Bu dəfə knyaz Sisianov Rusiyanın Bakıdakı baş konsulu N.S.Skibinevskini Hüseynqulu xan Bakinski ilə danışıqlara başlamaq üçün hərəkətə gətirmişdi, özü də konsula danışıqlar aparmaq üçün guya hökmdar imperator I Aleksandrın razılığı və tapşırığı ilə göstəriş verilmişdi. Bir şeyi xüsusi qeyd edək: knyaz konsulu elə bir danışığa təhrik edir ki, xan bunu haqlı olaraq təxribat kimi qiymətləndirə və konsulu Bakının hüdudlarından çıxara bilər. Ancaq konsulun, yumşaq desək, diplomatik etiketi pozması knyaz Sisianovu qətiyyən narahat etmir. Belə bir qeyri-konsul fəaliyyətinə görə knyaz konsula *"yaxşı bir mükafat"* zəmanəti verir.

KNYAZ SİSİANOVDAN – N.S.SKİBİNEVSKİYƏ
15 YANVAR 1803-CÜ İL

Sizin rütbənizə və şəxsi ləyaqətlərinizə olan etibara görə Hökmdar İmperatorun icrasını mənə təyin etməyi rəva bildiyi tapşırıqları sizə açıb deyirəm. Siz bilirsiniz ki, Bakı limanı Rusiyanın ticarət gəmiçiliyi üçün nə qədər lazımlı limandır. Bizim diqqətimiz indi şəhərin özündən daha çox ona yönəlmişdir. Ancaq şəhərin limanla birlikdəki təbii vəziyyətinə görə münasib bir vaxtda bizim qoşunların Bakını tutması lazım gələcəkdir, tez və ya gec bu, qaçılmaz olacaqdır.

Bakı xanın acınacaqlı vəziyyəti və onun iki güclü rəqib tərəfindən – Mustafa xan Şirvanlı və Şıxəli xan Dərbəndli tərəfindən sıxışdırıldığı sizə daha yaxşı məlumdur. Yaxşı olardı ki, müxtəlif təlqinlərinizlə onu Rusiyadan başqa heç yerdə kömək və himayədarlıq axtarmamağa inandırasınız; inandırasınız ki, Şıxəli xan Mustafanı, bəlkə elə onun özünü də tabe etmək üçün qoşun istəyir; Hüseynqulu xan tamam məhv, darmadağın olmaqdan qurtulmaq naminə özü İmperatordan Bakıdakı qarnizonunu qorumaq üçün müdafiə istəməlidir, bəlkə belə bir lütfü ona göstərməkdən imtina etməzlər. Əgər siz öz təlqinlərinizlə onu Bakını bizə heç bir maneəsiz verməyə inandıra bilsəniz, mən dərhal bu barədə hara lazımdır çatdırar və sizin bu səylərinizi və ağlınızı tam ədalətli şəkildə dəyərləndirəm və bunun ardınca yaxşı bir mükafat gələcəyinə şübhə etmirəm.

Hüseynqulu xanın nə qədər açıq olduğunu və sizin təkliflərə nə qədər şirnikləndiyini nəzərə alaraq, bundan bir nəticə çıxara bilərsiniz; əgər qoşun ona tez bir zamanda lazım olarsa, onda mən, Hökmdar İmperatorun tam razılığına malik olduğum üçün, elə o saat kömək üçün ona Gürcüstandan iki batalyon göndərə bilərəm. Ancaq bütün bunları müstəsna olaraq sizin diqqətinizə çatdırıram və sizə onları tam gizli saxlamağı tapşırıram.

(AKAK, c. 2, səh. 728)

KNYAZ SİSİANOV BAKI XANLIĞININ RUSİYA İMPERİYASINA BİRLƏŞDİRİLMƏSİNİ BAKI XANININ İŞTİRAKI OLMADAN BAŞA ÇATDIRIR

Burada knyaz Sisianovun Bakını istila planı, təsadüfün hökmü ilə, kəskin surətdə asanlaşır. Bakı hakimi Hüseynqulu xanın Allahverdi bəy adlı vəkalətli nümayəndəsi gözlənilmədən Tiflisdə gəlib çıxır və bildirir ki, guya o, həyatını təhlükəyə ataraq, Bakıdan ən çətin yollardan keçərək, buraya Rusiya hökumətinin Qafqazdakı nümayəndəsi knyaz Sisianova Bakı xanının, Bakı şəhəri və bütün xanlıqla birlikdə onun əbədi olaraq Rusiyanın himayəsinə qəbul edilməsi və ona düşmən kəsilən xanlardan Əlahəzrət imperatorun məğlubedilməz silahının gücü ilə müdafiə olunması arzusunu bəyan etmək üçün gəlmişdir. Bakı xanının elçisi şəxsən Əlahəzrət İmperatorun sarayına yollanmaq, orada Bakı xanlığının Rusiyaya birləşməsi haqqında İttifaq müqaviləsi tərtib və təsdiq etmək istədiyini bildirsə də, baş komandan knyaz Sisianov dəfedilməz bürokratik formallıqlara isnad edərək, Allahverdi bəyi İttifaq müqaviləsinin hazırlanması işini Tiflisdə başa çatdırmaq lazım gəldiyinə inandıra bildi. Tiflisdə əsir vəziyyətinə düşən Allahverdi bəyin knyaz Sisianovun köməyi ilə Bakı xanlığının Rusiyaya birləşməsinin əsas müddəaları və şərtləri əks olunan Nota hazırlamaqdan başqa çarəsi qalmadı. Notanın bəndlərini yazmaqda ona kömək edən knyaz Sisianov yalnız və yalnız Rusiyanın xeyrini düşünürdü.

BAKI XANI ELÇİSİNİN NOTASI

Hər şeyə qadir Allahın köməyi ilə

Bakılı Hüseyn xanın səlahiyyətli nümayəndəsi və səlahiyyətli vəkili Allahverdi bəy öz yüksək ehtiramlı və yüksək dərəcəli xanından, hakimi və ağasından tam səlahiyyət alaraq, cənab knyaz Sisianov tərəfindən yüksək dərəcəlinin məktubunun Əlahəzrət İmperatora kuryer vasitəsi ilə göndəriləcəyi, onun, Allahverdinin isə xüsusi Yüksək icazə olmadan Yüksək Saraya göndərilməsinin mümkün olmadığı barədə xəbərdar edilərək, öz cənabı və yüksək dərəcəli Hüseynqulu xan Bakinskinin arzusunu Ümumrusiya Hökmdar İmperatoruna, yəni hazırda xoşbəxtlik içərisində çarlıq edən I Aleksandra bildirmək üçün ona, yəni yüksək dərəcəli Hüseynqulu xanın səlahiyyətli elçisi Allahverdi bəyə həvalə tapşırılanları acizanə şəkildə bildirməyi lazımlı hesab edir, yəni (Onun adının möhürü):

1) Hüseynqulu xan Bakinski özünün bütün ailəsi, Bakı şəhəri və ta qədimdən Bakıya məxsus olan hər şeylə birlikdə əbədi və sarsılmaz olaraq Ümumrusiya Hökmdarı Əlahəzrət İmperatorun təbəəliyinə keçir (Onun adının möhürü).

2) Bakı şəhərinin ona aid olan hər şeyi ilə birlikdə əbədi müddətə Ümumrusiya dövlətinə birləşməsindən sonra Əlahəzrət İmperatorun təbəəsi olan Hüseynqulu xan şəhərin təminatı, tikintisi, limanı və ticarətin dəstəklənməsi üçün digər yardımlarla bağlı sərəncamlarında Əlahəzrət imperatorun qoşunlarının baş komandanının və onun təyin etdiyi rəislərin bilavasitə iradələrini əks etdirir (Onun adının möhürü).

3) Dini icra azad olacaqdır, heç bir təzyiqə məruz qalmayacaqdır (Onun adının möhürü).

4) Bütün düşmənlərdən qorunmaq üçün Əlahəzrət İmperatordan, onun yüksək şanlı silahının gücü ilə, nə qədər tələb olunursa və qeyd-şərtsiz müdafiə xahiş edir. Həmçinin müvəqqəti kömək bəzən onu təhlükəli vəziyyətə salmasın deyə, daimi yerləşdirilmək üçün Əlahəzrət İmperator qoşununun Bakı qalasına yeridilməsini xahiş edir. Cənab general-leytenant və kavaler özü vaxtı ilə 1797-ci ildə Bakıda komendant olduğu üçün bildirir ki, şəhərin ərazisinə öz məmurları ilə birlikdə 1000 nəfərdən çox əsgər yerləşdirmək mümkün olmadığına görə yüksək dərəcəli Hüseynqulu xan Bakinski bu sayda abad mənzil verəcəkdir (Onun adının möhürü).



Qədim Bakı

5) Əlahəzrət İmperatordan yüksək dərəcəli Hüseynqulu xanı onun bütün nəslinin Bakı xanları adını irsən daşımaq hüququ ilə təltif olunmasını xahiş edir (Onun adının möhürü).

6) Əlahəzrət İmperatordan yüksək dərəcəli Hüseynqulu xanın şəhər sakinləri üzərində xan hakimiyyəti idarəçiliyini əvvəlki hüquqlarında saxlanmasını xahiş edir (Onun adının möhürü).

7) Yüksək dərəcəli Hüseynqulu xan Bakinski Həştərxanda tələb olunan qədər, Həştərxan limanının məsrəflərinə uyğun qiymətə nəqliyyat gəmisi düzəltdirməkdə və onları borc verməkdə sərbəst olacaq; o, həmçinin Əlahəzrət İmperatorun lütfündən hər şeylə təchiz olunmuş iki nəqliyyat gəmisinin sərəncam və mülkiyyət hüququ ilə həmişəlik istifadə üçün ona bağışlanmasını xahiş edir.

8) Yüksək dərəcəli burda mənim təklif etdiklərimin və razılaşdığım şərtlərin hamısını möhkəm və sarsılmaz surətdə yerinə yetirəcəyini vəd edir və onu təntənəli şəkildə təsdiqləyir – və mən də bunu vəd andı ilə təsdiq edirəm (Onun adının möhürü).

9) Yüksək dərəcəli Hüseynqulu xan Bakinski, mənim ağam, bunu qarşılıqlı edir ki, mənim təklif etdiklərim və cənab general-leytenant, kavaler, Ümumrusiya Hökmdarı Əlahəzrət

İmperatorun xüsusi səlahiyyətli vəkili tərəfindən qarşılıqlı qəbul olunan qərarın surəti özü tərəfindən imzalanmaq üçün ona çatdırılsın. – Tiflis, 1803-cü il martın 31-i günü.(Onun adının möhürü və onun imzası: əsilzadə Allahverdi bəy, Bakı elçisi).

(AKAK, c. 2, səh. 730)

Guya Bakı hakimi Hüseynqulu xanın elçisi olan Allahverdi bəyin rus dilində tərtib olunan Notası, elçinin bütün səlahiyyətlərinə rəğmən, Hüseynqulu xan Bakinskinin imzası və möhürü ilə təsdiqlənməli olan bir sənədi heç cür əvəz edə bilməz.

Lakin 1803-cü il martın 31-i günü knyaz Sisianovun həyatında ən məhsuldar və ən xoşbəxt gün oldu. Knyaz, sən demə, qeyri-adi diplomatik qabiliyyətə malik imiş və eyni zamanda o, istedadlı saxtakar bacarığı nümayiş etdirmişdi.

Öz diplomatik uğurunun və qızıl mənbəyi Bakı xanlığının tezliklə Rusiyaya birləşdiriləcəyinin sevincindən vəcdə gələn knyaz Sisianov martın 31-də təkcə Allahverdi bəyin deyil, eyni zamanda Bakı xanı və onun varisləri adından Ümumrusiya Hökmdarı əlahəzrət İmperatora və onun Yüksək Varislərinə təbəəlik üçün sədaqət vədini (andını) qəbul edir.

Allahverdi, beləcə knyaz Sisianovun əlində sözəbaxan alətə çevrildi.

AND VƏDİ

Mən aşağıda adı göstərilən, yüksək dərəcəli və yüksək ehtiramlı Hüseynqulu xan Bakinskinin, mənim ağa cənabımın, səlahiyyətli vəkili məmur Allahverdi bəy cənab general-leytenant, Gürcüstanda baş komandan knyaz Sisianovun yanında hər şeyə qadir Allahın, bizim böyük peyğəmbərimiz Məhəmmədin, onun peyğəmbərlərinin varisi, güclü Əlinin on bir nəsli və onun müqəddəs Quranı önündə, mənim ağamın vəkili kimi onun adından bu and vədini verirəm ki, altında mənim imzam və bütün maddələrində mənim adımın adi möhürü olan və yuxarıda xatırlanan cənab general-leytenant

knyaz Sisianova mənim yüksək dərəcəli hökmdarım Hüseynqulu xanın vəkaləti ilə onun adından təqdim edilən şərtlər daxilində xanın timsalında onun və onun varislərinin Ümumrusiya Hökmdarı Əlahəzrət İmperatora və onun Yüksək varislərinə sadiq olacaqlarına and içirəm və bu sirri möhkəm və sarsılmaz surətdə gizli saxlamağı öhdəmə götürürəm və sonda müqəddəs Quranı və ondakı dəhşətli vallap, bittan, taltop sözlərini öpürəm. Amin. Tiflis, 1803-cü il martın 31-i günü.

Bu andın əsli Bakı xanın səlahiyyətli elçisi əsilzadə Allahverdi bəy tərəfindən imzalanmışdır. Andın şahidi Mirzə Rəbi olmuşdur.

(AKAK, c. 2, səh. 731)

Knyaz Sisianov dərhal, vaxt itirmədən, necə deyərlər, İttifaq müqaviləsini təşkil edən bütün sənədləri hazırlamağa başladı ki, təcili qaydada onları təsdiq edilmək üçün Sankt-Peterburqa göndərsin. Doğrudur, Allahverdi bəy knyaz Sisianova Bakı xanın rus təbəəliyinə keçmək haqda xahişi ilə bağlı şəxsi məktubunu gətirməmişdi. Ancaq Allahverdi bəydə Bakı xanın şəxsi məktubunun olmaması knyaz Sisianovu o qədər də narahat etmirdi. Əksinə, knyaz Sisianov belə güman edirdi ki, Allahverdi bəyin iştirakı ilə hazırlanmış sənədlər və sonra paytaxtda təsdiq edilmiş İttifaq müqaviləsi Bakı xanını fakt qarşısında qoyacaq, o, Rusiya təbəəliyini qəbul etmək məcburiyyətində qalacaq və ikitərəfli müqaviləyə uyğun surətdə öz öhdəliklərini yerinə yetirməyə başlayacaqdır. Allahverdi bəydə Rusiyaya qarşı rəğbət və xoş münasibət oyatmaq üçün və Bakı xanlığının arzularının gələcək İttifaq müqaviləsinə daxil ediləcəyini nəzərə alaraq, knyaz Sisianov 1803-cü il martın 31-də Sankt-Peterburqa acizanə raport göndərir.

KNYAZ SİSİANOVUN ACİZANƏ RAPORTU
31 MART 1803-CÜ İL

Hüseynqulu xan Bakinskinin səlahiyyətli vəkili Allahverdi bəy and içmə zamanı israrla məndən xahiş etdi ki, qərarın bir neçə bəndinin yerinə yetirilməsinə, yəni xana iki nəqliyyat

gəmisi verilməsinə dərhal başlayım, dedi ki, o bunu akt imzalanandan sonra yerinə yetirilməsi niyyəti ilə edib, ancaq mən Həştərxan limanında hazır gəmilər olmadığı bəhanəsi ilə onu bu fikirdən yayındırmaq niyyətindəyəm.

Bunları Əlahəzrət İmperatora acizanə surətdə təqdim etməkdən xoşbəxtlik duyur, cəsarət edərək soruşuram ki, həmin qərar təsdiq edildiyi halda ali hökmdarın Həştərxan limanından o iki gəminin Hüseynqulu xan Bakinskiyə verilməsini buyurması faydalı olmazmı? Bu halda elə ilk addımdaca onların etibarı tərəddüdə düşməzdi.

(AKAK, c. 2, səh. 729)

Əvvəlki məktubun ardınca, yenə 1803-cü il martın 31-də knyaz Sisianov Allahverdi bəyin Notası və Vəd Andı əlavə edilməklə ətraflı acizanə raport göndərir. Sisianova görə Bakı xanlığının Rusiyaya birləşdirilməsi artıq başa çatmış bir işdir. Bakı xanını onu sevməyən qonşularından müdafiə etmək və təcili Bakıya Rusiya qoşunlarını yeritmək lazımdır.

KNYAZ SİSİANOVUN ACİZANƏ RAPORTU
31 MART 1803-CÜ İL

Həştərxan, Kizlər və Qafqaz dərəsindən keçərək, ən çətin, ancaq ən etibarlı yolla Tiflisə gəlib çıxan Hüseynqulu xan Bakinskinin səlahiyyətli vəkili Allahverdi bəy mənə öz xanının məktubunu çatdırdı, o məktubda deyilir ki, onunla eyni dayədən tərbiyə alan (Asiya adətlərinə görə bu, hətta doğma qardaşdan yaxın qohumluq hesab edilir) həmin Allahverdi bəy tabelik və sözəbaxanlıq haqda onun şifahi tapşırığını əvvəlcə mənə bildirib, sonra mənim icazəmlə xahiş fərmanı ilə Əlahəzrət İmperatorun Yüksək sarayına yollanmalıdır. Ancaq mən onun Sankt-Peterburqa yollanmasını əngəllədim, bəhanə gətirdim ki, Əlahəzrət İmperatorun xüsusi Yüksək buyruğu olmadan, üstəlik, təklif olunan bu elçiliyin vacibliyinə əmin olmadığım üçün elçini Yüksək Saraya göndərə bilmərəm, onda həmin Allahverdi bəy Əlahəzrət İmperatorun Yüksək adına olan fərmanı mənə təqdim edib, mənə Hüseynqulu xan Bakinskinin xahişi və niyyətinin nə olduğu barədə ətraflı danışdı.

Fərmanın əslini tərcüməsi ilə birlikdə və mənə yazılan

məktubu Əlahəzrət İmperatorun Yüksək nəzərinə çatdırmaqdan böyük xoşbəxtlik duyuram. Onlardan aydın olur ki, Bakı xanının öz səlahiyyətli və etibarlı vəkili Allahverdi bəyə verdiyi başlıca tapşırıqlar onun şifahi şəkildə dediklərindən ibarətdir, onun verdiyi məlumatların məzmununa əsasən aşağıdakıları Əlahəzrət İmperatora çatdırmağı özümə borc bilirəm. Şöhrətpərəst Şıxəli xan Dərbəndlinin əməllərindən qorxuya düşən Hüseynqulu xan Bakinski, – buda mənim Əlahəzrət İmperatora göndərdiyim əvvəlki məlumatlarımı təsdiq edir, Şıxəli xan Bakı şəhərinə iddiası var, onun xanları bir vaxtlar Dərbənd xanlarına xərac veriblər – əlahəzrət İmperatordan onun Bakı şəhəri və ona aid olanlarla birlikdə əbədi Rusiya təbəəliyinə qəbul edilməsini və Bakıda kifayət ölçüdə həmişəlik qarnizon saxlamaqla onu, ona düşmən olan xanlardan Əlahəzrət İmperatorun məğlubedilməz silahının gücü ilə müdafiə etməsini xahiş edir. Bakı xanın bu istəyi həm də buna görə səmimi görünür ki, mənə gəlib çatan və təsdiq olunmağı tələb edən məlumatlara görə Şıxəli xan Dərbəndli artıq Şirvan əyalətini narahat etməyə başlayıb və öz niyyətini həyata keçirməyin yollarını axtarır; əvvəlcə öz barışmaz düşməni Mustafa xan Şirvanlıdan başlayıb, onun yerinə Mustafa xanın onun müdafiəsinə sığınan əmisi oğlu Qasım xanı gətirmək niyyətindədir. Bu vəziyyətin özü, Bakı xanının məhv olmaqdan qurtulmaq istəyi elçi Allahverdi bəyi qəti şəkildə öz xanı adından Bakı şəhərini güzəştə getməyə və mənim irəli sürdüyüm bütün şərtlərlə, onlardan heç nə çıxarmadan, demək olar ki, razılaşmağa məcbur edib.

Şəhərin, üstəlik Bakı limanının Rusiyanın Xəzər dənizində ticarətinə münasibətdə hansı əhəmiyyətə malik olduğunu və onun könüllü surətdə əldə edilməsini Əlahəzrət İmperatorun iradəsinə zidd olmayacağını bilərək, cəsarət edib Allahverdi bəyə tələqin etdim ki, əgər o öz xanından bu güzəştin şərtlərini imzalamaq və öz xanının şəxsində Əlahəzrət İmperatorun təbəəliyinə daxil olmaq üçün qeyri-məhdud səlahiyyət alıbsa, onda mənə elə bir yazılı öhdəlik versin ki, o, həm onun özü, həm də mənim üçün heç bir şübhə doğurmayan sənəd kimi xidmət etsin, – mənim bu təklifimə, həmin şərtlərin maddələri və məzmuna mənim qabaqcadan dəfələrlə verdiyim izahlardan sonra o, öz əli ilə fars dilində yazdığı və hər maddəsini öz möhürü ilə təsdiq etdiyi notanı mənə verdi; həmin notanı Əlahəzrət İmperatorun Yüksək nəzərinə çatdır-

maqdan böyük xoşbəxtlik duyur və o cür də acizanə surətdə Bakı şəhərinin ona aid olan hər şeylə birlikdə əbədi olaraq Ümumrusiya Dövlətinə birləşməsi münasibətilə təbrik edirəm.

Əlahəzrət İmperatoruna acizanə məlumat verməyi özümə borc bilirəm ki, 6-cı maddə qayda-qanuna və Rusiya qanunvericiliyinə bir qədər uyğun deyil, zira "əvvəlki hüquqlarında" sözlərinə, elçi Allahverdi bəyin anlayışına görə, ölüm hökmü də daxildir.

Ancaq, onun inadkarlığının həmin qərarın baş tutmaması ilə nəticələnəcəyindən çox qorxduğum üçün və şəhərin və Bakı xanının Əlahəzrət İmperatorun təbəəliyinə keçməsini nəzərdə tutan 1-ci və 2-ci maddələrin Rusiyada ləğv edilən ölüm hökmünə dözməməyə danılmaz haqq verdiyini nəzərə alaraq o maddənin olduğu kimi qalmasına qərar verdim, o şəhərdə daha yaxşı və daha əlverişli Yüksək idarəçilik təsis edilənə qədər zamanı gəldikcə edilə biləcək dəyişiklər barədə şərtləşmədim.

Məni Bakı şəhərinin Əlahəzrət İmperatorun təbəəliyinə qəbul olunması haqda qəti qərarın hazırlanmasına sövq edən səbəblər, mənim boynuma Bakını tutmağın ən yüngül yolları və lazımi fəaliyyətlər barədə acizanə məlumat vermək öhdəliyi qoyur, güman edirəm ki, lazımi kömək mənə hökmən və vaxtında yetişəcəkdir.

Bakını tutmaq üçün Gürcüstandan Bakıya, yəni Gəncə və Şuşaya gedən yolu təmin etməyə 3 batalyonlu polk lazımdır, Allahın köməyi ilə həmin şəhərləri ələ keçirib, bu kampaniyanın davamı kimi Car əyaləti üzrə qəti qərar başa çatdırıldıqdan sonra hər iki ərazini tutmaq üçün daha bir polk lazım olacaq. Bu iki polkun Gürcüstana tez gəlməsi üçün onları Krım ekspedisiyasından – yəni 15-ci Yeger və Sevastopol Müşketyor polklarını ezam etmək olar, ona görə ki, yaxındırlar, həm də ona görə ki, 15-ci Yeger polkuna buradakı 17-ci Yeger polkundan mənim tanıdığım və bu yerlər barədə məlumatlı olan polkovnik Karyagin Yüksək qərarla şef təyin edilib, Sevastopol polkunun şefi general-mayor Serbinin isə fəal xidmət sahəsində əla qabiliyyətə malik zabit kimi hamının yanında böyük nüfuzu var. Əlahəzrət İmperatorun bu təkliflərimə Yüksək razılığını almağa tezliklə nail olaramsa, elə həmin saat fəaliyyətə başlayacağam.

Gürcüstanda olan polklarla yuxarıda təsvir edilən postları tutacam, Sevastopol və 15-ci Yeger polkları isə (öz yerlərin-

dən Mozdoka qədər keçid iki ay və yaxud 7 həftə vaxt aparacaq, Əlahəzrət İmperatorun Yüksək əmrini almaq üçün də 7 həftə tələb olunur) Taqaur dərəsinə Terekdə suyun səviyyəsi aşağı düşəndə, yəni avqustun 15-nə və yaxud sentyabrın əvvəlində gəlib çıxacaqlar. Polklar Gürcüstana gəlib çıxanda çıxmış polkların postlarını tutacaq və yaxud bizim sərhədlərimizin mühafizəsində istifadə ediləcəkdir.

Bakıdakı qoşunlar üçün ərzağı – illik 4000 kisəyə yaxın un, buna uyğun nisbətdə yarma və polk atları üçün yulafı Həştərxandan ticarət gəmilərində göndərmək lazımdır...

Bütün bunları Əlahəzrət İmperatorun Yüksək nəzərinə çatdıraraq, acizanə surətdə əlavə etməyə cəsarət edirəm ki, Bakını tutmaq və onu Ümumrusiya dövlətinə birləşdirmək üçün bu qədər münasib fürsətin əldən buraxılmasını... mən üzərimə Yüksək səviyyədə qoyulan öhdəliklərə və Əlahəzrət İmperatora xidmət üzrə səylərimə zidd hesab edirəm və buna görə də Əlahəzrət İmperatorun müqəddəs iradəsini dəqiq yerinə yetirmək üçün onun qəti Yüksək buyruğunu gözləyəcəyəm.

(AKAK, c. 2, səh. 729)

Elə həmin gün, 1803-cü il martın 31-də knyaz Sisianov Dövlət kansleri A.R.Vorontsova məktub göndərərək, bu müqəddəs işdə, böyük bir xəzinənin –neftlə zəngin Bakı xanlığının Rusiyaya birləşdirilməsində, bununla da hökmdar imperator I Aleksandrın çoxdankı arzusunun gerçəkləşməsində onu, A.D.Sisianovu dəstəkləməsini istəyir.

KNYAZ SİSİANOVDAN – QRAF VORONTSOVA
31 MART 1803-CÜ İL

Mənim bu ayda göndərdiyim acizanə məlumatımda, Alihəzrət, görə biləsiniz ki, Hüseynqulu xan Bakinski təkcə onun Rusiya himayədarlığına deyil, həm də Bakı şəhərinin, ona aid olan bütün şeylərlə birlikdə Rusiya İmperiyasının əbədi olaraq təbəəliyinə qəbul edilməsini xahiş edir. Belə olan halda mən qəti tədbirlər görməyi lazım bildim, bu barədə Əlahəzrət İmperatora acizanə məlumat vermək xoşbəxtliyinə nail oldum.

Şəhəri və Xəzər dənizində Rusiya ticarəti üçün bu qədər

Bakı limanını bu cür könüllü və maneəsiz əldə etməyimizin Alihəzrətinizin diqqətini çəkəcəyinə əmin olduğuma görə, cəsarətlə ümid edirəm ki, siz, mənim ağam, vətənin xeyrini güddüyünüz və buna xidmət etdiyiniz üçün mənim təkliflərimi öz mərhəmətli köməyinizlə möhkəmlədəcəksiniz.

(AKAK, c. 2, səh. 732)

Knyaz Sisianov eyni zamanda Bakı xanının elçisinə İttifaq müqaviləsini bəyənməyi təklif edir. Knyaz hər şeyi qabaqcadan hesablamışdı: Bakı elçisi Müqaviləni imzalayacaq, Hüseynqulu xan Bakılı onun şərtləri ilə razılaşmağa məcbur qalacaq, Bakı əbədi olaraq Rusiyanın tərkibinə daxil olacaqdı. Bununla da iş bitəcəkdi!

İttifaq Müqaviləsinin mətni əlimizdə yoxdur, lakin knyaz Sisianov Hüseynqulu xanın elçisinin prinsipiallığını düzgün qiymətləndirməmişdi. İttifaq Müqaviləsinin, Rusiyanın xüsusilə maraqlı olduğu əsas müddəalarını Allahverdi bəy təsdiq etməmişdi və Bakı xanın elçisinin qeydlərinin üslubundan, incə şəkildə olsa da, aydın idi ki, knyaz Sisianov tərəfindən tərtib edilən və Bakı xanlığı üçün son dərəcə ağır şərtlərə malik bu İttifaq Müqaviləsini Hüseynqulu xan qəbul etməyəcəkdir.

BAKI XANININ ELÇİSİNİN İTTİFAQ MÜQAVİLƏSİNİN BƏZİ MADDƏLƏRİNƏ QEYDLƏRİ

Birinci maddədə yazılsın ki, yüksək dərəcəli, mənim mərhəmətli ağam Hüseynqulu xan öz ailəsi, Bakı şəhəri və ta qədimdən ona məxsus olan hər şeylə birlikdə Ümumrusiya Hökmdarı Əlahəzrət İmperatorun təbəəliyinə keçir. – *Bu yaxşıdır.*

2) Qanunların və dini ayinlərin icrası azad olacaqdır, heç bir təzyiqə məruz qalmayacaqdır. – *Buna da razıyam.*

3) Əlahəzrət İmperatorun buyruğu ilə Bakı qalasında üç batalyon rus qoşunu yerləşdirilsin. – *Bu mümkün deyil, həm də yüksək dərəcəli Hüseynqulu xan buna razı olmaz, cənabınız da məlum olduğu kimi Bakı qalasında bu qədər yer də yoxdur, cənabınızın arzusunu yerinə yetirmək üçün 1000 nəfər rus əsgərini yerləşdirmək olar. Bundan artıq mümkün deyil.*



Bakı qalası və Bakı buxtası

4) Ticarətin faydası naminə sizin üçün gəmilərə körpü düzəltmək – *Mən buna razıyam, yaxşıdır.*

5) Yüksək dərəcəli Hüseynqulu xan arzu və xahiş edir ki, Əlahəzrət İmperatorun Yüksək Sarayı tərəfindən onun irsən keçməklə Bakıda xanlığı və idarəçiliyi təsdiq edilsin. – *Bu yaxşıdır.*

6) *Yüksək dərəcəli Hüseynqulu xandan xahiş edilsin ki, şəhərin və asayişin idarə olunması əvvəlki hüquqlar və qanunlar çərçivəsində onun ixtiyarında qalsın, ölüm və edamdan savayı, bu iki şey Rusiya idarəçiliyində dözülməzdir. Ancaq bu iki cəza olmadan çox cinayətlər törəyəcək, buna görə də müsəlmanlarda onları ləğv etmək mümkün deyil.*

7) Mənim ağama Həştərxan limanında gəmi düzəldilsin. Ancaq yüksək dərəcəli Hüseynqulu xanın xahişi bundan ibarətdir ki, Əlahəzrət İmperator xana ticarət gəmisi bağışlasın.

8) Yüksək dərəcəli Hüseynqulu xan çox mərhəmətli Hökmdarın himayəsinə və onun tabeliyinə və təbəəliyinə ona görə keçir ki, Əlahəzrət İmperatorun mərhəmətindən yararlansın və onun lütfünü alsın.

Neft quyularından və Bakı qalasındakı rüsumlardan gələn gəlirlərin hamısı hətta xana çatmadığına görə, Rusiya onlardan istifadə edə bilməz.

9) Mənim xahişim ondan ibarədir ki, yüksək dərəcəli Hüseynqulu xanın iradəsini və mənim vasitəmlə çatdırılan istəklərini buyurub yerinə yetirir və məni mötəbər şəkildə ümidləndirirsinizsə, icazə verin geri qayıdım ki, çatan kimi bunları mənim ağama xəbər verə və onu əmin edə bilim.

10) Yüksək Sarayın, çox mərhəmətli Hökmdarın mərhəmətindən xəbərdar olduğumuz üçün biz onun himayədarlığını qəbul etdik və onun təbəəliyinə keçərək, bizim bu məlumatımız üzrə Əlahəzrət İmperatorun buyruqlarına tabe və itaətkar olacağıq, əgər siz buna razı deyilsinizsə, onda icazə verin mən geri qayıdım.

(AKAK, c. 2, səh. 731)

Knyaz Sisianov elçinin qeydlərinə məhəl qoymadan Allahverdi bəyə Tiflisi tərk bəhanəsi verdi, İttifaq müqaviləsi knyaz Sisianovun redaktəsi ilə təsdiq üçün paytaxta göndərildi. Aydındır ki, knyaz Sisianov beynəlxalq münasibətlərin bütün normalarını pozmuşdu, həmin normalara əsasən İttifaq müqaviləsini və ona əlavə edilən bütün sənədləri imzalamaq üçün Hüseynqulu xan Bakinskinin şəxsən özü dəvət edilməli idi, ən səlahiyyətli olsa belə heç bir vəkil onun özünü əvəz edə bilməz. Bir sözlə, knyaz Sisianov, Rusiya imperiyası hökumətinin yüksək nümayəndəsinə layiq olmayan bir avantürist kimi hərəkət etmişdi.

Könüllü razılıq adı altında, tələm-tələsik tərtib edilən və Bakı xanı ilə razılaşdırılmayan sənədlər əsasında knyaz Sisianov Bakı xanlığını Rusiya təbəəliyinə sürükləməyə çalışır. Bu cür biabırçı dərəcədə saxtalaşdırılmış müqavilə sənədlərinə bəlkə də yalnız möhkəm qorxuya düşmüş, müdafiəsiz, prinsipsiz və qürursuz bir hakim təhəmmül edə bilərdi, çünki bu sənədlərə əsasən Bakı xanlığı heç bir hüququ olmadan, üzərinə çox ağır öhdəliklər götürməklə əbədi olaraq Rusiyanın hakimiyyəti altına keçirdi. Ancaq Bakı xanlığının bunlara reaksiyası hələ məlum deyildi, Sankt-Peterburq isə bu arada

artıq vətənpərvər knyaz Sisianova əl çalıb alqışlayırdı.

Paytaxtda artıq Bakı xanının təzim edərək, təntənəli şəkildə qızıl haşiyəli məcməyidə Bakı qalasının açarlarını knyaz Sisianova necə təqdim etdiyini görürdülər.

İmperator I Aleksandr, Dövlət kansleri və bütün Rusiya sarayı Rusiya imperiyasına bəxşiş edilən belə bir gözlənilməz və bahalı hədiyyədən az qala ağıllarını itirmişdilər. İttifaq müqaviləsi Rusiya üçün çox faydalı şəkildə tərtib edilmişdi. Heç bir ölçü və vicdan hissi tanımayan knyaz Sisianov Bakının bu şərtlərlə Rusiya təbəəliyinə, özü də əbədi olaraq keçməsinin acı nəticələrini təsəvvürünə də gətirmirdi və heç gətirmək də istəməzdi.

KNYAZ SİSİANOVA YÜKSƏK BUYRUQ
23 MAY 1803-CÜ İL

Sizin məlumatlarınız Mənə yenə də sizin xidmətinizi haqlı olaraq tərifləmək fürsəti verir. Sizin idarəçiliyinizə verilən diyarla qonşu olan müxtəlif hakimlərin Rusiya Dövlətinin tabeliyinə keçmək üçün könüllü müraciətlərini sizin ağıllı sərəncamlarınıza və onlarda güclü müdafiəyə qarşı aşılamağa müvəffəq olduğunuzu etibara aid edirəm; Rusiyanın çətiri altına qaçanlar məhz bunu tapırlar. Mən məmnunluqla görürəm ki, bu yolla gedərək, siz qarşınıza qoyulan məqsədlərə, demək olar ki, sizi qəti tədbirlərə əl atmağa məcbur edə biləcək heç bir müqavimətə rast gəlmədən nail olursunuz. Siz əvvəlcədən cızılmış planı torpaqları Ümumrusiya İmperiya sərhədləri daxilində qalacaq hakimlərin razılığı ilə həyata keçirirsiniz.

Bunun nəticəsi olaraq, Mən sizin, Hüseynqulu xan Bakinski tərəfindən müvəkkil edilmiş Allahverdi bəylə tərtiblədiyiniz müqaviləni faydalı qəbul edərək, sizin təklif etdiyiniz və Bakı xanlığının Ümumrusiya İmperiyasına birləşdirilməsinə xidmət edən bütün tədbirləri bəyənirəm; o şəhərə qarnizon yeridilməsi, 6-cı maddəyə əsasən şəhər sakinlərini idarə olunmasının əvvəlki hüquqlarda xanın əlində saxlanılmasını, yalnız ölüm cəzası istisna olunmalıdır, bunu xüsusi müşahidə altında saxlamağı sizə tapşırıram. Hüseynqulu xanın xahiş etdiyi iki nəqliyyat gəmisinə gəlincə, onun bu istəyini yerinə yetirmək, eyni dərəcədə ona Həştərxanda öz hesabına gəmi dü-

zəltdirməyə icazə vermək caizdirmi. Bütün Rusiya təbəələrinin hamısına verilən bu hüquq, yeri gəlmişkən, təbəəliyə keçirsə, onda da olacaqdır.

(AKAK, c. 2, səh. 732)

Rusiya ilə Bakı xanlığı arasında müqavilənin qanuni qüvvəyə minməsi haqqında Yüksək buyruğun doğurduğu sevinc hissindən cuşa gələn knyaz Sisianov Hüseynqulu xana təbrik məktubu göndərir və elə güman edir ki, onu Bakıda epoxal əhəmiyyətə malik bir hadisə, Rusiya imperatorunun hakimiyyəti altında yeni xoşbəxt həyatın başlanğıcı kimi qəbul edəcəklər.

KNYAZ SİSİANOVDAN – HÜSEYNQULU XANA
27 İYUN 1803-CÜ İL

Bu məktub vasitəsi ilə, sizin və Bakı şəhərinin, ona məxsus olan hər şeylə birlikdə əbədi olaraq, mənim təqdimatıma əsasən, Ümumrusiya İmperiyasının təbəəliyinə qəbul olunmağınız barədə mənimlə hörmətli Allahverdi bəy arasında bağlanan şərtlər nəticəsində Əlahəzrət İmperator böyük lütfkarlıqla adı çəkilən qərarı olduğu kimi qəbul etdiyini və mənə onu lazımi qaydada icra etməyi buyurduğunu bildirərək, o padşahın lütfkar, Bakı sakinlərinin xeyrinə yönəlmiş icazəsi ilə yüksək dərəcəli cənabınızı təbrik etməkdən şərəf duyur və möhkəm ümid edirəm ki, sizin bizim çox mərhəmətli Hökmdar İmperatorumuzun yüksək və güclü himayəsi altında rahatlıq tapmaqla bağlı arzularınızın çin çıxacağı sizə təcrübədə sübut ediləcəkdir.



Bakıda Şirvanşahların iqamətgahı
Əsgər Məmmədovun rəsmindən

Bakıya yeridilməli olan qoşunlar barədə mən artıq lazımi göstəriş vermişəm və ümid edirəm ki, elə bu payız siz və sizin parlaq aileniz məğlubedilməz rus silahının müdafiəsi altında olacaqsınız...

(AKAK, c. 2, səh. 733)

Bakı xanlığının Rusiya imperiyasına birləşməsi paytaxtda böyük bayram hay-küyü qoparmışdı, tacirlər artıq dənizdə yeni ticarət yollarını mənimsəməyə başlamışdılar, sənayeçilər isə əllərini sevinc içərisində ovuşduraraq, müəssisələrdə yeni yanacaq növünün – "qara qızıl"ın tətbiqindən əldə edəcəkləri gəlirləri hesablayırdılar. Həştərxan tərsanələrində də dəhşətli qaça-qov düşmüşdü: quru və maye halında olan yükləri daşıyan iri gəmilərinin tikilməsi nəzərdə tutulurdu.

Bir sözlə, çox-çox uzaqlarda olan Bakı işgüzar Rusiyanı yeni tərəqqi sıçrayışına ruhlandırmış, Bakı xanlığının mənimsənilməsi istiqamətində böyük hərəkətlilik oyandırmışdı... Amma birdən...! Bu "birdən"ə heç kəs – hətta hər şeyə qadir və çox mərhəmətli, günəş kimi parlaq simalı hökmdar imperator I Aleksandr belə inanmaq istəmirdi.

KNYAZ SİSİANOV ÜMUMRUSİYA İMPERATORUNU ALDATMIŞDI: BAKILI HÜSEYNQULU XAN RUSİYANIN TƏBƏƏLİYİNDƏ OLMAQ İSTƏMİR

Knyaz Sisianov *"elə bu payız siz və sizin parlaq ailəniz məğlubedilməz rus silahının müdafiəsi altında olacaqsınız"* deyə Hüseynqulu xanı təbrik edəndən sonra heç 20 gün keçməmiş, bu yeni şirin həyatın ləzzətini hələ dadmış olan Hüseynqulu xan Bakinski artıq Tiflisə qəzəbli bir məktub göndərmişdi.

O, böyük hiddət içərisində yazırdı ki, onun səlahiyyətli elçisi Allahverdi bəyin iştirakı ilə *"Bakının güzəşt edilməsi və onun əbədi olaraq Əlahəzrət İmperatorun təbəəliyinə qəbul edilməsi haqqında hazırlanmış sənədlər Hüseynqulu xanın iradəsi ilə bağlanmamışdır"* və *"adıçəkilən Allahverdi bəy ona verilən təlimat və səlahiyyətlərin həddini aşmışdır"*. Bundan əlavə, Şirvan hakimi Mustafa xan Allahverdi bəyi Bakıya qayıdarkən yolda tutub saxlamış, bütün müqavilə sənədlərini əlindən almış və hətta Hüseynqulu xanın ruslarla

hər hansı məxfi işinin olub-olmadığını öyrənmək üçün ona işgəncə vermişdi. Bundan təsviredilməz dərəcədə qeyzlənən knyaz Sisianov 1803-cü il iyulun 10-da bu haqda imperatora acizanə raport göndərməyə məcbur oldu.

> "Əgər Xəzər donanması hərəkətə keçmək iqtidarında olsaydı, – knyaz Sisianov özünə bəraət qazandıraraq hökmdar imperatora məlumat verirdi, – mən dərhal Bakını bombalamağı və bağlanmış şərtlərin silah gücünə icra olunmasını əmr edərdim". Knyaz "2 polkun Tiflisə gəlməyini gözləyir ki, öz tərəddüdlü niyyətini qəfil dəyişdiyinə və ona tələqin edilən qərəzli fikirlərinə görə Bakı xanını tövbəyə məcbur etsin".
>
> *(AKAK, c. 2, səh. 732)*

Knyaz Sisianovun planları öz vüsətinə görə Sezarın niyyətlərindən geri qalmırdı: *"Gəldim, gördüm, qalib gəldim"*, ancaq qədim sərkərdənin istilaçı ambisiyaları qoşunla təmin edilmişdi, Rusiya imperiyasının sərhədlərinin Qafqazda və Yaxın Şərqdə genişləndirilməsi üçün isə knyaz Sisianovun açıq-aşkar hərbi gücü çatışmırdı. Peterburqda təsdiq edilmiş ştat üzrə knyaz Sisianovun dövründə Qafqazdakı rus qoşunlarının sayı 25 min nəfər əsgər və 30 top həndəvərində nəzərdə tutulmuşdu. Qara dənizdən Xəzər dənizinə kimi geniş bir ərazidə müdafiə və hücum əməliyyatları kompleksini həyata keçirmək üçün Sisianovun ixtiyarında olan hərbi güc yalnız bu qədər idi.

Qafqaz xəttində – Xəzər dənizindən Qara dənizə kimi olan xətti belə adlandırırdılar – və Həştərxanda da kiçik rus qoşunları qrupu vardı, amma o, mühafizə funksiyasını yerinə yetirirdi və Sisianov hücum xarakterli qoşunlarını onun köməyi ilə möhkəmlətməyə cəsarət etmirdi: bu, Qafqaz xəttindəki Rusiya ərazilərini müdafiəsiz qoymaq demək idi. Buna görə də davakar knyaz Pavel Dmitriyeviç Sisianov hiyləgərlik edir, özünü elə göstərirdi ki, guya qoşunu kifayət qədərdir, ancaq "qəlbi insan sevgisi ilə dolu olduğu üçün" o,

düşmənin qanının havayı yerə tökülməsini istəmir və buna görə də ona müqavimət göstərmədən qalibin iradəsinə təslim olmağı təklif edir.

Sisianovun başlıca dəlili – guya istənilən ərazini istila etmək üçün kifayət qədər olan məğlubedilməz qoşunlar idi, düşmənə isə rus qoşunlarının tərkibini və sayını müəyyən etmək, sonra isə danışıqlar və yaxud yazışmalar yolu ilə dialoqa girmək qalırdı.

Bizdən çox uzaq olan o dövrdə düşməni aldatmaq da o qədər asan deyildi. Rus qoşunlarının düşərgələrinin yaxınlığında həmişə iranlılar tərəfindən ələ alınmış insan olurdu və o, rusların nə qədər piyada, süvari əsgərinin, neçə topunun olduğunu, silah anbarlarının harada yerləşdiyini ya özü şəxsən sayaraq, ya da əsgərlər söhbət əsasında araşdırıb öyrənirdi. Bu, İran qoşunlarının sayının dəyərləndirilməsinə də aid idi, muzdla tutulan xəbərçilər onlar haqda əldə etdikləri məlumatları rus komandanlığına çatdırırdılar. Onlar istənilən deşikdən keçərək, haradasa peyda olub, qohumlarının yanına gəldiklərini bəyan etməyə müvəffəq olurdular, bu zaman qohumlar da tapılır və casusu həbs olunmaqdan xilas edirdilər. Bir sözlə, bugünkü müasir rabitənin yoxluğu casus kommunikasiyalarını istisna etmirdi və bir qayda olaraq, onlarsız heç bir xırda və ya iri miqyaslı əməliyyat hazırlanmırdı.

Yaxın Şərqdə baş verən müharibələrin tarixi xəbərçi – muzdlu casus funksiyasını yerinə yetirən çox insanın adını qoruyub saxlayır, ancaq onların arasında biz nə bir rusa, nə bir iranlıya, nə də bir azərbaycanlıya rast gəldik – yalnız ermənilər gördük.

Ancaq Bakının – Rusiyanın çoxdankı arzusunun üstünə qayıdaq. Knyaz Sisianov Hüseynqulu xan Bakinskinin "xəyanətini" heç cür unuda bilmir və təkcə Bakını istila etmək deyil, həm də xana yaxşı bir dərs vermək planları qururdu, halbuki xan Bakının əbədi olaraq Rusiyanın tərkibinə daxil olması ilə bağlı, hətta uzaqdan belə görmədiyi sənədlərin

müddəalarını qəbul etməməkdə min dəfə haqlı idi. Ancaq knyaz Sisianov bunu anlamırdı, onun qızdırmalı qüruru intiqam tələb edirdi. Həm də bu intiqam nə qədər tez alınsaydı, o qədər yaxşı olardı. Bakı Rusiyanın tərkibində olmayanacan, bu şəhəri dinc buraxmaq olmaz.

Qaraf Zubovun vaxtında Bakı qalasının komendantı olmuş knyaz Sisianov bu məsələnin nəhəngliyini anlayır və başa düşürdü ki, Bakını təkcə qorxutmaqla almaq olmaz, güc yolu ilə onu ələ keçirmək isə mürəkkəb və ləng olacaqdır, buna görə də qalanın qan tökülmədən alınmasına ümidini itirməmişdi. Ona elə gəlirdi ki, Gəncənin hücumla ələ keçirilməsinin və məğrur Cavad xana qanlı divan tutulmasının doğurduğu gurultulu əks-səda digər xanlar üçün yaxşı ibrət dərsi olacaqdır. Bakı qalasının uğurla istila ediləcəyinə inan knyaz, hələ də çoxdan intizarında olduğu və nədənsə onu indiyəcən layiq görmədikləri Müqəddəs Georgi ordeninin xəyalı ilə yaşayırdı.

DESANT DONANMASI BAKI ÜZƏRİNƏ HÜCUMA YOLLANIR

Knyaz Sisianov dənizdən hücuma keçmək üçün Xəzər donanmasını hərəkətə gətirmək və eyni zamanda quru qoşunlarını gücləndirmək qərarına gəldi. Əslində o vaxt Xəzər donanması hələ bir döyüş vahidi kimi mövcud deyildi, onu təşkil etmək lazım idi. Donanma təşkil etmək üçün kifayət sayda gəmi yox idi – ticarət və balıqçı gəmiləri arasından ən münasib olanları seçiləcəkdi. Knyaz Sisianovun bu qərarı bir pioner qərarıydı və cəsarətli idi, ancaq Xəzər dənizindəki rus qoşunlarının desantdan istifadə etməklə döyüş əməliyyatı aparmaq təcrübəsi yox idi. Qoşunların dəniz əməliyyatlarını qurudan uğurla dəstəkləməyi də hələ öyrənmək lazım idi. Bütün bunlara baxmayaraq, knyaz Sisianov düşündüyü planı həyata keçirməyə başladı. Üstəlik,

o bu əməliyyatın miqyasını da genişləndirdi. Hələ mövcud olmayan Xəzər donanmasının qarşısına əvvəlcə İran sahillərinə yollanmaq və Fətəli şahı qorxutmaq, bununla da Hüseynqulu xan Bakinski İrandan gələ biləcək köməyə ümidini qırmaq tapşırığı qoyulmuşdu. Nəhayət, əməliyyatın başlıca hissəsi kimi, donanma Bakını blokadaya almalı və Bakı xanlığını əbədi olaraq Rusiyanın tərkibinə daxil olunmasını təmin etməli idi. Lakin, knyaz Sisianov donanmaçı və hətta təcrübəli sıravi dənizçi olmadığına görə, desant döyüş əməliyyatı üçün ciddi ilkin hazırlıq lazım gəldiyini, yəqin ki, anlamamışdı, buna həm də vaxt yox idi. Dəniz əməliyyatının məqsədləri və donanmanın tərkibi tələm-tələsik müəyyən edilmişdi.



Knyaz Sisianovun arzusu: Xəzər donanması Bakıya hücum edir

Həştərxan qarnizonu polkunun komandiri general-mayor **İrinarx İvanoviç ZAVALİŞİNƏ** (1762-1821) dənizçi olmaq əmri verilmişdi. O, Xəzər desant donanmasının komandanı təyin edilmişdi.

KNYAZ SİSİANOVUN GENERAL-MAYOR ZAVALİŞİNƏ TƏKLİFİ 29 MART 1805-Cİ İL

Sizin qabiliyyətinizə və Əlahəzrət İmperatora xidmətdə göstərdiyiniz səylərinizə tam etibar edərək, azacıq belə tərəddüd etmədən sizi Baba xan sərdarı cəzalandırmaq və həm də Yüksəkdən təkcə mənə bildirilən planının hissəsini yerinə yetirmək üçün İran sahillərinə yollanan desant qoşunlarının rəisi təyin edirəm, buna görə də hər şeydən əvvəl buna əlavə edilən əməliyyat planına başlamağı təklif edirəm...

Oxucularımızı "əlavə edilən" planla tanış edək.

Xəzər donanmasının tərkibinə daxildir: 1 və 2 №-li freqatlar, "Mariya" yaxtası, 1, 2,3, 4, 5, 7, 8, 9, 10 və 12 №-li qaliotlar, cəmi – 12 gəmi, 128 top. Onlara azuqə daşımaq üçün 11 ticarət və nəqliyyat gəmisi əlavə olunmuşdur.

Xəzər sahillərini qorxutmaq və Bakını istila etmək üçün bax bunlar planlaşdırılmışdı.

Desant qoşunları ibarətdir: 6 bölükdən ibarət Qafqaz muşketyor polku, 2 bölükdən ibarət 16-cı Yeger polku – Cəmi 8. Onlardakı rütbələrin sayı: 35 qərargah və ober zabiti, 86 unter zabit, 23 təbilçi, 1046 sıravi, 40 topçu – cəmi 1345. Onların nəzdindəki artilleriya: 12 funtluq top –1, 6 funtluq top – 3, cəmi – 4 top. Yekun olaraq, 6 bölüklü desant dəstəsinin, qeyri-sıra əsgərləri də daxil olmaqla cəmi 1345 nəfərlik şəxsi heyətə malikdir.

General-mayor Zavalişinin komandanlıq etdiyi kiçik rus gəmiləri dəstəsinə o vaxtlar qorunmayan İran sahillərinə yan almaq, İranın ticarət limanı Rəşti ələ keçirmək, oraya rus konsulu təyin edib, rus ticarətini və Rusiya maraqlarını müdafiə etmək üçün onu və bir hərbi gəmisini orda saxlamaq, bundan sonra isə, necə deyərlər, rus eskadrasına Bakı qalasına hücum etmək və onu ələ keçirmək əmri verilmişdi.

Nəticədən asılı olmayaraq, bütün donanma və qoşunla birlikdə Bakıya yollanmaq, əsas və təhlükəsiz Bakı buxtasına

daxil olaraq, şəhəri blokadaya almaq. Daha sonra general-mayor Zavalişinə aşağıdakıları həyata keçirmək əmr olunmuşdu:

1) Gəmidən bir zabit şəhərin qalibə təslim edilməsi təklifi ilə göndərilsin və onun necə qəbul ediləcəyi gözlənilsin. Cavab arzu edilən olarsa, onda elan olunsun ki, xan öz sözündən qaçaraq, 1803-cü ildə Tiflisə göndərdiyi adamı vasitəsilə Gürcüstan, Həştərxan və Qafqazın baş idarəçisi hərbi qubernator knyaz Sisianovla Ümumrusiya təbəəliyinə daxil olmaq haqqında bağladığı müqavilədən imtina etdiyinə görə qoşunlar buraya xanı və şəhəri cəzalandırmaq üçün göndərilmişdir, buna görə də ondan heç bir şərt qəbul olunmur, o, ya hörmətdən salınmalı, ya da şəhərin önündə dayanan və yandırıb külə döndərməyə hazır olan qaliblərin ixtiyarına verilməlidir. Əgər göndərilən zabit qəbul edilməzsə, yaxud verilən cavab arzulara uyğun olmazsa, onda bütün toplardan bir neçə atəş açılsın, boş deyil, hiss edilən olsun, zira qısır atəş düşməni ruhlandırıb, ona yeni güc verəcək.

2) Bakını tutandan sonra həm sahilə yaxın, həm də şəhəri idarə edə bilən mənzillər ələ keçirilsin, şəhəri qorxuda saxlamaq üçün münasib olan yerlərə toplar yerləşdirilsin və şəhərdə qarovul nəzarəti təmin olunduqdan sonra desant qoşunlarının quruya çıxarılmasına başlanılsın.

3) Bakı tutulandan sonra Xəzər donanması 3 silahlı gəmi saxlayaraq Həştərxana qayıdır. Onlardan biri Ənzəlidə, digəri Talışda, üçüncüsü Bakıda dayansın. Desant qoşunları üçün daha çox azuqə və gəmilərdə yalnız Həştərxana gəlib çatmaq üçün zəruri olan ən vacib şeylər saxlanılsın.

4) Desant qoşunlarının rəisi Bakıya hücum və onun tutulması ilə bağlı mənə hər şey haqqında məlumat versin, bu məlumatları mənə çatdırmaq üçün Bakı ermənisi və tatarını Şuşaya və ya Qarabağa göndərsin, zira ümid etmək olar ki, o vaxtacan Şuşa və Nuxa əyalətləri Rusiya birləşdiriləcək və bu qalalarda bizim qarnizonlar yerləşdiriləcəkdir, ancaq ehtiyat üçün onların ikinci dublikatları kuryer vasitəsi ilə yüngül gəmidə Kizlərə göndərilsin.

(AKAK, c. 2, səh. 824)

Bakının rus silahının gücünə istilası barədə qərar qəbul ediləndən sonra, demək olar ki, iki il keçmişdi. Knyaz Sisianov, 1805-ci il aprelin 16-da Peterburqa məlumat verir ki, "Xəzər donanması Həştərxan limanının komandiri general-mayor Pevtsovun məruzə etdiyinə görə artıq yürüş vəziyyətinə gətirilib və mənim 7 aprel 1805-ci il tarixli göstərişimlə həmin donanma desant qoşunları ilə birlikdə Ənzəli sahillərinə yollanacaqdır" *(AKAK, c. 2, səh. 1028).*

Bakıdakı Rusiya konsulu N. S. Skibinevski 1805-ci il mayın 6-da knyaz Sisianova göndərdiyi raportunda haqlı olaraq Xəzər donanmasının Ənzəliyə hərəkətinin uğurlu olacağına öz şübhəsini ifadə edir. Səbəb çoxdur. Əsgərlər arasında epidemiya doğura biləcək iqlim, İran tayfaları arasında bir-birinə qarşı daxili düşmənçiliyin güclənməsi; bu səbəbdən həmin hücum Fətəli şahı hətta sevindirə bilərdi (qiyamçıları qoy onun əvəzinə ruslar qırsın) və ən başlıcası İran komandanlığının dəyərləndirməsinə görə rusların İran sahillərinə ekspedisiyası İran qoşunlarının Gürcüstana planlaşdırılan hərəkətinə əngəl olmayacaqdı *(AKAK, c. 2, səh. 837).*

Knyaz Sisianov, nə qədər tələsdisə də, Rusiya donanması əməliyyata yalnız 1805-ci il iyul ayının ortalarında hazır oldu, ancaq donanmanın hazırlanmasına sərf edilən bu qədər qiymətli vaxt ərzində iranlılar şəraiti aydınlaşdırıb, müdafiəyə hazırlaşa bilmişdilər. Donanma Ənzəli limanını tutub, Pəribazara yiyələnə bilsə də, planlaşdırıldığının əksinə, Rəşti ələ keçirə bilmədi. Xəzər donanması bundan sonra əvvəlcə Pəribazara geri çəkildi, iranlıların təzyiqi altında Ənzəli limanına qayıtdı.

1805-ci il avqust ayının ortalarında Xəzər donanması Bakıya üz tutdu. Bakı xanından qalanı təhvil vermək ultimatumuna rədd cavabı alan donanma şəhəri dövrəyə aldı. Dənizdən qalaya, qaladan gəmilərə atılan ara-sıra atəşlərlə müşayiət olunan mühasirəyə başlanıldı. Bu blokada hər iki tərəfə elə bir ciddi ziyan vurmadı.

Bir neçə gündən sonra Bakı xanının müttəfiqləri – Dərbəndli Şıxəli bəy və onun oğlu Surxay xan Qazıqumuqlunun şəhərə yaxınlaşdığı xəbəri gələndə general-mayor Zavalişin qalanın qan tökülmədən alınmasına ümidini itirərək, Bakının mühasirəsini buraxıb geri çəkilmək qərarına gəldi. Bu vəziyyət təkcə iranlılarda deyil, Cənubi Qafqazdakı hələ tərəddüd içərisində olan və Bakının mühasirəsinin nə ilə nəticələnəcəyini maraqla gözləyən xırda ərazi hakimlərində də ruh yüksəkliyi yaratdı.

Knyaz Sisianov, əməliyyatın bu cür nəticələnəcəyini gözləmirdi. Hiddətə gələn knyaz general-mayor Zavalişinə donanma ilə birlikdə dərhal Bakı istiqamətinə qayıtmağı əmr etdi və eyni zamanda Bakı xanına məktub göndərib, onu öz qoşunları ilə Bakıya gələcəyi ilə hədələyək, ondan qeydşərtsiz itaət eləməsini tələb etdi. Hüseynqulu xan Bakinski knyaz Sisianovun bu ultimatumunu diqqətə almayıb cavabsız buraxdı.

KNYAZ SİSİANOV BAKI ÜZƏRİNƏ QURUDAN HÜCUMA KEÇİR, ANCAQ QALANIN QALİBƏ QANSIZ TƏSLİM EDİLMƏSİNİ ARZULAYIR

Xəzər donanmasının uğuruna ümidini itirən knyaz Sisianov Bakını qurudan istila etmək qərarına gəlir və rus qoşunlarının Bakı üzərinə yürüşünə özü şəxsən başçılıq edir. 1805-ci il noyabr ayının sonlarında knyaz 16000 nəfərdən və 10 ağır topdan ibarət olan hərbi dəstə ilə Bakıya doğru hərəkət edir və Bakı xanına xəbər göndərir: *"Bakını almağa gəlirəm, Gəncəni aldığım kimi, ya da onun divarlarının dibində ölməyə"* («Рус. Ст.», 1890, mart-iyun, səh. 14).

Oxucuya bir daha xatırladaq ki, qan tökülməsini istəmədiyi barədə söylədiyi ənənəvi humanist ifadələrin arxasında

əslində düşmənin real gücünü bilmədiyi və hərbi kömək almaq şansına malik olmadığı üçün knyazın döyüşə girməkdən çəkinməsi dururdu. Başqa bir səbəb isə knyazın özünün açıq döyüşə girməkdən qorxması idi. Bu səbəb barədə Rusiya tərəfi hərbi məlumatlarda susmağa çalışırdı.

İnfanteriya generalı knyaz Sisianov xəstə idi, buna görə də at belində çox ortabab bir çapmağı vardı. O, heç də həmişə qaçağan bir at belində qorxubilməz cəngavər kimi irəli cumub, əsgərlərini öz ardınca apara bilmirdi. Qafqazın iqlimi knyazın səhhəti üçün yararlı deyildi. Onun daim qızdırma ağrıları tuturdu, yolda olarkən onu tez-tez atdan düşürür, açıq hava altında yerdə uzanıb, ağrıları keçənədək dincəlmək imkanı verirdilər. Bu ağır xəstəlik səbəbindən əsgərlərin baş komandana yazıqları gəlirdi.

Aydındır ki, knyaz Sisianov general-mayor Zavalişinin Bakını aktiv mühasirəyə alıb onu bombalamaqla xanlığı qalibin mərhəmətinə sığınmağa məcbur edəcəyinə ümid bəsləyirdi, ancaq xoş xəbərlər eşitmək əvəzinə general-mayor Zavalişinlə əlaqə, ümumiyyətlə, tamam kəsilmişdi. El arasında deyildiyi kimi, *"nə gələn vardı, nə gedən"*. Buna görə də Knyaz Sisianov Xəzər donanmasının komandirinə öyüd və nəsihət dolu bir məktub yazır.

KNYAZ SİSİANOVDAN – GENERAL-MAYOR ZAVALİŞİNƏ
14 SENTYABR 1805-Cİ İL

Mən 37 ildir qulluq edirəm, heç vaxt sizə tapşırılan bu qədər vacib bir işdə öz rəisimi məlumatsız qoymamışam. Heç vaxt eşitməmiş və heç yerdə oxumamışam ki, Avropa qoşunlarında belə bir şey baş vermiş olsun. Siz yola çıxan zaman, lap əvvəldən mənə necə raport göndərməyin yolunu sizə göstərmişdim, sonra 6 çapar göndərdim, ancaq onların heç birisindən cavab almadım. Axırıncısı Cahangir xanın nökəri idi, o sizin yanınıza Sarı adasından qayıqla göndərilmişdi. Cahangir xan özü üç həftə bundan qabaq gedib, ondan heç bir xəbər almamışam. Burada isə cürbəcür şayiələr gəzir. Birincisi, sizə Baba xanın Qarabağdan qayıtdı-

ğını deyən Talış tatarına, mənim onun üstünə getdiyimi eşidib, cavab vermisiniz: "Əgər o qayıdıbsa, mən də qayıdıram". Ənzəli yandırılıb, bu isə Avropa deyil, barbar müharibəsində törədilən bir hərəkətdir.

Bütün bu şayiələrə mən inanmıram, ancaq digər tərəfdən onların buraya bu şəkildə gəlib çatmasını etiraf etmək də xoş deyil. İndi iki xandan məlumat almışam ki, siz hər gün döyüşürsünüz və bakılıların iki topunu ələ keçirmisiniz. Allah eləsin, belə olsun, ancaq bakılılarla bu qədər uzun müddətə mübarizə aparmaq ayıbdır. Bakılıları şəxsən tanıdığıma görə, – orada iki il komendant olmuşam, – belə düşünürdüm və əmin idim ki, donanmadan iki gün bombalamaq onları təslim olmağa məcbur edəcəkdir. Asiya xalqı, hər halda ona, xüsusi ilə sayğısız yanaşmağı tələb edir, ancaq siz yerli şəraitə görə hərəkət etsəniz daha yaxşı olar... Bizim saray sizin ekspedisiyanın susmağından narahatdır, artıq bir neçə dəfə məndən soruşublar. Mən burda qeyri-sağlam yerdə yaşayıram, xəstəlik bütün gücümü əlimdən alıb, zorla yeriyirəm.

(AKAK, c. 2, səh. 850)



"Knyaz Sisianov Bakı qalasını mühasirəyə alarkən"
Rəssam Əzim Əzimzadənin akvareli (1930).

Şirvan xanlığından keçərkən knyaz 1805-ci il dekabrın 25-də Şirvan xanının Rusiyaya sədaqət andı içməsinə və öz qoşunları ilə onun dəstəsinə qoşulmasına müvəffəq olur. Lakin Şirvan xanı rus silahının müdafiəsi altına keçdikdən sonra heç də öz öhdəliklərini yerinə yetirməyə tələsmirdi. Və hələ məlum deyildi ki, Bakıya hücum zamanı onun qoşunları özünü necə aparacaq. Şirvan xanlığı hələ ki, Qarabağ üzrə öz öhdəliklərini yerinə yetirməməyi nümayiş etdirirdi. Rusiya ilə bağlanan müqavilənin üstündən cəmisi ay yarım keçsə də, bu itaətsizlik meydana çıxmışdı.

Knyaz Sisianov Mustafa xan Şirvanskiyə ultimatum xarakterli bir məktub yazır.

KNYAZ SİSİANOVDAN – MUSTAFA XANA
10 YANVAR 1806-CI İL

Yüksək dərəcəli cənabınıza bildirməyi özümə borc bilirəm ki, imzaladığınız müqaviləyə əsasən Qarabağ ailələrini təhvil verməyinizi 12 gün nəticəsiz gözlədikdən sonra qoşunla sabahı günü Bakı üzərinə yürüşə başlayıram və buna görə həmin müqavilənin 6-cı bəndinə əsasən bizə verməyə borclu olduğunu bütün anadangəlmə Qarabağ ailələrini sizdən almaq üçün 9-cu Yeger polkunun mayoru knyaz Urakovu məlik Cəmşidlə birlikdə burda saxlayıram. Anadangəlmə deyərkən, mən əslən şirvanlı olmayanların, Qarabağda uzun müddət yaşayanların, buna görə də 80 il Qarabağda yaşamamış, sonra sizin əyalətə köçmüş kəngərli və ərəbli adlanan xalqların hamısını qarabağlı hesab edirəm, mahiyyət etibarı ilə onlar qarabağlıdırlar, yüksək dərəcəli cənabınızdan onları da hökmən qaytarmağınızı və hamısını öz ərazindən Qarabağı sərhədlərinə qədər təhlükəsiz mühafizə ilə müşayiət olunmasını istəyirəm, çünki mən sizin vədlərinizin sonunu görmədiyimə görə hələ dünən Mehdi ağanı atlar yorğun olduğu üçün əldən buraxdım, bununla bərabər, mayor mənim yanıma qayıdanda onun tələbinə əsasən ona Bakıya çatana qədər təhlükəsiz konvoy verin. Bunu da yüksək dərəcəli cənabınıza çatdırmağı lazım bilirəm ki, mənim tərəfimdən mayora sizdən bütün ailələri almaq üçün cəmi 5 gün gözləmək əmri verilib. Əgər həmin müddət ərzində onları təhvil verməsəniz,

ixtiyar sizindir, onda mən rəislik barədə başqa tədbirlərə əl atmalı olacağam.

(AKAK, c. 2, səh. 681)

1806-cı il yanvarın 20 də knyaz Sisianov Mustafa xana Bakı üzərinə getdiyini təkrarlayır və xəbərdarlıq edir:

"...Əlahəzrət İmperatora xəyanət edənləri nə torpaq, nə də su gizlədə bilər". "Mən isə sizin qarşıdakı zaman içərisində Qarabağ ailələrini təhvil verməyinizin nə ilə qurtaracağına baxıram. Üstəlik, sizə axırıncı dəfə təkrar etməyi lazım bilirəm ki, siz o müqaviləni zorla imzalamamısınız, zira mən hələ onda sizə dedim ki, əgər onun bütün bəndlərini yerinə yetirmək niyyətində deyilsinizsə, imzalamayın, bu daha yaxşı olar.

Bundan əlavə, yüksək dərəcəli cənabınız, bakılıların Rusiya ilə ədavətdə olduqlarını və mənim Bakının üzərinə müharibəyə getdiyimi bildiyiniz halda, Bakı elçilərini qəbul etmisiniz və mənim tərcüməçimin yanında onlarla Rusiyanın düşmənləri kimi danışmamısınız".

(AKAK, c. 2, səh. 682)

Knyaz Sisianov Şirvandan Hüseynqulu xan Bakinskiyə bildiriş göndərir ki, rus qoşunları, 1804-cü ildə Gəncəni hücumla ələ keçirdiyi kimi, indi qəti şəkildə Bakını ələ keçirmək niyyəti ilə onun üstünə gəlir.

Şamaxı dağlarını çox çətinliklə aşan Sisianov öz dəstəsi ilə 1806-cı il yanvarın 30-da Bakıya yaxınlaşır. Döyüşdən və qan tökülməsindən çəkinən knyaz Sisianov növbəti dəfə Bakı xanına qalanı aşağıdakı, əvvəllər də məlum olan dörd şərt daxilində təslim etməyi təklif edir:

1. Bakıda rus qarnizonu olacaq.
2. Gəlirlər rus hakimiyyətinin sərəncamına keçəcək.
3. Tacirlərə ticarət azadlığı təmin ediləcək, heç kəsə heç bir təzyiq olmayacaq.
4. Xanın böyük oğlu amanat qismində knyaz Sisianova veriləcək.

HÜSEYNQULU XANDAN KNYAZ SİSİANOVA
1 FEVRAL 1806-CI İL

Mənim Rusiyaya ədavət bəslədiyimi yazdığınız məktubunuzu aldım və ona cavab verirəm ki, mənim ruslarla heç bir düşmənçiliyim yoxdur. General-mayor Zavalişin buraya gələndə əvvəlcə mən ona dostluq münasibəti göstərdim, ən sadiq adamlarımı, Ağakərim bəyi və digərlərini onun yanına göndərdim. Lakin o, məni mümkünsüz bir şeyə məcbur edərək, üç saata şəhəri boşaltmağı əmr edir, mən isə buradakı şəraiti nəzərə alaraq buna iki ay vaxt tələb etdim. Mənim şərtimi general-mayor Zavalişin qəbul etmədi, və şəhəri bombalamağa başladı. Mən də məcbur qalıb, mümkün olduğu qədər onun bombardmanının dəf etdim. Hamıya məlum idi ki, o, yanlışlığa yol verib. İndi isə siz, məqsədinizi bildirmədən, yaxşı və ya pis niyyətlə buyurub Arbat çaya gəlmisiniz, mənim rəiyyətlərimin mal-qarasını aparmısınız, onların sahibləri yanınıza gələndə isə onları həbs etmiş və bizim mal-qaranı basıb yemisiniz. Belə hərəkətlər sizin kimi Alihəzrətə yaraşmaz. O mal-qaranın elə bir əhəmiyyəti yoxdur, ancaq siz gərək mənim yanıma adam göndərib mənim buna münasibətimi öyrənəydiniz, ancaq ondan sonra istədiyiniz kimi hərəkət edəydiniz.

General-mayor Zavalişin mənimlə müharibə aparsa da, yeri gəlmişkən, iki ay ərzində su ehtiyatını məndən götürmüş, pulla azuqə almışdır və mənim tərəfimdən buna heç bir qadağa qoyulmamışdır. Biz yüksəkdə dayandığımıza görə, döyüşdə üstünlüyə malik idik, amma mən atəş açmağı qadağan etdim...

Elçilik üçün mənim yanıma zabit göndərirsiniz, ardınca isə toplarınıza şəhərə tuşlanmaq əmri verilir (...) Və həmişə siz birinci başlamısınız.

Nə etmək olar? Allah bilən məsləhətdir. Əgər siz xoş niyyətlə gəlmisinizsə, amma hərəkətləriniz bunu demir, onda bu barədə məni xəbərsiz buraxmayın.

(AKAK, c. 2, səh. 745)

KNYAZ SİSİANOVDAN – HÜSEYNQULU XANA
1 FEVRAL 1806-CI İL

Sizin, yüksək dərəcəli cənabınızın məktubuna nəzər salarkən böyük təəccüb içərisində görürəm ki, siz bütün qərəzli hərəkətlərin başlanğıcını rusların ayağına yazmağa çalışır-

sınız və Bakı mal-qarasını daha uzaqlara qovub aparmağa vaxt qazanmaq üçün mənim məktubuma qəti cavab vermirsiniz. Mən sizə bildirməliyəm ki, buraya mal-qara üçün yox, Bakını tutmaq üçün gəlmişəm.

Deyirsiniz ki, həmişə sizə birinci ruslar atəş açırlar və bu ədavətin səbəbini etiraf edirsiniz ki, mən Arbat çaya gəlib, Bakı mal-qarasını aparmağı əmr etmişəm, buraya hansı niyyətlə gəldiyimi sizə bildirməmişəm. Ancaq siz, Hökmdar İmperatorun özünün şəxsində mənimlə sizin səlahiyyətli müvəkkiliniz Allahverdi bəy arasında bağlanan müqaviləni pozmağınız barədə o məktubunuzda bir kəlmə də danışmırsınız.

Sonra, Əlahəzrət İmperator, mənim ən mərhəmətli və ən böyük İmperatorum haqlı olaraq hiddətə gəlib, məğlubedilməz Rusiya qoşununu Bakıya göndərəndə siz, yüksək dərəcəli, öz günahınızı daha da dərinləşdirərək, cəsarət edib rus qoşunlarına atəş açdınız. Nəhayət, mən sizin bütün belə hərəkətlərinizə baxmayaraq, sizə məktub göndərib, general-mayor Zavalişinlə müqavilə bağladığınız təqdirə müqəddəsin adından sizi bağışlayacağımı təklif edəndə, siz yüksək dərəcəli cənabınız, mənim heç məktubuma cavab da vermədiniz, buna görə də mən də yüksək şanlı rus qoşunu ilə Bakı divarlarına gəlib çatanda sizi ancaq düşmən hesab etməliyəm, bu səbəbdən də mənə sizinlə yazışmaq və gəlişimin məqsədini bildirmək lazım deyildi.



Unudulmaz
Bakı faytonu

Bundan əlavə, siz yazırsınız ki, general-mayor Zavalişin sizin iki ay möhlətlə bağlı tələblərinizi qəbul etmədi. Axı harada görünüb ki, müqaviləni pozduğuna görə cəzalandırılmaq istədikləri düşmən onlardan hələ möhlət də istəsin. General-mayor Zavalişin isə Əlahəzrət İmperatorun Yüksək iradəsi ilə sizi məhz cəzalandırmağa göndərilmişdi. (...) Dünən sizin bakılılar mənim su dalınca göndərilən əsgərlərimə birinci atəş açıblar, onlardan çox da uzaqda olmadığım üçün bunu mən özüm şəxsən gördüm. Bu gün də, həmçinin, ruslar isə bir güllə də atmadıqları halda, sizin tabeliyinizdəkilər, daşla-

rın arxasında gizlənib, bizim əsgərlərə atəş açırdılar. Eyni zamanda, bunu da əlavə etməyə bilmərəm ki, bizim adətimizdə yanımıza könüllü gələnləri həbs etmək yoxdur. Sizin adamlarınız isə bizim düşərgəmizə, mal-qara dalınca deyil, kəşfiyyat məqsədi ilə gəlmişdilər, onlardan biri mənə bunu etiraf etdi. Casusları isə bizdə həbs edirlər, mən də elə bu cür etdim. Sonda yüksək dərəcəli cənabınıza bunu da deməliyəm ki, Allah öz bildiyini eləyir, ancaq Əlahəzrət İmperatorun, çox mərhəmətli Hökmdarlar Hökmdarı İmperatorun qəlbinin nə qədər rəhmdil və insansevər olduğunu, bütün dinc vasitələrdən istifadə olunmayanacan qan tökülməsini istəmədiyini bilərək, bir daha sizi sülhə və öz təbəələrinizin qanının tökülməsinə yol verməməyə çağırıram, özünüzü və ailənizi məhv etməyin, qalanı mənim diskretsiyama, yəni, mənim iradəmə və ya vicdanıma təslim edin. Nə isə, ixtiyar sizindir.

Bu məktubla sizə... və Voljsk kazak polkunun polk komandiri Tarasovu öz etibarnaməm ilə yanınıza göndərirəm. Səhər tezdən cavab gözləyirəm.

(AKAK, c. 2, səh. 745 –746)

KNYAZ SİSİANOVDAN – HÜSEYNQULU XANA
2 FEVRAL 1806-CI İL

Yüksək dərəcəli cənabınızın Əbülhüseyn bəy vasitəsi ilə göndərdiyi məktubu aldım və çox təəssüflə görürəm ki, bizim yazışmamız son nəticə olaraq heç nəyə gətirib çıxarmayacaqdır, siz mənim məktubumun əsas məzmununa, yəni qalanın mənim vicdanıma təhvil verilməsi barədə sualıma heç bir cavab vermirsiniz, mən isə şəhəri almaq üçün gəlmişəm. Məktubunuzdakı heç nə ifadə etməyən üzrləriniz mənə lazım deyil və mən yüksək dərəcəli cənabınızdan, axırıncı dəfə olaraq, mənim əsas tələbimə qəti cavab verməyinizi tələb edirəm: şəhəri mənim vicdanıma təslim edirsiniz, ya yox? Yeri gəlmişkən, təbii bir adət var, nəyə razı deyilsinizsə, öz təkliflərinizi verin, ancaq bu halda sizi xəbərdar etməliyəm ki, birincisi, Bakı liman şəhəri olduğu üçün orada hökmən Rusiya qarnizonu olmalıdır, bunsuz olmaz; ikincisi, gömrük gəlirlərini sizin əlinizdə saxlamaq qeyri-mümkündür, çünki bu şəhər liman şəhəridir; üçüncüsü, tacirlərin sıxışdırılmasına Rusiyanın dözməsi mümkün deyil və nəhayət, sədaqətin daha etibarlı olması üçün amanat kimi böyük oğlunuz lazımdır, bunsuz ötüşmək olmaz.

Əgər bu əsas dörd şərtlə razılaşmaq istəmirsinizsə, onda bu yazışmaya son qoymağımız və şəhərin müdafiəsi zamanı sizin və təbəələrinizin igidliyinə ümid etməyimiz yaxşıdır, mən isə mənə nə lazımdır onu edəcəyəm və onda görərik, Allah nəyi necə məsləhət bilir. Nə isə, ixtiyar sizindir. Bu məktubla birlikdə knyaz Elizbar Eristovu yüksək cənabınızın yanına göndərir və səhər tezdən cavabınızı gözləyirəm.

(AKAK, c. 2, səh. 746)

Nəhayət, Bakıya hücumla bağlı məktub və hədələrdən yorulub əldən düşən Hüseynqulu xan baş komandan knyaz Sisianova təslim olmağa və özünün Rusiya Hökmdar İmperatorunun əbədi himayəsinə keçməsinə razılıq verir. Hüseynqulu xandan belə bir yumşalma gözləməyən knyaz Sisianov



Qədim Bakı

indi özündən çox razı idi. Cavab məktubunda o, az qala üç il ona müqavimət göstərən xanın nəhayət ki, hökmdar imperatorun mərhəmətinə təslim olmasından duyduğu sevincini gizlətmirdi və belə bir cəsarətli qərara görə knyaz sirli şəkildə xana nəsə xüsusi bir mükafat vəd edirdi: *"Qalaya girən kimi sizə Əlahəzrət İmperatorun, mənim böyük və çox mərhəmətli*

Hökmdarlar Hökmdarı İmperatorumun müqəddəs adından sizə elə bir Yüksək lütf elan edəcəyəm ki, sizin yüksək cənabınız, onu heç cür gözləmirsiniz".

KNYAZ SİSİANOVDAN – HÜSEYNQULU XANA
4 FEVRAL 1806-CI İL

Yüksək dərəcəli cənabınızın o məktubunu ki, oradan bura göndərdiyiniz hörmətli Əbülhüseyn bəyin mənim məktubuma sizin cavabınızı mənə çatdıracağını, onun sözlərinin dəqiq sizin yüksək cənabınızın sözləri olacağını yazırsınız, aldım, beləliklə o sizin etibarnamənizə malik olduğu üçün sizin bütün cavablarınızı mənə bəyan etdi, bildirdi ki, yüksək cənabınız Bakı qalasını mənim diskretsiyama, yəni, mənim iradəmə və ya vicdanıma təslim edirsiniz, onda mən buradakı diyarın və yüksək şanlı Rusiya qoşunlarının baş rəisi kimi bununla yüksək dərəcəli cənabınızı Hökmdar İmperatorun özünün şəxsində əbədi olaraq Ümumrusiya İmperiyasının təbəəliyinə qəbul edirəm, qalaya girən kimi sizə Əlahəzrət İmperatorun, mənim böyük və çox mərhəmətli Hökmdarlar Hökmdarı İmperatorumun müqəddəs adından sizə elə bir Yüksək lütf elan edəcəyəm ki, sizin yüksək cənabınız, onu heç cür gözləmirsiniz.

Bununla belə, sizin təbəələriniz bundan sonra və əbədi olaraq Rusiya İmperiyasının təbəələrindən heç nə ilə fərqlənməyəcəkləri üçün, mən çalışacağam ki, onların əmlaklarına ziyan dəyməsin, xahiş edəcəyəm ki, onların müxtəlif yerlərə aparılan mal-qaralarını elə indi geri qaytarsınlar, şəhərdəki sıxlığa qaçıb Bakı qalasına yığışan kənd sakinləri üçün zərərli ola biləcəyini nəzərə alıb onları əvvəlki evlərinə qaytarsınlar. Mən sizi öz sözümlə əmin edə bilərəm ki, (mən heç vaxt öz sözümdən qaçmamışam, yüksək cənabınızın özünə də məni şəxsən tanıdığınız üçün və elə bilərəm, bu diyarda olduğum üç il ərzində mənim sözümə nə qədər sadiq qaldığım barədə eşitdiklərinizə görə bu, yaxşı məlumdur), ruslar onlara azacıq da olsun heç bir ziyan vurmayacaqlar. Yeri gəlmişkən, mənim digər tapşırıqlarım barədə sizin hörmətli Əbülhüseyn bəy sizə məlumat verəcəkdir. Allahdan arzu edirəm ki, o, xoşniyyətinizdə sizə yardımçı olsun, şəxsən özünüzə və təbəələrinizə xoşbəxtlik nəsib etsin.

(AKAK, c. 2, səh. 747)

Baş vermiş möcüzəyə hələ də inana bilməyən Pavel Dmitriyeviç Sisianov öz təkəbbür və təşəxxüsünü unudaraq, birdən-birə Hüseynqulu xan Bakinskiyə daha bir məktub yazır. Əslində bu məktubu yazmağa formal olaraq elə bir səbəb də yox idi. Sanki bütün məktublar artıq yazılıb qurtarmışdı və Bakının dinc yolla alınması işi artıq başa çatdırılmaq üzrə idi. Buna baxmayaraq, knyaz Sisianov yenə, özü də onun məlum üslubuna tamamilə xas olmayan tərzdə bir məktub yazır. Knyaz artıq Hüseynqulu xana *"qardaşı və dostu" (!?)* kimi müraciət edir. Aydındır ki, bu iki düşmən, onların həyatında nə baş vermiş olursa olsun, qardaş bir yana, heç dost belə ola bilməzdilər. Ancaq, knyaz Sisianov artıq bizim təsəvvürümüzdə tamam başqa, anlaşılmaz bir obrazda canlanır.

Pavel Dmitriyeviç Sisianovun Qafqazda olduğu müddət ərzində onun qələmindən bu qədər ilıq, mehriban, adətkərdə olduğu formallıqlardan və kobudluqlardan uzaq bir məktub çıxmamışdır. Bu məktub onun həyatında axırıncı məktub olmuşdur.

KNYAZ SİSİANOVUN HÜSEYNQULU XAN BAKİNSKİYƏ ÖLÜMQABAĞI MƏKTUBU
6 FEVRAL 1806-CI İL, BAKI QALASININ ƏTRAFI

Əzizim Hüseynqulu xan! Bu məktubu sizə bir Rusiya generalı şəxsində yazarkən, onu köhnə tanışlığımıza əsasən sizə bir qardaş və dost kimi yazmağı özümə borc hesab edirəm. Bir halda ki, siz özünüzü mənim ixtiyarıma verirsiniz, hər şeyə qadir Allaha and içərək, mən ona inanıram, sizi əmin edirəm ki, məktubunuzda yazdığınız kimi, nəinki sizi yalnız buraxmayacağam, həmçinin sizin özünüzün və təbəələrinizin xeyrinə öz xeyrim kimi riayət edəcəyəm, bilirəm ki, bizim çox mərhəmətli Hökmdarımızın və mələksima İmperatorumuzun rəhmi hədsizdir. Bütün köhnə şeyləri unudaq və əbədi dost olaraq qalaq, mən özüm bütün qəlbim və ürəyimlə sizə qarşı bu cür xeyirxah olaraq qalıram...

(AKAK, c. 2, səh. 747)

BAKI QALASININ AÇARLARINI TƏHVİL VEMƏK ƏVƏZİNƏ HÜSEYNQULU XAN BAKİNSKİ KNYAZ SİSİANOVU YAXIN MƏSAFƏDƏN GÜLLƏLƏYİR

Qalanın açarlarının təhvil verilməsi mərasimi 1806-cı il fevralın 8-i səhər tezdənə təyin edilmişdi. Bakının qan tökülmədən ələ keçirilməsindən bihuş olan knyaz Sisianov, əlbəttə ki, xan tərəfindən heç bir xəyanət gözləmirdi, həm də yanında çoxsaylı silahlı mühafizə dəstəsi vardı. Fevralın 8-də səhər tezdən knyaz Sisianov Bakı qalasının gələcək qarnizonun 200 nəfərlik bir dəstəsinin müşayiəti altında açarları qəbul etməyə yollandı.

Bakı ağsaqqalları qala qapılarının yarım verstliyində dayanıb əllərində açar, çörək və duzla bu qədər mötəbər bir qonağı qarşılamağa çıxmışdılar. Onlar açarları knyaza gətirərək bildirdilər ki, xan öz günahlarına görə baş komandan tərəfindən tamam bağışlandığına əmin deyil və buna görə də açarları şəxsən özü knyaz Sisianova təqdim etmək istəyir. Bakı xanının belə bir yaltaq təklifi lovğa və özündən razı knyazın ürəyinə yağ kimi yayıldı və Bakı qalasının açarlarının təhvil verilməsi mərasiminə xanın özü rəhbərlik etsin deyə açarları ağsaqqallara qaytardı.



Bakı qalasının Şamaxı qapıları. Knyaz Sisianov bu qapıların önündə öldürülüb

Podpolkovnik knyaz Elizbar Eristovun və daha bir kazakın müşayiəti ilə knyaz Sisianov qalanın divarlarına yaxınlaşdı. Qala qapılarına yüz addım qalmış knyazı dörd əyanı ilə birlikdə Hüseynqulu xanın özü qarşıladı. Xan yaltaq baxışlarla təzim edərək, Bakı qalasının çoxdan gözlənilən açarlarını knyaza təqdim edərkən, onun yaxınlarından biri – İbrahim xan qəfil tapançadan açdığı ilk

atəşlə Sisianovu vurub öldürdü, ikinci və üçüncü atəşlə knyaz Eristov və kazak öldürüldü.

Knyaz Sisianov yerə yıxıldığı anda xanın adamları onu qılıncla doğramaq üçün üstünə atıldılar. Qala divarlarından şəhərin yarım verstliyində dayanan rus dəstəsinə toplardan atəş açıldı. Eyni zamanda xanın çoxsaylı süvariləri rus dəstəsini məhv etmək üçün irəli cumdu. Xan və onun nökərləri Sisianovun başını kəsdilər və kəsilmiş başı özləri ilə götürüb qalada gizləndilər. Sonra Hüseynqulu xan knyaz Sisianovun başını İran şahına göndərdi. Knyazın cəsədi öldürüldüyü qapıların önündəcə bir çalaya basdırıldı.



Qafqaz baş komandan Markiz Paluççi

Ancaq Hüseynqulu xanın təntənəsi uzun sürmədi. Elə həmin 1806-cı ilin oktyabrında rus qoşunları yenidən Bakıya yaxınlaşanda o, şəhərdən qaçdı, xanlığı isə Rusiya imperiyasının tərkibinə daxil edildi. 1806-cı ildə Bakını ələ keçirən general Bulqakov knyaz Sisianovun cəsədini Bakıdakı erməni qəbiristanlığında torpağa verdi.

Gürcüstandakı baş komandan Markiz Paluççi 1811-ci ildə knyaz Sisianovun cəsədinin qalıqlarını Bakıdan Tiflisə gətirdib, Sion kilsəsində dəfn etdirdi (РБС, 1901, səh. 499-508).

Yeri gəlmişkən, knyaz Sisianovun Gəncəni silah gücünə ələ keçirmək təhdidinə Gəncəli Cavad xan 1803-cü il dekabrın 1-də belə cavab vermişdi:

"Sən mənə, təklifini qəbul etməsəm, bədbəxt olacağımı söyləyirsən. Ancaq, mən belə güman edirəm ki, bədbəxtlik özü sənin ardına düşüb, səni Peterburqdan qovaraq buraya gətirib. Axırda bilinər, bizim hansımız bədbəxt olacağıq."

(РГАДА, f. 1406, s. 1, q. 345 v. 53)

GENERAL YERMOLOVUN İRAN MİSSİYASI VƏ KALBALI XAN NAXÇIVANSKİ İLƏ GÖRÜŞLƏRİ

RUSİYA İMPERİYASININ İRAN SƏFİRLİYİ

26 iyul 1816-cı tarixli yüksək fərmanla **Aleksey Petroviç YERMOLOV** (1777–1861) Rusiya İmperatorunun İran Sarayında fövqəladə və səlahiyyətli səfiri, bundan bir az sonra isə xüsusi Gürcüstan korpusunun komandiri və Gürcüstanın, Həştərxan və Qafqaz quberniyalarının mülki işlər üzrə baş rəisi təyin edildi. Əlahəzrət İmperator I Aleksandrın məşhur döyüş generalı Aleksey Petroviç Yermolovu İrana göndərmək qərarı Rusiya – İran münasibətlərinin heç də sadə olmadığı bir dövrdə verilmişdi.

Rusiya Napoleon Bonapartla ağır müharibədən sonra hələ tam özünə gəlməmişdi və İranla sülh ona hava və su kimi lazım idi. İranla bağalanan sülh müqaviləsi Rusiyanın xeyrinə olsa da, İranın ərazi mənafelərinə zidd idi. Doqquz illik müharibəni (1804– 1813) Rusiyaya uduzan İran 1813-cü il oktyabrın 12-də Qarabağdakı rus düşərgəsində, Gülüstan adlanan yerdə özü üçün son dərəcə ziyanlı olan sülh müqaviləsini imzalamağa məcbur qaldı. Bu müqavilə Hökmdar İmperatorun iradəsi ilə açıq şəkildə hamıya elan edildi.

"Allahın lütfü ilə Biz, İmperator Birinci Aleksandr və Ümumrusiya Hökmdarı və sair və sair və sair hamıya elan edirik:

İranla sülh Rusiyanın hüdudlarını dinclik və təhlükəsizliklə əhatə etmişdir. O, həlledici bir anda bağlanmışdır. Avropa öz yeni taleyini görmüş və həmrəyliyə qovuşmuşdur...

Öz təbəələrimizi çoxdan arzusunda olduğumuz, artıq çox sayda etibarlı razılıq və sarsılmaz dinclik bəhrəsi gətirən hadisədən xəbərdar edərək, Biz, 1813-cü il oktyabrın 12-ci günündə Gülüstanda İran Dövləti ilə bağalanan müqavilənin özünü hamıya açıq elan etməyi buyurduq.

Əsli nüsxəsini Əlahəzrət İmperator özü belə imzalamışdır:

ALEKSANDR

(РГАДА, f. 1406, s. 1, q. 346 v. 2)

Gülüstan müqaviləsinin III maddəsinə Rusiya imperiyasına verilən İran əraziləri təsbit olunmuşdur:

"...Əlahəzrət Şah Əlahəzrət Ümumrusiya İmperatoruna öz səmimi dostluq münasibətinin sübutu üçün bununla təntənəli surətdə həm Öz, həm də İran Taxtının Yüksək Varisləri adından bu ərazilərin Rusiya İmperiyasının mülkiyyətinə məxsus olduğunu qəbul edirlər: Qarabağ və hazırda Yelizavetpol adlanan əyalətə çevrilən Gəncə xanlıqları; həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqları, bu xanlıqların hazırda Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları ilə birlikdə. Eyni zamanda bütün Dağıstan, Şuragel əyaləti ilə birlikdə Gürcüstan, İmeretiya, Quriya, Minqreliya, Abxaziya, eyni şəkildə hazırkı mövcud sərhədlərlə Qafqaz xətti arasında olan bütün ölkələr və torpaqlar, sonuncudan Xəzər dənizinə qədər torpaqlar və xalqlar..."

(РГАДА, f. 1, s. 1, q. 3302 v. 1-2)

Daha əvvəl Sankt-Peterburqa gələn İran səfiri Mirzə Əbülhəsən xan Əlahəzrət İmperatorun comərdliyindən istifadə edərək, şahdan Yüksək Sarayı bu ərazilərdən bəzilərini İrana güzəştə getməyə razı salmaq tapşırığı almışdı, ancaq Rusiya Sarayı fəth etdiyi əraziləri heç cür İrana qaytarmaq niyyətində deyildi və onları xüsusi sülh müqaviləsi ilə həmişəlik Rusiyaya bağlamaq fikrində idi. Lakin Rusiya İmperiyasını İrandan ayıran yeni sərhədlər heç də hər yerdə dəqiq müəy-



İmperator
I Aleksandr

yən edilməmişdi və bu sərhəd problemini həll etmək lazım idi.

Qəbul zamanı İran səfiri Hökmdar İmperator I Aleksandra İran şahının ərazi arzularını çatdırdı, lakin Ümumrusiya İmperatoru özünün gerçək niyyətləri ilə onu vaxtından əvvəl incik salmaq istəmədi, ona yalnız öz simpatiyasını və İrana dostluq münasibətini nümayiş etdirdi. İran səfirinin Rusiya imperiyasının hüdudlarını tərk etməkdən savayı heç bir işi qalmadı. İran səfiri Mirzə Əbülhəsən xanın Fətəli şahın ərazi istəklərini həyata keçirə bilmədiyi barədə İranda kəskin mülahizələrə səbəb verməmək üçün I Aleksandr İran səfirinə bildirdi ki, general Yermolov Tehrana fövqəladə və səlahiyyətli səfir təyin olunub və ona Əlahəzrət İmperator adından bir çox məsələləri həll etmək üçün böyük səlahiyyətlər verilib.

XARİCİ İŞLƏR KOLLEGİYASININ YÜKSƏK FƏRMANI
29 İYUN 1816-CI İL – SANKT-PETERBURQ

Xüsusi Gürcüstan Korpusunun komandiri, həm Gürcüstanın, həm də Həştərxan və Qafqaz quberniyalarının mülki işlər üzrə baş rəisi general-leytenant Yermolovu İran şahı yanında fövqəladə və səlahiyyətli səfir təyin edərək, Biz, o səfirliyin məmur ştatlarını təsdiq etdik, Kollegiyanın icrası üçün onu müşayiət edəcək məmurlar Bizim fərmanımızla həmin səfirliyə müəyyən ediləcək...

Əsli nüsxədə yazılıb: **ALEKSANDR**

(AKAK, c. 6, səh. 119-120)

Səfirliyin ştatına müxtəlif ranqlı 20 diplomat və məmur, həmçinin Qvardiya Baş Qərargahından altı zabit daxil edildi. Rusiya Hökuməti səfirliyin tərkibinə iki həkimin, bir əcza-

çının və iki məşhur rəssamın – akademik Moşkovun və baron Korfun da daxil olunmasının qeydinə qaldı.

İrandakı səfirliyin təşkili zamanı səyyar kilsə və onda dini ayinləri həyata keçirmək üçün bir keşiş də nəzərdə tutulmuşdu. Daha sonra onun tərkibinə iki feldyeger (kuryer), Xarici İşlər Kollegiyasından iki fayton sürücüsü və iki tərcüməçi əlavə edildi. Səfirlik kortejini müşayiət üçün 24 Don və xətt kazakından, 24 seçmə əsgəri birləşdirən hərbi komandadan ibarət konvoy təsis edildi. Səfirliyin tərkibində rütbəli kapelmesterdən və 24 musiqiçidən ibarət nəfəsli orkestr də vardı.

Bütövlükdə İrana yollanan səfirlik korteji müxtəlif səviyyəli 200 məmurdan və bir o qədər də atdan ibarət idi. Böyük bir dövlət üçün bu başqa cür ola da bilməzdi.

Həqiqətən də, İmperator I Aleksandr İrana göndərilən səfirə çox böyük səlahiyyətlər verilməsinə çalışmışdı.

GENERAL YERMOLOVA VERİLƏN SƏLAHİYYƏTLƏR
5 AVQUST 1816-CI İL



Əlahəzrət İmperatorun
İran səfiri general-leytenant
A.P.Yermolov

Bununla bilməsi lazım olana elan edirəm ki, 1813-cü ildə Gülüstanda bağlanan və sonra həm bizim tərəfimizdən, həm də hazırda şahlıq edən Əlahəzrət Şah tərəfindən təsdiq edilən və təsdiq sənədləri bir-birinə göndərilən təntənəli sülh müqaviləsi ilə Rusiya İmperiyası və İran dövləti arasında xoşbəxtliklə bərpa olunan dostluq və mehriban razılıq münasibətlərini daha da möhkəmləndirmək üçün, hər iki dövlət arasındakı münasibətlərdə bu xoşbəxt əlaqələri çətinliyə və tərəddüdə sala biləcək nə varsa, onları aradan qaldırmaq üçün Bizə sədaqətli əzizimiz, bizim artilleriya general-leytenantımız, Xüsusi Gürcüstan Kor-

pusunun komandiri, Gürcüstanın və Həştərxan və Qafqaz quberniyalarının mülki işlər üzrə baş rəisi, Rusiyanın: almazla bəzədilmiş Müqəddəs Aleksandr Nevski, 2-ci dərəcəli Müqəddəs Georgi, 2-ci dərəcəli Apastolsimalı Knyaz Vladimir, 1-ci və 4-cü dərəcəli Müqəddəs Anna ordenləri ilə, üstünə "İgidliyə görə" yazılmış qızıl qılıncla, xaricilərdən: Avstriya İmperatorunun Mariya Terezya, Prussiya kralının I dərəcəli Qırmızı Qartal və hərbi xidmət ordeni, böyük Baden hersoqluğunun 1-ci dərəcəli hərbi ordeni ilə təltif olunmuş Aleksey Yermolova Əlahəzrət Şahın bu məqsəd üçün seçdiyi və bərabər səlahiyyətlərlə təmin etdiyi şəxs və ya şəxslərə danışıqlar aparmağı tapşıraraq, Biz də bununla adı çəkilən general-leytenantımız Yermolava iki dövlət arasında dostluq və qarşılıqlı əlaqələrin möhkəm və sabit əsaslara söykənməsinə xidmət edə biləcək hər şey barədə xüsusi müqavilə bağlamaq və imzalamaq səlahiyyəti müəyyən edir və onu həqiqətən bu səlahiyyətlərlə təmin edirik, öz İmperator sözümüzlə vəd edirik ki, xatırladılan müvəkkilimizin ona verilən bu səlahiyyət əsasında verdiyi hər bir qərar, bağladığı və imzaladığı hər müqavilə gerçək qəbul ediləcək, onların məzmunu həmişə toxunulmaz qalacaq, dəqiq yerinə yetiriləcəkdir, həmçinin onlara təyin edilən müddətə Bizim İmperator təsdiqimiz veriləcəkdir.

Əminlik naminə Biz bu səlahiyyətləri böyük dövlət möhürü ilə təsdiq etməyi buyurduq.

İmzalanıb: "**ALEKSANDR**"

(General Yermolovun 1817-ci ildə İranda səfirlik haqda qeydləri. Əlavələr, səh. 32-33)

General A.P.Yermolova bu qədər geniş səlahiyyətlər verərkən Yüksək Saray onu İranda titulların necə qəbul olunduğu barədə izahedici qeydlərlə də təchiz etmişdi. Nümunə üçün İran şahına məktubun əvvəlində yazmaq üçün A.P.Yermolova tövsiyə olunan qeydi təqdim edək:

"Ən ali və ən tərifəlayiq mərtəbə, qədim Böyük hökmdarların hakimiyyətinin Böyük sahibi, İran şahlarının davamçısı, öz şərəfi ilə müsəlman padşahlarından üstün olan, müdrikliyi, ədaləti və mərhəməti bərəkətli Günəş şüaları kimi saysız-hesabsız xalqları işıqlandıran, onlara və xeyirxahlıq həyat bəxş

edən çox güclü və çox qüdrətli İran dövlətinin və Şərqdə bir çox xalqların Sahibi, Səltənətlər tacının bəzəyi, Əlahəzrət, Parlaqsima Fətəli şah Qacara....”

(General Yermolovun 1817-ci ildə İranda səfirlik haqda qeydləri. Əlavələr,1868, səh. 34)

General Yermolovun diplomatik missiyasının uğuruna ümid edən Hökmdar İmperator, həmçinin İran şahına yalnız şəxsən özünün deyil, həm də zənginliyi başdan aşan Rusiya İmperiyasının qeyri-adi səxavətliliyini nümayiş etdirmək arzusunda idi. İran şahı, onun xanımı, iri dövlət vəzifəsini tutan iki böyük yaşlı oğlu (Fətəli şahın 500 arvadı, 150 oğlu və 20 qızı vardı), həmçinin şahın ən yaxın adamları üçün bahalı hədiyyələr ayrılmışdı. Oxucuların marağını nəzərə alaraq, Fətəli şah və taxt-tacın varisi – Azərbaycanın hökmdarı – şahın kiçik oğlu Abbas Mirzə üçün nəzərdə tutulan hədiyyələrin siyahısını təqdim edirik.

İRAN SARAYI ÜÇÜN NƏZƏRDƏ TUTULAN HƏDİYYƏLƏRİN SİYAHISINDAN

Fətəli şaha: yaqutlu brilyant qələm, üzərinə yaqut və brilyant çəkilmiş qızıl qılınc, qızılla işlənmiş büllur qəlyan, ayrı-ayrı yerlərinə daş-qaş və mirvari ilə bəzək vurulmuş fil təsvirli saat, müxtəlif növ 6 top parça, 3 top müxtəlif rəngli məxmər, samur xəzi – 2 ədəd, sincab xəzi – 4, 80 ədəd.

Çini şirniyyat və yemək servizi; buna meyvə üçün müxtəlif ölçülü 11 zənbil, 2 dondurma vazı, məcməyisi olan, qartal şəkilli 8 kompot bardağı, 8 yastı və ya tabaq kompot qabı, 8 butulka, 4 qədəh, 12 mürəbbə fincanı, 2 qəndqabı, 36 rəsmli boşqab daxildir. 12 ədəddən ibarət çay dəsti.

Şüşə əşyalar: 2 çərçivəli güzgü, yemək və şirniyyat servizi, buna meyvə üçün 3 böyük cam, 2 dondurma qabı, dondurma üçün 1 cam, şərbət üçün 2 cam, 4 üstü örtülən iri boşqab, 8 kiçik boşqab, 12 ağır şamdan, 24 qrafin, 24 remra, 24 stəkan, 24 krujka, 24 boşqab, 18 duzqabı, 2 taslı əlüzyuyan, 13 qəlyan, 12 su fışqırdan, ətirlənmək üçün 6 bardaq, 1 məcməyi daxildir, içində ləvazimatları ilə birlikdə qılınc, tüfəng və bir cüt tapança yeşik (qırmızı ağacdan).

Fətəli şahdan başqa, şahın xanımına, böyük oğlu Məm-

mədəli Mirzəyə, kiçik oğlu Abbas Mirzəyə, iki vəzirə, şahın xəzinəsini idarə vitse-kanslerə, şahın nazirinə, şahın general-adyutantına və onun kürəkəninə, şahın mirzəsinə və daha iki yaxınına da şəxsi hədiyyələr ayrılmış və general Yermolovun səfirliyi ilə göndərilmişdir.

Əlahəzrət İmperatorun Yüksək buyruğu ilə İran üçün hazırlanan hədiyyələrin reyestrinə daxildir: brilyant üzük – 6, digər daş-qaşlardan – 18, qızıl tütün qutusu – 6, zəncirli, möhürlü, açarlı qızıl saat –24, samur xəzi, plastik – 5, beloduşçat tülkü dərisi – 6, donqarlı sincab dərisi – 10, müxtəlif bəzəkli parça – 121, 5 arşın, məxmər – 120 arşın, müxtəlif rəngli mahud – 100 arşın, qəlyan – 20, su fışqırdan – 8, taslı əlüzyuyan – 1, iranlı zövqünə uyğun qrafin – 2.

Kiçik oğlu Abbas Mirzəyə: qızıl sapa bağlanmış iki mirvari fırçası olan, brilyant, almaz və zümrüdlə süslənmiş qızıl qınlı xəncər, almaz və Süleyman daşı ilə bəzədilmiş qızıl müşahidə borusu, 2 top müxtəlif növ parça, 2 top müxtəlif rəngli məxmər, samur xəzi (40 yakut samuru). Çini əşyalar: yan tərəflərində 2 cam olan mavi rəngli 1 böyük güldan, üstü rəsmli 2 çəhrayı güldan, 17 alətdən ibarət 1 çay dəsti, 1 qəlyan. Şüşə əşyalar: meyvə üçün 3 cam, 4 kompot bardağı, 6 ağır şamdan, 8 duzqabı, 6 İran qrafini, 1 taslı əlüzyuyan, müxtəlif növ 6 qəlyan, 6 su fışqırdan, 6 ətirlənmək üçün bardaq.

(AKAK, c. 6-2, səh. 132-133)

Rusiya İmperiyasının Yüksək Sarayının qiymətləndirməsinə görə Fətəli şah, onun qohumları və yaxınları üçün nəzərdə tutulan hədiyyələrin ümumi dəyəri 49 341 rubl 50 qəpik olmuşdur – o dövrə görə bu, çox böyük məbləğ idi. Bəlkə də İran şahı öz hakimiyyəti dövründə hər hansı bir xarici dövlət başçısından bundan bahalı hədiyyələr almamışdır.

D. S. S. QUREVƏ YÜKSƏK FƏRMAN
22 İYUL 1816-CI İL – SANKT-PETERBURQ

"İrana fövqəladə və səlahiyyətli səfir təyin edilən general-leytenant Yermolova ümumi dövlət gəlirlərindən artım və yol xərcləri üçün 30 000 rubl məbləğində kağız pul buraxılmasını əmr edin, həmin səfirliklə göndərilən və buna əlavə edilən

xüsusi siyahıda adları qeyd olunan müxtəlif hərbi məmurlara elə həmin xərclər üçün ödənmək məqsədilə ona 1500 rubl gümüş pul və 6000 rubl kağız pul çatdırın. Eyni zamanda, bununla bərabər həmin məmurlara, onlar o ezamiyyədə olduqları üçün, maaşdan əlavə hər ay 350 rubl gümüş pul məbləğində məvacib təyin edin. Sizə qarşı xeyirxah olaraq qalıram.

İmzalanıb: "**ALEKSANDR**"

(AKAK, c. 6-2, səh. 176)

Rusiya səfirliyinin yol hazırlıqları sona yaxınlaşırdı və general Yermolov şaha tezliklə İrana gələcəyini bildirir.

GENERAL YERMOLOVDAN – FƏTƏLİ ŞAHA
4 YANVAR 1806-CI İL

Dərin ehtiramımın və hörmətimin sübutu olaraq qəlbimin və ürəyimin dərinliyi ilə arzu edirəm ki, Sizin qüdrətli və mütləq hakimiyyətiniz tərəfindən idarə olunan xalqların xoşbəxtliyi naminə Uca Allah Əlahəzrətinizə uzun ömürlü cansağlığı və güc bəxş etsin və Sizin çox müdrik şahlığınızı əbədi şan-şöhrətlə şərəfləndirsin... Mənim çox mərhəmətli və böyük Hökmdar İmperatorumun səxavəti ilə Əlahəzrət İmperatorun Əlahəzrətinizin yanında fövqəladə və səlahiyyətli səfir olmaq xoşbəxtliyinə nail olmuşam, mənim hökmdarımın sarsılmaz arzusu bundan ibarətdir ki, Rusiya İmperiyası və İran dövləti, bir-birinə bu qədər yaxın qonşu olan bu iki səltənət əbədi olaraq indiki kimi sülh, dostluq və mehriban razılıq içində yaşasınlar, mənə tapşırılan belə bir yüksək vəzifəni şəxsən Siz Əlahəzrətin önündə, müqayisəyə gəlməz ehtiram və böyük hörmət hissi içərisində tez bir zamanda yerinə yetirməkdən heç də az xoşbəxtlik duymayacağıma ümid edir və s.

(AKAK, c. 6-2, səh. 139)

1817-ci il yanvarın 9-da general A.P.Yermolov Hökmdar İmperatora acizanə raport göndərir.

"Siz Əlahəzrət İmperatorun Yüksək iradəsi ilə səfir təyin olunduğum İran haqqında məlumat toplamaqla məşğul ikən

acizanə məlumat verməkdən böyük məmnunluq duyuram. Kifayət qədər mötəbər və hər yerdə eyni cür danışılan xəbərlərdən məlum olmuşdur ki, İran çoxsaylı qoşun toplayır. Bizim tutduğumuz əyalətlərin geri qaytarılması tələbi hökmən təkrar ediləcəkdir. Qalalar sahmana salınır və yeniləri tikilir. İranın sərhədyanı əyalətlərinin əhalisi müharibə olmasını çox istəyirlər, çünki o hökumət xəyanətdən qorxaraq onların başlarını sığallayır, onlardan vergi yığmır. Dinc vaxtda vergilər dağıdıcı olur və onlar çox qəddar üsulla yığılır. Dövlətin adlı-sanlı adamlarının hamısı müharibə axtarır: bu zaman onlar şah xəzinəsini israf edərək, öz tamahlarını doyurmağa çalışırlar. Ola bilsin ki, İngiltərə öz güclü təsiri ilə onları asanlıqla müharibəyə təhrik edir ki, İranın diqqətini Hindistandakı narahatlıqlara yönəltməsin, bəlkə də qorxurlar ki, biz aramızdakı dostluq əlaqələrindən istifadə edərək onları buna məcbur edə bilərik.

Siz Əlahəzrət İmperatorun mənə yüksək lütf göstərərək, səfir və buradakı diyarın baş rəisi vəzifələrini mənə həvalə etməniz, məndə inamsızlıq və şübhə doğurur ki, bir komandan kimi, qonşu əyalətlərdə torpaqları və vasitələri araşdırmaq üsulu mənə həvalə olunub. Hökmdar, mən görürəm ki, darmadağın olmuş bu diyara sülh nə qədər lazımdır; buradakı qoşunların öz vəziyyətinə nəzərən onu çox zəruri hesab edirəm və hər şeydə bizi ümumi çatışmazlıqlara vadar edə biləcək çox böyük məsrəflərdən qorxuram. Ancaq əgər İran müharibə aparmaq niyyətindədirsə, inanıram ki, zahiri xoş münasibəti dəyişmədən, vasitəçilik bəhanəsi ilə məni uzun müddət Tehranda saxlayacaqlar. Və bu zaman öz ordularını toplayıb bizim sərhədlərə yaxınlaşa bilərlər. Əgər, nəhayət, məni buraxsalar, ən azı iki ay yolda olacağam.

Vəzifə borcuma görə Hökmdardan heç nə gizlətməməliyəm, mən öz fikrimi dedim. Nə qədər tez mümkün olsa, İrana yollanacağam. Qalın qar indi dağlardan keçməyə əngəl törədir. Fevralın sonunda və yaxud martın əvvəlində hökmən yola çıxacağam. Mənim burada olmadığım vaxtlar üçün Əlahəzrətinizin adından general-mayor Kutuzovu qoşunların və mülki işlər üzrə hissənin rəisi təyin edirəm, ona müfəssəl müvafiq təlimat verəcəyəm. Əminəm ki, Əlahəzrət İmperator, mənim tapşırıqlarımı ondan yaxşı heç kim yerinə yetirməyəcək. Elə bu məqsəd üçün onun buraya təyin edilməsini acizanə xahiş etmişdim".

(AKAK, c. 6-2, səh. 140)

1817-ci il aprelin 17-də İmperator Rusiyasının nəhəng səfirlik korteji, Mitropolitin xeyir-duasını alaraq, Tiflisdən Tehrana yola düşdü. Diplomat general Yermolovun missiyası o qədər də asan bir şey deyildi. Ona Gülüstan müqaviləsi üzrə sərhədlərin dəqiqləşdirilməsini tezliklə başa çatdırmaq və eyni zamanda Rusiyanın maraqlarına heç bir vəchlə xələl gətirmədən, bəzi torpaqların İrana güzəşt edilməsinin mümkün olub-olmadığına yerində əmin olmaq tapşırılmışdı.

Rusiya səfirliyi İranın mərkəzinə doğru yaxınlaşdıqca, İran sarayına yaxın şəxslər Rusiya səfirinin əsl niyyətini tez-tez öyrənib bilməyə çalışırdılar. Tehrandan bir az aralıda səfiri Mirzə Əbdülvahab qarşıladı – o, sarayda ən məlumatlı adamlardan biri və şahın xüsusi müvəkkili idi. Həmin Mirzə Əbdülvahab Tehrandan Rusiyanın zəbt etdiyi bəzi əyalətlərin İrana qaytarılmasının mümkünlüyünü aydınlaşdırmaq üçün göndərilmişdi. O, general Yermolovu İrana ərazi güzəşti ilə bağlı 12 gün dilə tutsa da, təcrübəli elçinin bütün fəndgirliyinə, onun iranlılara məxsus məlum incə təsir üsulları vasitəsi ilə general Yermolovu ələ almağa çalışmasına baxmayaraq, səfir tövrünü belə dəyişmədən, məşhur döyüş generalına xas bir açıqlıqla ona cavab verdi:

> "Mən öz Hökmdarımın və Rusiyanın ləyaqətlərinə riayət etməliyəm, əgər Şah tərəfindən qəbul zamanı, mənimlə iş barədə müzakirələr aparmaq üçün təyin olunan adamlarla danışıqlar zamanı sülhü pozmaq niyyəti hiss eləsəm, onda mən özüm müharibə elan olunması barədə xəbərdarlıq və onu Araz sərhəd olmayınca bitirməyəcəyəm".
>
> Bu sözləri peşəkar diplomat deyil, Qafqaz Korpusunun baş komandanı tələffüz etdiyi üçün iranlılar general Yermolovun dediklərinə xüsusi əhəmiyyət verirdilər. Aleksey Petroviçin özü isə öz davakar təhdidini aşağıdakı kimi şərh etmişdir:
>
> "... sərt sifətim həmişə mənim hisslərimi çox yaxşı ifadə etmişdir və mən müharibədən danışanda o, dişi ilə adamın boğazından yapışmağa hazır olan bir insanın hisslərini büruzə verir.
>
> Onların bədbəxtliyindən, anladım ki, bundan xoşlanmırlar,

ona görə də hər dəfə onlar mənə inandırıcı bir sübut gətirməyəndə vəhşi sifətimi, dəhşətli təəssürat oyadan nəhəng gövdəmi və çox hündür səsimi işə salırdım və onlar da dərhal ədalətli və əsaslı səbəbləri olmayan bir adamın bu cür möhkəm qışqıra bilməyəcəyinə inanırdılar".

(А. П. Ермолов в Персии. «Русск. Стар.» с. 138, 1909, səh. 475)

Gülüstan müqaviləsi İran üçün xeyirli olmadığına görə o, bəzi ərazilərin geri qaytarılmasında israr edirdi. İran səfiri Peterburqda Fətəli şahın ərazi maraqlarını həyata keçirməyə müvəffəq ola bilməmişdi. A.P.Yermolova Gülüstan müqaviləsi üzrə sərhədlərin dəqiqləşdirilməsini tezliklə başa çatdırmaq və eyni zamanda Rusiyanın maraqlarını zədələmədən bəzi torpaqların İrana güzəşt edilməsinin mümkün olub-olmadığına yerində əmin olmaq tapşırılmışdı. Aydındır ki, Əlahəzrət İmperatorun səfiri İrana torpaq güzəştinin həqiqətən heç cür mümkün olmadığına əmin olmalı idi və onun boynuna belə bir əminlik əsasında İranın düz paytaxtında İrandan qoparılmış ərazilərin qəti şəkildə Rusiyaya birləşdirilməsinə şahın razılığını almaq vəzifəsi qoyulmuşdu.

İranda rus səfirini intizarla gözləsələr də, onu qəbul üçün təntənəli hazırlıqlar görsələr də, bütün bunlar hərbi isteriyanın güclənməsinə, bu ölkədə qoşun toplanılması işinin sürətləndirilməsinə heç cür əngəl törətmirdi. Şahın yaxın əyanları, xüsusilə ruhanilər və xalq arasında aqressiv düşüncə getdikcə intensiv şəkildə artırdı.

General Yermolov bunu əvvəldən də bilirdi, amma İrana səfəri zamanı bu ölkənin müharibəyə hazırlaşması, onun hərbi gücü və Rusiya ilə müharibəyə başlamaq ehtimalı ilə bağlı real vəziyyəti öz təcrübəli əsgər gözü ilə qiymətləndirmək istəyirdi.

Əgər hərbi əməliyyatlar general Yermolovun başçılıq etdiyi səfirliyin İranda olduğu dövrdə başlasaydı, onda hətta səfirliyin İranda tutulub saxlanılmasının mümkünlüyü də istisna edilmirdi.

İrana səfər zamanı yolda məşhur döyüş generalı Yermolovun başından çox fikirlər keçirdi, ancaq o, bunlara bir müddət ara verməli oldu.

1817-ci il mayın 11-də general Yermolovun səfirlik korteji Naxçıvana gəlib çatdı, burada uzun illər Yaxın Şərqdə öz müdrikliyi, igidliyi və heç kimə boyun əyilməzliyi ilə məşhur olan İran təbəəsi, əfsanəvi kor **Kalbalı xan Naxçıvanski ilə** görüş nəzərdə tutulmuşdu.

GENERAL YERMOLOVUN KALBALI XAN NAXÇIVANSKİ İLƏ GÖRÜŞÜ

Son 20 il ərzində rus hərbi məlumatlarında kor Kalbalı xanın adı tez-tez hallanırdı, həm də Yaxın Şərqdə, hərəkətləri rus hərbi rəisləri tərəfindən bu qədər qeyri-birmənalı və ziddiyyətli qiymətləndirilən ikinci bir şəxsiyyət olmamışdı, rus zabitləri öz vəzifə borclarına uyğun olaraq Kalbalı xan Naxçıvanskinin niyyət və fəaliyyətləri barədə Rusiya sarayına məlumat verməyə məcbur idilər.

Naxçıvanda qısa bir müddətə dayanan general Yermolov 1817-ci il mayın 11-də arzusunu həyata keçirib, **Kalbalı xan Naxçıvanski** ilə uzun-uzadı görüşdü. Bu iki məşhur şəxsiyyət bir-biri haqqında çox şey eşidib bilsələr də bu vaxta qədər heç yerdə görüşməmişdilər. İndi fürsət düşmüşdü və general Yermolov bu fürsəti əldən buraxmaq istəməmişdi. Xanın iki şahla şəxsi tanışlığı, onların yaxın ətrafları, şah sarayının adətləri və qayda qanunları barədə məlumatları, şahın ordusu, onun qoşunlarının döyüş qabiliyyəti bir çox digər şeylər haqda bildikləri general Yermolovun kifayət qədər dolğun bilgi baqajını daha da zənginləşdirə bilərdi. Lakin, məlum olduğu kimi, Aleksey Petroviç kor Kalbalı xana böyük ehtiram bəslədiyi üçün onu bu cür sorğu-suallarla yormağa cəsarət etmədi. Kalbalı xan general Yermolova Yaxın Şərqdə məşhur və nüfuzlu bir şəxsiyyət kimi maraqlı idi.

General Yermolovun məzmunlu qeydlərini oxuyarkən, istər-istəməz özünü o uzaq həyəcanlı dövrdə hiss edirsən. Hər şeydən aydın görünür ki, Aleksey Petroviç Yermolov, üsyankar həyatının və göstərdiyi çoxsaylı igidliklərin əksər hissəsinin artıq arxada qaldığı bu güclü, əyilməz, nüfuzlu şəxsiyyətə böyük rəğbət və eyni dərəcədə təəssüf hissi ilə yanaşır.

A.P.Yermolovun İranda səfirlik etdiyi dövrdən bizi az qala iki yüz il ayırır. Xırda, muncuq xətti ilə yazılmış əlyazma mətni, o dövrün qrammatikası, general Yermolovun özünəməxsus ifadə üsulu – bütün bunlar adamda belə fikir oyadır ki, bəlkə biz "A.P.Yermoluvun qeydləri"ni qavramaqda çətinlik çəkir, onu düzgün anlamırıq. Nəşr olunmuş "Qeydlər"ə artıq onun oxunulmasını asanlaşdıran bəzi düzəlişlər edilsə də, biz A.P.Yermoluvun öz əli ilə apardığı yürüş jurnalını olduğu kimi dərc etmək qərarına gəldik.

"**17 aprel**. Yola çıxmağımla bağlı bütün lazım olan göstərişləri vaxtında verib, Tiflisdən İrana yola çıxdım. Səfirliyi təşkil edən bütün məmurlar general-mayor Kutuzovun yanında vida ziyafətindən sonra kilsəyə getdilər, Mitropolit Varlaam orda ibadət ayinini yerinə yetirib, onların yola çıxmasına xeyir-dua verdi. Gürcüstanın Knyazlarının və əyanlarının çoxu məni şəhər kənarına, bəziləri isə gecələdiyimiz Koda kəndinə qədər yola saldılar.

30 aprel. Talın. Səfirlik nəzdində baş pristav (mehmandar) təyin edilən, Napoleon dövründə Parisdə səfir olmuş Əsgər xan bura gəldi*.

17 may 1817-cil il. Naxçıvan şəhəri. Bu, çox da böyük olmayan əyaləti idarə edən xan çox şən və son dərəcə nəzakətli insandır, hazırda şahlıq edən sülalənin əsasını qoyan cinayətkar Ağa Məhəmməd xanın İrana ağalıq etdiyi dövrdə gözləri çıxarılıb. Mənim onun bu zavallı halına xüsusi ehtiramla acımağım onu çox kövrəltdi.

Tiranın qəddarlığı barədə acı şikayətlər yüksəldi. Kölə və-

* Əsgər xan Əfşar – Ağa Məhəmməd xan Qacarın yürüşü zamanı Kalbalı xanın silahdaşı



Əlahəzrət İmperatorun
İran səfiri general-
leytenant A.P.Yermolov

ziyyəti insanı təhqir hissindən məhrum etmir, əgər tale bəzən insana qarşı sərt olursa, xeyirxah təbiət təhqir hissinin acısını intiqam ümidi ilə yumşaldır. Ancaq artıq çox yaşlanan, qocalığa doğru gedən, gözlərindən məhrum edilən, iyirmi ildir öz yaxın təbəələrindən uzaq salınan bu zavallının belə bir təsəllisi ola bilməz. Ehtiyatkar Hökumət onun oğlunu sadiqlik üçün girov saxlayır. Daha mülayim bir hakimiyyət altında yaşayan və azadlığın nəşəsini duyan bir insan belə görüşlər zamanı nə cür yeni hisslər keçirir.

Burada, düşmənlər arasında azadlığın qədrini bilməyi, ona pərəstiş etməyi öyrənmək lazımdır. Burada Şahların öz təbəələrinə qarşı bütün hədləri aşan hakimiyyətini görüb dəhşətə gəlirsən, özləri özlərinə hörmət etməyən, insan ləyaqətini duymayan təbəələrə təəssüf hissi ilə baxırsan. Mən öz sevimli vətənimə yüz dəfə alqış oxuyuram və mənim İran Hökumətinə qarşı duyduğum nifrəti ürəyimdə heç nə yumşalda bilməz.

Məni yola salan iranlılar mənim bu təziyəmə qəribə baxırdılar: bu kölələr yaltaqlıqdan, sanki, adamı gözləri ilə yeməyə hazır idilər.

Naxçıvandan bir az aralıda, Araz çayının sahilində Abbasabad adlı yeni bir qala tikilib və gördüyüm qədəri o tikilərkən Avropa sənətinin qaydalarına riayət olunub.

13 may 1817-ci il. Arazın o tayında, çayın lap qırağında gecələdik. Çay Naxçıvan Xanlığı ilə İranın bir çox xanlıqlarını özündə birləşdirən Azərbaycan arasında uzunluğu on üç verst yarım olan sərhəd təşkil edir".

(РГАДА, f. 1406, s. 1, q. 345, v. 4-5)



Kor Kalbalı xan
Naxçıvanski
Rəssam Əsgər Məmmədov

Tiflisə geri qayıdarkən general Yermolov yenə Naxçıvanda dayanır. Vətən müharibəsinin qəhrəmanı, İrana səfir göndərilən Aleksey Petroviç Yermolov və kor, amma gözü salamat olanlardan da uzağı görən Kalbalı xan Naxçıvanski yenə, həm də iki dəfə görüşməli olurlar. Xanla mehriban görüşlərindən aldığı təəssüratları Aleksey Petroviç Yermolov həmin "Qeydlər"ində təsvir edir.

"**24 sentyabr 1817-ci il. Naxçıvan şəhəri**. Burada məmnunluqla kor Xanı gördüm, zira bu hakimiyyətin iyrəncliyini bütün gücü ilə yalnız o duyur, ancaq çıxılmaz vəziyyət onu bu hakimiyyətə tabe olmağa məcbur edir. Təkcə o, cəsarətlə onun haqqında fikir yürüdə və iranlıların özlərinə Rusiyanın üstünlüklərini tərifləyə bilir. O, mənim onun zavallı vəziyyətinə ehtiram göstərdiyimi görərək, mənə etibar edib mənimlə açıq danışır, ona qarşı edilən vəhşilikdən qəlbinin amansızlaşdığını gizlətmir və intiqam imkanından məhrum olduğuna heyifsilənir. Ağa Məhəmməd xan onu gözlərindən məhrum edib və onu zərbə endirməyə hazır olan güclü qolu zülmət içində azıb qurbanını tapa bilmir!

Xanlığa bu yaxınlarda qaytarılan bu adam onun abadlaşmasının qeydinə qalır, tabeliyində olanları hamıdan daha az sıxıntıya salır və özü məhrumiyyətlərə səbirlə dözür, iyirmi ildir ən ağır kasıblıq içində yaşayır. Mən ora qayıdanda öz evində mənə bir neçə otaq ayırmağa tələsdi, ancaq çox vaxtı yox idi.

"Burada, – o, pəncərənin önündə əyləşib, mənə deyirdi, – bir vaxtlar, Araz boyu uzanıb gedən bu gözəl vadinin zənginliyindən böyük zövq alardım: o, geniş bağlar və meşələrlə örtülü idi, çoxsaylı əhali onu həmişə təzə-tər saxlayardı. İndi mənə danışırlar ki, o, artıq səhraya çevrilib, əvvəlki zənginlikdən indi onda əsər-əlamət belə yoxdur. O xatirələr kor olduğuma görə çəkdiyim dərdi azaldır və mən tez-tez taleyimə şükür edirəm ki, əcdadlarımın idarəçiliyi altında üç əsr boyu xoş günlər yaşayan bu torpağın belə viran olduğunu görməyim deyə gözlərimi qapadıb.



Araz çayı Azərbaycanla İranı bir-birindən ayırır

Tayfadaxili müharibələr və Nadir şahın ordusunun yürüşləri bu zavallı torpaqları viranəyə çevirib, bu qəsbkarın hər bir addımı xalqına fəlakət gətirib. Rus qoşunları da bir müddət əvvəl burda olub, lakin onlar bizim torpağa göz yaşı tökdürməyib və mənim həmvətənlərim onları nifrətlə xatırlamır. İndi Siz, dünyanın ən güclü dövlətinin səfiri, mənə böyük iltifat göstərib, mənim bu kasıb komama xor baxmadan, sizi bir dost kimi qəbul etməyimə imkan verirsiniz. Cənab səfir, Sizin Hökmdarın dəfedilməz qoşunları qalib kimi bu ölkəyə girəndə də bu rəğbət hissinizi dəyişməyin.

Mən artıq qocalığa doğru gedirəm, amma o hələ mənim gücümü sarsıtmayıb və mən ömrümün son günlərini Sizin silahın müdafiəsi altında dinc keçirəcəyəm. Hansısa bir hiss məni buna inandırır, zira, iranlıları tanıdığım üçün, mən onların, sizin bu qədər qurmağa çalışdığınız dostluğunun möhkəmliyinə güvənmirəm. Şübhə etmirəm ki, onlar onu öz xəyanətləri ilə pozacaqlar, yaxud da Sizi, xəyanətin intiqamını almaq üçün onu pozmağa vadar edəcəklər.

25 sentyabr 1817-ci il. Xanla bir dəfə də görüşdüm və biz vidalaşdıq.

(РГАДА, f. 1406, s. 1, q. 345, s.əh 53-54)

İrana səyahətinin tarixi əhəmiyyətini dərk edərək, ehtiyatlı general A.P.Yermolov eyni zamanda həm də səfirliyin üç üzvünə yol qeydləri aparmağı tapşırmışdı. Səfirin özündən savayı səfirliyin marşalı, kapitan **Pyotr Nikolayeviç Yermolov** (səfir A.P.Yermolovun əmisi oğlu), səfirliyin müşaviri **A.E.Sokolov** və dəftərxana məmuru **Vasili Borozdnya** gündəlik qeydlər aparırdılar.

Səfir Yermolovun və səfirlik üzvlərinin görüşləri əsasında biz kor Kalbalı xan Naxçıvanskinin real obrazını yaratmağa çalışdıq.

SƏFİRLİYİN MARŞALI KAPİTAN P.N.YERMOLOV – SƏFİRİN KALBALI XAN NAXÇIVANSKİ İLƏ GÖRÜŞLƏRİ HAQQINDA

Rusiya Dövlət Qədim Aktlar Arxivində səfir A.P.Yermolovun əmisi oğlu, səfirliyin marşalı, qvardiya kapitanı **Pyotr Nikolayeviç Yermolovun** (1787–1844) gündəliyinin əsli saxlanıb.

P.N.Yermolovun gündəliyinin zamanın təsirindən sapsarı saralmış vərəqləri əlyazma mətninin qismən itməsi və artıq istifadədən çıxan sözlərin çoxluğu ucbatından bizi, sözün hərfi mənasında, hər bir kəlmə üzərində xeyli əziyyət çəkməyə məcbur etdi. Bununla belə, bizə, ilk baxışdan o qədər də əhəmiyyətli olmayan faktların təsvir olunduğu qeydlərinə görə N.P.Yermolova minnətdarıq, çünki bu faktlar bizə tarixi şəxsiyyət olan Kalbalı xanın gerçək obrazını yenidən bərpa etməyə böyük köməklik göstərmişdir. Görünür ki, ehtiyatlı adam olan Pyotr Nikolayeviç Yermolov gördüyü hər şeyi qeydə almağa çalışmış, az qala iki yüz ildən sonra bizim həqiqət naminə bu qaralama qeydlərin şifrəsini açamq məcburiyyətində olacağımızın qayğısına qalmışdır. Bu qaralama qeydlər bizim üçün dəfələrlə redaktə olunan və sonra Yermolovun 1817-ci ildəki İran səfirliyinə həsr edilən saysız-he-

sabsız ədəbiyyat mənbələrində çap edilən qeydlərdən daha qiymətlidir. Vahid plan əsasında yazılan bu qeydlər, öz müəlliflərinin qavrayış gücündən asılı olaraq, əlbəttə ki, müəyyən fərqliliklərə malikdir, ancaq onların hamısı bir yerdə həqiqi mənzərəni təkrar yaratmaqda bizə xeyli kömək etmişdir.

11 may 1817-ci il. Saat 7-də Xok kəndindən çıxdıq. Çox isti bir gün idi, yol da xeyli uzaq. İki ağac yol gedəndən sonra sol tərəfdə İlandağ adlanan bir dağ gördük. Burada xalq arasında belə bir əfsanə gəzir ki, bu dağdakı ilanlar Ağrıdağda yaşayan ilanlarla davaya gedirmişlər.

Naxçıvandan 10 verst aralıda səfir Yemolovu Naxçıvan xanın uşaqları qarşıladı, 6 verstliyində isə süvari dəstəsinin müşayiəti altında **Kalbalı xan Naxçıvanskinin** özü qarşımıza çıxdı.

Kalbalı xan xalqın israrlı tələbinə əsasən Naxçıvan əyalətini idarə etmək üçün buraya üç ay əvvəl göndərilib. Xan Naxçıvanın qədim hakimlərinin nəslindəndir. 20 il bundan əvvəl İran şahı Ağa Məhəmməd xanın əmri ilə xan gözlərindən və Naxçıvan xanlığından məhrum edilib.

Cənab səfir xanı atdan düşüb ekipaja minmək üçün dilə tutsa da, qoca bundan imtina etdi. Kor olsa da səfirin mənzilinə qədər at belində çox gümrah getdi.

Səfirlə görüşün təntənəsini hiss etdirmək üçün Xanın nəvəsi çox sayda atlı ilə birlikdə bütün yol boyu şəhərə qədər səfirin önündə çapdı. Onlar atlarını çox sürətlə çaparaq, tüfəng və tapançadan çox məharətlə atəş açırdılar. Xanın mühafizəsi və digər atlılar səfirdən qabaqda çapır və qonaqlara at sürməyin və cigitliyin gözəlliyini nümayiş etdirirdilər.

Bizim üçün bu yaxınlarda Xanlığın idarəçiliyindən uzaqlaşdırılan Kərim xanın özü üçün tikdirdiyi evi ayırmışdılar. Kərim xanın evi hələ tam tikilib qurtarmayıb, ancaq səfirliyin bütün tərkibi ona rahat yerləşdi. Ev Asiya üslubunda tikilsə də, gözəl görünür.

12 may 1817-ci il. Saat 11-də gündüz səfir bir neçə məmurla Xanı ziyarət etdi. Kor qoca bizi qarşılamaq üçün həyətə çıxmışdı. Onun otaqları çox sadədir. Hələ bir neçə aydır ki, xanlığı idarə edir, buna görə də kasıbdır.

Kalbalı xan və bizim pristav Əsgər xan bizə Ağa Məhəm-

məd xanın qoşunları ilə birlikdə çıxdıqları yürüşlərdən danışdılar. Qəsrin girişində çox hündür bir qüllə gördük, böyük qübbəsi vardı, Tamerlan tərəfindən tikilib, burada onu Ləng Teymur, Axsaq Teymur adlandırırlar. Bu qüllə müşahidə və siqnal vermək üçündür.

Naxçıvan xeyli qədim şəhərdir, keçmişdə burda 30 minə qədər ev olub. Onun adı "ilk kənd" tərcümə edilir, iranlılar Naxçıvanı "**Nəqşicahan"** adlandırırlar, bu da "dünyanın təsviri" deməkdir, ancaq bu "Nəqşicahan" artıq öz qədim möhtəşəmliyini xatırlatmır, zira burda xarabalıqlardan və gözəl bağlardan savayı heç nə görünmür. Tarixlərdə yazırlar ki, bu əyalət yaxşı üzümlə zəngindir, ancaq biz onu görə bilmədik, çünki bizə verilən şərab çox pis idi.

Buraya yaxın bir yerdə, Arazın sol sahilində düzgün **Abbasabad** qalası var. O, iki fransız mühəndisin layihəsi əsasında möhkəmləndirilib və onda kifayət qədər əhəmiyyətli bir qarnizon yerləşdirmək olar.

13 may 1817-ci il. Səhər tezdən saat 7-də Naxçıvan şəhərindən çıxdıq. Bir saatdan sonra kiçik bir çaya çatdıq, böyük bir daş körpünün dağıntıları boyu onun dayaz yerindən keçdik".

İrandan geri qayıdarkən 1817-ci il sentyabrın 25-də səfirliyin Naxçıvanda dayanmasını P.N.Yermolov sadəcə bir neçə kəlmə ilə təsvir edir.

25 sentyabr 1817-ci il. Naxçıvana gəldik. Elə bu gün səfir Hökmdar İmperatora İrandan qayıtmağı barədə məlumat çatdırmaq üçün Peterburqa kuryer göndərdi.

26 sentyabr 1817-ci il. Səfirlik Tiflisə yolunu davam etdirdi. Dörd ağac getdikdən sonra İrana gedərkən yolda ölən səfirlik xidmətçilərindən birinin dəfn edildiyi dağıdılmış kəndə çatdıq... İranlılar orada qiymətli paltar tapa biləcəklərini güman edərək onun qəbrini eşmişdilər...

(РГАДА, f. 1406, q. 346-346 a, v. 14-16, 167)

SƏFİRLİYİN MÜŞAVİRİ A. E. SOKOLOV – KALBALI XAN NAXÇIVANSKİ İLƏ GÖRÜŞLƏR HAQQINDA

Qədim Aktlar Arxivindən kənarda bizə Rusiya-İmperator səfirliyinin 1816–1817-ci illərdə İrana səyahəti haqqında "Gündəlik qeydlər" adlı bir əlyazmasını tapmaq müyəssər oldu, bu əlyazmanın müəllifi Rus səfirliyinin müşaviri A.E.Sokolovdur.

Sokolovun gündəlik qeydləri və onun bu qeydlərə əlavə etdiyi *"Etiket və Rusiya-İmperator səfirliyinin Təbrizdə, Sultaniyədə və ümumiyyətlə İrana səyahəti zamanı başına gələn digər hadisələr barədə"* şərhlər İran həyatı haqqında maraqlı təfərrüatlarla zəngindir. A.E.Sokolovun materialları səfir A.P.Yermolovun şəxsən apardığı səfirlik jurnalında yox idi. Biz onlardan yalnız qismən, xüsusilə Naxçıvan qeydlərindən istifadə edə bildik.

13 mart 1817-ci il. Səfirlik Xoniyə qədər səyahəti davam etdirdi. O yerə çatmamış, yolun yarısında Naxçıvan xanın qardaşı oğlu Maqsud xan kiçik bir süvari dəstəsi ilə səfiri qarşılamağa gəldi.

11 may. Naxçıvan şəhərinə qədər getdik. Yolun yarısında Naxçıvan xanının digər iki qardaşı, qardaşı oğlu və nəvəsi kiçik süvari dəstəsi ilə bizi qarşılamağa gəldi. Şəhərə 4 verst qalmış səfiri öz məiyyəti ilə birlikdə Kalbalı xan özü qarşıladı (İranda indiki Fətəli şahdan əvvəl şahlıq edən Ağa Məhəmməd xan tərəfindən onun gözləri çıxarılıb), bir verst qalmış isə üzbəüz cərgə ilə yerli qoşun düzülmüşdü.



Kalbalı xan döyüş zamanı
Rəssam Əsgər Məmmədov

Xan öz məiyyəti ilə birlikdə səfiri yaxınlıqda düşərgə quran komanda və arabalardan

savayı səfirlik üçün ayrılmış mənzilə ötürdü. Bu ev Kalbalı xandan əvvəlki və onun qardaşı olan xana məxsus idi.

12 may. Bu gün istirahət günüdür. Səhər tezdən səfir öz məiyyəti ilə birlikdə bizi qonaq çağıran Kalbalı xanı ziyarət etdi.

13 may. Səhər tezdən səfirlik Naxçıvandan çıxdı. Kalbalı xan səfiri şəhərdən çıxanadək ötürmək niyyətində idi və bunun üçün yanına gəlmişdi, ancaq Alihəzrət onu evinə qayıtmağa inandıra bildi. Kalbalı xanın iki qardaşı süvari konvoyunun müşayiəti altında səfiri Araz çayını keçənədək ötürdü...

23 sentyabr 1817-ci il... Düz Arazın sahilində səfiri Kalbalı xan Naxçıvanskinin oğlu qarşıladı və əlahəzrəti Naxçıvana qədər ötürdü.

24 sentyabr. Naxçıvana qədər gediş.

25 sentyabr. Günortaya yaxın səfir Naxçıvan vilayətini idarə edən kor Kalbalı xanı ziyarət etdi, əlahəzrət buraya gəliş ərəfəsində, şəhərə girməmişdən qabaq tərcüməçi Mədətovla ona salam göndərmiş, əvvəlki kimi əziyyət çəkib onu qarşılamağa çıxmamasını xahiş etmiş və səfirin Araz çayı sahilində onun – xanın oğlu ilə görüşdə ona göstərilən nəzakətdən razı qaldığını bildirmişdi...

26 sentyabr. Səfiri yola salmağa gələn Kalbalı xanla vidalaşaraq əlahəzrət Naxçıvandan çıxdı...

(«Чтение О. И. Д. Р.», 1873, kitab 4)

SƏFİRLİYİN MƏMURU VASİLİ BOROZDNYA – NAXÇIVAN VƏ KOR KALBALI XAN HAQQINDA

1817-ci il mayın 10-da Şəruru geridə qoyub burada bir çox qola və əyri-üyrü axıntılara ayrılan dərin Arpa çaydan keçdik. Bu əyri-üyrü axıntılar arasında heç bir yol nişanəsi yoxdur, onu suyun dayazlığına və keçmə rahatlığına görə seçirsən. Sonra hamar yol təmiz bulaq suyu ilə suvarılır. Yolun hər iki tərəfindəki dağıdılmış kəndlər ətrafa yayılmış ləkə kimi görünür, çox da uzaqda olmayan Xok kəndinin sol tərəfində nəhəng bir karvansaranın qalıqlarını görürük.

Şərurdan Xok kəndinə qədər dörd fərsəng yarım yol var. Orada bizim üçün düşərgə düzəldilib. Burada səfiri Naxçıvan xanının **Maqsud xan** adlı qardaşı oğlu qarşıladı.

Xokda, bir çox digər İran kəndlərində olduğu kimi, palçıqdan tikilmiş, qülləli, çaxnaşma zamanı sakinlər üçün sığına-

caq kimi istifadə olunan kiçik qala var...

Mayın 11-də biz yolumuzu alçaq dağlardan keçən, bir qədər daş-kəsəkli, amma xeyli rahat yolla davam etdirdik. Torpaq burada qum-boz rəngdədir və görünür ki, taxıl əkmək üçün yararlıdır, çünki burada taxıl çox yaxşı bitir. Yolun yarısında səfiri Naxçıvan xanının iki qardaşı və kiçik yaşlı nəvəsi atlı dəstəsi ilə qarşıladı, onlar sürətlə at belində çapır, tüfəng atır, öz cigitliklərini göstərirdilər. Naxçıvandan bir fərsəng aralıda bizi vilayəti idarə edən, indiki şahdan əvvəlki şah – Ağa Məhəmməd xan tərəfindən gözləri çıxarılmış **Kalbalı xanın** özü qarşıladı. Ordan başlayaraq yolun hər iki kənarına yerli qoşun düzülmüşdü. Naxçıvanda səfirlik üçün bundan əvvəl bu vilayəti idarə edən Kərim xanın evi ayrılmışdı.

Sonrakı gün **mayın 12-də** əlahəzrət öz məiyyəti ilə birlikdə Kalbalı xanı ziyarət etdi, hərçənd nəzakət naminə o özü bunu etməli idi, lakin onun yaşına və zavallılığına hörmət edərək, səfir Xanı birinci ziyarət etmək qərarına gəldi. Bizi bənövşəyi suda hazırlanmış qəhvə və çaya, şirniyyata, şərbət və arağa qonaq etdilər, araq çox pis olsa da, onu bol verdilər. Zavallı vəziyyətdə olmasına baxmayaraq, həmin xan şən adamdır və hazırcavab adamdır: onun söhbətləri məzəli lətifələrlə dolu idi. Bu ziyafət zamanı pəncərədən səfirliyin musiqisi eşidilirdi.

Elə həmin gün mən geniş əraziyə yayılmış şəhəri gəzməyə çıxdım, ancaq şəhərin böyük hissəsi xarabalıq içində idi. **Kalbalı xanla Kərim xanın** evlərindən başqa iri tikililər yox idi. Bir neçə məsciddən savayı, digər evlər çox alçaqdır və palçıqdan tikilib, bəzi yerlərdə onları bağlar dirildib cana gətirir. Naxçıvançay adlanan xırda çay şəhərin ortasından keçir. Onun üzərində salınmış körpüdən gözəl mənzərə açılır: bir neçə qollu-budaqlı ağac öz budaqlarını düz çayın düz üzərinə sallayır, kiçik adacıqlarda olan digər ağaclar isə yaxında yerləşən xırda evlərə sərinlik yayır. Naxçıvançay müxtəlif ölçülü daşların üstü ilə axaraq, körpünün yanında əla bir şəlalə yaradır. Onun yaxınlığında bazar var, burada sakinlərin tələbatı üçün zəruri mallar satılır, xanın evindən bir az aralıda isə, bir qədər uçuq, amma hündür, Tamerlanı, məğrur Şərq fatehini xatırladan bir qüllə dayanır, onu məhz Tamerlan özü ucaldıb.

Şəhərin o biri başında iki tərəfindən xəndək çəkilən və müzəffər rus qoşunlarının dağıtdığı palçıq qala, onun içərisində

isə az saylı yaşayış evlərinin qalıqları görünür. Xəndək çürümüş insan sümüyü və kəllələri ilə doludur.

Qalanın yanında torpağa çökmüş çox da iri olmayan bir günbəzin qalıqları var, əhali arasında yaşayan əfsanəyə görə **burda Nuh peyğəmbər dəfn olunmuşdur.**

Naxçıvan şəhərinin əhalisi məlum deyil, ancaq mənə dedilər ki, şəhərdəki ailələrin sayı təxminən minə yaxındır. Əvvəlki Xok kəndindən bu şəhərə dörd fərsəng yarım yoldur.

Mayın 13-ü. Naxçıvandan çox erkən çıxdıq.

Yolun kənarlarındakı dağlar dağıdılmış binaları xatırladır, onların ibarət olduğu gilin isə gözəl rəng çalarları vardır.



İlan dağı

Biz, hələ Şərurdan görünən İlan dağına yaxınlaşdıq, indi o, yolun sol tərəfindədir. Gövdəsi nazik olsa da, o, kəllə qəndə bənzər bir şəkildə göyə ucalır, günəş şüaları üzərinə düşəndə isə ətrafa əla mavi rəng çalarları açır.

İranlılar bu dağın adının mənşəyi barədə aşağıdakıları danışırlar:

Bir-biri ilə barışmaz düşmən olan iki ilan nəsli elə bir qanlı döyüşə girməyə qərar verirlər ki, bu, onlardan birinin tamam qırılması ilə bitməli imiş. Döyüş həmin dağda baş verir və o vaxta qədər davam edir ki, bu çoxsaylı və cəsur döyüşçülərdən yalnız biri – qalib ilan sağ qalır. O qədim hadisənin şərə-

finə bu dağ İlandağ adlanır.

Sonra kiçik dağlar dəfiləsinə gəlib çatdıq, onların bəzilərinin torpağı daşlı, bəzilərininki isə gillidir. Burda Naxçıvançay və Əlincəçayı dayaz yerdə keçdik. Dərəni arxada qoyub, yolumuzu Araz çayına doğru davam etdirdik. Artıq Ağrıdağ bizim görüş məsafəmizdən çıxıb itmişdi.

Burdan bir az aralıda qədim Culfa şəhərinin qalıqları yerləşir. Arazı bir qismimiz böyük qayıqlarda və digər qismimiz kiçik sallarda keçdik. Üzə bilməsi üçün bu sallara tuluq bərkidirlər.

Arazın o tayında bizi buraya, Naxçıvan xanlığı ilə sərhəd olan Mərənd xanlığı tərəfindən göndərilən atlar, qoşqu atları və dəvələr, həmçinin azuqə və çadırlar gözləyirdi.

Düşərgəmiz Arazın lap qırağında qurulmuşdu...

(Краткое описание путешествие Российско-Императорского посла в Персии в1817 году В. Бороздни, СПб., səh. 60-65)

ƏLAHƏZRƏT İMPERATORUN SƏFİRİ A.P.YERMOLOV İRANDA

Rusiya Sarayının güman etdiyi kimi, İmperator I Aleksandrın sülhsevər niyyətləri səfirin fəaliyyətinin əsasını təşkil etməli və onun davranışı Hökmdar İmperatorun bu niyyətlərinə heç bir xələl gətirmədən İranla dostluğun möhkəmləndirilməsinə yönəlməli idi. A.P.Yermolovun çılğın, həssas və inadkar xarakterə malik olduğunu bilən Hökmdar İmperator 29 iyul 1816-cı il tarixli xüsusi təlimatı ilə səfir A.P.Yermolova İran etiketlərinə ciddi surətdə riayət etməsini məsləhət görmüşdü.

"Xarici İşlər Nazirliyi... İran sarayı və şah ailəsi ilə bütün görüşlərinizdə... riayət etməli olacağınız etiketə dair bəzi qeydləri xüsusi şərh edəcəkdir... Asiyanın mərasim qaydalarında bir çox elə şeylər var ki, öz qeyri-adiliklərinə görə çox vaxt avropalılar üçün ədəbsiz görünür. Belə hallarda yola gələn olun, zira nəyin sadəcə adətə aid olduğunu, ləyaqətə təhqir sayıla bilinən şeylərdən fərqləndirmək çətin deyil..."

(AKAK, c. 6-2, səh. 127)

Ancaq, nə edəcəyi bilinməyən Aleksey Petroviç Hökmdar İmperatorun məsləhətlərinə heç də həmişə riayət etmirdi və belə hallarda öz hərəkətlərinə Rusiya İmperatorunun fövqəladə səfirinin və bütün Rusiya dövlətinin ləyaqətinin müdafiəsi ilə haqq qazandırırdı. Artıq 1817-ci il mayın 19-da şah taxtının vəliəhdi Abbas Mirzənin oturduğu Təbriz şəhərinə gələrkən, general Yermolov o vaxtlar şah sarayında tətbiq edilən diplomatik mərasim qaydasının özünəməxsus tələbləri ilə üzləşdi. Məsələn, taxt-tacın varisi, vəliəhd Abbas Mirzənin otağına ayağı çəkməli girmək olmazdı, onları çıxarmaq və qırmızı corab geymək gərəkirdi. Həm də özü əyləşmiş olan vəliəhdin hüzurunda ayaq üstə dayanmaq lazım idi. Bundan əlavə, şahzadənin otağına səfirin müşavirlərindən savayı heç bir digər məmur girə bilməzdi. Onlar həyətdə, pəncərənin altında dayanmalı idilər. İran Sarayına xoş gəlmək, İranın birinci şəxslərinin etibarını qazanmaq üçün Avropa dövlətlərinin bir çox səfirləri bu şərtləri müqəddəs bir şey kimi yerinə yetirirdilər. Məsələn, şəxsən Napoleon Bonapart tərəfindən İrana səfir göndərilən general Qardan İran etiketinin tələblərini qeyd-şərtsiz yerinə yetirərək, Abbas Mirzənin yanına qırmızı qalpaqda və qırmızı corabda girmişdi. Amma Rusiya generalı Yermolov bu etiketi yerinə yetirməkdən qəti imtina etmiş, İran Sarayı taxt-tacının varisini az qala çox çətin vəziyyətdə qoymuşdu, lakin sakit və ağıllı Abbas Mirzə situasiyanı gərginləşdirmədən və həm də bu qədim etiketin özünü pozmadan vəziyyətdən çıxış yolu tapmışdı *(AKAK, c. 6-2, səh. 122).*

Yermolovun etiketə uymaqdan imtina etməsini öz şurasında bir xeyli müzakirə etdikdən sonra Abbas Mirzə səfir A.P.Yermolovu və onu müşayiət edənləri öz otağında deyil, qəbul binasının önündə və indiyə qədər heç bir çəkmənin üstünə çıxmadığı xalısının üzərində əyləşmiş halda yox, daxili həyətin daşlı meydançasında, pəncərənin önündə, öz valideyninin portretinin altında ayaq üstə dayanmış halda

qəbul etmək qərarına gəldi. Taxt-tacın varisi ilk dəfə və yalnız Rusiya İmperiyasının səfiri üçün belə bir xüsusi istisnaya yol verirdi.

1817-ci il iyulun 31-də Sultaniyyədə Əlahəzrət İran Şahı Rusiya səfiri A.P.Yermolovu ilk dəfə, səfirlik üzvlərinin və şahın yaxın ətrafının iştirakı ilə qəbul edərkən Rusiya səfiri öz etibarnamə fərmanını Fətəli şaha təqdim etdi və nitq söylədi.

"Ümumrusiya İmperatoru, mənim öz qayda və hissələrində daim sabit olan böyük Hökmdarım, Siz Əlahəzrətin gözəl keyfiyyətlərinə hörmət bəsləyərək, sizin şöhrətinizi sevərək, İran ilə möhkəm və həmişəlik sülh arzulayır.



Fətəli şah Qacar

Hökmdar İmperator Öz arzusunu Siz Əlahəzrətin önündə təqdim etmək tapşırığını mənə həvalə edib. Bütün İranın önündə Allahı onun səmimiliyinə şahid olmağa çağırıram!

Özümü yalnız Siz Əlahəzrətin yüksək lütfünə layiq görülmüş olduğu anda tam xoşbəxt hesab edəcəyəm."

(РГАДА, f. 1406, s. 1, q. 345, v. 53-54)

İran şahının və onun yaxın ətrafının ümumiləşdirilmiş portretlərini təqdim edirik.

"Hazırda şahlıq edən Fətəli şah 1772-ci il sentyabrın 5-də doğulub və 1834-cü il oktyabrın 23-də vəfat edib. O, 38 il–1797-ci il iyunun 27-dən 1834-cü il oktyabrın 23-dək şahlıq edib. Hazırkı şah Qacar tayfasındandır, Ağa Məhəmməd xan taxta çıxanadək bu tayfaya İranda böyük nifrət bəslənilib. Ağa Məhəmməd xan Qarabağda öldürüləndə, o vaxt Baba xan adlanan Fətəli şah Şirazın hakimi idi. Əmisinin ölüm xəbərini eşidən kimi təcili Tehrana yollanaraq, oraya vaxtında – hamının hələ qərarsızlıq içərisində olduğu və varis haqda heç nə bilmədikləri vaxtda – çata bilmişdi. Ağa Məhəmməd xanın birinci naziri və Tehranın hakimi Hacı İbrahimin köməyi ilə Baba xan bu şəhəri və onun, dövlət xəzinəsi və İrandakı əsilzadə ailələrinin xəzinələri saxlanılan

qalasını ələ keçirməyə müvəffəq olmuşdur.

Bu xəzinələrdən birincisi ona böyük partiya qurmaq üçün xidmət etmiş, ikincisi İranın ən əsas məmurlarının sədaqət girovuna çevrilmişdir. Baba xanın xoşbəxtliyindən onun rəqibləri nüfuzlu adamlar olmamışlar. Onların ən başlıcası Sadıq xan Şaqaqlı zəif adam idi, onun qoşunları döyüşdə darmadağın edilmiş, özü isə qaçıb şaha tabe olmayan Şirvan əyalətində gizlənmişdi. Yeni şahın hiyləgərliyi sayəsində, o, İrana gətirilmiş, şahın əmri ilə diri-diri divara hörülmüşdür.

Məğrurluqda ona bənzər hökmdar olmamışdır. Nifrət edilən qacarların bu törəməsi Şir, Günəşin qardaşı, Şahlar şahı və İran padşahı adlanır. Heç kim şahın otağına ayaqqabılı girə bilməz. Yalnız 1817-ci ildə Rusiya səfirliyi üçün belə bir istisna edilib, səfir və onun məiyyəti şahın otağında çəkmədə olublar. Digər avropalılar isə o vaxta qədər bu adətə riayət ediblər və indi də riayət edirlər.

Fətəli şah xeyli hündür adamdır, zahiri görkəmi yaraşıqlıdır, sifəti arıqdır, uzun və hədsiz əyləncələri əks etdirir. Şahın saqqalı xeyli uzundur, uzun və qara saqqal İranlılar tərəfindən gözəllik əlaməti hesab olunduğu üçün şah öz saqqalı ilə də onların rəğbətini qazanıb.

Belə hesab edilir ki, şahın 500 arvadı var. Onların hamısı çox yaxşı saxlanılır, arvadı sayılmayan, amma ana olan cariyələrə belə xüsusi qulluq və qayğı göstərilir.

Şahın övladları çoxdur və hər il onun ailəsi artmaqda davam edir, bəzən birdən beş və ya altı övladı doğulur, buna görə də onun neçə övladı olduğu dəqiq məlum deyil. Oğullarına gəldikdə isə, 1817-ci ildə A.P.Yermolovun səfirliyinin İranda olduğu vaxt onların sayı 45 idi, şahın qızlarının miqdarı o qədər də ciddi hesablanmır, belə güman edilir ki, onların sayı oğlanların sayına bərabərdir.

Böyük oğullar müəyyən yaş həddinə çatdıqdan sonra dövlət məmuru təyin edilərək, dövlət idarəçiliyinə buraxılırlar. Yermolovun İranda səfirliyi dövründə ən yüksək dövlət vəzifələrində və bilavasitə şahın yanında onun yeddi oğlu çalışırdı.

Onlardan:

1. **Məmmədəli Mirzə** – Kirmanşahı idarə edir;
2. **Abbas Mirzə** – Azərbaycanı idarə edir;
3. **Həsənəli Mirzə** – Xorasanı idarə edir və şahın yanındadır;
4. **Hüseynəli Mirzə** – Şirazı idarə edir;

5. **Məmmədvəli Mirzə** – şahın yanındadır;
6. **Əlinağı Mirzə** – Qəzvini idarə edir;
7. **Abdulla Mirzə** – Zəncanı idarə edir;
8. **Məmmədtağı Mirzə** – Burucerdi idarə edir;
9. **Məmmədqulu Mirzə** – Mazandaranı idarə edir və s.

Şahın birinci oğlu, Kirmanşahın hakimi Məmmədəli Mirzə varislikdən uzaqlaşdırılıb, çünki, gürcü cariyədən doğulub. Varis kimi Abbas Mirzə təsdiq olunub, onun anası Qacar nəslindədir. Fətəli xanın xələfinin kim olacağına hələ qərar verilməyib, Abbas Mirzə Azərbaycanı idarə etsə də, İranın nizami qoşunlarının təşkili ona tapşırılsa da, adət və ənənələrə çox bağlı olduğu üçün iranlıların sevimlisi olan Məmmədəli Mirzənin şahın xələfi olmaq üçün böyük şansları var.

Şah sarayında ən nüfuzlu dövlət məmurları arasında aşağıdakılar məlumdur:

1. **Sədr-əzəm Mirzə Məhəmməd Şəfi** – Şahın böyük etibar və hörmət etdiyi və birinci vəzir. O, İranın ən zəngin adamlarından biridir, oğul övladı olmadığı üçün varisi Şahın onun qızına evlənəcək oğlanlarından biri olacaq.

2. Kaymakam və yaxud vəzirin zamini **Mirzə Məhəmməd Büzürg** – taxt-tacın varisi Abbas Mirzənin yanında olur, onun tərbiyəçisi olub, varisin yanında bütün işlərini o özü idarə edir.

3. **Mötəmidüt-dövlə** – İran taxtının müvəkkili, həm də **Münşi Ülma Malik Əbdülvahab** adlanır – İran hökumətinin dövlət katibi, 50 yaşlarındadır, ağıllı və fəndgirdir.

4. **Nizamüd-dövlə** – İran taxtının sərəncamçısı, **Hacı Məhəmməd Hüseyn xan, Nefaqan bəylərbəyi** – daxili işlər naziri, 50 yaşlarında, adlı-sanlı əyandır, ağıllı və zəngindir.

5. **Eşik ağası başı** – birinci general-adyutant və yaxud Şahın baş təşrifat məmuru **Allahyar xan**; gəncdir, Qacar nəslindəndir, şahın qızına evlənib, böyük nüfuz və hörmət sahibidir.

6. **Eşik ağası duum –** ikinci general-adyutant, Xoy xanın qardaşı **Mahmud xan,** 40 yaşında bir adamdır, Şahın lütfünə sahib olsa da, şərabı qadağan edən müsəlman dininin qayda-qanunlarına heç də həmişə riayət etmir. Zəngindir, vəzirin zaminidir.

7. **Nasakçı başı** – Şahın İcra hakimiyyətinin rəisidir, həm də **Pasakça** adlanır. İcra hakimiyyəti rəisinin ixtiyarında ona tabe olan bir neçə adam var. Onların fərqlənmə nişanı balta-

dır. Nasakçı – cəllad deməkdir. Onlar istənilən vaxt Şahın iradəsini yerinə yetirməyə və ölümə məhkum olunmuşların boynunu vurmağa hazırdırlar. Onların üstündə həmişə balta olur və Şahın təntənəli çıxışlarında, həmişə bir neçə nasakçı Taxtla üzbəüz dayanır. Oxucuları yormamaq üçün biz İran Şahının xüsusi əhəmiyyətli şəxslərinin siyahısını cəlladlarla bitiririk.

(РГАДА, f. 1406, s. 1, q. 351, v. 10-12)

Rusiya səfirliyinin əməkdaşları İran şahının taxtını və onun ətrafındakı şəraiti təsvir etmək fürsətini də əldən buraxmayıblar.

"... Çadırın daxili hissəsində kərpicdən 1 arşın boyunda hündür bir düzəldilmiş, üstünə şal xalçalar sərilmişdi. Onun bir küncündə qiymətli daş-qaşlarla bəzədilmiş taxt yerləşirdi, onların arasında qeyri-adi böyüklükdə olan beş zümrüd xüsusilə seçilirdi. Taxtın ətəyində qızıl lövhə üzərində oyulmuş şir şəkli vardı. Şahın iri zümrüd çiyinciklərı olan libası qızıl parçadan idi, başındakı tac isə zümrüd və qiymətli daşqaşla, üç almaz lələklə bəzədilmişdi. Yenə qiymətli daş-qaşlardan ibarət olan və çiyinlə dirsək arasına geyinilən qolbağlarda iki qeyri-adi böyüklükdə almaz seçilirdi, biri Dəryayi-Nur (nur dənizi), o biri Kuhi-Nur (nur dağı) adlanır. Şahın boynunda iri zümrüd boyunbağı vardı. Kəməri və xəncəri də qiymətli daş-qaşlarla bəzədilmişdi. Taxtın sağ tərəfinə moruq rəngli məxmər xalça sərilmişdi, onun kənarları zümrüdlə tikilmişdi, üstünə isə almazla bəzədilmiş qəlyan və dörd digər qab qoyulmuşdu. Sağ tərəfdə şahın on dörd oğlu dayanırdı, taxtın lap yaxınında isə beş yaşlı kiçik oğlu durmuşdu.

Sol tərəfdə, çadırdan kənarda beş saray məmuru dayanmışdı, onlar əllərində kiçik tac, toppuz formasında əsa, qılınc, qalxan və içində dövlət möhürü olan qutu saxlamışdılar, çadırın düz önündə isə dörd nasakçı (ali ədalət icraçıları) dayanmışdı, onların üstündə öz kimlik nişanları olan dəmir balta, qızılla və digər qiymətli daş-qaşlarla bəzədilmiş nasakça vardı..."

(РГАДА, f. 1406, s. 1, q. 965, v. 9)

Rusiyaya qayıdış ərəfəsində, 1817-ci il avqustun 27-də Əlahəzrət İran şahının vida qəbulunda Rusiya səfiri general A.P.Yermolov nitq söyləmişdir, həmin nitqin tam mətni aşağıda verilir.

"İran torpağına ilk addımımı basdığım andan mən öz qəlbimdə Siz Əlahəzrətin görkəmli əməllərinin və şöhrətinin ətrini duydum, bu hissi mən mənim Böyük Hökmdarımın Sizin şəxsinizə qarşı saxladığı həqiqi dostluq və hörmətindən əxz etmişdim. İndi Siz Əlahəzrətin yüksək ləyaqətlərini şəxsən dərk etmək xoşbəxtliyinə nail olduqdan sonra Sizin şəxsinizə böyük heyranlıq içərisində vətənə qayıdıram. Uğurla təsdiqlənən sülh və Rusiyalıların burada layiq görüldüyü lütfkar və nəcib qəbul Böyük Hökmdarın İranın böyük sahibinə qarşı dostluğu və rəğbətinə yeni bir səbəb olacaqdır. Allahdan arzu edirəm ki, O, bu mehriban razılığı hər iki xalqın rifahı üçün uzun eləsin.

Siz Əlahəzrətin şahlığının və şöhrətinin uğurla davam etməsi hər bir Rusiyalının ürəkdən arzusudur!"

(РГАДА, f. 1406, s. 1, q. 345-a, v. 53-54)

1817-ci il sentyabrın 15-də Rusiya səfirliyi Hökmdarın Tacqoyma Gününü bayram etdi, sentyabrın 19-da isə Abbas Mirzənin yanında vida qəbulu təşkil olundu. Abbas Mirzə mərasim zamanı Yüksək fərmanla bağlı öz cavab məktubunu səfir Yermolova təqdim etdi. Bu da onun məzmunu:

"Dünyanın saxlayan Allahın, vahid Yaradanın adı (qoy adı həmişə müqəddəs qalsın!) qələmin və məktubun əvvəlinin bəzəyidir, O hökmdarların ürək dostluğunu dünya torpaqlarının dincliyinə çevirərək, narazılıq tozunu şirin rəğbət suyu ilə yuyub aparır və öz qullarının tayfalarını həqiqət yoluna yönəldir.

Sonra müqəddəs söhbətin məmnuniyyət tapdığı, insanların məclisinə nur saçan parlaq tərif inciləri Əlahəzrət, böyük imperator, əzəmətli əmim, möhtəşəmlik təcəssümü Aleksandra, şöhrəti, səmalar taxtında əyləşmiş Saturn dərəcəsinə yüksələn, dövlətlər fatehi və ədalətin bəzəyi, xoşbəxt və parlaq taca təqdim olunur.

Bunun ardınca, dünyanı bəzəyən ağıl aynasına təqdim olunur ki, yüksək dərəcəli, məşhur səfir, kavaler, general, artilleriya rəisi, Aleksey Yermolov vasitəsilə göndərilən xoşbəxt fərmanın alınması qəlb dostluğunun və rəğbətinin bəzəyinə çevrildi, onun dövləti mənasını çoxaltdı. Adıçəkilən yüksək dərəcəli səfir Əlahəzrətin parlaq qəlbinin mənə, xahiş edənə qarşı iltifatlı olduğunu xeyli ətraflı izah etdi, mən də bununla yüksək qəlbin iltifatına əmin oldum, zira qəlb sədaqəti məni, xahiş edəni buna inandırır ki, ürəkdən ürəyə bircə yol vardır. Əlahəzrət İmperatorun xeyirxah keyfiyyətləri bütün dünyada məlumdur, eyni şəkildə onun öz dostlarına iltifatı gün kimi aydındır.

Əvvəllər bir neçə xoşagəlməz hadisə baş versə də, indi tək ona Allahın iradəsi ilə narazılığın əsasları tamamilə məhv edilib, razılıq qaydaları ixtilaf düyünlərini aradan qaldırıb: hər iki tərəfdə hər kəsin dili dostluğu tələffüz edir, hamının səyləri isə rəğbət kimi qəbul olunur və əgər bu təsdiqlənmiş razılıqdan sonra, hər hansı bir iş mühakimə edənlərin gözündə zahirən başqa cür görünsə, onu Əlahəzrət İmperatorun yüksək iradəsi ilə düzəltmək həmişə asandır, çünki daimi dostluq mehi hər dəqiqə hər iki dövlətin burnuna uzlaşmanın xoş rayihəsini gətirəcəkdir; dostsevərlik qəlblərdən narazılığı çıxaracaq və hər gün qəlbin istədiyi şeyə çevriləcək. Allahın iradəsi bu dostluğun qəti şəkildə bərqərar olmasını istəyib və bu dostluq hər iki dövlətin razılığı ilə bağlanıb. Bu dostluq naminə və imperatorun yüksək iradəsinə xoş olmaq üçün mən, xahiş edən də, öz səylərimlə necə lazımdı, bu müqaviləyə yardımçı oldum və Əlahəzrət İmperatorun səfiri böyük hökmdarın sarayından razılıq və tam məmnunluq içərisində buraxılmışdır.

Yuxarıda adı çəkilən səfir Əlahəzrət Hökmdarın və mənim, xahiş edənin yanında səfirlik vəzifəsini lazımi şəkildə yerinə yetirdikdən sonra indi geri qayıdır; səmimi rəğbətim tələb etdi ki, mən dostluq borcumu yazılı yerinə yetirim.

Xoşbəxtlik dövrü qoy əyləncə və sevinclə birləşsin!

Səmimi və sadiq rəğbətə malik dost, məşhur İran dövlətinin vəliəhdi Abbas Mirzə.

Təbriz şəhərində yazıldı".

Möhürdə yazılıb: **"Şahlar dənizinin incisi – Abbas"**

("Русск. Стар.", 1877, c. 14, səh. 423-524)

Təbrizi tərk edərkən səfir A.P.Yermolov bu şəhərdə keçirdiyi vaxt barədə öz xatirələrini yazmağı da unutmadı.

> "Təbrizdən çıxdığımız gün mənim həyatımın ən xoş günlərindən biri oldu, onu çox səbirsizliklə gözləyirdim, çünki fasiləsiz olaraq riyakarlıq etməkdən, açıq-aşkar bizə pislik arzulayan, bizə qarşı nifrətlərini heç gizlədə bilməyən adamların dostluğundan əminliklə danışmaqdan, sanki bütün ölkəyə parol kimi verilmiş olan ən cansıxıcı salamları təkrarlamaqdan dəhşətli dərəcədə bezmişdim, bunlar məni tamam yorub əldən salmışdı. Nəhayət ki, bu mənfur yerdən qurtula bildim, bir də bu yeri görməyə heç cür razı olmaram, yalnız əli silahlı gələ bilərəm."
>
> *(Записки А.П. Ермолова, М. 1869, II hissə, səh. 67-68)*

Aleksey Petroviç İrandan qayıdarkən 1817-ci il sentyabrın 25-də Naxçıvandan öz İmperatoru I Aleksandra göndərdiyi acizanə məlumatında səfirliyin nəticələrini qiymətləndirir və bu zaman müdrik kor Kalbalı xan Naxçıvanskinin öngörümlərini də heç cür istisna etmir:

> "Siz Əlahəzrət İmperatorun xoş niyyətlərinə yardımçı olan Allah, bizim Sizin dəqiq iradənizin icraçısı olmağımıza imkan verdi. Boynuma qoyulan vəzifələri İranda uğurla yerinə yetirdim. Əyalətləri geri qaytarmağımız barədə tələblər çox ciddi şəkildə israrla təkrar edildi. Mən bundan elə cür imtina etdim və bizim sərhədlərimiz azacıq da olsun dəyişikliyə uğramadı. Dostluq heç də səmimi-qəlbdən deyildi, ancaq o, daha yaxşı təməl qazandı, onun davam edəcəyinə ümid etmək olar. Yadellilər burda Siz Əlahəzrət İmperatorun şöhrətini və Rusiyanın qüdrətini bütün parlaqlığı ilə, tam təsəvvür etmirdilər, ancaq sizi inandırım ki, indi onlara layiqli ehtiram göstərilir".
>
> *("Русская старина", Ермолов в Персии. с. 138, səh. 190)*

> "1 oktyabr 1817-ci il. Tiflis şəhəri. Elə bu tarixdə İrandan qayıtmışam, oraya keçən il Peterburqdan yola düşmüşdüm. Nə qədər əks tərəflərdən, nə qədər qısa vaxtda! Burda işlərin tökülüb qaldığını gördüm, və bu jurnal haqda düşünməyə belə vaxt yoxdur.
>
> Öz qeydlərimi yekunlaşdırıram, mən onları zarafatla dost-

larıma oxumaq, yaxud da sonralar öz qəribəlikləri ilə həmişə yeni görünəcək hadisələri yada salmaq üçün yazırdım."

(РГВИА, f. 1406, s. 1, q. 965, v. 11)

Rusiyaya qayıtdıqdan sonra, artıq Qafqazda baş komandan vəzifəsini icra edərkən general Yermolov 1817-ci il dekabrın 4-də Amamlıdan kor Kalbalı xanın oğlu, uzun illər şahın əlində girov qalan **Nəzərli xana** təşəkkür etmək məqsədilə Abbas Mirzəyə məktub göndərir, sanki o, bununla ailənin atası Kalbalı xan Naxçıvanskiyə olan ehtiramını bir daha vurğulamaq istəyir.

"İdarəsi Siz Alihəzrətə həvalə edilən əyalətlərdən keçib Rusiya sərhədlərinə qədər müşayiət olunduğumuz üçün, sizə olan ehtiram və xoş rəğbətimin sübutu kimi diqqətinizə çatdırmaq istəyirəm ki, Alihəzrətinizin tabeliyində olmaq xoşbəxtliyinə sahib olanlar Sizin iradənizi çox səylə yerinə yetirirlər.

Səfirliyin nəzdində olan, nəzakətli davranışı və çalışqanlığı ilə hamının hörmətini qazanan **Nəzərəli xanı** Sizin lütfkar mərhəmətinizə təqdim etməyə cəsarət edirəm".

(AKAK, c. 6, 2-ci hissə, № 339)

Həm kor Kalbalı xan, həm də general A.P.Yermolov gələcəyi düz görmüşdülər. Həqiqətən də, İranla sülh münasibətləri çox da uzun sürmədi. 1826-cı il iyulun ortalarında öz ətrafının təhriklərinə uyan şahzadə Abbas Mirzə Rusiya ilə sülh müqaviləsini pozaraq, müharibə elan etmədən, xaincəsinə onun hüdudlarına soxuldu. Müharibə atəşi yenidən alovlandı və düz iki il sönmək bilmədi. Ancaq bu xəyanət İrana çox baha oturacaqdı. İran sarayını daimi daxili çəkişmələr və yerli hakimlərin quldur əməlləri getdikcə əldən salırdı.

General Yermolovun möhkəm yaddaşı kor Kalbalı xanın peyğəmbərcəsinə dediyi sözləri yaxşı xatırlayırdı: *"Sizin Hökmdarın dəfedilməz qoşunları qalib kimi bu ölkəyə girəndə..."*

GENERAL ALEKSEY PETROVİÇİN QEYRİ-ADİ ŞƏXSİYYƏTİ HAQQINDA

Yermolovun İran səfirliyi başa çatdı, lakin bu qeyri-adi şəxsiyyət haqqındakı söhbətimizə, Aleksey Petroviçin iranlıları və onların hökumətini ona lazımi hörmət göstərməyə vadar edə, eyni zamanda ona həvalə olunan yüksək tapşırıqları həyata keçirə bilmək üçün istifadə etdiyi vasitələrlə bağlı bəzi təfərrüatları əlavə etmək yerinə düşərdi.

> "Mən iranlıları inandırırdım ki, əcdadlarım tatar olub... Özümü Çingiz xanın törəməsi kimi qələmə verərək, tez-tez taleyin qəribə gərdişi barədə söhbət açır, onları öz qeydlərimlə heyrətə gətirdim ki, bir vaxtlar mənim əcdadlarımın hökmranlıq etdiyi, hamının onların silahına qorxunc silahına boyun əydiyi bir ölkədə mən indi sülh və dostluğu bərqərar etməyə çalışan bir səfirəm... Şah bu qədər qorxunc bir fatehin törəməsinə ehtiramla yanaşmağa başladı. Mənim mənşəyimin təkzibedilməz sübutu Səfirlik məmurları arasında olan əmim oğlu oldu. Mənim xoşbəxtliyimdən, təbiət polkovnik Yermolova qara qıyıq göz, almacıq sümüyü irəli çıxmış yanaq kalmıklarınkına bənzər enli sifət bəxş etmişdi. Şaha mənim cinsimin bu aşkar əlamətləri barədə məlumat verilmişdi və o, bu qədər dəhşətli fatehin törəməsinə hörmətlə nəzər salırdı, mənə əmi oğlumu ona göstərməyi əmr etdi. Gördüm ki, mən, hətta, çox asanlıqla Teymurun da nəvəsi ola bilərəm. Əyanlardan biri soruşdu ki, mən öz şəcərəmi saxlayırammı? Qəti şəkildə cavab verdim ki, o, bizim ailənin böyüyündə saxlanılır və bununla da Çingiz xan nəslinə mənsub olduğumu həmişəlik təsdiq etmiş oldum.
>
> Hətta bir dəfə sözgəlişi İran tax-tacına haqqım olduğunu axtarıb tapa biləcəyimə eyham vurdum, lakin anladım ki, iranlılar belə zarafatlarla əylənməyi xoşlamırlar. Bu qədər sadəlövh tez-tez baş verən dəyişikliklər səbəbi ilə səbatsızlığa vərdiş eləmiş xalqda belə bir zarafat ciddi nəticələr törədə bilər. Müharibə baş verdiyi halda Çingiz xanın törəməsi məğlubedilməz rus qoşunlarına rəhbərlik edərək, xalqa böyük təsir göstərə bilər..."

Yermolov İran haqqında öz ümumi təsəvvürünü "Qeydlər"in son cümlələrində təsvir edir:

"Sənə, İran, heç bir hədd-hüdud tanımayan acgöz hakimiyyətin qollarına keçirdiyi mənfur köləlik qandallarını qırıb atmağa cəsarət etməyən; xalqın murdar xasiyyətlərinin insan ləyaqətini məhv etdiyi və onun dərk etmək hüququnu əlindən aldığı; hər kəsin vəzifəsinin hökmdara qul kimi yarımaq olduğu, dinin özünün insanları cinayətkarlığa öyrətdiyi və yaxşı əməllərin öz haqqını almadığı bir ölkəyə öz nifrətimi həsr edirəm, onu lənətlə qatılaşdırıb, sənin çökməyini arzulayıram".

(Записки А.П. Ермолова. 1810 – 1872. М. 1869, II hissə, səh. 67-73)

Yeri gəlmişkən, Yermolov, o zaman, 1817-ci ildə qəzəbli şəkildə sərt bir hökm verərək, Böyük İran dövlətinə dağılmağı arzulayarkən, nə qədər paradoksal görünsə də, məhz İranın ona istefa hazırladığını, çətin ki, ağlına belə gətirəydi.



Rusiya səfirliyinin marşalı N.P.Yermolov

A.P.Yermolov vəzifədən azad edilib, Qafqazdan geri çağırılmasına görə Rusiya Sarayına deyil, hər şeydən əvvəl İrana "borclu" olmalı idi.

İrandakı uğurlu səfirlikdən sonra Yüksək baş komandan vəzifəsinə təyin edilən əməkdar general A.P.Yermolov bəlkə də özünü yaxın gələcəkdə feldmarşal əsası ilə görürdü, ancaq Qafqazda o, irəli gedə bilməyəcəydi. Məğrur Yermolov yeni Hökmdar İmperator Nikolay Pavloviçin xoşuna gəlmirdi, eyni zamanda Ali hakimiyyət Yermolovu həddən artıq qəddar olmaqda təqsirləndirirdi. General Yermolovdan paytaxta şikayətlər göndərilirdi və bunda heç də İranın əli yox deyildi.

Alihəzrət İmperatorun baş qərargah rəisi baron İ.İ.Dibiç əlahəzrət A.P.Yermolova, sanki Qafqazdakı baş komandanın əməllərinə etibar etmədiyini büruzə verərək məktub yazır:

"Hökmdar İmperatora belə bir məlumat çatıb ki, guya qiyama qalxmış tatarların bəziləri xəyanətdə günahlandırılaraq ayaqlarından asılıblar. Əlahəzrət İmperator bu qədər qəddar və biz xristianlar arasında görünməmiş olan edamlar haqdakı bu axmaq dedi-qodulara inanmaq istəmir, ancaq bununla belə, mənə buyurulub ki, Siz alihəzrətə bu barədə məlumat verib xahiş edim ki, Əlahəzrətə məruzə etmək üçün bu cür murdar şayiənin yayılmasına nəyin səbəb olduğu barədə mənə məlumat verəsiniz.

Sizin cavabınızı gözləyərək, sizə böyük ehtiram və s. göstərən Baron Dibiç, 9 dekabr 1826-cı il."

(РГВИА, f. 1, s. 1, q. 3302, v. 3)

General Yermolov Əlahəzrət İmperatorun sarayında onun Qafqazdan geri çağırılmasına dair kampaniya başlandığını hələ anlamırdı. Öz hərəkətlərinin düzgünlüyünə həmişə əmin olan Yermolov ağır cəza tətbiq etməkdən hələ də əl çəkmir və Əlahəzrət İmperatorun baş qərargah rəisi baron İ.İ.Dibiç belə cavab verir:

"Alihəzrətinizin 9 dekabr tarixli məktubuna cavab olaraq sizə bildirirəm ki, Əlahəzrət İmperatora guya qiyama qalxmış tatarların bəzilərinin ayaqlarından asılması barədə çatdırılan şayiələrin yayılmasına aşağıdakılar səbəb olar:

Alman koloniyası Kodrinofeld dağıdılandan sonra həmin koloniyaya hücum edən quldur dəstəsindən bir tatar tutuldu və sağ qurtulmuş kolonistlər onu tanıyıb, uşaqları və qadınları qətlə yetirən, hər azğınlığa əl atan canilərin başçılarından biri olduğunu təsdiq etdilər.

O tatar bizim təbəəmiz çıxdı, bir neçə il bundan əvvəl Axaltsiyə qaçıb, oradan bizim sərhədlərimizə soxularaq soyğunçuluq və quldurçuluqla məşğul olurmuş...

İnfanteriya generalı Yermolov, 26 yanvar 1827-ci il.

(РГВИА, f. 1, s. 1, q. 3302, v. 3-4)

General Yermolov öz hərəkətlərinin düzgünlüyünə tam əmin idi və yad dindən olanlara qarşı münasibətini heç vaxt gizlətmirdi.

"İstəyirəm ki, mənim adım hər yana qorxu səpməklə sərhədləri zəncirlərdən və istehkamlardan daha möhkəm qorusun, mənim sözlərim asiyalılar üçün qanun, daha doğrusu, qaçılmaz ölüm olsun. Yumşaqlıq asiyalıların gözündə zəiflik əlamətidir və mən insansevərliyim səbəbindən bu qədər sərt oluram. Bir edam yüzlərlə rusu məhv edilməkdən, minlərlə müsəlmanı xəyanətkarlıqdan qurtara bilər... Onu anlatmaq istəyirəm ki, torpaqların mühafizəsini öz boynuma götürərək və Gürcüstana yüksək himayədarlıq verərək, mən bunları xahişlə deyil, hakimiyyətlə idarə etməliyəm.

(Ермолов А.П. Биог. очерк. səh. 88)

Bəlkə, Yermolovu ona sui-qəsd edilə biləcəyi barədə aldığı məlumat daha da qəddarlaşdırmışdı?

KNYAZ MENŞİKOVUN MƏLUMATI İLƏ BAĞLI ŞİFRƏLİ MƏKTUB

Knyaz Menşikov Nubarovdan aşağıdakı məlumatı alıb və onu alihəzrətinizə çatdırmağa tələsir. Kirmanşah vəziri Mahmud xanın qulluqçusu Məmməd bəy Nubarova deyib ki, Abbas Mirzə Aleksey Petroviç Yermolovu kim öldürsə, ona 3000 tümən verəcəyini vəd edib və bu cinayəti Surxay xanın bir nökəri boynuna götürüb və Dağıstana yollanıb. Ancaq knyaz Menşikov bu nökərin adını hələ öyrənə bilməyib..."

(Ермолов А. П. Записки. II hissə, Əlavələr, 1868, səh. 241)

Yeri gəlmişkən, soyğunçuluq və qarətə görə İranda da amansız cəzalar verilirdi, doğrudur, burada müqəssirin pulu vardısa, o, fidyə ödəyib bu cəzadan qurtula bilərdi. Nümunə üçün Rusiyanın İrandakı konsulluğundan Fətəli şahın özünün bantitizmə qarşı münasibəti haqqında general Yermolova göndərilən maraqlı bir məlumatı misal gətiririk.

MÜLKİ MÜŞAVİR VATSENKONUN GENERAL YERMOLOVA RAPORTU 30 MAY 1825-Cİ İL, TEHRAN

...Burada xəbər alınıb ki, Şah İsfahana gələrək, orada çoxlu qarət, qətl və çaxnaşma törədən Hacı Həşim xanın tutulmasını buyurub. İkinci gün Şah Həşim xanın ayaqla-

rına 2000 qamçı vurulmasını, sonra onun burnuna ip, başına kağızdan konusvari papaq keçirib, eşşəyə mindirərək bütün şəhərdə gəzdirilməsini əmr edib. Bu cəza icra edildikdən sonra ondan qətlə görə 50 min tümən cərimə alınmasını buyurub.

İsfahandan gedərkən şah həmin xanı yanına gətirdir və onun gözlərinin çıxarılmasını əmr edir. Həşim xan gözləri üçün şaha 10 min tümən təklif eləyir, ancaq qəzəblənmiş şah dərhal onun kor edilməsini istəyir. Lakin sonra özünə gəlib, təklif edilən pulun əldən çıxacağını görən Şah əmr eləyir, 10 min tüməni gətirənəcən onu qamçılasınlar.

Həşim xana bütün günü işgəncə versələr də ondan pul ala bilməyiblər, buna görə də salahdar Yusif xan Şahdan o məbləği tapıb gətirmək üçün Həşim xana möhlət verilməsini xahiş edib.

(AKAK, c. 6 – 2, səh. 314)

Ancaq Rusiya – İran deyildi. Banditizmə qarşı mübarizədə insana bu cür müdhiş divan tutulmasını rəva görən İran Rusiya üçün nümunə ola bilməzdi. General Yermolov həqiqətən tez-tez öz düşüncəsinə görə zorakılıq üsullarından istifadə edirdi və paytaxtda da bundan xəbərdar idilər. Müəyyən müddətə qədər rus hökuməti Qafqaz prokonsulunun öz vəzifəsindən sui-istifadə etməsinə reaksiya verməmişdi. Məlum olduğu kimi, imperator I Aleksandr general Yermolova yaxşı münasibət bəsləyirdi və onun Qafqazdakı rus hakimiyyətini nüfuzdan salan əməllərinə göz yumurdu.



General A.P.Yermolovun portreti, çeçen rəssam P.Z.Zaxarov tərəfindən çəkilib

Ancaq Yermolovun özbaşınalığı bu dəfə cəzasız qalmadı. Yeni imperator Nikolay Pavloviç generala hiss etdirdi ki, Ali hakimiyyət özbaşınalığı qəbul etmir və rütbəsindən və vəzifəsindən asılı olmayaraq, qanunu pozan hər kəsi cəzalandıracaqdır.

"Alihəzrət A.P.Yermolova.

Hökmdar İmperatora məruzə üçün quldur dəstəsinin ələ keçirilən bir üzvünün – tatarın edam edilməsi ilə bağlı mənə göndərdiyiniz 26 yanvar 1827-ci il tarixli rəyinizlə əlaqədar Əlahəzrət İmperator dərin təəssüflə, ona gəlib çatmış olan şayiələrin əsaslı olduğunu qəbul edərək buyurmuşdur ki, bu diyardakı xalqları itaətdə saxlamaq üçün Sizin özbaşına seçdiyiniz və sizə bəyan edilən Yüksək iradəyə zidd olan tədbirlər tamamilə öz məqsədinə çatmamışdır, iranlıların bizim hüdudlarımıza ilk müdaxiləsindəcə oradakıların qəfil qiyama qalxması da bunu aydın sübut edir. Buna görə də Hökmdar İmperator mənə buyurub ki, bu cür sui-istifadəyə görə Əlahəzrət İmperatorun adından alihəzrətinizə ciddi töhmət elan edim...

Baron Dibiç, 3 mart 1827-ci il".

(РГВИА, f. 1, s. 1, q. 3302, v. 4)

Bu cəza general A.P.Yermolovun qızğın keçən bütün fəaliyyəti dövründə birinci və axırıncı cəza olmuşdur.

Məğrur və əyilməz Yermolov artıq anlayır ki, onu tədricən, amma qətiyyətli şəkildə Qafqaz komandanlığından sıxışdırıb çıxarmaq istəyirlər və o, Hökmdar İmperatora istefa məktubu yazmağa məcburdur.

"Əlahəzrət İmperator!

Siz, Əlahəzrət İmperatorun etibarını qazanmaq şərəfinə layiq olmadığım üçün mən, indiki şəraitdə burdakı diyarın işlərinin nə kifayət qədər qabiliyyəti, nə fəaliyyəti, nə də xoş məramı olmayan bir adama tapşırıldığı fikrinin Əlahəzrətinizi nə qədər narahat etdiyini anlamağa məcburam. Əlahəzrətinizin mənə kifayət qədər etibar etməməsi məni də fövqəladə çətin vəziyyətdə qoyur. Mən hərbi işlərdə lazımi qətiyyəti göstərə bilmirəm, hərçənd təbiət məni bundan heç də məhrum etməyib. Çox mərhəmətli Hökmdar, Sizin iradənizi yerinə yetirməyi bacarmadığımı düşündükcə mənim fəaliyyətim soyuyur.

Belə bir vəziyyətdə xidmət üçün faydalı olmaq imkanı görmürəm, amma Qafqaz korpusunun komandanlığından azad olunmağımı xahiş etməyə də cəsarətim çatmır, çünki indiki şəraitdə bu, müharibənin çətinliklərindən boyun qa-

çırmaq istəyi kimi yozula bilər, halbuki mən o çətinlikləri dəfolunmaz hesab etmirəm. Ancaq hər cür şəxsi mənfəəti bir kənara ataraq, acizanə surətdə cəsarət edib, bütün fəaliyyətimin həmişə əsas məqsədi olmuş ümumi fayda naminə bu tədbiri Siz, Əlahəzrət İmperatora təqdim edirəm. Siz, Əlahəzrət İmperatorun sadiq təbəəsi Yermolov."

(Записки А.П. Ермолова. II hissə, səh. 244)

Bu xahişi Peterburqda çoxdan gözləyirdilər, bu istefanı yeni "Nikolay qvardiyası" nəsli gözləyirdi və o nəslin ən parlaq nümayəndələrindən biri general İ.F.Paskeviç idi.

Birinci və axırıncı cəzanın üstündən səkkiz ay yarım vaxt keçəndən sonra, 1827-ci il noyabrın 25-də Yermolov yaxşı bir pensiya təminatı ilə, amma qəlbən Yüksək hakimiyyətdən incimiş halda tutduğu vəzifədən azad edildi.

Əməkdar döyüş generalı P.A.Yermolov artıq fəxri general-adyutant rütbəsinə yüksəlməyəcək, qraf tituluna layiq görülməyəcək və hərbi karyeranın ən yüksək səviyyəsi olan general-feldmarşal zirvəsinə qalxa bilməyəcəkdi. Bütün bu sərkərdə çələngləri onun yerinə keçən daha gənc, istedadlı, enerjili və Hökmdara itaətkar general İvan Fyodoroviç Paskeviçə qismət olacaqdı.

General A.P.Yermolov Qafqazdakı vəzifəsindən heç bir söz demədən, sakitcə ayrılıb istefaya çıxanda onun hələ əlli yaşı tamam olmamışdı.

Ömrünün son günlərinə qədər sap-sağlam olan, ancaq dövlət işlərindən həmişəlik uzaqlaşdırılan A.P.Yermolov böyük hörmət və izzət içərisində yaşayacaq və memuarlar yaza-yaza öz ömrünün sonunu gözləyəcəkdi.

General ölümündən bir qədər əvvəl bir vəsiyyət də tərtib etmişdir. O vəsiyyətin dəfnlə bağlı təsirli hissəsini oxucuların diqqətinə təqdim etmək istəyirik:

"Məni mümkün qədər sadə dəfn etməyinizi vəsiyyət edirəm. Xahiş edirəm ki, mənim üçün sadə, taxtadan, sıravi əsgərinki kimi sarı rənglə rənglənmiş bir tabut düzəldilsin. Mənim üzərimdə cənazə duasını bir keşiş oxusun. Heç bir

hərbi təmtəraq, arxamca ordenlərimin gətirilməsini istəmirəm, ancaq bunlar məndən asılı olmadığı üçün onları bunun üçün məsul olanların ixtiyarına buraxıram.

Arzu edirəm ki, məni Oryolda, anamın və bacımın yanında dəfn etsinlər.

Məni oraya adi yollarla, taxt-rəvansız, bir cüt atla aparsınlar.

Arxamca uşaqlarım, bir də mənim Nikolayım (30 il general A.P.Yermolovun yanında olmuş çapar – R.İ.) gələcək, Moskvadan o yana isə, yəqin ki, köhnə dostlarım – artilleriyaçılar məni ora aparmaqdan imtina etməyəcəklər.

(«Русский худ. листок», С.-П., 1661, № 14, səh. 38)



General A.P. Yermolov istefada
(təxminən 1860-cı il)

Tədricən sönən və əlçatmaz keçmiş barədə düşüncələrdən doymayan infanteriya generalı ALEKSEY PETROVİÇ YERMOLOV 1861-ci il aprelin 23-də (11-də) 84 yaşında Moskvada sakitcə vəfat etmişdir.

DİPLOMAT QRİBOYEDOV RUS ƏSİR VƏ FƏRARİLƏRİNİ İRANDAN ÇIXARIR, NAXÇIVANSKİ KALBALI XAN İSƏ BUNA QARŞI ÇIXIR

İRANDAKI RUS ƏSİR VƏ FƏRARİLƏRİ. BUNLAR KİMƏ – RUSİYAYAMI, YOXSA İRANAMI DAHA ÇOX LAZIMDIR?

A.P.Yermolovun səfirliyi zamanı Gülüstan müqaviləsinə uyğun olaraq, əsir və fərarilərin təhvil verilməsi dəfələrlə müzakirə olunmuşdu və hər iki tərəf onların təhvil verilməsinə etiraz etmirdi. İranlıların bu məsələ ilə bağlı Rusiyaya qarşı heç bir iddiası yox idi, lakin rus əsir və fərarilərini onlar həvəssiz təhvil verirdilər. İran hakimiyyəti müxtəlif səbəblərlə Rusiyanın öz sabiq təbəələrini geri qaytarmasına əngəl törədirdilər, digər tərəfdən isə rusların özləri vətənə qayıtmaq istəmirdilər. Bunun da başlıca səbəbi Rusiyada əsirlərə, xüsusilə də fərarilərə qeyri-humanist münasibət bəslənilməsi ilə bağlı idi, çünki o dövrdə Rusiya qanunvericiliyi hələ o qədər də mükəmməl deyildi. İran müqavilənin şərtlərini yerinə yetirməyə hazır idi, ancaq Rusiyadan fərqli olaraq, İranı tərk etmək istəməyən sabiq rusiyalıların bu ölkədə qalmasına mane olmurdu. A.P.Yermolov İran hökumətinin, rus-



General
A.P.Yermolov

ların könüllü surətdə İranda qalmaq istədikləri ilə bağlı dediklərini ancaq və ancaq hiyləgərlik hesab edirdi – guya iranlılar zorakılıq da daxil olmaqla, müxtəlif üsullardan istifadə edərək, sabiq əsir və fərariləri İranda saxlamaq istəyirdilər.

KAYMAKAM MİRZƏ BÜZÜRGDƏN – GENERAL YERMOLOVA 17 SENTYABR, 1817-Cİ İL

...VI maddədə müəyyən edilən 3 aylıq müddət bitənə qədər əsirlərdən heç biri burada qalmamışdır, qalanlar isə müqavilədə müəyyən edilən şərtə uyğun olaraq könüllü surətdə qalmışlar; həmin şərtə görə əsirlərdən və fərarilərdən hansı birisə hər hansı bir yerdə öz xoşu ilə qalarsa, buna əngəl olmaq



Rus əsirləri (foto 1915-ci il)

lazım deyil və əsirlərin qaytarılma müddəti sülh müqaviləsinin imzalandığı gündən başlayaraq 3 qəməri aydan artıq davam etmir. Lakin yüksək cənabınız yəqin eşidib ki, baş komandanın dəftərxanasının müdiri Pavel İvanoviç Mogilyevskinin gəlişi zamanı biz iki dəfə əmr etdik ki, burda olan əsgərlərin siyahısı təqdim edilsin və onların hər birinin ciddi şəkildə fikri soruldu və gün işığı kimi aydın oldu ki, bizim bu işə ədalətli münasibətimiz Allahın qullarını və Tək Yaradanın yaratdıqlarını uzaq, yad bir ölkədə uzun müddət kədər və həsrət içində saxlamaq kimi hər

cür haqsızlıqdan və zorakılıqdan uzaqdır. Burda qalanlar isə heç bir təzyiq və zorakılıq olmadan qalıblar.

(AKAK, c. 6 – 2, səh. 169)

Danışıqlar zamanı rus əsir və fərarilərinin könüllü qaytarılmasının əlehinə çıxış edən israrlı və qətiyyətli A.P.Yermolov əslində sabiq rusiyalıların vətənə zorla qaytarılmasının tərəfdarı idi. O buna əmin idi ki, müqavilənin yerinə yetirilməməsində başlıca günahkar İran tərəfidir. Rusların uğurla xidmət etdikləri batalyondan danışarkən Yermolov, Samson xanın rus batalyonu deyilən hərbi dəstəni nəzərdə tuturdu və onlar doğrudan da, həmin vaxt kürdlərin qiyamını yatırmaqla məşğul idilər. Ədalət naminə qeyd edək ki, general Yermolov bu əfsanəvi batalyona diqqət yetirən yüksək rütbəli ilk rus zabiti olmuşdur. Yermolovdan sonra rus batalyonu hələ iyirmi il İranın mənafeyinə xidmət edəcəkdi və yalnız 1837-ci ildə imperator Nikolay Pavloviç Qafqazı ziyarət edəndə bu unikal qoşunun taleyi, qismən də olsa, həll ediləcəkdi. General Yermolovun verdiyi tapşırıqla tanış olaq.

GENERAL YERMOLOVDAN – POLKOVNİK İVANOVA 20 SENTYABR 1817-Cİ İL, TƏBRİZ

İran nazirliyi və nəhayət kaymakam Mirzə Büzürglə apardığım danışıqlarda mən müqaviləyə əsasən bizim əsir və fərari əsgərlərin təhvil verilməsini tələb etdim və bizim aramızda qayıtmaq arzusunda olanların alınması barədə razılıq əldə edildi.

Sizə məlumdur ki, qiyamçıları yatırmaq adı altında oradan rus əsgərlərinin xidmət etdiyi bir batalyon göndərilib, indi razılığa əsasən, onlar qayıdan kimi sizə əsgərlərin fikrini soruşmaq imkanı veriləcəkdir və mən sizə çox mərhəmətli Hökmdar İmperatorun əfvini o fərari əsgərlərə elan etməyi tapşırıram. Siz buradakı hökumət tərəfindən xəbis və murdar ürəklərdə mövcud ola biləcək hər cür qabalıq və hiyləgərliklə üzləşəcəksiniz, buna görə də son dərəcə ehtiyatlı davranmalısınız. Şərtlərə əməl olunmasını çox ciddi tərzdə və israrla tələb edin, ancaq aşılası mümkün olmayan maneələr görəndə, əsgərlərin sırtıqcasına üzünüzə geri qayıtmaq istəmədiklərini

söyləmələrinə imkan verməyin, o maneələri kaymakama izah edib, ona bildirin ki, məndən aldığınız təlimata uyğun olaraq, səmimi dostluq qaydalarından uzaq olan hərəkətlərə qarşı heç bir səmərəsiz çıxışlara yol vermədən Rusiyaya qayıtmalı və qarşıya çıxan çətinliklərin həllini daha əlverişli bir vaxta saxlamalısınız. Elə bilirəm ki, onlar bizim əsgərləri öz tərəflərinə çəkmək üçün onlara pul verəcəklər, qanunu dəyişməyən, artıq arvadı və uşağı olan əsgərlərin özündən isə onlara mənfi rəy tələqin etmək üçün istifadə edəcəklər, ancaq bizə gələn fərarilər deyirlər ki, əgər əsgərlər əfv ediləcəklərinə əmin olsalar və cəza qorxusu onların canından çıxsa, onda onların böyük əksəriyyəti geri qayıtmaq arzusunda olduqlarını bildirəcəklər. Mən sizə imzam və möhürüm olan bir kağız saxlayıram, mümkün olsa, batalyonu sorğuya tutmazdan əvvəl onu bəzilərinə göstərmək faydalı olardı. Bizim sərhədlərimizə qədər azuqə və nəqliyyat tələb edin, mənə isə qabaqcadan bir kazak göndərin ki, lazımi göstərişləri verim. Komissardan nəzərdə tutulmayan xərclər üçün 200 holland əşrəfisi qəbul edərsiniz. Sizin tədbirli və ehtiyatlı olmağınız məndə belə zəmanət yaradır ki, bu iş ya uğurla bitəcək, ya da məni iki dövlət arasındakı dostluq əlaqələrinə uyğun olmayan bu izahata məcbur edən xoşa gəlməz hadisələrdən uzaq olacağıq.

(AKAK, c. 6 – 2, səh. 162)



Aslandüz – Araz çayının dayaz yeri və İrandan Rusiyaya gedən yol

İranı tərk edərkən Yermolov bu ölkədən bir nəfər də olsun əsir rus əsgəri və ya fərarisini çıxara bilmədi, ancaq taleyin hökmü ilə Qafqazda onunla həmfikir, sanki, əkiz tayı olan bir nəfər –Rusiya missiyasının əməkdaşı A.S.Qriboyedov peyda oldu və Rusiya – İran münasibətləri tarixində ilk dəfə olaraq rus əsir və fərarilərinin bir dəstəsini məhz o, İrandan çıxara bildi.



Diplomat
A.S.Qriboyedov

İrandakı rus missiyasının gənc katibi, çalışqan Qriboyedovun səyləri Qafqazın baş komandanı general A.P.Yermolov tərəfindən müdafiə olundu; rus missiyası o vaxtlar məhz onun tabeliyində idi. Rusiyanın İrandakı işlər vəkili Simon Mazaroviçin dəstəyi ilə A.S.Qriboyedov sabiq əsir və fərariləri İrandan çıxarmağı öz boynuna götürdü – belə bir təşəbbüs insandan böyük cəsarət və təmkin tələb edirdi. Bu, demək olar ki, rus əsir və fərari dəstəsinin 1819-cu ildə Təbrizdən Tiflisə bir İncil səyahəti olmuşdur. Ancaq əvvəlcə, İranın rus əsir və fərarilərinə münasibətindən danışaq.

O vaxtlar bir çox ölkədə əsirlərdən ucuz işçi qüvvəsi kimi istifadə edilirdi və praktiki olaraq, onlar qul kimi saxlanılırdılar, ancaq İranda rus əsir və fərarilərinə münasibət başqa cür idi. İran hökuməti əsir və fərari əsgərləri həvəslə hərbi xidmətə götürürdü. Onlara fərqlənmək imkanı verirdilər və bəzi ruslar burada yüksək rütbələrə nail olmuş, İranda özlərinə nüfuz və hörmət qazanmışdılar. Ümumiyyətlə, İran hökuməti, hətta tamhüquqlu İran vətəndaşına çevrilmiş sıravi rus əsgərlərini belə təhvil verməməyə çalışırdı. Əsirlərin axtarılıb tapılaraq Rusiyaya qaytarılması bütün zamanlarda iranlılarda qəzəb doğurmuşdur – bu işdə hökumət də, adi insanlar da eyni fikirdə

idilər.

Bunu başa düşmək olar. Gülüstan müqaviləsində islamı qəbul etmiş, İranda ailəsi olan və ümumiyyətlə, Rusiyaya qayıtmaq istəməyən sabiq rusiyalıların təhvil verilməsinin qeyri-mümkün olması barədə heç bir müddəa yox idi. İran hökuməti ailələrin dağılmasını istəmirdi və bu səbəbdən keçmiş hərbiçiləri rus missiyasından min bir yolla gizlətməyə çalışırdı. Yeri gəlmişkən, bəzən əsirlərin özləri qaçıb gizlənir, onlara sığınacaq verib, rahat həyatla təmin edən İranı tərk etmək istəmirdilər.

Bunu əsir rus qadınları barədə də söyləmək lazımdır. Onların bir çoxu iranlı ilə evlənmiş, ailə qurmuş, övlad sahibi olmuş və düşdüyü vəziyyətlə çoxdan barışmışdı. Əlbəttə, elələri də vardı ki, – hərçənd onlar azlıq təşkil edirdilər, – İran onlar üçün ikinci vətənə çevrilməmişdi, Rusiyaya qayıtmaq üçün əlverişli məqam gözləyirdilər və əsirlərin sərbəst şəkildə qaytarılmasını nəzərdə tutan müqavilə maddələrindən sevinə-sevinə istifadə edirdilər. Lakin rus missiyası qadağan olunmuş metodlar da daxil olmaqla müxtəlif üsullardan da istifadə edərək sabiq rusiyalıları axtarıb tapır, hətta burada ailə quran və İranı tərk etmək istəməyənləri də zorla vətənə qayıtmağa məcbur edirdi. Bu da iranlılarla müəyyən toqquşmalara səbəb olurdu.

DİPLOMAT QRİBOYEDOV TARİXDƏ İLK DƏFƏ OLARAQ RUS ƏSİR VƏ FƏRARİLƏRİNİ İRANDAN ÇIXARMAĞA ÇALIŞIR

Qriboyedovun əsir və fərarilərin ayrı-ayrı qruplar şəklində deyil bütöv dəstə halında geri qaytarılması ilə bağlı iki böyük dövlət arasındakı münasibətlər tarixində ilk başlatdığı iş çox cəsarətli bir iş idi və İran hakimiyyətində təkcə narazılıq deyil, həm də buna qarşı əks tədbirlər görmək niyyəti doğurmuşdu: bunu isə bütün varlığı ilə

bu işə köklənən Qriboyedov bəlkə də hiss etmirdi, ancaq belə bir işə girişməklə o öz həyatını riskə atmışdı. Rusiya hakimiyyəti İranla bağladığı kövrək müqaviləni möhkəmlətməyə ümid edərək, gənc rus diplomatının bu heyrətamiz öz fəaliyyətinə mane olmasa da, onu dəstəkləmirdi. Bütün bunları A.S.Qriboyedov, çətin ki, anlaya bilərdi, çünki onda onun heç 24 yaşı belə tamam olmamışdı. Bu riskli addımı atarkən, o, hansı motivlərə əsaslanmışdı?

Qriboyedovun bu hərəkəti, heç şübhəsiz, fanatik vətənpərvərliyin təzahürü idi. Öz dindaşlarının iranlıların muzdlu quluna çevrilməsi fikri möhkəm əqidəli bir rusofil kimi Qriboyedova böyük əzab verirdi. Rus əsgərlərinin halına həqiqətən acımasına baxmayaraq, – bunu onun İrandakı rus səfirinə məktubu təsdiq edir, – Qriboyedovun planında ən əvvəl Rusiyanın nüfuzunun, yalnız bundan sonra əsir və fərarilərin qayğısına qalmaq dururdu. Sədaqətli bir dövlət məmuru kimi Qriboyedov rus ordusunda tez-tez baş verən fərarilik hallarının səbəbləri barədə düşünməkdən yan qaçırdı.

Rus ordusunda ağır məişət şəraiti, Rusiya sarayında çox nüfuzlu mənsəb sahibi olan **Aleksandr Andreyeviç ARAKÇEYEVİN** (1769–1834) fəaliyyəti dövründə xüsusilə özünü büruzə verirdi və belə bir məişət əsgərlərin kütləvi şəkildə ordudan qaçmalarına səbəb olurdu.Qraf Arakçeyevin gerbində bu sadiq təbəənin başlıca ləyaqəti təsvir olunmuşdu: ***"Yaltaqlıq etmədən sadiqəm"*** Əlahəzrət İmperatorun kamer-yunkeri A.S.Puşkin bu qrafa öz xarakteristikasını vermişdir:



Qraf
A.A.Arakçeyev

Rusiyanı dar eləyən, qubernatorlara əzab verən,
Sarayın mürşidi, çara dost-qardaş,
Qəlbi küdurətlə, qisasla dolu
Ağılsız, duyğusuz, şərəfsiz adam...

İran ordusunda isə keçmiş rusiyalılar üçün əlverişli həyat və məişət şəraiti yaradılmışdı. Əgər rus ordusundan qaçmış əsgər islamı qəbul edir, ailə qururdusa, onda tam hüquqlu İran vətəndaşına çevrilirdi və onun Rusiyaya qayıtmaq şansı, demək olar ki, sıfıra enirdi. Ancaq Qriboyedov bunu anlamırdı və heç anlamaq da istəmirdi. Özünə xas bir çılğınlıqla o, rus əsgərlərini inandırmağa çalışırdı ki, onlar hərbi and və öz vətənlərinə xəyanət etməklə alçaq bir iş tutmuş və vətən xaininə çevrilmişlər. Lakin rus əsir və fərarilərini hər şeydən əvvəl, Qriboyedovun Rusiyada onların təhlükəsizliyinə zəmanət verib-verməməsi, Gürcüstana qayıtdıqdan sonra cəza alıb-almayacaqları maraqlandırırdı.

Qriboyedov təmiz ürəklə cavab verirdi ki, şəxsən o, buna zəmanət verə bilməz, amma qüvvəsi ilə çalışacaq ki, onlara cəza verməsinlər. O, səmimi-qəlbdən inanırdı ki, sabiq təbəələr həqiqətən Rusiyaya lazımdırlar və onlar yalnız vətəndə xoşbəxt ola bilərlər. Bununla yanaşı, Qriboyedov əsgərlərə izah edirdi ki, əgər cəza veriləcəksə, onda onu bir dəfə qəbul edib, öz vicdanlarını həmişəlik təmizləyə bilərsən.

Qriboyedovun bu təlqinləri uğurlu alındı. Vətənpərvərlik hisslərinə toxunaraq, ehtirasla inandırmağı o, virtuoz piano çaldığı kimi, əla bacarırdı. Nəhayət, o, Rusiyaya qayıtmaq üçün 158 nəfərdən ibarət bir dəstə toplamağa müvəffəq oldu.

Öz qoşunundakı cəsur əsgərləri itirdiyini görən İran taxt-tacının varisi Abbas Mirzə Qriboyedovun başlatdığı işi həmişəlik dəfn etmək üçün öz yüksək hakimiyyətindən və inandırma üsullarından istifadə edirdi. O, hər bir sabiq rusiyalı ilə özü şəxsən danışmaq qərarına gəldi və onların İranı nə üçün tərk etmək istədiklərini, onları buna vadar edən

motivləri aydınlaşdırmağa çalışdı. Abbas Mirzə rus əsgərlərini buna inandırmaq istəyir ki, onlar geri qayıtmaq qərarına gəlməklə çox böyük səhvə yol verirlər – və onun bunu deməyə əsası vardı. Vətəndə, Abbas Mirzə onlara deyirdi, sizi heç də təmtəraqla qarşılamayacaqlar, faciəvi aqibətlə üzləşəcəyiniz də istisna edilmir. Şahzadənin əsgərlərlə bu söhbətində Qriboyedov iştirak etməyib, ancaq o, gündəliyində Abbas Mirzə ilə öz söhbətini qeydə alıb.

A.S.QRİBOYEDOVUN ŞAHZADƏ İLƏ GÖRÜŞÜ VƏ VƏLİƏHDİN RUSİYAYA QAYITMAQ İSTƏYƏN ƏSİR VƏ FƏRARİLƏRLƏ SÖHBƏTLƏRİ HAQQINDA QEYDLƏRİ

30 avqust 1819-cu il.

Əsgərləri ikinci dəfədir şahzadənin yanına gətirirəm, o onları tək-tək qəbul edir, ələ almağa çalışır, ancaq heç bir şeyə nail ola bilmir və əsəbiləşib özündən çıxır.

Abbas Mirzə – Siz niyə buraya gələn başqa məmurlar kimi eləmirsiniz? Onlar sadəcə öz tapşırıqlarını mənə bəyan edirdilər.

Mən – Biz müqaviləyə uyğun hərəkət edirik, buna görə də sizə bəyan etmirik, bunu siz bizdən yaxşı bilməlisiniz: sizin valideyniniz onu imzalayıb.

Abbas Mirzə – Əgər Mazaroviç bu cür davam edəcəksə, Tehrana gedin.

Mən – Biz öz xoşumuza görə Təbrizə gəlməmişik, sizin əmrinizlə burdayıq.

Abbas Mirzə – O hovuzu görürüsünüz? O ağzınacan doludur, əgər ondan bir-iki damcı götürsələr, ona dəyən zərər elə də böyük olmaz. Mənim ruslarım da Rusiya üçün o cürdür.

Mən – Amma, əgər bu damcılar o hovuza qayıtmaq istəyirlərsə, onda onlara mane olmaq nəyə lazım?

Abbas Mirzə – Mən rusların vətənə qayıtmalarına mane olmuram.

Mən – Mən bunu yaxşı görürəm; ancaq onları qapalı yerdə saxlayır, əzab-əziyyət verirlər, bizə yaxın buraxmırlar.

Abbas Mirzə – Onların sizinlə nə işi var? Qoy mənə desinlər, qayıtmaq istəyənləri mən sizə qaytararam.

Mən – Ola bilsin ki, Alihəzrətiniz belə düşünür, ətrafınız isə tamam başqa cür; onlar sizin ixtiyarınızda olanları da yenidən tora salmaq istəyir, qızıl vəd edir, onlara gizlincə məktub verirlər.

Abbas Mirzə – Düz demirsiniz: siz mənim xalqımı qiyama qaldırırsınız, mənim bütün adamlarım düz hərəkət edirlər.

Mən – Alihəzrətiniz görmək istəyirmi? Sizin məmurların nişanlanmış məktubları yanımdadır.

Abbas Mirzə – Bu sirr deyil; bu, mənim əmrimlə edilib.

Mən – Çox təəssüf. Mən elə bilirdim bunları sizdən xəbərsiz eləyiblər. Yeri gəlmişkən, siz bizdən nəyə görə narazısınız, nəyi düz deməmişik: harda, haçan, nədən ötrü? Xahiş edirəm bildirəsiniz.

Abbas Mirzə – Siz pul verirsiniz, onların qulağına cürbəcür uydurmalar pıçıldayırsınız.

Mən – Soruşun, görün biz bu adamlara bircə əşrəfi də olsun vermişikmi; onların qulağına isə heç pıçıldaya bilmərik, çünki bizim mənzillərimizə yaxın olan bütün dalanlarda qarovullar qoyulub, onlar bizi dustaq kimi saxlayırlar, nəinki pıçıldamaq, bizi heç onlarla bərkdən danışmağa da qoymurlar.

Abbas Mirzə – Nə üçün siz də ingilislər kimi eləmirsiniz? Onlar sakit, dinc adamlardı. Mən onlardan çox məmnunam.

Mən – İngilislər bizə nümunə ola bilməz, heç kim nümunə ola bilməz. İşlər vəkili istəyir biz elə hərəkət edək ki, siz ondan məmnun qalasınız, lakin biz ən başlıcası bizim Hökmdar İmperator qarşısında haqlı olmalıyıq. Lakin, Alihəzrət, icazə verin, sizin məmurların əsgərlərdən nə soruşduqlarını eşitmək üçün mən də onların yanına gedim.

Abbas Mirzə – Mənim məmurlarım işlə məşğuldurlar, sizin onların yanında olmağınıza ehtiyac yoxdur.

Mən – Mənim böyük şübhəm var ki, onlar öz işlərini, adətən olduğu kimi, yenə də təmiz görmürlər. Siz onları bizim iştirakımızla rusların arzularını soruşmağa göndərəndə, onlar əsgərlərə əxlaqsızlığı təbliğ edir, onları qızlarla və sərxoşluqla şirnikləndirirdilər, biz yaxınlaşanda isə utandıqlarından qaçıb getdilər. Eyni zamanda bizə meydana gedib, vətənə qayıtmaq istəyənləri seçməyə imkan vermədilər. Sonra, siz mənim öz adamlarımı buraya gətirməyimi və mənim mənzilimdən çıxarkən tutulan digər əsgərlərin batalyondan gətirilməsini əmr etdiyinizdə, mən sizin xatirinizə özümünküləri üçüncü günü bura gətirdim, onları sorğu-suala tutdular, heç

biri qayıdıb sizin tərəfinizə keçmədi, adları məndə yazılmış olan, mənə Rusiyaya göndərilmək istədiklərini bəyan edən, amma tutulub saxlanan, sizin də mənə üzbəüz təqdim olunmalarını əmr etdiyiniz adamlar gətirilmədi – onları mənə ümumiyyətlə göstərmədilər. İndi mən yenə sizin iradənizə uyğun olaraq gəlmişəm; bunlar mənim adamlarımdır, başqa tələb etdiyim yoxdur. Özü də sizin dörd məmurunuz gətirdiyim əsgərləri bir-bir kənara çəkib dilə tuturlar, – həm də Allah bilir necə dilə tuturlar, – siz isə mənə onlara heç yaxınlaşmağa da imkan vermirsiniz (...)

Gəlib məlumat verdilər ki, gətirdiyim 70 adamdan, yalnız biri yenidən alihəzrətin xidmətinə keçib, ancaq o da onlardan aralanıb, ayaqlarıma yıxıldı, yalvardı ki, mən onu tikə-tikə doğrayım, huşunu itirib, nə elədiyini özü də bilmir, onu özününkülərdən ayrı saldılar və s.

Şahzadə əsgərlərə ona xidmət etdikləri kimi, irəlidə öz Hökmdarlarına da sədaqətlə, canla-başla qulluq etmələrini tapşırdı, eyni zamanda onların gələcək rifahı, Rusiyada günlərinin xoş keçməsi barədə mənə tövsiyələr verdi (...)

Mən – Mən onları Tiflisə çatdırandan sonra bizim hökumətimizin onlarla necə davranacağını Alihəzrətinizə bildirmək şərəfinə nail olmaq üçün bura qayıdacağam. Bununla belə, siz, Abbas Mirzənin onların gələcək taleyinin qayğısına qaldığını görmək fövqəladə xoşdur. Alihəzrət, əlbəttə, siz bilmirsiniz ki, sizin xidmətinizdə uzun müddətdir onlara məvacib verilməyib və bu doğrudur, əmr edin, onlara nə düşür, ödəsinlər.

Abbas Mirzə – Yox, yox, yox. Nəyə görə? Əgər onlar məni tərk etməsəydilər, qalıb qulluqlarını davam etdirsəydilər, bu başqa məsələ.

Mən – Mən fikirləşirdim ki, Alihəzrətinizə indiyədək göstərdikləri xidmətə görə bu əsgərləri onlara məvacibdən məhrum etmək istəməzsiniz.

Abbas Mirzə – Qoy Mazaroviç versin, onlar indi onunkudur.

Mən – Bəli, onların bundan sonrakı taleyi onun əlindədir. Nə isə, bir halda ki, siz imtina edirsiniz, İşlər vəkili keçmiş xidmətlərinə görə sizin onlara borcunuzu da ödəyər. Alihəzrətinizdən sözünə əməl edərək, öz yoldaşları ilə vətənə getmək istəyən, sizə siyahısını vermək şərəfinə nail olduğum digər əsgərlərin də bura gətirilməsini əmr edəcəyini

gözləyirəm.

Bunu deyəndə, o, bizim fərari Samson Makintsevi çağırdı, mən də buna dözməyib bildirdim ki, belə bir haramzadəni öz ətrafı arasında saxlamaq nə qədər ayıbdırsa, onu nəcabətli rus zabitinə göstərmək ondan da ayıb bir şeydir.

Abbas Mirzə – O, mənim nökərimdir.

Abbas Mirzə – Lap generalınız olsa belə, o, mənim üçün əclafın, fırıldaqçının biridir və mən onu görmək belə istəmirəm.

O möhkəm hirsləndi, mənə ağzına gələni deməyə başladı, mən iki qatını ona qaytardım, o, bir daha mənimlə heç bir iş görmək istəmədi və biz ayrıldıq.

(Грибоедов А.С. ПСС под ред. И. А. Шляпкина, СПб., 1889, с. 2, səh. 56-59)

Taxt-tacın varisi öz niyyətini həyata keçirə bilmədi. Qriboyedovda anadangəlmə təbliğatçı istedadı varmış və onun arqumentləri Abbas Mirzənin dəlillərindən qat-qat güclü və üstün oldu. Kaş Qriboyedovun bu diplomatik qələbəsi sabiq rusiyalıların vətənə uğurla qayıdacaqlarına zəmanət verəydi! Ancaq belə bir zəmanət yox idi, irəlidə isə onları saysız-hesabsız müsibətlər gözləyirdi. Sanki Rusiya özü bu fərari və əsirlərin geri qayıtmasını istəmirdi.

RUSİYALILARIN VƏTƏNƏ ÇƏTİN VƏ RİSKLİ QAYIDIŞI

1819-cu il sentyabrın 4-də Qriboyedov rus əsir və fərarilər dəstəsi ilə birlikdə onları vətənə, Rusiyaya aparan uzaq və çətin yola çıxdı. Sentyabrın 6-da isə öz gündəliyinə ilk qeydini yazdı.

Mərənddəyik... Yola çıxırıq. Bizi daşa basırlar, üç adamı yaralayıblar. Əsgərlər rus mahnıları oxuyurlar. İstər-istəməz gözlərim yaşarır...

– Batalyonda da oxuyurdunuzmu?

– Hansı mahnıları, cənab? Aradabir, o da sərxoşluqdan səsimiz tutulanda. Ayıq vaxtımızda Rusiyanın qəhəri çökürdü boğazımıza...

Uçuq bir karvansarada dincəldik; ordan çıxıb düzən boyu dərəyə doğru gedirik; hər yerdə torpaq çılın-çılpaqdır, sonra dərədən, yarıqlardan, deşiklərdən keçib gedirik. Dərədən axan suların gur şırıltısı eşidilir. Dağa çatanda sağa dönüb Qarqara üz tuturuq.

Mənim bu tayfam rəngarəng qruplardan ibarətdir, **mən də İbrahiməm.**

(Грибоедов А.С. ПСС под ред. И.А.Шляпкина, СПб., 1889, с. 2, səh. 59-60)

Elə həmin gün Qriboyedov Mərənddən Rusiyanın İrandakı səfirinə məlumat göndərir. Qriboyedovun dəstəsini müşayiət edən iranlı məmur-bələdçi – mehmandar imkan tapdığı qədər dəstənin hərəkətinə cürbəcür əngəllər törətməyə çalışır. Heç şübhəsiz, mehmandarın bu əməlləri təkcə hakim dairələrin deyil, həm də Rusiya dəstəsinin vətənə qayıtması ilə əlaqədar ailələri dağılan sıravi iranlıların əhval-ruhiyyəsini əks etdirirdi.

RUSİYANIN İRANDAKI İŞLƏR VƏKİLİ CƏNABLARINA ONUN KATİBİ ALEKSANDR QRİBOYEDOVDAN RAPORT

Hörmətli cənab!

İki mənzili başa vurduq. Bu gün dincəlirik; mənə azuqə vermirlər, onu özüm pulla alıram. Mehmandar cəlladın, oğrunun biridir, fikirləşirəm onu mənə qəsdən soxuşdurublar ki, hirsimdən partlayım. Alvarda o, fərmanla bizə müəyyən edilən çörəyin yarısını, ətin isə üçdə birini verdi, nəhayət xırda heyvan təzminatını ləğv etdi... Mən onunla möhkəm dalaşanda isə, çox kasıb olan Alvar kəndinin bundan artıq vəsaitinin olmadığını bəhanə gətirdi, sonra da məni şirnikləndirməyə çalışdı ki, Mərənddə (Təbrizlə Naxçıvan arasında) mən öz adamlarım üçün Eldoradonu tapacağam və mən susdum. Dünən gecə saat 2-də mənim arabalarım yola düşdü; mən isə Şamirlə (Şamir Fridanoviç Melik-Bəylərov, İrandakı rus missiyasının tərcüməçisi – R İ.) vidalaşmaq üçün üç dəqiqə gecikdim, cəmi üç dəqiqə. Adamlarımın arxasınca getmək istədim, mehmandar qaldı, yəqin ki, dünənki kəsiri kəndlilərdən yığmaq üçün; o mənə bələdçi verdi, onunla birlikdə yolu



Rusiyaya gedən yolda

azdım və bütün gecəni və səhərin bir hissəsini azmış halda dolaşdım, mehmandar gəlib çıxanda az qaldı onu öldürəm. Yorğunluqdan əldən düşmüş halda nəhayət ki, öz dəstəmi tapa bildim. Bir xəstə burdan iki fərsəng aralıda, gecə vaxtı mən olmayanda yıxılıb, yük piyadalardan xeyli qabağa keçmişdi, əlimizin altında nə bir eşşək, nə də yük daşıyan bir heyvan vardı. Biz Sofiyan (Təbrizlə Mərənd arasında bir yer) yaxınlığında çörək və su ilə səhər naharı edərkən, mən mehmandardan o kənddən bir qatır tapmasını xahiş elədim. – "Qatır! Nə üçün?" – "Yaralını apara bilmək üçün" – " Allah qorusun, əgər mən sizin geridə qalan adamlarınıza kömək eləsəm, Şahzadə Abbas Mirzə boynumu vurdurar!" Axırda, qəti şəkildə bundan imtina etdi, dedi ki, haqqında söhbət gedən adam ya artıq Təbrizə çatdırılıb, ya da müqavimət göstəribsə, sakinlər tərəfindən öldürülüb, çünki hökumətin əmri belədir. Ah, satqınlar! Zavallı itirilmiş xəstənin ünvanına deyilən bu sözlər mənim adamlarıma güclü təsir elədi, bunları və mehmandardan öyrəndiyim bir çox şeyləri dəfələrlə elə onun özünün yanında onlara özüm çatdırırdım. Onlar qəzəbləndilər, bir daha heç yana qaçmadılar, keçdiyimiz yolun çətinliyinə baxmayaraq, yoxuş və enişlər

həqiqətən ağır və daş kəsəkli idi, mən onları axşam saat yeddidə bura Mərəndə gətirib çıxara bildim. Qoyun hesablayım: gecə saat 2-dən səhər saat 7-yə qədər. Bugünkü istirahət hamının yekdil arzusu əsasında, həmçinin mənim əsgərlərimin vəziyyəti səbəbindən verilib; əgər onların yorğunluqdan necə əldən düşdüklərini görməsəydim, məndən olsa, heç dayanmazdıq.

Mən buradakı sərəncam sahibindən, xəstəni (Levonti Sarbov) axtarıb tapmaq üçün adam göndərməsini tələb etdim. O, mənim sözlərimə diqqət yetirmədi. Alvarda olduğu kimi burada da ərzağın yarısı çatdırılmayıb; bu gün heç nə vermirlər.

Hörmətli cənab, sadiq qulunuz Aleksandr Qriboyedovun sizə qarşı olan dərin hörmət hissini qəbul edin.

Mərənd, 6 sentyabr 1819-cu il.

(Попова О. И. Грибоедов в Персии. М., 1929, səh. 47-48)

Bir neçə gündən sonra Qriboyedov səfir Mazaroviçə, onun Rusiyaya uğurla doğru irəliləməsinə əngəllər törədən İran məmurları və qayda-qanunları barədə şikayət və inciklikərlə dolu yeni bir məlumat göndərir. Qriboyedova inanmamağımıza heç əsas yoxdur, olan olub keçən keçib. Ancaq bütün bunlar elə belə də olmalı idi. Qriboyedovun arzuladığı şeylər yox idi: İranın hakimiyyət nümayəndələri onun dəstəsi ilə xoş davranmır, ona daim qayğı ilə yanaşmırdılar, müntəzəm ərzaq təminatı yox idi və Rusiyaya gedən yolda meydana çıxan bir çox digər problemlərin həllinə heç bir kömək göstərilmirdi. İran rus əsir və fərarilərini öz ordusundan qaçan fərarilərlə bərabər tutaraq bu dəstənin hərəkətinə yardımçı olmurdu.

Ta qədimdən ticarətlə məşğul olan ermənilər, həmişə olduğu kimi, İranın bu işə münasibətinə nəzər yetirərək, əgər qıt mallardan nə isə satırdılarsa, dərhal onun qiymətini ölçüyə gəlməz dərəcədə artırdılar və eyni zamanda inandırmağa çalışdılar ki, həmin qıt malı öz vəziyyətlərini böyük risk altına ataraq satırlar. Məlumdur ki, diplomat Qriboyedov

ermənilərin İrandan uğurla köçürülməsinə çox yardım etmişdir, onun adı ermənilər arasında məşhur idi, ancaq erməni elə erməni olaraq qalırdı. Harada ticarət varsa, orada birinci planda mənfəət və həmçinin erməni var.

Bir insan onun gözünün qabağında acından ölsə də ona heç bir güzəşt yoxdur! Və heç bir mənəviyyat norması ermənilərə təsir etmirdi. Rus əsgərləri bütün yolu ac-yalavac keçib gəlmişdilər, ayrılmış cüzi vəsait hesabına ərzaq axtarmaqdan bəziləri tamam üzülüb əldən düşmüşdü. Ərzaq lazımsa, ermənilərin yanına buyurun, onlar dərhal ərzaq tapacaqlar... amma baş gicəlləndirən qiymətə!

KOR KALBALI XAN RUS ƏSİR VƏ FƏRARİLƏRİNİN İRANDAN ÇIXARILMASININ ƏLEYHİNƏDİR

Və rus hakimiyyətinin ağılsız planlarının yerinə yetirilməsində iştirak edən Qriboyedov yaxın gələcəkdə bütün bu pislikləri unudub, ermənilərin kütləvi şəkildə Rusiyaya köçürülməsinin ən görkəmli icraçılarından birinə çevriləcəkdi.

Bizim qəhrəmanımız – kor və başı çox bəlalar çəkmiş **Kalbalı xan Naxçıvanski,** məlum olduğu kimi, çox müdrik və mehriban, hətta rəhmdil adam idi.

Qriboyedovun məlumatlarında isə Kalbalı xan son dərəcə mənfi təsvir olunur. O, əlində İran hökumətinin müvafiq göstərişi olmadığını bəhanə edərək, rus dəstəsinə kömək istəmir. Qriboyedov öz məruzəsində qeyzlə yazır ki, Kalbalı xan müxtəlif ailə səbəblərinə, hətta hərəmxanasında baş verən davadalaşa istinad edərək onunla heç



Kalbalı xan Naxçıvanski
Rəssam Əsgər Məmmədov

görüşmək də istəməyib. İkicə il əvvəl Rusiyanın Fövqəladə səfiri general Yermolovu qonaqpərvərliklə qəbul edən və generalın haqqında böyük ehtiramla danışdığı həmin xan Qriboyedov üçün bədxah sərdara, gənc diplomatın xeyirxah missiyasına, yəqin ki, düşmən münasibət bəsləyən kobud İran məmuruna çevrilir. Kalbalı xanın adı xatırlanan yüzlərlə səhifədən çox tarixi materiallarda biz, ağsaçlı Naxçıvan xanının başına titulyar müşavir A.S.Qriboyedovun yağdırdığı qədər təqsir və günaha rast gəlmədik. O, Kalbalı xanı və onun yumşaq qəlbini – qəddar köləliyi və müdafiəsizliyi özü bilavasitə yaşamış bir insanın qəlbini heç cür başa düşmək istəmirdi. Müdrik Kalbalı xan isə rus qayda-qanunlarını yaxşı bilirdi və Qriboyedovdan uzağı görürdü. O, başa düşürdü ki, İran hökumətinin sabiq rus əsgərlərini vətənə geri qaytarmaq istəməməsi, hər şeydən əvvəl, bu dövlətin onları öz ordusunda saxlamaq cəhdi ilə bağlıdır, ancaq Kalbalı xan Naxçıvanski qova-qova vətənə aparılan əsir və fərarilərin kədərli taleyini qabaqcadan görür və bu onu narahat edirdi.

Kalbalı xan Naxçıvanski dərk edirdi ki, rus əsgərlərini, onların bir çoxunun özünə sığınacaq tapdığı, ailə sahibi olduğu, hörmətli vətəndaşa çevrildiyi bir ölkənin – İranın, necə deyərlər, əsirliyindən "qurtarıb", zorla başqa bir əsirliyə, bu dəfə artıq həqiqi, vətən əsirliyinə qovurlar. Vətənpərvər əhval-ruhiyyəli Qriboyedov Gülüstan müqaviləsinin müvafiq bəndini yerinə yetirmək istəyənləri aldadıb Rusiyaya çalışırdı. Rusiya I Aleksandrın dövründə sabiq həmvətənlərini qəbul etməyə, öz vətəndaşı kimi onların həyatını təşkil etməyə, ailələri ilə birləşdirməyə, keçmiş fərariləri katorqaya göndərməməyə hazır deyildi. Diplomat Qriboyedov isə qanunla deyil, xoşniyyət və sağlam düşüncə ilə silahlanmışdı. Yalnız gələcək Ümumrusiya İmperatoru I Nikolay öz sələflərindən fərqli olaraq, əsir və fərarilərin probleminə dərindən nüfuz edəcək, rusları doğma vətənə cəlb edə biləcək stimullar yaradacaqdı...

Lakin, sağlam gözlülərdən daha yaxşı görən Kalbalı xan Qribayedov üçün avtoritet deyildi – Naxçıvanda o, rus dəstəsi üçün başlıca bədxaha və bütün bəlaların günahkarına çevrilmişdi. Bütün əngəllərə baxmayaraq, Qriboyedov başladığı işin üstündə möhkəm dayanmışdı: sabiq rus təbəələri, heç bir maneəyə baxmadan hökmən, qeyd-şərtsiz vətənə qayıtmalı idilər. İnadkar Qriboyedovu heç nə sındıra bilməmişdi və o, dəstəni Rusiyaya aparmağa inadla davam edirdi.

RUSİYANIN İRANDAKI İŞLƏR VƏKİLİ
SİMON İVANOVİÇ MAZAROV CƏNABLARINA RAPORT

Məlumatın üzərində S.İ. Mazarovun xətti ilə yazılıb:
"18 sentyabr 1819-cu ildə alınıb"

Hörmətli cənab (...)

Mənim mehmandarım Mahmud bəy mənimlə bağlı vəzifələrini, indiyə kimi rastlaşdığım ən böyük fırıldaqçı və sözün ən geniş mənasında vicdansız adam yerinə yetirdi və əgər Təbriz hökuməti, onun mənə göndərdiyi üçün özünə nədəsə bəraət qazandırmaq istəyirsə, o, ən azı bu adamı qamçılamalıdır; belə cəza bu ölkədə çox səxavətlə verilir və çox adi qəbul edilir. Bəli, mən ondan da, Təbrizdən başlayaraq, digər İran zabitlərindən də ciddi şəkildə şikayət etməyə məcburam. Ancaq heç kəs məndən şikayət edə bilməz, bunu yalnız uydura bilərlər.

Əgər mən Naxçıvanda **Kalbalı xanın** çatdırmaq üçün mənə göndərdiyi axmaq bir şeyə acıqlı cavab vermişəmsə, bu, həmişə onun kobudluğu ilə müqayisədə, çox nəzakətli şəkildə olub və əgər mən bəzən mehmandarı möhkəm söymüşəmsə, bu da hər halda onun yüz dəfə layiq olduğu qamçı zərbələri deyildi. Yolda bizi daşa basırdılar, ancaq mən öz adamlarımın xatirinə qəsdən susur, qəzəbimi zorla da olsa, boğurdum, onlar da özlərini sakit aparırdılar. Biz günün günorta çağında saysız-hesabsız, şahzadənin əsgərləri tərəfindən daim viran edilən – burada hər cür zorakılıq və talan onun adı ilə həyata keçirilir – bostanların yanından keçirdik, ancaq mənim adamlarım ordan bir qovunu belə pulunu ödəmədən və ya onun haqqını onların əvəzinə mən ödəmədən qırmağa cəsarət etmirdilər, mən də həvəslə və tez-tez

buna razı olurdum, çünki yorğun piyadaya susuzluğu kəsən meyvə almaqdan imtina etmək ilin indiki vaxtında iyrənc bir xəsislik olardı, adamları mənim ardımca gəlməyə heç cür təlqin edə bilməzdi. İndi isə, başıma nələr gəldiyindən sizi xəbərdar etmək üçün mən sizə Naxçıvan haqqında danışacağam. Orada mənim düz iki gün, necə deyərlər, əl-qolumu bağladılar. Birinci gün axşam az miqdarda azuqə gətirdilər, növbəti gün isə heç nə vermədilər və mənə yük atları verməkdən imtina etdilər, çarvadar onları mənə pulla verməyi ciddi qadağan etmişdilər. Mehmandar mənə deyirdi ki, bütün bu qarmaqarışıqlıq Kalbalı xandan gəlir, xan etiraz edir ki, o Fərmandeşdən Naxçıvana qədər mənim qayğımı çəkməyə borclu deyil və onun şəhərində bizim heç bir qanuni himayədarlıq haqqımız yoxdur, dolayısı ilə mənə çatdırırlar ki, mən çox asanlıqla həbs oluna və Təbrizdən yeni əmr gələnə qədər saxlana bilərəm. Buraya gələndə Kalbalı xan hərəmxanasında yaranmış vəziyyəti bəhanə gətirərək, mənimlə görüşməkdən imtina etdi, həmin gün o, hərəmxanasında gizlənmişdi. Növbəti günə görüş təyin etdi: saat yarım onu qəbulunda gözlədim, ancaq heç nə hasil olmadı və nəhayət, açıq-aşkar mənasız səbəblər gətirərək, – onları burada təkrarlamağa dəyməz – məni buraxmalarını əmr etdi. Lakin bu kobud personaj haqda, hörmətli cənab, heç də pis rəy söyləmirdilər. Mən bilmirəm ki, bu iranlılar əslində nəyə nail olmaq istəyirlər, ancaq görün mən nə elədim. Birinci gün mənim adamlarım ermənilərin hazırladığı tünd içkilərə qurşandılar; işim başımdan aşdığı üçün buna əngəl ola bilmədim, ancaq axşam mənim adamlarımı içirmək, onlara bir neçə tümən verib, mənim əlimdən almaq üçün qəsdən sərxoş etdiklərini anlayanda, öz adamlarımın hamısını bir yerə yığdım, evin ətrafına etibarlı keşikçi dəstəsi qoydum, gecə qəfil qalxıb, özüm şəxsi baxış keçirdim, öz aralarında yüngülcə səs-küy salan bir neçəsinin əl-ayağının bağlanmasını əmr etdim, özümü çox hirsli göstərərək, onları möhkəm danladım və sabah kim ağzına bir damcı araq alsa və buna üsyan etsə, onu cəzalandırmaq və sonra da İran hökumətinin kündəsinə təslim etməklə hədələdim, bunun isə nə demək olduğunu onlar yaxşı bilirdilər. Onlara anlatdım ki, mənə ehtiyacları var və mənim heç bir xüsusi marağım, onların sağ-salamat qalmasına heç bir məsuliyyətim yoxdur. Hamısı sakitləşdi və sabahı gün heç kim bazara getmək üçün xahiş

eləmədi və heç kim içmədi. Buradan Qarabağa qədər yol hər cəhətdən çox da etibarlı olmadığı və həm də yaxşı bir hökumət konvoyuna arxayın olmadığım üçün, əmr etdim ki, təcili dəmirdən əlli ədəd nizə düzəltsinlər, onları öz dəstəmə payladım. Pis silahdır, ancaq ondan Əbülfət xana* və yaxud həmişə ətrafda pusqu qurub, bizim şəhərdən şəhərə gedən adamlarımıza hücum edən gürcü qulduru Aleksandra qarşı müdafiə zamanı istifadə etmək olardı.

Yalnız çaparxanada quluq edən Mirzə Məmiş sayəsində mən, – ona, onu sizin lütfünüzə tövsiyə edəcəyim barədə vəd vermişdim – gecə xəlvətcə altı at tapdım, çünki gündüz heç kim onları mənə tapmağa cəsarət etməzdi. Bu yalnız, xəstələr üçün kifayət idi, ancaq vəziyyət bunu tələb edirdi və axşam saat 10-a yaxın mən öz adamlarımı oradan çıxardım. Əslində biz, xanın və mehmandarın xəbəri olmadan oradan, necə deyərlər, qaçmalı olduq: heç kim bilmədi ki, hara gedirik, bunu yalnız yolda tutduğum bələdçi bilirdi. Ancaq bu gecə qaçışımız mənim üçün bədbəxtliyə çevrildi. İlk bədbəxt hadisə hələ şəhərdə ikən baş verdi. Mənim dəstəmdə Təbrizdən gələn Vasilkov adlı bir əsgər vardı, o, Rusiyada törətdiyi cinayətə görə ordu sıralarından qovulmuşdu. Məlum oldu ki, onun dizində revmatizm xəstəliyi var, onun qayğısına xüsusi qalırdım, heç vaxt onu yumşaq əşya bağlamasının üstündən yerə düşməyə məcbur etmirdim, dizlərini romla səliqəli şəkildə ovdurur və gecə nəmliyindən qoruyurdum, indi o, atın belindən yerə sıçrayıb, mənə dedi ki, xəstəliyim burdan o yana getməyə imkan vermir. Mən ona daha rahat at təklif elədim, öz atımı ona verdim, yoldaşlarının onu aparmasını istədim – ancaq bunun hamısı havayı oldu; o, soyuq bir qətiyyətlə dedi ki, mənim ardımca getməyəcək və mən onu haqlı olaraq öldürə bilərəm. Əlbəttə, buna haqqım vardı, qanunla icazə verilsə də, belə bir hərəkət həssas insan üçün iyrənc bir şeydir. Mən başqalarını sakitləşdirib və bu işi bacardığı qədər onlardan gizlətdim və o öz taleyinin

* Əbülfət xan Çuğundurlu, doğma qardaşı Mehdiqulu xana məxsus olan Qarabağ xanlığının ona veriləcəyi təqdirdə 4000 ailə ilə birlikdə rus təbəəliyinə keçmək istəyirdi, ancaq Yermolov, Abbas Mirzəyə olan rəğbətinə görə Əbülfət xanın rus təbəəliyinə qəbul edilməsinin əleyhinə çıxdı.

ümidinə qaldı; iranlılar onu öldürmək üçün fürsəti əldən buraxmayacaqlar. Biz xeyli enli və dərin üç çaydan keçdik, bu da hər dəfə qarmaqarışıqlıq yaradırdı. Hamının yerində olmasını yoxlamaq üçün dayandım: iki nəfər yox idi. Mənim nə qədər narahat olduğumu təsəvvürünüzə gətirin; bu, şəhərdən cəmi beş verst aralıda baş vermişdi. Burda düşərgə saldım, bir qisminə yatmağı, digər qisminə qarovul çəkməyi əmr etdim, özüm isə bağdadlı Yusiflə onları axtarıb tapmaq üçün geriyə çapdım. Elə hey qışqırır, adlarını çağırırdım,

Yusif də o cür: ancaq hay verən yox idi, uzaqdan yalnız bir neçə avaralanan tatarın səsi eşidilirdi. Matım-qutum qurumuşdu. Allahın köməyi ilə yolu azmadıq, ancaq geriyə ümidsiz qayıtdıq. Öz-özümə deyirdim ki, yəqin onlar içib, yola çıxarkən qarmaqarışıqlıqda ağıllarını və güclərini itiriblər. Onların ardınca əli silahlı daha üç atlı göndərdim; axtarış sabah sübh açılanacan davam etdi. İtkinlərdən birini tapıb yanıma gətirdilər, gümanım düz çıxdı: o, şəhərdən özü ilə bir bardaq çaxır götürübmüş. İkincisi isə tapılmadı, ola bilsin ki, həmişəlik. Onun adı Larindir, yaraşıqlı bir oğlandır, etibarlı görünür, sakitdir, ancaq içkiyə meyllidir. Əgər onun Təbrizə gətirildiyini öyrənsəniz, onun azad olunmasına çalışın. Onun itməsinə görə çox dilxor olmuşam. Özümlə apardıqlarımın sayını mən yalnız, Alvar deyilən yerdən çıxdıqdan sonra yolun yarısında yoxlaya bilərəm. Bu yaxında mənə Meydanda (Abbas Mirzə tərəfindən Təbriz meydanında tikilən silah anbarı – R. İ.) qalan məhbusların siyahısını gətirdilər. Faktiki say – 158 olub; biri (1 №-li məruzəmdə xatırlatdığım) əvvəldən yox idi, ikisi Naxçıvanda itirilib, qalır 155 (...) Bu gün sübh çağı öyrəndim ki, biz Araz çayı yaxınlığındakı dərədən Naxçıvana qədər uzanan vadidəyik, yalnız bir az şimal-qərb tərəfdə. Biz dağların arası ilə irəlilədik və bir neçə saat yol gedəndən sonra, elə bilirəm dörd fərsəng aralanaraq, məşhur İlan dağına (Naxçıvan ətrafındakı) çatdıq. Burda qazançı adlanan bir kəndə qalxdıq, ordan sizə yazıram. Bizə məxsus olan Pirnavuta çatmaq üçün mən sabah, deyilənə görə, daşlı və nahamar olan yolla səkkiz fərsəng məsafə qət etməliyəm. Əgər biz oraya sağ-salamat gedib çıxsaq, onda deyə bilərəm ki, iranlıların bizə istədikləri qədər ziyan vurmağa ağılları çatmır.

Təsəvvür edin ki, mən dünən bizim sərhəd komendantının yanına göndərməyə adam tapmadım. Dünən bizim birinci rus postunun yerləşdiyi Gorusdan olan bir nəfər gəldi. O,

karvanla oraya qayıdırdı. Mən öz məktubumu ona tapşırmaq istədim, o isə bu xırda iş üçün məndən 50 dana istədi! Bu hədsiz istəyi, onun sədaqətinə heç bir zəmanətim olmadığı üçün rədd etməyi üstün tutdum və o adamın adını öz gündəliyimdə qeyd elədim.



Əsir və fərari dəstəsini Rusiyaya yola salarkən
Kalbalı xan onları orada nələr gözlədiyini bilirdi
Rəssam Əsgər Məmmədov

Bu ermənilər nə qədər alçaq toxumdurlar! Onların heç biri məni tanımaq istəmədi, ancaq bununla belə bizə pıçıldayırlar ki, biz onların gələcək (in spe) himayədarlarıyıq. Yaxşı proteges! Onlar bizi, onları çarmıxa çəkib və hər cür ədva ilə qaynar qazanda bişirməyə hazır olan iranlılara satırlar; bu yaxınlarda onlar iki ermənini Naxçıvanda yandırıblar. (seçmə – R. İ.)

Mən sizə, hörmətli cənab, hazırkı vəziyyətimlə çox maraqlandığınızı bildiyim üçün daha ətraflı yaza bilərdim, ancaq döşəməyə dirsəklənək yazmağın narahatlığı, hər dəfə sürünə-sürünə yazdıqlarımın üstünə çıxıb məni yerimdən sıçramağa vadar edən zəhərli cücü topası, hər dəqiqə şamı vurub söndürən külək, nəhayət, yorğunluq və yuxusuz keçirdiyim gecə – bütün bunlar sizə öz raportumu yazarkən mənə iki cümləni bir-birinə calamağa imkan vermir, cızma-qaralarıma görə məni bağışlayın.

Məktubumun əvvəlində şahzadənin məni Naxçıvanda köməksiz qoymağa yönəlmiş fərmanı, Kalbalı xanın düşmənçiliyi və Mahmud bəyin ikiüzlülüyü barədə öz fikrimi artıq bildirmiş olsam da, hörmətli cənab, siz, bunlarla bağlı öz bildiyiniz kimi hərəkət edərsiniz, mən sizin qərarlarınızı qınaya bilmərəm və hətta siz bu işi su üzərinə çıxarmamağı zəruri hesab etsəniz, mən bundan məyus olmayacağam, çünki, nəhayət, artıq demək olar ki, mən bütün öz bəlalarımdan qurtulmuşam. Mən artıq Mehmandarı az qala Qarabağa qədər qaçmağa məcbur etdiyim üçün məmnunam. Orada məni tapmadığı üçün tələsik buraya qayıdıb, onun mənə göstərdiyi yolla getmədiyimə çox təəccüb qaldı. Mən ona çatdırdım ki, əgər o, azacıq da olsa, mənim qeydimə qalsaydı, məni Arazı keçəndən sonra dərə ilə birbaş gətirərdi, onda mən də üç gün irəli düşər və bu qədər xoşagəlməz hadisələrdən xilas olardım! O məni indi tərk edir, ancaq mən buna görə özümü atılmış hiss etməyəcəyəm. Ona çox nadir hallarda bir şey deyən vicdanı onu bundan qorxmağa məcbur edir ki, mənim arxamca Pirnavuta (Rusiyanın hakimiyyəti altında olan kəndə) gəlsə, mən oradakıları onunla sərt davranmağa məcbur edəcəyəm. Bu əclaf anlamır ki, bizim ərazidə heç bir ədavət hissi məni qonaqpərvərlik borcunu pozmağa məcbur edə bilməz: bu yol mənim ölkəmin bütün insanları üçün comərdlik yoludur

Hörmətli cənab, sadiq qulunuz Aleksandr Qriboyedovun sizə olan dərin hörmət hissini qəbul edin.

(Попова О. И. Грибоедов в Персии. М., 1929, səh. 56-64)

"BU DÜNYANIN ONLAR ÜÇÜN XOŞ OLDUĞUNA İNANANLAR XOŞBƏXTDİRLƏR"

Qriboyedovun başçılıq etdiyi, ağır yol yorğunluğundan üzülüb əldən düşmüş əsir və fərarilər dəstəsi 1819-cu il oktyabrın 3-də nəhayət gəlib Tiflisə çatdı. Burada onları nə musiqi, nə də xoş təbəssümlə qarşılamadılar. Qriboyedov

artıq Vətən naminə göstərdiyi qəhrəmanlıq barədə düşünmürdü. Onu, Rusiyaya gətirdiyi əsir və fərari əsgərlərin bundan sonrakı taleyi barədə düşüncələr narahat edirdi. Tiflisə gəlib çatdıqdan üç gün sonra, 1819-cu il oktyabrın 6-da Qriboyedov min bir əziyyətlə vətənə gətirib çıxardığı, artıq onun üçün doğmalaşan bu insanların acı aqibət ilə üzləşə biləcəklərini daha dərindən hiss etməyə başlayır və S. İ. Mazaroviçə məruzəsində bunları açıq ifadə edir:

RUSİYANIN İRANDAKI İŞLƏR VƏKİLİ
SİMON İVANOVİÇ MAZAROV CƏNABLARINA RAPORT

18 sentyabr 1819-cu ildə alınıb

...General-leytenant Velyaminov A.A. (Xüsusi Qafqaz korpusunun qərargah rəisi – R.İ.) ondan asılı olan hər şeyi eləməyə çalışır ki, bu bədbəxt insanların gözündə mən mümkün qədər az günahkar olum, lakin onların 80-nin önündə mən hər halda günahkaram. Onların ümumi xoşbəxtliyi naminə çəkdiyimiz o qədər əziyyətdən, o qədər xoşagəlməz hadisələrdən sonra bu, çox acı bir şeydir (...)

Hörmətli cənab! Qarşısıalınmaz xeyirxahlıq coşqunluğu o vaxt sizə indi baş verən qaçılmaz nəticələri görməyə əngəl oldu və mən axmaq və yalançı vəziyyətinə düşdüm!

(Попова О. И. Грибоедов в Персии. М., 1929, səh. 69-70)

Qafqazın baş komandanı general A.P.Yermolov Qriboyedovun bu fəaliyyətinə müsbət yanaşırdı. Çünki Rusiyanın İrandakı Fövqəladə və səlahiyyətli səfiri general Yermolova 1817-ci ildə, 200 nəfərlik məiyyəti ilə birlikdə ona verilən çox böyük dövlət səlahiyyətlərinə baxmayaraq, nəinki kiçik bir qrupu, hətta bir nəfər belə keçmiş rusiyalını İrandan çıxarmaq müyəssər olmamışdı. Yalnız coşqun vətənpərvərlik və güclü iradə ilə silahlanmış diplomat məmur Qriboyedov o dövr üçün mümkün olmazı bacarmışdı. Gürcüstandakı baş komandan, cəsarətli və qətiyyətli general Yermolov onun bu xidmətini layiqincə qiymətləndirmişdi.


GENERAL YERMOLOVDAN –
İRANDAKI RUS ELÇİSİ MAZAROVİÇƏ
11 NOYABR 1819-CU İL, TİFLİS

Missiyanın katibi Qriboyedov bizim əsir götürülən və fərari əsgərlərimizin vətənə qaytarılmasının sizə nə qədər çox əziyyətlər çəkdirdiyini mənə ətraflı izah elədi və mən onların azad edilməsinə görə təşəkkür etməyə borcluyam, Sizin, İran hökumətini ədalətli tələbinizə boyun əyməyə məcbur edən möhkəm iradənizə xüsusi ehtiramla yanaşmalıyam (...) Sizi əmin edə bilərəm ki, öz azadlıqlarına görə Sizin comərd səylərinizə borclu olan insanlar onlara vəd etdiyiniz kimi, yalnız əfvdən deyil, həm də xeyirxah qəbuldan yararlanacaqlar; onlar hələ Gürcüstana gəlib çıxmamışdan əvvəl mən bununla bağlı sərəncam və pul yardımı vermişəm. Bu hadisə ilə əlaqədar, Qriboyedovun geri qayıdan əsgərlərlə bağlı qayğıkeşliyini qeyd etmək mənim üçün xoşdur və Sizin ona həvalə etdiyiniz tapşırıqları yerinə yetirdiyinə, bu zaman öz nəcib davranışı ilə Abbas Mirzəni qəzəbləndirdiyinə, hətta elə o qədər nəcib bir kobudluqla onun sözünü kəsərək, Rus məmurunun ləyaqətini onu anlatdığına görə mən onu haqlı olaraq tərifləməkdən imtina edə bilmərəm.

(AKAK, c. 6, 2-ci hissə, səh. 219)

Cəsur və çılğın Rusiya vətənpərvəri A.S.Qriboyedov vətənin xeyiri naminə rəşadət göstərmək istəyirdi. Hər gün öz həyatını təhlükəyə ataraq, o öz missiyasının müqəddəsliyinə səmimi-qəlbdən inanırdı. O, əmin idi ki, öz həmvətənlərini onların xoşbəxt gələcəyi naminə xilas edir. Bu gələcək üçün o, öz həyatını qurban verməyə hazır idi. *"Zavallı həmvətənlərimin yolunda başımdan keçərəm"* – Qriboyedov öz yol qeydlərində yazır. Gənc diplomat inanırdı ki, rus əsgərləri İranda təhqir edilir və alçaldılırlar, bunun əvəzinə Rusiyada onları əfv olunmaq gözləyir, vətən öz əsgərlərini çoxdan həsrətində olduğu tamhüquqlu vətəndaşları kimi onlara geniş qucaq açaraq qarşılayacaqdır. Ancaq sərt Rusiya gerçəkliyi bu dəstənin həyəcanlı başçısının mavi arzularını puça çıxardı. Rus torpağının möhkəm əqidəli vətənpərvəri, ziyalı zadəgan ailəsindən çıxmış bir insan kimi, Qriboyedov Rusiyada bütün dövrlərdə, həm ondan əvvəl

və həm də sonra rus əsir və fərarilərinin satqın, vətən xaini hesab edildiyindən xəbərsiz idi və bunu anlamağa macal da tapmadı. Əgər onlar hansı bir yollasa Vətənə qayıtsalar da, doğma torpağa ayaq basan kimi, ən yaxşı halda yad adama çevrilir, pis halda isə onlara satqın damğası vurulur və belə insanlar çox vaxt öz həyatlarını katorqada başa vururdular. *"Bu dünyanın onlar üçün xoş olduğuna inananlar xoşbəxtdirlər"* – A.S.Qriboyedov özünün ölməz "Ağıldan bəla" əsərində yazmışdır.



Dünyanın hər yerində olduğu kimi
İranda da fərariləri ağır cəzalandırırdılar

Axı Qriboyedov İrandan çıxardığı dəstənin əsgərləri qarşısında doğrudan da yalançı məmura çevrilmişdi. Bütün bu nəcib duyğulardan, çəkdiyi əzab-əziyyətlərdən sonra Qriboyedova vicdan əzabı çəkməkdən başqa heç nə qala bilməzdi.

O vaxtlar Rusiya sarayını əsir düşən, xüsusən də fərarilik etmiş həmvətənlərin taleyi maraqlandırmırdı. Qafqazdakı baş komandan general A.P.Yermolov A.S.Qriboyedovun

hərəkətini çox əhəmiyyətli və mükafata, xüsusən də rütbəsinin artırılmasına layiq olduğunu etiraf etsə də, Rusiyanın Xarici İşlər Nazirliyi əksinə, İranla kövrək sülhü qoruyub saxlamaq naminə bu ölkənin hökuməti ilə münasibətləri heç cür korlamaq istəmədiyi üçün özünü İbrahim peyğəmbərə bənzətməyə çalışan Qriboyedovun bu fədakarlığını bəyənmədi. Nazirlik belə hesab edirdi ki, İrandakı sabiq rus əsir və fərarilərindən ibarət dəstə təşkil etmək və onu Rusiyaya qədər müşayiət etmək təşəbbüsünü öz üzərinə götürməklə Qriboyedov ona aid olmayan bir işə girişmişdir və general Yermolova göndərdiyi məktubda izah edirdi ki, "*diplomatik məmur bu cür iş tutmamalı idi*" («Русская старина», 1859, № 4. səh. 79).

Qriboyedovun özü bu qədər çətinliklə Rusiyaya gətirdiyi dəstədəki əsir və fərarilərin sonrakı taleyi haqda bizə heç bir məlumat qoymamışdır. Biz Rusiya hökumətinin ayrı-ayrılıqda hər bir əsgər barədə nə tədbir gördüyünü izləməyə çalışsaq da, bu istiqamətdə də heç nə öyrənə bilmədik. A.P. Berjenin çox namusla yığıb topladığı aktlar (AKAK) arasında da Qriboyedovun Rusiyaya gətirdiyi dəstənin taleyi barədə heç bir sənəd yoxdur. Yeri gəlmişkən, general Yermolovun A.S. Qriboyedovu növbəti rütbə ilə mükafatlandırılması barədə xahişinin uzun müddət diqqətdən kənarda qalması heç də təsadüfi deyil.

Doqquz ildən sonra Rusiyanın İrandakı Səlahiyyətli naziri A.S.Qriboyedov Rusiyanın və taleyin hökmü ilə qürbətə düşən rusiyalıların nüfuzunu uca tutmaq naminə göstərdiyi öz fanatik və əsassız qayğıkeşliyinin qurbanına çevriləcəkdi, halbuki, onların arasında mənəvi əxlaqları baxımından Rusiya torpağına qaytarılmağa heç də layiq olmayanlar vardı

Axı Rusiya İmperiyasının ən parlaq insanlarından biri,
Rusiyanın İrandakı Səlahiyyətli naziri
A.S.Qriboyedov məhz onların uğrunda
öz qiymətli həyatını fəda etmişdir.

RUS ORDUSUNUN İRAN ƏRAZİLƏRİNƏ ZƏFƏR YÜRÜŞÜ

RUS İMPERİYASI ORDUSUNUN İRANIN DAXİLİ ƏRAZİLƏRİNƏ HÜCUMU

Qafqazdakı rus ordusunun baş komandanı **İvan Feodoroviç Paskeviçin** (1782-1856) şəxsi komandanlığı altında rus ordusunun çox sürətlə İran ərazisinə hərəkət etməsi İran sarayını təşvişə salmağa başladı. Nəzərə alına bilər ki, Əlahəzrətin ordusunun belə bir yürüşü İran torpaqlarını fəth etmək məqsədi güdmürdü, hərçənd ki, iranlıların xaincəsinə Rusiyaya qarşı müharibəyə başlaması, həmçinin ilk vaxtlarda düşmənin hərbi uğurları və bizim tərəfdən itkilərin verilməsi belə nəticə çıxarmağa əsas verirdi. General Paskeviç sülh haqqında düşünmürdü, lakin düşmənin ciddi sülh təklifini də nəzərdən keçirməyə hazır idi. Əlbəttə ki, özündənrazı iranlılar öz ordularının rus silahları tərəfindən darmadağın edilməsini ağıllarının ucuna belə gətirmirdilər. Bununla belə onlar məşhur iranlı bicliyindən istifadə edərək rus komandanlığının niyyətini aydınlaşdırmağa cəhd göstərdilər.

1827-ci ilin ortalarında, general Paskeviçin öndə gedən dəstəsi Eçimədzində qısamüddətli istirahətə dayandığı vaxt şahzadə Abbas Mirzə öz etibarlı adamı Nəcəfəli Sultan Əfşarlı ilə generala məktub göndərdi. O dövrdə Abbas Mirzəyə şah sarayı tərəfindən sülh danışıqlarını aparmaq səlahiyyəti verilmişdi. Məktubda Abbas Mirzə Rusiyaya bəzi əraziləri – Lənkəran və Başabaranı güzəştə getməyi təklif edirdi, yəni o əraziləri ki, çoxdan Rus İmperiyasına məxsus idi.

General Paskeviç iranlıların sülhlə bağlı niyyətlərinin ciddi olduğuna inanmadı. O, bu məktub haqda Sankt-Peterburqda vitse-kansler Nesselrodu məlumatlandırır və öz şərhini verir:

> "Abbas Mirzənin məktubu – bizim silah və ordumuzun vəziyyəti və mənim gələcək niyyətlərimi aydınlaşdırmaq üçün onun elçisi tərəfindən bir bəhanədir. Bu elçi Təbriz şahzadəsinin əsl casusudur. O, özünün də mənsub olduğu əfşar qəbiləsinin çox güclü olduğu Sərdarabadın təhvil verilməsini mənə təklif etdi. Başqa xidmətlər də təklif edir, mən də əvəzində Avşar köçərilərinin yerləşdiyi Urmiya gölünün yaxınlığında böyük bir əraziyə onu rəis təyin edim. Aldadıcı sözlərdə, hətta yazılı inandırmada da həqiqətə uyğun zəmanət yox idi.
>
> Biz heç kimi aldatmırıq və heç kimə də imkan vermərik ki, bizi aldatsın"
>
> *(AKAK.c. 7, səh. 546)*



General
Paskeviç İ.F.

Bu ideya ilə general Paskeviç inamla Rus ordusunu İran torpaqlarını zəbt etməyə göndərdi. 28 iyin 1827-ci ildə Naxçıvan şəhərini bu qədim diyarın əhalisinin xeyirxahlığı və kor **Kalbalı xanın** oğulları – **Ehsan xan və Şıxəli bəyin** köməkliyi ilə tutaraq rus ordusu dayanmadan Araz çayının lap yaxınlığında, Naxçıvandan 10 verst məsafədə yerləşən Abbasabad qalasına hücuma keçdi. Artıq 1 iyulda general Paskeviç Abbasabadı mühasirəyə almağı əmr etdi.

Qala o dövrün hərbi tələblərinə uyğun olaraq tikilmişdi və Naxçıvan xanlığının mühafizəsi üçün forpost kimi fikirləşilmişdi. Üzü Araz çayına yönəldilmiş beşbucaqlı formadadır. Daşlarla döşədilmiş qala xəndəyinin dərinliyi 9 arşındı. Qalada 18 topu olan üçminlik qarnizon yerləşdirilmişdi.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTU,
4 İYUL 1827-Cİ İL, ABBASABAD

Bu müharibə ərzində hər bir hərəkətim, hətta düşüncəmdə olan hərəkət haqqında belə Əlahəzrət İmperatora təcili və doğru hesabat verməyi özümə müqəddəs borc bilərək aşağıdakı məlumatları çatdırmaq xoşbəxtliyini yaşayıram (...)

Abbasabad sərhəng (polkovnik) **Ehsan xan Naxçıvanskinin** və Məmməd Rza xan Təbrizlinin (hər ikisi şahın kürəkəni Məmməd Əmin xanın başçılığı altında) komandanlığı altında üç minlik qarnizonla müdafiə olunur. Məmməd Əmin xan könüllü olaraq qalanı təhvil vermək təklifimi rədd etdi.

Etibarlı məlumata görə Şah güclü ordusu ilə Xoyda, Abbas Mirzə – Naxçıvandan Xoya gedən yolun tən ortasında yerləşən Çorsdadır. Mənim məqsədim Abbasabadı mühasirəyə alaraq əsas İran güclərini bura cəlb etmək və əgər düşmən qarnizona köməyə gələrsə, onunla döyüşə girmək, yox əgər yaxınlaşmağa vaxtları çatmazsa, qalanı ələ keçirməkdir.

29 iyunda mən güclü ərazi kəşfiyyatı yoxlaması apardım. Eyni zamanda bizim kavaleriya general-leytenantı **Bekendorf Konstantin Xristoforovoçin** (1785-1828) başçılığı altında Araz çayının dayaz yerindən keçməyə cəhd göstərdi və qısa bir müddətdə əks sahili İran süvarilərindən təmizləyərək onları sahildən uzaqlaşdırdı.



General-leytenant
K.X.Benkendorf

Üzü Qalaya baxan Qızılburun kilsəsi 7-ci karabiner polkunun bölüyü tərəfindən tutulmuşdu.

1 iyulda Abbasabaddan Çors yolunun əks istiqamətində çay sahili boyunca 2 verst aralıda dayanmışdım. Əlahəzrət İmperator ordusunun şərəf və comərd gücü ilə möhkəmlənmiş olmasına baxmayaraq bütün bunlar çox çətinlik yaradırdı. Bir gün mühasirə üçün hazırlıq apardım. 2 iyula keçən gecə şimal tərəfdən 270 sajın aralıda birinci paralel quruldu.

İyulun 3-ü səhərə yaxın düşmən sərdar İbrahim xan Qacarın başçılığı ilə 1000 nəfərlik süvari ilə Arazın o tayından

yaxınlaşdı. Amma bizim kazaklar tərəfindən qovuldular. İyulun 3-də gecəyə yaxın divarları dəlib deşən 16 topdan ibarət əsas batareya və cinah müdafiəsini məhv edən 6 top həmləyə hazır idi.

Düşmən top və tüfənglərdən güclü atəşi açdı. Lakin bizim artilleriyanın uğurlu atəşləri düşməni susmağa məcbur etdi. Bu vaxt Arazın o tayında, bütün qalanın göründüyü hündür bir yerdə 6 topdan ibarət batareya yerləşdirildi. Mühasirə işlərinin gedişatı barədə Əlahəzrət İmperatora xüsusi ətraflı məlumat vermək şərəfinə sonra nail olacağam.

Bu gün, iyulun 4-də Araz üstündən tuluq üstündə körpü salındı və Arazın bir sahili ilə o biri sahili arasında əlaqə təşkil olundu.

(AKAK, c. 7, səh. 550)



Zombarek - yüngül artilleriya əsgəri

General Paskeviç şəraiti real qiymətləndirirdi: yaxşı müdafiə olunmuş qalanı az itkilərlə almaq mümkün deyil, həm də qala qarnizonu, yəqin ki, kömək alacaqdı. Abbas Mirzə tərəfindən göndərilən kömək darmadağın edildi və geri çəkildi. Abbasabad qarnizonu köməyə ümid bəsləməsin deyə. General qalaya təslim olmaq barədə müraciət göndərdi: ***"Təslim olun "(...) İndi və ya heç vaxt! Qala güclə alındığı zaman mərhəmət olmayacaq!"***

GENERAL PASKEVİÇİN ABBASABAD QARNİZONUNA MÜRACİƏTİ
6 İYUL 1827-Cİ İL, ABBASABAD

...Siz bizim mərhəmətimizdən başqa heç bir yerdən kömək gözləməyin. Təslim olun! Sizin rəislərinizdən və sizin özünüzdən kimin vətəni Arazın bu tayındadırsa, ailəsi ilə birlikdə əvvəlki yaşayış yerlərinə qayıdacaq, qalanları isə əsirlikdə

qalacaq və hər kəs dəyişdirilənədək öz rütbəsində saxlanacaq. Bu şərtlərlə təslim olun. Bir neçə gün sonra gec olacaq. İndi və ya heç vaxt! Qala güclə alındığı zaman mərhəmət olmayacaq.

(AKAK, c. 7, səh. 550)

Qalanın müdafiə komandanı şahın kürəkəni Məmməd Əmin xanın hələ xəbəri yox idi ki, öz əfsanəvi atası Kalbalı xanın vəsiyyətini yerinə yetirən Naxçıvan sərbazları batalyonunun komandiri Ehsan xan Təbriz sərbazları batalyonunun komandiri Məmməd Rza xanı qalanı ruslara təslim etməyə razı salıb. Bu haqda artıq general Paskeviçin məlumatı var idi. Bircə bu qansız əməliyyatı qalanın müdafiə komandanına təklif etmək qalırdı. Ancaq aydın görünürdü ki, Məmməd Əmin xan bu strateji forpostu təhvil verməyə hazırlaşmırdı. Doğrudur, rus ordusunun İrana yolu üzərində hələ İrəvan qalası – Cənubi Azərbaycana müdaxiləni önləmək üçün İranın sonuncu güclü əngəli dururdu.

Bu arada rus ordusu üçün Abbasabad ətrafındakı vəziyyət ağırlaşmışdı. Qalaya düşmənin çox güclü köməyi yaxınlaşırdı. İranlılar Qalanı mühasirəyə almış rusları Araz çayı uğrunda döyüşə cəlb etməklə yayındırmaq istəyirdilər. Rus ordusunun döyüş həyatı haqda məlumat general Paskeviçin növbəti raportunda öz əksini tapırdı.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTU
7 İYUL 1827-Cİ İL, ABBASABAD

İyul ayının 5-də səhərə yaxın düşmən bizim avanposta basqın etdi və böyük üstünlük təşkil edən qüvvə hesabına Araz ətrafındakı yüksəkliyi ələ keçirdi. Eyni zamanda kəşfiyyat məlumatı var ki, şah ordusu ilə birləşən Abbas Mirzə 40 000 döyüşçü ilə mənim üstümə gəlir. Həsən xan isə öz süvari dəstəsilə Şərur yolunda mənim arxa cəbhəmə təhlükə yaradır. Mən dərhal bizim hücuma məruz qalmış postlarımıza kömək göndərdim. Düşmən qüvvələrinin 10 mindən 15 minə qədər artması haqda məlumat hər dəqiqə güclənirdi. Qalada mühasirədə olanlar təcili yardıma ümid bəsləyərək,

daha da cürətlənib, hər yandan atəş açırdılar. Vəziyyət çox mürəkkəb idi. Mən Abbasabadın mühasirəsindən vaz keçmədim. Qalaya qarşı 2 batalyonun mühafizəsi altında 22 top, arxadan gözlənilməyən hücumların qarşısını almaq üçün Naxçıvan ətrafında nəqliyyatla birgə 1.5 batalyon saxlayaraq bütün kavaleriyanı tezliklə Arazın o biri sahilinə göndərdim.

(AKAK, c. 7, səh. 550)

Mühasirədə olanlar nahaq yerə vaxtından əvvəl qələbəyə ümid bəsləmişdilər. Beş batalyonla körpünü keçən və digər üç batalyonla öz sol cinahını möhkəmlədən general Paskeviç düşmən qüvvələrinin yaxınlaşmasını gözləmədən düşmən istiqamətində 15 verstlik yürüş etdi və Cavan Bulaq çöllüyündə Abbas Mirzə ordusunu döyüşə cəlb etdi. Rus ordusunun qəfil və cəsarətli hücumu düşmənin müqavimətini qırdı və dağınıq halda geri çəkilməyə vadar etdi. General Paskeviç susuz səhrada qaçan düşməni ildırım sürəti ilə təqib etməyə başladı. General Paskeviç piyada qoşunları ilə düşmən düşərgəsinin olduğu yerdən də 8 verst daha irəli gedərək, Cavan Bulaq çayı ətrafındakı Qumlar çöllüyündə dayandı. Piyada qoşunu 25 verst, süvarilər isə 35 verst irəlilədi. General təqib etməyi dayandırmağı əmr etdi və ordunun bir hissəsi ilə elə həmin gecə Araz sahilinə qayıtdı.



Şahzadə
Abbas Mirzə

Cavan Bulaq döyüşü zamanı rus ordusunun qələbəsi düşməni mühasirədə olan Abbasabad qalasına kömək göndərmək şansından məhrum etdi.

"Cavan Bulaq qələbəsi – general Paskeviç məruzə edirdi – Rus atlı alayına rəğbət bəsləyən şanlı Asiya atlılarını ürəkdən sevindirmişdi. 1827-ci il iyulun 5-də düşmən 2 bayrağından məhrum oldu, 400 nəfər itki verdi, 100 nəfər əsir düşdü. Əsir düşənlər arasın-

da güclü Müqəddəm tayfasının başçısı Vəli xan, Abbas Mirzənin sevimli *pişxidməti* və onun silahdaşıyanı, digər tanınmış hərbi rəislər, şahın qohumu və Eçmiədzində olarkən Abbas Mirzənin məktubunu mənə gətirən Nəcəfəli sultan da var. Həmçinin onlardan öyrəndim ki, Allahyar xan düşmənin sağ cinahında şahın xüsusi seçilmiş atlı süvarilərinə başçılıq edir, mərkəzdə Abbas Mirzə, onun qardaşı Məlikqasım mirzə, şahın oğlu Əlinağı Mirzə Qəzvini və başqaları olub (...)

Əsirlərdən öyrəndim ki, Abbas Mirzənin özü bizim draqunlara axırıncı atəş açdıqdan sonra atına minərək onların əlindən xilas ola bilib. Onun silahı və pişxidməti qaliblərin əlinə keçib. Düşmənin atlı süvarilərinin sayı 16 000-ə qədər idi, piyada qoşunları isə o döyüşdə olmayıb. Piyada qoşunu döyüş meydanından 28 verst uzaqlıqda hərb sənətinin qanunlarına uyğun olaraq möhkəmləndirilmiş bir yerdə – Qara Ziyəddində qalmışdı. Abbas Mirzə bizi aldadaraq ora çəkməyi düşünürdü və bununla da bizi Abbasabadın mühasirəsini tərk etməyə məcbur etmək istəyirdi. Onun yaxınlarının dedikləri və ələ keçirdiyimiz məktubu göstərir ki, bizimlə qəti döyüşə girmək arzusunda olmayıb, bizim Araz çayını belə tez-tələsik keçməyimizi gözləmirmiş, sayca üstün olan süvarilərinin hesabına gözlənilmədən hücum edib bizim süvari dəstəmizi darmadağın edəcəyinə ümid bəsləyirmiş" .

(AKAK, c. 7, səh. 551)

Cavan Bulaqdakı qələbə Abbasabadın təslimini tezləşdirsin deyə iyulun 6-da sübh vaxtı qalanın əks istiqamətində yerləşən əsas rus batareyasında iranlılardan əldə edilmiş bayraqlar açıldı. Eyni zamanda qalaya əsirlərdən biri göndərildi ki, iyulun 5-də Cavan Bulaq çölündəki döyüş zamanı öz gözləri ilə gördüklərini həmyerlilərinə danışsın. General Paskeviçin hesabladığı kimi 1827-ci il iyulun 6-da Abbasabad qalası qaliblərin ixtiyarına verildi. General bu tarixi hadisəni öz raportunda belə təsvir edir:

"Abbasabad qarnizonu özünü itirib, müqaviməti dayandırdı. Komendant Məmməd Əmin xan mənə acizanə ifadələrə yazılmış bir məktub göndərdi, amma fikirləşmək üçün üç gün vaxt istədi. Mən isə bunu rədd etdim. Axşam günbatana

yaxın Naxçıvan və Təbriz batalyonlarının komandirləri – Ehsan xanla Məmməd Rza xan mənim yanıma gəldilər.

Qala təhvil verildikdən sonra iki xan – sərbazlar batalyonunun komandirləri sərbəst buraxılırlar və bizim tərəfimizdən yeni işğal edilmiş vilayətlərdə yaşaya bilərlər. Naxçıvan batalyonun komandiri polkovnik Ehsan xan rus ordusunda həqiqi hərbi xidmətə qəbul edilməsini, özünü Rusiya İmperatorunun sadiq təbəələri sırasında hiss edərək tabeçiliyində olan batalyondan düşmənə qarşı istifadə etməyi təklif etdi. Əgər təklifi qəbul olunmazsa, sərbazların evlərinə buraxılmasını istədi. Təbriz batalyonu və Bəxtiyarlar hərbi əsir kimi təslim olurlar. Bəzi qoca və evlilərə öz evlərinə qayıtmağa icazə verildi.

Şahın kürəkəni baş komandan Məmməd Əmin xan hərbi əsir kimi təslim olur (...). Müqəddəs Xanədana uzun ömürlər arzulayandan sonra Əlahəzrət İmperator ordusu rəisləri ilə birlikdə göz yaşları içərisində üç dəfə ura deyə qışqırdılar. Ürəkdən sevindilər. Ancaq igidlər, döyüşdə əhəmiyyətsiz yerə tökülən qandan həzz almırlar.

Mən öz hisslərimi ifadə etmək gücündə deyiləm. Bu gün çox gözəl oldu! Abbasabad qalasının alınması və qələbə münasibəti ilə Əlahəzrət İmperatoru acizanə surətdə təbrik edirəm. Allaha dua edirəm ki, bundan sonra da öz hökmdarımın müqəddəs iradəsinin yerinə yetirməkdə, Rus silahının şərəfini ucaltmaqda mənim yardımçım olsun . “

(AKAK, c. 7, səh. 551)

1827-ci il iyulun 7-də səhər saat 4-də Rus qoşunları Abbasabad qalasına daxil oldu.

“Qalanın təhvil verilməsi bütün hərbi ehtiramlara uyğun baş verdi. Səhər saat 7-də general-adyutant Paskeviç bütün generalitetin və öz qərargahının müşayiəti ilə qalanın əsas batareyasına gəldi. Qala qarnizonu tam heyətdə əvvəlcədən xəbər verilmiş yerdə parada düzlənmişdi... Sonra qalanın baş komandanı – şahın kürəkəni Məmməd Əmin xan qalanın açarını general Paskeviçə təqdim etdi. Baş komandanın arxasınca kətxudalar və vilayətin möhtərəm şəxsləri gəlirdi. İranlıların hər iki nizami piyada batalyonu təntənəli marşla keçdi və hər bir batalyon komandiri qalibə öz batalyonun

bayrağını təqdim etdi. Əsgərlərin arxasınca möminlər, sonra isə sakinlər gəlib keçdilər. Leyb qvardiya toplu alayı marş musiqisi altında və endirilmiş bayraqlarla Abbasabad qalasına daxil oldu.

General-adyutant Paskeviç qala divarlarını dolandı, divarlardakı güllə deşiklərinə tamaşa etdi (...) Ardınca Rus silahının qələbəsinin qeydini təntənəli surətdə başa vurmaq üçün qənimət kimi ələ keçirilmiş silahdan 101 top atəşi açıldı. Qalada 8 top və əhəmiyyətli dərəcədə hərbi sursat və ərzaq ehtiyatı ələ keçirilmişdi.

Araz çayının düz sahilində yerləşən, çayın sağ və sol sahillərini, həmçinin Naxçıvan yolunu nəzarətdə saxlayan bu qalanın ələ keçirilməsi Rus ordusu üçün çox böyük strateji əhəmiyyətə malik idi.

(Зубов Пл. Подвиги русских воинов в странах Кафказских, SPb, 1836, c.2, 4-cü hissə, səh. 134-141)

Abbasabad qalası strateji cəhətdən çox əhəmiyyətli bir mövqedə yerləşirdi. Ona görə də müasirləri dümdüz qumlu sahə olan bu yerin qeyri-adi ağır təbii şəraitinə diqqət yetirirdilər. Yayda burada çox isti olurdu, hətta temperatur müsbət 50 dərəcəni keçirdi. Arazdan axan bulanıq su həmişə çox lilli olurdu, içməli deyildi və sağlamlığa zərərli idi. Yerli əhali deyirdi ki, Abbasabadda dayanmaq belə mümkün deyil. Qala əsgərlərinin onun necə mərdliklə etdiklərinə yalnız təəccüb etmək olar.

Bu qaladakı ağır təbii şəraiti təsvir etmək üçün bir faktı da gətirmək yerinə düşər. Ətraf kəndlərin əhalisinin öz aralarında dalaşarkən bir-birilərinə qarşı ən ağır söyüşləri – **"Görüm səni Abbasabada köçəsən**! " olmuşdur.

KALBALI XANIN ÖVLADLARI ÖZ ƏFSANƏVİ

VALİDEYNLƏRİNİN VƏSİYYƏTİNİ YERİNƏ YETİRİRLƏR

Abbasabadı tutduqdan sonra rus ordusu Naxçıvan xanlığında ikinci böyük şəhər olan Ordubadı döyüşsüz ələ keçirdilər. Bunda oradakı qoşunlara komandirlik edən kor Kalbalı xanın kiçik oğlu **Şıxəli bəyin** çox böyük xidməti oldu. Rusiyaya rəğbətlərinə və keçmiş Naxçıvan xanlığı ərazisinin istila edilməsində göstərdikləri köməyə görə general Paskeviç Kalbalı xanın oğlanlarını – **Ehsan xanı Naxçıvana, Şıxəli bəyi isə Ordubada** naib təyin etdi.

İyulun 17-də Ordubad naibi Şıxəli bəy general Paskeviçə məlumat verdi ki, Rusiya təbəəliyini qəbul etməyə qərar vermiş naiblərə, onların ailələri və camaatlarına divan tutmaq üçün böyük bir İran hərbi dəstəsi Ordubada hücum etmək niyyətindədir. Belə bir şəraitdə Naxçıvan naibi Ehsan xan da general Paskeviçin sərəncamına keçdi və buraxılmış sərbaz batalyonunu yenidən toplamağa başladı. General Paskeviç rus təbəəliyinə keçmək arzusunda olan Ordubad sakinlərinə Rusiya hökumətinin həmişə kömək göstərməyə hazır olduğunu əməli surətdə sübut etməyi faydalı hesab edirdi. Belə bir kömək hətta hərbi əməliyyatlar zonasında da göstərilir.

General Paskeviçin əmri ilə üç piyada alayı və süvari artilleriya bölüyündən ibarət toplu hərbi dəstə yaradıldı. Ordubad mahalının əhalisini müdafiə etmək və orda olan naib qardaşlara – **Ehsan xan** ilə **Şıxəli bəyə** hərbi yardım göstərmək əməliyyatı general mayor Vadbolskiyə tapşırıldı. Ordubad mahalına 400 İran tüfəngi və bir ədəd top çatdırıldı. İyulun 24-də Ordubaddan qayıdan general-mayor knyaz Vadbolski general Paskeviçə məruzə etdi ki, Sərbazlar batalyonu toplanmış və silahlandırılmışdır. Artıq döyüş qabiliyyətinə malik olan Ordubad mahalı general-adyutant Paskeviçin hərbi tapşırıqlarını yerinə yetirməyə hazır idi, lakin



Ordubad şəhərinin ətrafı

Ordubada iranlıların böyük bir hərbi dəstəsinin hücum edəcəyi təqdirdə bir sərbaz batalyonunun və yerli qarnizonun gücü uzunmüddətli müdafiə üçün kifayət deyildi. İranlılar da elə buna ümid edirdilər. General Paskeviçin əsas hərbi dəstəsinin uzaqda – Qarabağda olduğunu nəzərə alan İranlılar Ordubada hücuma keçərək oranı darmadağın etmək, Ehsan xan və Şıxəli bəyin ailəsini əsir götürmək qərarına gəldilər.

Ordubada tezliklə hücum ediləcəyi barədə general Paskeviçə məlumat göndərən qardaşlar iranlıların silahlı təcavüzündən Rusiyanın təbəəsi kimi müdafiə olunmaq üçün ondan kömək istədilər. Təcili surətdə Ordubada göndərilmək üçün gürcü qrenader polkunun tərkibində knyaz general-mayor **Baqration Roman İvanoviçin** (1778-1834) komandanlığı altında hərbi dəstə təchiz olundu. Avqustun 6-da gecə yarısı knyaz Baqration Ordubada yürüş edərək naibləri ailələri və əmlakları ilə



Gəmiqayada qaya üzərində petroqliflər

birlikdə öz himayəsi altına alıb, Əylis kəndinə yollandı və orada dinc əhalini arabaları ilə birlikdə müdafiə altına aldı.

Avqustun 7-də, çətin keçilən dərələrlə əhatə olunmuş Vənənd kəndinə çatanda o, İran qüvvələrinin qəfil hücumuna məruz qaldı. Üstünlük düşmən tərəfində idi, eyni zamanda ona dinc əhalini daşıyan arabalar yük olmamışdı. Qanlı döyüş başladı, çox da böyük olmayan rus hərbi dəstəsi özünü və araba karvanını müdafiə etməkdə böyük mərdlik və əminlik göstərdi.

İranlılar xeyli itki verərək Ordubada doğru çəkildilər, ancaq general Baqrationun dəstəsini rahat buraxmadılar. Çalanan dərəsində ona yenə hücum etdilər. Cəsur gürcü batalyonu bütün müdafiə vasitələrini, bütün güllələrini tükədərək, gün boyu yalnız süngülərlə özlərinə yol açaraq, hətta yaralılar arasından belə heç bir əsir vermədən irəlilədilər. Bu qeyri-adi ekspedisiya zamanı dəstədə 20 nəfər öldü, 41 nəfər yaralandı. Ölənlərdən 2-si, yaralananlardan isə 4-ü zabit idi. Hərbi məlumat vərəqəsində qeyd olunurdu ki,



Knyaz R.İ.Baqration

> "1827-ci il avqustun 12-də general Baqrationun dəstəsi təyinat yerinə – Qarababa düşərgəsinə uğurla gəlib çıxdı və xilas olmuş ailələri əmlakları ilə birlikdə Ordubaddan özü ilə gətirdi və bizə sadiq olan Ehsan xanın xilas olunması məqsədini uğurla həyata keçirdi."
>
> *(Зубов Пл. Подвиги русских воинов в странах Кафказских, SPb, 1836, c.2, 4-cü hissə, səh. 138-141)*

1827-ci il iyulunda rus qoşunlarının İran ərazisində inamla irəlilədiyi vaxt artıq aydın idi ki, iranlılar müharibəni

uduzurlar. Əlahəzrət İmperator iranlılarla sülh barədə danışıqlar aparmaq üçün Paskeviçə icazə verdi. İranlıların xarakterinə yaxından bələd olan general onların, rusların gücü tükəndiyinə görə müharibəni dayandırmaq istədiyini düşünmələrinə imkan verə bilməzdi. General danışıqları elə qurdu ki, sülh təşəbbüsü iranlılardan gəldi.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTUNDAN, 15 İYUL 1827-Cİ İL

...Abbasabadın süqutu İran ordusunun döyüş ruhuna güclü təsir göstərib. İnamla demək olar ki, bu ordu uzun zaman özünə gələ bilməyəcək. Şah ordusunun keçdiyi və bir müddət qaldığı Xoy əyaləti viran edilib.

Birinci uğurdan sonra Əlahəzrət İmperatordan mənə düşmənə sülh təklif etmək əmr olunub. İranlıların öz xarakterinə görə belə bir comərd sülhsevərliyi bizim zəifliyimiz və hərbi əməliyyatları davam etdirməyə vəsaitimiz çatışmadığı kimi anlayacaqlarından ehtiyat edərək, mən danışıq üçün şahın bizə əsir düşmüş kürəkənini seçdim, o öz yanından öz hökumətinə bizimlə sülh bağlamaq üçün yol axtarmağın zəruriliyini bildirdi. Onun məktubu Abbas Mirzənin düşərgəsinə göndərildi. (....). Mən ordumun dözülməz iyul istisindən tamamilə məhv olmasından ehtiyat edərək, dağa çəkilmək məcburiyyətindəyəm.

(РГВИА, f. 846, s. 16, q. 4317, v. 47-48)

Həqiqətən də iranlılar ciddi surətdə sülh haqqında danışmağa başladılar.

İranlıların təklifinə əsasən ilk rəsmi danışıqlar 1827-ci il iyulun 20-də iranlıların rus qalası Abbasabaddan 29 verst aralıda yerləşən Qara Ziyəddin kəndi yaxınlığındakı düşərgəsində baş tutdu. General Paskeviç iranlılarla danışıqlar aparmağı saray müşaviri Qriboyedova həvalə etdi. İran tərəfini şahzadə Abbas Mirzə təmsil edirdi. Saray müşaviri Qriboyedovun məlumatında qeyd olunduğu kimi, əvvəlki İran lovğalığından əsər-əlamət qalmamışdı, iranlılar sülhü daha çox

arzulayırdılar. Eyni zamanda Abbas Mirzə, xüsusilə də şah və onun sarayı rus tərəfinin hazırladığı sülh təklifinin onlar üçün nə qədər ağır olduğunu hələ təsəvvür etmirdilər. Hər şeyin haqqını ödəmək lazım idi, rus ərazilərinə xaincəsinə təcavüzə görə haqq kəskin surətdə artır. Sülh danışıqları zamanı hərbi əməliyyatlar hələ dayandırılmamışdı və general Paskeviç Rus ordusunun İran torpaqlarına hərəkət tempini aşağı salmağı planlaşdırmırdı.

Danışıqlar zamanı saray müşaviri Qriboyedov şəxsi söhbət zamanı sözarası qeyd etmişdi ki, *"Bütün Azərbaycan bizim əlimizdə olanda, şahın ona bağışladığı bütün əyalətlər əlindən çıxanda Abbas Mirzə qardaşları arasında özünü necə hiss edəcək, belə bir vəziyyətə düşərsə, bunun günahı Abbas Mirzənin özündə, yanlış qərar qəbul etməsində olacaq. Əgər müharibə davam edərsə, İranın düçar olduğu bütün fəlakətlər onun adına yazılacaq. Bu da əlbəttə ki, nəinki onun varislik hüququnu təsdiq etməyəcək, hətta onu tax-tacdan uzaqlaşdıra bilər (....) İrəvan itiriləndə iranlılar Azərbaycanın paytaxtında özlərini hökmən təhlükə altında hiss edəcəklər." (AKAK, c. 7, səh. 553)*

32 yaşlı rus diplomat həqiqəti söyləyirdi. Abbas Mirzə, hətta şah sarayı da ola bilsin ki, uzaqgörən diplomat Qriboyedovun atmacalarını ciddi qəbul etmədilər. Sülh müqaviləsinin hazırlanmasında iranlıların ləngliyi – müqavilə imzalananadək, demək olar ki, yeddi ay keçəcəkdi – İrana baha başa gələcəkdi. Bütün İran Azərbaycanında həqiqətən rus üsul-idarəsi tətbiq olunacaqdı. Başda Əlahəzrət İmperator I Nikolay olmaqla rus sarayı təkbaşına, İran şahı olmadan İran (Cənubi) Azərbaycanının kimə–Rusiyaya, yoxsa İrana məxsus



Diplomat
A.C.Qriboyedov

olduğuna qərar verəcəkdi. Hələlik isə rus qoşunları sürətlə süngü və toplar vasitəsilə İranın içərilərinə doğru irəliləyirdi.

Ancaq dəhşətli istilər əsgərləri sıradan çıxardı və general Paskeviç ağır yürüşdə baş vermiş itkilərin yerini doldurmaq üçün kömək istəməyə məcbur oldu. Rusiya ərazisindən xeyli uzaqlaşmış olan general öz dəstəsinin sayını artırmaq xahişi ilə ali hakimiyyətə yük olmaq istəmirdi, ona ancaq əvvəlki heyəti tam tərkibdə saxlamaq lazım idi.

İşğal edilmiş Naxçıvan vilayətində general Paskeviç müvəqqəti rus üsul-idarəsini təşkil etdi. Hərbi hakimiyyət Abbasabad qarnizonunun komendantına verildi. Ona əhalinin hərbi dəstələr tərəfindən talan edilməsinin qarşısını almaq (İran idarəsi zamanında bu adət halını almışdı), ali rəhbərlik tərəfindən verilən göstərişlərə və bu göstərişlərin icrasına nəzarət etmək tapşırığı verildi.

Mülki hissə və dinc əhalinin yaşadığı yerlərdə rəhbərlik rus komandanlığı ilə yaxşı münasibətdə olan yerli xanlar arasından təyin edilən naiblərə tapşırıldı. Qaçqın əhaliyə öz yaşadıqları yerə qayıdaraq, məhsul yığımı ilə məşğul olmaq hüququ verildi ki, tarlalardakı məhsul batmasın. Əks təqdirdə, general Paskeviçin güman etdiyi kimi, Naxçıvan vilayəti "geniş səhraya" çevrilə bilərdi.

1827-ci il sentyabrın birinci yarısında sülh prosesinin başlanması xəbərini səbirsizliklə gözləyən Əlahəzrət İmperatora göndərilən məruzədə Paskeviç təəssüf hissi ilə qeyd edirdi ki, "barışığa ümid etmək hələ tezdir". İran şahının aqressiv hərəkətləri generala əsas verir ki, İran Azərbaycanını özünə tabe etməklə sülhə nail olsun və o, "*birbaşa Təbrizə gedir*". General nəinki Təbrizi tutmağı, eyni zamanda iranlı torpaq sahibləri ilə yaxşı əlaqələr qurmağı planlaşdırırdı, çünki Naxçıvan əyalətində belə olmuşdu, Kalbalı xanın nəsli də rus ordusuna köməklik göstərmiş və Rusiyanın himayəsinə girmişdilər.

General Paskeviçin Sankt-Peterburqa məruzəsi inandırıcı arqumentlərlə zəngin idi:

"...Düşmən tərəfindən seçilən dağıdıcı müharibə üsulu, bütöv vilayətlərin viran qoyulması, əhalinin zorla aparılması – bütün bunlar, əlbəttə ki, bizim tələblərimizə razı olmaq naminə edilmir. Əsirlərdən və başqa mənbələrdən gələn məlumatlara görə Şah heç bir əyaləti heç bir səbəbə güzəştə getmək istəmir, bütün müharibə zamanı verdiyimiz itkiyə görə bizi razı salmaq üçün öz xəzinəsinin bir hissəsini əldən vermək istəmir. Ən yaxşı halda Şah güman edir ki, Arazın bu tayında yerləşən vilayətlərin illik gəlirini Əlahəzrət İmperatora gizlicə ödəməyə hazır ola bilər, bu da 1 200 000 kağız rubldan çox deyil.

Geriyə hərbi əməliyyatları davam etdirmək qalır. Əgər mənim araba karvanım Qarabağdan gələrsə və xəstələrin sayı məni əsgərlərin böyük bir hissəsindən məhrum etməzsə, mən Şahın olduğu Xoya yox, hərçənd ki, bu, Azərbaycanın paytaxtına ən qısa yol da deyil, **birbaşa Təbrizə gedəcəyəm** (seçmə – R.İ.). Yəqin ki, Şah ordusu da oraya yollanacaq, onda mən onunla döyüşə girərəm və Təbriz şəhəri qalibə qalar (...) ancaq əsas siyasi məqsədə nail olmaq üçün yalnız Təbrizi tutmaqla kifayətlənmək olmaz. İranda xalqın etimadını qazanmış yerli hakimlərlə əlaqə qurmaq lazım olacaq. **Kərim xan, Ehsan xan kimi və digər Kalbalı xanın törəmələrinin Şaha qarşı çıxıb, Rusiya himayəsini əldə etdikləri kimi, ümid var ki, onların səyi nəticəsində vilayətlərdə yenidən əhali məskunlaşacaq. Bizim qələbəmiz şahı daha çox mütəəssir edəcək".**

(РГВИА, f. 846, s. 16, q. 4317, v. 43-45)

RUS QOŞUNLARI SƏRDARABAD VƏ İRƏVAN QALALARINA HƏMLƏ EDƏRƏK, TƏBRİZ ÜZƏRİNƏ HÜCUMA KEÇİR

Təbrizə gedən yol Sərdarabad və İrəvan qalalarından keçirdi. General Paskeviç onların ələ keçirilməsində elə bir çətinlik görmürdü. Bu qalaların süqutundan sonra belə general güman edirdi:

"İran sarayı özünün bu iki əyalətinin geri qaytarılması mümkün olmadan itirdiyini görüb, onlardan tamamilə əl çəkmək üçün çox da inad göstərməyəcək, ancaq Şahın

xəsisliyini nəzərə alsaq, onun hərbi xərcləri ödəməyə razı olacağını gözləmək sadəlövhlük olardı."

(AKAK, c. 7, səh. 562)

General Paskeviçin sözü ilə əməli düz gəlirdi. General ona həvalə edilən qoşunu Sərdarabad və İrəvan qalaları istiqamətində hücuma göndərdi.

İran torpaqlarında uğurla irəliləyərək 1827-ci il sentyabrın 14-dən 15-nə keçən gecə rus qoşunları Sərdarabad qalasını mühasirəyə aldı.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTUNDAN, 21 SENTYABR 1827-Cİ İL, SƏRDARABAD

...Həmin gecə Şahın kürəkəni Həsən xan qalaya gəldi. O, qarnizon komandanlığını qəbul etdi, buraya gəlişi ilə qarnizonu ruhlandıraraq, mühasirədəkilərə Rusların 1808-ci ildə qalanı tutmağa cəhd göstərdiklərini, lakin onun, Həsən xanın qalanı müdafiə edə bildiyini xatırlatdı.

İyulun 16-dan 17-nə keçən gecə qala divarlarından 100 sajın məsafədə yerləşdirilmiş 6 topdan ibarət batareya qala divarlarına atəş açdı. İyulun 17-dən 18-nə keçən gecə isə 19 müxtəlif tipli mühasirə toplarından ibarət əsas batareya gizlicə qazılmış səngərlərdən "işə düşdü". 500 atəşdən sonra böyük dördbucaqlı qüllə tamamən dağıdıldı, qala divarında isə bir deşik əmələ gəldi. İyulun 19-da bütün gün ərzində həmin deşik mütəmadi olaraq atəşə tutuldu. Axşama yaxın onun eni 10 sajına yaxın oldu. Bununla bərabər dördpudluq qısa lüləli topların qala ərazisinə zərbələri mühasirədə olanları vahiməyə saldı. Axşam Həsən xan 3 günlük atəşkəs bağlamaq xahişi ilə öz elçilərini göndərdi, ancaq rədd cavabı aldı. Bizim batareyanın atəşi daha da gücləndirildi.

Məğlubiyyəti anlayan Həsən xan gecənin qaranlığından və qarışıqlıqdan istifadə edərək qaladan qaçdı, şərəf və həyatını öz atına tapşırdı. 2 batalyon sərbazdan (əsgər) və süvarilərdən (1500 nəfərə yaxın) ibarət olan bütün qarnizon şimal tərəfdən qalanı tərk etdi, oranı mühasirə etmək mümkün olmamışdı.

İyulun 20-də rus qoşunları maneəsiz qalaya daxil oldu, kavaleriyaya isə qaçıb canlarını qurtarmağa çalışan sərbazların

izinə düşmək əmri verildi, onlar atların ayaqları altında tapdanaraq və süngülərlə məhv edildilər. 500 nəfərə yaxın öldürüldü, 200 nəfər əsir alındı. Əsir alınanların sayı isə hər dəqiqə artır.

Bizim qənimətimiz: 13 ədəd mis top, içərisində buğdanın dörddə biri boyda 14 min qırma olan sandıq, bizim bu mahalda keçinməmiz üçün zəruri miqdarda ərzaq, xeyli miqdarda barıt, mərmi və s.

Sərdarabad qalası Asiya üslubunda tikilmiş mükəmməl bir qaladı. O üç tərəfdən ikiqat divarla hörülüb. Yalnız bizim hücum etdiyimiz cənub tərəf birqat idi.

Sərdarabadın açarını Əlahəzrət İmperatorun ayaqlarına ataraq, ümid edirəm ki, bizim ağır topların öldürücü atəşləri düşməni ciddi sarsıntıya uğratdı.

Tezliklə İrəvanı mühasirəyə alıb, o şəhəri də ələ keçirəcəyimizə ümid edirəm.

(AKAK, c. 7, səh. 561)

General Paskeviç yenə öz sözünə əməl etdi. Qalaya altı günlük şiddətli hücumdan sonra 1828-ci il oktyabrın 1-də keçilməz İrəvan qalası divarlarına Ümumrusiya hökmdarı Əlahəzrət İmperator Nikolay Pavloviçin bayrağı sancıldı.

Yaddan çıxartmaq lazım deyil ki, general Paskeviçin İrəvana yürüşünə qədər Rus ordusu iki dəfə bu qalaya hücum etmişdi və hər dəfə də nəticə ala bilməmişdi. 1804-cü ilin iyun ayında knyaz Sisianovun rəhbərliyi altında rus ordusu İrəvan qalasını mühasirəyə almışdı. Özündənrazı knyaz İrəvanın rus silahına qarşı tab gətirə bilməyəcəyinə şübhə etmirdi və hücum zamanı qan tökülməməsi üçün qalanın Ümumrusiya hökmdarının mərhəmətinə təhvil verilməsini tələb etmişdi. Ancaq düşmən yatmamış, Eçmiədzin bölgəsində və İrəvan ətra-



Rus əsgərləri

fında, taxıl məhsulunu yandırmışdı. İrəvan divarları önündə ordunu qaçılmaz aclıq gözləyirdi. Knyaz Sisianovun iki seçimi vardı: mühasirəni qaldırmaq və Rusiya torpaqlarına çəkilmək, ya da qalaya hücuma keçmək. Sisianov sonuncu variantı seçdi, lakin hərbi şura qəti olaraq İrəvana hücum etməyə qarşı çıxdı. Qala möhkəmləndirildi, ərzaq və silahla təchiz edildi, iranlılar qala qarnizonuna kömək etməyə hazır idilər. Yorğun və yarı-yalavac rus qoşunları möhkəmləndirilmiş və müdafiəyə hazır olan qalanın hücumuna tab gətirə bilməyə bilərdi. Sağlam düşüncəli rus zabitlərinin ağlı sayəsində baş komandanın şərəfi xilas edilmiş oldu. 1804-cü ilin 4 sentyabrında qala divarları önündə demək olar ki, 90 gün dayanaraq hərbi gücü zəifləyən rus ordusu geri çəkildi. Rusiya ərazilərinə dönərkən 10 gün ərzində 500 əsgər xəstələndi, onlardan 150-si elə yoldaca öldü. Lakin qalaya hücum etsəydilər, rus ordusu üçün daha da faciəvi olacaqdı.

1808-ci il oktyabrın 3-də Qafqaz baş komandanı general Qudoviç knyaz Sisianovun cəhdlərini yenidən təkrar etdi. İrəvan qalası qarnizonunu təslim olmağa məcbur etmək istədi. Rədd cavabı aldıqdan sonra müntəzəm top atəşləri ilə hücuma keçdi. Qalanın komendantı Həsən xan general Qudeviçin tələblərinə istehza ilə cavab verdi.

Onun məktubundan bəzi çıxarışlara baxaq:

> ".... Siz mənə İrəvanı təhvil verməyi təklif edirsiniz. Mənə məlumat verirsiniz ki, siz bizim ordunu darmadağın etmisiniz və Arazın o tayına qovmusunuz. Sizə məlum olsun ki, biz bu qalaya daxil olarkən öz ordumuz tərəfindən kömək gələcəyinə ümid etmirdik, onun olub-olmaması bizim üçün eyni şey idi(...) Allaha şükür bizim bu köməyə ehtiyacımız yoxdur (...) Biz hətta qaladan kənarda – boş sahədə də sizinlə döyüşməyə hazırıq, çünki qala daxilində müdafiə olunmaq və sizə qarşı döyüşmək bizim üçün elə bir çətinlik törətmir. Qala daxilində də hər kəs müdafiə oluna və Axalkalakinin müdafiəsində sizin başınıza gələn bir aqibətin şahid ola bilər (...) Siz öz padşahınızdan İrəvan qalasını tutmaq əmrini

almısınız, ancaq biz də öz padşahımızdan onu müdafiə etmək əmri almışıq (...)

Siz hələ də qalanı güc və hücumla tuta biləcəyinizə inanırsınız. Şübhəsiz ki, hücuma başlanan zaman nəticə tamamilə kafi olacaq. Hər halda, məlumunuz olsun ki, bu qalanın qarnizonu artıq fədakarlıqla döyüşmək qərarına gəlib və ümidini Allaha bağlayıb".

(AKAK, c. 3, səh. 250)

Knyaz Sisianov təcrübəsi ilə silahlanan general Qudeviç İrəvan qalasına hücum və mühasirə üçün 60 günə yaxın bir vaxt sərf etdi, amma qala duruş gətirdi. Noyabrın 29-da rus qoşunları qış mövsümündən ehtiyat edərək məqsədinə nail olmadan geri çəkildi.

İrəvanı mühasirəyə alaraq onu ələ keçirmək üçün general Paskeviçə cəmisi 6 gün vaxt lazım gəldi. Qalanı ələ keçirən general Paskeviç rus silahının şərəfini bərpa etdi və bu tarixi qələbə barədə Əlahəzrət İmperatora məlumat verdi.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTUNDAN, 3 OKTYABR 1827-Cİ İL, İRƏVAN

Əlahəzrət İmperatorun bayrağı İrəvan divarlarında dalğalanır. Məşhur qalanın açarları, onun bütün qarnizonu, bütün baş rəisləri, bu dəfə qaçıb aradan çıxa bilməyən Həsən xanın özü ilə birlikdə əsir götürüldü, ələ keçirilən qənimətlər: 4 bayraq, 37 top, 2 qaubitsa, 9 mortir, 50-yə yaxın falkonet və nəhayət, bizim tərəfdən onların zülmündən azad edilmiş əhalinin təbəəliyi və təşəkkürü – bütün bunları səbirsizliklə Sizə çatdırmaq istəyirəm, Hökmdarım. Əlahəzrət İmperator ordusu yenidən parlaq qələbə qazandı.

Sentyabrın 23-də mənim komandanlığım altında döyüşən korpus Zəngi çayına gəlib çatdı. 24-də düşmən bizi atəşə tutdu, ancaq bunun bizim üçün heç bir zərəri dəymədi. Elə sentyabrın 24-də İrəvan qalasında şəxsən kəşfiyyat apardım. Qalanın cənubi-şərq küncünə hücum nəzərdə tutuldu. Sərdarabadın uğursuz müdafiəsindən sonra tələşlə buraya atılan Həsən xan Şahın gözünə görünməyə cəsarət etmirdi və artıq İrəvan qarnizonunun igidliyi haqda düşünmürdü.

Sentyabrın 26-da Georgovck təpəsində Şərq divarlarından 300 sajın əks tərəfdə 6 toplu batareya, sağda – sağ qalmış tikilinin arxasında 4 mortir yerləşdirildi. Şəhərin şərqdən qərbə tərəf maililiyi bomba və qumbaraları atmaq üçün əlverişli imkan yaradırdı və bunların nəticələrini gözlə görmək olurdu. Sentyabrın 27-nə keçən gecə sağ cinahda 12 topdan, sol cinahda isə 6 topdan ibarət batareya yerləşdirildi. Ay işığı düşmənə mühasirə hazırlığımızı görməyə imkan versə də, o, tüfənglərdən bizə atəş açsa da, hazırlığımızı heç cür dayandıra bilmədi. Hücuma hazırlıq müddətində Rusiya tərəfi çox soyuqqanlı davrandı və düşmən tərəfə bir dənə də güllə atmadı.

27-də bizim hər iki batareyadan atəş açıldı. Növbəti gecə dağıdılması nəzərdə tutulan divarlardan 150 sajın aralıda müdafiə topları üçün əsas dağıdıcı batareya, sol cinahda isə 2 mortir səngər batareyası yerləşdirildi.

Sentyabrın 28-də bizim batareya qalanın divarlarını darmadağın etməyə başladı. Qalanın girişi çökdü, qapıları isə yararsız hala düşdü. Düşmənin bir neçə topu da vuruldu, axşama doğru isə düşmən tərəfindən gələn atəşlər tamamilə kəsildi. Mortirlər isə bomba atışlarını dayandırmadılar.

Qaladan alınan məlumata görə qala qarnizonu ümidini itirirdi, əhali ölümlə qarşılaşdığını görən Həsən xana məzəmmət edirdi, lakin Həsən xan inamla vəd edirdi ki, tezliklə Abbas Mirzədən kömək gələcək və bizim qoşunların çıxıb gedəcəyinə zəmanət verirdi.

29-da ikinci bir orta dağıdıcı batareya quruldu. Qalanın cənubi-şərq künc qülləsi dağıdılmışdı. Şəhərdə güclü dağıntılar müşahidə olunurdu: evlər dağıdılmış, dağıntılardan qalxan toz və bomba atəşlərindən əmələ gələn tüstü qalanı və onun ətrafını bürümüşdü.

İki verstə yaxın əraziyə malik olan İrəvan qalası əhali ilə dolu idi, elə təkcə Həsən xanın əmri ilə bura 180 mindən çox adam yığılmışdı. Belə bir kiçik əraziyə toplaşmış və hər dəqiqə rus bombalarının düşməsini gözləyən bu böyük kütlə təşviş içərisində xilas olmağa çalışırdı.

Bundan xəbər tutan general Paskeviç dinc əhaliyə münasibətdə humanizm qaydalarına əməl edərək onlara rəhm etdi. Sentyabrın 29-da Həsən xana qarnizon və dinc əhalinin sərbəst surətdə qaladan çıxması şərti ilə onun təhvil verilməsini təklif etdi, lakin Həsən xan bu təklifi qəbul etmədi. Bizim batareya susmadı, düşmən də həmçinin güclü atəş açdı, lakin onun atəşi

susduruldu. Sentyabrın 30-u günorta vaxtı düşmən təmir edilmiş qapıdan bizim mövqeləri top atəşinə tutdu, lakin burda da rus batareyası düşmən atəşini susdura bildi. Bununla yanaşı düşmənin güclü tüfəng atəşləri altında qala divarları yanında xəndəklər qazılması davam etdirildi. Xəndəyin uzunluğu 12 sajına çatdı.

Günün yarısında düşmən tərəfdən qalanın şimal-şərq qüllәsində mortirlər işə düşdü, onlar beş pudluq bombalarla bizim əsas batareyanı atəşə tutdu. Lakin bu toplardan açılan fasiləsiz atəşlər, mühasirədə olanların bundan qorxuya düşməsi, iki istehkam arasındakı sədlərdə və qüllələrdə yaranan dağıntılar Həsən xanı qalanı təhvil verməyə məcbur etdi.

Sentyabrın 30-da Həsən xanın elçiləri qalanı təslim etməyə razı olduqlarını bildirmək üçün general Paskeviçin yanına gəldilər. Bir şərtlə ki, Abbas Mirzənin də fikrini öyrənmək vacib idi. General Paskeviç bu danışığı vaxt udmaq cəhdi kimi qiymətləndirərək qalanın qeyd-şərtsiz və tezliklə təhvil verilməsi barədə yazılı ultimatum göndərdi. Əks təqdirdə mühasirə davam edəcəkdi və Həsən xan yenidən rus silahının gücünü görəcəkdi. Mən bütün batareyalara atəşi gücləndirməyi rəva gördüm.(...). Qala divarlarında yarıqlar artıq əhəmiyyətli dərəcədə böyümüşdü. Məscidin günbəzşəkilli möhkəm damı deşilmiş, evlərin damı dağıdılmış, divarlar uçmuşdu.

Sentyabrın 30-dan oktyabrın 1-nə keçən gecə hər iki tərəfdən çox güclü atəş oldu. Düşmən tərəfdən çoxlu qumbara atıldı, lakin bizimkilər bütün batareyalardan atdıqları güclü top və güllə atəşləri ilə qalib gəldi.

Oktyabrın 1-də səhər saat 8-də qalanın şərq divarında sakinlər göründü, onlar əllərində ağ yaylıq yellədirdilər, sonra sakinlər dağılmış qala divarlarını keçərək xəndəyə gəldilər. Lakin düşmən qalanın cənub tərəfində atəşi dayandırmırdı. Xəndəyə yaxınlaşan əhali qışqırırdı ki, sərbazların əksəriyyəti təslim olmağa hazırdır. Amma sərbazların bəzi hissəsi isə axıra kimi müdafiə olunmaq istəyirdi. Kişilər, qadınlar və uşaqlar təlaş içində qalanın ensiz küçələrində qaçışırdılar. Hər tərəfdən onları ölüm gözləyirdi. Nəhayət, sağ qalmış əhali Həsən xandan tələb etdi ki, qalanı təhvil versin.

Həsən xanı qalanı təhvil verməyə məcbur edə bilməyən sakinlər, kim necə bacardı, qalanın cənub-şərqinə gəlib çıxa bildi və kimisi diz çökərək kömək istədi, kimisi ağ yaylıqları yelləməyə başladı. Sonra yarıqlardan keçib, aşağı səngərə doğru

düşməyə başladılar. Bir sözlə riskli olsa da qaladan qaçış başlanmışdı.

(...) 6-cı qvardiya alayı tezliklə yarıqdan keçərək qalanın cənub-şərqindəki birinci və ikinci divarları və onlara bitişik iki istehkam arasındakı səddi tutdular. Eyni vaxtda düşmənin şimal qapılarından qaçmasının qarşısını almaq üçün oraya da hərbi qrup atıldı.

Zülmətli oktyabr gecəsi mühasirədə olanlar üçün dəhşətə çevrilmişdi. Bomba və qumbara səsləri mühasirədəkiləri dəhşətli qorxuya salmışdı.

Bu gecə qalaya 900-dən çox bomba atıldı. Bu dağıdıcı atəşdən İrəvan qalasında bir tikili də salamat qalmadı, lakin qapılar hələ qapalı idi. Mühasirədə olanlarla danışıqlar aparmaq istəyən auditor Belov güllələndi. Xilas olmağa ümidini itirmiş mühasirədəkilər qapını sındırdılar və rus əsgərləri içəri soxuldu, iki sərbaz batalyonu o dəqiqə təslim oldu. Qala divarlarındakı topları bizimkilər ələ keçirdilər və atışma dayandı.

Ətrafının sarıldığını hiss edən Həsən xan gündüz məsciddə gizlənməyə çalışdı, ancaq o tərksilah edildi və təşviş içərisində əsir götürüldü. General-mayor Suxtelen toplu qvardiya polkunun 2-ci bölüyünü götürərək, onun gizləndiyi yerə, sərdar sarayı yanındakı məscidə getdi, onu tərksilah etdi və yanına keşikçi qoydu.

Qalanın komendantı Sübhanqulu xan başqasının paltarını dəyişərək, qaladan qaçmaq istəyərkən yaxalandı, həmçinin digər xanlar və rəislər də həbs edildi. Əsirlər arasında xas batalyonunun (Abbas Mirzənin ən yaxşı qvardiya ordusu) komandiri Qasım xan, Cəfərqulu xan Mərəndi, Əli Mərdan Təbrizi, Aslan xan Araklinski, Fətəli xan və başqaları var idi. Belə bir şəraitdə qaçılmaz olan qarmaqarışıqlıq uzun çəkmədi. İki saatdan sonra qalaya sakitlik çökdü.

Qalanın ön hissəsi sərdar bağından, saray və digər tikililərdən ibarətdir, hər iki tərəfdən güllələrlə əhatə olunub və Zəngi çayının dik qayalıq sahilinə baxır. Şərq, cənub və qərb tərəfindən İrəvan qalası düzgün olmayan çoxbucaqlıya oxşayır, yaxşı müdafiə olunmaq üçün ikiqat divarla əhatə olunub. Su ilə dolu olan xəndək hər üç tərəfi əhatə edir. Qaladan təxminən dörddə bir verst cənub istiqamətində dağların ətəyində eninə amfiteatr formasını xatırladan şəhər salınıb. Uzununa isə şəhər girintili-çıxıntılı əyri xətlə qala divarlarına paralel uzanır və Zəngi çayına yaxınlaşır, sahil boyu uzanaraq, orada qurtarır.

Əlahəzrət İmperator ordusu heç bir qətl, zorakılıq və digər əməllər törətmədən İrəvanı fəth edərək özünə böyük şöhrət qazandırdı. Bir çox təsadüflər sayəsində bizim itkimiz çox cüzi oldu.

Qan gölünə dönməli olan məşhur İrəvan bizim tərəfdən çox da böyük olmayan itkilərlə qalibiyyətli rus silahı qarşısında süquta uğradı. İndi şəhər alınandan sonra ləzgilər, dağıstanlılar və Qafqaz dağlarındakı bütün qiyamçılar təşvişə düşəcəklər – onlar daim burda sığınacaq tapıb, burada hiyləgər İran siyasətçilərindən pul, silah yardımı alırdılar. Qarnizonun əsir düşmüş 3000 əsgəri Gürcüstana göndəriləcək.

(AKAK, c. 7, səh. 564)

Çox gözəl möhkəmləndirilmiş İrəvan qalası nəhayət rusların oldu və İrəvanı istila edən son dərəcə məsuliyyətli general Paskeviç növbəti heyrətamiz qələbə haqda Sankt-Peterburqa məlumat verdi.

1827- ci il oktyabrın əvvəlindən ortalarına kimi susuz səhralarda od kimi yağan qızmar günəş altında iri İran qalalarına dağıdıcı zərbələr endirməklə davam edən bir neçə günlük üzücü yürüşdən sonra general Paskeviç Araz çayını keçərək İran Azərbaycanı ərazisində qalib addımlarla irəliləyirdi.

1827-ci il oktyabrın 13-də İran Azərbaycanının paytaxtı Təbriz Rus İmperiyası ordusu tərəfindən zəbt olundu. Abbas Mirzə ilə apardığı danışıqlar zamanı Qriboyedovun uzaqgörənliyi düz çıxdı. Abbas Mirzənin özü, onun atası Fətəli şah, ümumiyyətlə, onun bütün sarayı rus qoşunlarının Təbrizi qan tökülmədən, hətta heç bir müqavimət göstərilmədən qəfil alınacağını öncədən görə bilərdilərmi?

Culfa bölgəsində Araz çayını keçən general Paskeviçin rəhbərliyi altındakı rus korpusunun gücü 18500 nəfərdən, həmçinin 6500 at və 2300 öküz və dəvədən ibarət idi. 1827-ci il noyabrın 20-də general-leytenant knyaz Vadbolskinin təxminən 5000 nəfərlik hərbi dəstəsi 1500 atla İran Azərbaycanına daxil oldu.



İrəvan qalasının dağıntıları

GENERAL PASKEVİÇ TƏBRİZDƏN İRANA SÜLH ŞƏRTİNİ DİQTƏ EDİR, İRAN AZƏRBAYCANININ RUSİYAYA BİRLƏŞDİRİLMƏSİ İSTİSNA DEYİL

Təbrizin alınması İran şahını sarsıtmışdı. Bu xəbər onun üçün faciəvi, Əlahəzrət İmperator üçün isə rus ordusunun böyük uğurundan duyduğu sevinci idi. General Paskeviç Əlahəzrət İmperatora təbrik raportu göndərdi. Qədim və qüdrətli sayılan İran dövləti dağılma faktı qarşısında qalmışdı. İnsanlara hava lazım olduğu kimi, İrana da sülh vacib idi, amma general Paskeviç sülh şərtlərini Ümumrusiya İmperatorunun dilindən təklif deyil, əksinə diqtə edəcəkdi. İran Rusiyanın şərtlərini yerinə yetirməyəcəyi təqdirdə Əlahəzrətin qoşunları Tehrana doğru hərəkət edəcəkdi.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTU,
16 OKTYABR 1827-Cİ İL, MƏRƏND

...İrəvanın istilası xəbəri İran Azərbaycanına həlledici təsir göstərdi. Abbas Mirzənin qoşunundan qaçanların sayı kəskin surətdə artdı, bütün məlumatlara görə onun qoşununda 3000-nə yaxın adam qalmışdı. Bizim ordunun güclü nizam-intizamından xəbərdar olan və rus ordusunun dinc əhalinin yaşadığı ərazidən keçdiyi vaxt onun təhlükəsizliyinə təminat verdiyini bilən Təbriz əhalisi müdafiə olunmamaq qərarına gəldi. Abbas Mirzənin Təbrizdəki bütün hərbi sursat ehtiyatlarını məhv etmək və ya oradan çıxarmaq niyyətində olduğundan xəbər tutan general-leytenant Eristov, o öz niyyətini həyata keçirməzdən əvvəl bu qalanı ələ keçirmək qərarına gəldi.

Ayın 13-də rus qoşunları Təbrizdən 5 verst məsafədə olan Acıçaya doğru irəlilədi.

Təbriz şəhərinin müdafiəsinə göndərilmiş şahın birinci vəziri və kürəkəni Allahyar xan bütün imkanlardan istifadə edərək iki sərbaz batalyonunu və şəhərin dinc əhalisini şəhərin müdafiəsinə qalxmağa təhrik etdi. Onların razı olmadığını görən Allahyar xan şəhər əhalisinin qulağını, burnunu kəsərək, gözlərini oyaraq qəddar tədbirlərə əl atdı. Lakin bu tədbirlər də istənilən nəticəni vermədi.

Nə qədər ki, Təbriz əhalisi rus ordusunu qarşılamağa çıxmamışdı, ordu Acıçayın sağ sahilində toplandı, general-mayor Pankratev və polkovnik Muravoyovun rəhbərliyi altında Xerson qrenader alayının 6 bölüyü, 6 top və toplu batalyonu şəhərə göndərildi.

Rus ordusunun hücumu Allahyar xanı əsgərləri ilə birlikdə şəhərdən qaçmağa məcbur etdi. Əhali isə ağsaqqallar və din xadimləri ilə birlikdə böyük sevinclə bizim ordunu qarşıladı. Bundan sonra bütün Rus hərbi dəstəsi şəhərə yaxınlaşdı və qala ilə ətraf qəsəbələr arasında düşərgə saldı. İç qala və qala tezliklə bizim qarovullar tərəfindən tutuldu. Rus ordusu orkestrin müşayiəti ilə şəhərə daxil oldu. Şəhərdə 31 top, 9 mortir, 2 falkonet qalmışdı. İç qalada 1016 güllə, 10350 qumbara və digər top güllələri, həmçinin metaltökmə zavodu, 6 tona yaxın arpa və buğda ehtiyatı, müxtəlif azuqə və hərbi avadanlıq ələ keçirildi (...)

Allahyar xanın şəhərdən qaçmasından sonra hakimiyyətdən

narazı düşən qara camaat Abbas Mirzənin sarayına soxuldu və nə götürə bildilərsə götürdülər, qalanını isə məhv etdilər. Ancaq şəhər alındıqdan sonra saraya qarovullar göndərildi və onlar soyğunçuları dağıtdı, hərçənd, bu vaxta qədər Abbas Mirzənin sarayı artıq talan edilmiş və onun bir hissəsi isə dağıdılmışdı. Abbas Mirzənin sarayında şahzadənin bayrağı və açarı ələ keçirildi.

Qalanın forştadında haqlanan şahın kürəkəni və birinci vəziri Allahyar xan müdafiə olunmağa cəhd göstərdi, amma onun gülləsi boşa çıxdı və o, kazaklara əsir düşməyə məcbur oldu. Onunla bərabər Talişinski Kalba Hüseyn xan da əsir götürüldü.

Abbas Mirzənin müvəkkili sülh danışıqlarını aparmaq üçün onun şəxsən mənim yanıma gəlmək arzusunda olduğunu bildirən bir məktubla gəldi. Təbrizdə danışıqların aparılacağı yer hələ təyin edilməyib. Şahzadəyə məlumat verildi ki, danışıqlar başlayana qədər Xoyda qala bilər, burda onun təhlükəsizliyinə zəmanət verilir.

(AKAK, c. 3, səh. 568)

Əziz oxucular, gəlin Paskeviçin raportunun son cümləsinin mahiyyətini varmağa çalışaq: Rus İmperiyasından uzaq olan İran Azərbaycanının ərazisində general Paskeviç İran şahının varisi Abbas Mirzənin təhlükəsizliyinə zəmanət verir. Bunu da qeyd etmək lazımdır ki, general Paskeviçin real imkanları var idi ki, bu ərazidə hətta şahzadə Abbas Mirzənin özünü də əsir götürsün. Lakin mərhəmətli sərkərdə general Paskeviç orta əsr cəngavərlərinə xas olaraq şahzadənin, eləcə də bütün İranın alçalmasını və rüsvay olmasını özünə rəva bilmədi. Bununla belə general Paskeviçin bu hərəkəti təsadüfi deyildi. Abbas Mirzə bir şəxsiyyət idi, düşmən olduğuna baxmayaraq ona hörmətsizliklə yanaşmaq olmazdı. Ona görə də general Paskeviçin bu cəngavər davranışı əsassız deyildi.

Şahın varisi Abbas Mirzənin (1782-1833) xarakteristikasını vermək bizə görə burada yerinə düşər.

Fətəli şahın yaxınları arasında taxt-tacın varisi, şahın üçüncü oğlu əhəmiyyətli yer tutur. Abbas Mirzə 1785-ci ildə anadan olmuşdur. Şahzadə ortaboylu, qədd-qamətli, möhkəm və sağlam bədənli bir gəncdir. Onun sifəti uzunsov, gözləri iri, qaşları sıx və qara, burnu donqar, dişləri gözəl idi. Atası kimi o da saqqal saxlayırdı, saqqalı hələ atasının saqqalı qədər uzanmamışdı. Abbas Mirzə atasının fikirləri ilə razılaşırdı və ona böyük hörmət bəsləyirdi. O, sürətlə danışır, çox sərbəst və cəlbedici gülüşü vardı. Abbas Mirzə bir neçə Asiya dili bilirdi, fransızca başa düşür və danışa bilirdi.


Abbas Mirzə

Şahın bu oğlu haqqında xalq arasında müsbət fikirlər dolaşır: israfcıl olmasa da, səxavətlidir, silahı sevir və ondan məharətlə istifadə edir. Şahzadə kolleksiya düşkünü idi. O, rəsmləri, heykəlləri, medalları və s. toplayırdı. Deyilənə görə, Abbas Mirzə bütün Asiyada ən zəngin kolleksiyaya malikdir. Xarici mütəxəssislərdən dərs alaraq riyaziyyatın və hərb sənətinin əsaslarına mükəmməl yiyələnib. Abbas Mirzənin şəxsi həyatı tamamilə sadədir və hərəmində cəmisi 4 arvadı var. Bunlardan yalnız Təbriz ətrafından olan tacir qızını sevir. Abbas Mirzənin sevimli arvadından iki oğlu var, oğlanlarını ciddi tərbiyə edir və onları ağır həyat tərzinə öyrəşdirir. Böyük oğlu Xosrov Mirzə nazir A.S.Qriboyedovun İranda baş vermiş faciəvi ölümündən sonra üzr diləmək üçün Sankt-Peterburqa gələn səfirliyə rəhbərlik edir. Atasından fərqli olaraq Abbas Mirzə öz arvadlarını heç vaxt nə yürüşə, nə də səyahətə özü ilə götürmür. Bu da tabeliyində olan zabitlərin ondan nümunə götürməsinə səbəb olur.

Abbas Mirzə öz cəsurluğu ilə şöhrət tapıb, lakin soyuqqanlı deyil. Abbas Mirzə öz gündəlik həyatında mütəşəkkildir. O, səhər tezdən durur və İslam qanunlarına uyğun olaraq onun bütün ayinlərini həyata keçirir, gündə üç dəfə namaz qılır. Abbas Mirzə həmişə ayıq olurdu, qəlyan çəkmirdi, ancaq öz məiyyəti-

nə və zabit heyətinə də qəlyan çəkməyi qadağan etmirdi. Səhər saat 8-dən 10-na kimi Divanın toplantısını keçirir, sonra öz hərəmxanasında səhər yeməyini yeyir. Səhər yeməyindən sonra saat 2-yə kimi Abbas Mirzə öz vəzirləri və hərbi rəisləri ilə birlikdə müxtəlif işlərə baxmaqla məşğul olur. Öz ətrafındakılarla işgüzar görüşlər keçirdikdən sonra hər gün axşam saat 6-ya kimi Abbas Mirzə at sürməklə məşğul olur, qayıtdıqdan sonra isə namaz qılır. Axşam namazından sonra Abbas Mirzə əgər tələb olunarsa, saray əhalisi ilə axşam saat 10-a qədər məşğul olur.

Abbas Mirzənin geyimi adi qvardiyaçının geyimindən fərqlənmir. Gözəl kaşmir kəmərinə adi bıçaq taxır. Asudə vaxtlarını Abbas Mirzə ova həsr edir, hərbi təlimə mütləq vaxt ayırır və bununla sevə-sevə məşğul olur.

Abbas Mirzə kəndləri ziyarət etməyi, kəndlilərdən öz hakimləri tərəfindən haqsızlığa və zülmə məruz qalıb-qalmamalarını soruşmağı xoşlayır.

(Подробное описание Персии, 1-ci hissə, M., 1829, səh. 156-158)

Təbrizi ələ keçirdikdən sonra general Paskeviç İran Azərbaycanının ərazisində tam sərəncam sahibi olur və Abbas Mirzənin bu ərazidə hərəkətini nizamlayır.

General Paskeviç oktyabrın 29-da Sankt-Peterburqa sülh bağlanması ilə əlaqədar özünün fəaliyyəti və İranın davranışı haqda məlumat xarakterli raport göndərir. Bu ifadəyə fikir verək: *"Başqa bir dövlətlə hər şey artıq qurtarmış olardı, amma burda başqa cürdür."* İran çox həvəslə sülh istəyir, amma buna baxmayaraq, xaincəsinə törətdiyi müharibə ucbatından verilən bütün itkilərə və dəyən zərərə görə Rusiyaya kontribusiya ödəmək istəmir.

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTU, 29 OKTYABR 1827-Cİ İL, TƏBRİZ

Son vaxtlar Əlahəzrət İmperatorun silahının sürətli uğurları bu vilayətdə tamamilə yeni işlərimizə təkan verdi. Başqa bir dövlətlə hər şey artıq qurtarmış olardı, amma burda başqa cürdür. Mən düşmənlə apardığım danışıqlar barədə bir qədər geniş məlumat verməyə cürət edirəm.

Bütün kampaniya zamanı Əlahəzrət tərəfindən mənə verilmiş təlimatları diqqətdən qaçırmadım: İran tərəfini tezliklə sülh bağlamağa, Araz sahilindəki iki vilayəti Rusiyaya güzəştə getməyə və müharibə zamanı verdiyimiz itkilərə görə pul kompensasiyası ödəməyə məcbur etmək. İran şahının öz xəzinəsi və şəxsi mənfəətini xalqın xeyrindən ayrı tutduğu üçün pul maddəsi çox çətin bir şeyə çevrildi.

Sərdarabadın gözlənilmədən istila olunması Şahı dəhşətə gətirdi. O, Abbas Mirzəyə Naxçıvan və İrəvan vilayətini Rusiyaya güzəştə gedərək təcili surətdə sülh bağlamağı əmr etdi. Şahzadə atasının fərmanını bir neçə gün özündə saxladı. Ümid edirdi ki, İrəvan uzun müddət müdafiə oluna biləcək, vəziyyət dəyişəndə isə Rusiyanın tələbləri daha mülayim ola bilər. Ancaq həmin ilin oktyabrın 1-də İrəvanın süqutu onun bütün ümidlərini boşa çıxardı.

Mən Naxçıvana gələrkən İrandakı ingilis missiyasının katibi Kempbel və bəylərbəyi Fətəli xan məni inandırmağa çalışırdılar ki, İran sarayı Rusiyanın bütün şərtləri ilə razıdır. Kempbel kimi kənar bir şəxslə bizim İranla münasibətimiz barədə heç bir danışıq ola bilməzdi. Fətəli xan mənə izah etdi ki, Mərəndə çatmamış mənim tələb etdiyim məbləğin yarısı qədər, yəni 5 kurur və ya 2.5 milyon tümənlə (12.5-13.5 milyon rubl) səlahiyyətli nümayəndələri öz düşərgəmdə görəcəyəm. Elə bu qədər məbləğ də təsdiq olunmuş müddətlərdən sonra ödənəcək. Mən buna razı idim, ancaq əlavə etdim ki, pulu gətirən səlahiyyətli nümayəndələr geciksələr, Təbrizi tutacam və onda tələblərim xeyli artacaq.

Bu arada Təbriz alındı. Hələ Mərəndə çatmamış Abbas Mirzənin göndərdiyi Becan xan məktub və yenə ingilis Kempbellə mənim yanıma gəldi. Abbas Mirzə mənimlə görüşməyi xahiş edirdi, ancaq məktubda pul haqqında heç bir söz yazılmadığından mən görüşdən boyun qaçırdım. Əvvəlcədən şərtləşildiyi kimi, qabaqcadan təzminat məbləği ödənilmədən sülh müqaviləsinin bağlanmasına başlamayacağam.

Ertəsi gün Fətəli xan yenidən eyni tələblə yanıma gəldi. Pul barədə sual veriləndə Fətəli xan cavab verdi ki, Təbriz tutulandan sonra Abbas Mirzə sıxıntılı vəziyyətə düşüb. Təbrizlə birlikdə onun yeganə gəlir mənbəyi olan bütün Azərbaycanla əlaqəsi kəsilib. Buna görə də Şahın köməyi olmadan o, qısa müddətdə tələb olunan məbləği ödəyə bilmir. Mən heç bir müsbət nəticə görmədiyimdən yenidən şahzadə

ilə görüşdən boyun qaçırdım, çünki İranda heç bir dəyəri olmayan söz, vəd və inandırmadan başqa heç bir müsbət nəticə görmürdüm, lakin Fətəli xan vasitəsilə Abbas Mirzəyə çatdırdım ki, Azərbaycana daxil olaraq onun mərkəzinə qədər gəlib çıxmağım sülh şərtlərimi daha artırmışdır. Mən əlavə 5 kurur da tələb edirəm, cəmisi 15 kurur. Hələ Naxçıvanda ikən alihəzrəti bu barədə xəbərdar etmişdim (Beləliklə, Rusiya tərəfi 10 yox, 15 kurur ödəməyi tələb edir, bu da təxminən 40 milyon kağız rubla bərabərdir – R. İ.).

Mənim bu tonda danışmağımın çox üzrlü səbəbləri var:

1. Naxçıvanda Fətəli xan mənə demişdi ki, Abbas Mirzə ilkin olaraq 5 kurur məbləğini ödəməyə hazırdır. Əgər bu doğrudursa, onda mən bu pulu tezliklə almaq üçün bu əlverişli şəraitdən və Rus silahının uğurlarından istifadə etməliyəm. Yox əgər bu hiylədirsə, qəti tələblərimlə yenidən hər hansı bir hiylə işlətmək istəyən düşmənin ümidini qırmalıyam. Lakin İngilislərin rəyinə görə Abbas Mirzənin özünəməxsus nağd pul ehtiyatı var və Şah da bunu bildiyi üçün Abbas Mirzəyə əmr edib ki, hazırkı müharibədə İranın müsibətinin günahkarı kimi öz şəxsi hesabındakı vəsaitlə Rusiya ilə hesablaşsın.

2. Rusiyanın tələbi bir də ona görə artırılır ki, İran hökumətinin qələbə çalmaq ümidi ilə yenidən qəfil hərbi kampaniyaya cəsarət etməsinə, sonra da Rusiya tərəfinin artıq heç nə əlavə edə bilmədiyi şərtlərlə sülh bağlamaq istəməsinə mane olsun.

Ertəsi gün Təbrizə daxil olduqdan sonra 1827-ci il oktyabrın 20-də mənim yanıma sülh bağlamaq üçün səlahiyyətli kaymakam gəldi. İran hökmranlığından yekdilliklə çıxan və Rus hakimiyyətini qəbul edən əyalətin Rusiya tərəfindən Qacarlara qaytarılmasının şəhərdə kütləvi qorxu yaratmaması üçün kaymakamın şəhərə girişi qadağan edildi.

Mənim İran Azərbaycanında İran sarayından asılı olmayan xanlıq yaratmaq niyyətimə baxmayaraq, bu istiqamətdə hələ heç bir addım atılmayıb.

Mənə verilmiş təlimatı yerinə yetirərək, Araz çayını keçəndən sonra mən heç bir xanı bizimlə birgə qiyam və xəyanət təşkil etməyə dəvət etmədim, nə köçəri tayfaları, nə də şəhər əhalisini qiyama çağırmadım, öz zülmkarlarından qurtulacaqları barədə onlara ümid vermədim. Mənim bəyannamələrimdə ancaq dinc həyata çağırışlar var idi. Mən onları

inandırdım ki, Rus ordusu İran ordusu ilə vuruşur və xalq Rus ordusunun gəlişindən qorxmamalıdır.

Hətta mən kiçik bir ordu ilə Salmasda mənim cavabımı gözləyən Abbas Mirzəni də əsir götürə bilərdim. Xanların da bir çoxu onu əsir götürməyi tələb edirdilər, ancaq mən itaətsiz xalqın əvvəlki hakim ilə əlaqəsini birdən-birə kəsmək istəmirdim, ehtiyat edirdim ki, onda Rusiya ilə sülh barədə müzakirə aparmağa heç kim olmayacaq. Lakin xalqın ona zülm edən hökumətə qarşı qəzəbi Rusiya ordusu bu vilayətə daxil olandan sonra da soyumamışdı.

Misal üçün, Mərənd xanı Rusiya ordusunun gəlişinə qədər öz ailəsi və silahdaşları ilə rusların tərəfinə keçmişdi. Və Abbas Mirzənin ordusuna qarşı rəşadətlə vuruşdu. Təbriz ruhaniləri Qacarları yüksək səslə lənətləyərək Rus ordusunun gəlişi münasibətilə xalq hərəkatını təşviq edirdi. Marağa xanı İran hökumətinə tabe olmaqdan imtina etdi və əsirlikdə olan rus zabitlərini azad etdi. Kor Ata xan Mişkinli və digər yüksək rütbəli şəxslər itaət və əbədi təbəəlik arzusu ilə general Paskeviçi qarşılamağa getdi. Fətəli şah kimi öz vaxtında İran taxtına iddia edən cəngəvər Şəqaqlı tayfasının xanı Kaflan-kux dağının ətəyində qiyama qalxdı və Tehrana gedən yolu tamamilə kəsdi. Mən məcbur olub bu tayfanın baş rəisi Cahangir xanı ora göndərdim, tayfada nizam-intizam yaradıldı.

Rusiya İran Azərbaycanını bürüyən tələtümün günahkarı deyildi, bu tələtüm hələ rus ordusu gəlməzdən əvvəl yetişmişdi. Lakin əgər xalqda İranla sülh sazişi bağladıqdan sonra rus ordusunun Cənubi Azərbaycanı qəddar İran hökmdarına divan tutmaq üçün qurban verəcəyi fikri yaranarsa, onu sakitləşdirmək mümkün olmayacaq.

Yuxarıdakı fikirləri rəhbər tutaraq general Paskeviç ağlı və uzaqgörənliyi sayəsində Təbrizin özündə kaymakamla sülh danışıqları aparılmasına imkan vermədi. Danışıqları Qara Məlik kəndində aparmağı Obrezkova tapşırdı.

Danışıqların gündəliyinə aşağıdakı müddəalar salındı. Biz general Paskeviçin məruzəsinin orijinal mətnini veririk:

"1. Rus dövlətinin güzəştə getdiyi xanlıqlar: Arazın hər iki tərəfində yerləşən İrəvan və Naxçıvan istiqamətində Arazın sonuncu xanlığından başlayaraq Edibul bərəsinədək olan məsafə hər iki dövlətin sərhədi olurdu.

2. Gülüstan müqaviləsinə görə İrana məxsus olan və hazırda İran ordusunun orada yerləşdiyi Talış xanlığının müharibə başlayana qədər geri qaytarılması.

3. Hazırkı müharibədə Rusiya tərəfindən çəkilmiş xərclər və verilmiş itkilərə görə mükafat olaraq İran hökuməti Rusiyaya 15 kurur tümənlə raic (işlək pul) və ya 30 milyon rubl gümüş pul ödəməyə məcburdur. 15 kururun 5 kururu 1827-ci il oktyabrın 22-dən başlayaraq 30 gün ərzində ödənməli idi. Bütün məbləğin birinci hissəsinin ödənildikdən sonra yerdə qalan məbləğin isə iki ay ərzində ödənməsi nəzərdə tutulurdu. Lakin bir şərtlə ki, məbləğin tam ödənilməsi baş tutana qədər bütün Azərbaycan vilayəti girov kimi Rusiyanın idarəçiliyində qalırdı.



Araz çayı

Bütün 15 kururun təyin edilmiş vaxtda və ya vaxtından tez ödənişindən sonra Rus ordusu təcili olaraq İranın Azərbaycan vilayətini tərk edir. Yuxarıda göstərilmiş iki xanlıqdan başqa qalanlarını İran hökumətinə qaytarır. Əgər təyin edilmiş iki ay müddətində yerdə qalan 10 kurur ödənməzsə, bütün Azərbaycan vilayəti İran hökumətindən ayrılır və burada Rusiyanın himayəsi altında

xanlıq yaradılır. Bu zaman Rusiya tərəfinə ödənmiş 5 kurur geri qaytarılmır.

Əgər əlahəzrət Abbas Mirzə 6 gün ərzində yuxarıda göstərilən şərtlərlə razılaşdığını bildirməzsə və əgər 4 gün bundan sonra Dey-Karqanda mənimlə görüşməyə gəlməzsə, mən də başqa yerə çıxıb gedəcəm. Bununla yanaşı məlumat verilir ki, əlahəzrətin Dey-Karaqana gəlişi zamanı Rus Ordusu Xoyu tutmaq hüququ əldə edir və baş rəis əlahəzrətin təhlükəsizliyini və onun Azərbaycandan çıxmasını təmin edir.

İlkin olaraq göstərilmiş 5 kururun ödənilmədiyi təqdirdə gələcək sülh müqaviləsi imzalana bilməz.

Bütün maddələr kaymakam tərəfindən qəbul olundu, lakin Abbas Mirzə 5 kururu ödəməyənə qədər bizim tərəf müqaviləni imzalamamağı qərara aldı, çünki iranlılardan digər təminatlar qəbul edilə bilməz. İranlılar üçün əhəmiyyət kəsb etməyən müqavilələr, möhürlər və imzalar ancaq işə aşkarlıq gətirər ki, bu da bütün xalqı bizə qarşı qisas almağa yönəldər.

Kaymakam onu da qeyd etdi ki, o, ingilis elçisinin köməyi olmadan Şahı tələb olunan məbləği tezliklə ödəməyə məcbur etməyə ümid etmir və xahiş etdi ki, İngilis naziri ilə görüşsün. Mən bu haqda onu xəbərdar etmişdim. İran sarayındakı İngilis elçisi Makdonald inandırılmışdı ki, onun yardımı İrana faydalı olacaq, çünki o, dövləti gözləyən təhlükəni Şah və onun nazirlərindən daha yaxşı qiymətləndirə bilər. İngilis elçi kaymakamın yanına getməyə həvəslə razı oldu və onunla danışıqlardan sonra Tehrandakı öz səlahiyyətli nümayəndəsinə məktub göndərdi, ona məsləhət görürdü ki, Azərbaycandakı faciəvi şəraiti Şaha başa salsın. Əgər Şah Rusiyanın tələblərini tezliklə yerinə yetirməsə, vəziyyət daha ağır olacaq.

İngilislər Abbas Mirzənin iştirakını iranlılardan daha yaxşı başadüşürdülər. İngilislər **Azərbaycanın ədalət naminə Rusiyanın tərkibində olacağı** barədə öz əndişələrini gizlətmirdilər. O zaman İranda onların sadiq müttəfiqlərinin qüdrəti məhv olacaqdı. Burada, Təbrizdə onların kökünün böyük nüfuzu var idi, onların diplomatlarının israfçılığına baxmayaraq, Abbas Mirzədən başqa heç kim onlara nəinki itaət etmirdi, hətta onları görməyə gözləri yox idi. Azərbaycanı itirdikdən sonra ingilis canişinləri Bəndər-Buşidə gəmiyə oturub Hindistana gedə bilərdilər. Hələ də Tehranda ingilislər Abbas

Mirzə ilə bir-birini müdafiə edirdilər. Onlar Şaha xəsisliyinə görə qəzəblənirdilər, onların fikrincə sülhə mane olan əsas budur (...)

Dünən 6 günlük müddətin başa çatdığı vaxt şahzadə ondan tələb olunan bütün şərtləri yerinə yetirməyə razı olması barədə məktub göndərdi. Şahzadə ilə görüş 4 noyabr tarixində Dey-Karqan adlanan yerdə nəzərdə tutulmuşdu. Yuxarıdakı xasiyyətnamədə İran ilə siyasi münasibətlərin vəziyyəti barəsində ifadə olunmuşlara general Paskeviç əlavə edirdi:

"Abbas Mirzənin akt kimi qəbul edilən yazılı inandırması əgər göstərilmiş şərtlərin İran tərəfindən yerinə yetirilməsində qarşıdurma yaradarsa, onda **mən 6 və ya 8 həftədən gec olmayaraq silahlanıb Tehrana yürüş edərəm**. (seçmə – R.İ)

Əhalinin müxtəlif paltarlara ehtiyacı var və yenisini almaq üçün nəqliyyat olmalıdı. Lakin iki ay müddətində aparılan alış-veriş yaxınlaşmaya kömək edə bilər. Vəziyyət qənaətbəxş idi, asanlıqla arzuladığımız məqsədə çata bilərik. Mən indi nə isə almaq üçün çox şey tələb edirəm: bu hökumətdə işin gedişi belədi. Pul mükafatları haqqındakı maddələrin ləğv olunması İranlılarla danışıqlardakı bütün çətinlikləri aradan qaldıra bilər. Makdonaldın sözlərinə görə **Şah öz xəzinəsindən pul ödəməkdənsə tezliklə üç Azərbaycanı güzəştə getməyə razı olacaq**. (seçmə –R.İ)

Görünür Fətəli xan xoşniyyətli müşavirlərin əhatəsində deyil. Bütün kompaniya ərzində o, orduya pul vermədi, bu da onunla nəticələndi ki, əsgərlər ordunu tərk etdi. Rusların gəlişindən qorxaraq Zəncan şəhərinin əhalisini Kaflan-kuxun o biri tərəfinə köçürməyi əmr etdi. Zəncan əhalisi qiyama qalxdı. Bununla belə izah etməyin əsl vaxtıdır ki, müharibə və danışıqlardan hansı sonu gözləmək olar.

Əmr edirsinizmi, Əlahəzrət İmperator, mənim cəhdlərimə baxmayaraq pul tələbimiz rədd olunanda Araz ətrafında ələ keçirdiyim iki vilayətlə kifayətlənərək Azərbaycanı özümdə saxlamağa və ya İrana qaytarmağa? Əgər Əlahəzrət imperator lütf edərsə, Azərbaycan vilayətini Rusiyaya birləşdirək, onda bunu hansı formada edək? Onu şəxsi xanlıqlara bölərək Qafqazın o tərəfində olan Rusiya əyalətlərində olduğu kimi komandanlıq və vilayət idarəetmə üsulu təsis edəkmi? (seçmə –R.İ)

Azərbaycanı işğal etmək Rusiya üçün çox sərfəlidir. Vilayət

öz şəxsi vəsaitləri hesabına nizami ordunu - rus zabitlərinin komandanlığı altında hər birində 1000 nəfər olmaqla 8 silahlı batalyonunu saxlaya bilər. Ancaq Təbrizdəki hərbi müəssisələri saxlamaq üçün xərc tələb olunur. Bütün vilayətin gəliri ərzaqla birlikdə 800 min tümənə(3 200 000 rubl gümüş pulla) qədərdir, əhalinin həyat şəraitini yüngülləşdirmək üçün 8 milyon kağız pulu da əlavə etsək yaxşı bir ordu korpusu da saxlamaq olar. Xanlara ancaq bu məqsədlə pul verilə bilər. Polis məmurlarına və gömrükçülərə maaş lazım deyil, çünki əhalini qədim adətə görə dini məhkəmələrin köməyi ilə mühakimə edirlər. Heç bir yeni qanun tətbiq etmədən xalqın adət və ənənəsini təhqir etməyərək biz onun Rusiya hakimiyyətinə bağlılığına əmin ola bilərik.

Ancaq Rusiya İmperatorunun və ya bütün vilayətin valisinin Təbrizdə siyasi nəzarəti tələb olunur. Əyalət Rusiya ilə İran arasında sədd olacaq. Qiyam ruhu, gizli ələ almalar, fanatiklərin hərəkətə gəlməsi İranın daxilindən Araz çayının sol sahilindəki vilayətlərə və bizim Qafqaz vilayətinə soxula bilməz. Bu çayda hava bizim orduya öldürücü təsir göstərir, ona görə də çox saylı qarnizon saxlamağa dəyməz.



İran şahlarının iqamətgahı – Tehranda gül sarayı

Bir sözlə, əgər mən öz fikrimi səmimi və acizanə şəkildə V.İ.V-ə təqdim etməyi öz üzərimə götürmüşəmsə, bu heç də o demək deyil ki, mənə verilmiş təlimatdan bir an da olsun kənara çıxım. Azərbaycanın Rusiyanın tərkibində olmasının faydası haqda mənim fərziyyəm özlüyündə bir xəyal deyil, çünki İranlılar bizim onlardan tələb etdiyimizi vaxtında yerinə yetirəcəklər, əks halda əlahəzrətdən necə hərəkət etməyim haqda əmr almadan mən də hər cür özbaşınalıqdan uzaq olacağam.

Xarici işlər nazirliyindən sonuncu məktubu alanda mən artıq öz raportumu bitirmişdim. Məktubda aydın şəkildə göstərilirdi ki, Gülüstan müqaviləsinin yenilənmiş IV maddəsinə görə mənə gələcəkdə sülh bağlamaq qadağan edilir.

Bu mühüm hadisə əlbəttə ki, bizim İran sarayı ilə razılaşmamızı gecikdirir, istənilən halda İranı bir neçə milyon güzəşt etməsi üçün şərait yaradar, çünki İran sarayı bağalanacaq sülhdə bizim onlara heç bir hörmət göstərməyərək yüksək ianə tələb etməyimizə və heç bir xeyir görmədiyinə görə ümidsizliyə düçar olacaq. Mənim tərəfimdən elan edilmiş mürəkkəb şəraiti indi mən tamamilə haqlı sayıram, çünki o mənə imkan verir ki, iranlılara danışıqlar zamanı bizim üçün baha olmayan bizim tərəfimizdən verilmiş itkilərə görə daha az məbləğlə kifayətlənərək bəzi güzəştlər edim.

Həmçinin əldə rəhbər tutmaq üçün Əlahəzrət İmperatordan soruşmağa cürət edirəm: Abbas Mirzəni ümidləndirəkmi, yoxsa onun üzr diləmək və böyük Rusiya İmperatorunun himayəsini istəmək üçün Sankt-Peterburqa buraxılmaq ümidini məhv edəkmi? O bunu israrla xahiş edir, mən isə Sizin Yüksək razılığınız olmadan heç bir qərara gələ bilmirəm. Xahişi səmimidir. Həmçinin, əgər ona gəlmək imkanı verməyəcəksinizsə, o, bunu da tez-tez xahiş edir ki, böyük oğluna gəlmək imkanı verilsin.

(РГВИА, f. 846, s. 16, q. 4317, v. 55)

Təbriz ələ keçirildikdən sonra Tehranda İran şahının sarayında qeyri-adi hadisələr baş verdi. Fətəli şahın qiyamı son həddə çatmışdı və qəzəblənmiş şah Rusiyadan qisas almağın belə bir yolunu tapdı. Hədəf obyekti nə vaxtsa ümumrusiya imperatoru I Aleksandrın İran şahına hədiyyə olaraq göndərdiyi xrustal çarpayı oldu. İstedadlı Peterburq sənətkar-

larının hazırladığı bu qəribə əşya Tehrana gətiriləndə heyrətə düşmüş Fətəli şah əmr etdi ki, bu qiymətli hədiyyəni rus çarlarının hədiyyələrinin olduğu zalların birində yerləşdirsinlər. Bu çarpayı gələndən sonra şah rahatlığını itirdi və uzun müddət misli görünməmiş yatağa tamaşa edə bilmədi. Şahın bütün ətrafındakılar da hökmdarları ilə birlikdə sevinə bilmədilər və çarpayını oxşayaraq təəccübdən saatlarca əlləri ağızlarında qaldı.

Saray şairləri ilhama gələrək mədhiyyələr qoşdular. Şahın sarayında olan bu möcüzəli çarpayı haqda bütün Tehranda əfsanələr dolanmağa başladı. Hətta sadə şəhərlilər də şahın sarayındakı hadisənin əhəmiyyətindən anlamayanlara şeirə bənzər ifadələrlə başa salırdılar ki: **"büllur çarpayı min bir günəş kimi saçır".** Həqiqətən də daima günəş kimi saçan qiymətli şah çarpayısı demək olar ki, 10 il boş qaldı. Şah bir dəfə də olsun onun üstünə uzanmamışdı. Çox gözəl yığışdırılmış çarpayı öz xüsusi ləzzət və ehtiras saatını gözləyirdi. Çarpayı da gözləyərdi, qüdrətli İran şahı da.

Bu arada Rusiya ilə başlamış müharibədə İran məğlub oldu, Rus qoşunu şahın büdcəsi hesabına möhkəmləndirilmiş İrəvan qalasını tutdu, Naxçıvanı ələ keçirib Təbriz divarlarına yaxınlaşdı.

Bir səhər müharibənin həyəcanlı hadisələrinə baxmayaraq "Sülh sığınacağı"ndan qayıdarkən ilk dəfə olaraq ağır dövlət qayğılarından yorulmuş bədənini rahatlamaq üçün öz möcüzəli çarpayısına uzanmaq qərarına gəldi. 15 dəqiqə keçməmişdi ki, "Allahın kölgəsi" kimi yanına gələn çapara baxmaq və onu dinləmək üçün gözlərini açmağa məcbur oldu. Sən demə Rus ordusu Azərbaycanın baş şəhərini tutub və hətta İran hökmdarının varisi olan oğlunun da olduğu Təbrizi də. Mövhumatçı olan padşah son dərəcə hirsləndi və o dəqiqə Təbrizdən çarpayını götürməyi əmr etdi.

O saat Fətəli şah bu rus hədiyyəsini sökməyi, çarpayının hissələrini isə Peterburqdan gətirilən öz yeşiyinə yığmağı

və zirzəminin dərinliyinə aparmağı əmr etdi. Şahın tələsdirməsindən çarpayının bəzi hissələri sındı və qiymətli çarpayı yararsız hala düşdü. O gündən sonra saray adamlarından heç kim bu məşhur çarpayını nə gördü, nə də onun taleyi haqqında bir şey eşitdi. *(Korf F.F. İran haqqında xatirələr. SPb, 1838 S. 147-149)*

Şahın qəzəbi büllur çarpayını uzaqlaşdırmaqla bitmədi. O, Təbrizin rus ordusuna təhvil verilməsində kimin günahı olduğunu fikirləşməyə başladı. Şahın ağlına o dəqiqə belə bir fikir gəldi: Təbrizin ruslar tərəfindən tutulmasının ən böyük günahkarı **"Dövlət Süleymanı" (asif-de-doulet) şərəfli adı daşıyan birinci nazir Allahyar xandır**.

General Paskeviçin komandanlığı ilə rus ordusu Təbrizə yaxınlaşanda şəhərin müdafiəsi üçün Allahyar xan baş komandan təyin edildi. O bütün imkanlardan istifadə edərək – şəhər əhalisini də cəlb etməklə 2 batalyon sərbazı (əsgər) şəhəri müdafiə etməyə məcbur etdi. Həyatlarını riskə ataraq Təbrizi müdafiə etmək istəməyənlərlə qəddarcasına rəftar etdi. Qulaqları kəsildi, gözləri çıxarıldı, amma bu da istədiyi nəticəni vermədi. Təbriz döyüşsüz təslim oldu və Allahyar xan da əsir alındı.

Bütün İran üçün rüsvayçılıq! Bir sözlə, şahda heç bir şübhə qalmadı ki, Təbrizin təhvil verilməsində günahkar kimdir, o dəqiqə Allahyar xanın dalınca adam göndərdi.

O özü isə sarayından kənarda pəncərəsi meydana açılan bir bölməyə getdi və əmr etdi ki, onun qarşısına xalça sərilsin. Şahın şəxsi çağırışına öyrəşmiş Allahyar xan əməlli başlı geyindi: keçədən şal və varlı çuxa geyindi, belinə qiymətli daşlarla bəzədilmiş xəncər bağladı. Ancaq şahın sarayın daxilindəki otaqlardan birinə yox, sarayın yanında tikilmiş binanın fligeli qarşısındakı balaca meydana gəlməsini əmr etməsi onu təəccübləndirdi. Şah adətən bu meydanda göstərilən tamaşalara baxırdı. Allahyar xan təyin olunmuş yerə gələndə Fətəli şah ona imkan verdi ki, bütün ənənəvi səcdələri yerinə


yetirsin və təmtəraqlı ifadələrlə tərifləsin. Sonra şah öz "dövlət Süleymanı" ilə söhbətə başladı:

-Şaha yaxın bir şəxs kimi biz sənlə başımıza gələn bədbəxtçilikdən danışmaq istəyirik. Sən eşitmisən ki, kafirlər Təbrizə sahib olublar?

- Eşitmişəm,- o cavab verdi. Əlahəzrətin məğlubedilməz ordusu bu lənətəgəlmiş kafirlərə məğlub olub və şaha sadiq olan mənim ürəyim kədərdən qan ağlayır. Amma Allah böyükdür və sizin məhəbbətinizin kölgəsi yer üzündən əskilməsin...

- Cəfəngiyyat! – qəzəblə Şah qışqırdı.-Cəfəngiyyat! Mənim kölgəm kölgədir, ancaq sən bilməlisən ki, bütün bunlara bais sənsən.

- Əstağfürullah! Allah qorusun! Mən, sizin dəyərsiz qulunuz, ayaqqabınızın tozunu silməyə layiq olmayan- belə bir mühüm hadisəyə necə bais ola bilərəm? Mən necə bir itəm ki, Təbrizin alınmasına səbəb olum? Məgər mən Şahımın xidməti və mərhəməti naminə cəhənnəmə getməyə hazır deyiləm?



Fallaqçıların Allahyar xanı cəzalandırması

- Ağ yalan, qoca tülkü! Sən deyildinmi ruslarla müharibəyə başlamağı mənə məsləhət görən?

- Doğrudur Padşahım, bu qəddarları məhv edərək silahınızı şöhrətləndirmək və cənnəti qazanmaq üçün sizə məsləhət görənlərdən də biri mən idim. Ancaq bu qələbə məndən asılı deyildi.

- Yalan deyirsən! Sən məni inandırdın ki,mənim ordum məğlub edilməzdir.

- Kim Padşahın gücü qarşısında dayana bilər!

- Sus, mənim qəzəbimi artırma. Bundan sonra mən sənə mənə ağıllı məsləhət görməyi və işin mahiyyətini bilməyi öyrədərəm.

Bu sözləri ilə Şah əlini əlinə çırpdı və dörd fərraş, "yataq ağası", kündə (keçmişdə dustaqların ayaqlarına keçirilən ağaç parçası) və dəyənəklə gəldi; kobud surətdə "Dövlət Süleymanı" xalçanın üzərinə yıxdılar, ayaqlarını lövhəyə bağladılar və "allahın yer üzündə kölgəsinin" işarəsi ilə əlahəzrətin kürəkənini kötəklədilər. Bu gözlənilməyən dərsdən sonra "Dövlət Süleymanı" üç həftə ayaqları şişmiş halda yatdı. Bundan sonra Allahyar xan yəqin ki, rusların qisası haqda düşünmədi, Uca Allahın bu qəribə dünyada ona verdiyi vaxtı hesablamağa başladı.

(РГАДА, f. 1406, s. 1, q. 965, v. 11)

Şahın uzaqgörənliyi əsl iranlı xarakterindən irəli gəlir. *"Tülkülərdən, pişiklərdən və pələnglərdən elə bir tərkib düzəltmək lazımdır ki, əsl iranlı xarakteri alınsın"* **-Fedor Fedoroviç Korf "**İran haqqında xatirələr"ində (1824-1835) dəqiq qeyd edirdi.

TƏZMİNAT OLMASA, İRAN SÜLH DANIŞIQLARINA RAZIDIR

Müharibənin ağır nəticələrindən və paytaxtın itirilməsindən narahat olan Fətəli Şahdan fərqli olaraq daha sakit, soyuqqanlı general Paskeviç rusların tələb etdiyi sülh şərtlərinə uyğun sülh danışıqlarına razılıq verdi.

ABBAS MİRZƏNİN MƏKTUBUNUN TƏRCÜMƏSİ

Xristian kübarlarından olan Əziz, ali, məşhur baş komandan Paskeviçə, dostcasına məlumat verirəm ki, onun ali dərəcəli kaymakamı ilə göndərilən sülh müqaviləsinə biz tərəfdən baxıldı. Belə ki, müqavilədə Dey-Karqanda görüşmək nəzərdə tutulur, ona görə biz ora gedirik, bizim o yerə çatmağımıza iki gün qalmış Sizə məlumat verəcəyik, çünki danışıqların, sülh şərtləri və hər iki tərəfin vədlərinin orada olmasını özünüz elan etmişdiniz. Biz İrəvan və Naxçıvan vilayətlərini güzəştə getməyə, xərclərə və itkiyə görə 15 kurur ödəməyə hazırıq. Əlbəttə ki, siz də verdiyiniz sözə əməl edərək yuxarıda göstərilən iki vilayətdən başqa qalan bütün Azərbaycan vilayətlərini boşaltmalısınız. Heç bir tərəf verdiyi öhdəlikdən boyun qaçırmamalıdır. Lakin Əlahəzrət, vəd edilmiş tələb olunan miqdarda pulun - girov və məbləğin çatdırılması həmçinin nəzərə alınmalıdır, çünki vaxtın qısa olmasına baxmayaraq, Dövlətə mürəkkəb şəraitdə hər hansı bir müdaxilə baş verməsin deyə Yüksək İran dövləti öz vədini yerinə yetirə bilər. (...)

Biz sülh müqaviləsinin başa çatması üçün əlimizdən gələni etməyə cəhd göstərərik, sizin Əlahəzrətlə görüşdə hər hansı bir çatışmamazlıq və israfçılıq olmaması üçün tezliklə tədbirlər görüləcək.

Bu işdə nə qədər çox tərəf olsa, bir o qədər də işin tez həllini tapmasına Sizin inanmağınızı arzu edirik.

(РГВИА, f. 846, s. 16, q. 4317, v. 57)



General Paskeviçin Abbas Mirzə ilə görüşü

General Paskeviçin məlumatına əlahəzrət İmperator böyük hörmətlə cavab verdi. İmperator Nikolay Pavloviç İran Azərbaycanın Rusiyanın tərkibinə daxil olmasını mümkün sayır, lakin onun ərazisində Rusiyaya tabe olan müstəqil xanlıqların yaranmasına üstünlük verir, əslində bu imperiya hiyləsi idi. Rusiyanın başqa dinə mənsub olanlar üzərində hamiliyi Rusiyanın tərkibində olmaq kimi bir asılılıqdır. Lakin Rusiyadan asılılığın istənilən forması fars tiranlığından yüz qat cəlbedici idi. Və İran Azərbaycanının əhalisi Rus ordusunu qonaqpərvəliklə qarşıladı.

GENERAL PASKEVİÇƏ YÜKSƏK FƏRMAN
29 NOYABR 1827-Cİ İL, SANKT-PETERBURQ

Səbirsizliklə gözlədiyim Sizin məktubunuzu bu ilin oktyabrın 29-da aldım. Məktubun məzmununda mən yeni dəlillər, vətənin şərəf və xeyri naminə Sizin ağıl və bacarığınıza haqq qazandıran nümunəvi cəhdinizi gördüm.

Düşmən qarşıdurmasını və bütün yerli çətinlikləri aşaraq hərbi cürətlə siz hətta İran varisinin paytaxtına daxil oldunuz

və təcili, parlaq sülh vəd edən danışıqlara başladınız.

Mən sizin düşmənə etdiyiniz təklifləri və qəbul etdiyiniz tədbirləri qəbul edirəm. Mənə xüsusi ilə xoşdur ki, bizim üçün çətin hesab etdiyimiz maddə onlar tərəfindən ilk olaraq qəbul edilmişdir. Bizə çatacaq pul mükafatının məbləğinin yüksəldilməsində sizin qərarlılığınız sizin hərbi uğurlarınızla eyni səviyyədədir və eyni zamanda sizinlə danışıq aparan şəxsin anlayış və adəti ilə uyğundur. Bu maddəyə görə düşmənin fikri mənim İrandan ilkin olaraq tələb etdiyim ən azı 40 milyon rubl kağız pul almağa imkan verir və xoşbəxt günlərdə Allahın köməyi ilə bizim haqq işimizi uğurla başa çatdırarıq. Heç bir üzrlü səbəbə görə bu məbləğdən geri çəkilmək nəzərdə tutulmur. İndiki halda siz pul mükafatını azaldana qədər bunu son həddi kimi hesab edirsiniz. İranlılardan 40 milyondan artıq nə qədər ala bilsəniz, bu sizin uğurunuzun bəhrəsi olacaq.



İmperator
Nikolay Pavloviç

Bir sözlə, İranlılar hansı məbləği bizə ödəməyə razılaşırlarsa, elə etmək lazımdır ki, onlar ləngimədən imkan tapıb ödəsinlər. Əlbəttə, siz onlara kifayət qədər vaxt tapmağa imkan verin, uyğun təminatı tələb edin. Lakin digər tərəfdən də bizim ordunun İran Azərbaycanında uzunmüddətli qalması asanlıqla müxtəlif narahatçılıq yarada bilməcəyini də nəzərə almaq lazımdır. (...) 40 milyon rubl kağız pulu alan zaman tezliklə bizim ordunu yeni tutulmuş xanlıqlardan çıxarmağı mən faydalı sayıram. Bu vaxt sizin mülahizənizə görə bəzi möhkəmləndirilmiş ərazilər - Xoy və başqa yerləri bizim tələb etdiyimiz 40 milyondan artıq pulu ödəyənə qədər bizim tabeçiliyimizdə saxlamaq lazımdır. Bu səbəbdən İranın indiki torpaqlarında qalmağa xüsusi bir səbəb qalmır, sizə oranı tərk etməyə icazə verirəm. Bununla da biz Mənim nəzərdə tutduğum çətinliklərdən qurtulmuş oluruq və həmçinin Abbas Mirzəyə paytaxtı və İran Azərbaycanının digər ərazilərini qaytararıq və təyin olunmuş vaxtda verilmiş öhdəlikləri yerinə yetirmək üçün bütün əyalətlərdən gələn gəlirlərin alınmasında ona

şərait yaratmış olarıq. (...)

Əgər İranlıların xəyanət və korluğu o həddə çatar ki, onlar sülh bağlamağın vaxtını uzadarlarsa və yazılı məlumat (....) vaxt udmaq üçün bir hiylədirsə, onda sizə icazə verirəm ki, İran ərazisini işğal edib bizə sədaqət göstərmiş şəxslərə həvalə edərək bir neçə xanlıq yaradasınız və qərar qəbul edəsiniz ki, onların ərazilərinə hücum edilən zaman bizim məhdud köməyimizlə öz gücləri ilə düşməni dəf edə bilsinlər.

Mən bu idarələrə ancaq valinin təyin olunmasını əlverişsiz sayıram, çünki Qacar evində olduğu kimi vəziyyət qarışanda ola bilər ki, onlar da özlərini İranın sahibi kimi sayarlar. Bunları nəzərə alaraq xanlar üzərində hərbi general və ya diplomatik agent – hansını Təbrizdə yerləşdirmək mümkündürsə, nəzarətçi qoymaq lazımdır.

İstənilən halda Mən Azərbaycanın Rusiyaya birləşdirilməsində müstəqil xanlıqların yaradılması haqda qeyd olunmuş qərarı üstün sayıram, çünki bu birləşmə müharibənin davam etməsinə və ədalətli bəhanəyə səbəb ola bilər ki, Rusiya zamanla Asiyada təkbaşına hökmranlıq etməyə cəhd göstərir və bununla da Avropanın aparıcı dövlətləri ilə münasibətlərimizdə soyuqluq əmələ gələ bilər.

Abbas Mirzənin İran sarayının varisi kimi tanınmasına sizin artıq icazəniz var (...). və təkrar edirəm ki, Abbas Mirzəni İran sarayının qanuni varisi kimi tanımaqda çətinlik çəkmirəm, lakin digər tərəfdən də onun bütün hakimiyyətə malik olması hüququnun saxlanmasına da qəti olaraq qarşıyam.

Mənim Baş Qərargah rəisim artıq sizə xəbər çatdırıb ki, Mənim təlimatımla Abbas Mirzənin bura gəlməsi arzusunu yerinə yetirəsiniz. Əgər o sizin təklifinizi qəbul etdisə və Mənim ilkin təyin etdiyim məbləğdən çox olan pul vermək şərti ilə müqavilə imzalanarsa, onda siz onun istədiyi vaxt Sankt-Peterburqa gəlməsi üçün lazımı tədbirlər görün. Əks təqdirdə əgər sülh bağlanması xüsusi cəhdlərlə bağlı olarsa və İran pul mükafatını 40 milyon rubldan az verməyi təkid edərsə, onda yaxşı olar ki, siz Mənim fərmanım çıxana qədər başlıca olaraq qış vaxtı və Qafqaz dağlarından keçməyin çətin olduğunu əsas gətirərək onun bura gəlməsini təxirə salın. (...)

Sizə həmişə hörmətlə. İmza: **Nikolay**

(AKAK, c. 7, səh. 673)

İranlılardan, hərçənd ki, onlar üçqat ödəməyə hazır olduqlarına baxmayaraq, şərtləşdirilmiş təzminatı almaq çox mürəkkəb məsələdir və rus tərəfinin bu istiqamətdəki bütün cəhdlərini təsəvvür etmək çətindir.

Əgər Şaha ruslara təzminat ödəməkdənsə üç Azərbaycanı qurban vermək nə qədər sadə idisə, sülhə istənilən yolla cəhd edən Rusiyaya da müharibəni davam etdirmək və Tehrana getmək bir o qədər asan idi.

İMPERATOR NİKOLAY PAVLOVİÇ ZAMANINDA İRAN AZƏRBAYCANI RUSİYANIN OLA BİLƏRDİ

GENERAL PASKEVİÇ İRAN ƏRAZİSİNDƏ MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏT QURULUŞUNU YARADIR

Şahzadə Abbas Mirzə nəhayət ki, sülh şərtlərini qəbul etdi və təyin olunmuş vaxtda – 22 noyabr 1827-ci ildə olmasa da, bir müddət sonra – sülh danışıqları hazırlığının bitməsinin yaxınlaşdığı zaman ilk dəfə Rusiyaya 5 kurur ödəməyə hazırlaşdı. Ancaq Tehranda şahın ətrafındakılar şahzadə Abbas Mirzəyə inamsızlıq göstərdilər. Guya Abbas Mirzənin məmurları ilkin məbləğin Rusiyaya verilməsinə mane ola bilərlər. Şah özü və müxtəlif müxalifət gücləri Rus imperiyası ilə sülh bağlamasında Abbas Mirzəyə mane oldular.

Hiyləgər saray əyanları Sankt-Peterburqa sülh danışıqlarının aparılması üçün yeni səlahiyyətli nümayəndə təyin olunması barədə bir məktub göndərdilər. Hər şeyi yenidən başlamaq lazım idi, guya ki, şahzadə Abbas Mirzə ilə indiyə kimi sülh danışıqları və razılaşmalar aparılmayıb...

İlkin ödənmə şərti ilə Rusiya ilə bağlanmış sülh müqaviləsi dəfələrlə qeyri-müəyyən müddətə təxirə salındı. Sankt-Peterburq İran hakimiyyətinə təsir göstərmək üçün tədbirlər aramağa başladı və general Paskeviçə şərait yaradıldı ki, Şaha və onun ətrafına başa salsın ki, təzminatın birinci

hissəsini ödəmək istəmələri nəticəsində Cənubi Azərbaycan İrandan qoparılaraq müstəqil elan ediləcək və ola bilər ki, əbədi olaraq İran dövlətinin tərkibindən çıxsın.

VİTSE-KANSLER QRAF NESSELRODEDƏN – GENERAL PASKEVİÇƏ, 10 FEVRAL 1828-Cİ İL, N:216. GİZLİ

İran şahının Əlahəzrətə göndərdiyi məktubda xarici işlər naziri Əbdul Həsən xanı İranın sülh danışıqlarındakı səlahiyyətli nümayəndəsi kimi təyin etməsi bizi təəccübləndirə bilməzdi, çünki biz iranlıların xəyanətkar olduğunu yaxşı bilirik. Şah biləndə ki, onun oğlu və hakimiyyətin varisi ona verilmiş səlahiyyət əsasında sülh müqaviləsinin bütün maddələrini qəbul edib, razılaşdırılmış məbləği ödəməkdən başqa çarəsi qalmadı.



Qraf D.S.Nesselrode

İran elçisinin Türkiyə torpaqlarına gəlməsi və bura çatan məlumata görə İran emissarları dağlı əhalini bizə qarşı qaldırmaq istəyirlər, bizim tərəfdən təklif olunan sülh şərtlərini Şahın təsdiq etmədiyinə onları inanmağa məcbur edirlər, ona görə də bizimlə Osmanlı Portası arasında müharibənin qızışmasını və Zaqafqaziya müsəlmanlarının bizə qarşı qalxmasını ümid edərək vaxt udmağa çalışırlar. (...)

Hazırki müharibə İran üçün o qədər də viranedici deyil, bizim üçün də kifayət qədər ağırdır, bizim məcburən verəcəyimiz insan itkiləri və pul xərcləri haqda siz özünüz mühakimə edə bilərsiniz. Buna görə də bizim türklərlə iğtişaşda olduğumuz bir şəraitdə təzminatın kəsilməsini arzulamaq olmaz.

Güman etmək olar ki, İran sarayının tələb olunan bütün məbləği ödəməsinin mümkün olmaması sülhə mane olan əsas əngəl idi. İranlıların təcili ödəyəcəyi təqdirdə təzminatı 5 kurur, yəni 40 milyon kağız rubla qədər azaltmağa Əlahəzrət razılıq verir: sülh müqaviləsi imzalayaraq bizim qoşunları

İrəvan və Naxçıvan xanlıqlarına yeritmək və ya əgər onlar 5 kururu vermək iqtidarında deyillərsə, onda hazırda nə qədər verə bilirlərsə götürmək, lakin yerdə qalan məbləğin ödənilməsinə qədər Xoy vilayətini və sizin rəyinizcə lazım olan digər yerləri bizim hakimiyyətimiz altında saxlamaq lazımdır.

Əgər Abbas Mirzə ilə və ya Əbdül Həsən xan ilə uzun sürən danışıqlar İranlıların yalnız bir hiyləsi olarsa və siz də buna əminsinizsə, danışıqları kəsməyə və döyüşə başlamaq üçün bəhanə taparsınız. **Axırıncı dəfə Hökmdar İmperator Azərbaycanın müstəqil dövlət elan olunacağı və heç vaxt Rusiyanın tərkibinə qayıtmayacağı haqda sizə öz adınızdan İran şahına məktub göndərmənizi lazım bilmişdi**. (seçmə – P.İ.) (...) Biz ümid edirik ki, bu tədbir İran hökumətində arzu olunan təəssüratı oyadacaq. Şah əlbəttə ki, öz vəziyyətinin ağır olduğunu hiss edəcək və bizim arzumuza uyğun bir cavab verəcək.

Görünür, bütün bu çətinliklər pula görə baş verir. Əlahəzrətin istədiyi kimi siz yuxarıda göstərilənləri tələb edin ki, iranlılar o saat 5 kururu ödəsinlər və müqaviləni imzalasınlar. Siz də öz tərəfinizdən bizə güzəşt edilən İrəvan və Naxçıvan xanlıqlarından bizim ordunu çıxarmağı onlara söz verin. Əgər bu, yenə də 5 kururun ödənilməsi mümkünsüzlüyündən qəbul olunmazsa, onda onların indi nə qədər ödəyə biləcəkləri ilə razılaşın. 5 kururun yerdə qalan məbləğinin ödənişinə qədər Xoyu və sizin rəyinizcə lazım olan digər yerləri əlinizdə saxlayın. İranlılar yerdə qalan 5 kururu da ödədikdən sonra o yerlərdən çıxmağı öhdənizə götürün. Əgər müəyyən edilmiş iki həftəlik müddətdən sonra qənaətbəxş cavab almazsanız, onda Əlahəzrət əmr edir ki, Azərbaycan müstəqil olsun və orada yerli əhalinin fikrinə görə neçə xanlıq lazımdırsa, siz də bir o qədər xanlıq yaradasınız. Xanlarla, əsas olaraq onların müstəqilliyini tanıyan və xanlar tərəfindən zəruri olaraq hərbi andın qəbul edilməsi barədə müqavilə imzalayın. Amma bu şərtlərə heç bir əngəl, başqa qətnamələr də əlavə olunmayacaq, sizin fikrinizcə yalnız bizim xeyrimizə olanlar gərəkli sayılacaq.

Sizə məlumat verərək əlavə etmək istəyirəm ki, Hökmdar İmperator sizin bu hadisə üzrə bütün təlimatlarınızı, həmçinin yeni yaratdığımız xanlıqların İran tərəfindən hansı təhlükələrə məruz qala bilməsi, gələcəkdə özlərini müdafiə etmək üçün kifayət qədər ləvazimatlara malik olmaları və ya öz

təhlükəsizliklərini təmin etmək üçün daimi köməyə ehtiyac duyduqları barədə təfərrüatı ilə ona xəbər verməyinizi istəyir.

Rusiya Xarici İşlər nazirliyi general Paskeviçə təklif etdi ki, İran şahına yaranmış vəziyyət və Rusiyanın məramı haqda yazılı surətdə məlumat versin.

GENERAL PASKEVİÇİN FƏTƏLİ ŞAHA MƏKTUBUNUN LAYİHƏSİ

Allahın iradəsinin əksinə əlahəzrət ordusunun Rusiya sərhədlərinə soxulması bizi gücə güclə cavab verməyə məcbur etdi. Uca tanrı həqiqətin qələbəsinə xeyir–dua verdi. Rusiya ədalət və ləyaqətlə müharibə vaxtı verilmiş bütün itkilərə görə mükafat almağı tələb etdi. Bizim tərəfimizdən təklif olunmuş şərtlər əlahəzrətin hakimiyyətinin ona verdiyi səlahiyyətə əsasən sizin hökumətin varisi tərəfindən qəbul olunmuşdu, amma sizin özbaşınalığınız sayəsində rədd edildi.



Qraf
İ.F.Paskeviç

Mərhəmətli mənim Hökmdar İmperatorum əmr etdi ki, İran bir hökmdarın itaətində firavan yaşasın. İşlərin hazırkı vəziyyətində Əlahəzrət çox təəssüflə və öz hisslərinə zidd olaraq fövqəladə tədbirlər görməyə məcbur olub. Əlahəzrəti xəbərdar etməyi özümə borc bilirəm ki, əgər bu iki həftədən sonra sülh imzalanmazsa, onda tələblərimizin bütün maddələrini dəyişilməz saxlayıram, üstəlik hakimiyyətin idarə edilməsinə inanaraq bütün İran Azərbaycanını əbədi olaraq müstəqil elan edirik və mən onu Rusiyanın himayəsinə daxil edirəm.

Sülh şərtləri sizə məlumdur. Ona görə başqa bir danışıqlar üçün lüzum yoxdu. Bir maddə – məhz pul verilməsi maddəsi sizi çətinə salıb. Lakin Əlahəzrət maddələri yüngülləşdirməyə hazır olmağım barədə mənə əmr verib, İranı Azərbaycandan məhrum etmək, bütün İran monarxiyasına zərərli təsir edə bilər ki, bu da mənim əlahəzrətimin iradəsinə tamamilə ziddir.

Beləliklə, bu ağır vəziyyətdən qaçmaq üçün yalnız 5 kururu və imzalanmış sülh aktını aldıqdan sonra müqaviləyə əsasən güzəştə getdiyimiz torpaqlardan mənə tabe olan qoşunu çıxarmağa razıyam.

XANLARIN İMZALAYACAĞI MÜSTƏQİL XANLIQLARIN ÖHDƏLİK LAYİHƏSI

Çox işıqlı, qüdrətli, böyük Ümumrusiya Hökmdar İmperatorunun lütfü ilə mən Allahın xan, hakim ləyaqətinə layiq görülmüşəm. Əlahəzrətin bu lütfünü dərin hörmətlə qəbul edərək mən Hər şeyə qadir Allah qarşısında aşağıdakı öhdəlikləri öz üzərimə götürürəm:

1. Mənə həvalə edilmiş xalqı insanpərvərlik və yerli adətə uyğun olaraq idarə etmək, hər kəsin toxunulmazlığını qorumaq, məhkəməsiz ölüm cəzasına məhkum etməmək.

2. Rusiyanın bütün düşmənlərini öz düşmənim hesab etmək və Gürcüstan baş komandanlığının tələblərinə uyğun onlarla mübarizə aparmaq.

3. Azərbaycana yenicə təyin olunmuş xanlarla dostluq münasibəti saxlamağı, bütün hallarda onlara lazımi kömək göstərməyi öhdəmə götürürəm.

4. Rusiya rəiyyətinə hər yerdə - mənə həvalə olunan xanlıqlarda, həmçinin mənim xanlıqlarımın Rusiyada qanunla maneəsiz ticarət etməyə icazə vermək.

5. Xanlıqda baş şəhərin möhkəmləndirilməsi zərurəti yaranan zaman və Rus qornizonunun ordu ilə qalaya gəldiyində təmin etmək (nə qədər çörək, nə qədər qoyun, odun və s. ilə)

6. Rus ordusunun mənim xanlığımdan keçdiyi zaman onları dostcasına qarşılamaq və xandan asılı olan hər cür köməkliyi göstərmək.

7. Qarşılıqlı surətdə mənə həvalə edilmiş malikanəni irsi malikanə kimi saxlamağı, bu ricaedici bəndləri özündə əks etdirən İmperator tərifnaməsini mənə verməyinizi xahiş edirəm.

8. Əvvələr İran hökumətinə məxsus olan yerin qanuni gəliri bundan sonra mənə və mənim varislərimə aid olur. (Ola bilər ki, xanların öhdəliyində Rusiyaya da nə isə ödəmək olsun)

9. Mənim və varislərimin vəzifəsi əbədi olaraq Rusiya hakimiyyətinə sadiq qalmaqdır. Əgər mən və ya mənim

varislərim Rusiyaya zərər gətirərlərsə, onda Allah bizi cəzalandırar və biz verilmiş mülklərə sahib olmaqdan məhrum olarıq ki, bu da qəbul etdiyimiz hərbi andda təsdiqlənmişdir.

(AKAK, c. 7, səh. 590)

Rus ordusunun Təbrizə daxil olduğu ilk gündə İran Azərbaycanı ərazisində general Paskeviç müvəqqəti Azərbaycan hökuməti yaratdı və bütün rus əsirlərini azad etdi və onların tezliklə vətənə qayıtmalarını təmin etdi.

AZƏRBAYCAN ƏHALİSİNƏ MÜRACİƏT,
29 OKTYABR 1827-Cİ İL

Azərbaycanda yaşamaq hüququ olan əhaliyə və Rus ordusunun yerləşdiyi ərazilərdə yaşayanlara elan edilir ki, Gürcüstan və ona bitişik vilayətlərdə əsir alınanları satın alındıqlarına baxmayaraq tez bir zamanda Azərbaycan Müvəqqəti Hökumətinə təqdim etsinlər. Həmçinin bütün əsirlərə elan edilir ki, onlar azaddırlar və öz yerlərinə qayıtmaq üçün bilet almaqdan ötrü İdarəyə gəlsinlər.

Əgər bu elandan sonra kimsə əsirləri gizlədərsə, qanun qarşısında cavab verəcək.

(AKAK, c. 7, səh. 569)



Baron Osten Saken 1-ci

Rus əsirlərinin vətənə qayıtması- bu, İran ərazisində yeni dövlətin yaradılmasında general Paskeviçin ancaq birinci addımı idi. Rus ordusu Təbrizi tutduqdan sonra o, işğal olunmuş İran ərazilərində Müvəqqəti idarəetmənin təşkil edilməsi üçün böyük işlər gördü. Belə təəssürat yarandı ki, Azərbaycan artıq İranın tərkibinə qayıtmayacaq.

İmperatorun əmrinə uyğun olaraq İran Azərbaycanı ərazisində 7 xanlıq yaradıldı: Təbriz, Xoy, Mərənd,

Qaradağ, Mişki, Şəkəki və Marağanın bir hissəsi. Onların ərazisində Azərbaycan Müvəqqəti İdarə Heyəti quruldu, onun sədri isə rus general-mayoru baron **Dmitri Erofeeviç 1-ci Osten-Saken** (1789-1881) təyin edildi. Onun rəhbərliyi altında rus ordusu tərəfindən işğal olunmuş Azərbaycan əraziləri idarə olunmağa başladı. 5 fevral 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanmasından sonra İran tərəfindən Rusiyaya tam məbləğin ilkin hissəsinin ödənməsinə qədər rus ordusu Müvəqqəti İdarə Heyətinin fasiləsiz olararaq idarə etdiyi İran Azərbaycanında qaldı.

Onu da qeyd etmək mühümdür ki, yeni dövlət aparatına cəlb olunmuş işçilərin əsas hissəsi Fətəli şahın hakimiyyəti dövründə çalışmış fars məmurları idi.

Bu, sadəcə olaraq formal akt deyildi, İranın keçmiş vətəndaşları canla-başla öz vəzifələrini yerinə yetirirdilər. Onların içərisində Təbriz müctəhidi Mirfət Səidin əhəmiyyətli rolu var idi. Onun fars məmurları ilə uğurlu əməkdaşlığına dair misal gətirək.

Genaral Paskeviç Tehran istiqamətində hərəkət etməyə qərar verəndə İran Azərbaycanı ərazisindən kənarda yerləşən ehtiyat hissədən qoşun çıxarmaq lazım gəldi. Yoxsullaşmış Azərbaycan əhalisinə rus ordusunu saxlamaq çətinlik törədirdi və Mirfət Səid yerli əhalinin narazılığına səbəb olmaması üçün yeni qoşun gətirilməsi əvəzinə ağıllı həll yolu təklif etdi.

BARON OSTEN-SAKENDƏN – GENERAL PASKEVİÇƏ,
7 YANVAR 1828-Cİ İL, TƏBRİZ

Əlahəzrətin əmrinə uyğun olaraq dünən Müvəqqəti İdarə Heyətində gizli müşavirə keçirildi və Təbriz müctəhidi Mirfət Səid belə bir təklif etdi. İranlılar inanırlar ki, Azərbaycanda yerləşən 50 minlik Rus ordusundan başqa əhəmiyyətli bir hissəsi də Arazın o tayında müxtəlif yerlərdədir və zərrə qədər də ehtiyac olmadığını sübut edən Təbriz müctəhidinin xahişi ilə Azərbaycana daxil olmayıb. Hazırda Təbriz müctəhidi fəxri sakinlərlə müşavirədə onlara təklif edəcək ki, hərbi əməliyyatların bərpa olunması və Rus ordusunun

İranın daxilindən çəkilməsini əlbəttə ki, onun yenisi ilə əvəz olunmasını tələb edir. Bu da müharibəni uduzmuş vilayət üçün ağır olacaq və onlardan əmanətləri girov olaraq qəbul etməkdən başqa çıxış yolu qalmır. Rusiya hökumətinə bağlılığı və ümumi mənafe naminə cəhdini sübut etmək üçün Təbriz müctəhidinin özü isə təcili surətdə öz ailəsini Tiflisə göndərməklə nümunə olacaq.

(AKAK. T.7.C 586)

Türkmənçay müqaviləsinin imzalanmasından demək olar ki, iki həftə sonra Müvəqqəti İdarə Heyətinin fəaliyyəti barədə tərtib edilmiş hesabat nəinki 7 xanlıqda Rusiya tərəfindən həyata keçirilmiş idarə orqanlarının çoxplanlı fəaliyyətini, həm də İran Azərbaycanı sakinlərinin Rusiya imperiyası himayəsi altında olan yeni hakimiyyəti tanımasını təsdiq edir.

Azərbaycan Müvəqqəti İdarə Heyətinin fəaliyyəti haqqınadkı hesabatla tanış olaq.

GENERAL-MAYOR 1-Cİ OSTEN-SAKENİN GENERAL PASKEVİÇƏ RAPORTU, 22 FEVRAL 1829. TƏBRİZ

Müvəqqəti İdarənin mühüm fəaliyyəti və onun nəticələri haqda hesabatı vəzifəmə uyğun olaraq sizin diqqətinizə çatdırmaqla şərəf duyuram.

Müvəqqəti İdarənin fəaliyyəti üç istiqamətdə həyata keçirilir:

- gəlirlər, Rusiya xəzinəsinə yığılan;
- Azərbaycanın abadlığına dair Müvəqqəti İdarənin sərəncamı
- yerli sakinlərlə münasibətdə yeni hakimiyyətin davranışı.

Rus ordusunun 23 minlik korpusunun ərzaq, odun, furajka və bəzən də ətlə bizim ordu tərəfindən tutulmuş Azərbaycan vilayəti tərəfindən təhciz olunurdu. Bizim himayəmizdə olan Azərbaycan xanlıqlarından orduya ərzaq üçün 419 087 publ məbləğində pul ayrılmışdı.

Ölkədə vergiləri təsis edərək və əhalini onun ödənməsinə təhrik etmək Avropa sivilizasiyasına yad olan xalq üçün yeni idi, İdarə heyətinin işini çətinləşdirirdi.

İşğal olunmuş ərazilərdə məlumatların azlığı, yalnız öz

mənfəətlərini güdən (İran məmurlarının əksəriyyəti) insanların inamsızlığını aradan qaldırmaq, işə cəlb olunmuş rus zabitlərinin təcrübəsizliyi bizim işimizdə çətinlik yaradırdı.

Təsis edilmiş komissiya vergilərin yığılmasında gəlirləri üzə çıxarırdı ki, bundan da İran hökuməti istifadə etdirdi. Çox saylı İran ordusunun ölkəni viran etdiyini nəzərə alaraq və xalqın məhəbbətini qazanmaq üçün Əlahəzrətin müflis olmamaq üçün bu ümumu məbləği dörddə birə qədər azaltması əlverişli olardı.

I. Rus ordusunun yerləşdiyi 7 xanlıqda dörd ay ərzində 11 210 halvar çörək, 2218 halvar saman, həmçinin İdarə heyətinin xəzinəsinə 81 713 tümən verilməsi təyin edildi. Məhsulun yığımı zamanı itkilər olduğuna görə əhalidən vergi almamaq haqda İdarə heyətinə göstəriş verildi.

İdarə heyətinin fəaliyyətindəki bütün çətinliklərə baxmayaraq verginin böyük hissəsi toplandı və dörd ay ərzində Azərbaycan vilayətindən alınan ümumi gəlirin həcmi yarım milyona yaxın gümüş rubl təşkil edirdi.

II. İdarə heyətinin fəaliyyətinin bəzi nəticələrinə istehkamda aparılan işlər daxil idi: orduya texniki kömək, Təbrizdə hərbi xəstəxana tikmək, öz evlərinə qayıtmış sərbazların tərksilah edilməsi, şəhər polis və rabitə idarəsinin təsis edilməsi, fars mətbəəsinin qurulması, müstəqil Azərbaycan ərazisi haqda statistikanın tərtib edilməsi.

1. Təbriz qalasında bizə böyük bir xeyir verən təmir bazası təşkil edilmişdir. Artilleriyanın xarab olmuş taxta hissələri keyfiyyətli taxtalarla əvəz edilmiş və yürüşdən əvvəlki vəziyyətindən daha yaxşıdır. Bizim kalibrə bəzi İran alətləri daxil edilmişdi, 7 yeni top düzəldilib və onun bütün ləvazimatları hazırlanıb, ordu üçün lazım olan ehtiyatı Təbrizdən çıxarmaq üçün nəqliyyat hazırlanıb.

2. Təbrizdə xəstəxananın təşkil və təchiz edilməsi. Bu tədbir ölüm hallarının aşağı düşməsinə və xəstəlik müddətinin azalmasına imkan yaratdı.

3. Evlərinə qayıtmış sərbazların tərksilah edilməsi. Bizim işğal etmədiyimiz ərazilərdə hərbi əməliyyatların davam etdiyi təqdirdə sərbazlar təhlükə törədə bilərdi.

4. Kətxudalardan ibarət Təbriz şəhər idarəsi bizim ordumuz gələnə qədər başçılıq etmiş şəxslərdən təşkil olundu, bir şərtlə ki, şəhər komendantına tabe olsunlar və yerlərdəki mövcud Rus qaydalarına əməl etsinlər. Bu təcrübə uğurlu

oldu, belə ki, əhalini inandırdı ki, idarəedən şəxslər zamanında əhalinin rifahı bu qaydaların tətbiq edilməsindən asılıdır.

Kətxudalar hər gün toplaşırdılar və Rusiya məmurlarının nəzarəti altında ədalətlə və gecikdirmədən şəhər işlərini həll edirdilər. Bütün məmurlara Azərbaycan xəzinəsindən İran hakimiyyətində olduğu maaş qədər məvacib verilirdi, ancaq bu vaxt onların ləyaqəti nəzərə alınırdı.

Şəhər polisi xəzinəyə ucuz başa gəlirdi. Hər bir ticarət dükanı bazarın mühafizəçilərinin saxlanması üçün müəyyən qədər pul ödəyirdi. Çünki Təbrizin baş küçələrinin hamısında ticarət dükanları var idi, polislər bu dükanların mühafizəsini və şəhərin daxilində qayda-qanuna nəzarəti eyni zamanda həyata keçirirlər.

Təbrizin başqa yerlərlə yazılı əlaqəsini yaratmaq üçün poçtlar yaradılmışdır. Əvvəllər burada hazır bələdçilər olardı. Poçtların yaradılması əhalini növbə ilə kağız çatdırmaqdan azad etdi və ya əmrlə göndərilmiş yol göstərən bələdçilər İdarənin poçt əlaqələrinin etibarlı olmasını təmin etdi.

5. İdarə bütün sərəncamları(Azərbaycan vilayəti üzrə əmrlərin ümumi ölçüsünə aid olan, məmurların təyin edilməsi və yer dəyişdirilməsi, təltif etmək, cəzalandırmaq və s.) aşkar surətdə xalqa elan etməyi öz vəzifəsi kimi qəbul etdi.

İdarə mətbəə qurmağı vacib bildi. Bir qədər çətinlikdən sonra mətbəə quruldu, sənədlərin əl ilə yazılması xeyli dərəcədə azaldı.

6. İdarənin əsas qayğısı ölkə haqqındakı məlumatların statistikasını toplamaq idi. İdarə bu az tanınmış vilayətin həqiqi xəritəsini Rusiyaya çatdırmaq məqsədi güdürdü. Təbrizin kifayət qədər əhatəli təsviri tərtib edilmişdi, Azərbaycan xanlıqları haqda qısa məlumatlar və nəhayət, dövlət gəlirlərinin bu vilayətin bütün zümrələri arasında bölüşdürülməsi haqqında dəqiq məlumat toplanmışdır. Toplanmış məlumatların xeyli hissəsi rus dilinə çevrilməyib. Ümumiyyətlə, bu məlumatlar tamamlanmalıdır və bir sistem halında təqdim edilməlidir. İstənilən halda hazırlanmış statistikanı Rusiya dövləti və Avropa alimləri üçün faydalı material hesab etmək olar.

III. Bütün sonrakı işlərdə uğuru təmin etmək üçün ilkin mərhələdə Azərbaycan İdarə Heyəti öz fəaliyyətini tənzimləyən ümumi qaydalar hazırladı. Bu qaydaları rəhbər tutaraq İdarədə çalışan şəxslər öz üzərilərinə düşən işi vicdanla yerinə yetirməyə cəhd edirdilər. İdarənin işlədiyi müddət

əhalinin şəxsi mülkiyyətinin hər cür iddiadan müdafiə olunmasına çox ciddi riayət olunurdu. Təbriz şəhərindən başqa yerlərdə də heç kimə təzyiq göstərilmirdi və hərbi vəziyyətin olduğu bir vaxtda ordu heç bir vətəndaşa əziyyət vermirdi (ordu dövlət binalarında və ya qaçmış fars məmurlarının evində yerləşmişdi), yeni və müstəqil Azərbaycanın bütün ərazilərində rüşvətxorluq qadağan edilmişdi. Bütün hərbi rəislər İdarənin möhürlənmiş qəbz blankları ilə təmin olunmuşdu. Əhali ərzaq məhsullarını alarkən onlara verilirdi və bu qəbzlər Rus hökumətinin əskinazı kimi vergi yığımının hesabatı üçün komissiyada toplanırdı.

Sakinlərin borclarını artıran bütün tələblər pulla əvəz olundu və əhali üçün əlverişli olan təsdiq edilmiş qiymətlə ödənilirdi və ya pul vergisi ilə əvəz olunurdu. İdarəyə daxil olmuş hər bir şikayətə baxılırdı və qanunlara əməl etməyənlər ciddi cəzalanırdılar.



Azərbaycanlı qadın milli geyimdə

Vəziyyətlərindən asılı olmayaraq bütün şəxslər İdarəyə girə bilirdilər və yoxsul təbəqənin şikayəti üzrə tez-tez kənd və mahal rəisləri, xanlar işdən çıxarılırdı. Rüşvətdə ifşa olunmuşlar aldıqları pulu İdarənin iclaslarına qaytarırdılar və bəziləri cəzalandırılırdı. Rüşvətxorluqda təqsirləndirilən tərcüməçilərdən biri nəinki ciddi cəzalandırıldı, hətta işdən qovuldu və bu haqda bütün əhaliyə məlumat verildi. Beləliklə, Azərbaycan əhalisi Müvəqqəti İdarənin ədalətsizlikdən və hər hansı bir qanunsuzluqdan müdafiə olunduğunu hiss etdi.

Şikayətlərin araşdırılmasında İdarə bir qaydanı əsas tuturdu – ciddi surətdə ədaləti gözləmək. İdarə əhalidə fikir formalaşdırmağa cəhd göstərirdi ki, nə müxtəlif dinə mənsub olanlar, nə onların mənşəyi qanunsuzluğa və məzlumların inciməsinə əsas verməsin. Həm ruslar, həm də farslar bərabər əsaslarla mühakimə olunurdular.

Ədalət Rus hökumətinin əsas xətti idi. Bütün fəaliyyətində xeyirxah məqsədlər güdən İdarə hərbi vəziyyət olmasına baxmayaraq Rusiya İmperiyası daxilində cəzalandırmaq tədbirlərindən vaz keçmədi. Bütün cəzalar aşkar və məhkəmənin

qərarı ilə verilirdi. Qəribə deyildi ki, İran qəddarlığı vaxtında edam edilir, göz çıxarmalar, qulaq və burunların kəsildiyinə baxmayaraq xalq öz qaliblərini sevirdi, bunu Hökmdarın müqəddəs borcu kimi başa düşürdülər.

Nəhayət, əhalidə yeni hakimiyyətə qarşı yaxşı münasibət yaradan təlimatlar sırasına əvvəllər İran hökumətinin bəzi şəxslərinə verilmiş hüquqların təsdiq edilməsini də əlavə etmək olar.

Qoyulmuş qaydalara və elan edilmiş təlimatlara əməl edən bütün vətəndaşlara İran hökuməti zamanı onlara hədiyyə edilmiş arenda olaraq verilən kəndləri idarə etmələri toxunulmaz qaldı və onlar Azərbaycan xəzinəsindən kredit aldılar. Hətta əvvəllər kasıb yaşayanlar da dövlət tərəfindən vəsait almadan da xalqının diqqəti hesabına yaxşı yaşamağa başladı.

İdarənin bu siyasəti və fəaliyyəti müsbət nəticələr verdi. Bütün Azərbaycan ərazisində ümumi əmin-amanlıq və Rusiya hakimiyyətinə qarşı səmimilik yarandı. Bu vəziyyət cəmisi 4 ay yarım ərzində Rus ordusunun buraya gəlişindən sonra baş verdi ki, bu da Müvəqqəti İdarənin işi düzgün təşkil etməsinin təsdiqi idi. Bu müddət ərzində yalnız müəyyən edilmiş qaydaları pozan (bir fırıldaqçının farsa, rus əsgərinə və zabitə hücumu) üç hadisə baş verdi. Ona görə də inamla demək olar ki, bütün dünyada və Rusiyanın özündə də tam əmin-amanlıq ola bilməzdi. Azərbaycanın bir tərəfindən o biri tərəfinə məktub daşıyan konvoysuz zabitlərə, kazaklara, əsgərlərə bir balaca da olsun zərər yetirilməmişdi.

Bu qısa bir müddətdə xalqın yeni hökumətə rəğbəti nəinki Təbrizdə, hətta Azərbaycanın digər şəhərlərində də xeyli dərəcədə artdı. Ticarətdə, sənətdə və əhalinin məşğuliyyətində heç bir manea yox idi. İran və Türkiyənin uzaq yerlərindən, bir tərəfdən – İsfahandan, Həmədandan, Qəzvindən, Rəştdən digər tərəfdən isə - Ərzurumdan, Bəyazitdən, Vandan çoxsaylı karvan Təbrizə tələsirdi və orada öz mallarını rus malları ilə dəyişirdilər.

Müharibə zamanı və hətta hərbi əməliyyatların getdiyi yerlərdə müharibə edən tərəflərin öz xeyirləri üçün fəal olaraq azad və qarşılıqlı ticarətlə məşğul olmaları barədə dünya salnamələrində çoxlu nümunələrə rast gəlmək olar. (seçmə- R.İ)



Rus ordusunun Təbrizə hücumu

Əlahəzrətin təlimatlarına dəqiq riayət edən İdarə yüksək əxlaqla öz vəzifəsini yerinə yetirirdi. O, İran Azərbaycanında yeni insan münasibətlərinin və gələcəkdə nəinki İran və Türkiyəyə, həmçinin Asiyanın başqa ölkələrinə də faydalı təsir göstərə biləcək Rus hökumətinin xeyirxah xarakterinin əsasını tətbiq etməyə cəhd edirdi. Azərbaycanda yaradılmış dövlət hakimiyyətinin əsası gələcəkdə bizim təsirimiz olmadan da möhkəmlənəcək və zamanla inkişaf edəcək. Onlar böyük hadisələrin başlanmasını hazırlayacaqlar.

Hesabatımın sonunda cürət edib məruzə etmək istəyirəm ki, əgər Müvəqqəti Azərbaycan İdarəsinin fəaliyyəti bəzi uğurlara görə mükafatlandırılıbsa, bunda sizin tərəfinizdən təyin edilmiş məmurların şəxsi keyfiyyəti əsas rol oynayıb.



Böyük İpək yolu

Farslar içərisində Təbriz müctəhidi Mirfət Səid təmənnasızdır və möhkəm xarakterə malikdir, ziyalılığı və əxlaqı ilə xalq arasında böyük hörmətə layiqdir. O, İranda heç kimə bənzəməyən bir şəxsiyyətdir. Mirfət Səid adamların

seçilməsində həmişə doğru yol göstərən olub, seçdiyi adamlardan bəziləri vəzifələrə təyin olub və bununla da böyük xeyir verib. O, Rusiyaya sadiq idi, İran ənənələrinə və onların idarəetməsinə qarşı nifrəti nəticəsində güclü təsirlərə məruz qalmasına baxmayaraq onlara baş əymədi. Onun arzusu öz vətənini, Azərbaycanı özgə tayfalardan azad etmək idi və onun inamı yüksək əqidəyə layiq idi.

Cəzbedici nümunə kimi onun çox mötərəm kişiliyi, İdarənin işlərində göstərdiyi təmənnasız mirzəliyi və xüsusi səyi ilə başqalarından seçilirdi. Farslar arasında beləsinə nadir hallarda rast gəlmək olardı

Əlahəzrət İmperatora, alovlu xidmətlərini nəzərə alaraq Rusiya məmurlarına üz tutub onların hərəkətlərinin yaxın şahidi kimi demək istəyirəm ki, İdarənin üzvləri, vergi toplamaq üçün yaradılmış komissiyanın üzvləri, şəhər və qalanın komendantı, polismeyster, məktub daşıyanlar (çaparlar) və tərcüməçilər və başqaları həmişə özlərini ləyaqətlə apardılar, onlar Rus adının şərəfini xalq arasında əbədi təsdiq etməyə kömək etdilər.

(AKAK. T.7.C 597-599)

GENERAL PASKEVİÇİN ULTİMATUMU: "MÜHARİBƏ VƏ YA PUL !" RUS ORDUSU TEHRANA HÜCUM ETMƏYƏ HAZIRDI

Rusiyaya təzminatın ilkin ödəməsinin göndərilməsi və bu məbləğin hərəkətinə nəzarət etmək barədə İran hökuməti ilə danışıqlar aparmaq üçün general Paskeviç 1827-ci ilin dekabrın əvvəlində Baş ştab qvardiya kapitanı **Vladimir Dmitreviç Volxovskini** (1798- 1841) təyin etdi. O da gecikmədən İrana yola düşdü. Artıq 15 dekabrda o, pulla yüklənmiş nəqliyyatın Tehranın iki ağaclığında gördüyünü generala məlumat verdi. Nəqliyyatda üç kurura yaxın qızıl sikkə var idi. 6 min tümən çatmırdı. Kapitan Volxovski aydınlaşdırmağa başladı ki, nəqliyyat hara istiqamət götürüb, nəyə görə şərtləşdirildiyi kimi 5 kurur yox, 3 kurur var və onda iki kurur da göndərmək lazımdı. O nümayişkaranə

şəkildə öz kuryerinin general Paskeviçə getməsini dayandırdı ki, farsları əlavə iki kururu da göndərməyə vadar etsin.

Tehranda kapitan Volxovski xeyirxahlıqla qarşılandı. 16 dekabrda o, şahın naziri ilə görüşdü, ona gəlişinin məqsədini, xüsusilə də göndərilmiş birinci 3 kurur barədə izah etdi və general Paskeviçin adından müraciət etdi*:"Ümid edirəm ki, bu bizim ordunun hərəkətini ləngidə bilər, lakin zəmanət vermirəm ki, bu hərəkət tamamilə dayansın və yerdə qalan iki kururun göndərilməsi başlayana kimi generala başqa heç bir xəbər göndərmiyəcəm. Çünki əgər sizin niyyətiniz səmimidirsə, hazırlanmış məbləğin qalan hissəsinin göndərilməsini ləngitmək üçün heç bir səbəb yoxdur."*

Təzminatın ilkin ödənişini – 5 kururun Rusiyaya göndərilməsinin vəziyyəti barədə və İranın yuxarı dairələrinin Rusiyaya münasibəti haqda kapitan Volxovski general Paskeviçə məruzə etdi.

BAŞ ŞTAB QVARDİYA KAPİTANI VOLXOVSKİNİN GENERAL PASKEVİÇƏ RAPORTU, 20 DEKABR 1827-Cİ İL

...Dekabrın 17-də Şahın xəzinədarı Mənuçöhr xanla görüş oldu. Uzun danışıqlardan sonra xəzinədar təsdiq etdi ki, yerdə qalan iki kurur dekabrın 19-dan başlayaraq göndəriləcək. Lakin gümüşlə buraxılan bütün məbləği göndərmək doğrudan da çətindi, çünki 1000-ə yaxın kater tələb olunur. Məbləğ hələ göndərilmək üçün hazır deyil, amma bu məbləğ Şahın xəzinəsindən Mənuçöhr xanın evinə gətirilib, mən onu burda gördüm.

Dekabrın 18-də özümü Şaha təqdim etməm planlaşdırıldı, lakin Şahın nazirini əvəz edən (muetemid-ud-doule) Mirzə Abdul Vahabla uzun sürən görüşüm səbəbilə bunu edə bilmədim. O yüksək ustalıqla mənim başqa



Kapitan Volxovski V.D.

bir tapşırığımın olub-olmadığını öyrənməyə cəhd göstərirdi. Lakin sizin əmr etdiyiniz kimi mən onları tezliklə ilkin olaraq bütünlüklə 5 kurunun göndərilməsinə razı salmaqla kifayətləndim və onları niyyətlərində səmimi olmağa inandırdım. Nə qədər ki, İranın xeyrinə Q.İ. yerləşib, Əlahəzrətin genişürəkli hərəkətinin işığı qarşısında sübut olunub parlaq qələbələrlə Təbrizi tutduqdan sonra siz İranı ölümcül nəticələrdən qurtarmaq, Abbas Mirzəni gərgin vəziyyətə salmamaq üçün hərbi əməliyyatı dayandırdınız. Mirzə Abdul Vahab bəyan etdi: "*Biz Hökmdar İmperatorun genişürəkliliyindən xəcalət çəkirik, Əlahəzrətin mərhəmətindən və genişürəkliliklə onların yerləşdirilməsinə görə Abbas Mirzəyə minnətdar olmalıyıq."* Bu görüşün nəticəsi olaraq söz verildi ki, dekabrın 19-da mütləq yerdə qalan iki kurunun da göndərilməsinə başlanacaq. Bu zaman aydın oldu ki, Rusiyaya göndəriləcək məbləğ əvvəlcə Qəzvinə gedəcək.

19 dekabrda Fətəli şaha təqdim olunmaq şərəfinə nail oldum. Şah məni hörmətlə üçqatlı mənzildə qəbul etdi. Şah kədərli surətdə elan etdi ki, müharibə onun arzusu ilə başlamayıb, sərhəd rəisləri ediblər və o Hökmdar İmperator ilə dost olmağı arzulayır. General Paskeviçin və onun bütün ətrafındakılarının genişürəklilik, xeyirxahlıq və başqa məziyyətlərini üstün tutur. Şah sülh danışıqlarını tamamlamağı Mirzə Abdul Vahab və Fətəli xana həvalə etdi.

Şahın yanından çıxıb iki kurunun saxlandığı Mənuçöhr xanın evinə getdim, lakin təəssüf ki, onların yola salınması üçün heç bir hazırlıq aparılmadığını gördüm. Məni qarşılayan Mirzə Abdul Vahab üzr istədi və dedi ki, pulu hələ göndərə bilməyiblər: *" Siz Şahın öz dilindən eşitdiniz ki, o sülh istəyir, pul hazırdı, Mən sizi inandırıram ki, heç bir mübahisə olmayacaq. Siz nə vaxt kuryeri general Paskeviçin yanına göndərəcəksiniz?"*

Mən cavab verdim ki, siz yerdə qalan iki kurula birinci nəqliyyatın şəhər qapılarından çıxdığı zaman. Bundan sonra o, Mənuçöhr xana məktub yazdı.

Mənuçöhr xan elan etdi ki, Şahın istəyinə görə pul 20 dekabrda göndəriləcək, lakin nəqliyyat hazır olmadığına görə iki kurur yalnız dekabrın 21-də göndəriləcək.

Bu vaxta kimi pulun təhvil verilməsində vasitəçi olaraq Şah sarayının inanılmış adamı- ingilis diplomatı Makmil təyin edildi və yerdə qalan iki kurunun " çıxarılması" üçün təşkilati

işlərlə Rus və İngiltərənin nümayəndələri məşğul olurdu.

20 dekabr Şah nazirini əvəz edən mənə və Makmilə gözlənilmədən elan etdi: *"Pul göndəriləcək, lakin Rus ordusu İran sərhədlərindən tamamilə uzaqlaşdıqdan sonra ödəniləcək." Cavab olaraq mən bildirdim ki, "Tehrandan pulun göndərilməsinədə bu cür ləngimələr və çətinliklərdən sonra inam yoxdur ki, bizim ordunun geri çəkilməsindən sonra bizə nə isə ödənsin. Genaral Paskeviç İrana qarşı öz xeyirxahlığını işdə göstərdi, Paskeviçə təşəkkür əvəzinə təhqiredici inamsızlıq göstərilir. Əgər Şahın naziri Abdul Həsən xan belə bir təkliflə Təbrizə gedirsə, onda bütün danışıqlar kəsilir və müharibə qaçılmazdır."*

İngilis Makmil bunu təsdiq etdi və elan etdi ki, o, İngiltərə hökuməti adından bütün 5 kururu qəbul edib Təbrizə gətirəcək, lakin Rus ordusu Araz çayını keçəndən sonra Rusiya nümayəndələrinə təqdim edəcək. Bu təklifdən sonra Şah öz qərarını verdi. Qərarın mahiyyəti aşağıdakı kimi idi.

1. Göndərilməmiş iki kururla birinci nəqliyyat 21 dekabrda yola çıxır.

2. 15 gündən sonra bütün 5 kurur Qəzvində Makmilə təhvil veriləcək və o zaman bu, İngilis hökumətinin mülkiyyəti hesab olunur.

3. Miana qədər pulun təhlükəsizliyinə görə məsuliyyəti İran hökuməti, sonra isə İngilis hökuməti daşıyır.

4. Təbrizdə 5 kurur İngiltərə vəkilinə verilir və Rus ordusu İran sərhəddindən çıxmayınca onda qalır. Rus ordusu çıxan gün məbləğ general Paskeviç tərəfindən təyin edilmiş vəkilə təhvil veriləcək.

5. Əgər məbləğ Təbrizə gələnə qədər sülh danışıqları hələ qurtarmayıbsa, onda danışıqların tamamilə kəsilməsinə qədər İngiltərənin vəkili heç bir halda pulu İran hökumətinə qaytarmır.

Bununla da məlum olur ki, Şah ikinci məbləği ödəmək üçün vəsait tapmağa ümid edir, yəni ikinci 3 kururu. Şah öz xəzinəsindən 1.5 kuru verir, o biri 1.5 kurur isə toplanacaq.

Farslar özlərini böyük hiyləgər sayırdılar, heç cürə inana bilmirdilər ki, pulu göturəndən sonra Rus ordusu onların vilayətini boşaldacaqlar. Farsların qeyri-müəyyən inamsızlığı bu şəraitdə ingilisləri öz vasitəçiliyi ilə sakitləşdirə bilərdi. İngilis nümayəndəsi ümid edir ki, 1828-ci il 19 yanvardan gec olmayaraq 5 kurur nəhayət Miana gəlib çatacaq (...)

Bütün bunlar haqda sizin mülahizənizə təqdim edərək xəbər verməyi özümə şərəf bilirəm ki, sizin əmrinizə əsasən və Makmilin arzusu üzrə mən yerdə qalan iki kururun buradan göndərilməsinə qədər burada qalıram, sonra Qəzvinə yola düşərəm və ardınca sizin əmr etdiyiniz kimi pulun saxlanmasında heç bir məsuliyyət daşımadan pulu müşayiət edərəm.

Mianı tutduqdan sonra ordunun sayına gəldikdə isə aşağıdakı məlumatlara malikəm (...)

P.S. Muetemid-ud-doule elə indicə məni dəvət etdi və sizə xəbər verməyimizi xahiş etdi ki, Əbdül Həsən xanın cavabını gözlədiyi üçün ikinci 3 kururun göndərilməsi gecikir. Mən onun yanında Abbas Mirzənin kuryerini gördüm.

Tehrandan göndərilmədiyinə görə pul 19 yanvarda Miana gəlib çatmadı. Əvəzində bu mürəkkəb şəraitdə Şah Rusiya ilə təntənəli surətdə sülh bağladı.

KAPİTAN VOLXOVSKİ – GENERAL PASKEVİÇƏ,
19 DEKABR 1827-Cİ İL, TEHRAN

...Hər şeyin şəxsi hesablara əsaslandığı bir torpaqda əsas aparıcı şəxslər barədə sizə məlumat vermək faydalı olar. Bununla yanaşı sizə xəbər verirəm ki, Şah naziri Əbdül Həsən xanın Abbas Mirzənin yanına yola düşməsi mənə məlum oldu.

Əlahəzrət Şah camaat qarşısında məni qəbul edərkən elan etdi ki, o, sülh istəyir. Şahın xarakteri barədə belə bir fikir formalaşıb ki, o inanmadığı məsələ haqda şəxsən özü heç vaxt danışmır, səmimiyyət yersiz olanda o öz yaxınlarının vasitəsi ilə hərəkət edir. Xülasə, Əlahəzrət sizə məlumdur ki, sərtlik və yenilməz qətiyyət kimi keyfiyyətlər Fətəli xanın xarakterinə aid deyil.

Deyirlər ki, Şah birinci 5 kururu ödəməyə laqeyidliklə razılıq verdi və müəyyən müddət onun xarakterində nəzərə çarpacaq dərəcədə böyük dəyişikliklər müşahidə olundu. Rusiya ilə sülh bağlamaq üçün hazırlıqla əlaqədar olan son hadisələr Şaha təsir göstərirdi. Saray əyanları Şahın müraciətini yayırdılar: “Allah şahiddir ki, mənim bu pullardan məhrum olmam üçün bu pullar ədalətsiz yığılıb. Gələcəkdə mən xalqı

əziyyətə salaraq xəzinəyə pul toplamayacam. İndi bu pulları Rusiyaya öz sakitçiliyi üçün yox, İranı böyük bədbəxtliklərdən qurtarması üçün verirəm."

Təhsilli, işlərin aparılmasında böyük təcrübəyə və yüksək istedada malik olan, hazırkı şəraitdə Şaha təsir etmək imkanına malik olan muetemid-ud-doule Mirzə Abdul Vahab indi əsas rol oynayır, lakin Abbas Mirzənin xüsusi təlimatlarından istifadə etmir. Mirzə Abdul Vahab Allahyar xanın rəqibidir, o müharibə arzulamır, sülh istəyir. İranda yüksək ad-sana malikdir. O, öz sözünün və şərəfinin qiymətini bilir, başqa ölkələrdə də məşhur olmağa ümid edir. Onun ciddi həyat tərzi başqalarından fərqləndirir, özünü dərviş hesab edir, lakin adətən rahiblərin ürəyi şöhrətpərəstlikdən yanan olur. O, Şaha daha çox lazım olan işlərin inkişaf etməsində maraqlıdı.

Mən Mirzə Abdul Vahaba deməyi lazım bildim ki, nə qədər ki, əlahəzrət ona yaxşı münasibətdədir, o, müharibə arzulamasın və bizə xoşdur ki, bizim dostlar hörmətli və şərəflidirlər, amma Allahyar xan, Həsən xan, həmçinin bizim digər düşmənlərimiz və müharibə günahkarları indi alçalıblar və bədbəxtdirlər. O öz məmnuniyyətini gizlədə bilmədi. (...)

Şahın baş hərəmağası və xəzinədarı Mənuçöhr xan bütün münasibətlərdə sülhə yaxın olmalıdı, müharibə ona heç bir fayda vermir, Rusiyanın şəxsi düşməni olmaq üçün heç bir əsas yoxdur. İranlılar içərisində pulla münasibətdə o çox dəqiq adam hesab olunur, bu da bizə göndərilən pulun dəqiqliyinə zəmanət verir, çünki yalnız onun göstərişi ilə pul qəbul olunur, qablaşdırılır və onun möhürü ilə yola salınır. Onun sözlərinə etibar etmək olar.

Təbrizin bəylərbəyi Fətəli xan hər iki tərəfin vəziyyətini bilərək sülh bağlanmasını tezləşdirməyi arzu edir, bunun üçün əlindən gələni edir (...)

O, bizim üçün nəzərdə tutulan ikinci 3 kurur hesabına Şahdan 1.5 kurur xahiş etməyə artıq nail olub.

Buranın yerli rəisləri Şahın oğlu Zilli xan və ya Əli şah İrandan xəzinənin çıxarılmasına laqeydliklə baxırdı, fikirləşirdi ki, Şah ölən zaman xəzinə ona çata bilər, həmçinin o, sülhün əleyhdarı idi. Şahın müharibə istəmədiyini gördükdə Abbas Mirzəni razı salmağın faydalı olduğunu düşünərək o məcbur oldu ki, onlarla razılaşsın. İstənilən halda Rusiya ilə yaxşı münasibətdə olmaq istədi. Bir sözlə o, Şaha həlledici

təsir edə bilmir, amma ikinci 3 kurunun göndərilməsinə köməklik göstərə bilər.

İngiltərə işlər vəkili vəzifəsini icra edən ingilis missiyasının həkimi Makmil İran sarayında güclü təsirə malikdir. O tez-tez Şahla görüşür, onun bütün qadınlarını tanıyır. Onun təsiri burda İngilis hökumətinin etibarına və şəxsi keyfiyyətlərinə əsaslanır. O həmişə müharibənin acı nəticələrini Şaha xatırladır, Şahı və onun ətrafındakılarını hansı şərtlə olursa olsun tezliklə sülh bağlamağa inandırmaq üçün bütün imkanlardan istifadə edir. İrandakı vəziyyəti bilərək o güman edir ki, müharibənin davam etməsi şah sarayı üçün fəlakətli nəticələrə səbəb olacaq. Şaha sadiq bir şəxs kimi o, hədsiz etibara sahibdi.

Şahın oğlanlarından Həsən Əli Mirzə Xorasaninin şaha daha böyük təsiri var. O, 7 və 8 minlik qoşunu ilə Tehrana doğru hərəkət edir və 26 dekabrda Tehrana gəlib çatmalıdı. Bu şahzadə qorxulu deyil, nə o, nə də onun tərəfdarları heç vaxt səliqəli ordu ilə iş görməmişdilər və uğursuzluqları İran ordusunun ruh düşkünlüyü və pis təşkilatçılığı ilə bağlayırdılar. Abbas Mirzənin rəqiblərindən biri də şahzadə Həsən Əli Mirzə idi. Bizim ordunun pulu aldıqdan sonra getməsinə inanmırdı. Bu şahzadə müharibə tərəfdarıdır, həm də öz əxlaqı ilə Şaha təsirinə görə təhlükəlidir.Onun tərəfindən edilən zorakılıqdan heç kim qorxmurdu. Təbrizi ələ keçirildikdən sonra ona Tehrana getmək əmri verilmişdi..

Xarici işlər naziri Əbdül Həsən xan bu müharibəyə qarşı çıxdı, sülh bağlanmasında iştirak etməyi arzulayır, Şahın etibarını qazanıb, lakin Abbas Mirzə onun yanında deyil. Şahın xəzinəsindən 5 kurunun Mənuçöhr xanın evinə göndərilməyənəcən və 3 kurur Qəzvinə yola salınmayınca o, Tehrandan çıxmamaq qərarına gəldi. Mənim aydınlaşdırdığıma görə hazırda Əlahəzrətin yanına iki məqsədlə göndərilib.

1. Azərbaycandan gələn məlumatın doğruluğuna inanmaq çətin idi, çünki eyni vaxtda Abbas Mirzədən, kaymakamdan və Mirzə Məmməd Əlidən gələn müxtəlif məlumatlar ziddiyyət təşkil edirdi və Makmilin vasitəçiliyi olmadan İran nazirliyi işin həqiqi vəziyyətinin nə yerdə olduğunu bilə bilməzdi. Bu da Abbas Mirzəyə etibar etməməyə səbəb oldu.

2. Bütün mümkün vasitələrdən istifadə edərək əlahəzrəti yumşaq şərtlərə razı salmaq. Mənim tərcüməçimin yanında o dedi ki, öz nəvazişli sözləri ilə pulun göndərilməsi işini başa

çatdırmağa ümid edir.

Dünən öyrəndim ki, burada dövlət hesabına Əbdül Həsən xanı əlahəzrətə gətirmək üçün zəngin pal-paltarla dolu atla təmin ediblər, 20 şal generallar və başqaları üçün (...)

Görünür ki, sülh barədə fəaliyyətdə olan əsas şəxslər arasında ümumi rəyə gəliblər. Əbdül Həsən xan göndərilib ki, əlahəzrətin mərhəmətinə sui-qəsd etsin.

Mənə etibarlı mənbələrdən məlum oldu ki, sizin bütün şərtlərinizin qəbul olması, bircə pulun ödəmə vaxtı və bizim ordunun Azərbaycandan çıxması şərtindən başqa burda çətinliklə qarşılaşmayacağıq. Ürəkdən sülh arzulayan farslar bizə pul vermək məsələsini həll edə bilmirlər, çünki heç cürə inana bilmirlər ki, pul veriləndən sonra bizim ordu İranı tərk edəcək. Xülasə, Əbdül Həsən xan mənə dedi ki, Şahın icazəsi olmadan pulu əvvəlcədən ödəmək hüququna malikdir.

(AKAK. T.7.C 577)

Rusiyaya pulun hərəkətində yeni səbəblər ortaya çıxdı. Şahın ətrafı həqiqətən də Abbas Mirzənin məmurlarından şübhələnirdi. Ona görə də pulun göndərilməsinə nəzarət etmək və eyni zamanda sülh danışıqlarına rəhbərlik etmək üçün şahın naziri Əbdül Həsən xan gəldi.

KAPİTAN VOLXOVSKİDƏN – GENERAL PASKEVİÇƏ, 22 DEKABR 1827-Cİ İL, TEHRAN

Dünən kaymakamın gəlişi münasibətilə məndən xahiş etdilər ki, kuryeri məruzə ilə general Paskeviçin yanına göndərməyim.

Bu gün səhər elan olundu ki, kaymakam Abbas Mirzə vasitəsi ilə birinci 5 kururun danışıqsız ödənməsini tələb edir.

“Sizin gəlişiniz, - mənə muetemid-ud-doule xəbər verdi, - və sizdən eşitdiklərimiz sizin hökumətin İranda yaxşı yerləşməsinə bizi inandırır və iki dövlət arasında əvvəlki razılaşmanı və dostluğu bizim səmimi arzulamağımıza şübhə etməyə bilərsiniz. Ancaq Abbas Mirzənin yanındakıların sözü belə deyil. Onlar ancaq bizi hədələyirlər və onların sözlərinə qulaq asmağı tələb edirlər. Onların təhlükəsi qaçınılmazdı.

Biz sizin gücünüzə bələdik, arzu edirik ki, bizə inanasınız, çünki bizdən itaət tələb etmirsiniz və bizimlə dostluq etmək

istəyirsiniz. Xülasə, sizə açıq deyirəm, biz bu adamların hərəkətlərinə öyrəşmişik və onlar bizə etibar etməyə bilərlər, onların şəxsi mənafeyi bizi bu müharibəyə cəlb etdi. İndiyə kimi müharibənin qurtarmasına əngəl oldular. Pulun birbaşa onların öz əllərindən təhvil verilməsi tələbi bizdə şübhə yaradır, lazımsız təhdidlər isə əlahəzrəti kədərləndirə bilər və yaxşılaşmağa gedən işi çətinləşdirə bilər. Dünən sizi xəbərdar etdiyimiz kimi notaya əlavə etməyi lazım bilirəm ki, 5 kurur haqqında məsələ məlum şərtlərlə qalır. Ola bilər ki, göndərişi sürətləndirmək üçün qızıl pul məbləği təcili olaraq Qəzvindən Zəncana göndərilsin, gümüş pulla məbləğ isə dayanmadan onun ardınca göndəriləcək və Zəncanda bütün məbləğin ingilis Makmilə təhvil verilməsi təşkil olunacaq. Yerdə qalanlarına gəldikdə isə ümid edirik ki, yüksək səviyyədə həll edəcəyik.

Sizin təyin etdiyiniz məbləğin ödənməsi bizim ev işimizdir və Əbdül Həsən xan sizin baş komandanınızla əlahəzrət arasındakı razılaşmanı pozmaq üçün deyil, əksinə bu razılaşmanı faydalı sonluqla başa çatdırmaq üçün göndərilib.

Əlahəzrətdən xahiş edin ki, Əbdül Həsəni Şahın nümayəndəsi kimi hörmətlə qəbul etsin. Boynuma alıram ki, onunla iş görməyin çox çətin olduğunu və zəhmli bir adam kimi onu bizə təsvir edirlər. Mən ona etiraz etdim ki, sizin hətta sadə insanlarla da mülayim və rəhmli davranışınıza bütün Azərbaycan şahiddir. Şübhəsiz ki, Əbdül Həsən xan sizin sülh şərtlərinin yerinə yetirilməsində qətiyyətli olduğunuzu hiss edəcək, çünki əgər əlverişli nəticə alınmasa, onun güclü və məğlubedilməz ordusunun uzun zaman hərəkətsizliyinə görə sizin üzərinizə böyük məsuliyyət düşür.

Tezliklə göndərilən məbləğə və onun Abbas Mirzənin məmurlarına verilməsinə toxunaraq dedim ki, mənə əlahəzrətin niyyəti məlum deyil, lakin Makmilin təklifi daha da əlverişlidir. Onlar dayanmadan pulun hərəkət etməsinə zəmanət verirlər. Məlumdur ki, axırıncı Miana gəlib çatana kimi pulun mühafizəsi və dayanmadan hərəkəti ingilislərin vasitəçiliyi ilə təmin olunacaq. Məbləğin Abbas Mirzənin məmurlarına verilməsi yenidən burdakı yerli hökumətin tədbir görməsində bu işdə səhvə və qərarsızlığa düçar ola bilərdi.(...) Mirzə Abdul Vahab mənə məlumat verdi ki, Azərbaycanı idarə etdiyi 25 il ərzində davamlı olaraq Şahdan və İngilslərdən xeyli miqdarda pul aldı, lakin bu İrana heç bir fayda gətirmədi.

(AKAK. T.7.C 579)

İran şahı nəhayət ki, Rusiyaya birinci 5 kururu ödəməyə razılıq verdi, o, bu məbləği çoxdan özününkü, saymır. Lakin bu məbləğ əvvəlki kimi İranda "yerində sayır", müxtəlif gizli və aşkar mexanizmlər onun Rusiyaya göndərilməsinə əngəl olur. Şahın ətrafında Rusiya ilə sülhə və təzminatın ödənilməsinə qarşı olanlar peyda oldular. Adətən optimist kapitan Volxovski şikayətlənir ki, pulun göndərilməsi haqqındakı danışıqlar getdikcə ağırlaşır. Rus ordusu Tehrana doğru irəliləyə bilməsi haqda İran sarayına xəbər çatanda İran siyasi arenasında narahatçılıq başladı və antirus qüvvələri aktivləşməyə başladı. İran Azərbaycanın əhalisinin İrandan ayrılmaq və Rusiyaya daxil olmaq arzusunda olmaları da İran sarayının vəziyyətini çətinləşdirdi. Rusiyaya pulun göndərilməsini müdafiə edən xaricilərə Tehranda qalmaq təhlükəli olmağa başladı. İngilis Makmil başladığı işi yarımçıq qoyaraq İranı tərk etmək niyyətindədir və Rusiyadan kömək istəyir.



Köhnə Tehranda taksi
müştərilərini gözləyir

KAPİTAN VOLXOVSKİDƏN – GENERAL PASKEVİÇƏ,
27 DEKABR, 1827-Cİ İL, TEHRAN

Pulun dayandırılmasının müxtəlif səbəbləri barədə daimi məruzələr. 25-də burdakı siyasi dairədə fırtına qopdu, lakin artıq dayanıb.

Həsən Əli xan Xorasani Tehrana təkidli bir məktub yolladı ki, pulu göndərməsin. *"Mən ölərəm, - o yazır,- nəinki dözərəm ki, vergi pulu Təbrizə göndərilsin".* Şahın reaksiyası məlum deyil, ola bilər ki, Şahın nazirliyi qəhrəman Xorasanski ilə bizi təhdid edərək Rusiyadan mülayim şərtlər qoparmağı arzulayır. Bununla yanaşı Makmil Qəzvində 5 kururun vaxtlı-vaxtında təhvil verilməsi üçün Şahın fərmanını almağa cəhd edir.

25 dekabrda Makmil planlaşdırılmış məbləğin Azərbaycana göndərilməsinə dair tərəddüdlü cavab aldı. Bundan sonra Makmil Şah nazirinə elan etdi ki, əgər səhəri gün o, 5 kurura aid onun verdiyi təklifin yerli hökumət tərəfindən dəqiqliklə yerinə yetirməsi barədə tam əmin olmasa, onda o, daha öz vədinə əməl edə bilməyəcək və burdakı işlərdə iştirak etməkdən imtina edəcək, çünki farsların vicdansızlığına xidmət etmək istəmir. **Belə bir şəraitdən sonra Rus ordusunun Tehran istiqamətində irəliləyə biləcəyini nəzərə alaraq Makmil ailəsi ilə birlikdə İranı tərk etmək niyyətindədir və Rusiyanın hamiliyinə keçəcək** (videleno nami R.İ) Bundan başqa Makmil 26-da Şahın onu qəbul etməsini tələb etdi və ona gərginləşmiş vəziyyət haqda xəbər verdi. Şah isə ona belə cavab verdi:

- Sizə şah sözü verirəm ki, bu 5 kururu mən artıq özümünkü hesab etmirəm, o İngiltərə mülkiyyətidir və o da təyin edilmiş vaxtda Qəzvində sizə təhvil veriləcək. Siz onu istədiyiniz yerə Hindistana və ya Təbrizə apara bilərsiniz, mənə fərqi yoxdur. Allah! Məni ona toxunmaqdan qoru!

-Amma əlahəzrət siz bilirsinizmi ki, bu sülh və Azərbaycanın boşaldılması üçün bir şərtdir? Bu işdə bütün ağırlığı öz üzərimizə götürməklə sülhün bərpa olunmasına ümid edə bilərikmi?- Makmil etiraz etdi.

Şahın cavabı yaxşı oldu, amma xırdalıqları mənə məlum deyil. İkinci 3 kurura gəlincə isə Şah elan etdi ki, o, 5 kurudan başqa bir kurur da verir, daha öz pulundan verməyəcək. Yerdə qalanını isə Abbas Mirzə ödəməlidir. Şaha görə onun

bu məbləğdən də artıq pulu var.

-Xülasə,- şah dedi,- əgər Abbas Mirzənin bu qədər pulu yoxdursa, deməli, bu onun dövləti idarə edə bilmək bacarığının olmamasını göstərir. Çünki 25 il Azərbaycanı idarə edərkən vilayətin gəlirlərindən başqa o, kifayət qədər məndən də pul alıb. Özü isə ordusuna ödəməyib, sərhəddi möhkəmləndirməyib, ancaq Təbrizdə bir neçə top düzəltdirib, deməli pul yığa bilərdi. Qısası, 3 kururun ödənməsi bizim ev işimizdir. Əgər Abbas Mirzə buna razılaşmazsa, onda mən bunu öz üzərinə götürən başqa bir şahzadə taparam və o da varis titulunu alar. Əgər Rusiya baş komandanı sülh və pul istəyirsə, qoy onda mənimlə iş görsün, əgər O, Abbas Mirzəni Azərbaycanın idarəsində saxlamaq niyyətindədirsə, onda Rusiya arzuladığı şərtlərə nail ola bilməyəcək.

Bu söhbətdən sonra Şah Mənuçöhr xana müəyyən edilmiş vaxtda bütün birinci 5 kururu göndərməyi və bunu Makmilə təhvil vermək üçün özünün də Qəzvinə yola düşməsini əmr etdi. Pul bir gün gecikmə ilə Qəzvinə çatacaqdı, yəni bütün pulun qəbul edilməsi üçün təyin edilmiş gündə - 5 yanvarda. Mənuçöhr xanın evində pulun yola salınması üçün hazırlıq işləri gedirdi. Əlavə olaraq təcili 600 kater hazırlanır. Makmil pulun qəbulu və çatdırılması üçün Şahdan tam səlahiyyət aldı. (...)

Bu tarixdə Mirzə Abdul Bahab məni öz yanına çağırdı və aşağıdakıları xəbər verdi: **"Mən əvvəllər də müharibə arzulamırdım, indi də sülh istəyirəm, çünki bilirəm ki, İran Rusiyaya qarşı müqavimət göstərə bilməz, lakin İrəvanı işğal etdikdən sonra birinci olaraq mən israr etdim ki, ordu hər tərəfdən çəkilsin. İran xalqı sadəlövhdür. Sizin uğurlarınız fikir yayırdı ki, guya bütün vilayətlər Azərbaycan kimi sizin tərəfinizə keçməyə hazırdı və bizim hökumət artıq gücdən düşüb. Göstərmək üçün ki, biz hələ hərəkət edə bilərik, mən buraya ordu göndərməyi təklif etdim, çünki ordu paytaxtda sakitliyi təmin etmək üçün zəruri idi. Təkrar edirəm, burda xalq yüngülxasiyyətlidir.**



Xorasan- İranın mirvarisi

İndi ehtiyat edirəm ki, burda toplanmış ordu haqqındakı məlumat bizimlə sülh arzusunda olan Rusiya baş komandanının inanmasına mane olsun." (seçmə – R.İ)

Mən cavab verdim ki, əgər bizim aramızdakı sülhün bağlanması şərtinə dəqiq riayət edilərsə, İran ordusunun bir yerə cəmlənməsi bizi narahat etməyəcək.

(AKAK. T.7.C 580)

Nə qədər ki, İrandan pul yoxdur, müharibəni davam etdirmək qalır. Orduya uzun müddət qərarsızlıqda gözləmək ziyan verir və general Paskeviç uzunmüddətli tənəffüsdən sonra Tehran istiqamətində hücum etmək niyyətindədir. Baş komandanın məqsədi və hərəkəti haqda yerli əhalinin bilməsi üçün general Azərbaycanda fars hökumətinin açıq düşməni və rus idarəetməsinin tərəfdarı olan nüfuzlu Təbriz müctəhidi Mirfət Səidi məlumatlandırır.

GENERAL PASKEVİÇDƏN – MÜCTƏHİD MİRFƏT SƏİDƏ, 3 YANVAR 1828-Cİ İL, DEY-KARQAN

Şərait müharbəyə sövq edirdi, nəinki sülhə. Mən sonralar qan tökülməsindən qaçmaq üçün hər şeyi etdim. Lakin Qacarlar təşəkkür əvəzinə bircə yalana inanaraq özlərini xilas etmək haqda düşünürlər. Görünür, Allahın istədiyi kimi: xəyənətkarlar cəzalandırılacaq. Bir neçə gün sonra hər şey həll olunacaq. Möhtərəm ağa mən sizdən zərrə qədər şübhələnmirəm. Siz bu yolla indiyə qədər bir çox hallarda özünüzü tanıtdığınız kimi təmiz ürəklə və həqiqətsevərliklə yürüşə gedəcəksiniz. Siz Allahın adı ilə saf həyata çağıraraq və bütün məziyyətləri möhkəmləndirərək xalqda itaəti və sakitliyi qoruyun. Əgər mən hərəkətə keçsəm, onda mübarizə uzun çəkməyəcək. Şah və onun məsləhətçiləri mənim xeyirxahlığıma xidmət etməyi və qazanmağı bacarmırdılar, lakin onlar döyüş meydanında da dayana bilirlər və öz mərdlikləri ilə düşmənin hörmətini qazanırlar.

(AKAK. T.7.C 582)

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTU, 5 YANVAR 1828-Cİ İL

...Farslarla danışıqlar saat ba saat şübhə doğururdu.

Artıq mən bu məlumatları alandan sonra Türkiyədən farslara ruhlandırıcı xəbər gəldi ki, xalq arasındaki gəzən xəbərlərə görə Türkiyə bizə müharibə elan edir.

Ərzurum sərəskəri (köhnə Türkiyədə: baş komandan, sonralar - hərbiyyə naziri) İrana bitişik vilayətlərə gizlin olaraq məlumat ötürür ki, yaxın günlərdə 15 min dəlinin (xüsusi ordu) gəlməsi gözlənilir. Onların qalası silahlanır və müxtəlif yerlərdə ərzaq toplanmasına hazırlıq görülür. (...) Tehran bizə qarşı Türkiyədən kömək almaq ümidindədir.

Bizim danışıqlara təsir edən ikinci hadisə - Xorasandan Şahın yanına oğlu Həsən Əli Mirzənin gəlməsidir. Kapitan Volxovski onun gəlişindən ehtiyat etməsi barədə artıq mənə xəbər verib. Üç gün əvvəl etibarlı mənbələrdən məlumat aldım ki, Rus ordusu ilə hələ qarşılaşmayan bu diqqətsiz gənc atasının sarayına gəlişi ilə ciddi olaraq sülhə qarşı çıxır. Şah şurasını inad göstərməyə və sülh prosesini ləngitməyə nail olur. Döyüşlərin yenidən bərpa olunduğu zaman isə ordu komandanlığını öz üzərinə götürmək üçün əlləşirdi. Öz qar-

daşı Abbas Mirzədən fərqlənmək arzusu qədər də ona nifrəti var idi.

Bununla yanaşı kimə məxsus olacaqlarına- Rusiyaya, yoxsa İrana- inanmayan Azərbaycan əhalisi sonralar Rus ordusunun gəlməsinə üzülməyə başladılar, hərçənd ki, orduda ciddi intizama riayət edilirdi, lakin qaçınılmaz ağır tələblərlə: ordunun yaşayışı, istilik, ordu üçün ərzaq və atlar. Fırtınalı ehtirazların hələ işarəsi yoxdur, lakin bəzi əhali öz ailələri ilə birlikdə evlərini tərk edirlər. İşlərin bu vəziyyətdə olması İran hökumətində hiyləgər ümid oyada bilər ki, onun Rusiyanın tələbini yerinə yetirməmək arzusu xalqın bizə nifrəti və üsyanı ilə möhkəmlənəcək. Lakin mən İran hökumətinə sevinməyə imkan vermərəm, çünki sülh mərhələsinin kəsildiyi an mən müharibəni İran Azərbaycanından İran vilayəti olan Kaflan-kuxa keçirərəm.

Mənim təqdim etdiyim hər üç variantından hansının bizim işlə bağlı Şahın davranışında baş verən dəyişikliyə aid olduğunu mən təsdiq etməyə cürət etmirəm, ola bilsin ki, hər üç variant birlikdə. Lakin dekabr ayının sonlarında bu dəyişikliyin işartıları sözdə (farslar tərəfindən ifadə olunan sülhsevərliyə inam) yox, işin özündə hiss olunurdu.

Pul hələ ki, yoxdu və İran paytaxtından gələn hər yeni kuryer, indiyə qədər olduğu kimi, pulun tezliklə gələcəyi barədə mənə açıq bir söz demir. Danışıqların bütün ardıcıllığından tutmuş son nəticəsinə qədər olan hadisələri qısa formada Sizin müzakirənizə təqdim etməyə cürət edirəm(...)

Dey-Karqanda Abbas Mirzə ilə görüşməyimə razılıq verdiyimi bilən kimi o, öz möhürü ilə yazılı surətdə sülhün əsas şərtlərini təsdiq etdi.

Bizim qurultayın birinci iclasından o, pul tələbinin azaldılmasını xahiş etməyə başladı. Tələb olunan məbləğ həqiqətən də yüksək idi, amma əgər əvvəlcə təsdiq edilmiş məbləğə qarşı indi məbləğin yarısı elan olunmuşdusa, onda əlbəttə ki, xahişlər əvvəlki kimi qalırdı. Əgər Şah vaxtında, məhz 22 dekabrda birinci şərtin yerinə yetirilməsinə başlayarsa, bizim tərəfdən ona güzəşt ediləcəyi vəd edilmişdi. Bu müddət həddindən artıq qısa idi, lakin farslara vaxtı uzatmaqdansa günü, saatı, dəqiqəni hesablamaq lazım idi, nəinki vaxt uzadaraq yeni xahişlər, ərizələr, bəhanələrin meydana çıxmasına şərait yaratmaq, necə ki, belə də oldu.

22 dekabrda Abbas Mirzənin məktubunda qeyd olunur ki,

iki milyon yarım tümənin ödənilməsi üçün Şahın razılığı alınıb, lakin üzürlü səbəbə görə onun müəyyən edilmiş vaxtda göndərilməməsini və ödənişi daha münasib müddətlərə bölüşdürərək yerdə qalan məbləğin azaldılmasını xahiş edirlər. Şahın xəzinəsindən pulun sayılıb, qablaşdırılıb və göndərilməsinə şahidlik etmək üçün Şah şəxsən özü üçüncü şəxs kimi Tehrandakı ingilis Makmili seçib.

Pulla yüklü birinci nəqliyyatın yola salınması vaxtı ikinci dəfə 10 dekabra təyin olundu, yerdə qalan məbləğdən bir milyon yarım tümən güzəşt edildi. Tehrandan və Abbas Mirzədən gələn məktubda əvvəlcə tələb olunan bütün məbləğin ödənilməsinin mümkünsüzlüyü haqda inandırıcı səbəblər- Şah xəzinəsinin tükənməsinə görə, hökumətin fəlakətli vəziyyəti- göstərilir və biz tərəfdən də yenə güzəşt vəd edilib, lakin ikinci müddət təyin edildikdən bir neçə gün sonra Tehrandan pulun həqiqətən yola salındığı haqda dəqiq məlumat aldığımız zaman onlar bu güzəştə ümid edə bilərlər.

Tamamilə xaricilərin əlində qalmamaq üçün, hərçənd ki, İngiltərə naziri və onun məmurları bizim etibarımızı qazanıblar, rus zabiti kapitan Volxovski Tehrana göndərilib. O, Tehrana gəlib çatmamış 15 dekabrda birinci pulla yüklü nəqliyyatla qarşılaşdı və vədimizə əməl edərək əvvəlcədən nəzərdə tutduğumuz kimi bir milyon tümən güzəştə getdik.

Noyabrın ortalarından sonra kuryerlər, xanlar, Şahın xidmətçiləri və Abbas Mirzə, Tehrandan şifahi və yazılı xəbərlər hər gün dəyişirdi və yeni xəyallarla dolu idi. Kapitan Volxovskinin paytaxta gəlişinə qədər guya pul yola salınıb və Qəzvinə çatıb. Nəhayət, Şah qızıl pulla 5 kurur göndərər və.s, lakin bir aşkarlığa inanmaq lazım olduğunu güman edərək mən bunu laqeydliklə kobud bir hiylənin meydana çıxması kimi qəbul etdim.

Abbas Mirzənin səlahiyyətli nümayəndəsi ilə bütün işlər başa çatmışdı, maddələr tək-tək imzalanmışdı, sonuncu formaya əməl etmək qalırdı: kağız üzərində təntənəli aktı imzalamaq və onu Şahın təsdiqinə göndərmək. Bunu Abbas Mirzə məndən xahiş etdi və hələ də əl çəkmədən xahiş edir. Doğrudur, bütün başqa güclü dövlətlərlə əlbəttə ki, sülh müqaviləsi bağlayırlar, sonra isə onun yerinə yetirilməsinə başlayırlar. Burda isə hər şey əksinədir, bunun üçün indi hər zaman olduğundan daha çox inandırılmaq lazım gəlir.(...)

27 dekabrda xüsusi kuryerim mənim yanıma gəldi və

məlumat verdi ki, pulla yüklənmiş birinci nəqliyyat Şahın əmri verilənədək Qəzvində qalacaq.

Bunun ardınca Makmil Tehrandan öz rəhbərliyinə xəbər verdi ki, Rus ordusunun Azərbaycandan çıxmayacağı təqdirdə Şah 2 milyon yarım tüməni ödəməyə razı deyil. Bunu xəbər vermək üçün Əbdül Həsən xan buraya gəlir. Tələb olunan məbləğ 1 fevralda gəlib çatmalıdır, onun ingilis elçisinə ötürülməsindən sonra elçi də öz növbəsində bu məbləği Rus ordusunun Araz çayının əks tərəfinə keçməsindən sonra Rus məmurlarına təqdim edəcək.

Şahın fikri belədir, lakin İngilis naziri bu işdə qətiyyətlə iştirak etmək istəmir, çünki inanır ki, biz hücuma keçdiyimiz zaman o, İrandan heç nə ala bilməyəcək.(...)

Sonra yenidən təsdiq olundu ki, pulla yüklü birinci nəqliyyat hələ də Qəzvindən yola çıxmayıb. İki ay sürən danışıqlardan sonra Abbas Mirzə ilə şərtləşdirilmiş hər şeyin darmadağın olduğu bu yeni şəraitdə deyəsən tərpənmək lazımdır və artıq heç nə gözləmək olmaz.

Abbas Mirzə bütün bunları inkar edir. Onun məyusluğu yalandan deyil, ancaq mən buna zamin deyiləm. O, mənə yalvarır ki, Əbdül Həsən xanın gəlməsini gözləyim. O gələndən sonra mənim arzum yerinə yetəcək. O özünü bədbəxt adam kimi göstərir, partlayış baş verdiyi halda Rus İmperatorunun iltifatını qazanmadan öz atasının etibarını birdəfəlik itirəcəkdi. Əgər bütün baş verənlər Şah və onun ətrafındakılar arasında şərtləşdirilmiş qarışıqlıq deyilsə, bu ola bilsin ki, ədalətlidir. (...) Lakin indi müddət yaxınlaşır. Bu haqda Əlahəzrət Hökmdar İmperatora mən hələ Təbrizdə olarkən xəbər vermişdim ki, 15 yanvarda biz Kaflan-Kuxa yürüşə hazırlaşırıq.

Ordu dincəldi, illik əşyalar və pul alınıb.

Abbas Mirzədən dostcasına ayrılıram. Əbdül Həsən xana, əgər o, məni burda və ya Tehranda taparsa, qısa cavab verəcəm: “Müharibə və ya pul” Burdakı dəstə Marağaya keçir, oradan da İran ordusunu pərən-pərənə salır. (...) Mən sol cinahıma təcili



Avşar-Tehranda magistral

əmr verirəm ki, Ərdəbilə hücum etsin və çalışacam ki, bu qalanı tutum. Bununla yanaşı anbar Təbrizdən Mianaya köçürüləcək. Burda 7 və ya 8 min nəfərlik dəstə təşkil olunacaq, oradan da mən mərkəzi kolonna ilə birlikdə Tehran yolu ilə Zəncana doğru hərəkət edəcəm. Əgər bununla başlanılmış yürüş məhdudlaşmazsa və ardınca bizi müharibəni davam etdirməyə məcbur edərlərsə, onda Qəzvinə yaxınlaşaraq mən Gilanda xan təyin edərəm. Bütün Azərbaycanda olduğu kimi burada da əhali sevinclə mənfur hökumətdən yaxasını qurtarar. Lakin bizi oraya yəqin ki, buraxmazlar. Kapitan Volxoviçin missiyası ilə möhkəmləndirilən Miana yürüşümüz farsları Tehrandan pulla yüklü birinci nəqliyyatı göndərməyə məcbur edəcək. Sonrakı yürüşümüz, Allahın köməyi ilə, farsları daha böyük güzəştə getməyə sövq edər.(...) lakin qarşıdakı kampaniya böyük çətinliklərlə bağlıdır.

(AKAK. T.7.C 582)

GENERAL PASKEVİÇİN ACİZANƏ RAPORTU,
6 YANVAR 1828-Cİ İL, DEY-KARQAN

Dünən axşam Şahın tapşırığı ilə Əbdül Həsən xan bura gəldi. Bu gün səhər yeni görüş baş tutdu. O daha çox əvvəlki mərhum Əlahəzrət İmperatorun iltifatına, özünün bütün Avropadakı şöhrətinə söykənərək mənə yalvardı ki, bir neçə gün də gözləyim. Mənim cavabım qabaqcadan Əlahəzrət Hökmdar İmperatora xatırlatdığım kim oldu.

Abbas Mirzə ilə sonuncu vida iclasını keçirdim. O, ağır vəziyyətdə idi. Onun vəziyyəti, əlbəttə ki, pis idi: silaha güvənmək indi ağılsızlıq olardı, öz hərbi gücünün böyük bir hissəsindən məhrum olması və atasının xəsisliyi ucbatından sülh cəhdləri uğursuz olmuşdu.

Əlahəzrət Hökmdar İmperatora qeyd etməyə cürət edirəm ki, bizim İran sarayı ilə yaxınlaşmamızın başlanğıcında olduğu kimi indi də böyük çətinliklər var: əzəmətli qələbədən sonra pulun alınmasına zəmanət yoxdur. Pul burada dövlət təhlükəsizliyindən və namusdan üstündür.

(AKAK. T.7.C 585)

Farsların təzminatın razılaşdırılmış birinci məbləğini Rusiya tərəfinə ödəməsi günü əziyyət və həqarətlə gözləməyə

dözməyən, prinsipial general Paskeviç İranla sülh münasibətlərinin kəsildiyini elan edir və hərbi əməliyyatlara başlayır. Bu gözlənilməz elan və generalın Tehran tərəfə hücum barədə qətiyyətli niyyəti, əlbəttə ki, İran sarayında vahimə əhval-ruhiyyəsi yaratdı. Bunca məğlubiyyətlərdən və itkilərdən sonra farslara bircə Tehrana həmlə və onun mühasirəsi çatmırdı! Belə bir faciə baş verməməli idi. Şahın və onun ətrafındakılarının Rusiya ilə sülhün xeyrinə reaksiyası bu dəfə gecikmədi.

Tehrandan birinci məbləğin təcili ödənilməsi - sülh müqaviləsinin bağlanması üçün əsas şərt barədə əmr gəldi. General Paskeviç Şahın yeni əhval-ruhiyyəsini bilmirdi, amma düşünürdü ki, farslar rus ordusunun İran Azərbaycanın hüdudlarından kənara yenidən hücum etməsinə imkan verməzlər. Bu şəraitdə kapitan Volxovskinin Tehranda qalması təhlükəli ola bilərdi, ona görə o geri çağrılır.

GENERAL PASKEVİÇDƏN – KAPİTAN VOLXOVSKİYƏ,
11 YANVAR 1828-Cİ İL, TƏBRİZ

Bu göstərişi siz İngilis naziri Makdonalddan alacaqsınız. Əgər 5 və ya 3 kurur həqiqətən də Tehrandan yola salınıbsa və Qəzvinə gəlib çatandan sonra Rusiyanın öndəki otraydına (bölüyünə) göndərilməsi üçün hazırdırsa, onda siz hökmən onu təqib etməlisiniz. Əgər yeni dəyişmələr və farsların gecikdirməsi baş verərsə, onda sizin Tehrana və ya Qəzvinə gəlməyinizin əhəmiyyəti yoxdur, çünki artıq bizimlə farslar arasındakı uçurum elan olunub və yəqin ki, tezliklə sizin olduğunuz vilayətdə elan olunacaq. Sizin burda qalmaqda davam etməniz yelbeyin farsları ruhlandıra bilər və onlar sizin vasitənizlə möhlət və birinci ödənişin azaldılmasını xahiş edə bilərlər.

Sizin xəbərlərinizə mən çox məmnunam və xahiş edirəm əsas diqqəti yolların vəziyyətinə, vilayətdəki vəziyyətə, xalqın əhval-ruhiyyəsinə yetirəsiniz.

Əgər siz (...) bizim şərtlərin yerinə yetirilməməsində Abbas Mirzənin nə qədər Şaha israr etdiyini və ya əksini öyrənə bilərsiniz, bunula İranda bizimkilərin işinə böyük fayda vermiş olarsınız.

(AKAK. T.7.C 587)

Yeri gəlmişkən, Farsların Rusiyaya təzminat ödəmələrinə məcbur olduqları əzablı dövrdə farsların qeyri-adi adətləri və şahın fövqəladə xəsisliyi haqda lətifəsiz keçmədi. 1828-ci il 1 martda Tehrana gələn general-mayor Rozen general Paskeviçə təzminatın Rusiyaya göndərilməsi prosesini məruzə edərək maraqlı hadisələrdən misal gətirir.

GENERAL-MAYOR BARON ROZENDƏN – GENERAL PASKEVİÇƏ, 7 MART 1828-Cİ İL, TƏBRİZ

Mənim sizə kuryer göndərdiyimi öyrənən Mənuçöhr xan məndən xahiş etdi ki, sizə xəbər verim ki, bu ayın 8-də 7 kurur burdan yola salınır, Xoy və Urmiya şəhərlərində artıq tədarük etmək lazım olmayacaq. Bir kururun göndərilməsinin sürətlənməsinin səbəbi onunla izah olunur ki, sizin göstərişinizlə ona 100 min tümən hədiyyə olaraq verməyimi eşidən Şah Tehrana gəldiyimin sabahı günü məndə doğrudan da belə bir göstərişin olduğunu öyrənmək üçün mənim yanıma Makmili göndərdi. Mən də sizin göstərişinizə uyğun olaraq cavab verdim, çünki Şah bu kururdan 100 min tümən çıxmaq niyyətində idi.(...)

Şahın öz xəzinəsini Rusiyaya xərcləməsindən heyfslənən Ezda adlı regionlardan birinin əhalisi qiyam qaldırdı, öz prinslərini qovdular, onun əmlakını və pulunu əlindən aldılar və bundan 4 kurur Şaha göndərdilər. Fətəli şah bu faktdan çox fərəhləndi və onu belə şərh etdi: " Şah dövlətin rifahı və əmin-amanlığı üçün Rusiyaya pul ödəməkdən təəsüflənmir, ona görə Allah onun əvəzinə bunu göndərdi".

(AKAK. T.7.C 604)

İngilislərin ləyaqətli vasitəçiliyi Əlahəzrət Hökmdar İmperator sarayı tərəfindən bolluca mükafatlandırıldı.

QRAF NESSELRODEDƏN – QRAF PASKEVİÇƏ, 12 APREL 1828-Cİ İL

İngilis naziri Makdonoldla birlikdə hazırlanmış sərəncama əsasən ondan 800 min gümüş rubl dəyərində veksel qəbul edilib, 200 min gümüş rubl dəyərində veksel isə tədiyəyə buraxılıb, İran hökumətindən birbaşa bizə gəlmiş ödəniş ödə-

nilib.

Əlahəzrət İmperator sizin mənə münasibətinizi nəzərə alaraq, 12 milyon gümüş rublun general-intendantın ixtiyarına buraxılmasına məmnunluqla icazə verib. Adı çəkilən naziri və digər məmurların mükafatlandırılması üçün isə müvafiq tədbirlər görülüb. Nazir Makdonalda 1-ci dərəcəli müqəddəs Anna ordeni və üstündə Əlahəzrət İmperatorun portreti bahalı tütün qabı verilib, digər məmurlar da mükafatlandırılıb.

RUS ORDUSU İRAN AZƏRBAYCANINI İŞĞAL EDƏNƏ KİMİ ORADAN MİLLİ SƏRVƏTLƏRİ ÇIXARMAĞA VAXT VƏ ŞƏRAİT VAR İDİ

Şərqin və xüsusilə də İranın qədimliyi rus alimlərinin çoxdan diqqətini cəlb etmişdi, lakin İran ilə sülh münasibətlərinin olmaması onlara bu ölkənin mədəniyyəti ilə tanış olmağa imkan vermirdi. Rus ordusu Naxçıvanı ələ keçirdikdən, ardınca isə Təbrizi tutduqdan sonra mədəniyyətin qədim abidələrinə, xüsusilə də yazılı abidələrə maraq iki qat artdı. Rus ordusu İran ərazisinə soxulduqdan sonra hətta İran hökumətinin heç bir razılığını almadan Rus imperiyası maneəsiz axtarışa və xəzinələri öz ərazilərinə gətirmək üçün şərait yaratdı. Bu dövrdə hələ Türkmənçay sülh müqaviləsi bağlanmamışdı və Rusiya faktiki olaraq İranla müharibə vəziyyətində idi. Rus ordusu İran Azərbaycanının paytaxtı Təbrizi ələ keçirdikdən sonra imperator İ Nikolayın icazəsilə fars xəzinələrinə əsl ov başladı.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MÜDİRİNİN GENERAL-ADYUTANT SİPYAGİNƏ MÜRACİƏTİ, 12 DEKABR 1827-Cİ İL

"Hökmdar İmperator, Əlahəzrət İmperatorun müzəffər ordusu Təbrizi tutmaqla bu ölkədə botanika sahəsində demək olar ki, bizə tam məlum olmayan, hansı məhsul yetişdirildiyi barədə və təbiət tarixinin digər sahələrində tədqiqatlarla məşğul olmaq istəyir, Sankt-Peterburq Botanika Bağının direktoru Fişerin nəzarəti və göstərişi ilə bu sahədə məşhur

olan təbiətşünas Soviçə həvalə edilib ki, Soviç Təbrizə göndərilsin, ordan da Naxçıvan və İrəvana və orada elmi tədqiqatlarla məşğul olsun.(...) Və əczaçı Soviç ona tapşırılmış bu işdə heç bir çətinliklə qarşılaşmadı (...) ona lazım olan dərs vəsaitlərini tapmaqda köməklik göstərmək lazımdır. (...). Neçə ki, əczaçı Soviç əvvəlcə Odessadan Tiflisə gəlir, ona görə sizdən xahiş edirəm onu Gürcüstanın baş rəisi İ.F.Paskeviçin və korpusun Xüsusi Qərargah rəisi qraf Suzetlenin zəmanət məktubu ilə təmin edib onun gələcək tədqiqatlarına kömək edəsiniz.

(AKAK. T.7.C 574)

" Tədqiqat" termini əslində Rusiyanın niyyətini dəqiq əks etdirmir. Bu adi bir bürokratik hiylədir. Söhbət təkcə tanışlıqdan getmir, həm də rus kolleksiyasının İranın müxtəlif bitki aləminin nümunələri ilə zənginləşdirilməsindən gedir. Rus ordusu İrana gələnəcən Rusiya şərq əlyazmaları və tarixi abidələri aşkar edərək İrandan çıxarmaq istəyir. Əlbəttə ki, bu cür əməliyyatlar sülh danışıqlarından sonra baş verə bilər, lakin onda Rusiyaya müvəqqəti istifadə üçün və ya mənbəənin nadir nüsxələrinin surətinin verilə bilməsi haqda söhbət gedə bilər.

İstənilən halda, əgər Rusiyanın xahişi ilə hüquqi yol seçilsə, onda İran öz şərtini ortaya qoya bilər. Ola bilər ki, İran heç cürə bəzi müqəddəs sayılan şeylərə- illah da ki, belə qiymətli xəzinə ruhanilərin himayəsi altında ona-toxunmağa belə razı olmaz.



Azərbaycan qadını gözəlliyinin sirri

Bir sözlə, beynəlxalq hüquqla müdafiə olunan diplomatik protokolla Rusiyaya başını cəncələ salmaq lazım deyil. Nə qədər ki, müzəffər rus silahı

müvəqqəti olsa da İran torpağını fəth edir, sənədli xəzinəni bellə də qazıb çıxarmaq olar. Napoleon Bonapartın "Böyük batalyonlar həmişə haqlıdır" məşhur postulatı olan yerdə haqqdan danışmağa dəyməz. Lakin rus hərbi rəisləri yüksək iradə göstərərək bütün dünyada rüsvay olmamaq üçün silah gücündən yan keçərək özününkülərə xüsusi yolla yaxınlaşırlar.

Qafqazın baş komandanı general Paskeviç " elm və incəsənətin məşhur hamisi" rus monarxının iradəsinə əsaslanaraq Sankt-Peterburqdan göstərilən münasibəti nəzərə alaraq Ərdəbildə qədim əlyazmalarının əldə edilməsi üçün diplomat Qriboyedova kömək etməyi tapşırır. " Əldə edilmə" terminini biz qəsdən işlətmişik. İlk baxışdan görünə bilər ki, söhbət satın almadan gedir. Müharibə farsları yoxsulluq həddinə gətirmişdi və ola bilər ki, onlar bəzi əlyazmaların alqı-satqısına getsinlər. Lakin burda "əldə etmə" sözünün öz mənası var. Əldə etmə dedikdə pul xərcləmək nəzərdə tutulmur, müsadirə nəzərdə tutulur, hərçənd ki, silah işlətmədən. Əlbəttə Şərqin nadir əlyazmaları ilə rus kolleksiyasının zənginləşməsi son dərəcə nəcib işdir, amma başqa ölkənin - lap elə hazırki vaxtda düşmən dövlətin - mədəniyyətinin məhv olmasına səbəb olursa, onda nəcib işlərə oxşar belə fəaliyyət müdafiəsizlərə münasibətdə güclə təsir etmək və günün günorta çağı quldurluq deməkdir.

QRAF DİBİÇDƏN – GENERAL PASKEVİÇƏ,
17 NOYABR 1827-Cİ İL

İranlılardan onların kitab anbarında yerləşən nadir şərq əl yazmalarını əldə etmək haqqında professor Senkovskinin layihəsini Sizə təqdim etməyi özümə şərəf bilirəm. Hərçənd ki, belə bir tələbi sülh müqaviləsinin bəndlərinə salmaq nəzakətli olmaz, amma Əlahəzrət imperator arzu edir ki, siz bu məsələni nəzərdən qaçırmayasınız və İran səlahiyyətlisini müqavilə bağlanan zaman Şah tərəfindən edilmiş adi hədiyyələrin əvəzinə əlahəzrət imperatora xoş olar ki, əlyazmaları,

siyahını, hansı ki, mən qısa müddətdə sizə çatdırmağı özümə şərəf sayaram, eyni zamanda əlahəzrət imperator maraqlı yazıları əlavə edərək bunların axtarışı üçün Qriboyedovdan istifadə etməyə ümid edir.

(AKAK. T.7.C 579)

GENERAL PASKEVİÇDƏN – SARAY MÜŞAVİRİ QRİBOYEDOVA, 27 DEKABR 1827-Cİ İL

Əlahəzrət İmperatorun Baş Qərargah rəisi qraf Dibiçə müraciətini və pofessor Senkovskinin ona əlavə edilmiş fransızca qeydlərini sizə göndərir və həmin müraciətdə və qeydlərdə göstərilənləri tezliklə yerinə yetirməyi sizə tapşırıram.

Mən inanıram ki, Əlahəzrət İmperatorun bununla bağlı təyinatı sizi bütün səylərinizdən istifadə edərək, bütün maarifçi Avropa üçün qiymətli və maraqlı olan xəzinənin əldə etməyə, həm də elm və incəsənətin məşhur hamisi Monarxın iradəsini yerinə yetirməyə təşviq edəcəkdir.

(AKAK. T.7.C 582)

Diplomat Qriboyedova birinci "maraqlı əsər"i Ərdəbildəki dünyaca məşhur Şeyx- Səfi Ərdəbili məscidində tapmaq çətin olmadı. Məscid Səfəvilər dövrünün zəngin mədəni irsinin izlərini qayğı ilə saxlayırdı. Bizim oçerkin mövzusundan ayrılmaq istəməyərək, Azərbaycan tarixinin şanlı səhifələrindən susaraq keçmək olmaz.*


İranda (xüsusu ilə də Cənubi Azərbaycan ərazisində) Səfəvilər ordenin sufi-dərviş fəaliyyəti sufizmdə xüsusi bir istiqamətin yaranmasına səbəb oldu. Onları ordenin üzvlərinin baş örtüyünün rənginə görə Qızılbaşlar (türkcə "qırmızı başlar") adlandırırdılar.

---

* Şərqdə səfəvi sufi-dərvişlik ordenin əsasını qoyan Şeyx Səfiəddin İsaq Ərdəbilidir.(Ərdəbil. 1252-1334), lakin Səfəvilər sülaləsinin banisi İran və Azərbaycan şahənşahı Azərbaycan ədəbiyyatı və poeziyasının klassiki Şah İsmayıl Səfəvi sayılır. (1487-1524) O, Xətai təxəllüsü ilə şeirlər yazırdı. Onun şeirlərinin ən qədim əlyazmaları toplanan "Divan"ı hazırda Daşkənddə saxlanılır.



Şeyx Səfi



Şah İsmayıl Səfəvi

Şiə olan Qızılbaşlar 12 şiə imamının xatirəsinə sayqı olaraq 12 al-qırmızı rəngli dolaqlı çalma geyinirdilər: onlar həmçinin uzun bığ və kəkil saxlayaraq başlarını və saqqallarını qırxırdılar. Sonralar qırmızı rəng paltarlarda da istifadə olunurdu.

Qızılbaşlar Səfəvi ordenin ətrafında birləşmişdilər, şeyxlər öz iqamətgahlarını Ərdəbildə qurmuşdular. Əsilzadələrin iqamətgahı, həmçinin İran səfəvilərinin cah-cəlallı məscidi göz qamaşdırırdı. Zəngin bitki və ya geometrik ornament, skalaktitə oxşayan yapma naxışlar, keramik mozaikalar saray və məscidi bəzəyirdi.

Bütün dövrlərdə türklər sufizmin əsas pərəstişkarları və banisi olmuşlar.

Sonralar Şərqin nadir mədəni abidələrinin axtarışı və əldə edilməsi işlərini Rus hərbçiləri işğal olunmuş Ərdəbildə davam etdirirdilər. Rus hökuməti hərbçilərinin məscidlərdən nadir kitab və əlyazmaların əldə edilməsinin nəticələri haqda raportu şərh etməyə ehtiyac yoxdur. General-leytenat qraf Suxtelenin raportunun sonuncu cümləsinə diqqət yetirək: *"Kitabların geri qaytarılması barədə heç bir yazılı öhdəlik verilməmişdi."*

Şeyx-Səfi-Əddin məscidinin tarixi xəzinəsinin surətlərini çıxarmaq üçün götürülməsini güman etmək çətin deyil, əslində bunlar Ərdəbilə heç vaxt qaytarılmayacaq.

GENERAL-LEYTENANT QRAF SUXTELENDƏN –
GENERAL PASKEVİÇƏ,
9 FEVRAL 1828-Cİ İL, ƏRDƏBİL

Fevralın 8-də Şeyx-Səfi-Əddin məscidinə nəzarət edən ruhaniləri və buradakı hacıları bir yerə yığaraq elan etdim ki, Rusiyanın təbəəliyində olan çoxsaylı müsəlman nəslinin xoşbəxtliyi və tərbiyəsinin qayğısına qalaraq Rusiya hökuməti məşhur Şərq yazıçılarının əsərləri və kitablarına böyük ehtiyac duyur. "Şeyx Səfi"* kitabxanasını təşkil edən kitabları borc olaraq qəbul edərək tanış olmaq və onların surətini çıxarmaq üçün mən onlardan əmr almışam. Uzun danışıqlardan və araşdırmalardan sonra nüfuzlu hacılar və mollalar nəhayət ki, kitabların qəbul olunması və qablaşdırılması üçün polkovnik Reuttun, zabitlər və tərcüməçilərin müşayiəti ilə mənim mənzilimdən birbaşa məscidə getməyə razılıq verdilər. Bunun üçün əvvəlcədən yük sandıqları hazırlandı və heç bir narazılıq olmadan bu iş başa çatdı. Bütün sandıqlar 7 möhürlə möhürləndi, bunlardan 4-ü mollaların möhürü idi.

Mollalardan birinin İmperatorun şəninə dua oxuyub qurtarmasından sonra yoxsulların xeyrinə mənim sərəncamımda olandan 25 əşrəfi ianə verildi. Ümumiyyətlə kitabxanaya sərf olunan xərc 50 əşrəfiyə qədərdi.

Quran və dua kitablarından başqa 166 kitab 8 yeşiyə yığılmışdı. Ərdəbil qalasına gətirilmiş bu yeşiklər Yeqor polkunun 2-ci rotası, 8 kazak və burda farslardan götürülmüş 2 topun müşayiəti ilə sabah Mişkinə göndərilir.



Qızılbaşlar

* Bu qiymətli kitabxana vaxtilə Şah Abbas(1587-1629) tərəfindən şəhərə bağışlanmışdı.

Kitabxananın sonrakı müşayiəti və Tiflis şəhərinə çatdırılmasını polkovnik baron Reneyə həvalə etmişəm.

Şərq kitablarının dəyəri haqda onu deyə bilərəm ki, cildləmələrin bahalığına görə onlar çox qiymətli olmalıdır. Mən inanıram ki, biz bu kitabların böyük əksəriyyətini əldə edə bilmişik. Əldə edə bilmədiyimiz kitablar da oxucularda olmalıdır. Mən qərara gəldim ki, böyük narazılığa səbəb olmamaq üçün onların axtarışına cəhd göstərməyək. Və ümid edirəm ki, gələcəkdə bunun əksinə olaraq mömin oxucular Şeyx-Səfi-Əddinin heç olmasa bir neçə kitabını əldə edərkən sevinəcəklər.

Yüklər Tiflis şəhərinə gəlib çatan zaman onların yerdəyişmə tələb edəcəyi barədə mən general-adyutant Sipyaginə xəbər verirəm ki, sandıqların açılması komissiya və ya xüsusi nəzarət altında həyata keçirilsin, çünki yerinə yetirmənin sürətinə görə kitabları lazımi səliqə ilə yerləşdirmək, həmçinin katoloq tərtib etmək olmazdı.

Hacılar və mollalar mənə elan etdilər ki, İran hökmdarları və digər tanınmış simalar tərəfindən edilmiş bəxşişlər və ianələr hesabına əsrlər boyu toplanmış bu qiymətli ədəbiyyatdan böyük Rus imperatoru onları məhrum etməyəcək və Şeyx Səfi məscidini mükafatsız qoymayacaq. Mən onlara təsdiq etdim ki, kitabların ancaq surəti çıxarılacaq, və onları ümidləndirdim ki, əgər Əlahəzrət İmperator məscidin dağılması barədə xəbər tutarsa, ona həqiqətən yardım edər, Ərdəbilə onun ordusunun sağ-salamat gəlməsi şərəfinə əbədi abidə olar.

(AKAK. T.7.C 589)

1828-ci il 10 fevral saat 12.00 -da Türkmənçay adlanan yerdə general –adyutant qraf Paskeviç və şahzadə Abbas Mirzə Türkmənçay sülh müqaviləsini imzaladılar. Rusiyaya vurulmuş ziyana görə İran Rusiyaya təzminat ödəməyi öhdəsinə götürdü. Ərdəbil kitabxanasının çıxarılması haqdakı söhbətlər arxa plana keçdi, bununla da sülh müqaviləsi Cənubi Azərbaycan mədəni irsinin Rusiyaya daşınması üçün bir stimul oldu.

Türkmənçay müqaviləsinin imzalanmasından iki həftə keçdi, bu münasibətlə Qafqazdakı baş komandan general Paskeviç Əlahəzrətin adından xeyirxah bir jest etdi.

O, Şeyx Səfi məscidinə hədiyyə olaraq təmir üçün 800 çervon (rubl) verdi, əgər bu məbləğ kifayət etməzsə, öz şəxsi hesabından həmin məbləğ qədər də verəcəyinə söz verdi. Söz yox ki, bu " böyük bəxşiş" çox kiçik məbləğ idi. Bu məbləğ əldə edilmiş əlyazmaların qiyməti ilə kompensasiya olunmurdu, onların içərisində elə nadir nüsxələr var idi ki, onların qiyməti yox idi.

GENERAL-LEYTENANT SUXTELEN 2-CİDƏN –
GENERAL PASKEVİÇƏ,
24 FEVRAL 1828-Cİ İL, DƏDƏ BEHLİ

22 fevralda mən Ərdəbilin nüfuzlu hacı və mollalarına əmr etdim ki, məscidə toplansınlar. Şeyx Səfinin qəbri üstünə parça kisədə 800 çervon qoyaraq bütün iştirakçılara elan etdim ki, sülh müqaviləsinin uğurla bağlanması münasibətilə əlahəzrət İmperator bu məbləği məscidə onun təmiri və qədimliyini qoruyub saxlamaq üçün hədiyyə edir. Bu hədiyyə çox böyük razılıqla qəbul edildi və mollalar bizim İmperator və İran şahının uzun yaşaması üçün dua etdilər.

Bundan sonra ağsaqqallar mənə dedilər ki, əgər İmperatorun adından göndərilmiş məbləğ məscidin təmirinə bəs eləməzsə, sizin də bu məbləğ həcmində hədiyyə göndərmək niyyətiniz barədə onlar artıq Abbas Mirzənin məktubundan xəbərdardırlar. Onların məndən biz götürdüyümüz kitabların sayı barədə mütləq qəbz almaları barədə göstəriş Əlahəzrətin bu əmrinə əlavə edildi, ona görə də onların xahişlərini nəzərə alaraq mən rus dilində belə qəbz vermək qərarına gəldim. Bizim məhz hansı kitabları apardığımız barədə reyestr verilməsi tələbimə heç bir məlumat almadım və ya mollalar dedilər ki, onlarda kitabxana kataloqu yoxdur.

(AKK.T.7.C.601)

Qafqaz ordusunun qərargah rəisinin məktubundan aydın olur ki, Abbas Mirzə öz böyük səhvini – çıxarılmış ədəbiyyat barədə Rus hərbçilərindən qəbz tələb etmədiyi üçün - başa düşdü. Abbas Mirzə köhnə tarixlə olsa da tələb edir ki, rus komandanlığı məsciddən çıxarılmış əlyazma kitabların

sayı haqda sənəd verilsin. Lakin belə bir qəbz verilmədi və burada rus komandanlığı günahkar kimi görünmürdü: *"çünki mollalar demişdilər ki, onlarda kitabxana kataloqu mövcud deyil."* Əgər bu doğrudan da belə idisə, onda məscidin xidmətçilərinin məsuliyyətsizliyi təəccüb doğurur.

Amerikanı kəşf edən Xristofor Kolumbun qallonları rəngli şüşələr yükləmişlər və dənizçilər bu şüşələri aborgenlərlə qızıl külçələrə dəyişmişlər. Belə qəribə bir mübadilə böyük coğrafi kəşflərin tarixində qeydə alınmışdır. Nəhayət Cənubi Amerikan aborgenlərinin yarıvəhşi həyat tərzlərini başa düşmək olar: onlar ümumiyyətlə qızılın qiymətini bilmirdilər, lakin müxtəlif rəngli şüşə muncuqları qiymətli bəzək əşyası sayırdılar. Lakin böyük tarixi biliyə malik olan yüksək təhsilli İran ruhaniləri yəqin ki, Rusiyaya aparılmış nadir əlyazmaların tarixi qiymətini başa düşürdülər və onları təhvil verərkən niyə onların siyahısını tərtib etməmişdilər? Ağıla belə sığışmır! Ola bilsin ki, əlyazmalar məsciddən çıxarılarkən hədiyyə edilmiş gümüş pullar din xadimlərinə daha xoş gəlirmiş? Belə bir şey ola bilər. Bütün dövrlər Rusiya pulla şirnikləşdirmə siyasətini uğurla həyata keçirmiş. Farslarda vergi qədimdən dəbdə idi, burada isə əziyyət çəkmədən, göydən düşmə azuqə kimi, əllərini aç -gümüş pullar tökülsün.

Qədim əlyazmalar iranlıların gözü qarşısında çıxarılmışdır və yəqin ki, möminlər böyük oğurluq baş verdiyini başa düşür, əllərini göyə tutub Allahdan kömək diləyirdilər. Bir sözlə, Ərdəbil kitabxanasının gizli surətdə Rusiyaya köçürülməsi hadisəsi geniş yayılmış və bu xəbər güclü bir dalğa ilə şah sarayına çatdı. Vəliəhd Abbas Mirzəni çıxarılmış kolleksiyanın taleyi çox güclü təşvişə salmışdı və hələ də onun geri qaytarılacağına ümid bəsləyirdi. Rusiyada da hələ ki bu kolleksiyanın həmişəlik burada qalacağına ümid yox idi. Hər şey Türkmənçay müqaviləsinin bağlanmasından sonra iranlıların özünü necə aparmasından asılı idi. Baxmayaraq ki, ehtiyatla paketlənmiş Ərdəbil kitabxanası Tiflisdən Sankt-Peterburqa doğru hərəkət edirdi, əks istiqamət

yox. Abbas Mirzə Rus hökumətinə tez-tez xatırladırdı ki, ona "bu əlyazmaları geri qaytarmağa və ya ən pis halda onların surətini verməyə söz vermişdilər", İran ilə mübahisəyə yol vermək olmazdı. General Paskeviç özünəməxsus alicənablığı ilə hərbi nazirə məruzə etdi ki, Ərdəbil kitabxanasının və ya onun surətinin geri qaytarılması haqda Qafqaz hərbi rəhbərliyi iranlılara zəmanət verib.

GENERAL PASKEVİÇİN KNYAZ ÇERNİŞEVƏ MÜRACİƏTİNDƏN 25 APREL 1828-Cİ İL

Gen.-ad.qr. Suxtelen Ərdəbil şərq əlyazmalarının qəbulu vəziyyəti barədə müşayiətçilərə məruzə edir. Heç demə o, Ərdəbil məscidinin mollalarına deyib ki, ola bilər ki, əlyazmaların surəti çıxarılacaq və nəticədə bu surətlər sizə qaytarılsın və Türkmənçay sülh müqaviləsinin bağlandığı zaman Ərdəbildə baş verənlərdən xəbər tutunca Abbas Mirzəyə qəti surətdə söz verir ki, bu əlyazmaları və ya ən pis halda onların surətini geri qaytaracaq. Neçə ki, bu vəd İran hökumətinin Ərdəbil kitabxanasının geri qaytarılması ümidini azalda bilər və ola bilər ki, o bu barədə bir şey əldə etmək üçün sizə müraciət edə bilər, onda Əlahəzrət İmperatora uyğundur ki, sizin çağırışınıza xeyirxah bir bəhanə ilə İranın tələbini rədd etməyə cəhd edərik, onlara vəd edərik ki, əgər lazım olarsa imkan daxilində bu əlyazmaların surətini hazırlayarıq.

(AKAK. T.7.C.615)

Bunula belə Ərdəbil əlyazmalarını və ya onların surətlərini geri qaytarmaq barədə verilmiş vədi yerinə yetirmək barədə Sankt-Peterburqda özlərini əziyyətə salmaq istəmirdilər. O vaxtlar üçün surətin çıxarılması baha başa gəlirdi və bir çox səbəblərə görə çətin ki, öhdəlik yerinə yetirilsin. Xüsusi biliklərə malik olmayan hərbiçilər zəmanət vermişdi. Təcrübəli saray xadimləri tamamilə sadə bir yol fikirləşmişdilər. Onlar Əlahəzrət İmperatoru xəlvətcə başa salmışdılar ki, İranla müharibədə ələ keçirilmiş Ərdəbil kitabxanasını Rusiya imperiyasının dövlət mülkiyyəti elan etsin, bununla da məsələni bağlamış olsunlar. "Razıyam"- imperator I Nikolay onları dəstəkləmişdi.



Türkmənçay müqaviləsinin imzalanması
10 (22) fevral 1828-ci il

Sənədli təbərrüklə pulsuz zənginləşmədə toplanmış təcrübəni indi digər müharibələr və dövlətlərarası toqquşmalarda da istifadə etmək olardı.

QR. ÇERNİŞEVDƏN QR. PASKEVİÇƏ
15 NOYABR 1828-Cİ İL

> ...Hökmdar İmperator Ərdəbil kitabxanasını İran müharibəsindən qənimət və dövlət mülkiyyəti elan edərək, Ümumi Kitabxanada saxlamaq üçün mənə buyurur ki, sizə məlumat verim ki, Türkiyə şəhərlərinin bütün kitabxanalarından, Avropada və Asiyada bəziləri artıq Rus silahı tərəfindən zəbt edilmiş və gələcəkdə də zəbt ediləcək, Quran və Məhəmmədlə bağlı kitablardan başqa bütün ərəb, fars və türk əlyazmaları Rusiyanın xeyrinə ələ keçirilmişdir.
>
> *(AKAK.T.7.C.657)*

İndi isə bu vaxta kimi Mülki müşavir rütbəsinə yüksəlmiş gözüaçıq diplomat Qriboyedova qayıdaq. Məlum olduğu kimi onun Sankt-Peterburq qarşısında öhdəliyi var və hətta şəxsən İmperatorun özünün qarşısında.



Əsir düşmüş Şamilə Ərdəbil kitabxanasının əlyazması nümayiş etdirilir.
1 oktyabr 1859-cu il. Sankt-Peterburq

Bununla yanaşı farsların təzminat ödəmədə böyük çətinlikləri var. Rus ordusunun İran Azərbaycanının uzun çəkən istilasından sonra Abbas Mirzə gəlirlərdən məhrum oldu, şah öz xəzinəsini boşaldaraq Rusiyaya təzminat ödəmək istəmirdi. O, hesab edirdi ki, onun vəliəhdi Abbas Mirzə - məhz Rusiya ilə ikinci müharibənin səbəbkarı o idi- Rusiyaya borcun ödənilməsində fəal iştirak etməlidi. Şah öz oğlunun nəhəng vilayət olan Azərbaycanı idarə etmək bacarığına şübhə ilə yanaşırdı. Lakin şahzadənin xəzinəsi boşdu, yenidən gəlir əldə etmək üçün Abbas Mirzə rus ordusunun Azərbaycandan çıxmasını səbrsizliklə gözləyir, amma bunun üçün pul lazımdır. Bir sözlə qapalı dairə. Şahzadə çıxılmaz vəziyyətdə və birdən ona kömək etmək üçün Qriboyedov gəlir.

Hansı bir yollasa Qriboyedov öyrəndi ki, Ağa Məhəmməd şahın qızıl tacı Təbrizdə mühüm dövlət əhəmiyyətli əmanət kimi saxlanılır. Sonrakı sənədlərdə bu əmanət Abbas Mirzənin tacı kimi qeyd olunur. Ola bilər ki, sonralar bu tacı şahzadə Abbas Mirzə qoymuş və tac Abbas Mirzənin məsuliyyətində olmuş, lakin tacın sahibi sənədlərə görə şahzadə deyil. Biz həqiqəti təyin etmək bizə nəsib olmadı. Biz səhv etmərik, əgər qızıl tacın Ağa Məhəmməd şaha məxsus

olduğunu ehtimal etsək (– R.İ)

Rusiyaya olan borclarının heç olmasa bir hissəsini ödəmək üçün tacı girov olaraq qoymaq və beləliklə də İran ərazisinin bir hissəsini azad olmasını tezləşdirmək üçün nəyə görə farslara kömək edilməsin?

1828-ci il dekabrın 2-də A.S. Qriboyedov Ağa Məhəmməd xanın tacı barədə baş komandan qraf Paskeviçə məlumat verdi və öz təklifini bildirdi. Şübhəsiz ki, general Paskeviç Rusiya üçün daha bir nadir və qiymətli tarixi əşyanın əldə edilməsi şansını qaçıra bilməzdi. Tacir Xitrovun qiymətləndirməsinə görə tacdakı bir qızılın qiyməti bahalı əl əməyi və minanı saymasaq 9 min tümən idi. Lakin tacı qəsdən ancaq 7 min tümənə qiymətləndirdilər, guya ki, İran hökumətindən tacı alıb və Rusiyaya vermək üçün asan olsun, ancaq bu da növbəti bir hiylə idi. Əslində isə söhbət Rusiyanın xeyrindən gedirdi. Tac nə qədər ucuz qiymətləndirilirdisə, sonradan da Rusiyanın onu alması bir o qədər sərfəli idi. Bu zaman İranın bir miqdar borcu silinəcəkdi, bu daha əlverişli idi nəin ki, borcu qaytarmamaq. Bir sözlə şahzadə çətinliklə də olsa bu sazişə getdi. Qəddar bir tiran olan Ağa Məhəmməd xanı İranda rəhmətlə anırdılar. Ona görə də İran bu unudulmaz mirasdan ayrılmaq istəmirdi, ancaq borcu da ödəmək lazım idi. Nə qədər ki, tac yalnız borcun ödənilməsi üçün girov qoyulmuşdu, amma rus sarayı Ərdəbil kitabxanası kimi tacı da Rusiyanın mülkiyyətinə daxil etməyi artıq planlaşdırmışdı.



Baş müşavir
A.S.Qriboyedov

QR. PASKEVİÇDƏN – MÜLKİ MÜŞAVİR QRİBOYEDOVA, 11 DEKABR 1828-Cİ İL

General M.Merlini Abbas Mirzənin arzusuna əsasən İrandan bizə 7 min tümən məbləğində girov olaraq göndərilən qızıl tacın Abbasabada çatması barədə mənə xəbər verir.

Qızıl tacın Moskvada Qranovito palatasında yaxşı qənimət

kimi xidmət edəcəyini nəzərə alaraq mən acizanə xahiş edirəm ki, Abbas Mirzəni yola gətirmək üçün hər hansı bir əhəmiyyətli vasitə tapa bilərsiniz ki, qoyulduğu qiymətdə və ya çox da böyük olmayan əlavə ilə bu tac məbləğ ödənişi kimi bizdə qalsın.

Bu barədə sizin fikrinizi gözləyirəm.

(AKAK T.7.C. 666)

Əlbəttə ki, Rusiyanın əsl vətənpərvəri " qızıl tacın bizdə qalması üçün Abbas Mirzəni yola gətirmək üçün əlverişli vasitə " tapdı. Ağa Məhəmməd xanın tacı nəinki İranın, eyni zamanda fars sarayındakı səlahiyyətli nazir səfir A.S.Qriboyedovun xatirəsidi. Əlahəzrət imperator I Nikolay tacın Moskva vilayət palatasına yerləşdirilməsinə göstəriş verdi.

SƏLAHİYYƏTLİ NAZİR QRİBOYEDOV QRAF PASKEVİÇİN İRADƏSİNİN ƏLEYHİNƏ OLARAQ, TƏCİLİ RUS ORDUSUNUN XOYDAN ÇIXARILMASINI TƏKİD EDİR

1828-ci ilin apreli gəldi. Rus ordusu artıq İran Azərbaycanını tərk etdi. Urmiya vilayətinə görə girov ödənildi, buradan da Rus ordusu çıxdı. Rusiya ilə İran arasında sülh prosesi uğurla inkişaf edirdi, lakin Xoy vilayəti hələ də işğal altında idi. İki dövlət arasındakı münasibətlərin yaxşılaşdığı bir şəraitdə şahzadə hesab edirdi ki, İranın Xoya görə son rubluna qədər bütün məbləği tam ödəyənə qədər gözləmək lazım deyil. Müharibə İranı əldən salmışdı. Abbas Mirzə sözün əsl mənasında qr. Paskeviçə yalvarırdı ki, təcili bu vilayəti boşaltsınlar ki, Xoydan gələn vergi ilə qısa müddətdə Rusiya ilə son haqq hesabı tamamlamaq mümkün olsun.

Lakin qr. Paskeviç qanunun bütün maddələrinin yerinə yetirilməsində israrlı idi. Guya İran Xoya görə bütün məbləği tam ödəməyənə qədər ordu Xoydan çıxmayacaq. Qış gəldi,

Türkiyə ilə müharibə təhlükəsi var idi və döyüşən orduya hərbi hissələr lazım idi, lakin qr. Paskeviç Rusiya üçün cüzi də olsa, İran üçünsə zəruri olan güzəştə getmədi, baxmayaraq ki, heç Sankt-Peterburq da buna mane olmurdu. Ali saray həmişə Qafqaz baş komandanın təkliflərini bəyənirdi.

Öz məşhur alicənab ədaları ilə qr. Paskeviç Xoyun azad edilməsi məsələsində gözlənilmədən kəskin bürokratik mövqe tutdu. İrandakı səlahiyyətli nazir A.S.Qriboyedov problemin həllini gücləndirdi. Baş komandan və öz qohumu qr. Paskeviçin inciməsindən qorxmayaraq mülki müşavir Qriboyedov öz yüksək səlahiyyətindən istifadə edərək və fars tərəfinin xahişini fəal surətdə dəstəkləyərək Xoy vilayətindən rus ordusunun təcili surətdə çıxarılmasının zəruri olması barədə general Paskeviçə göstəriş verməyi Sankt-Peterburqdan xahiş etdi. Diplomat A.S.Qriboyedovun daha bir dövlətçilik şüurunun sərhədləri aydın sezilir.

ŞAHZADƏ ABBAS MİRZƏDƏN – QR.PASKEVİÇƏ (TƏQRİBƏN 4 APREL 1828-Cİ İL)

...7-ci kurur artıq bura çatıb, burdan da Urmiyaya görə məbləği mən göstəriş verdim ki, general-mayor Pankratevə çatdırsınlar. Nə qədər ki, mən arzulayıram ki, Xoy vilayətinin təmizlənməsi üçün ayrılan məbləğ təyin edilmiş vaxtdan əvvəl ödənilib, 8-ci kururdan isə 350 min tümən hazırdı. Ona görə parlaq şəxsiyyətinizdən xahiş edirəm vaxtından əvvəl bu məbləği qəbul edəsiniz və Xoy vilayətindən Rus ordusunu çıxarasınız. Əgər imkanınız varsa, yerdə qalan 150 min tümənin ödənməsi üçün bizə 4 aprel 1828-ci ildən başlayaraq 7 ay möhlət versəniz məni sevindirmiş olarsınız. Belə bir rahatlıqla və sürətlə 7 kurur və 350 min tümən ödəyən dövlət yəqin ki, vaxtlı vaxtında 150 min tüməni də ödəyər.

Ancaq qr.Paskeviç heç olmasa Təbriz hospitalında yatan xəstələrə göstərilən qayğıya baxmayaraq şahzadənin xahişini heç cürə qəbul etmək istəmirdi,

1828-ci il aprel ayı sona çatırdı. Qr. Paskeviç öz mövqeyini yumşaldır və bu barədə vitse-konsler qr. Nesselroda

məlumat verir.

1828-ci il mayın sonlarında şahzadə İran vilayətinin azad olunmasını təkid edir, lakin qr. Paskeviç Əlahəzrət İmperatorun fərmanını əsas tutaraq məbləğ tam ödənilməyənə qədər ordunun Xoydan çıxarılmasına razılıq vermir. Əgər yada salsaq ki, Ərdəbil məscidindən Abbas Mirzənin icazəsi ilə nadir şərq əlyazmalarının böyük bir qismi pulsuz olaraq çıxarılıbsa, onda güclü bir dövlət olan Rusiyanın xırdalığa getməsi və hansısa bir 100 min tüməndən ötrü İranla münasibətləri mürəkkəbləşdirməyə dəyərdimi? Lakin qr.Paskeviç yenidən qətiyyət göstərir, o, şahzadəyə bir uşaq kimi başa salır ki, o, yəni qr. Paskeviç " böyük İmperatorun iradəsinin həqiqi icraçısı"dır. Bundan əlavə baş komandanın yanında özünün nüfuzunu gücləndirmək üçün inandırıcı səbəb meydana gəlmişdi: farslar Rusiyaya aşağı əyarla qızıl və gümüş vermişlər.

QR. PASKEVİÇDƏN ŞAHZADƏ ABBAS MİRZƏYƏ,
29 MAY 1828-Cİ İL

.... Xoy vilayətindən ordunun çıxarılması haqda mən artıq alihəzrətinizə elan etdim ki, girov olaraq saxlanan vilayəti ordu 8-ci kurur Rusiyaya ödənən kimi tərk edəcək. Böyük İmperatorun iradəsinin etibarlı icraçısı kimi Əlahəzrət Hökmdar İmperatorun Fərmanına əməl etməməyi ağlıma belə gətirə bilmərəm, illah da ki, İran hökumətindən qəbul etdiyimiz qızıl və gümüşün əyarının aşağı olması (həqiqətən də rus mütəxəssislərinin hesablamalarına görə 7 kurur qəbul ediləndən sonra Rusiya 500 min rubl gümüş pulla ziyana düşüb. –*R.İ*) nəticəsində Rusiyaya əhəmiyyətli dərəcədə ziyan dəymişdi.

(AKAK.T.7,C.630)

Öz qətiyyətli mövqeyini - Abbas Mirzənin xahişini yerini yetirməməkdə - qr. Paskeviç vitse konslerə də bəyan etmişdi.

QR.PASKEVİÇDƏN – QR.NESSELRODA,
1 İYUN 1828-Cİ İL

...Xoy vilayətinin təmizlənməsi üçün 8-ci kururun ödənilməsinə gəlincə mənim fikrim tamamilə təsdiqləndi. Abbas Mirzənin bütün niyyəti ona yönəlirdi ki, Hökmdar İmperatora ərizə ilə müraciət edib heç olmasa ümumi məbləğdən bir az güzəştə gedilsin. (...) Lakin mən cüzi də olsa güzəştə getməyə razılıq verə bilmərəm və təsdiqləyirəm ki, yalnız bütün 500 min tümənin tam ödənilməsindən sonra Xoy vilayətindən ordunun çıxarılması baş tuta bilər.

(AKAK.T.7. C.633)

Əlahəzrət İmperator qr. Paskeviçə məsləhət görür ki, Abbas Mirzəyə güzəştə getsin.

QR. NESSELRODDAN – QR.PASKEVİÇƏ
18 İYUN 1828-Cİ İL, QARASU ƏTRAFINDAKI DÜŞƏRGƏ

.....Hazırki vəziyyəti nəzərə alaraq Hökmdar İmperator buyurdu ki, pul əvəzinə girov kimi bir miqdar mirvari, ipək və şal almaq fikrinizlə razıdır. Bunun nəticəsində siz tezliklə İran hökumətindən girov şəklində dəyəri 100 min tümənlik yüksək keyfiyyətli mal alarsınız və yerdə qalan 400 min tümənin bir hissəsini nəğd pulla, digər hissəsini isə İngilis nazirinin vekseli ilə ala bilərsiniz ki, bu da müqavilədə razılaşdırıldığı kimi Xoy vilayətinin azad edilməsi üçün bir kurur edir. Bu halda Əlahəzrət Hökmdar İmperatora bizim ordunun bu vilayətdən çıxarılması üçün Sizə icazə verər.

(AKAK.T.7. C.683)

Bununla yanaşı Xoy əhalisi həyəcanla hakimiyyətin dəyişməsini və fars hakimiyyətinin qayıdışını gözləyirdi .

ŞTABS-KAPİTAN KN.KUDAŞEVDƏN – QR.PASKEVİÇƏ,
5 OKTYABR 1828-Cİ İL, NAXÇIVAN

Xoy vilayətinin əhalisi İran hökumətini qorxu ilə gözləyirdi. Xoydan çıxdığım gün vilayəti idarə etmək üçün Təbrizin keçmiş qubernatoru Fətəli xan yerdə qalan məbləğlə gəlməli idi.

Xoya gəlişi ərəfəsində o, öz fərmanını göndərdi ki, bütün Xoy əhalisi onu qarşılasın, əks təqdirdə əməl etməyənlər

cəzalandırılacaq. Amma general Pankratev bunu qadağan etdi.

(AKAK.T.7. C.649)

Rus ordusunun çıxarılmasının sürətləndirilməsi və Şah Abbasın xahişinin dəstəklənməsində İranda səlahiyyətli nazir A.S.Qriboyedovun çox böyük rolu oldu.

MÜLKİ MÜŞAVİR QRİBOYEDOVDAN – QR.PASKEVİÇƏ, 26 OKTYABR 1828-Cİ İL, TƏBRİZ

...Əgər Abbas Mirzə 400 min tüməni ödəyərsə, bundan artıq nəğd pulu ödəmək iqtidarında deyil, yada ki, bu pul onda yoxdu, eyni zamanda onun hakimiyyətində olan məmləkət tamamilə kasıblamışdı. Hörmətli cənab, əlverişli olmazmı ki, tələb olunan məbləğin əvəzinə dəyəri bu məbləğə uyğun malları birdəfəlik və ya hissə-hissə qəbul edək, əks təqdirdə heç vaxt sonuncu 100 min tüməni ala bilməyəcəyik.(...)

İrandan 8-kurunun 5/4-nü alarkən yerdə qalan 100 min tümənə görə biz heç bir üzürlü bəhanə ilə əlimizdə girov kimi olan və tələb etdiyimiz məbləğdən daha çox olan qiymətli daş-qaşlar olarkən Xoy vilayətini öz hakimiyyətimiz altında saxlaya bilmərik.(...)

(AKAK.T.7. C.655)

Səlahiyyətli nazir Qriboyedovun verdiyi məlumata görə ingilis elçisi Makdonald yerdə qalan 100 min tüməni ödəməyə hazırdı və məbləğin yarısı hətta Xoya göndərilib. Qriboyedov ingilislərin öhdəlikləri ilə razı oldu: əgər farslar məbləği ödəməyə qadir olmasalar, onda bu məbləği ingilislər ödəyəcəklər.

Əgər bizim ordu qışı Xoyda keçirmək istəyirsə, hərçənd ki, bu arzu edilən deyil, onda Qriboyedov məntiqli və humanistcəsinə hesab edir ki, Xoy əhalisini rus vergisindən azad etmək və Abbas Mirzəyə bu vergiləri toplamağa icazə vermək lazımdır.

MÜLKİ MÜŞAVİR QRİBOYEDOVDAN – QR.PASKEVİÇƏ,
2 DEKABR 1828-Cİ İL, TƏBRİZ

(...) 31 oktyabrda general-mayor Saken məni Sizin yeni təyinatınızdan xəbərdar etdi, ordu Bəyazit bölməsinin gücləndirilməsi üçün təcili olaraq Xoydan çıxarılmış, general-mayor Pankratev isə mənə məlumat verdi ki, o artıq Xoyda 4 piyada alayı və 200 kazak saxlayaraq hücuma keçir. Yaranmış vəziyyət mənim fikirlərimin və əvəllər İran Hökumətinə izah etdiyimin əksinə idi. (...)

Xoy vilayətini təmizləmək üçün mən o zaman Ağa Məhəmməd şahın tacını qəbul etməyə razılıq vermişdim, hansı ki, burada tacdan ayrılmağa tamamilə könülsüz idilər, çünki o, dövlət təbərrükü sayılırdı. (...) Bu tac və 33811 tümən pul bizim üçün Xoya gətirilmişdi. (..) bundan sonra Abbas Mirzə bizim ordunun çıxmasını məndən xahiş etdi və mən də razılaşdım, amma bir şərtlə ki, tac və pul əvvəlcə Abbasabaddakı qalanın komendantına təhvil verilməlidir. İndi isə tacın və pulun qəbul edilməsi xəbəri alınarkən mənim tərəfimdən bizim ordunun rəhbərlərinə təklif edilir ki, qalanın təmizlənməsinə başlanılsın.

(AKAK.T.7. C.662)

İrandakı səlahiyyətli nazir mülki müşavir Qriboyedovun cəsarətli və ağıllı hərəkəti Sankt-Peterburqda müdafiə edildi və Rus ordusu tərəfindən işğal edilmiş Xoy vilayətinin tamamilə azad edilməsini sürətləndirdi. Mülki müşavir Qriboyedovun qr. Paskeviçlə olan xeyirxah və qohumluq əlaqələri, qr. Paskeviçin ziddiyyətli qərarları və digər əngəllərindən asılı olmayaraq Qriboyedova dövlət müdrikliyi və qərarlığını göstərməyə mane olmadı. Girov hesabına bütün pulları almadan tezlikə Xoy vilayətinin rus hökmranlığından azad edilməsinin zəruri olduğunu Rus sarayına inandıra bilmişdi. A.S.Qriboyedovun inadkarlığı sayəsində ordunun hərəkətinin əlverişsiz olduğu qış mövsümü olmasına baxmayaraq 1828-ci ilin dekabrın əvvəllərində Rus ordusunun tamamilə Xoy vilayətindən çıxması baş tutdu. Rus sarayının vitse-konsleri qr.Nesselrod Əlahəzrət İmperatorun adından səlahiyyətli nazir mülki müşavir Qriboyedova məktub göndərdi. Biz bu məktubdan Xoy epopeyasına aid və İmperator sarayında

səlahiyyətli nazirin nüfuzunu xarakterizə edən bəzi məqamları təqdim edirik.

QR.NESSELRODDAN – MÜLKİ MÜŞAVİR QRİBOYEDOVA, 18 DEKABR 1828-Cİ İL

8-ci kururdan qalan vergi qalığı məbləğinin tezliklə hesablanması barədə Xoy vilayətindən bizim qoşunların çıxarılmasını bizə tövsiyə edən sizin fikriniz əsaslı sayılır və Əlahəzrət İmperatorun iradəsinə uyğun olaraq qr. Paskeviçə lazımi icazə verilmişdir.

(AKAK.T.7. C.669)

A.S.Qriboyedovun qətiyyətli və ağıllı hərəkətləri nəticəsində 1829-cu ilin əvvəllərində nəhayət Rus ordusu Xoy vilayətini tamamilə tərk etdi.

RUS ORDUSU İRAN AZƏRBAYCANINI TƏRK ETDİ, TƏBRİZ MÜCTƏHİDİ MİRFƏT SƏİD DƏ ORADA QALMADI

Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla İran Azərbaycanı İranın tərkibində qaldı, amma xalqın sevimlisi və nüfuzlu dini xadim müctəhid Mirfət Səid öz vətənini tərk etdi və rus qoşunları ilə birlikdə Rusiyaya getdi.

Belə bir yüksək dini şəxsiyyətin Rusiyaya köçməsi o dövr üçün tarixi bir hadisə idi. Çox nadir hallarda dini şəxsiyyətlər öz vətənini tərk etməyi, xüsusi ilə də yaxın vaxtlara qədər qanlı müharibə içərisində olduqları ölkəyə köçməyi özlərinə sığışdırırdılar.

Hərbi–tarixi arxiv dövrün hadisələrini bərpa etməyə bizə kömək etdi. Saxlanılmış sənədlər əsasında biz Mirfət Səid Təbrizlinin şəxsiyyəti haqda, onun Rusiya ərazisinə keçməsinin necə baş verdiyi və Rusiyada onu necə qəbul etmələri barədə oxucuları tanış edirik. *(RQBİA.Fond 846. op. 16 d. 4331)*

Sülh haqqında müqavilə imzalandıqdan sonra 12 fevral 1828-ci ildə Türkmənçay kəndində olan general Paskeviç Əlahəzrət İmperatorun Baş qərargahına məruzə edir.

ƏLAHƏZRƏT İMPERATORUN BAŞ QƏRARGAH RƏİSİ CƏNAB GENERAL- ADYUTANT VƏ KAVALER QR. DİBİÇƏ QƏK- NUN KOMANDİRİ GENERAL- ADYUTANT PASKEVİÇDƏN

İranda əsas dini şəxsiyyət olaraq Müctəhid adlanan, hazırda bütün İranda cəmi 3 nəfər var, Türkiyə müftilərində olduğu kimi öz nüfuz və hakimiyyətlərindən istifadə edərək İran xalqına güclü təsir edə bilirlər və bəzən də Şahın özündən də asılı olmurlar, hətta şah onları nə izləyə, nə də ki, cəzalandıra bilər.

Belə müctəhidlərdən biri də Təbrizdə yaşayan İranda möminliyi ilə şöhrət tapan şeyxül-islam Mirzə Yusifin oğlu Mirfət Səiddir. Mömin həyatı və ciddi əxlaqı ilə yerli xalqın etimadını və sevgisini qazanmışdı, bütün hallarda xalq onun məsləhətlərinə diqqətlə yanaşır.

Bizim ordunun Təbrizə hücumundan əvvəl Mirfət ağa Rusiyaya sadiq olduğunu elan etdi. Təbriz camaatını inandırdı ki, onlar bizə heç bir müqavimət göstərməsinlər. Bu şəhərin qansız alınmasında onun təsirini də qeyd etmək lazımdı.

Ruslara sədaqəti ilə bizim üçün çox vacib olan bir şəxsi təsdiq etmək üçün mənim cəhd etməyim tamamilə təbii idi və buna görə də ona mümkün qədər hörmətlə yanaşaraq bizim ordunun Azərbaycanda olduğu müddətdə müctəhid Mirfət Səidin bizim hakimiyyətə sadiq olduğunu yeni fəaliyyətləri ilə sübut etməsinə nail oldum və müsəlmanlardan bir nəfəri Azərbaycan Müvəqqəti İdarəsində iştirak etmək üçün təyin etdim. Müctəhid Mirfət Səid ordunun bütün tələblərinin təmin olunmasında və vergi haqlarının itaətlə toplanmasında çox kömək edirdi, ümumiyyətlə isə öz nəsihətləri və nümunəviliyi ilə demək olar ki, bütün Azərbaycanın bizim hakimiyyətimizə boyun əyməsində və itaət etməsində böyük xidməti var. Ona görə də bizim ordunun 4 aylıq bir müddətdə bu vilayətdə olmasına baxmayaraq bizim kiçik əlahiddə dəstələrimizə hücum olmadı, lakin xalq arasında da heç bir qiyam və etiraz baş vermədi.

Farslar üçün o qədər də xarakterik olmayan daimi sadiq-

likliyi ilə bir dəfəlik Rusiya tərəfinə keçən Mirfət ağa mənə hələ əvvəllər demişdi ki, sülh bağlanandan sonra o, İranda qalmaq istəmir və hətta dəyəri 400 min rubl olan öz mülkünü qurban verərək təcili bizim ölkəyə köçmək istəyir.

Ələvi * sektasının davamçılarının sədaqətindən faydalanan, eyni zamanda digər müsəlmanlar arasında ümumi hörmətə malik və tamamilə bizə sadiq olan yüksək rütbəli dini şəxsiyyəti ələ almağın faydası məni məcbur etdi ki, müctəhid Mirfət Səidi onun niyyətini həyata keçirmək üçün mükafatlandırım. Və mən onu bizim vilayətdə olan bütün Ələvilərin ali rəhbəri təyin etməyi faydalı bildim. Bununla da o, bu sektanın möminləri və mollalarını idarə edər, onların təhsilinə nəzarət edərək bizim hökumətə xəbər verər, çünki onların çoxu fars həmməzhəblərinə ürək-dən bağlıdırlar, xalqı Ruslardan çəkindirirdilər, boş-boş şayiələr və şərhlər yayırdılar, bizim hökumətə qarşı xalqda nifrət yaradırdılar.

İnkar etmək olmaz ki, bunda həm də Müsəlman vilayətlərini idarə edən bizim məmurlarımızın da günahı az deyildi. Bəzilərinin dil bilməməsi, bəzilərinin isə yolverilməz şəkildə təzyiqi və ədalətsizliyi yerli əhalidə narazılığa səbəb olurdu. Amma sınaqdan çıxmış və sərt xarakterli bir şəxsin bizim Müsəlman vilayətlərinə ali dini rəhbər təyin edilməsi faydalı olardı, çünki bu vilayətlərdən gələn məlumatları o, yerli idarəetmədə iştirak edən məmurların hərəkətləri barədə yüksək dairələrə çatdıra bilər və sui-istifadələri aşkar edərək yerindəcə qarşısını ala bilər.

Müctəhid Mirfət Səidin düşüncələrini və mühüm xidmətlərini nəzərə alaraq onu yerli xalqa örnək göstərmək lazımdır ki, sədaqətli bağlılıq və bir başa xidmət mükafatsız qalmır. Müctəhidi arxayın etmək qərarına gəldim ki, bizim vilayətə köçməsi ilə o, çox mərhəmətli İmperatordan hər il 200 çervon təqaüd alacaq və bundan əlavə, imkan olan kimi dəyəri 400 min rubla yaxın olan öz şəxsi mülkünü itirdiyinə görə ona ömürlük malikanə hədiyyə ediləcək.

---

*Ələvi sektası-şiələri belə adlandırırlar (ərəbcədən əş-Şiə, yəni partiya). Məhəmməd peyğəmbərin (632-ci ildə vəfat edib) kürəkəni və əmisi oğlu Əli ibn Abu Talibi dördüncü xəlifə, onun gələcək nəslini isə Məhəmməd peyğəmbərin yeganə qanuni varisi və xəlifi kimi qəbul edirdilər. Şiələr arasında Əli ehtiramla yad edilir və "İlahi bərəkət" daşıyıcısı kimi qəbul edilir. (Ələvi sektası haqqında arayış hörmətli naxçıvanlı və mənim aspirantım İmran Abdinova məxsusdur.-*R.İ*)

Bu haqda xahiş edirəm Əlahəzrət İmperatora məlumat verəsiniz.

General – adyutant **Paskeviç**, Türkmənçay kəndi, 12 fevral 1828-ci il.

(RQBİA.Fond 846. op. 16 d. 4331s. 1-3)

İran Azərbaycanının işğalı dövründə Təbriz vilayətinin rəisi general-mayor baron Osten-Saken 7 mart 1828-ci ildə müctəhid Mirfət Səidin İrandan çıxması barədə general Paskeviçə məlumat verir.

"Zat-aliləri sizə məlumat verməyi şərəf duyuram ki, bu gün Təbrizli müctəhid Mirfət Səid Təbriz şəhərindən çıxaraq Rusiya sərhəddinə doğru yola düşüb. Bu xüsusi diqqət çəkən hadisəni mən Sizə ətraflı çatdırmağı özümə borc bilirəm.

Azərbaycan xalqına, həm də ki, paytaxtın özündə Müctəhidin atası Mirzə Yusifdən irsən keçən təsiri yüksək səviyyəyə çatmışdı. Onun ürəyinin yumşaqlığı, təmənnasız olması və kasıblara əl tutması bütün qara camaatı ona bağlamışdı, sıxıntılı hökumət qarşısında öz vasitəçiliyini daima davam etdirir, eyni zamanda həmişə qaydaların tamamilə əksinə hərəkət edən bütün əsilzadələri qəzəbləndirirdi.

Fars hökuməti gördü ki, bu diqqətəlayiq kişinin Rusiyaya getməsi Azərbaycanda çox pis təəssürat yarada bilər, amma bir o qədər də bizə xeyir gətirər. (...)

İran hökuməti onun getməsindən qorxuya düşmüşdü. Müctəhidin sərtliyi bütün tədbirlərin qarşısını aldı. Rusiya hökumətinə və qanunun üstünlüyünə birdəfəlik inanaraq o, fars hökumətinin xahiş və təhdidlərini rədd edərək qalan ömrünü bizim ölkədə yaşamağa qərar verdi. Nəhayət, bütün hazırlıqlar qurtarandan sonra Sizin icazənizlə onun Təbrizdən çıxması gün bu ayın 7- ə təyin olundu.

Xalqda hər hansı bir narazılığın qalxmaması üçün Təbriz komendantı polkovnik Burtsov xüsusi təyinatlı mühafizə və kazak konvoyu ilə sübh vaxtı onu şəhərdən çıxarmaq üçün Müctəhidin evinə gəldi. Onun bütün əşyaları göndərilmək üçün hazır idi, ancaq əşyalar nəqliyyata yüklənərkən böyük bir kütlə onun evinə axın etdi. Yaxınlıqdakı bütün evlərin damı qadınlarla, şəhər qapısına aparan bütün küçələr və döngələr camaatla dolu idi. Əvvəlcə kütlə onu dövrəyə aldı və bir neçə nəfər onu Rusiyaya köçmək fikrindən daşınmaq üçün dilə tutdu. Böyük bir təvazökarlıqla o, camaatı

başa saldı ki, bir dəfə ağzından çıxan sözü dəyişmək onun üçün doğmaları və yaxınlarından ayrılmaq qədər kədərlidir və onun bu addımı heç bir töhmətə layiq ola bilməz, çünki pula düşkünlüyü yox, ancaq qısa bir müddətdə tanımaq imkanı olduğu xalqa olan bağlılığı onun Rusiyada öz həyatını davam etdirmək qərarına gəlməsinə səbəb olmuşdu.

Onun fikrindən dönmədiyini görən camaat kədər içində idi, bir anda fəryad qopdu, bəziləri onu öz ataları adlandıraraq qalması üçün yenidən xahiş etməyə cəhd etdilər. Bu ağır dəqiqələrdə onun ətrafı bir az dəyişdi və o, mərdliklə onları inandıra bildi ki, Təbrizə gəlməsini yaddan çıxarsınlar. Öz evini tərk edəndən sonra komendantın və atlı süvarilərin müşayiəti ilə şəhərdən çıxdı. Müctəhid dəfələrlə əhaliyə əmr etdi ki, geri qayıtsınlar, amma onun təkidinin xeyri olmadı (...). Nəhayət, şəhərdən 5 verst aralıda o dayandı, camaat və komendantla xudahafizləşərək var gücü ilə atını çaparaq yola düşdü. (...)

General mayor baron **Osten-Saken**

(RQBİA.Fond 846. op. 16 d. 4331 l.l. 10-12)

Əlahəzrət İmperator tərəfindən general Paskeviçin məktubuna baxıldıqdan sonra 1824-cü il aprelin 4-də Sankt-Peterburqdan cavab gəldi.

QAFQAZ ƏLAHİDDƏ KORPUSUNUN KOMANDİRİ GENERAL PASKEVİÇƏ

12 fevralda parlaq cənabınızın müraciətini aldıqdan sonra Rusiyaya xüsusi rəğbət bəsləyən və bizim ölkəyə köçməyi arzulayan Müctəhid Mirfət Səidə Təbrizdə mən bu məlumatı çatdırdım.

Bu Ruhani zata siz tərəfdən təyin edilmiş təqaüdün və İranda qoyub gəldiyi mülklərinə görə xüsusi hədiyyə verilməsinə İmperator icazə verir. Həmçinin Xəzər dənizi və Qafqazdakı bizim vilayətlərdə Sizin bu Müctəhidi Müsəlmanların Ali dini rəhbəri təyin etmənizi bəyənir. Lakin Əlahəzrət İmperator istəyir ki, Siz bunları həyata keçirərkən Xalq Təhsil Naziri və Xarici Dini İşlər üzrə İdarənin Baş rəisi ilə razılaşdırasınız.

Belə bir monarx arzusunu yerinə yetirmək üçün sizə məlumat verirəm ki, mənim fikrimcə Müctəhid Mirfət Səidin yaşayış yeri ya Şamaxı, ya da Qarabağ ola bilər, çünki bu bölgə-

lərdə yaşayan azərbaycanlılar iranlılar kimi Şiə məzhəbinə aiddir, Dağıstan tatarları isə daha çox Sünni məzhəbinə daxildir.

Mirfət Səidə təyin olunmuş illik təqaüd 2 min çervon, həmçinin bizə sadiq olan İran xanlarının və şəxslərin təminatı üçün 20 min çervon təyin olunması barədə Maliyyə Nazirinə 7 oktyabr 1828-ci ildə məlumat verilmişdir.

E.İ.V. in Baş Qərargah rəisi qraf **Dibiç**

(RQBİA.Fond 846. op. 16 d. 4331 l.l. 9-10)

General Paskeviçin müctəhid Mirfət Səidə verdiyi vədlərə əməl olunurdu. Bundan əlavə Rusiyaya sadiq olan Müctəhid yüksək rus mükafatı ilə təltif olundu.

" Təbrizdən Rusiyaya köçüb gələn və bizim Xəzər dənizi ətrafı tatarların və Zaqafqaziya vilayətlərində bütün Şiə məzhəbinin ali dini rəhbəri təyin olunan Təbriz müctəhidi Mirfət Səidin Rusiyaya sədaqəti və xüsusi səyini nəzərə alaraq Əlahəzrət İmperator brilyantla bəzədilmiş göy rəngli lentalı Qızıl medalla təltif etdi.

Müctəhid Mirfət Səid xahiş etdi ki, ona şəklini özü verdiyi xüsusi gerbdən istifadə etməyə icazə versinlər. Bu xahişi yerinə yetirmək Rusiya imperiyasının bürokratik qanunlarına görə heç də asan iş deyildi, əksinə çox mürəkkəb idi, məsələn müctəhidin təqaüdünü artırmaqdan da çətin idi. İmperiyada təsdiq olunmamış hər hansı bir simvoldan istifadə etmək qəbul olunmamışdı. Ancaq hörmətli Müctəhidə heç kim rədd cavabı vermək istəmirdi. Bu qeyri-adi xahişin yerinə yetirilməsi üçün bir çox bürokratik prosedurları keçmək lazım idi.

Xahişin yerinə yetirilməsi üçün Qafqazdakı rus komandanlığı ilə yanaşı nəinki Əlahəzrət İmperatorun Baş qərargahı, eyni zamanda Ədliyyə Nazirliyinin, Rusiya Nazirlər Komitəsinin rəhbərləri və hətta şəxsən İmperator özü də işə qarışdı. Yuxarıda adı çəkilən təşkilatlar arasındakı yazışmalar demək olar ki, iki il çəkdi, Allaha şükür, 1830-cu ilin dekabrında müctəhid Mirfət Səidə şəxsi gerb icazə verildi.

Lakin İranda müctəhidə məxsus bahalı mülkün Rusiyada kompensasiya olunması məsələsi həll olunmamış qalırdı. Bu məsələnin həlli bir qədər çəkdi. Əmlak kompensasiya olundu. 1820-ci ildə xaricə qaçmış hansısa Qasım bəyə əvvəllər məxsus olan böyük bir mülk ona verildi. Müctəhid Ali senatın fərmanı ilə təsdiqlənən böyük bir təsərrüfata sahib oldu. Müctəhidi Rusiyada heç vaxt kasıbçılıq gözləməyəcəkdi.

ALİ SENATIN FƏRMANI

General-feldmarşal qraf Paskeviç İrəvanski tərəfindən təsdiq olunan İranla sonuncu müharibədə göstərdiyi mühüm xidmətlərinə və Rusiyaya xüsusi sədaqətinə görə Zaqafqaziya vilayətinin Müsəlman möminlərinin rəhbəri müctəhid Mirfət Səidə əvvəllər Qasım bəy tərəfindən idarə olunan və Qasım bəyin 1820-ci ildə xaricə qaçması nəticəsində dövlət təsisatına keçmiş Şirvan vilayətinin Sərdar mahalı ömürlük bağışlansın. Bu mahala 15 kənd aiddir və bu kəndlərdə 314 ailə vergi ödəyir, 91 ailə isə ödəmir. İllik vergi gəlirləri təqribən 5360 rubl gümüş puldur. Əmr edirik ki, bu mülkü qanuni əsaslara Müctəhidə verəsiniz, bu haqda Ali Senat ondan asılı olan təlimatları yaddan çıxarmayacaq.

Əlahəzrət İmperator özü şəxsən əli ilə yazıb: **Nikolay**

Elaqin adası, 13 avqust 1831-ci il.

(RQBİA.Fond 846. op. 16 d. 4331 l.43)

Şiə məzhəbinin möhkəm ruhlu müctəhidi Mirfət Səidə Rusiyaya yaxşı yol. Qoy həmişə Uca və Rəhimli Allah səndən bərəkətli və günəşli Azərbaycan torpağının bütün müsəlmanlarının alovlu məhəbbətini və inamını əsirgəməsin.

Cənubi Azərbaycan İran şahının hakimiyyəti altında qaldı. Ancaq Mirfət Səid könüllü olaraq Rusiyada xidmət və ibadət edir. Şimali Azərbaycanda dini və əxlaqı xeyli gücləndirdi.

PARÇALANMIŞ AZƏRBAYCANI BİRLƏŞDİRMƏK ÜÇÜN ÜÇ ƏSR VƏ ÜÇ CƏHD

XVIII əsrin sonlarında parçalanmış və hücumlardan əldən düşmüş Azərbaycan xanları qəddar, lakin müəyyən bir məqsədi olan azərbaycanlı Ağa Məhəmməd Şah Qacarın hakimiyyəti altında birləşmək istəmirdilər. Ola bilər ki, Qacarın tiranlığından ehtiyat edirdilər. Əgər tiranlığından deyilsə? Tarixdə " əgəri " təsdiq etmək qəbul olunmayıb. Zaman özü diktə edir və öz əsas xüsusiyyətini –dönməzliyini saxlayır. Parçalanmış Azərbaycan əhalisinin az bir hissəsi Rusiya İmperatorunun hakimiyyəti altına düşə bilərdi, böyük bir hissəsi İran şahının hakimiyyəti altında qalırdı.

XIX əsrdə bütün Azərbaycan xanlıqlarının bir hakimiyyət altında birləşdirilməsi üçün yenidən tarixi bir cəhd edildi. 1826-1828 –ci illərdə Rus - İran müharibəsi zamanı Qafqaz Əlahiddə korpusunun baş komandanı qr. Paskeviçin İran Azərbaycanını işğal edərkən yaranmış şəraitə uyğun bu cəhdi həyata keçirildi. Azərbaycan xalqı müqavimətsiz və isti bir şəkildə rus ordusunu qarşıladı və fars tiranlığından Rus ordusunu öz xilaskarı kimi qəbul etdi. Öz növbəsində general Paskeviç də xalqın etimadını çox qiymətləndirdi, bu ərazidə Azərbaycan əhalisinin qəbul etdiyi və hörmət etdiyi Azərbaycan Müvəqqəti İdarəsini yaratdı. Rus ordusunun İran Azərbaycanında olduğu müddətdə yeni hakimiyyətə tabe olmayan heç bir fakta rast gəlinmədi. Rus hakimiyyəti xanlarla və nüfuzlu din adamları ilə yaxınlaşmaq üçün yollar axtarırdı. 3 sentyabr 1827-ci ildə general Paskeviç İmperatora məruzəsində qeyd edirdi:

> "İran daxilində xalqın ağlına təsir edə bilən özlərini Şahın düşməni sayan və Rusiyanın himayəliyini qəbul edən hökmdarlarla – Kərim xan, Ehsan xan, bir sözlə Kalbalı xanın digər sələfləri ilə münasibət qurmaq lazım idi.(...) Bu da Şah üzərində bizimkilərin mənəvi qələbəsi idi.
>
> *(RQBİA.Fond 846. op. 16 d. 4317 l.l.43-45)*

Sonralar İran şahının heç cürə Rusiyaya təzminat ödəmək istəməməsi vəziyyəti İran Azərbaycanının Rusiyaya birləşməsi xeyrinə formalaşdırırdı:

> "Öz xəzinəsindən pul ödəməkdənsə Şah üç Azərbaycanın güzəştə gedilməsilə tezliklə razılaşacaq. Bu da yaxşı haldır. 29 oktyabr 1827-ci ildə ağıllı baş komandan qr. Paskeviç bununla bağlı İmperatora məruzəsində yazırdı: "azərbaycanı əldə etmək bizim üçün çox faydalıdır."
>
> *(RQBİA.Fond 846. op. 16 d. 4317 l.56)*

Bütün dövrlərdə paxıl ingilislər Rusiya ilə münasibətdə Rusiyanın ekspansiyasına qarşı çıxırdılar. İngilis səfir İrandan çox məyusluq və kədər içində Londana depeşa göndərdi:

> "Azərbaycan, ədalət naminə deyək ki, Rusiyanın tərkibinə daxil ola bilər."
>
> *(AKAK. T.7.C. 568)*

Çox qəribədir ki, həmişə cəsarətli olan imperator I Nikolay burda təslim olur. Avropa dövlətlərinin Rusiyanı özgə əraziləri işğal etməklə ittiham etməsindən çəkinərək imperator Nikolay Pavloviç bərəkətli və çiçəklənən Azərbaycan əvəzinə pul kompensasiyası almağı üstün tutdu.



İmperator Nikolay Pavloviç

Üçüncü cəhd demək olar ki, 120 il sonra, artıq Sovet hakimiyyəti dövründə-1946-cı ildə xalqın rəhbəri Stalinin şəxsi təşəbbüsü ilə baş tutdu. Stalin də İrandakı azərbaycanlıları onların əraziləri ilə birlikdə məşhur "kommunist cənnəti" ilə aldadaraq Azərbaycanı fars tiraniyasından xilas etdi. Qr.Paskeviçdən fərqli olaraq İ.V.Stalin İranın gözü qarşısında Azərbaycanda cəlbedici hakimiyyət qura bilmədi, savadı çatmadı. İ.V.Stalin qr. Paskeviç kimi sədaqətli

silahdaşı M.D.Bağırov vasitəsilə azərbaycanlılara hörmət nümayiş etdirməyə və onların əsrlər boyu apardıqları mübarizədə reaksiya verməyə cəhd göstərmədi.

Çətin ki, Sovetlər ölkəsinin rəhbəri Ağa Məhəmməd şah Qacarın tarixini bilirdi, amma terror və zülm İ.V.Stalinin əsas silahı idi.

SSRİ-də təcrübədən keçmiş terroristlərin başda olduğu partizan dəstələrinin mühafizəsi altında Cənubi Azərbaycanda keçirilən *"ümumxalq seçkisi"*ndən istifadə edərək SSRİ rəhbəri güclə İran ərazisində kommunist ruhlu hökumət qurdu, sonra isə *"zəhməkeşlərin xahişi ilə"* ümid etdi ki, Cənubi Azərbaycanı İranın tərkibindən çıxaracaq və Sovetlər ölkəsinin tərkibinə qatacaq. Burda da hər şey yaxşı alınmadı.



Təbriz Məclisində şah və mat

Paxıl imperialistlər, hərçənd ki, faşizmin darmadağın edilməsində keçmiş müttəfiqlər generalsimus İ.V.Stalinin işğal hərəkətini görərək ciddi surətdə ehtiyatlı oldular və

bir ağızdan "Yox" dedilər. Onlar sovet ordusunun Cənubi Azərbaycandan təcili olaraq çıxarılmasını qətiyyətlə tələb etdilər və 1946-cı ilin noyabrında qoşun çıxdı. Seyid Cəfər Pişəvərinin (1892-1947) başçılıq etdiyi Azərbaycan Milli Hökuməti qəddar divan tutma üsulları ilə ləğv edildi.

Bütün dövrlərin və xalqın rəhbəri şəxsən İ.V.Stalinin və Moskvanın əlaltısı olan, 1945-ci ilin sentyabrında İran Azərbaycanında qurulmuş ADR-in rəhbəri, İranda Azərbaycan milli hərakatının lideri, İran kommunist partiyasının qurucularından biri Seyid Cəfər Pişəvəri gizli fəaliyyətə keçdi və tezliklə Sovet Azərbaycanında peyda oldu. Sürgün edilmiş Pişəvəri parlaq kommunist gələcəyi qurmaq üçün təyin edildiyi İran ərazisinə geri qayıtdı.



S.C.Pişəvəri

Sovetlərdə rahatlıq tapmış və dəstək qazanmış və Azərbaycan Demokratik Respublikasının bərpa olunması üçün geri qayıdacağına ümidini itirməyən Seyid Cəfər Pişəvəri 11 iyun 1947-ci ildə Gəncə-Yevlax yolunda avtomobil qəzasında həlak oldu.

Çox qəribə ölüm idi, hətta avtoqəzanın səbəbləri barədə qəsdən təhqiqat aparılmamışdı. S.C.Pişəvəri silahlı deyildi, amma o, təkcə İran üçün təhlükəli olmamışdı.[*]

Ağa Məhəmməd şah Qacar İran ərazisini nəinki Rus işğalından, hətta Rusiyanın hər hansı xırda bir təsirindən

[*] Müharibədən əvvəlki, İkinci dünya müharibəsi zamanı və müharibədən sonrakı dövrün parlaq tarixi hadisələri böyük Azərbaycan tarixçisi **Cəmil Həsənlinin** fundamental tədqiqatlarında öz əksini tapıb. (SSR-İran. Azərbaycan krizisi və soyuq müharibənin başlaması) (1941-1945) M.Qeroi Oteçectva, 2006, 560 s.

də diqqətlə qoruyaraq parçalanmış Azərbaycanı fars hakimiyyəti altında birləşdirmək üçün cəhd göstərmişdi.

Kalbalı xan Naxçıvanski fars zülmünü rədd edərək və rus hökumətinə rəğbət bəsləyərək Rusiya ilə yaxınlaşmaq üçün rusların gəlişindən istifadə edərək yollar axtarırdı. Kalbalı xanın vəsiyyəti ilə Naxçıvan Rus imperiyasının tərkibində qaldı. Bəs İranın və ya Cənubi Azərbaycanın yerdə qalan əraziləri necə olsun? Tale onlara nə yazacaq?

Son üç əsr ərzində vahid Azərbaycan Yaradılmasında üç cəhd olmuşdu: Birincisi- İran hakimiyyətinin himayəsi altında, ikincisi –Rus imperiyasının himayəsi altında, üçüncüsü- SSRİ-nin müdaxiləsi ilə birinci mərhələdə İranın tərkibində Cənubi Azərbaycanın bolşevik muxtariyyəti kimi yaradılması. Hər üç cəhd nəticə vermədi. Dördüncü cəhd bu əsrdə və ya sonralar həyata keçəcəkmi? Zaman- bütün tarixi həyata keçmələrin ən yaxşı hakimidir. Son qərarı zamanın ixtiyarına buraxaq.

ERMƏNİLƏRİN RUSİYADAKI MÜSƏLMAN TORPAQLARINA KÜTLƏVİ KÖÇÜRÜLMƏSİ

ERMƏNİ MİLLƏTİ RUSİYA ŞƏRƏFİNDƏN DƏ ÜSTÜNDÜR

XIX əsrdə rus-iran və rus-türk müharibələri dövründə ermənilər Türkiyədə və İranda onlara verilən zülmdən inildəyirdilər. Rusiyada bu iniltini eşidirdilər, hərçənd həmişə inanmaq olmurdu ki, bu Yaxın Şərqdən gələn hönkürtüdü, yoxsa Peterburqda bunu belə qələmə verirdilər. Bu şikayətlər çox vaxt saxta təxribat kimi səslənsə də onlara inanırdılar. Köçmə üzrə mütəxəssis olan əsilzadə Lazerev ailəsinə mənsub ermənilərin göz yaşları ilə yazdığı məktublar da bunda rol oynayırdı. Beləliklə, Rusiyaya həmişə deyildiyi kimi: bizim həmişə Rusiya hüdudlarından kənarda yaşayanlara yazığımız gəlir və kömək edirik, onlardan bura gəlməyi və burda firavan yaşamağı xahiş edirik. Hətta burada heç bir işi olmayan, kənarda firavan yaşayanları da dəvət edirik. Nüfuz xatirinə həmməzhəbləri də dəvət edirik, təki dünyada inansınlar ki, Rusiyada yaxşı yaşayış var.

Rus hökumətinin İranda və Türkiyədə incidildiklərini israr edən ermənilərə yazığı gəldi. Ona görə də həmməzhəblərini rus torpaqlarında yerləşdirməyə başladı. Məlumdur ki, Rusiyada ürəyin istəyən qədər yaxşı qulluq edilməmiş xam torpaq var. Lakin guya təcavüz və zülmə məruz qalmış ermənilərə o qədər yazıqları gəldi ki, ermənilər tərəfindən

deyil, azərbaycanlılar tərəfindən bir çox nəsillərin zəhməti hesabına becərilmiş torpaqları ermənilərə verdilər. Rusiyaya təkcə kasıb yaşayan ermənilər qovmadılar.

Ümumiyyətlə müəllif ermənilərin kasıblığı haqda danışarkən səhv edir. Nə vaxtsa buraya köçürülmüş çoxlu ermənin yaşadığı Qafqazda anadan olumuşdu. Mən Qafqazı eninəboyuna gəzdim, amma kasıb erməni görmədim: ermənilər kasıb yaşamağı bacarmırlar, hətta əgər kasıblaşmış rusların əhatəsində olsalar belə. Onların ruslardan üstünlüyü də bundadır. Yeri gəlmişkən İranda yaşayan bir çox varlı erməni ailəsi Rusiyaya köçmək istəmirdi, çünki onlar burada kasıblaşa bilərdi, lakin rus hökuməti onları qorxuzaraq və güc tətbiq edərək köçürməyə çalışırdı.

Rusiya-İran müharibəsi tarixindən məlumdur ki, becərilmiş müsəlman torpaqlarına çoxlu sayda ermənilərin köçürülməsini təmin etmək üçün Rusiyada o illərdə qoyulmuş qorxunc qaydalar dinc müsəlman əhalisinə nə qədər əzab verdi. Səfir Qriboyedov bu cür düşünülməmiş və təhlükəli qərarların acı nəticələr verəcəyi haqda Qafqaz rəhbərliyinə xəbərdarlıq etdi.

Qarabağdan müsəlmanların xaincəsinə qovulması və doğma torpaqlarından məhrum edilməsi – etnik problemlərin həllini mədəni üsulla dəyişməsi nümunəsi, necə deyərlər şeytan üsuludur. Misal üçün, bu qədim müsəlman torpağı olan Qarabağa yüzillərdir azərbaycanlı xanlar rəhbərlik etmişdi. Ermənilər hər yerdə və hər yanda qovulan olmuşlar, amma onları mühacir (təzə yerə köçən) adlandırmışlar, amma daha doğru olardı ki, "köçərilər" desinlər. Çünki onlar ilkin dövrlərdə köçəri xalq olmuşlar. Hələ də aydın deyil ki, nəyə görə Rusiyanın işğal etdiyi torpaqlara mühafizə məqsədilə və ya əkinçilik üçün dəvət edilmiş dinc mühacirləri köçəri adlandırıblar, hərçənd ki, onlar da ermənilər kimi yaddırlar. Lakin artıq biz burda dilçiliyin kompetensiyasına zorla giririk. Amma görünür ki, birinci

nəsl ermənіləri mühacir adlandırmışlarsa, onda sonrakı nəsl sanki öz şəxsi torpaqlarına gəliblər. Yadlar - kosmik xəyalətdir, ermənilər isə rus hökumətinin köməyi sayəsində çox sürətlə köçən və yerləşən və o dəqiqə də köklü əhali statusunu aldılar. Qarabağda şeytan ideyaları işə düşəndə əvvəlcə ermənilər könüllü olaraq ora köçdülər, sonra isə zorla - birinci Rusiya-İran müharibəsində iranlılardan işğal edilmiş torpaqlarda xristianların sayını artırmaq naminə. Erməni mənşəli hərbi sərkərdələrin şəxsində Rus hökuməti nümayəndələri bu regionda onların sayının artırılmasına nail olmaq üçün ermənilərin Qarabağa köçürülməsində xüsusi canfəşanlıq göstərirdilər. Amma son 200 ildən artıq bir müddətdə Qarabağda, müsəlmanların doğma torpaqlarında azərbaycanlılar çoxluq təşkil etmiş və etməli idilər də, hətta erməni köçmənləri buraya zorla gətirsələr də. Əgər geosiyasi məsələlər sivil qaydada həll edilsəydi, yəni Qarabağın tarixi orjinallılıq əsasında kimə mənsub olduğu müəyyən olunsaydı, onda Qarabağ problemi Azərbaycanın xeyrinə çoxdan həll olunmuşdu. Başqa cür həll ola bilməzdi. Tarixdə dəqiq faktlar var: İbrahim xan Qarabağlının oğlu qanuni Qarabağ xanı Mehdiqulu xan general Mədətov tərəfindən saxta sənədlər və böhtan əsasında İrana qovuldu, eyni zamanda onun əmisi oğlu və varisi Məhəmmədəli qanunsuz olaraq Sibirə sürgün edildi. Ermənіləri Qarabağa köçürəndən sonra onları yüzlərlə köklü əhali ilə birlikdə buraya qaytardılar. Ermənіləri tez bir zamanda köklü əhali adlandırdılar, geri qayıtmış azərbaycanlıları isə köçmən. Yırtıcı knyaz Mədətov öz dindaşları üçün onların torpaqlarını zorla boşaltdığı vaxt azərbaycanlıları necə qarət edib və dilənçi halına salmaları barədə tarix yazanlar hələ öz sözünü deməyib. Bizim köçürülmə işindəki ekskursumuza ancaq bir mövqedən baxmaq lazımdır. Qafqazdakı etnik məsələlərin qanuni həllini 1800-ci ildən, yəni eyş-işrət köçürülmələrinin və qanunsuz özbaşınalıqların əvvəlindən başlayaraq araşdırarkən biz bütün nöqtələri "i" üzərində qoyuruq və nəvə - nəticələrin inildəyən nəslini kədərlə basdırırıq.

Böyük Vətən Müharibəsi dövründə heç bir köçürmə siyasəti olmamışdı, müharibə şəraitinə uyğun olaraq xalqların yerdəyişməsi olmuşdur. Amma Qarabağ faciəsindən, illah da ki, genosiddən söhbət belə gedə bilməzdi. Əgər 1941-1942-ci illərdə Alman faşistlərinin təcavüzü nəticəsində öz evlərini tərk etmiş yüzlərlə qaçqın Qızıl ordu geri çəkildikcə dinc əhalinin yaşayış fondlarında yerləşdirildisə və onları məhəbbətlə qəbul edirdilərsə, yedizdirirdilərsə, hətta pal-paltar verirdilərsə, bu o demək deyildi ki, qaçqınlar burda yaşamaq xoşlarına gəldiyi üçün ömür boyu burda məsələn, Şimali Qafqazda və ya Kubanda qalacaqlar. Qaçqınların böyük əksəriyyəti Qızıl Ordunun hücumundan sonra öz daimi yaşadıqları yerlərə döndülər və onlara sığınacaq verənlərə uzun müddət minnətdarlıq məktubu yazdılar. Ancaq bu o zamanlar baş verirdi, hərçənd ki, onlar bu dövrdəkindən də ağır vəziyyətdə idilər,- o zaman qanunvericilər sağlam düşüncədən çıxış edərək həll yollarını axtarmadılar, onların Qarabağda vaxtında özlərini necə aparmalarını keçmişdəki yanlışlıqlarını aşkar edərək tarixi keçmişlərinə görə tutuşdurdular.

Türkmənçay sülh müqaviləsi bağlanandan sonrakı ilk günlərdə ermənilərin İrandan Rusiyaya köçürülməsi kompaniyası başlandı. Rusiya hökuməti bu kompaniyanı guya farsların zülmündən ehtiyat edərək başlamağa tələsdi. Türkmənçay müqaviləsinə uyğun olaraq ermənilərin köçürülməsi üçün general Paskeviç erməni polkovnik Lazerevi baş zabit təyin etdi. İşi boynuna götürən polkovnik yaddan çıxartdı ki, köçürülmə elə aparılmalıdır ki, Rusiya ziyana düşməsin, çünki dövlət pulunu Lazerev ianəsinə çevirmək olmaz, o - Rusiya imperiyasının zabitidir və şərəfdən qiymətli həyatda heç nə ola bilməz.

POLKOVNİK LAZEREVİN BİABIRÇI SƏYLƏRİ MÜQƏDDƏS ŞƏRƏF ANLAYIŞINI KÜÇÜMSƏYİR

Rus ordusu Naxçıvan və İrəvan xanlıqlarını işğal edən zaman əvvəlcə ermənilərin köçürülməsinə dindaşların farsların zülmündən azad olması üçün zəruri məcburi tədbir kimi, köçürülməyə rəhbər təyin edilmiş polkovnik Lazerevin fəaliyyətinə isə tərifə layiq kimi baxırdı.

GENERAL-MAYOR PONKRATEVDƏN – GENERAL PASKEVİÇƏ, 7 OKTYABR 1828-Cİ İL, XOY

Şərəf duyuram sizə məlumat verim ki, xristianların Azərbaycandan bizim vilayətə köçürülməsinin əsas səbəbi öz vətəndaşlarının rifahını pozan və xüsusilə də ermənilərə əziyyət verən hökumətin ədalətsiz əziyyətindən yaxa qurtarmalarıdır. Ermənilərin demək olar ki, hamısı sizin vədlərinizə ümid edərək Rusiyanın himayəsi altına keçməyə tələsirlər. Ermənilərin köçürülməsinin gələcək şahidi kimi mən əminəm ki, onlar öz şəxsi hərəkətlərini və sağlam düşüncəni rəhbər tutaraq daha yaxşı yaşamaq üçün öz vətənlərini tərk edirlər. Köçürülənlərin hamısı tamamilə razı qaldılar ki, onlara polkovnik Lazerevin və onların öz həmvətənlilərindən ibarət digər məmurların böyük bir hissəsi vasitəsilə kömək etdik. Ancaq inanmaq olmaz ki, Azərbaycan ermənіləri polkovnik Lazerevin soyadını və onun nəslini tanıyırlar. Köçürmə əməliyyatında iştirak edən məmurların böyük əksəriyyəti xeyli səy göstərdilər, məsələn, podpolkovnik kn. Aequtinskiy-Dolqorukiy, 8-ci sinif məmur Qamazov, Kozlov piyada alayının ştab-kapitan Voynikov, 8-ci sinif komissioner Şaroev. Mən isə öz tərəfimdən imkan daxilində çalışdım ki, Xoy və Urmiya vilayətlərində sizin iradənizi yerinə yetirim və ermənіləri müdafiə edim. Bununla da sizin qarşınızda şəhadət edirəm ki, polkovnik Lazerev çox böyük səy göstərdi və köçürülənlər İran hüdudlarından kənarda onun verdiyi sərəncamlarından ümumiyyətlə tamamilə razı qaldılar.

(AKAK. T.7.c.c. 650-651)

POLKOVNİK LAZEREVDƏN – GENERAL PASKEVİÇƏ,
14 FEVRAL 1828-Cİ İL, TÜRKMƏNÇAY

Rus əsgərləri İran sərhəddinə daxil olarkən ermənilər tərəfindən həmyerliləri kimi qarşılandı (...) Hər bir insanın öz doğma vətənindən həmişəlik ayrılmağa qərar verməsinin çox çətin olduğuna baxmayaraq bu xalq dəfələrlə bizim böyük İmperatorun hakimiyyəti altında qalmağı ürəkdən arzuladığını nümayiş etdirmişdi. Ermənilərin demək olar ki, hər yerdə gözləri Sizi axtarırdı, Rusiyaya məxsus vilayətlərə köçmək üçün öz evlərini və becərilmiş torpaqlarını tərk etməyi ürəkdən arzuladıqlarını bəyan edirdilər.



Yaxşı becərilmiş
Azərbaycan torpaqlarına

Ola bilər ki, bu bədbəxtlərin öz niyyətlərini həyata keçirmək üçün lazımi köməkləri və pulu yoxdur.

Hörmətli cənab, Rus silahının şöhrətini Şərqdə yüksək dərəcəyə çatdırdıq, alınmaz qalanı tutduq, iki əhəmiyyətli vilayəti ələ keçirdik (...) Öz ümidlərini sizə bağlayaraq erməni xalqının qurucusu olmaq indi sizə bir şərəf kimi təklif edilir və xüsusən də sizin qarşınızda ürək duyğularını anlatmaq üçün bizim nəslə etibarları ilə məni seçirlər.

Siz saray müşaviri Ustimoviçlə birlikdə mənə etibar etdiyinizə görə mən də cürət edib, Rusiya vilayətlərinə ermənilərin rahat və tezliklə köçürülməsi barədə öz fikirlərimi sizin müzakirənizə təqdim edirəm.

1. Mən arzu edən ermənilərin köçürülməsi ilə məşğul olmaq üçün Sizdən mənə hakimiyyət verən sənəd verilməsini vacib hesab edirəm (..)

2. İcazə verin erməni dilini bilən ştab zabit və ober zabitlərin sayını təyin etmək mənim istəyimlə olsun.

3. (...) Sərt iqlimin əhaliyə əngəl törətdiyi yerlərdə təcili olaraq yola çıxmaq, orda yerləşən ordunu qısa bir müddətdə saxlamaq lazım gələ bilər. Bu ordu köçürülən ermənilərı müdafiə etmək və onlara hər cür kömək göstərmək üçün xidmət etməlidir.

4. Kasıblaşmış köçmənlər üçün, hesab edirəm ki, pul yardımı təyin etmək lazımdı və bu məbləğ Sizin sərəncamınızda olmalıdı. Əgər yolda onların heyvanları üçün yaşıl ot olmazsa, onda kimə lazımdırsa, ona kömək haqda göstəriş verilməlidi.

Rusiya əhəmiyyətli sayda dindaş və onların köçürülməsində istifadə olunan xərcləri artıqlaması ilə ödəyəcək çalışqan, qüdrətli bir rəiyyət qazanacaq.

Sonda Sizi cəsarət edib inandırıram ki, mənim millətə olan sevgim və sizin xilaskarlıq niyyətinizi həyata keçirmək arzum sizə bu qeydləri təqdim etməyə həvəs yaratdı.

(AKAK. T.7.c. 593)



Cəfərqulu xan
Şuşalı

Rus hakimiyyətindəki erməni millətçilərinin ona qarşı ədalətsiz münasibətlərinə görə Rusiya hüdudlarını tərk etməyə məcbur olmuş Cəfərqulu xanın taleyi haqda məsələ ermənilərin köçürülməsi ilə əlaqədar yenidən qalxdı. Farslar, əlbəttə, Marağanı idarə etməyi ona vəd edərək onun geriyə-Rusiyaya qayıtmasını istəmirdilər, amma faktiki olaraq Rusiyadan qovulan xanın taleyi sərkərdələri maraqlandırmırdı. Əsas ermənilərin köçürülməsi idi, hətta İranda varlı yaşayan ermənilər də.

GENERAL-MAYOR PANKRATEVDƏN GENERAL PASKEVİÇƏ, 1 MART 1828-Cİ İL

Ermənilərin köçürülməsi və polkovnik Lazerevin Marağaya gəlməsinə toxunaraq mən artıq Sizə məlumat verdim ki, mənim tərəfimdən Rusiya ərazisinə köçmək üçün 200-ə yaxın erməni ailəsinə bilet verilib, lakin sizin nəzərinizə çatdırıram ki, Abbas Mirzə Marağa qəzasına fərman göndərib, fərmanda müxtəlif güzəştlər vəd edərək ermənilərı dilə tutur ki, öz malikanələrini tərk etməsinlər. Həmçinin Marağa xanlığını idarə etməyi Cəfərqulu xana təqdim edərək onun İranda

qalmasını təklif edir. Hərçənd Cəfərqulu xan bilir ki,İran hökumətinin vədlərinə bel bağlamaq olmaz, ancaq onun Rusiyaya köçməsində qərarsız olduğunu görürəm, bilmirəm o, Marağanı tərk edəcəkmi.

(AKAK. T.7.c. 602)

Bununla yanaşı ermənilərin köçürülməsi işinə patriarx hakimiyyətinə can atan erməni yepiskop Nerses də müdaxilə etdi. O həmçinin Böyük Ermənistan xülyası naminə ermənilərin Rusiyaya köçürülməsi uğrunda mübarizəyə qalxdı. Arxiyepiskop Nerses yerlərdə köçürmə probleminə ağılla yanaşan ruhanilərə qarşı ən ağır tədbirlər görməyə hazır idi, arxiyepiskop hətta meydan oxuyurdu və general Paskeviçin hakimiyyətindən yararlanmağa çalışdı. Ancaq general Paskeviç arxiyepiskop Nersesin qiymətini yaxşı bilirdi.

ARXİYEPİSKOP NERSESDƏN – QRAF PASKEVİÇƏ, 17 MART 1828-Cİ İL, İRƏVAN

Mənim tərəfimdən Rusiya sərhədlərinə yaxın Azərbaycan ölkəsində yaşayan ermənilərə göndərilmiş nəsihət üçün mənə xəbər verirlər ki, Varfolomeyin Salamas monastırında Eçmiədzin ruhanilərinin təyin etdiyi İsrail yepiskopu xristian vəzifəsini unudaraq gizlicə hiyləylə və açıq təhdidlə ermənilərin buraya köçməsini qarşısını alır, başqa iyrənc hərəkətlər də edir-erməni patriarxın mənə verdiyi məlumata görə bütün Ermənistan dini işlər idarəsinin hakimiyyəti də. Mən gen-m. kn. Çavçavadzedən xahiş etdim ki, Xoy komendantına müraciət etsin ki, qeyd olunan İsrail yepiskopunu dini qaydalarla mühakimə etmək üçün onun rütbəsinin təhqir edilməsindən çəkinməyərək mühafizə altında Eçmiədzin monastrına göndərsin. Burdakı ruhanilər qarşısında öz hərəkətlərinə haqq qazandıra bilənə qədər o öz rütbəsindən istifadə edə bilməz. (...) Lakin Xoy komendantı məlumat verdi ki, general Paskeviçin icazəsi olmadan o, kn. Çavçavadzenin əmrini yerinə yetirmək iqtidarında deyil.

(AKAK. T.7.c. 607)

19 mart 1828-ci ildə general Paskeviç arxiyepiskop Nersesə cavab verdi ki, onun bu tələbini yerinə yetirmək

mümkün deyil. Xoy vilayəti müvəqqəti olaraq Rusiyanın hakimiyyəti altındadır – İranın borclarını ödəyənə qədər. "Heç kimi öz istəyi olmadan, şahzadə Abbas Mirzə ilə razılaşdırmadan vilayətdən çıxarmaq olmaz. İsrail yepiskopuna gəlincə, general Pankratevə əmr verilib, çünki o, bu yepiskopu inandırmağa çalışdı ki, öz hərəkətlərinə haqq qazandırmaq üçün Eçmiədzinə gəlsin." Əlbəttə, Nersesin təklif etdiyi məcburetmə üsulları haqda - demək olar ki, İsraillə bağlamaq və gücləndirilmiş konvoyun nəzarəti altında Eçmiədzinə gətirmək - söhbət belə gedə bilməzdi.

Xoşbəxt həyat və hədsiz dərəcədə varlanma vədi ilə ermənilərin Rusiyaya köçürülmələri barədə geniş təbliğat davam edirdi. Lakin ermənilər tora salmaq və aldatmaq heç də asan deyildi. Məsələn Makudakı 250 ailədən yalnız 40 ailə köçməyə razılıq verdi. Nəyə görə? Onlar elə Makuda da pis yaşamırdılar. Təbriz və yaxın kəndlərdəki ermənilərin köçürülməsini təşkil etmək podpolkovnik kn. Arqutinskiy-Dolqorukiyə həvalə edilmişdi. O, 22 mart 1828-ci ildə 329 ailənin razılığını ala bildi, onlardan da yarısı bu vaxta qədər artıq Araz çayını keçmişdilər . Ancaq 6 ailə köçməyə razılaşmadı. Marağa xanlığından bütün 600 erməni ailəsi Rusiyaya getməyə razı oldu. 1000–dən artıq erməni ailəsi Marağa ətrafı və Təbrizdən yola çıxdı və bir hissəsi Naxçıvan vilayətinə gəlib çatdı. Urmiya, Salmas və Xoydan olan bütün xristian ermənilər köçməyə hazırlaşdı.

Başlanmış köç bəzi çətinliklərlə qarşılaşdı. Məlum oldu ki, yeni gələnləri yedirtmək üçün heç nə yoxdu. Qərara alındı ki, təzə çörək gələnəcən köçürmə müvəqqəti dayandırılsın, amma bu təlimat gecikdi və 4500-dən çox ailə artıq Araz çayının sahilinə çatmışdı. Salmas və Xoydan tezliklə 2000 ailə yola çıxmalı idi. Marağa ermənilərı Araz çayına qədər 300 verst getməli idilər.

Köçürülən ermənilər yeni yerdə soyuq və aclıqla rastlaşdılar, öz yurdlarına qayıtmağa hazır idilər. Və Lazerevə

təşəkkür etmək əvəzinə köçürülənlərin hamısı onu məsuliyyətsizlikdə təqsirləndirdilər.

POLKOVNİK LAZEREVDƏN – QRAF PASKEVİÇƏ,
12 APREL 1828-Cİ İL, URMİYA

General-mayor Pankratevin də təsdiq etdiyi kimi, erməni köçkünlərin vəziyyətinin acınacaqlı olması haqda mənə gələn xəbəri V.S. nin diqqətinə çatdırmaq üçün tələsirəm.

Marağa ermənіləri Arazın o tayına keçiblər və artıq ehtiyac içindədirlər. Naxçıvan və İrəvan vilayətlərində çörək qıtlığı hiss olunur, yerli rəhbərlər də ermənilərə yardım etmək imkanına malik deyillər. 700 Marağalı ailə demək olar ki, hər şeylərini qoyub erkən yola çıxmışdılar, yaşıl ot çatmadığından, özləri ilə kifayət qədər çörək götürməmişdilər.

Əgər köçürmən dayandırılsa, onda yeni əldə edilmiş vilayət üçün faydalı olan sizin istəyinizi yerinə yetirə bilmərəm. Əgər köçürməni davam etdirsək, **onda bu bədbəxtlər bir səylə hər şeyi qoyaraq amansız aclığın qurbanı ola bilərlər.** Burdakı Nestorianlar ümimiyyətlə köçmək istəmirlər, bəziləri isə vergi ödəməmək üçün köçməyə can atırlar. Digərləri isə köçməyə razıdırlar, amma elə bir ağıla gəlməz məbləğ istəyirlər ki, heç kim bunu verə bilməz.

Urmiya vilayətindən 300 ailə maddi yardımı geri qaytarmaq arzusu ilə göz yaşları içərisində "Aclıqdansa müsəlman zülmü daha yaxşıdır"- deyərək mənim yanıma gəldi. Köçürülənlər arasında qorxu hissi geniş yayılırdı.

(AKAK. T.7.c. 611)

Lakin qr. Paskeviçin qr. Dibiçə 26 may 1828-ci il №141 müraciətindən belə çıxırdı ki, *"Xristianların Azərbaycandan bizim vilayətlərə keçməsi uğurla həyata keçirilir, hazırda artıq Qarabağda 279 ailə, İrəvan da isə 918 ailə yerləşdirilmişdir. Lazerevin təminatına görə köçürülənlərin sayı 5000 ailədən çox olacaq."*

Təəsüf ki, Lazerevin cəhdləri pis meyvə verdi. Ermənilərin çox az olduğu müsəlman Naxçıvanı və İrəvanı indi sürətlə erməni ərazisinə çevrilirdi. Müsəlman torpaqlarında yenicə yerləşmiş ermənilər ağızları köpüklənə-köpüklənə

iddia edəcəklər ki, bu torpaqlar onların əcdadlarınındır və digər ermənilər də buraya çağıracaqlar. Öz torpaqlarında rus idarə üsulunu və dinc yaşamağı gözləyən köklü əhali əsl fəlakətə düçar oldu. Erməni ekspansiyası Rusiyanın himayəsi altında sürət yığmağa başladı və bu fəlakətin qarşısını almaq üçün heç bir tədbir görmək mümkün deyildi. Ermənilərin arxasında polkovnik Lazerevin şəxsində Rus hökuməti dayanırdı.

POLKOVNİK LAZEREVDƏN – QRAF PASKEVİÇƏ, 21 MAY 1828-Cİ İL, NAXÇIVAN

Araz çayı sahilində qidasız və qansız qalan köçürülənlərin fəlakətli vəziyyəti məni vadar etdi ki, tezliklə Naxçıvana gəlim. Hərçənd ki, mən burda mənə təsvir edilən heç bir bədbəxtçiliklə rastlaşmadım, lakin Ermənistan Vilayət İdarəsi tezliklə və qəti tədbir görməzsə, ermənilər ciddi fəlakətlə qarşılaşa bilərlər.

Naxçıvanda təsis edilmiş Erməni komitəsinin bölməsi Naxçıvan vilayətinə köçürülənlərin yerləşdirilməsi və başqa vilayətlərə göndərilməsi üçün bütün vəsait və üsullardan məhrum idi. Eyni zamanda yerli hakimiyyət köçürülənlər üçün kəndlər ayırmır, bəhanə edirlər ki, kəndlərin hamısı Ehsan xana, onun qohumlarına və ya başqa mülkədarlara tabedir və bütün vilayətdə cəmisi üç kənd dövlətə mənsubdur.

Mənə verilən məlumata görə köçürülən xristianların 6 il ərzində bütün vergidən və biyardan azad edilməsi barədə hökumətin qərarı burada özünü doğrultmur, çünki hər bir öldürülmüş heyvan üçün onlardan otkup, iltizam (XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən vergi toplama hüququ) - 1 rubl gümüş pul tələb olunur, Rusiyanın heç bir vilayətində belə bir şey yoxdur.

Köçürülənlərin yerləşdirilməsi barədə Erməni İdarəsinə sizin əmrlərinizi dəqiq yerinə yetirməyin yollarını göstərməyi Sizdən xahiş edirəm. Erməni komitəsinə verilən təlimatda qeyd olnur ki, tez bir zamanda Rusiyanın zəhmətkeş rəiyyətinin şəraiti yaxşılaşdırılmalıdır.

Mən məcbur oldum ki, məndə olan 1500 çervonetsdən 1000 çervonets ayırıb təcili olaraq burada sıxışmış xristian-

lara - bir hissəsini İrəvana, digər hissəsini isə Qarabağa göndərim.

Bu gün köçürülənləri sakitləşdirərək və ümidləndirərək İrandakı fəaliyyətimi bitirmək və orda qalan zabitləri lazımi təlimatla təmin etmək üçün mən Xoya qayıdıram. 1 iyun ərəfəsində ümid edirəm ki, İrəvanda olacam, burdan da Rusiya hüdudlarına köçürülən ailələrin siyahısını təfsilatı ilə Sizə təqdim etməyə şərəf duyacam.

(AKAK. T.7.c. 627)

Rus hökuməti tərəfindən verilmiş xüsusi səlahiyyətlərə malik, özünü ermənilərin rəhbəri kimi təqdim edən polkovnik Lazerevin davranışları, xüsusi xidmətinə görə lovğalığı, eyni zamanda ermənilərin köçürülməsi zamanı çoxlu sayda buraxdığı səhvləri barədə məlumat Qafqazdakı yüksək hərbi dairələrə çatdı.

Lazerev Qafqaz ali rəhbərliyində ədavət yaradan mənfur bir fiqur oldu. Naxçıvan və İrəvan xanlıqlarının bazası əsasında yaradılmış Ermənistan vilayətinin rəisi knyaz **Aleksandr Qarsevanoviç Çavçavadze** (1786-1846) Qafqaz baş komandanı qr. İ.F.Paskeviçə yazdığı məktubda Lazerev nəslinin məşhurluluğunun sirrlərini açdı.

GENERAL-MAYOR ÇAVÇAVADZEDƏN – QRAF PASKEVİÇƏ, 12 OKTYABR 1828-Cİ İL, DADİAN QALASI

Təlimatda polkovnik Lazerev ermənilərin köçürülməsinin uğurunu ancaq öz bacarığı ilə bağlaması və onun əcdadlarından gələn soyadına görə erməni millətinin ona hörmət etməsi barədə məndən məlumat verməyi tələb etmək ədalətlidirmi. Vəzifə borcu olaraq bütün qərəzi və şəxsiyyəti kənara qoyaraq Sizə aşağıdakıları təqdim edirəm.



general-mayor Çavçavadze A.Q

İmperatriçə II Yekaterinanın dövründə polkovnik Lazerevin

doğma dayısı - İvan Lazereviç Lazerevin İrandan Rusiyaya gətirdiyi qiymətli daş-qaşlarla Lazerev soyadları zənginləşmişdi. O zamandan bəri onların evi məşhurdur. Öz millətinə dəfələrlə yardım etdiyi üçün onların nəsli ümumi erməni məhəbbətini qazanmışdı. Lakin onların əcdadlarının xatirəsi Ermənistanda çox az tanınır, hal-hazırda Azərbaycandan bizim vilayətlərə xristianların köçürülməsinə hər hansı bir təsiri olması şübhəlidi.

Hamıya məlumdur ki, bizim silahın çoxluğu və İranla parlaq sülh bağlanması, həmçinin İran hökumətinin despotizmi və Rus idarəetmə üsulunun şöhrəti, Rusiya rəiyyətinin rifah içində yaşaması bu köçürülməyə yol açdı.(...) Bütün köçürülənlərin hamısı polkovnik Lazerevdən çox narazı idilər, çünki onun verdiyi vədlər ermənilərin yerləşdirildiyi vilayətlərdə yerinə yetirilmirdi. Köçürülənlərin sözlərinə görə o, İranda qoyub gəldiklərinin eyni olaraq ev, bağ və təsərrüfat verəcəyilə onları ümidləndirmişdi. (...)

(AKAK. T.7.c. 650)

PODPOLKOVNİK KNYAZ ARQUTİNSKİY – DOLQORUKİNİN QRAF PASKEVİÇƏ MƏKTUBU 17 OKTYABR 1828-Cİ İL, İRƏVAN

...Sizin polkovnik Lazerevlə bağlı bəzi suallarınıza cavab verirəm. Onunla 11 ilə yaxın bir müddətdə tanışlığım oldu.(....) Mənim üçün çox da acı olmayan hisslərlə deyil, Hökmdar İmperatora içdiyim and və şərəf borcu olaraq mənim cavablarımı Siz alacaqsınız.

Ermənilərin Rusiya hökumətinə hədsiz inamı ucbatından onların böyük bir hissəsi, hətta bəziləri əsrlərdir əcdadlarından qalan öz mülklərini qoyub çıxdılar. Sanki indiki köçürülənlərə təsirinə görə Rusiya Azərbaycanda tamamilə tanınmayan Lazerevlər soyadına borcludur.

Əgər Lazerev özü şəxsən məşhurlaşdısa, o da ona görə olmuşdu ki, bizim ordunun Təbrizə hücumundan sonra şəhərin komendantı təyin olunmuşdu. (...) və əgər öz Təbriz həmqəbilələrinin təşəkkürünü qazandısa, buna görə bütün şəhərdə tanınmayan əcdadlarının ad-sanına görə deyil, hərbi xidmətə borclu idi.

(AKAK. T.7.c. 651)

Qədimdən müsəlman dininə mənsub olanların becərilmiş və təhciz edilmiş torpaqlarına ermənilərin köçürülməsi haqda AKAK-n 7-ci cildinin müqəddiməsində qeyd olunur:

"Bizim Zaqafqaziya torpaqlarında ərazilərimizin genişlənməsi ilə birlikdə İrandan 8249 və Türkiyədən 14000 erməni, qismən də yunan ailələrinin bizim əraziyə gəlməsi nəticəsində əhalinin də sayı artdı. Zaqafqaziya torpaqlarında erməni əhalisinin sayı əhəmiyyətli dərəcədə artdı."

Yeri gəlmişkən, Rusiya imperiyasının böyük qayğısı sayəsində ermənilərin köçürülməsi ucuz başa gəlmədi. İrandan ermənilərin köçürülməsinə 14 min çervonets və 400 min rubl gümüş pul, Türkiyədən isə 90 min çervonets və 380 min rubl gümüş pul xərcləndi."

(AKAK. T.7.C. III)

Rusiya torpaqlarına ermənilərin köçürülməsi üzrə təyin edilmiş erməni millətindən olan müvəkkillər bir qayda olaraq dövlət vəsaitini çox vaxt tamah məqsədilə səxavətlə xərcladilər.

ERMƏNİLƏRİN RUSİYAYA KÖÇÜRÜLMƏSİ HAQDA HƏQİQƏT DİPLOMAT QRİBOYEDOVUN QEYDLƏRİNDƏ

General Yermolovun və general Paskeviçin yanında xidmət edərkən A.S.Qriboyedovun köçürülmə fəaliyyəti haqda mən Azərbaycanda müxtəlif şəxslərdən dəfələrlə mənfi fikirlər eşitmişəm. Bizə elə gəlir ki, bu mühakimə şayiələrə əsaslanır, nəinki fakta. A.S.Qriboyedovun ermənilərin müsəlman torpaqlarına köçürülməsinə olan münasibətini şahidlik edən rəsmi materialları oxucuya təqdim edirik ki, əmin olsun ki, rus diplomatı İrandan ermənilərin köçürülməsi qaydasının əleyhinə idi, A.S.Qriboyedov hərbi və mülki məmurların düşünülməmiş hərəkətinə qarşı etiraz etdi.

A.S.QRİBOYEDOVUN GENERAL İ.F. PASKEVİÇƏ "ERMƏNİLƏRİN İRANDAN BİZİM VİLAYƏTLƏRƏ KÖÇÜRÜLMƏSİ HAQDA MƏKTUBU (1828)"

Azərbaycandan ermənilərin köçürülməsi və hazırda bizim vilayətlərə yerləşdirilməsi barədə qəbul olunmuş üsulları haqda v.s. mənim vasitəmlə səhih bilmək olar.

Mənə məlum olan bütün həqiqət budur. Polkovnik Lazerev bu mühacirətin əsas səbəbkarı kimi özünü saydı, bildiyiniz kimi, o bunu olduqca açıqca izah etdi, lakin əsaslı deyil, ona görə ki, yeganə inamları Rusiyaya olan və onun qanunları altında olmağı arzu edən ermənilər bu haqda heç nə bilmirlər. Traktat bunun üçün onlara tam hüquq verirdi.

Köçürülmədə əsas rolu knyaz Arqutinski və Qamazov oynayırdı, digər zabitlər isə onların təsiri altında hərəkət edirlər.

Polkovnik Lazerev kifayət qədər yersiz olan bəyannaməni yazmaq və öz həmfikirlərini ətrafına toplamağa ümid edərək Erməni könüllülərindən ibarət nizami qoşun təşkil etmək haqda fikirləşirdi. Xoşniyyətli olsa da yaxşı fikirləşilməmişdi, öz komandanlıqlarına malik olan Qarabağ və ətrafdakı vilayətlərin hakimiyyət orqanları buna icazə verməzdi. Knyaz Arqutinski lovğa və yüngül davranışlarına görə dəfələrlə ona irad tutdu, xeyri olmadı. Polkovnik Lazerevin digər işləri də bu vəziyyətdə idi və bunlar haqda çox danışmağa dəyməz. Ancaq onu əlavə etmək lazımdır ki, o boş adamdı, amma əxlaqsız deyil, dövlət büdcəsinin pullarını gizlicə mənimsəməyi bacarmır və qəsdən ziyan vurur.

Urmiyadan köçənlərə pul yardımı verilərkən çoxlu qarışıqlıq düşdü, amma sui-istifadə olmadı. Kasıblara az, varlılara isə çox verildi. Bizim ordunu bu vilayəti tərk etdiyinə görə bu tələsiklik ucbatından baş verdi. Tez-tələsik araşdırmadan payladılar, ona görə pul onlara az kömək elədi, çünki pis paylanmışdı. Bu mənə məlum olan yeganə hadisədi.

Köçürülmə zamanı belə olmuşdu, amma ermənilərin bizim yeni yerlərdə yerləşdirilməsi zamanı isə hər şey mənasız, fərsiz və bağışlanmaz idi. Köçürülənləri idarə etmək üçün təsis edilən komitənin hökm vermək səlahiyyəti olsa da heç nəyə nəzarət edə bilmirdi, hərçəndki belə hallarda necə hərəkət edilməsi barədə Sizdən göndərilmiş ən dəqiq və ətraflı təlimat var idi.

1. Ermənilərin böyük hissəsi müsəlman mülkədarlarının

torpaqlarında yerləşdirilmişdi. Yayda buna yol vermək olardı, müsəlman mülkədarların əksəriyyəti köçəbələrdə idi və başqa dinə mənsub olan gəlmələrlə az-az münasibətdə olurdular.

2. Nə odun tədarük edilmişdi, nə də ki, köçürülənlərin başqa yerlərdə möhkəm yerləşdirilməsi üçün yer ayrılmışdı. Bütün bunlara vaxtında əməl edilməliydi. Bu il bu səhvi düzəltmək gecdir. Köçürülənlər darısqallıqda yaşayırlar və müsəlmanların yerlərini daraldırdılar ki, bu da müsəlmanların əsaslı narazılığına səbəb olurdu.

3. Dövlət büdcəsinin pulu əsaslanmadan bölüşdürülmüşdü: kimə nə lazımdı və nə qədər ehtiyacı olanlar barədə dəqiq məlumat toplamadan hərəyə dilənçi kimi 1 rubl, 2 rubl verilmişdi. Birdəfəlik verilmiş 25 rubl müxtəlif vaxtlarda xırda–xırda verilmiş o məbləğdən onqat üstün idi. Heç bir ümumi tədbir məsələn,camaatı saxlamaq üçün çörək, həmçinin gələn il üçün səpin tədarükü görülməmişdi.

Köçürmə komitəsinin ürəkağrıdıcı aktını v.s. göstərərək mən ədalət naminə qeyd etməliyəm ki, əgər bu iclasda mütəxəssislər də olsaydı, onlar da çətinlik çəkərdilər.

Vilayət İdarəsində hələ də Arazın o tayındakı kəndlərin və torpaqların siyahısı yoxdu. Hələ Arazın bu tayındakı əhalinin sayı dəqiq bilinmir. Mülklər haqqında isə heç nə demək mümkün deyil. Heç kim bilmir ki, kimə nə məxsusdu. Beləliklə də komitə lazım olan məlumatları toplaya bilmirdi.

Yerli vilayət rəhbəri cavab verir ki, yeni gələn ermənilərin böyük bir hissəsini Araz çayının arxa tərəfində yerləşdirmək istəyirdi, amma ermənilər Sizin iznizlə xahiş etdilər ki, ilk gəldiklərində müvəqqəti olaraq yerləşdirildikləri yerdə qalsınlar və sizin razılığınızı aldılar. Podpolkovnik kn. Arqutinski ümidini kəsmirdi və bunu həyata keçirməyə inanırdı. Bu məmur dürüstlüyü və bacarığı ilə rəhbərliyin etimadını qazanmışdı.

Köçürülənlərə yenidən ayrılan 30 min rubl gümüş pulla, 2 min çervon yardım artıq daha da ehtiyatla istifadə olunacaq. Əgər Siz tez bir zamanda bundan iki dəfə artıq məbləğ ayırmaq istəyirsənizsə, onda köçürülənlərin həyat şəraitini sabitləşdirmək asan olar. İcazə verin ancaq köməyə ehtiyacı olan köçürülənlərin siyahısını qəbul edək, çünki onlar zaman-zaman xəzinəyə vergi ödəyəcəklər. Rusiyada bu əhalinin sayı ilə sizin verdiyiniz bütün məbləğin orta hesabını

müqayisə edin, bu sizə nəinki mötədil, hətta verginin sizə gətirəcək xeyiri bununla müqayisədə çox cüzi olacaq. Bu işin məhz o nöqteyi-nəzərdən sizə təqdim olunduğunu və sizin onu bəyənmədiyinizi bilmirəm .

Xəzinə üçün heç bir dəyəri olmayan daha bir yardım mənbəyi vaxtilə sərdarların vergi ödəmək şərtilə əhaliyə saxlamaq üçün paylamış olduğu və indi 30 minə başa çatan sərdar mal-qaralarıdı. Öz növbəsində o, bir ağa kimi onlardan yağ, yun və yenicə doğulmuş balalarını alırdı.

Bu mal-qaraların mövcudluğu haqda mən çoxlarından eşitmişdim. Vilayət İdarəsinin üzvləri Petrimov və Meddoksdan da eşidəndən sonra buna qəti olaraq əmin oldum. Bu sərdar təssərüfatını davam etdirmək xəzinə üçün əlverişsizdi və bizim administratsiyada isə heç cürə mümkün deyil. Əsgərlərə isə porsiyalarla paylamaq, deməli həmişəlik itirməkdir. Ancaq bütün mal-qaranın köçürülənlərə verilməsi mütəəsir bir surətdə onların təsərrüfatını qaydaya salar.

Mən kənardan və bu barədə sorğu-sual etməyə məcbur etdiyim son dərəcə bacarıqlı tərcüməçim Dadaşov vasitəsilə kəndbəkənd keçdiyim yerlərdə - Eçmiədzində və burda pulların paylanmasında sui-istifadəyə yol verilməsini öyrənmək istədim, lakin heç kim şikayət etmədi.

Vilayətin rəisinin tərcüməçisi Mirzə Tatus məşhur fırıldaqçı idi, lakin bu işə görə ona heç bir tapşırıq verilməmişdi. Eyni zamanda onun qardaşı – Sürməli mahalının rəisi, həmçinin hamıya məlum olan əclaf. O da köçürülmə prosesində heç nəyə qarışmamışdı.

İndi gəlmələrin yerləşdirilməsi ilə məşğul olanların çar jandarmasından çox şey gözləməsi mümkündür, xüsusilə də kn. Arqutinskidən. O, artıq öz xələfi mayor Vladimirovun səhvlərini təkrar etmir.

Həmçinin biz onunla **müsəlmanlara onların uzun çəkməyəcək hazırki sıxıntılarla barışmağı və "ermənilər ilk gətirildikləri torpaqları həmişəlik zəbt edir" qorxusunu aradan qaldırmağı təlqin etməyin vacibliyi haqda** çox düşünmüşük. (seçmə-R.İ). Bunu mən burda mənim yanımda olan polismeystrə, İdarənin üzvlərinə və xanlara demişəm.

Əgər buraya bir neçə məmurun göndərilməsi v.s. barədə Tiflis Xəzinə Ekspedisiyasına sərəncam versəniz, əsil yaxşılıq etmiş olarsınız. Burda heç kim işləmir, hətta mirzə və tərcüməçi də belə yoxdu. Mən hesab edirəm ki, bunun üçün

Tiflisdəki erməni məktəbindən bir neçə şagird seçmək lazımdı.

Köçürülənlərə yenidən diqqət yetirərək mən inandım ki, ümumiyyətlə, xəzinəyə heç bir faydası olmayan alverçilərdən - bizim Gürcüstan ermənilərindən onlar daha faydalıdı, İrandan gələnlərin əksəriyyəti isə pinəçi və əkinçidir.

(Qriboyedov A.S. PCC.1917.T.Z.S. 267-270)

MÜLKİ MÜŞAVİR QRİBOYEDOVDAN – QRAF PASKEVİÇƏ, 23 SENTYABR 1828-Cİ İL, İRƏVAN ŞƏHƏRİ

Şərəf duyuram Sizi məlumatlandırım ki, İrəvana gəldiyim zaman Mirzə Cəfərlə qarşılaşdım. O, geri qayıdırdı. Öz sarayının fərmanına və Sizin şifahi icazənizə əsaslanaraq o, yerli rəislərdən bilet və traktata görə İrana köçmək istəyən bizim rəiyyətdən olanların hamısına azad buraxılış tələb edir. Traktatın mahiyyəti burdakı daxili idarəetmə ilə məşğul olan məmurlara tamamilə məlum ola bilməzdi. Vilayətin rəisinin özü burda yox idi. Ona görə də əvvəlcə İran rəiyyəti burda azad yaşamağa və onlara verilmiş vəzifələri yerinə yetirmək üçün izn verilmişdi. Hərçənd ki, Tiflis hərbi qubernatorundan gələn kağızda onun haqqında yüksək rütbəsinə uyğun olaraq qəbul edən və saxlayan bir diplomat kimi yazılırdı. Lakin tezliklə onun təlqinin təhlükəli aqibəti və vadaredici rəsmi xarakteri və özünü köçürmənin hamisi qəbul etməsi aşkar idi. Bizim hakimiyyətin yeni qaydaları ilə bəziləri razı deyildi və həmişəlik buradan getmək istədiklərini bildirdilər.

Mən bura gəldim və nə baş verdiyini gördükdən sonra Mirzə Cəfərin arxasınca adam göndərdim və onun hərəkətlərinin yersiz olduğunu söylədim. Onun sözlərindən müəyyən etdim ki, o, hərəkətlərinin doğruluğuna ürəkdən inanırdı. O həmçinin mənə öz fərmanını göstərdi. İrəvanda xüsusi mülkiyyətə sahib olan əvvəlki İran vətəndaşlarına onu satmaq və ya dəyişdirməyə Sizin icazə verməyinizi o düzgün hesab etmirdi, həmçinin İran Nazirliyi və bizim Təbrizdəki konsulumuz da hesab edirdilər ki, bu bizim yeni vətəndaşlara öz mülkləri və ailələri ilə birlikdə köçmək hüquqi verir, əgər onlar bunu arzulasalar. Mən onlara traktatı ətraflı izah etmədim, bu haqda təfsilatı ilə bizim konsula yazdım. Təbrizə gəlib çatan zaman ümid edirəm ki, bunu bir dəfə və həmişəlik İran nazirinə izah edim. Əsas odur ki, mən Mirzə Cəfərin bundan son-

ra rezident sifəti ilə İrəvana gəlməsinin qarşısını aldım. Rezident kimi o, öz sarayında da akreditə olmamışdı, bizimkilər tərəfindən tanınmırdı və Sizin yazılı icazəniz yox idi. Bir xeyli izah etdikdən sonra nəhayət, o mənim sübutlarımın düzgünlüyünə inandı və sabah səhər yola çıxır.

Hər iki tərəfdən indiyə qədər səhv izah edilən Türkmənçay müqaviləsinin üç maddəsi ilə bağlı öz fikrimi Sizə bildirməyi artıq hesab etmirəm.(...) Əgər siz Tiflis hərbi qubernatoruna və İrəvan, Qarabağ, Talış və digər sərhəd rəislərinə eyni məsələ üzərində müxtəlif şərhlər edilməməsini göstəriş versəniz, onda bu bizim vətəndaşlarda köçmə həvəsinin qarşısını alar.

1. XII maddədə göstərilir ki, Arazın hər iki tərəfində mülkə malik olan hər iki dövlətin vətəndaşları üç il müddət ərzində bu mülkləri sərbəst olaraq sata və ya dəyişdirə bilər. Hər iki dövlətin vətəndaşlarının sərbəst köçməsi haqda heç bir söz yazılmayıb.

2. XIV maddədə xanların, bəylərin və öz nüfuzları ilə həmvətənlərinə ziyanlı təsir edə biləcək dini rəhbərlər və ya mollaların mahiyyəti əqidəsiz və fərarilərin sərhəd yaxınlığında yerləşdirilməsinə icazə verilmirdi. Yerdə qalan əhaliyə gəlincə isə, bir dövlətdən digərinə gedib gəlmək və hökumətlərin icazə verdiyi istədikləri torpaqda yerləşib yaşamaq hüququ var.

Qeyd: Heç yerdə yazılmayıb ki, bir ölkədən digərinə gəlib-getdikləri zaman hökumət onlara bilet və azad buraxılış üçün icazə verməlidir.

3. XV maddədə şah Azərbaycan əhalisini və məmurlarını tamamilə əfv edir. Bundan əlavə əhaliyə və məmurlara müqavilə bağlandığı gündən başlayaraq illik icazə veriləcək ki, onlar öz ailələri ilə azad surətdə İran vilayətlərindən Rusiya vilayətlərinə mal aparıb sata bilsinlər. Daşınmaz əmlaka gəldikdə isə onun satışı üçün 5 il müddət müəyyən edilir.

Qeyd: Gediş-gəliş üçün müəyyən edilmiş birillik, daşınmaz əmlakın satışı üçün isə təyin edilmiş beşillik müddət İrandan Rusiyaya keçənlərin xeyrinədir, nəinki Rusiyadan İrana. Heç yerdə deyilməyib və deyilə bilməz ki, biz öz vətəndaşlarımızı ailələri və malları ilə birlikdə buraxmalıyıq, maddənin tamamı Azərbaycanın işğalına əsaslanır. Onların çoxu bizə xidmət edirdi və bizim ordunun hücumu zamanı əvvəlki hökumətin qanunlarına uyğun olaraq təhqir edilmək və qisas almaq

şübhələri altında uzun müddət qalmaq istəmirdilər.

Buna görə də yeganə üsul traktatı izah etməkdir. Köçürülənlər haqda isə heç yerdə deyilmir ki, onlar Rusiyadan İrana köçərkən Rusiya hökuməti dözməlidir.

Mən hesab edirəm ki, bütün məsələlər üzrə hərəkət etmək üçün Siz bütün sərhəd rəislərinə əmr verməyə icazə versəniz, pis olmaz.

(AKAK. T.7.C. 644)

MÜLKİ MÜŞAVİR QRİBOYEDOVDAN – QRAF PASKEVİÇƏ, 1 OKTYABR 1828-Cİ İL, ARAZ ÇAYINDAN CULFAYA KEÇİD

Naxçıvan vilayətində İrəvandankından da çox səliqəsizlik və erməni köçürülənlərin sıxışdırılmasını gördüm.

Öncəki əhalinin necə kasıb olduğu və bu vilayətin varlı olmadığı Sizə məlumdur. Başqa yerlərə nisbətən burda rastlaşdığım gəlmə ermənilərin vəziyyəti yaxşı idi. Amma tatarların narazılığı yüksək dərəcədə idi. Onların şikayətlərinin ədalətli olub-olmadığını Siz aşağıdakı cədvəldən görə bilərsiniz. Mən qəsdən yeni köçürülənlərlə əvvəlcədən burda yaşayanların ən yüksək nisbətini götürdüm ki, yeni köçürülənlərin həqiqətən də nə qədər yük olduğu haqda fikir söyləmək mümkün olsun. Onlar ümidsizlikdən öz təsərrüfat və əmlaklarını çox asanlıqla tərk edə bilərlər və onda biz nahaq yerə bunu İranın təsiri kimi qəbul edərik, necə ki, bu bir az əvvəl Sədərəklilərin qaçması zamanı baş vermişdi. Mənim polislərdən topladığım məlumata görə onların qaçışı Mirzə Cəfərin burdan keçməsi olub. Halbuki, Mirzə Cəfərin bu hadisə ilə heç bir əlaqəsi yoxdu. İndi mən vilayət rəhbərliyinə başa saldım ki, onları buraxmamalı idilər və traktata əsasən geri qaytarmaq olardı və onlar güclə onları geri qaytarırdılar. Vilayət rəhbərliyi tərcüməçim vasitəsilə onların qaçışının əsas səbəbini mənə izah edirlər: Gürcüstanda olduğu kimi nizamsız idarəetmə və ağır biyar.

Sonra mən cürət edib bu məsələ üzrə öz fikrimi ətraflı olaraq Sizə söyləyərəm. İndi isə Naxçıvan vilayətindəki yeni köçürülən ermənilərə qayıdıram.

(Cədvələ bax)

YENİ KÖÇÜRÜLƏN ERMƏNİ AİLƏLƏRİNİN SAYI İLƏ KÖHNƏ SAKİNLƏRİN – ERMƏNİ VƏ MÜSƏLMAN AİLƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ (TUTUŞDURULMASI)

	Köhnə sakin ermənilər	Köhnə sakin müsəlmanlar	Yeni köçürülmüş ermənilər
Nehrəm	–	193	93
Qaraxanbəyli	–	81	26
Tunbul	9	62	12
Yarımca	13	78	4
Kuntana	–	113	37
Qazançı	10	58	–
Bənəniyar	–	72	12
Ərəzin	–	61	7
Güznüt	–	75	19
Naxçıvan vilayəti üzrə	290	1632	943
Naxçıvan şəhərində	114	392	285

Bu uyğunsuzluq bütün anlayışları üstələyir. Cəsarətlə demək olar ki, bundan sonra nə xəzinə əhalidən, nə əhali öz mülkündən heç nə ala bilməyəcək, hökumət isə öhdəlik götürüb ki, 6 ay müddətində gəlmələrdən heç nə almasın.

Mənə elə gəlir ki, müvəqqəti olsa da əvvəlki mülkədarların haqlı əndişələrini sakitləşdirmək üçün iki tədbir görmək vacibdir.

1. Tez bir zamanda burdan yeni gələnlərin bir hissəsini, heç olmasa 500-dən az olmayaraq, məhz Dərələyəzə göndərmək lazımdı. Onlar üçün orda yer hazırdı, köhnə sakinlər qışa qədər ev tikməyi boyunlarına götürürlər. Vilayət İdarəsi Komitəsində gördüyüm smetaya görə onları yeni yerlərdə yerli sakinlərin sayı onların sayından ikiqat və ya üçqat çox olduğu kəndlərdə 20-20, 15-15 yerləşdirmək olar. Bundan başqa yeni gələn ailələrdən 200-ə yaxını sıxlıq ucbatından özləri xahiş edirlər ki, onları sonralar burdan köçürsünlər. Yerdə qalanların, 500 ailə də əlavə olaraq, yarısını razı salmaq olar, inad edənləri isə məcbur etmək lazımdır. 100 və ya 150 ailənin narahatlığı yeni əldə edilmiş və sərhəddə malik olan bütün vila-

yətin narahatlığından daha çox narazılığına səbəb olur. Biz nəhayət ki, sizə də məlum olan, öz vətəndaşlarına ögey münasibət bəsləmiş əvvəlki İran İdarəsi haqda nəfəs almağa məcbur edərik. Mən hətta qorxuram ki, bütün bunlar heç də bizim xeyrimizə olmayan formada xarici qəzetlərdə işıqlandırılsın.



Araz çayı üzərində körpü (Xudafərin körpüsü)

Bizim tərəfə keçməyə məcbur etdiklərimizin və digərlərinin, rəhbərliyin uzaqgörən olmaması ucbatından bizdən gedəcək yüzlərlə və minlərlə adamın da həmçinin vəziyyəti şübhəlidi. İrəvanda olarkən kn. Arqutinski Naxçıvandan Dərələyəzə bəzi ailələrin yenidən köçürülməsinə var gücü ilə qarşı çıxırdı. Mən onda gördüm ki, ona tapşırılmış yeni gəlmələri o həddindən artıq müdafiə edir və bunu etmək onun üçün şərəfdi, eyni zamanda burdakı ondan asılı olan da ştabs-kapitan Neverovcki onun tərəfindədi. Hər bir vicdanlı rəis ona verilmiş əmri yerinə yetirmək üçün sinəsini qabağa verməlidi, lakin baş komandanlar müəyyən edir ki, ümumi işin xatirinə hansı güzəştlərə getmək olar. **Əgər Siz tezliklə yuxarıda qeyd olunan yeni gəlmiş 500 erməni ailəsini Dərələyəz mahalına köçürmək haqda sərəncam versəniz, onda Naxçıvan vilayətinə yaxşılıq etmiş olarsınız**. (seçmə bizimdir-*R.İ*)

2. Bu müsəlman vilayətində, əhali dini bir kilsəyə mənsub olan dindarlara oxşayır-yaşayır, işləyir və dolanır, hamısı bir

nəfər kimi. Hökumətə bu şəxslərdən bir neçəsini maaşla işə götürmək lazımdır. Bu Sizin iradənizdədi, amma biz bunu edə bilmərik və bizimlə heç kim razı deyil. Bəylərin və xanların əlindən hakimiyyəti alırıq, əvəzində xalqa qarmaqarışıq yad qanunlar veririk. Bizə inanıb vətənlərini tərk edənləri, böyük xidmət göstərənləri dilənçi kimi göstəririk. Ona görə də onları misal göstərərək bizə inanmırlar. Beləliklə də, Azərbaycana daxil olarkən ilk olaraq bizim tərəfimizə keçən Mərənd xanın bədbəxt qardaşları bizdə hədsiz dərəcədə olan boş torpaqlardan onlar üçün ayrılmasına və hər hansı bir pul yardımı almağa nail ola bilmədilər .

Mən təcili Naxçıvana gələndə bəylər, sultanlar məni sıx dövrəyə aldı və narazılıqlarını bildirdilər. Heç nə ilə bəhanə etmək mümkün deyildi. Boş sözlər sərf etməyin faydası yox idi, çünki onlar xüsusi ehtiyac içində idilər. Onlar iş və təcili yardım istəyirlər. Mən hərçənd ki, onlara izah etdim ki, mən daxildə heç bir səlahiyyətə malik deyiləm, yad ölkəyə göndərilmiş səyahət edən bir məmuram, amma Sizə məlumdur ki, burada, Asiyada yeni bir əhəmiyyətli şəxsi, onların bütün xahişlərini yerinə yetirə biləcək bir şəxsi gözləyirlər. Mən ən yaxşı üsul kimi Nəzərəli xan və Şıxəli bəyin (kor Kalbalı xanın uşaqları) tərəfini tutdum, onunla səmimi və şərəfli davrandım sizin adınızdan onlara dedim ki, əhali arasında inam və bağlılığı genişləndirmək bir vəzifə kimi sizin çiyninizdədir; indiki şəraitdə köçürülənlərə qarşı münasibət qeyri-adidir və tezliklə düzələcək. Təsəvvür edə bilməzsiniz ki, onlara xüsusi diqqət yetirdiyimə görə məndən necə razı qaldılar. Mən bundan sonra dəqiq gördüm ki, onlar vicdanla hərəkət edirlər, çünki həmin bəylər və mülkədarların sifətlərində əvvəlki narazılıqları görmədim.

Yenə də təkrar edirəm ki, burdakı əhalini başqa cür başa düşmək olmaz, qədimdən bəri əsl-nəcabətli rəislərin və mömin şəxslərin köməyi ilə rütbələr almış, hörmət və etibar qazanmışlar. Bu yaz İrəvandan keçərkən mən general Krasilnikov tərəfindən gizirlərin gülünc şəkildə qazilərə göndərilməsi haqda Sizə yazdım. İndi də eyni qaydadır. Əhali mollaların arxasınca gedir, bizim şəhər və vilayət hakimləri isə yerli adətlərə uyğunlaşmaq istəmirlər və nizamnaməyə uyğun bunu etməyə cəsarət etmirlər, uzun–uzadı mühakimə edirlər və imzaladıqları qərarlara əhali inamına görə yox, sanki zorla tabe olur. Bu nə tələskənlikdi ki, biz tərəfdən yeni vətəndaşların öz aralarındakı ən xırda mənasız mübahisələrə müdaxilə edirik? Müsəlman

hakimlərin qərəzliyindənmi qorxuruq? Amma onların hakimiyyəti seçkiyə və xalqın etibarına söykənir. Əgər qazı qərəzlidirsə, onda ondan əl çəkib başqasının yanına gedirlər, o da çörəksiz qalır. Hər şeydən əvvəl onların qərarlarına dünyəvi hökmdarların- sərdar, hakim və.s qorxusu təsir edə bilərdi. Bizdə isə belə bir şey ola bilməz. Harda bir iddiaçı xristian varsa, orda Şəriətə görə hər iki inancdan 6 nəfərə kimi şahid məhkəməyə buraxılır. Bu şəraitdə hökumətdən vəkil də çağırmaq olar. Siz, məsələdən uzaqlaşdığım üçün bağışlayın, mən köhnə adətimə görə necə fikirləşirəmsə, Sizə də eləcə qeyri-rəsmi yazıram.

Kəngərli ailəsinin böyüyü kimi Ehsan xan və Şıxəli bəydən böyük olan Nəzərəli xanı sizə təqdim etmək istəyirəm. Ona illik 800 tümən və ya İmperatorun bizim tərəfə keçənlər üçün təyin etdiyin mükafatın məbləğindən 1100 çervon maaş təyin edilməsinin bu vilayətdə və müsəlman əyalətlərində və İranla sərhəd yerlərdə bizim hökumət üçün faydalı təsiri olardı.

Bu, adətən həmişə etdiyimiz kimi deyil: nə istədiklərini soruşmadan veririk. Mən yəqin bilirəm ki, bu, onun maksimum arzusudu. Həm də o qocadı, çox yaşamayacaq, amma o bizə görə türmədə çox yatıb.



Qədim Naxçıvanda
buz anbarı (buzxana)

Pis olmazdı əgər, hörmətli cənab, Şıxəli və Ehsan bəyə bir-iki söz yazsanız və ya heç olmasa Şıxəli bəyə. Hərdən sizdən gələn xələt şərəfli rus məmuruna güclü təsir edir, nəinki ordunun mövcudluğu, ciddi cərimə, andiçmə və digər məcburedici vasitələr.

(Qriboyedov A.S. PCC pod.red. İ.A. Şlyapkin. Shb.,1889.T.1.C-283-287)

ERMƏNİLƏRİN MÜSƏLMAN TORPAQLARINA KÖÇÜRÜLMƏSİ ÇAĞRILMAMIŞ GƏLMƏLƏRƏ QARŞI DÜŞMƏNÇİLİK YARATDI

Köçürülən ermənilərlə yerli əhali olan azərbaycanlılar arasındakı münasibət o həddə çatdı ki, yerli əhali öz doğma torpaqlarını tərk edib fars hakimiyyəti altında yaşamağı üstün tutduqları barədə danışmağa başladılar.

Təbii ki, söz bütün azərbaycanlılardan getmir, lakin qanunsuz olaraq öz torpaqlarını itirmişdilər, yəni erməni köçmənlərin xeyrinə onlardan alınmışdı. Rusiyanın sərhədlərini tərk etmək niyyətində idilər. Azərbaycanlıların acı həvəsi (şəraiti) İrandan gələn şaiyələrə əsas verdi. Naxçıvan və İrəvan əyalətinin İranın hakimiyyəti altına qaytarılmasını razılaşdırmaq üçün Abbas Mirzə guya ki, Sankt-Peterburqa İmperatorun yanına getməyə hazırlaşır.

Rus hakimiyyəti nümayəndələri köçürülmə siyasətindəki neqativ halları müdafiə edərək müsəlman əhalisinin gözlənilməz reaksiyasının günahını onun liderlərində axtarmağa başladı. Ölmüş kor Kalbalı xan Naxçıvanskinin uşaqları günahkar çıxdı. Onlar şöhrətli əcdadlarının nəsihətinə görə tabeliklərində olan əhalinin maraqlarını qoruyurdular.

ŞTABS-KAPİTAN KUDAŞEVDƏN – QRAF PASKEVİÇƏ, 26 SENTYABR 1828-Cİ İL, NAXÇIVAN

Mən İrəvan şəhərində olduğu kimi İrəvan əyalətinin kəndlərində həyəcan gördüm. Hesab edirəm ki, bu həmçinin bizim hökumətin xeyrinə olmayan, deyilənlərə görə Abbas Mirzə tərəfindən göndərilmiş Mirzə Cəfər Əhməd xan və Haqverdi bəyin yoldaşları tərəfindən xəbərlərin yayılması nəticəsində baş verir. Onlar bəyləri və xanları öz tərəflərinə çəkməyə çalışırlar, əhali isə İran tərəfinə keçməyə çox da həvəslə razılaşmırlar.(...) Bundan əlavə əhalinin mənə dediyinə görə Araz çayı boyunca kəndlərin çoxu İrana qaçmış əhali tərəfindən boşaldılıb.

Naxçıvana gələrkən mən İdarədə nümunəvi qayda-qanun

gördüm. Hərçənd ki, bu qayda-qanun bəzi münasibətlərdə yoxdu və müasir qurğu çatışmır, bu da tez bir zamanda mümkün deyil. Naxçıvan əyalətinin əhalisi arasında (...) əgər narazılıq varsa, bu köçürülənlərin sıxlığı nəticəsində baş verir və onlardan da sərbaz seçirlər. Bəylər və xanlar arasında Rus hakimiyyəti altında onların gələcək vəziyyəti haqda bəzi zərərli iftiralarla dolu İrana köçürülmə barədə şayiələr var ki, guya Abbas Mirzə İmperatorun yanına gedəndə İrəvan və Naxçıvan əyalətləri İrana qaytarılacaq.

Naxçıvan polismeystri Eynalı sultanın təsdiq etdiyinə görə bu şayiələri Şıxəli bəy Ordubadlı Abbas Mirzə və onun saray adamları ilə yazışmaları vasitəsi ilə yayır. Şıxəli bəy özü isə gələcəkdə Rus hakimiyyətindən faydalı heç bir şey görmədiyi üçün gizlicə olaraq köçmək arzusunu aləmə yayır. Lakin bu şayiə Naxçıvan əyalətinin əhalisinə təsir göstərmir. Mən Xoydan qayıdanadək Eynalı bəyin bunu ətraflı araşdırmasını istədim.

Bundan başqa əlavə etməyi zəruri hesab edirəm ki, əgər Siz tez bir zamanda tatar və ya ermənilərin Dərələyəzə yerləşməsinə və İrandan bizim vilayətə köçürülənlərin dayandırılmasına icazə verməsəniz, yerli əhali qaçmağa məcbur olacaq, Ehsan xan da bununla razılaşır. Çünki tatarlar və köçürülən ermənilər arasında böyük bir düşmənçilik var, hətta o dərəcədədir ki, köçürülənlər tatarları öyrədilmiş hesab edərək onları sıxışdırırlar, şikayət etməyi düşünürlər və Ehsan xanı bu vasitə ilə vəzifəsindən azad etməyə ümid edirlər.

Köçürülənlərə yardım üçün ayrılan pullar elə görünür ki, tamamilə ədalətli verilir.

Ehsan xan məndən xahiş edir Sizin nəzərinizə çatdırım ki, Cəhri və Nehrəm kəndlərində çoxdan yaşayan tatarları saxlamaq lazımdı, çünki tatarlar çətin ki, Dərələyəzə köçməyi qəti istəyirlər.

Naxçıvandan Dərələyəzə qədər kəndlərdəki çoxdan yaşayanlar mənə şikayət etdilər ki, torpaq sahibləri və Ehsan xan çəltik əkirlər və bununla da bu torpaqları suvarmaq üçün sakinlərin suyunu kəsirlər və bu barədə qərar çıxarmağı xahiş edirlər.

(AKAK. T.7.C. 646)

Yeni rus torpaqlarında 25 il əvvəl İrana qaçmış Nijeqorod Draqun alayının vaxtmistri **Samson Makintsev**, hazırda İran ordusunun general–leytenantı **Samson xan** (1780-1853) və

şahzadə Abbas Mirzənin səlahiyyətli nümayəndəsi yenidən peyda oldu. Rus ordusunda yenidən Samson xanın bayrağı altında əsgərlərin qaçmaq imkanı olmasından ehtiyatlanmağa başladılar.

ŞTABS-KAPİTAN KNYAZ KUDAŞEVDƏN – QRAF PASKEVİÇƏ, 5 OKTYABR, 1828-Cİ İL, NAXÇIVAN VƏ YENİ RUSİYA ƏYALƏTLƏRİNDƏ SƏLİQƏ-SAHMAN VƏ İĞTİŞAŞ HAQQINDA

Özümə şərəf bilirəm sizə məlumat verim ki, Xoy bölüyündə səliqə-sahman qaydasındadı və əsgərlər gümrah və rahatdırlar. Əsgərlərin bu otryaddan qaçmasının səbəbi odur ki, keçmiş Nijeqorod Draqun alayının vaxtmistri və indi böyük etibarla Abbas Mirzənin yanında olan Samson rus qaçqın əsgərlərinin sayının artmasına çalışaraq əsgərləri ələ almaq üçün adam göndərirdi və onlara ezamiyyətdə olanda şərab içizdirirdi. Bizim əsgərlər isə Abbas Mirzənin general paqonu daşıyan Samsona necə etibar etdiyini və onun yanına qaçanların mənfəətini bilərək uyğun şərtlərlə bununla razılaşırdılar. Lakin bir müddət sonra qaçışların arası kəsildi.(...) Hələ də Xoy əyalətində yaşayan və bizim torpaqlara köçmək arzusunda olan ermənilər polkovnik Lazerevin Xoya gəldiyi zaman artıq pulla maddi yardım aldılar və bizim ordu çıxarkən onlar da öz yaşayış yerlərini tərk etmək istəyirlər. Xoya gedərkən mən yolda köçürülənlər tərəfindən kirayə edilmiş və bizim vilayətə çatdırmaq üçün çörəklə dolu yüklərə rast gəldim.

Naxçıvanda, İrəvanda və Ordubadda tatarlar arasında heç bir mənası olmayan nə isə gizli bir ədavət hiss etdim: bu kətxudalara aiddir, çünki onlar xalqı idarə edir, amma qara camaatda, mən hesab edirəm ki, bu öz kətxudalarının qəzəbindən qorxduqlarına görə baş verir və ona görədir ki, onlar öz hüquqlarını bilmirlər və öz incikliklərinə dözərək şikayət etmirlər.

Tiflis alayından onun yanına göndərilmiş və onsuz təkbaşına heç bir qərar qəbul etməyən və təlimat verməyən düzgün bir adam olan pristav- kapitan Rostavanov vasitəsilə Şıxəli bəy Ordubadlı öz hüquqlarının məhdudlaşdırılmasından şikayət edərək Ordubaddan Naxçıvana köçdü və digər kətxudaların fikirlərini nəzərə alaraq knyaz Çavçavadzeyə

xahişnamə göndərdi ki, Şıxəli bəy Ordubadda tək hökmdar olaraq qalsın. Bütün kasıb təbəqə Şıxəli bəyin onun qərarları və təlimatlarından narazı idi. Ona görə də xahişə onun yanına yox, kapitan Rostovanovun yanına gedirdilər. Mənə elə gəlir ki, bu da onun inciməsinə səbəb olub.

Sizə məlumat verməyi özümə şərəf bilirəm ki, Naxçıvandan gələn şayiələr, Naxçıvan polismeystri Eynalı sultanın da təsdiq etdiyi kimi dəqiq olaraq Şıxəli bəydən gəlir. Mirzə Məsud Naxçıvanda olan zaman Şıxəli bəy onunla gizli yazışmışdı. Ancaq bu şayiələr boş şeydir və heç bir təsiri yoxdur.

(AKAK. T.7.C. 649)

Knyaz Kudaşev kor Kalbalı xan Naxçıvanskinin oğlu Şıxəli bəyə nahaq yerə qara yaxırdı. İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya birləşdirməyi sürətləndirmək üçün o, bir çox riskli və qəhrəmancasına hərəkətlər etdi.

Yeri gəlmişkən, hələ Şıxəli bəyi 20 il əvvəl Qafqazdakı baş komandan qr. **Qudoviç İvan Vasileviş** (1741-1820) yüksək qiymətləndirmişdi.

QAFQAZDAKI BAŞ KOMANDAN QR.QUDOVİÇDƏN – ŞIXƏLİ BƏY NAXÇIVANSKİYƏ, 27 NOYABR, 1808-Cİ İL



General
İ.V.Qudovic

...Mən artıq sizin Ümum Rusiya İmperiyasına qeyrətiniz və həqiqi bağlılığınız haqda xəbərdaram. İndi sizin İmperatora yeni təcrübə ilə faydalı xidmət etməyə hazır oduğunuzu və Naxçıvan əhalisinin öz yerlərinə gətirilməsində general-mayor Nilsona göstərdiyiniz köməyi və onunla birlikdə hazırki yürüşdə göstərdiyiniz qeyrəti görərək sizə təşəkkür etmək istəyirəm və sizi inandırıram ki, mən sizin bu səyinizi İmperatora çatdıracam .....

(AKAK. T.3.C. 267)

Şıxəli bəy həmişə vicdanlı oldu, Rusiyaya sadiq qaldı və onun saflığına görə Qafqazdakı Baş komandan general-feldmarşal İ.F.Paskeviç zamin durmağa hazır idi. Ona görə də heç kim Şıxəli bəyi ləkələməyə nail ola bilməz.

Naxçıvan xanlarının sülaləsində kor Kalbalı xandan başlayaraq satqınçılıq olmamışdı, bu sonrakı nəsillərdə də olmayacaq.
Erməni fitnəsi bütün cəhdlərinə baxmayaraq Naxçıvan xanlarının şərəfli sülaləsinin şöhrətinə xələl gətirə bilməyəcək.

DİPLOMAT QRİBOYEDOVUN QƏLƏBƏSİ VƏ FACİƏSİ. BU FACİƏDƏ BAŞ ROLLARI ERMƏNİLƏR İFA ETMİŞDİR

QRİBOYEDOV HAQDA SÖZ

Görkəmli rus insanı A.S.Qriboyedova onlarla, bəlkə də yüzlərlə tədqiqat, bədii və sənədli əsər həsr olunub. Bu əsərlərdə o, görkəmli bir diplomat və çoxşaxəli yaradıcılığa malik bir şəxsiyyət kimi təqdim olunur. Onun seçilmiş əsərləri və tam külliyatı dəfələrlə nəşr olunub. Nəzmlə yazdığı "Ağıldan bəla" komediyası isə indi də məktəblərdə tədris olunur və yaşlarından asılı olmayaraq bütün insanların məhəbbətini qazanıb. Bizim məqsədimiz əbədiyyətə qovuşmuş Qriboyedovu populyarlaşdırmağı davam etdirmək deyil. Oxuculara A.S.Qriboyedovun bioqrafiyasından bəzi hadisələri xatırladaraq, biz onu oçerklərimizin tamhüquqlu personajı kimi Qafqaz və İrandakı fəaliyyəti haqda az bilinən faktlarla birlikdə təqdim edirik .

Görkəmli rus dramaturqu, şair, bəstəkar, pianoçu, diplomat, həqiqi Mülki Müşavir Aleksandr Sergeyeviç Qriboyedov 4 yanvar 1795-ci ildə Moskvada anadan olub. Hələ uşaq yaşlarında ikən o, qeyri-adi istedada malik idi. Öz yaşıdlarından fərqli olaraq o, biliyin yüksək zirvələrini çox asanlıqla fəth etmişdi. Yeddi yaşında ikən (1802) Saşanı Moskva Universitetinin əsilzadə pansionuna verirlər, burada o, təhsildə əldə etdiyi uğurlara görə prizlə mükafatlandırılır, 1806-cı il

yanvarın 30-da, on bir yaşı təzəcə tamam olanda isə Aleksandr Qriboyedov Moskva Universitetinin fəlsəfə fakültəsinin filologiya şöbəsinə qəbul edilir. Universiteti üç ilə əla qiymətlərlə bitirdikdən sonra on dörd yaşlı Qriboyedov filologiya elmləri namizədi elmi dərəcəsini alır və təhsilini etika-hüquq şöbəsində davam etdirir, oranı da əla qiymətlərlə bitirir. 1812-ci ildə hüquq elmləri namizədi elmi dərəcəsinə layiq görülür. Təhsilini Moskva Universitetinin fizika-riyaziyyat fakültəsində davam etdirən Qriboyedov elə həmin 1812-ci ildə doktorluq elmi dərəcəsini müdafiə etməyə hazır idi. 17 yaşında dünyanın ən iri universitetlərindən birinin üç fakültəsini bitirmək yalnız dahilərə nəsib bir iş idi və əgər Napoleon Bonaparta qarşı Vətən müharibəsi olmasaydı, bu qeyri-adi istedada malik yeniyetmənin taleyinin necə olacağını söyləmək çox çətindir.



Kornet Aleksandr Qriboyedov

1812-ci ildə düşmən Rusiyanın sərhədlərinə yaxınlaşanda Qriboyedov könüllü şəkildə yenicə təşkil olunmağa başlayan Moskva qusar polkuna daxil oldu. Fransızlar od-alov içərisində yanan Moskvaya girdikdən sonra hələ tam formalaşmamış polk Kazana köçürüldü, 1812-ci ilin sonlarında fransızlar geri çəkildikdən sonra isə o, darmadağın edilmiş İrkutsk draqun polku ilə birləşmək üçün Brest-Litovska göndərildi – Qriboyedov məhz burda qəti İrkutsk qusar polkuna təyinatını aldı. Lakin həyat yolu onu hərbi xidmətdən yavaş-yavaş uzaqlaşdırırdı. Müharibədə iştirak etmək ona nəsib olmamışdı. Xəstəliyi ucbatından polkun yenidən təşkil olunmasında iştirak edə bilməmişdi, bu vaxt Vladimirdə müalicə olunurdu, ancaq sonra polka qayıtdı və 1815-ci ilədək burada kornet rütbəsində xidmət etdi. Bu

müddət ərzində boş dayanmamış, qələmlə işləməyə çalışmışdı. O, hərbi mövzularda oçerklər yazır, fransız komediyalarının tərcüməsi ilə məşğul olurdu. 1816-cı ildə isə özünün ölməz "Ağıldan bəla" komediyasını yazmağa başlamışdı.

Bu qədər parlaq təhsilə malik olan Qriboyedov 1817-ci ildə Peterburqda Xarici İşlər Kollegiyasında işə götürülür. Onun diplomatik karyerası da məhz bu vaxtdan başlayır. Lakin Qriboyedovun diplomatik xidmətinin ilk ayları işdə qazanılan uğurlarla deyil, etik normaları pozması ilə xarakterizə edilir. Məsələn, bala dəvət edilmədiyi üçün bərk inciyən Qriboyedov oraya at belində gələ bilərdi. Diplomatik məmur Qriboyedovun xidmət dəftərçəsində dövlət qulluqçusunu rüsvay edən damğa peyda olmuşdu.

1817-ci il noyabrın 24-də Sankt-Peterburqda, Volokovo düzündə qraf Aleksandr Zavadski ilə zabit-kavalerqard Vasili Şeremetyev arasında duel oldu. Buna səbəb nə idi? Fransada belə hallarda bu suala "Qadını axtarın!" deyə cavab verirlər. Bu qadın 18 yaşlı artıq tanınmış balerina Avdotya İstomina idi. Vasili Şeremetyevin sevgilisi olan İstomina onunla dalaşdıqdan sonra Zavadskinin evinə qonaq gedir. Qrafın evinə qonaq getmək ideyası tamamilə Aleksandr Qriboyedova məxsus olub. Burda pis nə var ki? Bir neçə gündən sonra İstomina və Şeremetyev öz küsülülüklərini unuda və dostluqlarını davam etdirə bilərdilər – ancaq dedi-qodular olmasaydı. Şeremetyevin yaxın dostlarından biri, Yakuboviç aydınlaşdırır ki, İstomina qraf Zavadskinin evində düz iki gün, bəlkə iki gün, iki gecə qalıb. O vaxtlar gecə haqqında danışmaq ədəb-ərkana zidd idi, ancaq hər yerdə deyirdilər ki, Aleksandr Qriboyedov bu ədəbsiz əhvalatın iştirakçısı olub.

Kavalerqard Şeremetyevin şərəfi görünməmiş dərəcədə təhqir olunmuşdu, bu, duel tələb edirdi və qraf Zavadski duelə çağırıldı. Şeremetyevin sekundantı kornet Aleksandr Yakuboviç (gələcək dekabrist), Zavadskinin sekundantı isə xarici işlər kollegiyasının məmuru Aleksandr Qriboyedov

olur. Dueldə Şeremetyev ağır yaralanır və sabahı gün vəfat edir. İstintaq kornet Şeremetyevin ölümünə "vasitəçi" Qriboyedovun səbəb olduğunu bildirdi, qəzəblənmiş kornet Yakuboviç isə öz dostunun ölümünə görə Qriboyedovdan intiqam almaq qərarına gəlir. İkinci duel, ancaq bu dəfə sekundantlar arasında qaçılmaz idi. Yakoviç Qriboyedovu hədələyirdi ki, fortepiano arxasında əyləşmək məmnuniyyətindən məhrum etmək üçün onu əlindən vuracaqdır. Ancaq Yakuboviç Qriboyedovdan intiqam almağa macal tapmır: onu Qafqaza göndərməklə cəzalandırdılar. Lakin onun bəxtindən, bir il sonra Aleksandr Qriboyedov da orda olacaqdı.

Yermolovun İranda səfirliyindən sonra onun təşəbbüsü ilə bu ölkədə Rusiya missiyasının təşkil edilməsi haqqında qərar qəbul olundu. A.S.Qriboyedov artıq bu vaxta qədər Xarici İşlər Nazirliyinin təhsilli və perspektivli məmuru kimi qraf Nesselrodenin diqqətini cəlb etmişdi. 1813-cü il aprelin 13-də Qriboyedov qrafın Təbrizdə rus missiyasının katibi vəzifəsini tutmaq təklifini qəbul etdi.

QRAF NESSELRODEDƏN – GENERAL YERMOLOVA
16 İYUL 1818-Cİ İL

Hökmdar İmperator İranda işlər vəkili vəzifəsinin təsis edilməsini lazımlı qəbul edərək, Mazaroviçin kollej müşaviri rütbəsində ora göndərilməsini, tərcüməçi Qriboyedovun onun katibi, aktuarius Amburgerin dəftərxana qulluqçusu müəyyən edilməsini buyurmuşdur.

(AKAK, c. 6, 2-ci hissə, səh. 193)

1818-ci ilin payızında A.S.Qriboyedov Tiflisə gəldi və Yakuboviçin onunla atışmaq arzusu gerçəkliyə çevrildi. Duel 1818-ci il oktyabrın 23-də Tiflis yaxınlığında baş tutdu və qurbansız ötüşdü. Qriboyedovun atəşi hədəfdən yan keçdi, Yakuboviç isə rəqibini sol əlindən vurdu və nəticədə onun çeçələ barmağı sıradan çıxdı. Qriboyedovun virtuoz pianoçu karyerası bununla da başa çatdı.

1818-ci ildən başlayaraq Qriboyedovun diplomatik fəaliyyəti yalnız Qafqaz və İranla bağlı olmuşdur. Ancaq A.S.Qriboyedovun dövlətə xəyanət etməsi ilə bağlı yaranan şübhə gənc diplomatın uğurlu fəaliyyətinə kölgə salırdı. Bəs əslində nə baş vermişdi?

Rusiya Dövlət Hərb Tarixi Arxivində kollej asessoru A.S.Qriboyedov haqqında Hərbi Nazirliyin Baş qərargahının açdığı cinayət işi saxlanılır; biz həmin işdən istintaq materialları əsasında dövlət qulluqçusu üçün son dərəcə təhlükəli olan bu şübhənin az bilinən detallarını öyrəndik.



Böyük knyaz
Konstantin Nikolayeviç

1825-ci il noyabrın 19-da imperator Aleksandr Pavloviç Taqanroqda vəfat etmişdi. Hakimiyyətdə səltənət fasiləsi başlamışdı, böyük knyaz Konstantin Pavloviç bu dövrdə iki dəfə kiçik qardaşı Nikolay Pavloviçin xeyrinə Rusiya taxt-tacından imtina etdiyini bildirmiş və hətta ona and da içmişdi. Lakin ayrı-ayrı qvardiya hissələri buna üstüörtülü şəkildə dövlət çevrilişinə cəhd kimi baxırdı. 1825-ci il dekabrın 14-də – imperator Nikolay Pavloviçin andiçmə mərasiminin təyin edildiyi gündə qiyamçı qoşunlar Peterburqda Senat meydanına çıxdılar; bu hadisə tarixə dekabristlərin üsyanı kimi daxil oldu.

Nikolay Pavloviçin şəxsi rəhbərliyi altında bu üsyan silahlı yolla yatırıldı və elə həmin gün Rusiya taxtına çıxan imperator I Nikolay istintaq komissiyası təyin etdi. A.S.Qriboyedovun adı bədniyyətli cəmiyyətlər haqqında istintaq aparan Komitəyə verilmiş bir gizli cəmiyyətin üzvlərinin siyahısına düşmüşdü. Artıq 1826-cı il yanvarın 2-də Peterburqdan Qroznıya Feldyegerlə məktub göndərilmişdi, həmin məktubda deyilirdi ki, *"sizdə xidmət edən Qriboyedovu ona məx-*

sus bütün sənədlərlə bir yerdə təcili həbs edib, həm sənədləri, həm də onun özünü etibarlı müşayiət altında Əlahəzrət İmperatora göndərin"

(РГВИА, f. 36, s. 4, q. 112, v. 2).

Yanvarın 22-də Qriboyedov Peterburqa gətirildi. Biz aparılan istintaqın çoxsaylı materialları arasında A.S.Qriboyedovun hökmdar imperatora müraciətini aşkar etdik, onu cüzi ixtisarla aşağıda təqdim edirik.

İMPERATOR NİKOLAY PAVLOVİÇƏ
15 FEVRAL 1826-CI İL, S.-PETERBURQ

Çox mərhəmətli Hökmdar!

Əsassız şübhəyə görə, böyük ədalətsizlik gücünə məni dostlarımdan, sevimli Rəisimdən, Suncadakı Qroznı qalasından ayıraraq, ən sərt şaxtada poçt arabasında üç min verst yol qət edərək zorla bura gətiriblər, burda möhkəm qarovul altında saxlayırlar (...)

Hökmdar! Mən heç bir günah işləməmişəm. Qafqazdan bura gətirilərkən yolboyu adımı səylə gizlətməyə çalışmışam ki, mənim bu kədərli vəziyyətim barədə xəbər anama çatmasın, çünki o, bunu eşitsə, ağlını itirə bilər (...)

Mərhəmət göstərib mənə azadlıq bəxş edin, mən ondan məhrum edilməyə layiq heç bir hərəkət etməmişəm, yaxud da öz ittihamçılarımla üzbəüz dayanmaq üçün məni gizli Komitəyə göndərin ki, mən onların yalan və böhtanlarını ifşa edə bilim.

Siz Əlahəzrət İmperatorun sədaqətli təbəəsi Aleksandr Qriboyedov.

(Грибоедов А.С. ПСС. СПб., 1917, с. 3, səh. 159)

Beşaylıq istintaqdan sonra kollej asessoru A.S.Qriboyedovun "bədniyyətli cəmiyyət"lə heç bir əlaqəsinin olmadığı təsbit edildi və bu haqsız təsirə görə ondan üzr istənildi. Yüksək iradəyə uyğun olaraq Qriboyedov kollej müşaviri rütbəsinə yüksəldildi və 1828-ci il iyunun 10-da ona 250 əşrəfi məbləğində pul mükafatı verildi (РГВИА, f. 36, s. 4, q. 112, v. 13).

A.S.Qriboyedovun Qafqazdakı uğurlu diplomatik fəaliyyəti yaxşı məlumdur. Onun bu fəaliyyətini həm Qafqazın baş komandanı A.P.Yermolov, həm də ondan sonra bu vəzifəyə təyin olunan general İ.F.Paskeviç yüksək qiymətləndirmişdi. İranla 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay sülh müqaviləsinin hazırlanması və bağlanmasında A.S.Qriboyedovun xidmətləri xüsusilə qeyd edilmiş və o, artıq tarixi şəxsiyyətə çevrilmişdi.

Qafqazdakı xidmətlərinin mükafatı olaraq general İ.F.Paskeviç Hökmdar İmperator Nikolay Pavloviçə şəxsən məruzə edərək öz əvəzinə A.S.Qriboyedovu Türkmənçay sülh müqaviləsinin əsil nüsxəsi ilə birlikdə Peterburqa göndərmişdi.

HÖKMDAR İMPERATORUN ÖZÜ TƏRƏFİNDƏN ƏZİZLƏNƏN QRİBOYEDOV İRANA SƏLAHİYYƏTLİ NAZİR TƏYİN EDİLDİ

Peterburq ta əvvəldən təmtəraqlı görüşləri sevirdi, ancaq sakinlər hökmdar imperator Nikolay Pavloviçin taxta çıxdığı gündən bu yana belə bir görüşü xatırlamırdı; özü də bu təmtəraq, sanki heç nə ilə fərqlənməyən, böyük Rusiyanın şərəfi naminə öz rəşadətləri ilə, demək olar ki, tanınmayan, döyüşləri ağır nəticələr doğuran sabiq duelçi, əsassız olsa da, dekabristlərlə əlaqədə şübhələnən gənc bir məmurun şərəfinə təşkil edilmişdi. Rəsmi "Peterburqskiye vedomosti" oxucuları bu barədə belə məlumatlandırmışdı:



Hökmdar İmperator Nikolay Pavloviç

"Dünən, bu ayın 14-də kollej müşaviri Qriboyedov 10/22 fevralda Türkmənçayda İranla bağlanan sülh müqaviləsi ilə gəlib çıxdı. Dərhal Petropavlosk

qalasında 201 topdan atılan yaylım atəşi bu uğurlu, parlaq nəticələrlə dolu hadisə – şanlı hərbi rəşadətlərin və diplomatik danışıqların bəhrəsi barədə Paytaxta xəbər yaydı. Elə həmin gün Qış Sarayının kilsəsində Uca Allaha ibadət mərasimi keçirildi. Həqiqətən də biz bu müharibə qurtardığı, faydalı sülh müqaviləsi ilə başa çatdığı üçün, onun şərtləri gözlənilməz hücum nəticəsində bütün itirdiklərimizə görə bizi mükafatlandırdığı və o hücumun bir daha yenilənməsinin qarşısını aldığı üçün Uca Allaha ürəkdən çox-çox təşəkkür etməliyik!

O müqavilə sayəsində Rusiyanın hüdudlarının genişlənməsi bizim İran Hökuməti ilə sülh münasibətlərimizin tam və arzu olunan şəkildə qorunub saxlanılmasına xidmət edir. Qısa zamanda bu mühüm müqavilənin bütün müddəaları ictimaiyyətə çatdırılacaqdır".

(«С.-Петербургские ведомости», 15 mart, 1828-ci il, № 11)

Rusiyanın paytaxtı təmtəraqlı təntənələrə qərq olmuşdu.

SANKT-PETERBURQ HƏRBİ GENERAL-QUBERNATORU GENERAL-ADYUTANT QOLENIŞEV-KUTUZOVA YÜKSƏK RESKRİPT

Pavel Vasilyeviç!

Rusiya ilə İran arasında əbədi sülh müqaviləsi ötən fevralın 10-cu günündə Türkmənçayda bağlanmış və imzalanmışdır. O müqavilənin gücü sayəsində Rusiya yeni, möhkəm və təhlükəsiz sərhədlər əldə edir, üstəlik dəymiş zərərlər tam ödənilir; İrəvan və Naxçıvan xanlıqlarını öz hökmranlığına birləşdirir, onlar bundan sonra Erməni vilayəti adlanacaqdır.

Beləliklə, qəfil müdaxilə nəticəsində başlayan müharibəyə faydalı və şərəfli sülhlə son qoyulmuşdur.

Həmişə haqlı işə xeyir-dua verən və Bizim silahımızı yeni şöhrətlə şərəfləndirən Allaha minnətdar olaraq, bu xoş xəbəri çatdırmağa tələsir, əmin olduğumuzu bildiririk ki, Bizim sadiq təbəələrimiz Uca Allaha öz təşəkkür dualarını bizimlə birləşdirəcəklər. Bunun ardınca, xüsusi bir Manifestlə müqaviləni dərc edilərək xalqa bildiriləcəkdir. Həmişə hörmət bəsləməkdə davam edərək qalacağam .

Əsli nüsxədə Əlahəzrət İmperatorun öz xətti ilə yazılıb: **Nikolay**

Sankt-Peterburq, 15 mart 1828-ci il.

(«С.-Петербургские ведомости», 15 mart, 1828-ci il, № 11)

Beləliklə birdən-birə, gözlənilmədən gənc diplomat Qriboyedov bütün Rusiyada tanındı. 1828-ci il martın 16-da bundan vəcdə gəlmiş qraf Nesselrode general Paskeviçə bunları xəbər verməyə tələsdi:

> (...) Qriboyedovun gəlişi və onun bizim sülh bağladığımız və imzaladığımız barədə gətirdiyi sübutlar hamının qəlbini sevinclə doldurdu (...) Vətən Qafqaz korpusunun qalib əsgərlərinə, xüsusilə də onların başçısı Paskeviçə öz minnətdarlığını və təşəkkürünü bildirdi (...) Qriboyedov xidmətlərinə uyğun mükafatlandırılıb və mən əminəm ki, o, gələcəkdə də İranla bağlı işlərdə bizə çox faydalı olacaqdır.
>
> *(AKAK, c. 7, səh. 607)*

1828-ci il martın 15-də general Paskeviç qraf tituluna layiq görüldü.

Gənc diplomat Qriboyedovun üstünə isə mükafatlar yağış kimi yağdı.

1828-ci il martın 16-da Qış Sarayında böyük qəbul təşkil olundu, həmin qəbulda Nikolay Pavloviç gənc diplomatı özü şəxsən əzizlədi. Aleksandr Qriboyedov mülki müşavir rütbəsi, II dərəcəli Müqəddəs Anna ordeni və qraf Paskeviçin xahiş etdiyi kimi 4000 çervon məbləğində pulla mükafatlandırıldı. Gənc diplomat məmurun mülki müşavir rütbəsinə layiq görüldüyünü Rusiyanın bütün əsas qəzetləri təcili olaraq xəbər verdilər.

> "İranla sülh müqaviləsi ilə bağlı aparılan danışıqlarda qibtə ediləcək əməyini diqqətə alaraq kollej müşaviri Qriboyedova lütfkarlıqla mülki müşavir rütbəsi bəxş edirik"
>
> *(«Сенатские вeомости», 17 mart 1828-ci il, № 11)*

Müqəddəs Anna ordeni, bir qayda olaraq, ən aşağı, 4-cü dərəcədən başlamaqla verilsə də, A.S.Qriboyedov istisna edilmişdi: ona bu nüfuzlu ordenin 2-ci dərəcəsi bəxş olunmuşdu.

RUSİYA ORDENLƏRİ İDARƏSİNƏ VERİLƏN YÜKSƏK FƏRMAN
14 MART 1828-Cİ İL

Xarici İşlər Nazirliyi idarəsinin İranla sülh bağlanması üçün aparılan danışıqlarda mülki müşavir Qriboyedovun göstərdiyi əla səylər haqqında General-adyutant Paskeviçin təqdimatına əsasən onu lütfkarlıqla 2-ci dərəcəli, almazla bəzədilmiş Müqəddəs Anna ordeni ilə təltif edir, buyururuq ki, bunun üçün ona müəyyən edilmiş fərman verilsin, orden nişanları isə Bizim Kabinetdən çatdırılacaqdır.

(«Сенатские ведомости», 24 mart 1828-ci il, № 12)

Qriboyedovun hökmdar imperator tərəfindən qəbul edildiyi gün İranla müharibəni qurtarması şərəfinə "İran müharibəsi uğrunda" medalı təsis olundu və rusiyalılardan birinci A.S.Qriboyedov bu medalla mükafatlandırıldı. Senator Konstantin Konstantinoviç Rodofinikin təcili Tiflisə, qraf Paskeviçə bu barədə məlumat göndərdi.

MƏXFİ MÜŞAVİR RODOFİNİKİNDƏN – QRAF PASKEVİÇƏ
16 MART 1828-Cİ İL

Əzizimiz Qriboyedovun gəlişi ilə Peterburq ictimaiyyətinin hamılıqla necə böyük sevincə büründüyünü, parlaq cənabınıza təsvir etməyə söz tapa bilmirəm. Hətta uzun müddət xəstə yatan Avstriya səfiri də dünən saraya ibadət mərasiminə gəlmişdi. Düşünürəm ki, düşmənlərin də göz yaşları bol olacaq.

Sizi bəzəyən yeni çələnglər və Yüksək monarxın parlaq xidmətlərinizə verdiyi dəyərin yeni sübutları münasibəti ilə ürəkdən təbrik edirəm.

Qriboyedov Hökmdarın öz tərəfindən rütbə ilə təbrik edilib və elə həmin gün qraf Karl Vasilyeviç Nesselrode saraydan sizin təqdimata uyğun olaraq orden və 4000 əşrəfi məbləğində pul mükafatı barədə fərmanları gətirdi.

(AKAK, c. 7, səh. 607)

Paytaxt təntənələrindən və Qriboyedovun başına yağan "mükafat leysanı"ndan sonra, artıq onun Qafqaza və İrana qayıtmasının vaxtı gəlib çatmışdı, ancaq bu dəfə o, İrana daha

yüksək vəzifədə yollanacaqdı. Hökumət senatı Tehran sarayında səlahiyyətli nazir postu təsis etmişdi və Qriboyedov İsa peyğəmbərin yaşında Əlahəzrət İmperatorun İranda səfirinə çevrildi:



Əlahəzrət İmperatorun
İran səfiri
A.S.Qriboyedov

> "Tehran sarayı nəzdində səlahiyyətli Nazir vəzifəsinə mülki müşavir A.S.Qriboyedov müəyyən edilmiş və bununla əlaqədar ona Yüksək təsdiqlə təlimat verilmişdir (...)
>
> Təbrizdə baş konsul vəzifəsinə saray müşaviri Amburger müəyyən edilmişdir, o, İranda uzun müddət xidmətilə, parlaq cənabınıza artıq tanışdır.
>
> Yüksək qərarla titulyar müşavir Maltsev səlahiyyətli nazirin birinci katibi, protokolçu Adelunq isə ikinci katib müəyyən edilmişdir".
>
> (AKAK, c. 7, səh. 622)

Hökmdar İmperator Nikolay Pavloviç A.S.Qriboyedovun xidmətlərinin Qafqazın baş komandanı general-adyutant İ.F.Paskeviçin ona göstərdiyi böyük etibar və köməyin bilavasitə nəticəsi olduğunu unutmamışdı. Qısa müddətli Rusiya – İran müharibəsində general İ.F.Paskeviçin böyük təşkilatçılıq və hərbi istedadı sayəsində rus qoşunları sarsıdıcı qələbələr qazanmışdı. Hökmdar Nikolay Pavloviçin irəli çəkdiyi bu general həqiqətən çox istedadlı idi.

Rusiya İmperiyası Ordenlər İdarəsi elan etdi ki, 1829-cu il avqustun 14-də Xüsusi Qafqaz Korpusunun baş komandanı qraf Paskeviç 1-ci dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif olunub ("Русский инвалид", 30 avqust 1829-cu il, № 220).

Əlahəzrət İmperator 1829-cu il sentyabrın 22-də əmr imzalamış və hərbi nazirliyin başlıca qəzeti olan "Russkiy

invalid” bu məlumatı yaymışdı:

> “Osmanlı Portosu ilə xoşbəxtliklə başa çatan müharibənin gedişində göstərdikləri unudulmaz igidlikləri və məşhur xidmətləri qeyd etmək naminə 2-ci Ordunun baş komandanı general-adyutant, infanteriya generalı qraf Dibiç-Zabaykalski və Xüsusi Qafqaz Korpusunun baş komandanı general-adyutant, infanteriya generalı İ.F.Paskeviç-Erivanski General-Feldmarşal rütbəsinə yüksəldilirlər”.
>
> *(“Русский инвалид”, 24 sentyabr 1829-cu il, № 242)*

Bu arada rəsmi Peterburq nazir-rezident A.S.Qriboyedova yeni parlamaqda olan ulduz kimi baxırdı, artıq dövlət dairələrində onunla hesablaşırdılar, imperator özü də ona yaxşı ümid bəsləyirdi. Doğrudur, eyni zamanda dövlət ərkanlarından heç biri düşünmürdü ki, İranın çox qədim mədəniyyəti yalnız Avropanın deyil, hətta ona qonşu olan Şərq ölkələrinin, məsələn, Türkiyənin də mədəniyyətinə bənzəmir, buna görə də bu ölkədə işləyən diplomata təkcə dahiyanə ağıl deyil, həm də İranın tarixini, adət və ənənələrini gözəl bilmək lazım idi. Və fars dilini bilmək və İranın bir neçə nüfuzlu əyanı ilə tanışlıq İran sarayında səlahiyyətli səfir vəzifəsinin uğurla yerinə yetirə bilmək üçün hələ çox azdır.

Ağıllı və uzaqgörən Ümumrusiya imperatoru İranla münasibətləri möhkəmləndirməyə və onu Rusiyanın səmimi dostuna çevirməyə tələsirdi, ancaq məlum oldu ki, o, heç də hər şeyi əvvəlcədən nəzərdə tuta bilməyib və gənc hökmdara heç kim bu barədə heç nə deməyib. Peterburqda bu barədə, yəqin ki, sonra – rus diplomat nazirin tanınmaz hala salınmış cəsədini günahsız öldürülmüş insanların elə o cür işgəncələrə məruz qalmış cəsədləri arasında axtarmağa başlayanda fikirləşəcəkdilər. Hələlik isə Qriboyedov hörmət və ehtiramın ən yüksək səmasında süzürdü.

Onun şərəfinə təşkil edilən təmtəraqlı ballarda da Qriboyedov özünün bəstələdiyi və onun adını daşıyan valsı rəqs edirdi. Teatr aləmi də Qriboyedovu çoxdan özününkü hesab edirdi.

Tanınmış aktyorların bir çoxu özünün Qriboyedovla yaxınlığını vurğulamaq və bir daha diqqəti özünə çəkmək üçün hökmən onu müşayiət etməyə çalışır və bunu özü üçün böyük şərəf sayırdı. Qriboyedovu bəstəkarlar tanıyır, qiymətləndirir və sevirdilər. Böyük bəstəkar M.İ.Qlinkanın belə bir gündəlik qeydi saxlanmışdır:

> "Təxminən bütün günü "Ağıldan bəla"nın müəllifi Qriboyedovla bir yerdə olduq. O, çox yaxşı musiqiçi idi və bir gürcü mahnısının mövzusunu mənə danışdı, tezliklə A.S.Puşkin ona bir romans yazdı: "Oxuma yanımda, sən ey cadugər!"
>
> *(Грибоедов А.С. ПСС, Petroqrad, 1911, c.1, səh. 220)*

Bu arada hökmdar imperator və onun israrı ilə Rusiya hökuməti yeni tərkibli diplomatik missiyanı İrana mümkün qədər tez göndərmək istəyirdi. İranla dostluğu hərtərəfli möhkəmlətmək və onu rus-türk müharibəsində istənilən formada iştirakına yol verməmək üçün təcili tədbirlər görmək lazım idi.

SƏLAHİYYƏTLİ NAZİR QRİBOYEDOV SANKT-PETERBURQU VƏ RUSİYANI TƏRK EDİR. HƏM DƏ HƏMİŞƏLİK!

Təyinat yerinə, İrana Qriboyedov 1828-ci il iyunun 6-da yola düşür.

1828-ci il iyulun 5-də artıq Tiflisə çatır və burada öz qohumu qraf İ.F.Paskeviçin evində qalır. Baş komandanın özü bu zaman fəaliyyətdə olan dəstədə idi və Qriboyedova İrandakı son vəziyyət haqqında məlumat almaq üçün təcili onun yanına getmək lazım idi. Lakin ölkədə taun xəstəliyi yayıldığını eşidib, bu fikrindən əl çəkdi. Ölkədə tüğyan edən bu xəstəlik, eyni zamanda, bəlkə də ömründə birinci dəfə Qriboyedovu evlənmək barədə düşünməyə məcbur etdi. Ümumiyyətlə, A.S.Qriboyedovun İrana subay deyil, evli kimi getmək qərarı son dərəcə düzgün bir qərar idi. Səfir nazir rütbəsindəki belə bir mötəbər məmur, həm də Rusiya hüdudlarından kənarda, hətta bugünkü qaydalara görə, ailəli olmalı idi.

Yüksək təyinat gənc diplomatı o qədər də möhkəm sevindirməmişdi. Xarici ölkədə tənha qalan və bu yöndəki İran adətləri barədə kifayət qədər aydın təsəvvürə malik olan Qriboyedov, dostlarının dediyinə görə qəmgin hissiyyat burulğanında çırpınırdı. O, dostlarına yazmışdı: **"Ora mənə qəbir olacaq. Hiss eləyirəm ki, bir daha Rusiyanı görməyəcəyəm "**. Bir sözlə, evlənmək üçün bundan münasib vaxt ola bilməzdi. Sevib seçdiyi isə çoxdankı dostu, general-mayor, o zamanlar Erməni vilayətinin rəisi, həmçinin tanınmış gürcü şairi və yazıçısı Aleksandr Qarsenoviç Çavçavadzenin qızı Nina Aleksandrovna Çavcavadze oldu.

Nina 1812-ci il noyabrın 4-də anadan olmuşdu və Aleksandr Sergeyeviçdən 17 yaş kiçik idi. Onlar çoxdan tanış idilər. Hələ lap yeniyetmə yaşlarında ikən Ninaya Aleksandr Sergeyeviç musiqidən dərs demiş, onunla ədəbiyyat barəsində söhbətlər etmişdi. Nina onun gözləri önündə böyümüşdü və Qriboyedov Tiflisə qayıdanda onu, öz cazibədarlığı ilə bütün şəhəri riqqətə gətirən bir gözələ çevrildiyini görmüşdü.



Musiqi dərsimi, yoxsa sevgimi?

Qriboyedov dəlicəsinə vurulduğunu ətrafındakılardan gizlətmirdi, Nina da qəlbən onu eyni cür məhəbbətlə sevirdi. Ancaq öz taleyini Nina ilə birləşdirmək istəyən adlı-sanlı və ləyaqətli namizədlər o qədər çox idi ki, bu yolda A.S.Qriboyedovun qarşısına ciddi maneələr çıxmışdı. Bu çox tərəfli rəqabətin hətta duellə nəticələnmək təhlükəsi də vardı. Lakin Ninanın gözündə A.S.Qriboyedov hər cür rəqabətdən kənar idi və o, sabiq musiqi müəllimi və ailəsinin sevimlisini qeyd-şərtsiz hamıdan üstün tutdu.

Qriboyedovun evlənmək arzusu onun yaxın ətrafında xeyli söz-söhbət doğurdu və adətən belə hallarda olduğu kimi böyük sevincə səbəb olmadı. A.P.Yermolovun silahdaşı və əlahəzrət imperatorun gələcək Qafqaz canişini general N.N.Muravyov şair və diplomat A.S.Qriboyedovun həyatının bu dövrü barədə maraqlı bir xatirə qoyub getmişdir.



General
N.N.Muravyov-Karski

"...Qriboyedovun çox qəribəlikləri vardı, çox vaxt isə özü qəribə görünməyə çalışırdı, bunun üçün qəribə şeylər danışır, başqalarını öz gözlənilməz hərəkətləri ilə heyrətə gətirirdi. Nina əvvəl bir az onu məşğul etdi və o hər şeydən öz əyləncəsi naminə faydalandığına görə, ortalığa atılan bir şayiədən istifadə edərək, Ninanın ehtiraslı pərəstişkarı Seryoja Yermolovu özündən çıxarmağa çalışırdı. Bir dəfə buna görə az qala döyüşə çıxacaqdılar və bu da Qriboyedovun istehzalarına son qoydu. Peterburqdan Asiya sarayında elçiliyin bütün təmtərağı, şöhrəti, pulu və öz qohumu olan baş komandanının etibarı ilə gələn Qriboyedov bu fikrə düşdü ki, öz xoşbəxtliyindən tam həzz almaq üçün ona təkcə arvad çatışmır. Ancaq arvad barədə düşünərkən o, deyəsən, ağlına, ləyaqətinə və ona bağlılığına hörmət edə

biləcəyi bir dosta yiyələnəcəyini nəzərdə tutmurdu. Mənə elə gəlirdi ki, o, yalnız öz nəşələrini çoxaltmaq üçün öz yanında gözəl və məsum bir varlığın olmasını arzulayırdı.

Nina çox tərbiyəli, mehriban qəlbli, gözəl-göyçək, şən xasiyyət, mülayim təbiətli, sözəbaxan bir qız olsa da, Qriboyedovu məşğul edə biləcək təhsilə malik deyildi, hərçənd cəmiyyət arasında özünü aparmağı bacarırdı..."

(«Русский архив», 1893, № 11, səh. 363)

Türkmənçay müqaviləsinin şərtlərinin icrası İranla möhkəm sülh münasibətlərinin təmin edilməsi üçün səlahiyyətli səfirdən bir çox vəzifələri yerinə yetirməyi tələb edirdi. Yaxın Şərqdə sakitliyin bərqərar olmasına hələ çox vardı, Rusiya ilə Türkiyə arasındakı müharibə ən qızğın dövründə idi, Rusiyanın Xarici İşlər Nazirliyi İranla sülh münasibətlərinin möhkəmliyi və səmimiliyinə əmin olmaq üçün Qriboyedovu Tehrana yola düşməyə tələsdirirdi.

22 avqust axşamı Tiflisin Sion kilsəsində Aleksandr Sergeyeviç Qriboyedov ilə Nina Aleksandrovna Çavçavadzenin kəbini kəsildi. Kəbin mərasimi zamanı Qriboyedovu dəhşətli qızdırma ağrısı tutdu və o, bu nikah abı-havasının qarmaqarışıqlığında az qala öz nişan üzüyünü itirəcəkdi. Ancaq, Allaha çox şükür ki, kəbin mərasimi uğurla başa çatdı.

Qriboyedovun evlənməsi ilə bağlı bədxah dedi-qodular özünü çox gözlətmədi. Bir qayda olaraq, onları ya uğursuz qısqanc rəqiblər yayır, ya da onların yaxın dost-tanışları bu uğursuz rəqibləri sakitləşdirmək üçün uydururlar. Tamamilə təsadüfən A.P.Yermolov Fondunda Qərbi Sibirin hərbi qubernatoru general İ.A.Velyaminovun A.P.Yermolovun əmisi oğlu general P.N.Yermolova yazdığı bir məktubu tapdıq.

Hörmətli cənab Pyotr Nikolayeviç!

... Beləliklə, gözəllər gözəli şair-nazirə qismət oldu! Mən Sergey Nikolayeviç üçün çox şadam, bu qız öz kasadlığına görə ona xoşbəxt tay ola bilməzdi. Onun şair-nazirə görə xoşbəxt olduğuna da inanmıram. Bu sonuncu kifayət qədər təkəbbürlü və məğrur adamdır, nazir olandan sonra isə bu

xasiyyətləri daha da güclənəcək (...)
İtaətkar qulunuz İ. Velyaminov.
Tobolsk şəhəri, 29 sentyabr 1828-ci il.
(РГАДА, f. 1406, s. 1, q. 612, v. 5)

Burada A.S.Qriboyedovu və onun ölməz "Ağıldan bəla"sını xatırlamamaq mümkün deyil: *"Ax, tapançadan da dəhşətli olan o bədxah dillər!"* Lakin sevənləri belə şeylərlə yaralamaq çox çətindir. Onlar füsunkar sevgi aləminin xoşbəxtliyi içində idilər.

Tiflisdə olmayan general Paskeviçə bu nikah barədə əvvəlcədən xəbər verilməmişdi və general öz qohumunun bu hərəkətindən bərk narazı qalmışdı. Paskeviçin nikah mərasimində iştirakı onu yalnız daha da şadlandırar və mötəbərliyini artırardı. Lakin bu nikah yüksək rəhbərliyin icazəsi olmadan baş tutmuşdu, general Paskeviç isə bu münasibətlə Peterburqa məlumat göndərmək məcburiyyətində qalmışdı.



Nina Aleksandrovna Qriboyedova



Aleksandr Sergeyeviç Qriboyedov

QRAF PASKEVİÇDƏN – QRAF NESSELRODEYƏ
23 NOYABR 1828-Cİ İL

Parlaq cənabınıza, əlbəttə, artıq məlumdur ki, İran sarayına təyin edilən səlahiyyətli nazirimiz, mülki müşavir Qriboyedov İrana yola düşməzdən qabaq, evlənməyə icazə almadan, ən tanınmış gürcü mülkədarlarından biri olan general-mayor, knyaz Çavçavadzenin qızı ilə evlənib.

Bununla əlaqədar vəzifə borcumu yerinə yetirərək, parlaq cənabınıza bildirəm ki, Qriboyedovun evlənməsi bir qədər qəfil, müxtəlif səbəblərin üst-üstə düşməsi nəticəsində, xüsusilə də Əlahəzrət İmperatorun Yüksək iradəsini təcili yerinə yetirmək üçün tez bir vaxtda İranda olması və həmin nikahın sonraya saxlanılmasının mümkünsüzlüyü səbəbindən baş verib, – buna görə də Qriboyedovun bu barədəki təkidli xahişinə əsasən ona bu nikah üçün icazə verməyi mən öz üzərimə götürdüm.

Buna görə də sizdən, lazım bildiyiniz təqdirdə, bunu Əlahəzrət İmperatorun Yüksək diqqətinə çatdırmağınızı xahiş edirəm. *(AKAK, c. 7, səh. 657)*

Tiflisdəki Sion kafedral kilsəsinin qeydiyyat kitabında 22 avqust 1828-ci il tarixli belə bir qeyd var:

"Əlahəzrət İmperatorun İrandakı səlahiyyətli naziri mülki müşavir və kavaler Aleksandr Sergeyeviç Qriboyedov general-mayor knyaz Aleksandr Çavçavadze və onun arvadı knyaginya Salomeyanın qızı Nina ilə qanuni nikaha girdi".

1828-ci il sentyabrın 9-da nazir-rezident ranqında Rusiya səfiri A.S.Qriboyedovun başçılıq etdiyi rus missiyası Tiflisi tərk edib, İrana – Tehrana yollandı.

RUSİYANIN İRANDAKI SƏLAHİYYƏTLİ NAZİRİNİN ÖLÜMÜ

İranda çoxdan qəbul olunmuş qaydaya görə xarici missiyaların iqamətgahları Təbrizdə, Fətəli şahın oğlu, taxt-tacın varisi şahzadə Abbas Mirzənin tam şəkildə hökmranlıq etdiyi İran Azərbaycanın paytaxtında yerləşirdi, ancaq müəy-

yən olunmuş qaydaya əsasən səfir əvvəlcə Tehrana gedib özünü Fətəli şaha təqdim etməli idi. 1829-cu il dekabrı 9-da Qriboyedov bu məqsədlə Təbrizdən çıxıb, Yeni ilə qədər təkrar oraya qayıtmaq ümidi ilə Tehrana yola düşdü. Ona elə gəlirdi ki, Tehrana səfəri çox da uzun sürməyəcək, buna görə də arvadını dilə tutub onu oraya getməməyə, Təbrizdə qalıb öz sevimli ərini və bətnində gəzdirdiyi, tezliklə bu işıqlı dünyaya gələcəyinə ümid etdiyi oğlunu – kiçik Qriboyedovu gözləməyə razı saldı.

Yeni Rusiya səfirini Tehrana səfəri zamanı birinci katib İ.S.Maltsev, ikinci katib K.F.Adelunq, həkim Malberq, erməni dilindən tərcüməçi mirzə Narriman (Melikşah Nəzərov), missiya xidmətçilərinin rəisi Dadaş bəy, missiyanın təsərrüfat müdiri Rüstəm bəy, 16 xətt kazakı və aralarında müsəlman, rus, erməni və gürcü olan 30 nəfər xidmətçidən ibarət məiyyət müşayiət edirdi.

Qeyd etmək lazımdır ki, rus missiyasının Tiflisdə tələm-tələsik təşkil olunması onun tərkibinə öz işgüzar və mənəvi keyfiyyətlərinə görə diplomatik təsisat işçilərinə qoyulan tələblərə cavab verməyən şəxslərin daxil edilməsinə şərait yaratmışdı və onlar heç cür Rusiya səfirliyinin tərkibində olmalı deyildilər.

İran hökuməti adından Qriboyedovu Təbrizdən Tehrana, artıq o vaxt dünyasını dəyişmiş olan kor Kalbalı xan Naxçıvanskinin böyük oğlu mehmandar Nəzərəli xan müşayiət edirdi.

Böyük bir dövlətin səfiri üçün şaha təqdim olunmaq kifayət qədər məsuliyyətli prosedura idi. Bu, təkcə istisnasız olaraq bütün ölkələrin səfirləri üçün qəbul edilən, Rusiya və İran hökmdarlarının məktub, etimadnamə mübadiləsi, İran şahına hədiyyələrin təqdim edilməsindən ibarət formal bir akt deyildi, həm də Rusiya üçün faydalı, İran üçün isə ziyanlı, ancaq məcburi bir sənəd olan Türkmənçay müqaviləsinin şərtlərinin yerinə yetirilməsi ilə bağlı mürəkkəb məsələlərin

həll edilməsindən ibarət idi.

> "...Əlahəzrət Şah həm özünün, həm də varisləri və xələfləri adından İrəvan xanlığını, Arazın o tayı və bu tayı boyu və Naxçıvan xanlığını Rusiya İmperiyasının tam mülkiyyətinə güzəştə gedir. Bu güzəşt nəticəsində Əlahəzrət Şah bu müqavilənin imzalandığı gündən hesablanmaqla altı aydan gec olmayaraq, adı çəkilən hər iki xanlığın idarə olunmasına aid olan bütün Arxivləri və açıq sənədləri Rusiya Rəisliyinə verməyi vəd edir".
>
> *(Юзефович Т.П. Договоры России с Востоком… СПб., 1869, səh. 220)*

Qriboyedov və onun missiyası üçün Tehranda xüsusi bina ayrılmışdı, İran hökmdarı Fətəli şah Rusiya missiyasının İrandakı fəaliyyətinin şahın niyyətlərinə cavab verdiyinə əmin olanadək rus nazir-rezidenti bu binada qalmalı idi.

Səfirliyin həll etməli olduğu çoxsaylı məsələlər arasında İranın müharibə nəticəsində Rusiyaya qarşı törətdiyi xəsarətlərə görə pul ödəməsinin təmin edilməsi, həmçinin toxunmaz əmlak, əsir və fərarilərlə bağlı problemlərin nizama salınması məsələləri idi.

İran hissə-hissə və könülsüz tərzdə olsa da, Rusiyaya tədricən kontribusiya ödəyirdi: sülh müqaviləsinin şərtlərinə görə müəyyən edilən məbləğ, məlum olduğu kimi, rus valyutası ilə 20 milyon gümüş rubla bərabər idi və bu, İran iqtisadiyyatına ciddi şəkildə ziyan vururdu. İranda şah sarayına müxalifətdə olan güclü qüvvələr vardı və onlar nümayişkaranə surətdə Türkmənçay müqaviləsini qəbul etmirdilər. İran müxalifəti Rusiya ilə müharibənin davam etdirilməsində israr edirdi və müqavilə üzrə pul ödənilməsinin əleyhinə çıxırdı. Ancaq, çətin də olsa, hər halda Rusiyaya kontribusiya hesabına pul köçürülürdü. Bu qədər mühüm bir iqtisadi məsələnin həllində bir dövlət məmuru kimi, A.S.Qriboyedovun müdrikliyinə nümunə gətirmək yerinə düşərdi.

İranlılar bu borcun planlaşdırılmış hissəsini növbəti də-

fə ödəməyəndə Rusiyanın səlahiyyətli naziri A.S.Qriboyedov onlardan Ağa Məhəmməd şahın İranda qiymətli dövlət əşyası hesab olunan qızıl taxtını qəbul etdi və iranlılar bu əşya ilə çox həvəssiz ayrıldılar. Nazir Qriboyedov dərk edirdi ki, dünyada yeganə olan bu qiymətli xatirə əşyası-qənimətin incəsənət əsəri kimi həmişəlik Moskvada Qranovit palatasında qalması üçün mümkün olan hər cür tədbirləri görmək, xüsusilə də Abbas Mirzəni buna inandırmaq lazımdır və qraf Paskeviç də buna razı idi. Nəhayət, Abbas Mirzə 7 min tümən dəyərindəki bu taxtın Rusiyaya ödənməli olan növbəti kontribusiya hissəsinin əvəzinə girov kimi hesablanmasına razılıq verdi və beləliklə taxt həmişəlik Rusiyada qaldı (AKAK, c. 7. səh. 666).



Fətəli şahın taxtında 23 733 qiymətli daş-qaş vardı

1828-ci il dekabrın 29-da Qriboyedov öz təntənəli məiyyətinin müşayiəti altında Tehrana gəlib çatdı. Üç gündən sonra Rusiya səfirinin Fətəli şahın taxtında 23733 qiymətli daş-qaş vardı malikanəsinə fəxri mühafizə dəstəsi gəldi, saray mehtəri isə ona şah tövləsindən bir at gətirdi. Səfirlik dəstəsi ağır-ağır və təntənə ilə Tehran küçələrindən keçərək şah sarayına doğru istiqamət götürdü. Kütlə Rusiya səfirini dostcasına salamlayırdı. Qriboyedov şaha öz etibarnaməsinin təqdim etdi. Şah bütün səfirliyi mehribanlıqla qəbul etdi. Mühafizəçi kazaklar da daxil olmaqla missiyanın bütün üzvlərinə bahalı hədiyyələr verildi, Qriboyedova isə ən yüksək mükafat – 1-ci dərəcəli Şir və Günəş ordeni təqdim olundu.

Rusiya səfirinin qarşısına İran hökmdarına təqdim olunarkən Fətəli şahı razılaşdırılmış kontribusiyanı vaxtında

ödəməyə sövq etmək və rus əsir və fərarilərinin vətənə qaytarılması qaydalarını daha da sərtləşdirmək vəzifəsi qoyulmuşdu. 1819-cu ildə rus əsir və fərarilərinin İrandan çıxarılması ilə bağlı acı təcrübə Qriboyedovda kədərli düşüncələr oyatmış, sanki ona gələcəkdə daha təmkinli, ehtiyatlı olmağı və *"Şərqin çox incə bir məsələ olduğunu"* unutmayaraq mümkün təxribatları qabaqcadan önləməyə çalışmağı pıçıldamışdı. Lakin yeni yüksək səfir statusu ondakı keçmiş vətənpərvərlik hisslərini indi ikiqat gücləndirmişdi. O, yenidən özünü İncil qəhrəmanı kimi hiss edirdi. Rus torpağının qatı vətənpərvəri kimi o, İrandakı rus əsir və fərarilərinin böyük əksəriyyətinin həyatı və vərdişləri haqda əsl həqiqəti bilmək istəmirdi. Onlar İranda kölə deyildilər, Rusiyada isə onları cənnət həyatı gözləmirdi.



İranda səfir
A.S.Qriboyedov

İş öz yerində, amma Qriboyedov həm də Təbrizə tələsirdi. O hələ də 1829-cu ili öz sevimli arvadı Nina Aleksandrovna Çavçavadze ilə bir yerdə qarşılayacağına ümid edirdi.

Ədalət naminə qeyd edək ki, Qriboyedov bütün zamanlarda millətçiliyə meyl göstərmişdir. Diplomatın hər şeydə hökmən təmkinli olması gərəkdiyinə diqqət yetirməyən Qriboyedov İranda rus məişəti və adətləri, rus mədəniyyəti və hətta rus libası ilə açıq-aşkar öyünürdü. Səfirin çılğın xarakteri və tez-tez diplomatik etiketləri pozması onun İran sarayı əyanları ilə münasibətlərini xeyli mürəkkəbləşdirirdi.

"(...) Qriboyedov şahın qəbuluna gələndə gah əyləşir, gah da dəli kimi ayağa qalxıb otaqda gəzişir, oturmur, ədəbsiz sözlər işlədir, birdən özbaşına yerindən sıçrayaraq, otaqda

gəzişir, ədəbsiz sözlər söyləyirdi (...) "Tehran dövrü" Qriboyedovun son dərəcə tündməcaz, əsəbi xarakterə malik bir cənab olduğunu digər müasirləri də söyləmişlər"

("Русский архив", M, 1992, II-III buraxılışlar, səh. 967-97)

Qriboyedova elə gəlirdi ki, o, böyük bir dövlətin səfirinin vəzifələrini möhkəm dərk etdiyi üçün hər şeydə buna uyğun hərəkət edir, lakin bir şərq ölkəsində olduğunu tez-tez unudurdu. Qriboyedov bəzən öz səfir vəzifəsinin hüdudlarından kənara çıxır və öz hərəkətləri ilə özünə qarşı mənfi münasibət oyadırdı. Onun səhvlərindən, rus silahının və yaxud rus diplomatiyasının uğurlarını həmişə qısqanclıqla qarşılayan ingilis diplomatları məharətlə istifadə edirdilər. İngilislər İran sarayında rus səfirinə qarşı nifrət oyatmaq üçün vaxt və güclərini əsirgəmirdilər. Ancaq xalq kütlələri arasında daha təhlükəli nifrət oyanmışdı. Türkmənçay sülh müqaviləsi iranlıların narazılığını yalnız daha da gücləndirmişdi, müharibənin davam etdirilməsinin zəruriliyinə inanan ruhanilər və fanatiklər isə intiqam almağı və dinsizləri qırmağı təbliğ edirdilər. Nifrəti qızışdırmaq üçün cahil kütlənin vəhşi gücünə arxalanmaq çox vaxt daha münasib olur və Tehrandakı çağırışlar hətta o həddə çatırdı ki, bütün rusları din düşməni kimi qırıb-öldürmək lazımdır. Tehran sakinlərində narazılığa rus missiyası əməkdaşlarının əməlləri də səbəb olurdu.

Tehranda baş verən çaxnaşmalar zamanı tez-tez rus missiyasının əməkdaşları – gürcü knyazları: Dadaş bəyin və xüsusilə də səfirliyin, təsərrüfat müdiri Rüstəm bəyin adları hallanırdı, onların əxlaqsız hərəkətləri yerli əhalidə ciddi narazılıq doğururdu. Onların hər ikisi Qriboyedovun arvadının qohumları idi və bu da, çox güman ki, onları qayda-qanuna dəvət etməkdə səfirə əngəl törədirdi. Bu adamlar yerli əhalinin gözü qabağında çox vaxt da əllərində silah sərxoş halda, gəzir, çılğınlıq edirdilər və təbii ki, bu da narazılıq doğurur və Rusiya missiyasında islamın elementar normalarını pozan əxlaqsız insanların xidmət etdiyi barədə söz-söhbətlərin

yaranmasına səbəb olurdu. Şəhərdə Rüstəm bəyin hərəmxanadan oğurlanmış cariyələri hamama apardığı barədə xəbər yayılanda, – hərçənd bu təxribat da ola bilərdi, – qızışmış kütləni dayandırmaq artıq mümkün deyildi.



Tehranda məscid

Tehran xalqı hakimiyyəti və ruhaniləri "müsəlman dini qayda-qanunlarının pozulmasına imkan verməməyə" çağırdı *("Русская старина",1872, c. 6, səh. 178-182).*

Yanvarın 29-da rus səfirinin yanına bir neçə molla gəldi. Onlar susqun səfiri hərəm xidmətçisi Mirzə Yaqubu və Allahyar xanın hərəmxanasından olan erməni qızlarını şah sarayına qaytarılmasına inandırmağa çalışdılar. Tehranlıların qəzəbini soyuda bilmək üçün hələ vaxt vardı. Lakin Qriboyedov rus səfirinin öz qərarını dəyişmədiyini bildirib, onlardan missiyanın binasını tərk etməyi xahiş etdi. İranda ağsaqqallarla, xüsusilə də ruhani şəxslərlə bu cür kobud davranış təhqirə bərabərdir. Yəqin ki, yetişməkdə olan faciədə bu faktor da öz kədərli rolunu oynamışdır.

Rusiya səfirliyinə basqın 1829-cu il yanvarın 30-da baş verdi. Bu fövqəladə hadisə və nazir-rezident Qriboyedovun qətlə yetirilməsi barədə rəsmi xəbər Tiflisə baş konsul Amburger tərəfindən göndərilmişdi.

SARAY MÜŞAVİRİ AMBURGERDƏN – QRAF PASKEVİÇƏ
8 FEVRAL 1829-CU İL

Bu gün Mirzə Musa xanın adamı buraya gəldi, o, Tehranda baş verən dəhşətli hadisə barədə daha ətraflı xəbər gətirib. Belə görünür ki, bizim naziri qəddarlaşmış qara kütlənin qurbanına çevirən üsyanın başlıca səbəbkarı Tehran ruhaniləri olmuşdur, zira əsas məsciddə möminlərin yığıncağı keçiril-

mişdir.

Zavallı Aleksandr Sergeyeviç öz cəsurluğunun qurbanı olub. Hay-küyü eşidən kimi, əlində sıyrılmış qılınc bayıra qaçıb və elə o andaca onu daşla vurublar. Bu zərbədən yerə yıxılıb. İçəri doluşan kütlə dəhşətli qətl törədib. Ruhu Şad olsun! Bütün adamlar ona tərəf qaçıblar və hamısı quduzlaşmış qara kütlənin qurbanı olublar. Bütün əmlak qaniçənlər tərəfindən qarət edilib və şahın nazirə verdiyi bina tamam dağıdılıb.

Şahın özü qoşunlarını ətrafına yığaraq, sarayın tağında gizlənib. Qara kütlə bütün günü şəhəri dolaşıb və hələ məlum deyil ki, digər hansı fəsadları törədib. Əli şah güc-bəla ilə nazirin evinə girə bilib, bu zaman onun da bir neçə fərraşı və nasakçısı öldürülüb. Birinci katib Maltsevdən hələ bir xəbər yoxdur, şahidlərdən alınan xəbərlərin doğruluğuna da etibar etmək mümkün deyil.

Abbas Mirzə çox ümidsiz vəziyyətdədir. O dəhşətli cinayətdən sonra mənimlə ilk görüşündə mənə dedi: **"Bilmirəm məni hansı uğursuz tale təqib edir! Fövqəladə ciddisəylər və qurbanlar sayəsində mən Rusiya ilə İran arasında dostluğun bərpasına nail olmuşdum, indi İranda baş verən bu dəhşətli qətl min bir əziyyətlə nail olduğum hər şeyi məhv edir. İranı, onun özündən razı sakinlərini görüm lənətə gəlsin! Bizim hər ikimizin inandığımız Allaha, zira O, təkdir, and içirəm ki, tökülmüş qanı öz arvad-uşağımın qanı ilə əvəz etməyə şad olardım. Şah haqqında nə deyim, – o sözünə davam etdi, – onu söyməyə cəsarət edə bilmərəm, zəifliyi barədə də susa bilmirəm. Belə də şah olar? Öz hərəmxanasından bayıra çıxmır və öz təbəələrini itaətə, qayda-qanuna riayətə gətirmək barədə düşünmür! Utandığımdan bilmirəm qaçıb harda gizlənim"** (seçmə – R. İ.).

Kaymakam da baş verənlərin dəhşətini dərindən hiss edir. Məmməd mirzə ilə Tiflisə özü getmək istəyirdi, deyirdin ki, hər ikisi bu dəhşətli cinayətin İrana vurduğu ləkəni öz qanları ilə yumağa hazırdırlar. O, mənə məktub göstərdi, həmin məktubda Abbas Mirzə Əli şaha yazır ki, təcili şahdan israrla əsas səbəbkarların tutulması və Tiflisə göndərilməsi barədə əmr verməsini xahiş eləsin. Mən nazirin və qaniçənlərin qurbanı olmuş məmurların cəsədlərinin Tiflisə göndərilməsini tələb etdim və bu barədə Tehrana məktub yazıldı.

Nazirin arvadını, ona həqiqəti söyləmədən, Tiflisə getməyə razı sala bildim.

İranda daxili qarmaqarışıqlıq davam edir. Xorasanı sakitləşdirmək üçün oraya göndərilən Hüseyn xan sərdar Məşhəddə Həsənəli mirzənin oğulları tərəfindən mühasirəyə alınıb. Xalq tərəfindən Semian və Gülüstandan qovulan şahzadə hələ də öz əyalətinə qayıda bilməyib. Hüseynəli mirzənin oğlu Teymur mirzə 3 min nəfərlik qoşun yığıb gecə vaxtı, bütün sakinlər dərin yuxuda olanda Bəndər-Buşirə basqın edib, şəhəri təmiz talayandan sonra onu öz qənimətləri ilə birlikdə tərk edib. Heç kəsin əmlakına güzəşt etməyiblər: məmurlar, tacirlər, alverçilər – hamısı öz mülkiyyətlərindən məhrum olublar.

(AKAK, c.7, səh. 671)

A.S.Qriboyedovun ölümü haqda xəbər Sankt-Peterburqa 1829-cu il martın 14-də çatdı – bir il əvvəl məhz həmin gün o, imzalanmış müqaviləni gətirərkən paytaxtda möhtəşəm təmtəraqla qarşılanmışdı. Həmin unudulmaz gündə hökmdar imperator şəxsən onu qəbul etmiş və diplomatik sahədəki qeyd-şərtsiz xidmətlərini qiymətləndirərək, yüksək orden və mülki müşavir rütbəsi ilə mükafatlandırmışdı.

O dövrün başlıca hərbi qəzeti olan "Russkiy invalid" Tehranda baş vermiş faciəvi hadisələri bu cür işıqlandırmışdı:

"Tehrandan gələn məktub bizə ötən yanvarın 31-də nazirimiz Qriboyedovun xidmətçiləri ilə sadə xalqdan olan bir neçə nəfər arasında düşən güclü dava nəticəsində orada baş verən dəhşətli hadisədən xəbər verir.

Dava zamanı nazirin evinin yanına bir neçə başıboş avara toplaşıb və davada da onlar iştirak ediblər. Onlardan bir neçəsi tezliklə öldürülüb və bir andaca öz həmvətənlərinin intiqamını almaq üçün bazardan oraya saysız qara camaat qaçıb gəlib, onlar Səfirlik evinin qapılarını qıraraq, divarlara dırmaşıblar, bizim kazakların və dörd nəfər itki verən İran keşikçilərinin müqavimətinə baxmayaraq, binanın daxili otaqlarına girmiş, qarşılarına çıxan hər kəsi amansızca qılıncdan keçirmişlər.

Ümumiyyətlə, şah özü öz oğlu, Tehranın General-Qubernatoru Selu-Sultanın müşayiəti altında güclü bir dəstə ilə qan tökülməsini durdurmaq və qiyamçıları dağıtmaq üçün hadisə yerinə gəlmişdir, ancaq artıq gec idi. Artıq cənab Qriboyedov və onun məiyyəti qatillərin qurbanı olmuşdular. Yalnız birinci katib cənab Maltsev və ondan başqa üç nəfər ölümdən xilas ola bilmişlər.

Şah, Abbas Mirzə, bütün İran sarayı hüzn içindədir. İran taxt-tacının varisi bir həftəlik matəm elan etmişdir. Səbirsizliklə bizi razı salmağı arzulayan, – bizim bunu tələb etməyə haqqımız vardır – Abbas Mirzə özünün böyük oğlunu kaymakamla birlikdə dəhşətli hadisə barədə ətraflı məlumat vermək üçün qraf Paskeviç-İrəvanskinin yanına göndərmək niyyətindədir.

("Русский инвалид", 19 mart 1829-cu il, № 74)

Tehranda baş verən faciəvi hadisələr bu arada İranda hərbi çağırışların qızışmasına səbəb oldu. Yenidən Rusiya ilə müharibə çağırışları yüksəlməyə başladı. General-mayor Pankratyev Qafqaz baş komandanı general-feldmarşal Paskeviçə aşağıdakı məlumatı göndərmişdi:

"Maku xanı bütün sərbazlarını silahlandırmış, atlı dəstəsi toplamışdır və qalaya azuqə ehtiyatı yığır.

Məlumat alınmışdır ki, şahın oğulları Həsənəli mirzə, Əli şah və Məmmədəli xanın oğlu 30 minlik qoşun və 30 topla Təbrizə gəlmişlər. İranlılar arasında belə bir şayiə gəzir ki, ingilislər silah və pulla kömək edəcəklərini vəd edərək, şahı Rusiya ilə müharibəyə təhrik edirlər.

Tehranda və Kirmanşahda qoşun toplanır, bütün Azərbaycan xanlarına sərbazları toplamaq tapşırılıb, Xoyda artıq 400-ə qədər toplanıb, onlara hər gün təlim keçilir, bütün çilingərlər silahların təmiri ilə məşğuldurlar.(...) Azərbaycanlılara ticarət işləri ilə əlaqədar Rusiya hüdudlarına səfər etmək yasaqlanıb.

Vanda artıq Mahmud ağanın rəhbərliyi altında 5 min atlı və 2 min piyada toplanıb, o Türkiyə hökumətinə yazda Bəyaziti ələ keçirməyi vəd edib.

Bu məlumatlar şayiələrə əsaslanır (...) lakin biz buradakı həqiqi siyasi şəraiti öyrənmək baxımından çox çətin vəziyyətdəyik.

İndi Naxçıvan naibi polkovnik Ehsan bəydən belə bir xəbər aldıq ki, Abbas Mirzə də qoşun toplayır – ancaq artıq Rusiya ilə müharibə üçün yox Tehrandan onun üstünə gələcək qardaşlarına müqavimət göstərə bilmək üçün.

(AKAK, c. 7, səh. 681)

İranın Rusiya ilə növbəti müharibəyə hazırlaşması ilə bağlı həyəcanlı informasiyalar bu ölkədə güclü hərbi çağırışların baş qaldırdığını sübut edirdi. Və bunun sonu görünmürdü.

BAŞ KONSUL AMBURGER QORXU İÇƏRİSİNDƏ TƏBRİZDƏN NAXÇIVANA QAÇIR, ŞAH SARAYI İSƏ RUSİYAYA TÖVBƏ GÖNDƏRİR

Tehranda baş verən faciəvi hadisələr Tiflis əhalisini dəhşətə gətirmişdi və iranlıların vəhşiliyinin təfərrüatı hələ məlum olmasa da işıq sürəti ilə bütün Rusiyaya yayılırdı. Qafqazdakı baş komandan general Paskeviç Rusiyanın İrandakı baş konsuluna məktub yazdı.

GENERAL-FELDMARŞAL PASKEVİÇDƏN –
İRANDAKI BAŞ KONSUL AMBURGERƏ
23 FEVRAL 1829-CU İL

Tehranda bizim səlahiyyətli səfirimiz mülki müşavir Qriboyedovun qətli xəbərini böyük təəccüb və hüzn içərisində aldım. Rusiyanın ləyaqəti və xalqın haqqı bu barədə müfəssəl izahat tələb edir (...) Vitse-kansler icazə verməyənə qədər heç bir səbəblə Təbrizi tərk etməyin (...) Abbas Mirzəyə anladın ki, İran şahı öz paytaxtında səfirin qətlə yetirilməsi ilə bağlı Hökmdar İmperatordan hökmən yazılı üzr istəməli və xalq hüququna əsasən bizim ondan tələb edə biləcəyimiz müfəssəl izahatı verməyə hazır olduğunu bəyan etməlidir (...) İran hökuməti ilə İngiltərə missiyasının bütün hərəkətlərini böyük sayıqlıqla izləyin (...) İranda baş verən hadisələr barədə məni mümkün olduğu qədər tez-tez məlumatlandırın (...) elə etibarlı adamlar tapmağa çalışın ki, onların vasitəsi ilə mənimlə fasiləsiz əlaqə saxlaya, İranda baş verənlər haqda məlumat göndərə biləsiniz.

(AKAK, c. 7, səh. 674)



Şahzadə
Abbas Mirzə

Amburger heç faciədən əvvəl Tehrana getməmişdi! Rusiyanın ləyaqətinin müdafiəsinə omu qalxacaq və İran hökumətindən "müfəssəl izahat" istəyəcəkdi? Konsul Amburger qorxudan payız yarpağı kimi tir-tir əsirdi, Tehranda Qriboyedovu deyil, onu, konsul Amburgeri öldürməyə cəhd göstərmişdilər, o da zorla canını qurtarmışdı. Amburger, qorxaq dovşan kimi, Təbrizdə baş konsul vəzifəsini buraxaraq başını itirmiş halda Təbrizdən sakit Naxçıvana qaçır. Allaha çox şükür ki, Naxçıvan indi Rusiyanın tərkibində idi və orada heç qiyamçı qaragüruh olmamışdı və ola da bilməzdi. Burada Amburgerin qorxa biləcəyi heç nə yoxdur. Ancaq o, Rusiyanın hüdudlarından kənarda hansı rolu və statusu olduğunu unudaraq özünü, öz qiymətli həyatını, Rusiyada deyildiyi kim öz "dərisini" qurtarmağa çalışır – ancaq Rusiyaya və yaxud istənilən bir dövlətə belə bir qorxağın və satqının həyatı lazımdırmı?

Rus sarayı İrandakı vəziyyət barədə cüzi də olsa nəsə bir informasiya almağa can atır və Təbrizdəki baş konsul – bunu eləməyə qadir olan yeganə rəsmi şəxs Amburger isə fərarilik edərək Təbrizdən qaçır və İranla münasibətlər vəziyyəti haqqında rəsmi informasiya kanalı kəsilir. Son dərəcə nəzakətli bir insan olan Paskeviç öz qəzəbini zorla boğaraq, 1829-cu il martın 6-da Amburgerə yeni bir məktub göndərir.

GENERAL-FELDMARŞAL PASKEVİÇDƏN – BAŞ KONSUL AMBURGERƏ
6 MART 1829-CU İL

Sizin 21 və 22 fevral tarixli depeşalarınızdan, son dərəcə böyük bir heyrət içərisində, icazə gözləmədən Təbrizi tərk edib Naxçıvana gəldiyinizi öyrəndim. Elə bilirəm ki, siz heç bir halda Təbrizi tərk etməməli idiniz (...) Zira sizin orada

olmağınızın başlıca siyasi məqsədi, bizim nazirin ölümündən sonra, ora hökumətinin əsil niyyətlərini öyrənmək və onu, baş vermiş hadisə haqqında izahat vermək üçün Abbas Mirzənin oğlunu və ya digər əhəmiyyətli bir şəxsi bura göndərmələrinə inandırmaq idi. Oranı tərk etməklə siz, İran hökumətinə hər cür təsirinizi itirmisiniz (...)

(AKAK, c. 7, səh. 676)



İran səfiri
A.S.Qriboyedov

Son dərəcə böyük təəssüf hissi ilə qraf Paskeviç qraf Nesselrodeyə bildirir ki, Təbrizdən heç bir məlumat daxil olmur, yalnız şayiələrə əsaslanmaq olar, çünki Amburger Təbrizi tərk edib...

Paskeviç konsul Amburgerə siyasi səhvə yol verdiyini və öz hərəkəti– Təbrizi tərk edib Naxçıvana gəlməyi – ilə Rusiyaya vurduğu ziyanı başa salanacan, Amburger Naxçıvanı da tərk edir... Naxçıvanda o, nədən qorxurdu, burada onun üçün hansı təhlükə vardı?

Elə həmin gün general-feldmarşal Paskeviç konsul Amburgerə ikinci bir məktub göndərir.

GENERAL-FELDMARŞAL PASKEVİÇDƏN – BAŞ KONSULA AMBURGERƏ
6 MART 1829-CU İL

Sizin məlumatınızdan, son dərəcə böyük bir heyrət içərisində, hətta məndən təlimat alana qədər Naxçıvanda qalacağınıza dair öz dediyinizin əksinə olaraq Naxçıvanı tərk etdiyinizi öyrəndim. Siz hətta İranın Xarici İşlər Nazirliyinə də qalacağınız yerin Naxçıvan olduğu barədə məlumat vermisiniz. Sizin mühüm siyasi səhvləriniz haqda danışmaq istəməyib, yalnız bunu xahiş etməklə kifayətlənirəm ki, dərhal Naxçıvana qayıdasınız və ordan mənim depeşalarıma uyğun hərəkət edəsiniz. Əlahəzrət İmperatorun bu məsələ barədə verəcəyi buyruqları da Sizə dərhal çatdıracağam.

(AKAK, c. 7, səh. 677)

Lakin heç bir buyruq, hətta Əlahəzrət İmperatorun buyruğu belə, artıq Amburgeri qorxutmurdu, o Naxçıvanı tərk edərək, Tiflisə doğru irəliləyirdi. Ora daha sakit idi. Son dərəcə dilxor olan qraf Paskeviç elə həmin gün Peterburqa, vitse-kanslerə həyəcanlı məktub yazır.

QRAF PASKEVİÇDƏN – QRAF NESSELRODEYƏ
6 MART 1829-CU İL

(...) Mən qəti şəkildə fikirləşirəm ki, Amburger heç bir halda Təbrizdən çıxmamalı idi, onu yalnız ordan qova bilərdilər, çünki əgər o orda qalsaydı, onda bu, bizim İranla əlaqələrimizin qırıldığını bildirməzdi (...) Belə güman edirəm ki, Amburger tamamilə qaydaların əleyhinə hərəkət edib və indi bu işi düzəltmək çox çətin olacaq. Zira onun bundan sonra Təbrizə qaytarılması bizim bizdən istənilən üzrlərdən məmnun qaldığımız kimi görünə bilər. Bu məsələ ilə bağlı Hökmdar İmperatorun fikrini bilmədiyimə görə, cəsarət edib Amburgerə yazdım ki, icazə alınana və Mirzə Məsud bura gələnə qədər, heç olmasa, Naxçıvanda qalsın (...)

İndi Amburgerdən yeni məlumat almışam (...) Amburger mənə içərisində iki məktub olan – biri mənim adıma, digəri parlaq cənabınızın adına – zərf bükülüsünü təqdim etməklə yazır; həmin məktublarda Abbas Mirzə Məmməd Mirzəni buraya göndərmək niyyətinin dəyişdiyini bildirir. İran hökumətinin bizim səlahiyyətli nazirimizin amansız qətlə yetirilməsində onun iştirak etmədiyini sübut etmək üçün gördüyü belə sakit tədbirlər onu düşünməyə vadar edib ki, Naxçıvanda qalmasının xidmət üçün heç bir faydası yoxdur, buna görə də Naxçıvanı tərk edib Tiflis yolunu tutmuşdur (...) Amburgerin bu hərəkətlərindən belə qənaətə gəlirəm ki, yəqin o, müxtəlif xəstəlik ağrılarından özünü bir qədər itirib və yaxud özünü buradakı rəhbərlikdən heç cür asılı hesab etmir (...) artıq Amburgerə ümid etməyərək, Mirzə Məsudla görüşəndən sonra bizim zabitlərdən birini, Maltsevin harada olduğunu öyrənmək və İranda olan təbəələrimizi himayə etmək adı ilə Abbas Mirzənin yanına göndərmək qərarına gəlmişəm. Məxfi olaraq isə ona orada indi nələr baş verdiyini, Rusiya ilə müharibəyə hazırlıq gedib-getmədiyini öyrənmək tapşırığı veriləcək, çünki Amburger oradan çıxandan sonra

biz əlaqə baxımından müəyyən qədər uzaq düşmüşük.
(AKAK, c. 7, səh. 678)

Naxçıvandan Tiflisə sürətli marafon qaçışından əvvəl Amburger axır ki, özündə qüvvə toplayıb baş komandan Paskeviçə məlumat göndərə bildi.

Amburgerin qraf Paskeviçə göndərdiyi məlumatından:

(...) Şahın və onun vəzirlərinin laqeyd susqunluğu anlaşılmazdır. Abbas Mirzə Maltsev haqqında yazır ki, onu öz yanında nazir sifətində saxlamaq istədiyi üçün Tehrandan göndərmir, – əgər bu həqiqətən belə olsaydı, onda nə üçün Maltsevdən heç bir məktub yoxdur, buna görə də mən belə güman edirəm ki, Maltsevi onun üçün orda saxlayırlar ki, onların gizlətmək istədiklərini o açıb deməsin (...)

Konsul Amburger öz məlumatını belə bir izahla qurtarır ki, ***"həmçinin onun səhhəti, havası və suyu ona son dərəcə ziyan olan bu şəhərdə qalmasına imkan vermir"***. Naxçıvanın ona ***"havası və suyu son dərəcə ziyanlı olduğu və burada tibbi yardımın yoxluğu..."*** səbəbindən onun üçün yararlı olmadığı barədə bu primitiv izahatlara diqqət yetirməyəcəyik.

Müqəddəs Nuh peyğəmbərə və onun yol yoldaşlarına Naxçıvanın suyu və havası bəşəriyyətin yeni nəslini çoxaldıb artırmaq üçün yararlı olsa da, Amburger üçün yararsız idi.

"Rütbələri insanlar verir, onlarsa yanıla bilərlər" – mərhum Qriboyedov Amburger haqda, yəqin ki, özünün "Ağıldan bəla" əsərindən sitat gətirərək belə deyərdi.

QRAF PASKEVİÇDƏN – QRAF NESSELRODEYƏ
9 MART 1829-CU İL

Abbas Mirzənin mülki katibi və baş tərcüməçisi Mirzə Məsud martın 6-da bura gəldi. Artıq bir neçə dəfə görüşdüyüm Mirzə Məsudun izahatlarına əsasən böyük bir ehtimalla belə qənaətə gəlmək olar ki, Abbas Mirzə Qriboyedovun başına gələn faciəvi hadisədən son dərəcə narahatdır və buna məəttəl qalıb; onun başına gətirilən bu bədbəxt hadisədə

azacıq da olsun, iştirak etməyib və Qriboyedova qarşı bu bəd niyyətdən tamam xəbərsiz olub və nəhayət, nə Abbas Mirzə, nə də şahın özü bizimlə münasibətlərin pozulmasını nəinki arzulamır, hətta qorxur və bizim istədiyimiz hər cür izahatı verməyi təklif edirlər.

Lakin, həmin məktublar Qriboyedovun qətlinin azğınlaşmış qara kütlə tərəfindən təsadüfən deyil, Abbas Mirzənin əleyhinə olan qrupların xain niyyətlərinin nəticəsi olaraq baş verdiyi barədə mənim şübhələrimin həqiqətə daha yaxın olduğunu göstərir.

Bütün bunlardan görünür ki, şahın hakimiyyəti zəifləyir, ətrafındakılar onu aldadırlar, bütün İran ixtilaf toxumu ilə doludur və bu, ölkədə ümumi qarmaqarışıqlıq doğura bilər. İranın belə bir vəziyyətində ümumən dövlət çevrilişindən qorxmaq olar. Bu cür çaxnaşma və qarışıqlığın mümkünlüyü halında İranlılardan güclü hücum fəaliyyəti gözləmək olmaz. İranda yarana biləcək hakimiyyətsizlik və nizamsızlıq şəraitində, bizim sərhədlərimiz, əlbəttə ki, toxunulmaz qalmayacaqdır və yırtıcılar dəstəsi bizim əyalətləri talan və viran etmək istəyindən vaz keçməyəcəklər (...)

Abbas Mirzə özünü müdafiədə təkcə Hökmdar İmperatora ümid edir və əslində elə bunun üçün Sankt-Peterburqa getmək istəyirdi. Ancaq Maltsev tərəfindən hər şey izah olunmayana qədər nə əvvəlki məktublara, nə də Mirzə Məsudun bəyanatlarına qəti şəkildə inanmaq olmaz və mən onun təcili bura göndərilməsini xahiş edəcəyəm...

(AKAK, c. 7, səh. 680)

Rusiya nazir-səfiri Qriboyedovun Tehranda faciəvi ölümü ilə əlaqədar Fətəli şah 1829-cu il martın 9-da Azərbaycanın hakimi, şahzadə Abbas Mirzəyə fərman göndərmişdir. Fərmanda şah hiyləgərlik edir və hətta onda həddən artıq yalan vardır, bu, xüsusilə də şahın öz oğluna ***"bütün öldürülənlər lazımi ehtiram və hörmətə uyğun olaraq torpağa verilmişdir"*** deyəndə özünü büruzə verir. Biz bu "***lazımi ehtiram və hörmət"!*** barədə oxucuya irəlidə söhbət açacağıq. Yeri gəlmişkən bunu da qeyd edək: Şah Tehran faciəsi barədə öz fikirlərini iki ay düşündükdən sonra doğma oğlu ilə bö-

lüşür. Şahın öz paytaxtında baş verən dəhşətli hadisəyə, axır ki, qiymət vermək qərarına gəlməsi üçün həddən artıq vaxt keçməyib ki?

FƏTƏLİ ŞAHIN ABBAS MİRZƏNİN ADINA FƏRMANINDAN

Bu dünyanın faniliyini bilmirik necə təsvir edək! Allah, Allah, gör necə hadisələr baş verir! Rusiyanın səlahiyyətli naziri Tehrana gələndə biz onu iki böyük dövlət arasında dostluğun möhkəmləndirilməsində vasitəçi kimi qəbul etdik. Ona lazımi qaydada ehtiram və mehribançılıq göstərdik, xeyirxahlıqla qəbul etdik, ona müxtəlif cür lütflər yağdırdıq və qayıtmağına icazə verdik. Ancaq o, hələ bir müddət burda qaldı və qəflətən ona, İranda bu vaxtadək görünməmiş, eşidilməmiş belə bir rüsvayçılıq baş verdi. Biz tehranlıların belə bir iş törədəcəyini qabaqcadan görə bilərdikmi? Mirzə Yaqub səfirin yanına gəldikdən sonra tərcüməçi Mirzə Nərimanla birlikdə baş təşrifatçının yanına göndərilmişdi ki, onu özləri ilə götürdüklərini elan etsinlər. Mirzə Yaqubun iş yoldaşlarından bəziləri bizə məlumat verdilər ki, o, xəzinədarlığın müdiri olduğu üçün xəzinəyə ən azı 40 və ya 50 min tümən (o vaxtlar bir tümən 4 rus gümüş rublundan artıq olmuşdur – R. İ.) borcludur, buna görə də onu hesab ödənənədək tutub saxlamaq, sonra səfirə vermək lazımdır. Ancaq biz Qriboyedova bəslədiyimiz hörmətə görə əmr etdik ki, onu tutub saxlamasınlar, geri göndərsinlər ki, səfir də bu hesabdan xəbərdar olsun.

Nəhayət qərara alındı ki, Mirzə Yaqubun işi məhkəmədə həll olunsun, o da sabahı gün oraya səfirin adamları ilə gəldi, müsəlman qanunlarını və dinini söyməyə başladı. Onun söyüşləri qara camaatı və möhtərəm insanları çox məyus etdi, onların hamısı hay-küy qaldırdılar, səfirə olan lütfümüzü və rəğbətimizi görüb susdular (...)

Biz təəccüb qalmışıq ki, qarşılıqlı dostluğumuzu qoruyub saxlamağa bu qədər səy göstərdiyimiz vaxtda belə bir hadisə necə baş verə bilər. Belə bir hadisə bizim dövlətimizdə heç vaxt olmayıb. Biz bu və ya digər dövlətdə xalqın qiyam qaldırdığını, hansısa naziri dəyişdirdiyini, dövlət işlərində dəyişikliklər baş verdiyini eşidəndə təəccüblə deyirdik: "Belə hallarda dövlət işlərində qayda-qanunu necə saxlamaq olar?"

Bu hadisədən necə qəmgin olduğumuzu və qeyri-məmnun

qaldığımız təsvir edə bilmirik, bir də axı onları nə üçün təsvir edək? Biz iki dövlətin dostluğunu qiymətləndirməyi sizdən də yaxşı bacarır, sizdən artıq kədərlənirik, çünki bu hadisə İranı rüsvay etmişdir, hərçənd heç bir ağıllı adam bunu digər ağıllının ayağına yazmaz, hətta ağılsız da ağılsızın (...) Biz iki dövləti (Rusiya ilə İranı) bir-birindən ayırmırıq və təsvir edilən bədbəxtlik Peterburqda və ya Tehranda baş vermiş olsun, bizim üçün fərq etməz. Qoy təsəvvür eləsinlər ki, o, Peterburqda baş verib, qoy nə etməli olduğumuzu izah eləsinlər ki, biz də hər iki dövlətin qayda-qanunu və adətlərinə uyğun olaraq lazımi cəzanı və sərəncamı verək. Əlbəttə, biz hər iki dövlət arasında dostluq və ittifaqın möhkəmlənməsi üçün bütün səylərimizdən istifadə edəcək, bizim hökumətimizə yaxılan bu ayıbı yuyacağıq.

Öldürülənlərin hamısı lazımi ehtiram və hörmətə uyğun olaraq torpağa verilmişdir. Biz birinci katibə təsəlli veririk, günahkarları isə gecikmədən cəzalandıracağıq. Böyük katibi şahid və hər şeyin necə baş verdiyini danışa biləcək bir adam kimi iki gündən sonra Nəzərəli xanla birlikdə qraf Paskeviçə göndərəcəyik.

Bu biabırçılığı aradan qaldırmaq və yumşaltmaq üçün biz sizin məsləhətinizi gözləyirik.

(AKAK, c. 7, səh. 680)

ŞAHZADƏ ABBAS MİRZƏDƏN – HÖKMDAR İMPERATORA



İmperator
I Nikolay

Hər şeydən əvvəl bütün sirlərdən agah və bütün dünyaya sahib olan, bütün günahları bağışlamaq və hökmdarlara qüdrət bəxş etmək iqtidarına malik Uca Allahı mədh edərək, sonra Onun doğru yola yönəldən ulu müqəddəslərinə və ilahi sirdən xəbərdar olan və haqq-hesab günü bizim əvəzimizdən xahiş edən peyğəmbərlərə itaətkarlığımızı bildirərək, Siz Əlahəzrət İmperatora, – qüdrətli, mülayim, ədalətli, Dara kimi, səltənətdən məhrum edən və onu bəxş eləyən, tərifəlayiq keyfiyyətlərə malik olan, çox ləyaqətli, öz rəhmi və mərhəməti ilə bütün dünyada tanınan

əziz əmimə və bütün Rusiyanın padşahına bildirirəm ki, fani taleyin gərdişi ilə İranın öz üstünü örtdüyü xəcalət heç bir təsvirə sığmasa da, mən Siz Əlahəzrətin lütfünə və alicənablığına güvənirəm.

Ötən il İran öz qəlbi və ürəyi ilə yüksək Rusiya dövlətinin dostluğuna nail oldu. Bunun üçün Allahın lütfü və Əlahəzrət İmperatorun alicənablığı sayəsində çox ürəkdən istədiyini əldə edənə qədər nə əməyini, nə ləyaqətini əsirgəmədi. Bu il isə mən bu dostluğun möhkəmlənməsi üçün və bəzi digər işlərə görə Əlahəzrət İmperatorun görüşünə layiq görülmək üçün yola çıxmaq niyyətində idim.

Bu arada Rusiyanın səlahiyyətli səfirinin başına elə bir iş gəldi ki, İranda heç vaxt belə bir şey baş verməmişdir və onun qabaqcadan qarşısını almaq imkanı olmamışdır. Hər sirdən xəbərdar olan, bu dünyanı yaradan Allah şahiddir ki, mən İranın bu rüsvayçılığa düçar olmasını görməkdənsə, bütün qardaşlarım və oğlanlarımla bir yerdə ölməyi üstün tutardım. Bütün əyanlar və İran sarayının adlı-sanlı şəxsləri bu bədbəxt hadisəyə görə indi yasa bürünmüşlər. Əlahəzrət şah böyük hüzn içərisindədir. İranın ötən il keçirdiyi bütün narahatlıq, əziyyət və itkilərindən rum olmaq istəmədiyinə heç bir şübhə ola bilməz. Mən özüm Əlahəzrət İmperatorla görüşə gəlmək istəsəm də, hazırkı vəziyyətdə yola çıxmağa heç vaxt razı olmaram. İran xalqı, həm əyanlar, həm də qara camaat Rusiya ilə düşmənçiliyin acısını və dostluğun şirinliyini dəfələrlə sınaqdan keçiriblər və buna görə də o, heç cür yaxşını pisə, dincliyi narahatlığa dəyişmək arzusunda ola bilməz.

Hər şeyə qadir Allaha və Əlahəzrət hökmdarların tacına and içirəm ki, bu idbar və rüsvayçı hadisənin mənbəyi sadə adamların qəzəblənməsi olmuşdur. Qayda qanundan və abadlıqdan uzaq olan şəhərlərdə, xüsusilə də Türkiyənin paytaxtı Konstantinopolda, cahil qara kütlənin bu cür qiyamları tez-tez olur, ancaq ötən ilə kimi İran şəhərlərində heç vaxt belə hadisə olmamışdır. Bizim Rusiya ilə keçən ilki müharibəmiz səbəbindən başqa heç bir işlə məşğul olmaq mümkün olmadığından İranın bəzi şəhərlərində bu cür qarışıqlıqlar və narazılıqlar baş vermişdi ki, hökumət buna görə cəza verə bilməzdi. Tehranda baş verən indiki hadisəyə gəldikdə isə, hökumət qiyamçıları və təhrikçiləri cəzalandırmaq üçün bütün səylərindən istifadə edəcəkdir. Mən yeganə bir arzu ilə Siz Əlahəzrət İmperatorla görüşmək istəyirdim ki,

Allahın köməyi ilə iki dövlət arasındakı səmimi həmrəylik və rəğbət möhkəmlənsin və Siz Əlahəzrət İmperatorun yüksək keyfiyyətləri sayəsində Rusiya ilə düşmənçilik səbəbindən qırılmağa məruz qalmış əlaqələr yenidən çiçəklənsin. Bundan sonra isə, Allahın lütfü, Əlahəzrət İmperatorun diqqəti ilə İranda bütün qarışıqlıqlara son qoyulacaqdır. İndi baş vermiş hadisənin düzəldilməsi üçün ən yaxşı vasitə tamamilə Əlahəzrət İmperatorun xeyirxah sərəncamını verməkdir. Sonda cürət edib, Əlahəzrət İmperatordan İranın bu rüsvayçılığı yumasına imkan verməsini xahiş edirəm, mənə gəldikdə isə Əlahəzrət İmperatorun qarşısında dayanmağa tələsirəm.

(AKAK, c. 7, səh. 680- 681)

ŞAHZADƏ ABBAS MİRZƏDƏN – QRAF PASKEVİÇƏ

Bu fani dünyanın gərdişinə təəccüb qalaraq və zavallı Qriboyedovun başına gələn hadisənin xəcaləti altında, parlaq cənabınız üçün bunu necə təsvir edim, izahat qapısını necə açım bilmirəm. Bizim nə vəziyyətə düşdüyümüzü gözü görən Amburger, əlbəttə, parlaq cənabınıza, bizim kədərimizin nə qədər böyük olduğunu çatdıracaqdır. Biz öz qardaşlarımız və oğullarımızla birlikdə ölməyi daha üstün tutardıq ki, təki bu əbədi şərəfsizlik İranın üzərinə düşməsin. Parlaq cənabınızın özü hökm verə bilər ki, bunu heç kim gözləmirdi və vaxtında nəsə eləmək üçün heç bir imkan yox idi. Hadisə kütlənin qəfil özbaşınalığı səbəbindən baş verib, şərəfsizlik isə bizim üstümüzdə qalıb və buna görə də bizim sarayın bütün məmurları və bu diyarda işləri idarə edənlərin hamısı matəm libasına bürünüb. Şahənşah özü hədsiz kədərlənib. İndi, şaban ayının 17-də mən Əlahəzrətdən fərman almışam, həmin fərmanda o mənə buyurur ki, bu hadisəni Hökmdar İmperatora hansı şəkildə xəbər vermək üçün parlaq cənabınızdan təlimat xahiş edim, bu məqsədlə yüksək dərəcəli Mirzə Məsudu sizin yanınıza göndəririk, ona parlaq cənabınızla bu barədə danışıq aparmaq həvalə edilib. Əgər mümkün saysanız, onu mənim məktubum, həmçinin bunun ardınca şahın xüsusi məmur və nazirliyin katibi Maltsevlə sizə çatdırılacaq üzr məktubu ilə birlikdə, kuryerlə Hökmdar İmperatorun yanına göndərin.

Bir sözlə, şahın buyruğu bundan ibarətdir ki, əlahəzrət şah Rusiya sarayının İran sarayı ilə ürəyimiz və qəlbimizlə nail

olduğumuz dostluğuna heç bir vəchlə xəyanət etməyəcəkdir və o, Tehranla Peterburqu özü üçün eyni hesab edir. Əgər belə bir hadisə Peterburqda baş vermiş olsaydı, onda əlbəttə ki, Rusiya sarayının nazirləri lazımi sərəncamlar qəbul edər, bizə də zəruri tövsiyələr vermiş olardılar, buna görə də sizdən onları bizə bildirməyinizi xahiş edir ki, biz də həmin tövsiyələrə tam uyğun olaraq hadisənin günahkarlarına cəza verməyə və üzr istəməyə başlayaq və bununla da İranı onun üzərinə yıxılan rüsvayçılıq yükündən azad edək.

(AKAK, c. 7, səh. 681)

Abbas Mirzənin düşüncələrinin səmimiliyinə və onun A.S.Qriboyedovun ölümündə əli olmadığına inanmaq istərdik və görünür, qraf Paskeviç də bu fikirdə olub.

QRAF PASKEVİÇDƏN – ABBAS MİRZƏYƏ
10 MART 1829-CU İL

Rusiya İmperatorunun İran sarayındakı səfirinin İranın paytaxtında qətl edilməsi abad ölkələrdə eşidilməmiş bir hadisədir. Bu hadisə o qədər mühümdür ki, mən bu haqda heç bir qərara gələ bilmədim və yalnız o haqqda ilk xəbəri alan kimi dərhal Əlahəzrət İmperatora bu barədə məlumat verməyi özümə borc bildim. İndi, Mirzə Məsud bura gələndə isə gətirdiyi izahatları Yüksək icazəyə təqdim etdim.

Alihəzrətinizin hisslərini və düşüncə tərzini bildiyimə görə, bu cinayətin sizə necə pis təsir etdiyini tamamilə anlayıram və şübhə etmirəm ki, sizin bütün qayğılarınız iki dövlət arasındakı ittifaqın pozulmamasına yönəlib (...)

Ancaq bununla belə, mənə bütün Azərbaycanda sərbazların toplanması barədə fasiləsiz olaraq xəbərlər gəlib çatır. Maku xanı qalanı azuqə ilə doldurur, özünün bütün sərbazlarını silahlandırıb, onlara hər gün təlim keçilir. Mərənd və Gərgərdə də qoşun toplanır və müharibəyə hazırlıq görülür. Belə şayiələr gəzir ki, guya hətta Tehranda və Kirmanşahda əhəmiyyətli qüvvələr birləşdirilir və guya 30 toplu 30 minlik qoşun Tehrandan Təbrizə gəlir. Həmçinin açıq danışırlar ki, İran hökuməti Türkiyə hökuməti ilə fasiləsiz münasibətdədir, İranlılar türklərə kömək etmək niyyətindədirlər və nəhayət, Azərbaycan sakinlərinə ticarət üçün bizim hüdudlarımıza gəlmək qadağan olunub.

Mən bu xəbərləri şişirdilmiş hesab etsəm və onlara tam inanmasam da, istər-istəməz onlar məndə İran hökumətinin görüş və niyyətləri sarıdan böyük təəccüb doğurur, buna görə də izah etdiyim bu məsələ barədə müsbət rəylə məni şərəfləndirməyinizi acizanə xahiş edirəm.

Bunların hamısının sonunda bunu izah etməyi özümə borc hesab edirəm ki, şahın alihəzrətinizə fərmanında məhz deyilir ki, bizim missiyanın katibi iki gündən sonra Nəzərəli xanla mənə göndəriləcək və əlihəzrətinizin özü də Mirzə Məsudun mənə gətirdiyi məktubunuzda bunu təsdiq edib. Ancaq indiyə kimi Maltsev nəinki bura gəlib çıxmayıb, hətta ondan bir xəbər belə yoxdur. Yalnız həmin məmur bizim səfirin başına gələn bədbəxt hadisəni lazımi şəkildə izah və təqdim edə biləcəyi üçün Maltsevin nə qədər mümkündür o qədər tez Tiflisə gəlib çıxmasına əlahəzrətinizdən öz güclü təsirinizi və yardımınızı göstərməyi xahiş edirəm

(AKAK, c. 7, səh. 681)

Səfir Qriboyedovun vəhşicəsinə qətlindən, demək olar ki, iki ay sonra 1829-cu il martın 25-də İrandakı Rusiya səfirliyinin birinci katibi İ.S.Maltsev Tiflisə gəlib çıxdı.

SƏFİRLİYİN BİRİNCİ KATİBİ İ.S.MALTSEV KİM İDİ?

Beləliklə, səfirliyin birinci katibi İvan Sergeyeviç Maltsev (1807–1880) Tehran faciəsinin sağ qalmış yeganə şahidi idi və o, Rusiya səfirliyinə hücum və Qriboyedovun qətli barədə ətraflı məlumat verə bilərdi. Lakin bu cür suallar meydana çıxır: Rusiya səfirliyinin ikinci şəxsi İ.S.Maltsev nə üçün Tehranda bu qədər çox qalıb? Tehran hökuməti səfirin ölümündən sonra onu paytaxtda saxlamaqla hansı



İ.S. Maltsev

məqsədi güdürdü? Bəlkə Tehranda Rusiyanın nazir-rezidenti A.S.Qriboyedovun qətlinin yeganə şahidinin, ümumiyyətlə, Rusiyaya qaytarıb-qaytarmamaq və yaxud Maltsevin öldürülmək və bununla da Rusiya səfirliyinə hücum haqqında İran tərəfinin istədiyi versiyanı təqdim etmək məsələsi həll olunurdu? Yaxud qaytarıldığı təqdirdə, Maltsevin Rusiyaya Tehranda baş verən faciə haqqında İran "həqiqətini" ona verilən təlimata uyğun danışacağına zəmanət almaq istəyirdilər? Və sonuncu sual: İ.S.Maltsev, ümumiyyətlə, kimdir? Qriboyedov Peterburqda səfirliyin tərkibini formalaşdırarkən ona güvənməkdə səhv etməmişdirmi?

Son nəhayətdə İran tərəfi hər halda Rus missiyasının birinci katibini buraxmaq qərarına gəldi və bununla da qaraguruhun Rusiya səfirliyinə hücumunda və əlbəttə ki, rus səfirinin qətlə yetirilməsində əli olmadığını nümayiş etdirmək istədi.

TİTULYAR MÜŞAVİR MALTSEVDƏN – QRAF PASKEVİÇƏ
18 MART 1829-CU İL, NAXÇIVAN

Nəhayət ki, öz sərhədimizə çatdım və artıq parlaq cənabınıza İran sarayında olan Rusiya səfirliyinin taleyi barədə məlumat vermək şərəfinə nail ola bilərəm. İndiyə kimi bu vəzifəni yerinə yetirmək imkanım olmayıb, çünki Tehranda məni üç həftə qarovul altında saxladılar və sonra süvari konvoyun müşayiəti ilə sərhədə kimi gətirdilər...

Tehranda bizim səfiri elə böyük hörmətlə qarşıladılar ki, İran onu heç vaxt heç bir Avropalıya göstərməmişdir. Şah yanında birinci audiensiyadan sonra, – bu zaman bütün mövcud mərasim maddələrinə riayət olundu, şahın əmri ilə oranın əyanları bizə gözəl hədiyyələr bəxş etdilər, – səfirin əlahəzrətlə qeyri-rəsmi görüşü oldu. Şah onunla çox mehriban davrandı və dedi: **"Siz mənim əmin (etibarlı) vəzirimsiniz, bütün vəzirlərim sizin nökərinizdir, hər bir məsələdə birbaş mənim özümə müraciət edin, şah sizin heç bir istəyinizi rədd etməz"**, – və bu cür çoxlu nəzakətliklər göstərdi; iranlılar belə şeylərdə digər şeylərə qarşı münasibətdə xəsis olduqları qədər çox səxavətlidirlər.

Səfirin bütün tələbləri dərhal, təxirə salınmadan yerinə yetirildi, yəni: Yəhya xanın adına, Rəştdə – sizin də səfirə yazdığınız kimi, – bizim sənayeçilərə qarşı törədilən bütün əngəlləri qadağan edən ciddi fərman verildi, Qəzvin şahzadəsinin adına isə ona keçmiş İrəvan sərdarı Hüseyn xanın evində saxlanılan bütün əsirləri azad etmək imkanı verən belə bir fərman çıxarıldı.

Şah səfirə hədiyyələr və 1-ci dərəcəli Şir və Günəş ordeni, digər məmurlara isə həmin ordenin 2-ci və 3-cü dərəcələrini göndərdi.

Qriboyedov Təbrizə getməyə hazırlaşırdı, şahın nazirlikləri ilə əlaqə saxlamaq və əlahəzrətə bizim Sarayın hədiyyələrini təqdim etmək üçün məni Tehranda saxlayırdı. O, şahla vida görüşünü keçirdi, atlar və qatırlar yola çıxmağa hazır idi və birdən gözlənilməz bir hadisə bizim işlərimizə başqa bir ahəng verdi və İran hökuməti ilə bizim aramıza faciəvi ixtilaf toxumu səpdi.

15 ildən artıq şahın hərəmxanasında xidmət edən **Mirzə Yaqub** adlı bir xoca (hərəmağası) axşam səfirin yanına gəldi və ona İrəvana, öz vətəninə qayıtmaq istədiyini bildirdi. Qriboyedov ona dedi ki, yalnız oğrular gecə özünə sığınacaq axtarar. Rusiya İmperatorunun naziri öz himayədarlığını müqavilə əsasında aşkar şəkildə göstərir və bundan yararlanmaq istəyən hər kəs onun yanına gecə deyil, açıq şəkildə, gündüz gəlməlidir. Mirzə Yaqub fərraşlarla öz evinə göndərildi və söz verildi ki, iranlılar ona qarşı ən xırda bir təhqiramiz hərəkətə belə yol verməyəcəklər.

Sabahı gün o, yenə həmin təkliflə səfirin yanına gəldi. Səfir onu Tehranda qalmağa inandırmağa çalışdı, dedi ki, o, burada adlı-sanlı adamdır, şah əndərununda (müsəlmanlarda daxili istirahət otaqları) ikinci şəxsdir, amma bizdə tamamilə əhəmiyyətsiz bir adama çevrilə bilər və s. və il. Ancaq Mirzə Yaqubun qəti şəkildə İrəvana getmək niyyətində olduğunu görüb, onu missiyanın binasında saxladı ki, özü ilə Təbrizə aparsın.

Qriboyedov Mirzə Yaqubun əmlakını gətirmək üçün onun evinə adam göndərdi, ancaq əşyalar artıq yüklənmiş olanda Mənuçöhr xanın (Yenikolopovlar ailəsindən olan Tiflis ermənilərindəndir, sonralar İsfahanın hakimi olub. Knyaz Sisianov Cənubi Qafqazda komandanlıq etdiyi dövrdə İrəvan yaxınlığında əsir alınıb və Təbrizdə axtalanıb) fərraşları gəlib,

Mirzə Yaqubun yüklərini və qatırını öz ağalarının yanına apardılar.

Şah hiddətlənmişdi, bağırtısı bütün saraya yayılmışdı, sanki, nəsə böyük bir xalq fəlakəti baş vermişdi. Şahın adamları cürbəcür cəfəng tələblərə gün ərzində iyirmi dəfə gəlirdilər. Onlar deyirdilər ki, xoca (hərəmağası) şahın arvadı kimi bir şeydir, deməli, səfir şahın arvadını əndərunundan çıxararaq onun əlindən alıb. Qriboyedov cavab verirdi ki, müqaviləyə əsasən o, indi Rusiya təbəəsidir və rus səfirinin onu nə geri vermək, nə də öz himayəsinə götürməkdən imtina etməyə ixtiyarı yoxdur. İranlılar öz məntiqləri ilə heç nəyə nail ola bilməyəcəklərini görüb, başqa bir vasitəyə əl atdılar. Onlar Mirzə Yaquba qarşı çox böyük məbləğdə pul iddiası irəli sürdülər və dedilər ki, o, şahın xəzinəsindən oğurluq edib, buna görə də heç yana buraxıla bilməz. Bu işi aydınlaşdırmaq üçün Qriboyedov onu tərcüməçi Şahnazarovla birlikdə Mənuçöhr xanın yanına göndərdi. Otaq xocalarla dolu idi və onlar Mirzə Yaqubu söyür, üzünə tüpürürdülər.

"Dəqiq, mən günahkaram, – Mirzə Yaqub Mənuçöhr xana deyirdi, – **günahkaram ki, şahın yanından birinci mən ayrılıram, ancaq tezliklə sən özün də mənim ardımca gələcəksən".**

Beləliklə, bu dəfə, söyüşdən başqa bir şey olmadı.

Şah istədi ki, bu məsələ dini məhkəmədə araşdırılsın. Səfir bununla razılaşdı və məni oraya göndərdi ki, qanunsuz qərar çıxarıldığı təqdirdə mən ona etiraz edim. Mirzə Yaqub və tərcüməçi ilə birlikdə şəriət məhkəməsinə getdim, Mənuçöhr xana bildirdim ki, mənim yanımda kimsə nəsə bir söyüş söyməyə cürət etsə, mən buna dözməyəcəyəm və danışıqlara son qoyub, Mirzə Yaqubu özümlə aparacağam və onlar bir də onu görməyəcəklər. Mən də öz yanımdan söz verirəm ki, Mirzə Yaqub da heç kimə güldən ağır bir söz deməyəcək.

"Mirzə Yaqub şah xəzinəsinə bir neçə min tümən pul borcludur, – Mənuçöhr xan mənə dedi, – **yəni, indi bu pullar batmalıdır?** (seçmə – R. İ.)

Mən ona cavab verdim ki, Mirzə Yaqub səfirə burda heç kimə bir qəpik də borcu olmadığını söyləyib və buna görə də qanuni sənədlər təqdim olunmalıdır və əgər həqiqətən gerçək, hakim (rəis) tərəfindən təsdiqlənmiş veksellər varsa, onda Zöhrab xanın tələblərini ödəməyə məcbur qalacaq.

"Belə sənədlər yoxdur, qəbzlər, şahidlər var".

"Müqaviləyə əsasən, – ona dedim, – *cənabınıza da məlumdur ki, bu cür kağızlar və sözlü ifadələr, əgər borclu özü onları ədalətli hesab etmirsə, pulla bağlı məhkəmə işlərində heç bir qüvvəyə malik deyil. Mirzə Yaqubun Zöhrab xandan pul aldığı dəqiqdir, ancaq o, əndərun xəzinədarı idi və şahın müxtəlif buyruqlarını yerinə yetirirdi, buna görə aldığı pulun bir qismini onlara xərcləyirdi. O, deyir ki, bunları evində olan kağız və qəbzlərlə sübut edə bilər. Ancaq cənabınız, öz adamlarını onun evinə göndərib, onlar da o, bizim missiyanın himayəsində olarkən zorla onun evinə girib əşyalarını, qatırını və atlarını özləri ilə aparıblar, bəlkə elə həmin kağızları da oğurlayıblar. Siz gərək rus məmurunun iştirakı ilə həmin əşyaları və kağızları siyahıya alaydınız, əlinizə keçəni zorla, özbaşına qarmalamayaydınız, deməli, Rusiya təbəəsinin hüquqlarının pozulmasında bütün məsuliyyət sizin üzərinizə düşür. Məhkəmə necə ədalətli qərar çıxara bilər ki, Zöhrab xanın əlində sənəd olduğu halda, Mirzə Yaqubun sənədlərini əlindən alıblar, bəlkə də artıq məhv ediblər?*

"Yaxşı, – Mənuçöhr xan dedi, – *ancaq müqavilədə heç də sizin dediklərıniz yoxdur".* Bunun cavabında tərcüməçiyə kommersiya konvensiyasının işarələdiyim bəzi bəndlərini oxumasını əmr etdim və onları eşidəndə burada olanların hamısı təəccübdən yerində donub qaldılar.

"Əgər belədirsə, – Mənuçöhr xan dedi, – *şəriət məhkəməsində bu işə baxıla bilməz. Qoy hər şey necə var, elə qalsın".*

Sonrakı gün səfir şahın yanında oldu və əlahəzrətin bu işin müətəmid və Mirzə Əbülhəsən xan tərəfindən araşdırılması təklifi ilə razılaşdı, ancaq bu müzakirə səfirlə Mirzə Yaqubun ölümünədək günbəgün təxirə salındı və bundan sonra da ona ehtiyac qalmadı.

Bununla belə, səfir Tehranda əsirlərin azad olunması üçün yorulmadan səy göstərdi. Allahyar xanın ixtiyarında olan iki əsir erməni qadınını onun yanına gətirdilər. Qriboyedov onları mənim yanımda sorğu-sual elədi və onlar öz vətənlərinə getmək istədiklərini bəyan edəndə, o onları sonra mənsub olduqları yerə göndərilmək üçün missiyanın binasında saxladı. Yeri gəlmişkən bu elə bir az əhəmiyyətli bir vəziyyət idi ki, ondan kimsə söz açmağa da dəyməzdi. Bu qadınlar barədə İran nazirliyi ilə bir kəlmə də kəsilmədi və yalnız səfir öldürüldükdən sonra onlar barədə danışmağa başladılar. Mən bu barədə Təbriz kaymakamına danışdım, o dedi ki,

səfirin ölümünün başlıca səbəbi bu qadınlar olub.

"Hörmətli cənab, – ona dedim, – *sizin əlinizdə səfirin İran nazirlikləri ilə yazışmaları var. Orada xoca Mirzə Yaqub haqqında çox danışılır, o qadınlar haqqında bircə kəlmə də olsun varmı?"*

"Düz deyirsən, o qadınların adı heç yerdə heç nə deyilmir, ancaq siz onları, iradələrinin əksinə olaraq, orada zorla tutub saxlamısınız".



Qədim Tehranda Topxana meydanı

"Cürət edib, sizi inandırıram ki, – ona cavab verdim, – *onlar mənim yanımda öz vətənlərinə qayıtmaq istədiklərini bəyan etdilər, səfirin burdan getmək istəməyənlə heç vaxt zorla götürmədiyinə ən gözəl sübut isə bütün Qəzvinin şahidi olduğu bir hadisə sübut ola bilər. Orada bir seyidin evində Tiflis yaxınlığındakı koloniyadan olan biri erməni, digəri alman iki qadın vardı. Onlar səfirin yanına gətiriləndə Qəzvində qalmaq istədiklərini bildirdilər, səfir də dərhal onları buraxıb, seyidin yanına göndərdi.*

Bu arada müctəhid Mirzə Məsihə məlumat çatdı ki, Mirzə Yaqub müsəlman dinini söyür. Müctəhid deyib ki, *"bu adam 20 ildir bizim dinimizdə olub, bizim kitablarımızı oxuyub, indi Rusiyaya gedir, bizim dinimizi təhqir eləyir? O, xaindir, dinsizdir və ölümə layiqdir".* Qadınlar haqda da ona bildirdilər

ki, onları bizim binamızda zorla tutub saxlayırlar və guya müsəlman dinində imtinaya məcbur edirlər.

Mirzə Məsih axundları şahzadə Zilli Sultanın yanına göndərdi. Onlar ona dedilər: *"Rusiya ilə sülh müqaviləsini biz yazmamışıq və rusların bizim dinimizi dağıtmalarına dözməyəcəyik. Şaha məlumat verin ki, əsirləri hökmən bizə qaytarsınlar"*. Zilli sultan onlardan bir az gözləmələrini xahiş edib, hər şey haqqında şaha məlumat verəcəyini vəd eləyib. Axundlar Evlərinə dağılışıblar, yolda camaata səsləniblər: **"Sabah bazarı bağlayın və məscidlərə yığışın. Orda bizim sözümüzü eşidəcəksiniz!"**

Faciəvi 30 yanvar günü gəlib çatdı. Bazar bağlı idi. Günün əvvəlindən camaat məscidə yığışmışdı**. "Rus səfirinin evinə gedin, əsirləri alın, Mirzə Yaqubla Rüstəmi, səfirin xidmətində olan gürcünü öldürün".**

Minlərlə insan əlində sıyrılmış xəncər bizim binaya girib daş atmağa başladılar. Mən bu vaxt əmisi Mənuçöhr xan tərəfindən Qriboyedovun yanına göndərilən Solomon Melikovun həyətdən necə qaçıb keçdiyini gördüm. Camaat onu daşa basdı, onun arxasınca, ikinci və üçüncü həyətə cumdular, əsirlərlə səfir orada idilər. Bütün binaların damları azğınlaşmış qaragüruhla dolu idi, onlar qəddar çığırtıları ilə öz sevinc və təntənələrini izhar edirdilər. Bizim qarovul sərbazlarının (əsgərlərinin) üstündə güllələri yox idi, çardaqda saxlanılan tüfənglərini götürmək üçün oraya cumdular, amma artıq onlar camaat tərəfindən qəsb edilmişdi. Bizim keşikçi kazaklar atəş açdılar. O zaman hər yerdə qırğın başladı.



Şahzadə
Zilli sultan

Səfir əvvəlcə elə güman etdi ki, onlar yalnız əsirləri geri almaq istəyirlər, onun keşiyində duran üç kazaka boş güllə ilə atəş açmağı əmr etdi. Ancaq səfir, həyətdə onların bizim adamları doğramağa başladığını gördü, yalnız onda tapançalara güllə doldurmağı əmr etdi. 15 nəfərə yaxın məmur və xidmətçi səfirin otağına yığılmışdı və mərdliklə müdafiə olunurdular. Ancaq elə bu vaxt rusların son

sığınacağı olan bu otağın tavanı alışıb yanmağa başladı. Oradakıların hamısı yuxarıdan atılan daş, tüfəng atəşi və içəriyə soxulan qaragüruhçuların xəncər zərbəsi ilə qətlə yetirildi. Qarət başlandı. Mən iranlıların ələ keçirdikləri qənimətləri öz aralarında çığır-bağır və dava-dalaşla necə bölüşdüklərini gördüm. Missiyanın pulları, kağızları və jurnallarının hamısı qarət olundu (mən belə güman edirəm ki, kağızlar indi İran nazirliyinin əlindədir)

Bu zaman yüzlərlə sərbaz ilə birlikdə şahın göndərdiyi mayor Hadı bəy gəlib çıxdı, ancaq yardıma gələn bu qoşunun gülləsi yox idi. Silahlanmış və azğınlaşmış qaragüruhçulara qarşı süngüdən deyil, yalnız bəlağətdən istifadə etmək əmri verildiyindən, onlar bu vəhşiliyin yalnız sakit şahidləri oldular. Vəzir Mirzə Məmmədəli xanla sergent (polkovnik) də oraya göndərilmişdi. Xeyli zamandır tanıdığım sergenti görəndə ondan yanıma gəlməsini xahiş etdim. O mənə dedi ki, səfir və missiyanın bütün məmurları öldürülüb, mənim necə qurtula bildiyimi anlaya bilmir, qaldığım otağa keşikçi qoydu və axşam məni ziyarət edəcəyinə söz verdi. Günəşin batmasına bir saat qalmış, bizim dağıdılmış binada yalnız sərbazların qaldığı bir vaxtda şah məmuru ora gəldi, dörd divara ucadan bir fərman oxudu; həmin fərman camaatı şahın qəzəbindən qorxaraq sakitcə bizim binadan çıxmağa və hər cür azğınlıqdan uzaq olmağa çağırırdı.

Axşam saat 9-da sergent silahlı qulamları ilə gəldi, mənə və adamlarıma sərbaz libası geyindirib, Zilli sultanın sarayına apardı.

O dəhşətli gündə bizim cəmi 37 adamımız və 19 Tehran sakini öldürülmüşdür.

(AKAK, c. 7, səh. 688-689)

Nazir-rezidentin ölümü tarixçəsində səfirliyin birinci katibi ilə bağlı vəziyyət, hətta biz İvan Sergeyeviç Maltsevin məlumatı ilə tanış olduqdan sonra belə tam aydınlaşmır, hətta onda heç də hər şey doğru deyil.

Evi Rusiya səfirliyinin binası ilə bitişik qonşu – xan, guya onunla mehriban münasibətdə olan Maltsevə xüsusi rəğbət bəsləyir. Onları konkret olaraq nəyin birləşdirdiyi bu günə qədər məlum deyil. Bəlkə də xan, rus missiyasında ikinci və çox

məlumatlı bir şəxs olan Maltsevdən alınan informasiyaları İran sarayına çatdırmaqla məşğul imiş. Hər şey mümkündür. Hər halda, vəhşiləşmiş kütlə missiyanın binasına hücum edəndə xan Maltsevi missiyanın binasına bitişik evin damı ilə keçib, onun evində gizlənməyə razı salıb. Bəlkə də Maltsevə bu ölümcül təhlükə əvvəlcədən məlum olub. Onda belə bir sual meydana çıxır: Maltsev A.S.Qriboyedovu bu təhlükədən xəbərdar edibmi, əgər edibsə, Rusiya səfiri buna necə reaksiya verib? Əlbəttə, Rusiyanın nazir-səfiri səfirliyin birinci şəxsi kimi, başlarının üstünü ölüm təhlükəsi kəsən əməkdaşlarının belə bir rüsvayçılıqla qaçmasına, yəqin ki, razı olmazdı.

Qriboyedov hələ yeniyetmə yaşlarından cəsur qəlbli və yüksək mənəviyyatlı bir şəxsiyyət olmuşdur. Lakin səfirliyin ikinci şəxsi olan Maltsev canını xilas edərkən, öz rəisinin – nazir Qriboyedovun da təhlükəsizliyinin qayğısına qalmalı idi. Başqa cür ola bilməzdi! Ancaq Maltsev öz ifadələrində bu mövzudan yan keçdiyinə görə, çox güman ki, o, səfiri bu təhlükədən xəbərdar etmədən, tələm-tələsik özünü xilas etmişdir (yaxud da özünü xilas etməkdə ona köməklik göstərmişdilər). Əgər İran sarayında Maltsevin həyatını qorumaq barədə düşünərək, Rusiya səfirinin həyatının ən faciəvi anlarında onun qaçışını təşkil etmişlərsə, onda bu nəticəyə gəlmək olar ki, səfirin öldürülə biləcəyi artıq əvvəlcədən nəzərdən keçirilmişdir.

Qəzəblənmiş qaragüruh sakitləşdiriləndən sonra Maltsev təcili İran hökumətinin mühafizəsi altına alınmışdır, şah səxavətlə ona bəxşişlər vermiş və hətta şəxsən Maltsevi İranda səfir olmağa dəvət etmişdir. Qriboyedov dəfələrlə şahın narazılığına səbəb olan hərəkətlərə yol vermişdi, Maltsev isə şahın ətrafı tərəfindən yaxşı, müsbət qəbul olunurdu, sanki hər şübhədən kənar idi. Maltsevin qonşu xan tərəfindən xilas edilməsi şah və ya İran sarayının Qriboyedovun ölümündən sonra Maltsev barədə müəyyən planları olduğuna görə onun həyatını qorumağa çalışmaları ilə izah olunmurmu?

Nəhayət, əgər Qriboyedovun həyatını qorumağa cəhd

göstərməyən Maltsevin davranışı dövlət məmuruna xas şərəf və ləyaqətdən məhrum idisə, onda qalan ömrü boyu Maltsevin şərəfi nə üçün şübhə doğurmamış, ona sonrakı illərdə də Rusiya XİN-də xidmət etmək imkanı verilmişdir?

Səlahiyyətli nazir Qriboyedovdan savayı səfirliyin ikinci katibi protokolçu Adelunq, ştabs-kapitan Nazarov, dəftərxana rəisi knyaz Kobulov, tərcüməçi Solomon Melikov, İrəvan hospitalının ordinatoru Malmberq, texniki işçilər – knyaz Rüstəm bəy və knyaz Dadaş bəy, kamerdiner Aleksandr Dmitriyev, aşbaz Yakov Zaxarov və başqaları da öldürülənlər arasında olmuşdur. Səfirliyin tərkibindən cəmi 37 nəfər öldürülmüşdür.

Rusiya missiyasının həlak olmuş üzvlərinin cəsədlərinin axtarışı düz yeddi il çəkdi. Rusiya səfirli əməkdaşlarının meyitləri səfir Qriboyedovun və səfirliyi mühafizə edən kazaklarınkı ilə birlikdə şəhər ətrafında hansısa bir quyuya atılmışdı. Yeddi il bu meyitlər orada qalmışdı. Rusiya səfirinin cəsədinin axtarışına yalnız onun ölümündən iki ay keçəndən sonra başlanılmışdı.

Əlahəzrət İmperatorun naziri Qriboyedovun cəsədini bəzi əlamətlərə görə axtarıb tapmaq mümkün olmuşdu, şükür Allaha ki, belə əlamətlər mövcud idi. Hərçənd bu fərqləndirici əlamətləri iki aydan sonra cəsəddə müəyyən edə bilmək çox şübhəli görünür. Tanınmaz dərəcədə eybəcər hala salınmış meyitlər arasında Qriboyedovun cəsədini guya güllə ilə deşilib zədələnmiş sol əli və güllə yarası almış çeçələ barmağına (Qriboyedovun Zavadski ilə çoxdankı ikiqat duelinin izlərinə) görə tanımaq mümkün olmuşdu. Əgər güllə ilə deşilmiş sol əli və güllə ilə yaralanmış çeçələ barmağı tapılmasaydı, daha bir inandırıcı sübut – Qriboyedovu adı üstünə yazılmış üzüyü vardı, ancaq bu faktı da yoxlamaq çətindir. 1829-cu il yanvarın 30-da vəhşiləşmiş kütlə Rusiya səfirliyinin binasında əlinə keçəni təkcə döyüb öldürmür, həm də məharətlə qarət edirdi. Qaragüruhçuların tikə-tikə edilmiş səfirin barmağındakı bahalı üzüyü görməməsi, onu ordan çıxarmaması ağla-

batan iş deyil. Doğranmış cəsədləri quyuya atmazdan əvvəl, yəqin ki, hər birini diqqətlə nəzərdən keçirir, hətta zədələnmiş paltarları belə meyitlərin əynindən çıxarırdılar. Ancaq biz bununla təsəlli tapaq ki, protokol məlumatlarına görə, qətlə yetirilmiş Qriboyedovun cəsədini tanıya biliblər.

Tehran faciəsi qurbanlarının cəsədlərinin qalıqları yeddi ildən sonra erməni kilsəsinə gətirilərək, onun həyətində ümumi bir qəbirdə dəfn edilmişdir – bura Tehranda yeganə yer idi ki, orda xristianları dəfn etmək olardı.

Həm Rusiyanın, həm də İranın istəmədiyi üçüncü Rusiya-İran müharibəsi Qriboyedovun ölümü sayəsində baş vermədi. İranın rus-türk müharibəsində Türkiyəni müdafiə edəcəyi ilə bağlı Rusiyanın əndişəsi də öz təsdiqini tapmadı. İran neytrallığa riayət etdi. Rusiya da bunu qiymətləndirdi. Dostluq münasibətlərini bundan sonra da möhkəmləndirmək naminə kontribusiyanın sonuncu hissəsinin ödənişi beş il təxirə salındı, sonra isə onu, ümumiyyətlə İrana bağışladılar. Bu hadisələr fonunda Qriboyedovun İran üçün rüsvayçı qətli, iki ölkə arasındakı mehriban münasibətlərin korlanmaması üçün düz 30 il unuduldu.

İmperator Nikolay Pavloviçin İran şahından baş vermiş hadisədə öz günahsızlığını sübut edən dəlillər təqdim etməsi və Tehran faciəsində əli olanların ciddi cəzalandırılması tələbini çatdıran qraf Nesselrode 1829-cu il martın 16-da qraf Paskeviçə məktub göndərdi:

> "İşlərin indiki vəziyyətində qiyamın əsas günahkarlarının edam edilməsi və Abbas Mirzənin və ya onun oğlunun, İran hökumətinin bizim missiyanın qətlində günahsızlığının izahı və o cinayətə görə cinayətkarlara verilən cəzalar barədə şahın Hökmdar İmperatora məktubunu gətirməsi ilə kifayətlənməmək olmaz".
>
> *(AKAK, c. 7, səh. 683)*

İran şahı da təcili surətdə öz tədbirlərini gördü.

İran sarayının məlumatlarına görə, Rusiya səfirliyinə hücumda iştirak edən 1500 nəfər insan cəzalandırıldı: bəziləri edam olundu, digərlərinin əli, kimlərinsə burnu kəsildi.

Minə yaxın ailə paytaxtda yaşamaq hüququndan məhrum edilərək, Tehrandan qovuldu.

Hökmdar İmperator Nikolay Pavloviçdən üzr istəmək tapşırığı ilə Rusiyaya İran elçiləri göndərildi.

RUSİYA SƏFİRLİYİNDƏ QANLI QİSASI KÜTLƏ TÖRƏTMİŞDİ, ANCAQ BAŞLICA TƏHRİKÇİLƏR BEŞ NƏFƏR: BİR İRANLI, İKİ ERMƏNİ KİŞİSİ VƏ İKİ ERMƏNİ QADINI OLMUŞDUR

1829-cu il yanvarın 30-da Tehranda baş verən faciəni onun yeganə şahidi – Rusiya səfirliyinin katibi İ.S.Maltsev təsvir etmişdir. Ancaq bu təsvirdə izah və yaxud dəqiqləşdirmə tələb edən yerlər var. Ondakı bəzi boşluqlar, ola bilsin ki, İran tərəfinin təsiri, bələ də təzyiqi altında meydana çıxmışdır; məlum olduğu kimi onlar İ.S. Maltsevi Rusiyaya buraxmaq yoxsa həmişəlik İranda saxlamaqda çox tərəddüd edirdilər.

İstisna olunmur ki, rus naziri A.S.Qriboyedovun qətlinin tarixi versiyaları bundan sonra da dəfələrlə və müxtəlif şəkildə gələcək nəsillərə təqdim ediləcəkdir; çünki Tehran faciəsinin yeganə şahidi Maltsevin məlumatı sanki açar deşiyindən müşahidəyə əsaslanır. O vaxtdan 180 il vaxt keçib, amma A.S.Qriboyedovun qətli haqqında həqiqət hələ də məlum deyil.

Bizə gəlib çatmış həqiqi tarixi sənədlərə əsaslanaraq, öz versiyamızı belə bir əminliklə təqdim edirik ki, hamilə arvadı Ninanın böyük həyəcan və sevgi içərisində Təbrizdə gözlədiyi A.S.Qriboyedov bu qədər şərəfsizcəsinə öldürülməməli

idi. Bir neçə aylıq xoşbəxt ər təcrübəsinə malik olan təbiətin bu nadir hədiyyəsi yarım ildən sonra xoşbəxt ata olmağa hazırlaşırdı. O, heç bir acı çəkmədən çox yaşamalı, çox şeylər yaratmalı idi, çünki Qriboyedova görə "xoşbəxt saatları müşahidə eləmirlər".

İndiyə kimi belə təsəvvür edilir ki, Qriboyedovun ölümünün səbəbi nəsə təəssüf doğuran tarixi bir anlaşılmazlıq, təsadüfən meydana gələn hadisələrin bir-birinin üst-üstə düşməsidir. Ancaq bu anlaşılmazlığın səbəbləri, rıçaqları, təhrikedici motivləri vardı və bunların daşıyıcıları konkret şəxslər idi.

Deyirlər ki, uca Allah yuxuda olanda şeytan mürgüləmir. Fikri-zikri sevimli Ninanın yanında olan Qriboyedov bir sıra düşünülməmiş, hətta son dərəcə şaşırdıcı hərəkətlərə yol vermiş, sanki yad bir iradənin təsiri altında, özümüzdə cürət taparaq deyək ki, şeytanın təhriki ilə hərəkət etmişdir. Cəhənnəm təmsilçisinin möhkəm ağuşunda olarkən öz hərəkətlərinə izah axtarmaq lazım gəlmir. Hətta uca Allah böyük rus insanı Aleksandr Sergeyeviç Qriboyedova misilsiz dahilərə məxsus nadir ağıl bəxş etmiş olsa belə, Şeytanın hipnozundan qurtulmaq mümkün olan iş deyildir.

Qəzəblənmiş kütlə səfirliyi dağıdır, əlinə keçən hər kəsi döyür və öldürürdü. Qaragüruh səfirlə sıravi məmura fərq qoymurdu, həm də çətin ki, o, səfiri sifətdən tanıya biləydi. Azğınlaşmış kütlə qarşısına çıxan hər şeyi əzib keçirdi, ayaqları altında cansız cəsədlər və qan gölməçələri qalanda, artıq qarət etməyə heç bir şey, öldürməyə heç kəs olmayanda isə qaragüruh Rusiya səfirliyinin binasını tərk etdi. Acıqlı kütlə Rusiya səfirliyinə öz iradəsinə görə hücum etməmişdi, onu oraya göndərmişdilər. Tehranın baş ruhanisi Məsih də özgəsinin iradəsini yerinə yetirmişdi, o da bu hücumun təşəbbüskarı deyildi, o da kimsə bir başqasının dediklərinə əsasən hərəkət etmişdi.

Bizim bu yazımızın gedişində bu misli görünməmiş

intiqamın əsas günahkarları tədricən üzə çıxırdı, indi onları bir yerə yığaq.

Onlar beş nəfər idilər. Biri əslən iranlı, dördü isə erməni millətinə mənsub idi və onlar Tiflis və İrəvandan çıxmışdılar.

1. Adlı-sanlı şah əyanı və bizə artıq tanış olan iranlı **Allahyar xan** hakimiyyətdə olan Qacar nəslindən olub şahın kürəkəni idi, onun qızlarından biri ilə evlənmişdi. O, vəliəhd Abbas Mirzənin baş naziri, Türkmənçay müqaviləsinin imzalanma mərasiminin iştirakçısı, fəxri asafi-dövlət, yəni "dövlət Süleymanı" rütbəsi olan, İranda mühüm və nüfuzlu bir şəxsiyyət idi. Onunla toquşmaq çox təhlükəli idi və həm də nəyə lazım idi? Ondan hətta şah sarayının mühüm əyanları belə çəkinirdilər. Rusiyanın və şəxsən səfir Qriboyedovun qatı düşməni, Gülüstan müqaviləsi imzalandıqdan sonra Rusiya ilə sülhün başlıca əleyhdarı olan Allahyar xan Abbas Mirzəni və şahı 1826-cı ildə şahzadə Abbas Mirzə tərəfindən Rusiyaya qarşı xaincəsinə və elan olunmadan başladılan müharibəyə təhrik etmişdi. Hələ Peterburqda ikən, 1828-ci il aprelin 25-də Qriboyedov səlahiyyətli səfir vəzifəsinə təyin ediləndən sonra dostlarından birinə demişdi: ***"Orada bizim hamımızı doğrayacaqlar. Allahyar xan mənim şəxsi düşmənimdir, o heç vaxt Türkmənçay müqaviləsini mənə bağışlamayacaqdır".*** Məsələn, Qriboyedov Abbas Mirzəni özünün şəxsi düşməni adlandıra bilməzdi. Şahzadə yüksək dərəcədə intellektual idi. Türkmənçay müqaviləsinin hazırlanması zamanı diplomatik döyüşdə Abbas Mirzə Qriboyedova aşıq-aşkar uduzmuşdu, ancaq o, həmişə Qriboyedovu bir diplomat kimi yüksək qiymətləndirmişdi və baş faciəyə həqiqətən təəssüflənirdi. Qriboyedovla Abbas Mirzənin düşmən münasibəti barədə heç vaxt söhbət getməmişdir.

Artıq 1829-cu il yanvarın 30-da Tehranda baş verən faciədən sonra şah sarayının özündən başlayaraq Tehran əhalisinin müxtəlif təbəqələrində belə bir şayiə dolaşmağa başladı

ki, Rusiya səfirliyinə hücumun təşkilində təşəbbüs Allahyar xana məxsus olub. Ola bilsin ki, bu şayiəni Allahyar xanın paxıllığını çəkənlər yayırdılar. Şahın yaxın ətrafı buna elə bir əhəmiyyət vermirdi, çünki Rusiya ilə müharibə tərəfdarı olan qrupla yanaşı, İranda Rusiya imperiyası ilə sülhün tərəfdarı olan qrup da vardı. Bu qrupun başında Fətəli şahın özü və onun ağıllı varisi Abbas Mirzə dayanmışdı. Digər şahzadələr və nüfuzlu əyanlar da bu qrupa daxil idilər. Sülh qrupunun mövqeyi sarayda çox güclü olduğu üçün şahın yaxınlarına öz hökmdarları və padşahlarına sədaqətlə xidmət etməkdən savayı heç nə qalmırdı.

Ancaq Qriboyedovun ölümündə Allahyar xanın günahını şişirtmək lazım deyil. Təbrizin təhvil verilməsindən və rüsvayçı şəkildə əsir düşdükdən sonra o, artıq şah sarayında öz keçmiş nüfuzunu itirmişdi. İranın siyasi səhnəsindən çəkildiyi və şahın qəzəbindən qorxduğu bir vaxtda Allahyar xan yalnız başqaları ilə birlikdə, onlarla əməkdaşlıq edərək təxribat törədə bilərdi. Yeri gəlmişkən, artıq öz keçmiş nüfuzunu itirmiş olan bu **adlı-sanlı iranlını** bir kənara qoyub, **ermənilərə** keçək. Əgər ermənilər yüksək hakimiyyət zirvəsinə qalxarlarsa, onlar oradan möhkəm yapışırlar və onların Allahyar xan kimi üzüaşağı yuvarlanmaq təhlükəsi olmur.

A.S.Qriboyedovun qətlinin təşkilində **iki erməni hərəmağası**, şahın ətrafından olan iki çox nüfuzlu şəxs hərəkətə gətirilmişdi. Belə bir sual verilə bilər: **hərəmağaları, özü də ermənilər** şah sarayına necə gəlib düşmüş və nüfuzlu İran əyanlarına çevrilmişdilər? Necə olmuşdu ki, hərəmağaları Rusiya səfirinin qətlində iştirak etmişdilər? Fikirləşirsən: böyük bir dövlətin səfiri hara, hansısa hərəmağaları hara? Biri dağ, o biriləri siçan boyda.

Qara kütlənin gerçək təhrikçilərini, A.S.Qriboyedovun qətlinin əsl təşkilatçılarını araşdırmağa çalışaq.

Oxucu, yəqin, anlayır ki, söhbət, artıq bizə məlum olan **Mənuçöhr xandan** və **Mirzə Yaqubdan** – A.S. Qriboyedo-

vun qətlinin günahkarlarından gedir.

2. Hərəm ağalarının rəisi (xocabaşı) erməni Mənuçöhr xan "xan" və "xocabaşı" titullarından əlavə nadir "mötəmidaəd-dövlət" – "hökmdarın etibarlı şəxsi" rütbəsi ilə mükafatlandırılmışdı. Vaxtı ilə şah Mənuçöhr xanı bir çox vəzifələrdə sınaqdan keçirmişdi. Onu İsfahana hərbi qubernator təyin etmişdi. Qeyd edək ki, bu xüsusi bir vəzifədir. Bu vəzifəni alan əyalətlərinin hakimləri arasında birinci yerdə durur və yalnız şaha tabedir. Mənuçöhr xan xəzinə deyil, şəxsən şahın özünün gəlir götürdüyü bir neçə əyalətdən birinin Gilanın da hakimi olmuşdu.

Mənuçöhr xan İranda yeni maliyyə sistemi yaratmış, nəzarət və uçot məqsədilə nazirliklərə xərclərin ayrılması üçün büdcə tətbiq etmişdi. O, şaha və onun sarayına təsir etmək imkanına yiyələnmiş və öz mövqeyini o qədər gücləndirmişdi ki, şah Mənuçöhr xanın təkidi ilə əyalət hakimlərini azad və yaxud təyin edirdi. İran tarixində ilk dəfə olaraq Mənuçöhr xan yüksək bir hökumət qurumu – bir növü məşvərətçi və tövsiyəçi dövlət şurası olan divanxananı təsis etmişdi və ona özü sədrlik edirdi.

Öz ətrafında heç kəsə etibar etməyən və son dərəcə xəsis olan Fətəli şah, bununla belə özünün bütün varidatının qorunmasını Mənuçöhr xana etibar etmişdi və onların hesabını aparmağı ona tapşırmışdı. Sonralar Mənuçöhr xan şah xəzinəsinin müdirinə, bir növ şah sarayında maliyyə nazirinə çevrilmişdi. Şahın bütün hərəmağalarının rəisi təyin edilməsi isə onu şah sarayında xüsusi hörmətə malik bir əyana çevirmişdi.

Şah sarayında keçirdiyi iyirmi beş il ərzində Mənuçöhr xan onun xüsusi etibarını qazanmış, başqalarından daha çox onunla görüşmək imkanı əldə etmişdi, buna görə də Mənuçöhr xanın şaha təsirini şişirtmək o qədər asan deyil. İranın adlı-sanlı məmur və əyanları bu və ya digər mühüm məsələni sarayda həll etmək üçün hökmən Mənuçöhr xanla görüşməyə çalışır, onu məsləhətlərinə və lütfünə ümid edirdilər. Bu "şah kölgəsi"nin

qəbul otağı heç vaxt boş olmurdu. Bir sözlə, İranın yüksək sferalarında hərəmağası erməni Mənuçöhr xanın iştirakı olmadan həll edilən çox az iş vardı.

Fətəli şaha, ruhanilərə, eləcə də bütün Tehran əhalisinə təsir etmək gücünə malik olan Mənuçöhr xan Rusiya səfirliyinə hücumu çox asanlıqla, istədiyi şəkildə təşkil edə bilərdi. Mənuçöhr xan istəsəydi, Qriboyedovun həyatını qoruyub saxlaya bilərdi. Hər halda Rusiya səfiri Fətəli şahın kölgəsi olan bu çox qüdrətli və məkrli saray əyanı ilə hesablaşmalı idi.

İndi isə, Tehranda qaragüruhun Rusiya səfirliyinə hücumunda mühüm rol oynamış digər erməni barədə bir neçə söz deyək.

3. **Xoca Mirzə Yaqub (xatırladaq ki, o, əslən Markaryan soyadlı irəvanlıdır)** təxminən iyirmi beş il əvvəl müsəlmanlığı qəbul edərək, şah hərəmxanasında 15 ildən artıq əndərun rəisinin müavini vəzifəsində çalışıb və eyni zamanda xəzinədarı olub.

Mirzə Yaqub şah xəzinəsinin gəlir və çıxarlarının hesabını aparır, digər maliyyə əməliyyatlarını həyata keçirirdi. Var-dövləti başından aşırdı, israfçılığının həddi-hüdudu yox idi, ancaq bir şey tam aydın deyil ki, bu zənginlik hərəmağasının nəyinə lazım idi.

Uzun müddət şahın daxili istirahətxanasında xidmət edən Mirzə Yaqub şahın şəxsi həyatının bir çox sirlərini bilirdi, şah sarayı və hərəmxanasının gizlin içlərinin iştirakçısı olmuşdu, bir sözlə, çox məlumatlı bir əyan idi. Onun ölüsünü belə, İran hüdudlarından kənara buraxmaq çox təhlükəliydi. O, Rusiya siyasi polisi üçün böyük maraq doğura bilərdi, ancaq bu əxlaqsız adamı yalnız, Rusiyaya sağalmaz bir yoluxucu xəstəlik mikrobu atmaq məqsədi ilə qaytarmaq olardı.

Rusiyaya qaytarmaq üçün layiqli vətəndaşlar axtaran diplomatlar isə Mirzə Yaqub kimilərindən uzaq olmalıdırlar. Xristian dinini bir dəfə pula satanın nəinki onu, istənilən

adamı belə bir daha satmayacağına heç bir təminat ola bilməz. Qadın gözəlliyi qarşısında heç cür alışmayan kişi ehtirası kimi müqəddəslik anlayışı da Mirzə Yaquba yad bir şey idi.

Labüd və amansız intiqamdan qurtulmaq şansından istifadə edərkən, Rusiya təbəəliyinə keçmək barədə xahişinin Rusiya səfirini və səfirliyin bütün əməkdaşlarını fanatik kütlənin qəddar hücumuna məruz qoya biləcəyi Mirzə Yaqubu tamamilə narahat etmirdi.

Mirzə Yaqubun birbaşa rəisi yalnız şaha hesabat verən Mənuçöhr xan idi və o, öz tabeliyində olan bir adamın satqınlığına və Rusiyaya rüsvayçı qaçışına yol verə bilməzdi. Bəlkə də onlar artıq dost deyildilər, ancaq pul münasibətləri və saray sirləri onları bir-birinə bağlı hala salmışdı. Rusiya imperiyasının səfiri heç bir halda satqın və xəzinə oğrusunu səfirliyin müdafiəsi ilə təmin etməli deyildi. Üstəlik, Mirzə Yaqubun alçaqcasına qaçışından qeyzlənən şah onun ardınca səfirliyə özü adam göndərmişdi. İ.S.Maltsev öz məlumatında bu barədə yazır: **"Şah bərk hiddətlənmişdi, bütün saray sanki böyük bir xalq fəlakəti baş veribmiş kimi fəryad qoparmışdı. Gündə iyirmi dəfə şah tərəfindən göndərilən adamlar gəlirdi (...) Onlar deyirdilər ki, xoca (hərəmağası) şah üçün arvadı kimi bir şeydir və buna görə də belə çıxır ki, səfir onun arvadını əndərunundan çıxararaq əlindən alıb"**. Əlbəttə, Qriboyedov, həm də Mirzə Yaqub kimi bir fırıldaqçı xəzinə oğrusundan ötrü şahın qəzəblənməsinə yol verməmək üçün onun əndişəsi barədə ilk xəbəri alan kimi yanına getməli və izahat verməli idi.

Mirzə Yaqubun vaxtında əndəruna qaytarılması bu hərəmağasını ağır cəzadan qurtarmayacaqdı, amma, ola bilsin ki, həyəcanlanmış qara kütləni sakitləşdirməyə imkan yaradardı. Səfirliyin binası dağıdılmaz və bu qədər qətllər baş verməzdi. İslamın prinsipləri və iranlıların həyat tərzinə ləkə vurmayan, satqın və fırıldaqçı Mirzə Yaqubun deyil, şahın özü-

nün və bütün İran sarayının mövqeyini müdafiə edən A.S.Qriboyedovun həyatına qəsd edilməzdi. Əlahəzrət İmperatorun Səlahiyyətli səfirinin belə qərarı İran – Rusiya dostluğunun möhkəmlənməsinə yeni impuls vermiş olardı.

4. İndi də **iki erməni hərəmxana qadını ilə bağlı iyrənc faktlar barədə**.

Məlum olduğu kimi, Mirzə Yaqub həm də Rusiya səfirinin, vətənə qaytarmaq üçün keçmiş rusiyalıları axtarıb tapmaq tapşırığını yerinə yetirirdi. Əlbəttə, səfir Qriboyedov Rusiyanın müxtəlif vaxtlarda taleyin hökmü ilə itirdiyi, amma Rusiyanın himayəsinə və vətənə qaytarılmağa layiq insanları axtarırdı.

İnsan simasını itirmiş, əxlaqsız və xristian dinini çoxdan satmış Mirzə Yaqub rus səfirinin düşüncələrini çətin anlaya bilərdi. Mirzə Yaqub şahın kürəkəni, Rusiyanın qatı düşməni Allahyar xanın hərəmxanasından, əsir düşdükdən sonra İslam dinini qəbul etmiş iki erməni qadınını çıxarıb Rusiya səfirliyinə gətirməkdən başqa heç ağıllı düşünə bilməmişdi. Bu qadınları Qriboyedovun qarşısına çıxarmaq üçün kimlə, necə sövdələşdiyini, bu qədər illər keçəndən sonra biz artıq öyrənə bilmərik. Mənuçöhr xanın xəbəri və Allahyar xanın razılığı olmadan bu, çətin baş tuta bilərdi.

Əlbəttə, Mirzə Yaqubun bu təşəbbüsü Rusiya səfiri üçün son dərəcə təhlükəli idi. Çılğın vətənpərvərlik duyğularına qapılan A.S.Qriboyedovun özü bunu anlamaq iqtidarında olmaya da bilərdi. Ancaq çoxillik yalançılıq və intriqa təcrübəsinə malik olan, hərəmxana qaydalarını əla bilən Mirzə Yaqub özünün bu alçaq hərəkətinin Qriboyedova nəyə başa gələ biləcəyini yaxşı dərk edirdi. O məhv olarkən, cəhənnəmdə tək qalmasın deyə, başqalarını da özü ilə çəkib apardı.

O situasiyanı bir anlığa gözlərimizin önünə gətirək: şahın kürəkəni, İranın "dövlət Süleymanı", Qriboyedovun açıq-aşkar düşməni Allahyar xanın hərəmxanasından onun iki arvadını – bu iki satqın erməni qadınını Rusiya səfirliyinə

gətirirlər. Əsl vodevil süjetidir! Böyük bir dövlətin səfiri bu açıq-aşkar kirli işə nə üçün bulaşmalıdır? Onsuz da Rusiyaya rəğbət bəsləməyən, yüksək mənsəbli şah əyanının nifrətini daha qızışdırmaq kimə və nəyə lazımdır? Bu iki erməni hərəmxana qadının Rusiya səfirliyinə qəsdən gətirildiyinə şübhə yoxdur, məqsəd isə rus səfirini İslam qaydalarını təhqir etməkdə günahlandırmaq olmuşdur.

Qriboyedovla söhbət zamanı bu erməni hərəmxana qadınları guya yenidən Rusiyanın himayəsinə keçməyə və xristian dininə qayıtmağa razı olublar. Onlar İslamda özlərini tapa bilməyiblər, hərəmxanada isə, oradan qaçdıqlarına görə, yəqin günləri xoş keçməyib. Bu söhbət əsasında, hamıya yazığı gələn Qriboyedov qadınların ağası Allahyar xana bildirmədən, İran nazirliyinə belə xəbər vermədən onları Rusiya himayəsinə götürərək, səfirlik ərazisində qalmalarına qərar verir. Sonra isə bu qadınları özü ilə Təbrizə aparıb, oradan Rusiyaya göndərəcəkdi.

İstisna olunmur ki, – qanlı hadisələrdən sonra Tehranda bu cür mülahizələr də dilə gətirilmişdi, – Mirzə Yaqub bu qadınları Allahyar xanın razılığı ilə səfirliyə, Qriboyedovun yanına gətirib. İncə düşünülmüş intriqa naminə bu iki əclaf arasında nəsə bir sövdələşmə də ola bilərdi. Çox güman ki, kütlə arasında ehtirasları qızışdırmaq məqsədilə bu satqın erməni qadınlarına səfirdən Rusiyaya getməyə icazə almaq üçün İran qayda-qanunlarını necə pisləməyi öyrətmişdilər. Əslində isə onlar Rusiyaya getməyə hazırlaşmırdılar. Öz çirkin işlərini gördükdən sonra bu erməni qadınları Qriboyedova fikirlərini dəyişdiklərini bildirməli və Rusiya səfirliyini tərk edib, hərəmxanaya qayıtmalı idilər. Bu versiyanın mövcud olmaq hüququ var, çünki hadisə elə bu cür olub.

Bu, necə deyərlər, "dövlət Süleymanı"nın arvadları hələ Rusiya səfirliyinin binasında ikən, Tehranın ən ali ruhanisi – müctəhid Məsih Məscidə toplaşmış müsəlmanları inandırmağa çalışırdı ki, Rusiya səfiri Allahyar xanın hərəmxanasından

olan müsəlman qadınlarını nəinki zorla tutub saxlayır, həm də, ən dəhşətlisi də elə budur, onları müsəlman dinindən dönməyə məcbur edir. Məsihin bu sayıqlamaları ildırım sürətilə bütün Tehrana yayıldı. Məlum olduğu kimi, hərəmxana qadınlarının xilası üçün ard-arda səfirliyə xahişə gəlirdilər. Səfir Qriboyedova erməni qadınlarını, onların qalmaqal yaratmaq üçün qəsdən göndərilə biləcəyini güman etdiyi təqdirdə, qəbul etməməyə və ya buraxmağa və yaxud da bəd ayaqda Allahyar xanın özünü səfirliyə dəvət edib həqiqəti aydınlaşdırmağa və problemi dinc yolla həll etməyə heç nə mane olmurdu.

Lakin tezliklə Tehranda belə bir şayiə yayıldı ki, erməni qadınları məcburiyyət altında qalaraq Rusiyaya qayıtmağa razı olublar. Qaragüruh səfirlik binasının önündə toplaşıb onların azad edilməsini tələb edəndə bu qadınlar ciddi təhlükə qarşısında olduqlarını anlayaraq, var gücləri il bağırmağa başladılar ki, onları buraya zorla gətiriblər, onlar öz qəlbləri və xüsusi ilə də bədənləri ilə öz sevimli ərlərinə bağlıdırlar və onların Rusiyanın himayəsinə heç bir ehtiyacları yoxdur. Bu xoşagəlməz hadisədə Rusiya səfiri A.S.Qriboyedov Türkmənçay müqaviləsinin müvafiq müddəalarına görə də İslam qaydalarını pozan şəxs kimi görünür.

Qaragüruh Mirzə Yaqubdan başlayaraq bütün İran vətəndaşlarının səfirlik binasından çıxarılmasını tələb edirdi və onlar qəzəblənmiş kütlənin gözü qabağında parça-parça edilirdi. Şahın yaxın adamlarından olan Mirzə Yaqubu kütlə qanlı ət parçasına çevirdi və onun başını kəsdilər. Allahyar xanın hərəmxanasından olan erməni qadınlar qaçaraq səfirliyin binasından çıxanda isə heç onları təhqir etməyə də cəhd göstərmədilər. Qəzəblənmiş qara kütlə aralanaraq bu qadına təhlükəsiz yol verdi və onlar uğurla qaçıb gizləndilər. Sonra məlum oldu ki, bu erməni qadınları Allahyar xanın əndərununa qayıdıblar. Belə təsəvvür yaranır ki, Rusiya səfirliyinin önünə yığışan kütlənin arasında bu iki əclaf erməni qadınını

buraya gətirən adamlar növbə çəkirmiş və onlara həmin qadınların Allahyar xanın hərəmxanasına qayıdarkən tam təhlükəsizliyini təmin etmək tapşırılıbmış.

Azğınlaşmış kütləni saray intriqaları maraqlandırmırdı, səfirliyə hücum üçün isə ona sadə və inandırıcı motivlər təlqin edilmişdi. Birincisi, – Rusiya səfiri özgəsinin arvadına qəsd etmişdi (üstəlik, erməni qadınlarından biri guya hamilə idi); ikincisi – guya o, israrla bu qadınlara İran təbəəliyindən imtina etməyi təklif etmişdi; üçüncü – bəlkə ən mühüm motiv isə bu idi ki, guya Rusiya səfiri onları zorla müsəlman dinindən döndərməyə cəhd göstərmiş və beləliklə İslamı ən ağır şəkildə təhqir etmişdi.

Rusiya səfirliyinə qəsdən göndərilən erməni qadınları vəhşiləşmiş kütlənin nifrətini qızışdırmaqda və A.S.Qriboyedovun qətlində başlıca rol oynayıblar və təkcə biz bu qənaətə gəlməmişik. Abbas Mirzənin mülki katibi, kaymakam Mirzə Məsud İ.S.Maltsevlə şəxsi söhbətində məxfi şəkildə bildirmişdir ki, Allahyar xanın hərəmxanasından olan erməni qadınları **"səfirin qətlinin başlıca səbəbkarıdırlar"**, ancaq bu faciədə Allahyar xanın təxribatçı rolu barədə rəsmi sənədlərdə heç nə qeydə alınmayıb *(AKAK, c. 7, səh. 689)*



A.S.Qriboyedov
(Rəssam İ.N.Kramskinin rəsmi)

Aydındır ki, Rusiya səfirliyinə hücumun daha dərin səbəbləri var və onlar ilk növbədə İranın müharibədə Rusiyaya uduzması, İrana son dərəcə ziyanlı olan Tükmənçay müqaviləsinin bağlanması, bu müqaviləyə əsasən İranın Rusiyaya böyük məbləğdə kontribusiya ödəmək məcburiyyətində qalması ilə bağlıdır. İngilislər də kənarda sakitcə dayanmamışdılar. Onlar həmişə Rusiya imperiyasının uğurlarına qısqanclıqla yanaşmış və fürsət düşən kimi fitnə

törətməyə hazır idilər. Ancaq hər halda, tarixi ədalət naminə qeyd edək ki, bu dəhşətli faciənin törədilməsinə A.S.Qriboyedovun özü şərait yaratmışdır. Nazir-səfirin başı qalmaqallı və öz həyatı üçün təhlükəli xırda işlərə qarışmışdı. Ancaq səfir Qriboyedovun elə problemləri vardı ki, Fətəli şah onları müzakirə etməkdən boyun qaçıra bilməzdi. Onlardan biri çoxdan mövcud idi və bizə tanış olan İran generalı Samson xan Makintsevlə bağlıydı.

Məlum olduğu kimi o vaxt İranda Samson xanın komandanlığı altında Rus batalyonu uğurla fəaliyyət göstərirdi. Qafqazdakı rus komandanlığı çoxdan bu batalyonun buraxılmasında israr edirdi. Vaxtı ilə Qriboyedovun şəxsən özü Makintsevin fərarilərinin geri qaytarılmasının qatı tərəfdarı olmuşdu. Qəribədir ki, saray ehtiraslarının qızışdığı həmin faciəvi dövrdə Rus batalyonun buraxılması məsələsi Qriboyedovu məşğul etməmişdir. İranın daxili siyasətinə və İslam dininə aid olan xüsusilə qaranlıq işlərə girişən Qriboyedov bütün İran sarayının və şəxsən Fətəli şahın narazılığına səbəb olmuşdu. Belə bir vəziyyətdə dindar insanlarda Rusiya səfirinə qarşı nifrət oyatmaq baş ruhani müctəhid Məsih üçün heç də çətin deyildi. Səfirlik binasına qara kütləni məhz o göndərmişdi. Təhriklərə uymuş qarşısıalınmaz kütləni isə sakitləşdirmək mümkün olmamışdır.

Bir iranlı, iki erməni kişisi və iki erməni qadını Rusiya üçün böyük bir fəlakət törətmiş və onu yeri doldurulması mümkün olmayan ağır itkiyə məruz qoymuşdur. 1828-ci il yanvarın 30-da Rusiyanın İrandakı səfiri, istedadlı və perspektivli diplomat (onu yüksəlməkdə olan parlaq bir ulduz hesab edir və gələcəkdə Rusiyanın xarici işlər naziri olacağını gözləyirdilər) A.S.Qriboyedov faciəvi şəkildə qətlə yetirildi. O, həm də istedadlı yazıçı, ölməz "Ağıldan bəla" əsərinin müəllifi, gözəl şair, parlaq musiqiçi və Rusiya imperiyasının ən savadlı insanlarından biri idi və cəmisi 34 il 25 gün ömür yaşamışdı.

Aleksandr Qriboyedov kimi dahini təbiət bəşəriyyətə heç də tez-tez bəxş etmir...

AĞSAÇLI NAXÇIVAN QRİBOYEDOVUN CƏNAZƏSİNİ İRANDAN QƏBUL ETDİ VƏ MÖHTƏŞƏM MATƏM MƏRASİMİ KEÇİRDİ

Rusiyanın İrandakı səlahiyyətli nazirini hökmdar imperatorun onu dostluq və əməkdaşlıq əlaqələrini qurmaq üçün göndərdiyi yerdə qətlə yetirdilər. Toxunulmazlıq hüququna malik olan A.S.Qriboyedovu faktiki olaraq öldürmədilər, özbaşınalıq edib, kabab hazırlayarkən kəsilən quzudan da betər parça-parça doğradılar. Rusiya səfirini qatı nifrət içərisində daşa basdılar, qılıncla doğradılar, artıq canı çıxmış cəsədi belə təhqir etdilər. Qriboyedovun və Rusiya səfirliyinin digər əməkdaşlarının cəsədlərini insancasına dəfn etməkdə iranlılara heç kim əngəl törətmirdi, ancaq onlar bunu eləmədilər, bu zavallıların meyitlərini bir ayaqyolu quyusuna tulladılar. Nəhayət, doğrudanmı, zənginlik içərisində üzən İran sarayının səlahiyyətli nazirin cənazəsini Təbrizdən keçərək Rusiya sərhədlərinə qədər Qriboyedovun yüksək dövlət vəzifəsinə uyğun ehtiramla gətirməyə pulu və mənəvi gücü çatmırdı? Axı o bununla Rusiyaya və digər ölkələrə öz tövbəsini və eyni zamanda, dost Rusiya imperiyasına hörmətini nümayiş etdirmiş olardı. Allaha çox şükür ki, iranlılar A.S.Qriboyedovun cənazəsinin çox sevdiyi vətəninə gətirilməsi ilə bağlı bütün vəzifələri öz üzərlərinə götürməyi Rusiyaya təklif etmədilər. Həqiqətən təklif etmədilər, əvəzində onsuz da ağır işgəncələrə məruz qalmış cəsədə gah ayaqyolu quyusunda, gah da narahat yollarda düz üç ay olmazın əzablar verdilər.

İran hökumətinin qərarı ilə səlahiyyətli nazir A.S.Qriboyedovun meyiti Rusiya tərəfinə yalnız 1829-cu il aprelin 30-da verildi.

Onu Tehrandan çıxarıb, bərbad yollarla adı belə bilinməyən bir səfil və yaxud çox kasıb xırda bir adammış kimi gətirirdilər. Təkcə mərhumun yüksək dövlət vəzifəsinə rəsmi qarovul deyil, rəsmi müşayiətçi də yox idi. Görünür, meyit

əhalinin diqqətini çəkmək, iranlılara 1829-cu ilin 30 yanvar faciəsini bir daha xatırlatmamaq üçün gizli şəkildə gətirilirdi. Səlahiyyətli nazirin cəsədini tələm-tələsik düzəldilmiş, daha çox quru meyvə və yaxud tərəvəz yeşiyini xatırladan tabuta qoymuşdular.

İran hökuməti parça-parça edilərək tanınmaz hala düşmüş cəsədlər arasında Rusiya imperiyası nazirinin meyitini möcüzəli şəkildə ayırd edə bildiklərinə və Qriboyedovun cənazəsini Rusiyaya göndərərək bu hadisəyə nöqtə qoyaraq, dəhşətli Tehran faciəsini bir dəfəlik unuda biləcəklərinə çox sevindilər.

Qriboyedovun meyitini daşıyan arabanı Təbrizə buraxmadılar. İngiltərə nümayəndəliyindən heç kəs onu qarşılamağa çıxmadı, onlar Rusiya imperiyasının qətlə yetirilmiş səfirinə heç olmasa adi təzimlə son borclarını ödəmədilər. Məhz ingilislərin tövsiyəsi ilə meyiti Rusiya səfirliyinin yerləşdiyi Təbriz şəhərinə aparmadılar, yolda istirahət zamanı isə tabutu şəhər kənarında olan xırda bir erməni kilsəsinə qoydular, oraya da dost İngiltərə nümayəndəliyindən heç kəs gəlmədi.

Diplomat Qriboyedov öz dərin erudisiyası ilə dəfələrlə şahzadə Abbas Mirzəni heyran qoymuşdu və şahzadə həmişə, hətta danışıqlar zamanı ağır diskussiyaların gedişində belə çılğın və dərrakəli, Rusiyanın mənafelərini böyük bir əminlik və bacarıqla müdafiə edən gənc diplomata isti münasibət bəsləmişdi. Çox qəribədir ki, təkcə Abbas Mirzənin özü mərhum nazirə ehtiramını bildirməmiş, həm də onun hökuməti adından heç bir ehtiram göstərilməmişdir. Tabutun yanında fəxri qarovul yox idi. Belə güman etmək olar ki, Abbas Mirzənin və İranın digər əyanları Rusiya ilə mümkün müharibə barədə düşünürdülər: Rusiya bircə saatın içində düşmənə çevrilə bilərdi, Qriboyedov isə artıq nə sülhün möhkəmlənməsinə, nə də hərbi hadisələrin inkişafına təsir edə bilməzdi. Rusiya imperiyasının səfir-naziri artıq həyatda yox idi, ancaq həyatda olanların, dinindən və ümumi mədəniyyətindən asılı ol-

mayaraq, borcu ölənə təzim etməkdir, ağlasığmaz amansızlıqla, qeyri-insani bir qəddarlıqla qiymətli həyatlarından məhrum edilən mərhumlara isə bu borc üçqat ödənilməlidir. Həm də Tehranda amansızcasına, öz nəhəng imkanlarından hələ tam istifadə etməmiş böyük bir Şəxsiyyət, Yer üzərinə heç də yüz ildən bir gəlməyən bir Dahi öldürülmüşdü.

O biri, bizə məlum olmayan dünyaya getmiş bu İnsana son ehtiramımızı bildirərək, unutmayaq ki, o artıq öz evindədir, biz də onun qəbri yanında qonağıq.



Kalbalı xan Naxçıvanski. *Rəssam Əsgər Məmmədov*

1819-cu ildə rus əsir və fərarilərindən ibarət dəstəsi ilə Vətənə qayıdarkən yolüstü Naxçıvanda iki gün dayanan A.S.Qriboyedov bir yeniyetmə çılğınlığı ilə Naxçıvandan narazılığını izhar etmiş və onun hakimi kor **Kalbalı xana** bərk qəzəblənmişdi. Dəstənin Təbrizdən Tiflisədək getdiyi yol üzərində Qriboyedovu qədim Naxçıvan qədər hiddətləndirən ikinci bir şəhər və ya yer olmamışdı. Sakit və dinc Naxçıvan-

la, onun əfsanəvi hakimi ilə bağlı saysız-hesabsız tarixi materiallarda 24 yaşlı titulyar müşavir Aleksandr Qriboyedovun ağsaçlı Naxçıvan xanının başına yağdırdığı qədər təqsir və günaha rast gəlmək mümkün deyil. Kalbalı xan o vaxt Qriboyedovdan uzağı görürdü. O dərk edirdi ki, rus əsgərlərini, onların bir çoxunun özünə sığınacaq tapdığı, ailə sahibi olduğu, hörmətli vətəndaşa çevrildiyi bir ölkənin – İranın, necə deyərlər, əsirliyindən "qurtarıb", zorla başqa bir əsirliyə, bu dəfə artıq həqiqi, vətən əsirliyinə qovurlar. Onların bəziləri öz ömrünü Sibirdə başa vuracaqdı, hərçənd "Sibir də Rusiya torpağı idi!"

Ancaq hər halda, Təbrizdən Naxçıvana və buradan da o yana uzun bir yolda Qriboyedovun dəstəsindən heç kimin qaçmağa cürət etmədiyi təqdirdə, Naxçıvanda iki sabiq fərari birdən yoxa çıxmışdı. Burada dəstəni tərk etməkdə onlara kömək etmişdilər, burada onlara qucaq açıb, dəstə şəhərdən çıxanadək xəlvət bir yerdə gizlətmişdilər. Çox güman ki, bu qaçış kor Kalbalı xanın xəbəri olmadan gerçəkləşməmişdi. O, əsirliyin, müdafiəsiz qəddar köləliyin nə demək olduğunu hamıdan yaxşı bilirdi.

Qriboyedovun meyiti Naxçıvana gəlib çatanda, xalqın sevimlisi Kalbalı xan artıq həyatda yox idi. O, bu hadisələrdən altı il əvvəl, 1823-cü ildə dünyasını dəyişmişdi. Onun, vaxtı ilə Ağa Məhəmməd xanın girov saxladığı böyük oğlu **Nəzərəli xan** çoxdan İran mehmandarına çevrilmişdi və nadir hallarda öz evlərində olurdu, ancaq ortancıl oğlu, Rusiya ordusunun polkovniki **Ehsan xan NAXÇIVANSKİ** rus hökuməti tərəfindən Naxçıvan vilayətinin naibi təyin edilmişdi.

İndi isə Ehsan xanın boynuna kədərli və fəxri bir vəzifə – Qriboyedovun cənazəsini qarşılamaq, səlahiyyətli nazirin ad-sanına yaraşan matəm mərasimi təşkil etmək, sonra isə bu korteji Tiflisə qədər müşayiət etmək vəzifəsi düşmüşdü.

Ehsan xan on il bundan əvvəlki hadisəni, Qriboyedovun başçılığı altında rus əsir və fərarilər dəstəsinin Naxçıvandan

keçib getdiyini yaxşı xatırlayırdı. Qriboyedov sağ olsaydı, bəlkə də o, artıq müdrik Kalbalı xana o vaxtdakı qədər hörmətsiz münasibət bəsləməzdi. Ancaq Qriboyedov artıq Naxçıvanı xatırlamır və bu şəhərin bütün camaatının – qoca və cavan, hərbiçi və mülki adamların gözləri yaşlı halda əməkdar rus diplomatının cənazəsini necə qarşıladığını görə bilmir.

Bu camaat Qriboyedovun Naxçıvan haqqındakı haqsız tənqid və təhqirlərini unudaraq, səfirin onların diyarı qarşısındakı həqiqi xidmətlərinin borcunu ödəyirdi. Mərhum Kalbalı xanın rus üsul-idarəsinə rəğbət göstərdiyini xatırlayan naxçıvanlılar diplomat Qriboyedovun Naxçıvanın Rusiya ərazisinə çevrilməsi üçün nə qədər enerji və güc sərf etdiyini yaxşı bilirdilər. **Deməli, mərhum Kalbalı xanın ruhu ilə sağ səfir Qriboyedov xoşniyyətləri arasında bir vəhdət mövcud imiş.**

Qriboyedovun Naxçıvan qarşısında başqa xidmətləri də az deyildi. O, xüsusilə də köçkün ermənilərin məskunlaşmış müsəlman torpaqlarında yerləşdirilməsinə haqlı olaraq kəskin şəkildə etiraz etmişdi. İndi isə Naxçıvanlılar səlahiyyətli nazir Qriboyedovun fani cənazəsinə özlərinin son ehtiramlarını bildirirdilər, onlar bunu həmçinin rus səfirinin həyatını qoruya bilməyən, öz ərazisində onun üçün matəm mərasimi təşkil etməyi özünə borc bilməyən İran tərəfinin əvəzinə edirdilər.

Səlahiyyətli nazir Qriboyedovun cəsədi İran ərazisi bitdikdən sonra Arazın sağ sahilində yerləşən Gərgərə gətirildi. Burada onu Rusiya hökumətinə təhvil verdilər. Araz çayı keçildikdən sonra tabut xüsusi olaraq düzəldilmiş taxt-rəvan üzərinə qoyuldu; bu isə tabutdakının hörmətli, möhtərəm bir insanın meyidi olduğuna dəlalət edirdi.

Bu arada rus səfirliyinin öz canının qorxusundan Təbrizdən qaçmış olan baş konsulu, saray müşaviri Amburger Naxçıvana qayıtmışdı. İndi, Tehran faciəsinin artıq tarixə çevrilməkdə olduğu bir vaxtda cənab Amburgeri Naxçıvan öz

çirkli suyu və havası ilə daha qorxutmurdu və konsul səlahiyyətli nazir Qriboyedovun cənazəsinin qarşılanması və yola salınmasında fəal iştirak etməyə çalışırdı. Amburger baş komandan qraf Paskeviçdən Naxçıvanda matəm mərasiminin bütün qaydalara uyğun şəkildə təşkil olunması barədə ona ətraflı məlumat verilməsi barədə göstəriş almışdı.

1829-cu il aprelin 30-da Amburger qraf Paskeviçə məlumat göndərdi ki, Naxçıvan ətrafında yerləşdirilən Rusiya hökumət nümayəndələri və rus qoşunu *"nazir Qriboyedovun cənazəsini Arazın sahilində qarşılayacaq və sonra cənazə oradan bizim mərhum nazirin rütbələrinə layiq şan-şövkətlə Naxçıvana gətiriləcəkdir"* (AKAK, c. 7, səh. 697).

Lakin çoxsaylı təşkilati, təsərrüfat və texniki işləri, təbii ki, kor Kalbalı xanın ortancıl oğlu, mahal naibi Ehsan xan yerinə yetirəcəkdi.

Naxçıvanda tabut və bahalı materialdan gözəl bir taxt-rəvan hazırlanmışdı, çoxlu at qoşulan iri cənazə arabası seçilmiş və Rusiyanın mərhum səlahiyyətli səfiri Qriboyedovun şanına layiq matəm kortejinin Naxçıvandan Tiflisə hərəkətinin təşkili üçün lazım olan bütün zəruri ləvazimatlar bir yerə toplanmışdı.

Naxçıvan həmişə istər sevincli, istərsə də kədərli məqsədlərə gələn müsafirlərini böyük qonaqpərvərliklə qarşılamış və yola salmışdır. Ancaq bu matəm mərasiminin təşkili qədim Naxçıvanın zəngin tarixində xüsusi və unudulmaz bir səhifəyə çevrilmişdir.

1 may 1829-cu il. Naxçıvan şəhəri və bütün mahal matəmə bürünüb. Həmişə özü ilə sevinc və şadlıq gətirən bu may günü bu dəfə ağ saçlı diyar üçün böyük kədər və qəm gününə çevrilib. Bu gün mərhum səlahiyyətli nazirin cənazəsi İranı tərk edərək Arazdan keçib Qriboyedovun həyatından da çox sevdiyi Rusiya imperiyasının ərazisinə daxil olub. Görüş üçün Abbasabaddan keşiş, Tiflisdən isə iki səhra topu ilə piyada batalyonu göndərilib.

Naxçıvan mahalının rəisi polkovnik Ehsan xan Naxçıvanski, məmurlar, general-mayor Merlini başda olmaqla Naxçıvanda yerləşən qoşunların komandirləri səlahiyyətli nazirin cənazəsini qarşılamağa çıxıblar. Qriboyedovun Kalbalı xanın nəvəsi Kalbalı Sultanın başçılıq etdiyi 50 atlı ilə müşayiət olunan cənazəsi sıra ilə düzülmüş batalyon əsgərlərinin arasından keçir, onlar onu hərbi qaydada salamlayırlar.

Tabut açıldı və bununla əlaqədar tərtib edilən aktda qeyd olundu ki, mərhum Aleksandr Sergeyeviçin meyiti səlahiyyətli səfirin zahiri görünüşünü xatırladan heç bir əlamətə malik deyil. Onun cəsədi dəhşətli şəkildə doğranmış və daşla əzilmişdir, həmçinin faciəvi ölümdən sonra ötən müddət ərzində cəsəd xeyli çürümüşdür. Xalq arasında hətta şayiələr gəzirdi ki, bu cəsəd Qriboyedova aid deyil, ancaq Allaha çox şükür ki, eybəcər hala salınmış cəsəddə duel zamanı güllə ilə deşilmiş sol ovuc və şikəst olmuş çeçələ barmaq salamat qalmışdı – bunlar tabutdakı meyitin A.S.Qriboyedova aid olduğunu sübut edən danılmaz dəlilər idi. Ona hərbi ehtiram göstərildi və "Əbədi xatirə" duası oxundu, bundan sonra cənazə ehtiyatla Naxçıvanda xüsusi olaraq A.S.Qriboyedov üçün sevgi ilə düzəldilmiş yeni tabuta qoyuldu. Naib Ehsan xan Naxçıvanski və hərbi komandirlər ağıllı şəkildə bu qərara gəldilər ki, bundan sonra bu tabut açılmamalıdır, buna görə də o, kəpitkələndi və içi ağ neftlə doldurulduldu.

Mərhumun xidməti vəzifəsinə uyğun bəzədilmiş tabut yeni geniş cənazə arabasına və bahalı materialdan düzəldilmiş taxt-rəvanın altında yerləşdirildi. "Dəfnə doğru marş!" əmri verildikdən sonra möhtəşəm matəm cərgəsi qəmgin musiqi sədaları altında hərəkətə gəldi. Cənazə arabasına altı seçilmiş at qoşulmuşdu və onların hər birinin belinə qara matəm çulu atılmışdı. Tabutun hər iki tərəfində əlində yanar şam tutmuş 12 nəfər şamçı addımlayırdı. Bu görünməmiş mənzərə ətrafdakı insanlarda, xüsusilə də həmin vaxt Naxçıvanda olan iranlılarda dərin, unudulmaz təəssürat oyadırdı. Rus keşişin-

dən başqa, ətraf bölgələrin müxtəlif dinləri təmsil edən ruhaniləri də mərhumu yad etməyə gəlmişdi. Onların ardınca qoşun və Naxçıvan mahalının sakinləri addımlayırdılar. Əlincə çaya çatanda gecələmək üçün burda dayandılar.

2 may 1829-cu il. Səhər tezdən matəm cərgəsi yoluna davam etdi. Naxçıvan körpüsünə çatanda dayandılar. Mərasimin bütün iştirakçıları matəm libası, ruhanilər isə cübbə geyindilər. Rus keşişi cənazə duasını icra etdi, yenidən "Əbədi xatirə" duası oxundu və yola davam edildi. Nəhəng matəm cərgəsi tabutun ardınca kilsəyə qədər aramla və şəstlə addımladı. Burada zabitlər tabutu ehtiyatla arabadan düşürüb içəri apardılar. Kilsədə cənazə duası icra olundu və sonra yenə "Əbədi xatirə" duası oxundu.

Buraya xeyli insan yığışmışdı: kişilər, qadınlar, uşaqlar – demək olar ki, hamı mərhumun zavallı aqibətinə qəlbən təəssüflənir və acıyırdılar, onların arasından tez-tez güclü hıçqırtılar eşidilirdi. Qadınlar axşam düşənədək kilsəni tərk etmədilər. Elə təsəvvür yaranırdı ki, sanki naxçıvanlı bir adamı və ya onun yaxın bir qohumunu, yaxud da hər bir naxçıvanlıya doğma olan bir insanı dəfn edirdilər. Ən qəribəsi də bu idi ki, bu xalqı Qriboyedovun cənazəsini yola salmağa heç kim dəvət etməmişdi. Naxçıvanlılar bu mərasimə könüllü qatılmışdılar. Əksəriyyəti müsəlman dininə mənsub olan Naxçıvan əhalisi provaslav A.S.Qriboyedovun xatirəsini yad etməyə gəlmişdi. Qəm və kədərin dini yoxdur, ola da bilməz.

3 may 1829-cu il. Naxçıvanda günəşli , ilıq bir səhər açılıb. Sevinmək, bu yaz gününün nəşəsini yaşamaq gərəkir, ancaq insanların sifətinə qəm çöküb. Elan olunmamış matəm Naxçıvanda davam edir. Mayın 2-dəki mərasimdə iştirak edənlərin hamısı yenə kilsəyə toplaşıb, burada sübh ibadəti, sonra isə cənazə duası icra olunur, kilsə xoru, yenə "Əbədi xatirə" duası oxuyur. Tiflis polku tabutu kilsədən çıxarır, onu iki cərgəyə düzülmüş əsgərlərin arası ilə aparırlar, əsgərlər mərhum nazir-səfirə hərbi salam verirlər. Tabutu cənazə ara-

basına qoydular və qəmli matəm cərgəsi nazir-səfirin cənazəsi ilə birlikdə yavaş-yavaş Naxçıvandan Tiflisə doğru addımlamağa başladı. A.S.Qriboyedov məhz orada dəfn ediləcəkdi Sağlığında Aleksey Sergeyeviç məhz Gürcüstan torpağında əbədi uyumağı arzulamışdı.

Bu dəfə mayın 2-də olduğundan daha çox insan toplaşmışdı. Küçəyə yığışan naxçıvanlılar son illər ərzində ilk dəfə olaraq Naxçıvanda bu qədər əhali yaşadığını təəccüb içərisində etiraf etməli oldular. Çünki, bütün şəhəri bürüyən bu matəm, demək olar ki, sakinlərin hamısını evlərindən çıxarıb küçələrə tökmüşdü.

Tarixin xatırladığı bütün zamanlarda naxçıvanlılar öz möhkəm, monolit birlikləri ilə fərqlənmiş, öz müstəqilliklərinin bir nəfər kimi hamılıqla müdafiəsinə qalxmaqla müasirlərini heyran qoymuşlar. Bu matəm günləri naxçıvanlıların ənənələrinin dəyişməz qaldığını bir daha təsdiq etdi. Kilsədə olan yüksək rütbəli hərbiçilər İrəvan yolundakı ikinci bulağa qədər korteji müşayiət etdilər. Burada tabutu cənazə arabasından düşürdülər, tabut ətrafında əsgərlərdən ibarət dördbucaq təşkil edildi, rus keşişi cənazə duasını icra etdi və "Əbədi xatirə" duasını oxudu. Bundan sonra mərhuma son borclarını yerinə yetirən və ona son ehtiramlarını nümayiş etdirən naxçıvanlılar yavaş-yavaş şəhərə qayıtdılar. Matəm cərgəsi isə Tiflisə doğru öz yolunu davam etdirdi.

NAXÇIVAN ƏYALƏTİNİN BAŞINDA EHSAN XAN DAYANIB. KALBALI XANIN EPOXASI DAVAM EDİR

Biz Naxçıvan əyalətinin naibi Ehsan xan Naxçıvanski ilə, çox təəssüflər olsun ki, bu diyarın dərin matəmə büründüyü bir vaxtda tanış olduq.

Ehsan xanın boynuna səlahiyyətli səfirin cənazəsini qarşılamaq, Naxçıvanda matəm kortejini təşkil etmək və onu

Tiflisə yola salmaq vəzifəsi düşmüşdü. Bu missiyanı, oxucunun da şahid olduğu kimi, polkovnik Ehsan xan Naxçıvanski son dərəcə vicdanla, lazımi məsuliyyət və şərəflə yerinə yetirdi.

A.S.Qriboyedovun cənazəsini daşıyan bu matəm korteji yavaş-yavaş Tiflisədək irəliləyənəcən, bizi oxucuya, mərhum kor Kalbalı xan Naxçıvanskinin oğlu Ehsan xanın həyatı və fəaliyyəti barədə söhbət açmaq imkanımız var.



Naxçıvan naibi polkovnik Ehsan xan
Rəssam Əsgər Məmmədov

General Paskeviç Kalbalı xanın Rusiyaya rəğbət göstərdiyini bilir və öləndən sonra onu xoş sözlərlə xatırlayırdı. Baş komandan Kalbalı xanın övladlarının rus qoşunlarının zəfər yürüşlərindəki xidmətlərini yüksək qiymətləndirirdi. General Paskeviç İranın sərbazlar batalyonun komandiri Ehsan xanın fəaliyyətini xüsusi qeyd edirdi. Türkmənçay müqaviləsi bağlanandan və Naxçıvan xanlığı uzun müddətə (1828–1839) Rusiya birləşdiriləndən sonra Naxçıvan əyalətinin idarə olunmasını polkovnik, daha sonra isə general-mayor **Ehsan xan Naxçıvanskiyə** etibar etdilər və heç də yanılmadılar.

Bu diyarın adını əvvəldə xatırlatdığımız tədqiqatçısı V.N.Qriqoryev Naxçıvan Rusiya İmperiyasının tərkibinə daxil edildikdən sonra onun idarəçiliyini belə təsvir edir:

> "Naxçıvan dairəsinin idarəsi özünün bütün fəaliyyətlərində Vilayət İdarəsinə tabedir; indiki tərkibdə 1828-ci ilin mart ayında təsis olunub. Naxçıvan şəhərində Şəhər idarəsi yerləşir. O, iki hissəyə bölünüb: Polis idarəsi və Məhkəmə və onun qərarlarının yerinə yetirilməsi idarəsi. Bütün diyar üzrə polis idarəsi ilə bağlı daxili idarəçilik Naxçıvan naibi, polkov-

nik **Ehsan xana, Kalbalı xanın oğluna** həvalə edilib. Ona kömək üçün Rus zabitləri qərargahından bir Pristav verilib. Naibin sədrliyi altında Şəhər məhkəməsi Pristavdan, Xəzinədardan və azad səsvermə yolu ilə seçilən iki Üzvdən ibarətdir. Naxçıvan Naibinin vəzifələrinə ona həvalə edilən Dairənin bütün xalqını idarə etmək, verginin yığılmasına köməklik göstərmək, dövlət mülklərini mühafizə etmək və diyarın rifahına yardımçı olmaq daxildir. Şəhər məhkəməsinin hakimiyyəti və vəzifələri aşağıdakılardan ibarətdir:

1. yerli sakinlərin şikayətlərini, mübahisələrini və iddialarını ölkənin qanunlarına və adətlərinə uyğun olaraq araşdırmaq və həll etmək. Yeri gəlmişkən, Mülki işlər üzrə sakinlərə, əvvəllər olduğu ki, ruhani şəxslərin Məhkəməsinin (şəriət) köməyi ilə öz aralarında araşdırmaq hüququ verilib. Şəhər məhkəməsinə isə onlar öz istəklərinə görə şikayətlə müraciət edirlər;

2. cinayət işlərinə baxır və həll edir, onları Vilayət idarəsinə təqdim edir. Şəhər məhkəməsinə yüz gümüş rubla qədər pul tutulan mülki işləri qəti həll etmək ixtiyarı verilib, qalan bütün cinayət işləri isə qərar verilmək üçün Vilayət idarəsinə göndərilməlidir".

(Григорьев В. Н. Стат. опис. səh. 62-64)

1834-35-ci illərdə İranda olan rus missiyasının məmuru, İran və ikinci Rusiya – İran müharibəsi haqqında iri əsərlər müəllifi Fyodor Fyodoroviç Korf da sonrakı nəsillərə polkovnik Ehsan xan Naxçıvanski haqda parlaq xatirələr qoyub getmişdir. Onun Naxçıvanda bu diyarın naibi ilə görüşü barədə qeydlərini oxucularla tanış edirik:

Naxçıvana gələndə Ehsan xanın evində qaldım Ehsan xan Rus xidmətinin polkovnik rütbəsini daşıyır və Naxçıvan dairəsinin daxili işlərini idarə edir. Mən onun evinə gələndə, o şahin ovuna çıxmışdı. Adamları mənim rus olduğumu bilən kimi, dərhal mənə evin fligelində otaq ayırdılar, o, qonaq qəbulu üçün nəzərdə tutulmuşdu. Otaq səliqə-sahmanlı idi. Onda asiyalı zövqündən bəzi imtinalar vardı. Bir müddət keçəndən sonra ev sahibinin özü gəlib çıxdı. O, dolaşıq rus dilində məni öz evində görməyindən məmnun olduğunu bildirdi. Həmçinin dedi ki, şəhər polismeysteri onu axşama

qonaq dəvət edib, bütün Naxçıvan cəmiyyəti ora yığışacaq və məni də özü ilə birlikdə ora getməyə dəvət etdi. Bildirdi ki, polismeyster mənim onu ziyarət etməyimə çox şad olacaq. Naxçıvan cəmiyyətinin öz vaxtını necə keçirdiyini görmək istədiyim üçün Ehsan xanın sözünü inandırıcı hesab edərək, məmnuniyyətlə onun təklifini qəbul etdim.



Xanın şahin gəzdirəni

Hava qaralanda artırmaya iki at gətirdilər – birini xan, o birini də mənim üçün, çoxsaylı xidmətçilər həyətdə dayanıb, bizim haçan yola çıxacağımızı gözləyirdilər. Biz atlarımıza minib yola düşəndə xanın nökərlərinin bir qismi bizimlə getdilər, onların bəziləri bizim qəlyanları daşıyaraq öndə, bəziləri yan tərəflərimizdə gedir, bəziləri isə arxamızdan gəlirdilər. Ehsan xanın evindən xarabalıqların arası və çöl boyu yol xeyli uzundur, şəhərin içində qısadır, çünki o, çox da böyük deyil. Polismeysterinin həyətində Asiya musiqisi ifa olunurdu, xan onu çox sevir. Biz içəri girəndə öz yerlərimizdə əyləşib qəlyan çəkdik, ortalıqda bir rəqqas peyda oldu, qıvrıla-qıvrıla buradakıları əyləndirməyə başladı. Rəqs başa çatanda buradakı xanların bir neçəsi ona otağın ortasında dayanıb belini aşağı əyməyi əmr etdi. O, əyilən kimi onun üzərinə qamçı zərbələri yağdı. Ağrıdan ağız-burnunu büzüşdürərkən cənab xanlar qəşş edib özlərindən gedirdilər. Bu əyləncə başa çatanda hər bir tamaşaçı o rəqqası öz səxavətlərinə uyğun məbləğdə pulla mükafatlandırdı.

Ehsan xan kart oynamağı sevir, ancaq təkcə bir oyun bilir, o da çox sadə və cansıxıcıdır, bu oyunu tatarlar və iranlılar oynayırlar, adı asnasdır. Kart oyunundan sonra bizi yaxşı Kaxetiya şərabı ilə şam yeməyinə qonaq etdilər, sonra hamımızı evə buraxdılar.

Hökmdar İmperatorun lütfündən yararlanan Ehsan bəy Avropa maarifçiliyinə uyğunlaşmağa çalışır. Onun evində bıçaq və çəngəldən istifadə olunur, Asiya yeməklərinə çox da bənzəməyəm yeməklər hazırlanır.

1828-ci il müqaviləsinə qədər xanlıq təşkil edən Naxçıvan

dairəsi, indi Erməni vilayətinin tərkibinə daxil edilmişdir. Onun bilavasitə rəisi, yuxarıda deyildiyi kimi, Ehsan xandır, yanında Rus xidməti qərargahını zabiti var. İrəvanda olduğu kimi, burada da bu torpağı ağır İran hökmranlığından xilas etdiyi üçün Rusiya hökumətinə minnətdardırlar. Bu barədə danışmağa belə dəyməz, çünki ağılı başında olan hər bir kəs elə bir xüsusi dəlil-sübut və təlqin olmadan da İran üsul-idarəsini Rusiyanınkına dəyişən yeni vilayətlərin udmuş olduqlarını anlayar.

(Корф Ф. Ф. Восп. О Персии. SPb., 1838, səh. 72-75)

General-mayor Ehsan xan Naxçıvanı Rusiya İmperiyasının qanunlarına ciddi riayət edərək idarə edirdi. Ancaq o, atası kor Kalbalı xan Naxçıvanskinin məşhur öyüdlərini də unutmurdu: qədim Naxçıvanın bütövlüyü, dincliyi və çiçəklənməsi naminə Naxçıvan xanları sülaləsinin mənəvi irsini və şanlı döyüş şöhrətini müqəddəs bir şey kimi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək lazımdır.

TİFLİS TORPAĞINDA ƏBƏDİ DİNCLİK

Öz nəcib missiyasını böyük bir məsuliyyətlə yerinə yetirən matəmə bürünmüş Naxçıvan mavi duman içərisində yavaş-yavaş əriyib yox olurdu. Nəhəng insan kütləsinin Qriboyedovun faciəvi ölümü münasibəti ilə səmimi-qəlbdən başsağlığı vermək arzusunda olduğunu hiss edəndə adamın gözləri qəhərdən yaşarır. Xalq onu sevgi ilə xatırlayırdı, onunla bircə dəfə görüşmüş olan hər bir adam bunu bütün ömrü boyu unutmamışdı.



Nino Çavçavadze

Sifətlərini kədər bürümüş naxçıvanlılar kiçik qruplar

halında uzun müddət şəhər kənarındakı yüksəkliklərdə dayandılar. Evlərinin önündə dayananlar isə göz yaşlarından sifətləri qızarmış halda yavaş-yavaş dağılışdılar. Matəm korteji artıq görünməz olmuşdu, naxçıvanlılar isə hələ də qəm içində idilər. Elə təsəvür yaranır ki, matəm onları hələ uzun müddət tərk etməyəcək.

Səlahiyyətli nazir Qriboyedovun cənazəsi Naxçıvandan çıxarılıb, Eçmiədzindən keçərək, Gümrüyə gətirildi. Matəm kortejini xüsusi olaraq təyin edilən və müntəzəm olaraq dəyişdirilən hərbi komandalar müşayiət edirdi, Tiflis piyada polkunun praporşiki Makarova isə daim tabutun yanında olmaq və cənazəni Tiflisə qədər müşayiət etmək tapşırılmışdı *(AKAK, c. 7, səh. 697)*.

Cənazə arabası gözəl rus diplomatını ehtiyatla aparırdı. Qarşıda hələ xeyli çətin yol var idi. İrana sonuncu səfəri zamanı Aleksey Sergeyeviç bir də vətənə qayıda bilməyəcəyi ilə bağlı kədərli hisslər keçirmişdi. Sanki zarafatla sevimli arvadı Ninoya vəsiyyət eləmişdi: **"Qoyma sümüklərim İranda qalsın, məni Tiflisdə, müqəddəs David monastırında dəfn elə"**. Qriboyedov bəsirətli insan imiş.

Təbrizdə dilə tutularaq Tiflisə qaytarılan Nino, – ərinin ölüm xəbərini mümkün qədər uzun müddət ondan gizli saxlamağa çalışırdılar, – faciədən xəbərsiz halda hərarətlə sevdiyi Sandrodan hər gün ürəyi titrəyə-titrəyə xəbər gözləyirdi. Yalnız A.S.Qriboyedovun ölümündən iki ay keçəndən sonra Tehran faciəsi barədə ona həqiqəti açıb söylədilər. Bu dəhşətli xəbəri eşidən kimi yazıq huşunu itirib yerə yıxıldı, bu səbəbdən vaxtından əvvəl doğmalı oldu. Nino oğlu olacağını gözləyirdi və qabaqcadan ona ərinin şərəfinə ad da qoymuşdu: Aleksandr. *"Mənim yazıq körpəm,* – Nino Çavçavadze dostlarına yazırdı, – *yalnız bircə saat yaşadı və sonra o dünyada öz bədbəxt atasına qovuşdu"*.

1829-cu il iyulun 17-də axşamçağı matəm korteji Tiflisə daxil oldu. Ancaq Nino Çavçavadze ərinin cəsədini görə

bilməyəcək. Artıq heç kim görməyəcək.

Qriboyedovun arzusuna uyğun olaraq onun cəsədi 1829-cu il iyulun 18-də Tiflisdən xeyli yüksəkdə, Mtatsminda dağında yerləşən müqəddəs David monastırının yaxınlığında torpağa verildi. Qriboyedovun dəfninə, cəsədinin Tiflisə gətirilməsi ilə bağlı xərclər də daxil olmaqla 210 əşrəfi və 2366 rubl sərf edildi. Yüksək hakimiyyətin buyruğu ilə bütün xərclər Rusiya Dövlət Xəzinəsi tərəfindən ödənildi.

Qriboyedovun zavallı arvadı Nino Aleksandrovna Çavçavadzenin sonrakı taleyi necə oldu? Sevimli ərini və körpə oğlunu itirəndən sonra o, ərinə həmişəlik sadiq qaldı. A.S.Qriboyedovun arvadı yüksək hakimiyyət tərəfindən səxavətlə beş min rubl kağız pulu həcmində (30 min rubl həcmində birdəfəlik müavinətdən savayı) pensiyaya layiq görüldü. 1849-cu ildə M.S.Vorontsovun xahişi ilə pensiya 540 rubl 50 qəpik artırıldı, belə ki, Nino Aleksandrovna əvvəlki beş min rubl əvəzinə indi iki min rubl gümüş pul alırdı. Sandro Qriboyedovun tam şəkildə Romeo olduğunu söyləmək çətindir, amma Nino, heç şübhəsiz, Cülyettanı təcəssüm etdirirdi. Onun sədaqətliliyi əfsanəyə çevrildi və geniş şəkildə Tiflisdən uzaqlara yayıldı.

Bir çox ləyaqətli pərəstişkarları gözəl Nino Çavçavadze ilə evlənməyə can atsalar da, on altı yaşlı qadın ölənəcən bütün parlaq təkliflərdən imtina edərək ərinin xatirəsinə sadiq qaldı və bir daha ərə getmədi. Nino qəti əmin idi ki, öz sevimli Sandrosuna bəslədiyi hisləri bir daha heç bir kişiyə bəsləyə bilməz.

Ancaq eyni zamanda, yasda olsa da, əyləncə və bal mərasimlərindən qaçmır, musiqi gecələrinin buraxmırdı, atasını və bacısını qəbullarda müşayiət edirdi. Çavçavadze-Qriboyedovanın Tiflisdəki və Sinandalidəki qonaqpərvər evi dostları və tanışları üçün həmişə hazır idi. Lakin gülərüz və öz cənub gözəlliyi ilə baş gicəlləndirən Nino Aleksandrovna uzun illər qara paltarda gəzdi. Tezliklə dul Qriboyedovanın qara libasına

öyrəşdilər. Tiflisdə ona artıq **"Tiflisin qara qızılgülü"** adını qoydular. On yeddi yaşında qara paltar geyinən bu qadın onu düz iyirmi səkkiz il əynindən çıxarmadı.



Tiflisin qara qızılgülü

Nino öz həyatını doğmalarına, dostlarına, tanışlarına həsr etdi, onu tamamilə xeyriyyəçiliklə keçirdi O, təkcə bütün mehriban Çavçavadze ailəsinin xilaskar mələyi olmadı, həmçinin Əlahəzrət imperator canişinindən tutmuş ən aşağı rütbələrinə qədər Qafqaz ordusunun bütün əsgərlərinin baş əydiyi ecazkar məxluqa çevrildi. Nino Çavçavadzenin adı həmişə tiflislilərin hörmət və ehtiramı ilə əhatə olunmuşdur.

Nino Tiflisdə yaşayarkən ona əziz olan qəbri ziyarət etmək üçün müqəddəs David dağına tez-tez çıxmalı oldu. O, həmişə qeyri-adi mərhəmət, xeyirxahlıq, başqasının dərdini anlamaq və onu özününkü bilmək xislətinə malik olmuşdur. Əbədi amansız kədər onun mehriban və mərhəmətli olmasına əngəl törətmirdi. Onun yanımcıl qəlbi başqalarının dərdinə dərhal şərik olurdu və 1857-ci ildə Tiflisdə vəba xəstəliyi yayılanda o, şəhəri tərk etmədi. Bu dəhşətli xəstəlikdən qorxub-çəkinmədən öz xəstə qohumlarına qulluq göstərməyə davam etdi, ancaq vəbanın ona da yazığı gəlmədi. Rəfiqəsi Monana Orbeliani ölüm ərəfəsində Ninonun, sanki, sevimli Sandrosuna müraciət edirmiş kimi, söylədiyi son sözlərini eşidib:

"Gözlə, mən tezliklə, çox tezliklə sənin yanına gələcəyəm. Mən sənsiz çox darıxmışam. Sən bu dünyadan köçəndən sonra sənin

zavallı Ninon nələr çəkməyib. Bu dünyada yaşayan mən yox, mənim kölgəm olub. Qəlbim də, ürəyim də sənin yanında idi... Ölməyi nə qədər arzulamışdım. Bax, indi o da gəldi. Biz tezliklə görüşəcəyik, görüşəcəyik... və mən sənə hər şeyi danışacağam. Və biz əbədi bir yerdə olacağıq..."



A.S.Qriboyedovun məzarı

Aleksandr Qriboyedovdan sonra, demək olar ki, 30 il yaşadı. Elə o cür də dul qaldı. Onun faciəvi həlak olmuş ərinə qarşı sədaqəti hələ sağlığında əfsanəyə çevrildi. Nino 1857-ci il iyunun 29-da hələ 45 yaşı tamam olmamış vəfat etdi. O, ölümdən qorxmurdu və həyatdan dodaqlarında təbəssüm ayrıldı. Onun ümidləri doğruldu və Nino öz sevimli ərinə o dünyada əbədi olaraq qovuşdu.

Nino Aleksandrova ərinin qəbri üzərində xırda bir kisəcik düzəltdirmişdi. Pyedestalın bir tərəfində mərhumun portreti altında qızıl hərflərlə bu sözlər yazılıb:

ALEKSANDR SERGEYEVİÇ QRİBOYEDOV
1795-ci il, yanvarın 4-də doğulub.
1828-ci il yanvarın 30-da Tehranda öldürülüb.

O biri tərəfində isə Nino Aleksandrovna Çavçavadze-Qriboyedovanın əlacsız kədər içində özünün yazdığı sətirlər var:

AĞLIN DA, ƏMƏLİN DƏ ÖLMƏZDİR SƏNİN,
BƏS NİYƏ, SEVGİLİM MƏN ÇOX YAŞADIM!

YAXIN ŞƏRQ VƏ RUSİYA TARİXİNDƏ KALBALI XAN NAXÇIVANSKİNİN İZLƏRİ

(Əsas fakt və hadisələrin xronologiyası)

1791-ci ilin yazında Ağa Məhəmməd şah Qacar öz ordusu ilə yerli xanları özünə tabe etmək üçün Azərbaycana yollandı. Təbrizə çatanda o, Azərbaycan xanlarını ora çağırdı və onların hər birindən itaət etməyi tələb etdi, girov üçün isə həyat yoldaşlarını, uşaqlarını və qardaşlarını istədi. Qarabağ və İrəvan xanlarından başqa xanların əksəriyyəti Ağa Məhəmməd xana tabe oldu. Qacarın hakimiyyətini tanıdığını təsdiqləmək üçün Kalbalı xan Naxçıvanski öz əmisi oğlunu zamin qoydu. *(Бутков П.Г, Материалы для новой истории Кафказа... II hissə. S-P. 1869 s.319-320)*

*

Ağa Məhəmməd şah Qacara itaət etdiyinə görə Kalbalı xanı nümayişkaranə surətdə cəzalandırmaq üçün İbrahim xan Qarabağlı öz qohumu Ömər xan Avarlı ilə birlikdə Naxçıvanı işğal etmək və darmadağın etmək qərarına gəldi. 1792-ci ilin yanvarında onların ordusu Naxçıvana yaxınlaşdı.

Kalbalı xan Naxçıvanski Xoy və İrəvan xanlarının orduları ilə birləşərək kiçik bir dəstə ilə xanlığın sərhəddində 11 minlik çağırılmamış yadelli ordunu qarşıladı və onlarla mübarizəyə başladı. Qanlı döyüşlər altı gün davam etdi. Kalbalı xan gördü ki, rəqib üstələyir, biabırçı surətdə məğlub olmamaq üçün düşməni əlbəyaxa döyüşə çəkdi. Bu əlbəyaxa döyüşdə Kalbalı xanın əsgərləri düşmənin müqavimətini sın-

dırdı və inamlı qələbə qazandılar. İbrahim xan böyük itkilərlə Naxçıvan sərhədlərindən uzaqlaşdırıldı və Qarabağa geri qayıtmağa məcbur oldu. İbrahim xan və Ömər xanın döyüş meydanında 1700 əsgəri həlak oldu, Kalbalı xan və onun müttəfiqlərinin isə bu qeyri-bərabər döyüşdə itkisi 100 nəfərdən çox olmadı.

Kalbalı xanın möhtəşəm qələbəsi xanlığın sərhədlərindən kənarda da onun hərbi qabiliyyətini məşhurlaşdırdı. (Butkov.2-ci hissə, səh.318*)*

*

1794-cü ilin yayında **Kalbalı xan Naxçıvanskinin** ordusunun Kirmana hücumu və səkkiz aylıq mühasirəsində Ağa Məhəmməd xanla birlikdə oldu. Lütfəli xanın sonuncu malikanəsi Zenda Qacarın ayaqlarına düşdü. Kirman üç aylığa talan və həqarət üçün orduya təhvil verildi. Şəhərlilərin əksəriyyəti öldürüldü, 20 000 kişinin gözü çıxarıldı, 8 min qadın əyləncə üçün əsgərlərə verildi, çoxlu sayda əsir götürüldü. *(CMOMPK.Tiflis. 1901.c. 29, səh.10)*

*

1795-ci ilin sentyabr ayında Kalbalı xanın ordusunun da iştirak etdiyi Ağa Məhəmməd xanın Tiflisə yürüşü zamanı Tiflis şəhərinin misli görünməmiş dərəcədə talan və viran edilməsi baş verdi. Lakin Gürcüstanın paytaxtının məhv edilməsində **Kalbalı xan Naxçıvanski** iştirak etmədi. Ağa Məhəmməd xan Kalbalı xanın rəhbərliyi altında seçilmiş əsgərlərdən ibarət 8 minlik qoşunu gürcü çarı II İraklinin axtarılması və əsir alınması üçün göndərdi. Qohumları Gürcü çarının həyatını xilas etmək üçün onu uzağa və hündür dağlara aparmışdı. Əməliyyat uğursuz oldu: gürcü çarını tapmaq mümkün olmadı. *(Kikodze Q. İrakli II. Tiflis. 1948. səh.136-137)*

Kalbalı xanın bu yürüşünün bir çox səbəbləri hələ də gizli olaraq qalır. Ola bilər ki, o, Gürcü çarını əsir götürməyə

cəhd göstərməmişdi, çünki onunla uzun illər dost münasibətdə olmuşdu və II İrakli ilə onun oğlu şahzadə Aleksandr arasındakı münaqişənin həllində fəal iştirak etmişdi.

*

Qacarın Gürcüstana hücumundan sonra 1795-ci ilin noyabrında ordu Muğan düzündə düşərgədə dayanmışdı. Buradan Ağa Məhəmməd xan **Kalbalı xan Naxçıvanskinin** rəhbərliyi altında böyük bir dəstəni silah gücünə Şamaxı xanını onun hakimiyyətini tanıması üçün Şamaxıya göndərdi. Şamaxı xanlığı darmadağın edildi, Şamaxı xanı isə taxtdan salındı və mülklərindən məhrum oldu. Qacarlardan birini Şamaxıya hökmdar təyin edərək Ağa Məhəmməd xan Kalbalı xana məsləhət gördü ki, Naxçıvan xanlığını idarə etmək üçün Naxçıvana qayıtsın *(CMOMPK.Tiflis. 1901.c 29. səh.10)*



Kalbalı xan
Naxçıvanski

*

1797-ci ilin yazında Gürcüstana ikinci yürüşdən əvvəl Ağa Məhəmməd xan Naxçıvan şəhərinin bütün əhalisini İran ərazisinin dərinliyinə köçürmək, onların İrana keçdiyi zaman isə rus ordusunun hərəkətini çətinləşdirmək üçün kəndləri boşaltmaq tapşırığı ilə Naxçıvana sərdar göndərdi.

Daima xanlığın təhlükəsizliyinin keşiyində duran və onun əhalisini müdafiə edən **Kalbalı xan Naxçıvanski** şahı naxçıvanlıları köçürmək fikrindən daşınmasına inandırmaq üçün Ərdəbildə şəxsən şahla görüşmək qərarına gəldi. Tiranı rəhmə gətirmək üçün ona qiymətli hədiyyələr gətirdi. Qacar öz cəsur əsgərini ehtiyatla qəbul etdi. Şahın ətrafı onun qulağına pıçıldadı ki,

Kalbalı xan əlaqə yaratmağa cəhd etmişdi - ola bilər ki, həm də rus sərkərdələri ilə yazışmışdı. Şah tələb etdi ki, xan ruslarla əlaqəsini boynuna alsın və ona yazışmaları versin. Cavaba qane olmayan Ağa Məhəmməd şah Naxçıvan xanının gözlərini çıxarmağı əmr etdi. Bu qəddarlıq təqribən 1797-ci ildə baş verdi. Şah **Kalbalı xanı** xanlıq mülkündən məhrum etdi və onu Tehrana göndərdi, zamin kimi isə onun böyük oğlu Nəzərəli xanı götürdü. Sonra Kalbalı xan gənc İrəvan xanına himayə etmək üçün İrəvan xanlığına göndərildi *(Butkov.2-ci hissə, səh..427)*

*

Kalbalı xan Naxçıvanskinin ağır şikəstliyi onun mənəvi və fiziki gücünü zəiflətmədi. Kor olması onun Qafqazda, Cənubi Qafqazda və Yaxın Şərqdə siyasi və hərbi fəaliyyətinə əngəl olmadı. Kor olmuş Kalbalı xan öz fəaliyyəti ilə tarixdə parlaq izlər qoymaqda davam etdi.

Gürcüstanın Rusiyaya birləşməsindən sonra Gürcüstan işləri üzrə Rusiya səlahiyyətli naziri P.İ.Kovalenskinin 1800-cü il 3 avqust ayında İmperatora məruzəsində Kalbalı xan Naxçıvanskini belə xarakterizə edirdi:

> "Məhəmməd xan İrəvanlının yanında Ağa Məhəmməd xan tərəfindən öz torpağından məhrum olmuş və gözləri çıxarılmış Kalbalı xan adlı birisi var. (...) Bu xan öz cəsurluğu, bacarığı və bəlağətli danışığı ilə şöhrət qazanıb. Kobud insandı, kinlidi və hiyləgərdi. Onun qohumları (Kalbalı xan İrəvan xanının doğma bacısı ilə evlidir. - R.İ) Məhəmməd xanın yanında özünə sığınacaq taparaq bir çox işlərə qarışır, öz tövsiyələri ilə sonuncuya güclü təsir göstərir.
>
> Bu kor keçən ay döyüş zamanı İrəvan ordusuna başçılıq etmişdi və çox güman ki, Məhəmməd xanın* icazəsi olmadan buna qərar vermişdi.
>
> *(AKAK, c. 1 səh. 119)*

* Böyük qardaşı öləndən sonra Məhəmməd xan 12 yaşında İrəvan xanlığının hökmdarı təyin edildi. Gücləri birləşdirmək və Yaxın Şərqə təsir etmək məqsədilə Əhməd xan Xoylu 30 yaşlı qızını kiçik yaşlı Məhəmməd xana ərə verdi.

GENERAL-MAYOR LAZEREVİN GENERAL-LEYTENANT KNORRİNQƏ MƏRUZƏSİNDƏN 6 OKTYABR 1800-CÜ İL

Gürcüstandan Şuragel* vilayətinin zorla qoparılması üçün Məhəmməd xan İrəvanlı İrəvan ordusu ilə birlikdə kor **Kalbalı xan Naxçıvanskini** də göndərdi. Bu günlərdə Kalbalı xan əyalətin sərhəd qoşunlarına hücum etdi, onlara böyük ziyan vurdu (yaralanan və ölənlər var), bundan sonra Şuragel qalasına tərəf irəlilədi, qalanı xaraba qoyaraq bu əyaləti tərk etdi.

(AKAK, c. 1 səh. 158)

*

1801-ci ilin martında **Kalbalı xan Naxçıvanski** rus təbəəliyinə keçmək arzusunu bildirdi və buna da gecikmədən ümidverici cavab aldı. 1801-ci il 22 mart tarixli məktubunda general-mayor Lazerev Kalbalı xana məlumat verdi:

"Sizin Əlahəzrət İmperatorun təbəəliyinə keçmək arzunuz barədə mən artıq rəisimə məlumat vermişəm(...) möhtərəm xan, sizi inandırıram ki, siz arzunuza görə bizim səxavətli Monarxdan hər şey ala bilərsiniz..."

(AKAK, c. 1 səh. 624

Lakin sonrakı hadisələr göstərdi ki, Kalbalı xan rus təbəəliyi altında olmaq xahişinin təmin edilməsini tezləşdirmədi.

1801-Cİ İLİN İYUN VƏ İYULUNDA VERİLMİŞ RUSİYA HƏRBİ RAPORTLARINDAN

"Məhəmməd xan İrəvanlı və Kalbalı xan Naxçıvanski Pəmbək əyalətinin əhalisini Əlahəzrət İmperatorun təbəəliyində zorla çıxarmaq üçün cəhd göstərirlər."

---

* Şuragel İran hakimiyyəti zamanı Gürcüstana məxsus olmuş bir əyalətdir. İrəvan Gürcüstanın hakimiyyəti altında olanda rəhmətlik çar II İrakli onu İrəvan xanına hədiyyə etmişdi. İrəvan xanına qəzəblənəndən sonra Şurageli yenidən Gürcüstana qaytardı. Buna görə də Kalbalı xan Naxçıvanskinin tövsiyəsi ilə Məhəmməd xan İrəvanlı müsəlmanların yaşadığı bu əyaləti Gürcüstandan zorla almağa nail oldu. Qeyd – R.İ

"Şuragel əyalətində yerləşərkən onlar 14 tatar kəndini, təxminən 5-6 min kişi və qadını ağaları və böyükləri ilə birlikdə bəzilərini öz razılığı ilə, bəzilərini də zorla çıxarmağa nail oldular."

(AKAK, c. 1 səh. 598)

Rusiya təbəəliyinə malik olmaq niyyəti heç də Kalbalı xana öz siyasi məsləyinə və mənəvi borcunu yerinə yetirməyə mane olmadı. Bu məslək ona Rusiyanın istilaçı niyyətinə qarşı müqavimət göstərməyin zəruriliyini diktə edirdi.

GENERAL-MAYOR LAZEREVİN GENERAL-LEYTENANT KNORRİNQƏ RAPORTUNDAN, 13 İYUL 1801-Cİ İL

Məhəmməd xan və Kalbalı xanın İrəvanda yüksək rütbəli məmurlarla müşavirəsi keçirilir, burda bəyan edilir: **"... xristianların müsəlmanlar üzərində ağalıq etməsinə dözmək olmaz, Pəmbək əyalətini müdafiə etmək və onu xristianların mülkünə verməmək lazımdır, lakin ona İrəvan xanı sahibdir."** (...) İrəvan xanı zahirən özünü Rusiyaya bağlı kimi göstərir, ancaq daxilən isə bizə nifrət bəsləyir (...) **Kalbalı xan** tərəfindən müdafiə olunan İrəvan xanı Pəmbək əyalətini Rusiya təbəəliyindən çıxarmaq niyyətindədir.

(AKAK, c. 1 səh. 617)

*

1802-ci ilin martında İran ordusu İrəvana yaxınlaşdı və şah İrəvan xanından tələb etdi ki, İran hakimiyyətini tanısın. Xan Rusiyaya kömək üçün müraciət etdi. Gürcüstandakı baş komandan general-leytenant Knorrinq ona hərbi dəstək verdi. Fətəli şah ruslarla qarşıdurmadan qaçmağı tərcih etdi. İrəvan xanına rus təbəəliyini qəbul etmək təklif olundu, lakin Rusiya imperiyası kimi Gürcüstanla da dostcasına münasibətdə olmalarını əsas gətirərək Rusiya hərbi rəhbərliyinə inandırmağa çalışan xan belə bir təklifdən boyun qaçırdı. İrəvan xanlığını kor **Kalbalı xan Naxçıvanski** idarə edirdi, bu haqda rus mənbələrində yazılır:

"İrəvan xanlığını bacarıqlı və Gürcüstan sərhəddini, xüsusi ilə də Pəmbək əyaləti tərəfdən narahat edən hansısa bir Kalbalı xan idarə edir.

Rusiyanın düşməni Kalbalı xanın təsiri ilə İrəvan xanı rusları Gürcüstandan sıxıştırmaq niyyətindədir, gizli olaraq Gəncə xanını, Axalkalaki paşasını, gözdən düşmüş Gürcüstan Xanədanının incik şahzadələri Aleksandr və Yulonu, İmereti çarını və b. müdafiə edir.

(Butkov.2-ci hissə, səh.514)

*

Varislikdən məhrum edilən və Rusiya hakimiyyətini Gürcüstanda tanınmayan çarın qəzəbinə gəlmiş şahzadələr Kalbalı xan Naxçıvanskidən kömək almaq üçün yollar aradılar və tapdılar.

GENERAL-MAYOR LAZEREVİN BAŞ KOMANDAN GENERAL-LEYTENANT KNORRİNQƏ MƏRUZƏSİNDƏN, 6 OKTYABR 1802-Cİ İL

İmereti çarı, şahzadə Yulon və Parnoaz, həmçinin Axalkalaki paşası Gürcüstana hücüm etmək niyyətindədirlər (...) **Kalbalı xan Naxçıvanski** və Məhəmməd xan İrəvanlı Pəmbək tərəfdən, şahzadə Aleksandr və Gəncə xanı Gəncədən, Car, Balakən və Dağıstan ləzgilərinin bir hissəsi isə Kaxetiya hücuma hazırlaşır.

Onlar hamısı bura eyni zamanda basqın etmək istəyirlər, amma vaxtı hələ məlum deyil.

(AKAK, c. 1 səh. 404)

*

Kor Kalbalı xan onun hakimiyyəti altında olan ərazilərin sərhədlərinin sayıqlıqla mühafizə edilməsini israrla izləyirdi. Sərhədə yaxınlaşanlara, kim olursa olsun, sərhədi keçmək istəyənlərə xəbərdarlıq edir, zəruri hallarda isə silah işlədirdi. 1802-ci ilin may ayında İrəvan xanlığının özününkü hesab etdiyi müsəlman əyaləti olan Şuragelin sərhədlərinə öz ordusu ilə yaxınlaşan polkovnik Karyaginə Kalbalı xan yazılı şəkildə məlumat verdi:

"... Bilmək istəyirik ki, sizin ordu hansı məqsədlə sərhəddə hərəkət edir. Hələ də biz sizin baş komandan ilə yaxşı münasibətdəyik. Əgər siz dost kimi gəlirsinizsə, xahiş edirəm bizə elan edin. Yox əgər siz dostluğu pozursunuzsa və bizə qarşı hərəkət etmək niyyətindəsinizsə, onda bu bizim üçün əhəmiyyətli deyil.

Biz sizdən cavab gözləyirik, biz də cavabınıza uyğun olaraq tədbir görməliyik. "

(AKAK, c. 1 səh. 625)

*

1802- ci ilin mayında **Kalbalı xan Naxçıvanski** öz əmisi oğlu Abbasqulu xanla birlikdə Qars paşasına onun quldurluq hərəkətinə görə irad tutaraq bu əyaləti xaraba qoymaq məqsədilə Qarsa yürüş etmək qərarına gəldi. Kor Kalbalı xan şəxsən özü özünun və İrəvan xanının ordusuna komandanlıq etdi.

Kalbalı xanın ordusu yaxınlaşan zaman Rus təbəəliyinə və Gürcüstanla sülhsevər münasibətdə olmağa and içən Qars paşası Qafqazdakı baş komandan general-leytenant Knorriqdən hərbi kömək istədi. Rus ordusuna Gürcüstanın Qarsla sərhəddinə yerləşmək əmri verildi.

Kalbalı xan Qars paşasının atlı süvarilərinə hücum etdi və onu qaçmağa məcbur etdi. Atlı süvariləri təqib edərkən Kalbalı xan rus ordusuna rast gəldi və rusların kütləvi top güllələrinin atəşilə qarşılaşan xan geri çəkilməyə məcbur oldu. *(Butkov.2-ci hissə, səh.516-517)*

BAŞ KOMANDAN GENERAL-LEYTENANT KNORRİNQƏ VERİLƏN RAPORTDAN, 9 VƏ 14 MAY 1802-Cİ İL

"Dəfələrlə məlumat gəlir ki, guya Kalbalı xan qoşunları toplayaraq Pəmbək əyalətinə hücuma keçmək niyyətindədir. Onun yanında öz ordusuna başçılıq etməyi xahiş edən gürcü şahzadəsi Aleksandr var."

"**Kalbalı xanın** ordusu artıq çoxsaylı qoşunla İrəvandan çıxıb və Qarasu çöllüyündə bizim sərhədlərin yaxınlığındadır.

Orduya Kalbalı xan başçılıq edir, onun yanında isə gürcü şahzadəsi Aleksandr var."

(AKAK, c. 1 səh. 624)

*

Qars paşasına daimi hərbi kömək göstərmədən qaçmaq üçün Rus hərbi rəisləri paşa ilə **Kalbalı xan Naxçıvanskini** barışdırmağı qərara aldılar.

1802-ci il may ayının 27-də Kalbalı xan polkovnik Karyaginə yazdığı cavab məktubunda Qars paşasının aşağıdakı şərtləri yerinə yetirdiyi təqdirdə məmnuniyyətlə sülhə razılaşır:

1) Qarapaq xalqının mənim hakimiyyətim altına qayıtması;
2) Eçmiədzin kilsəsinin tutulmuş əşyalarının geri qaytarılması;
3) Tacir karvanlarının qarət edilməsi zamanı oğurlanmış mənim mallarımın geri qaytarılması;
4) Onlar tərəfindən yandırılmış və xaraba qoyulmuş 10 kəndə taxta verilməsi və bu kəndlərin qarslılar tərəfindən tikilməsi;

Sizə hörmət etməsəydim, mən elə indi onlarla hesablaşardım, amma siz tezliklə barışmağımızı arzulayırsınız, mən gözləyərəm. Əgər qarslılar sizi eşitməzlərsə, onda Allahın köməyi ilə mən sabahdan Qarsa yola düşərəm.

(AKAK, c. 1 səh. 626)

Qars paşası sülh bağlanması üçün irəli sürülən şərtlərə əməl etmədi, ona görə də **Kalbalı xan Naxçıvanski** ilə ondan öz tələblərini yerinə yetirməyə silah yolu nail olmaq qərarına gəldi. Qafqazdakı baş komandan general-leytenant Knorrinq 1802-ci il noyabrın 17-də aşağıdakı məzmunda məlumat aldı:

"Qars paşası polkovnik Karyagini **Kalbalı xan Naxçıvanskinin** bəyazitli Məmməd paşa və Axalsixidən qaçmış Şərif paşa ilə birlikdə Karsa hücum etmək niyyəti barədə məlumatlandırdı, guya Kalbalı xan artıq 10 min əsgər toplayıb və ordunu Pəmbək əyaləti ilə sərhəd olan Şuragel

əyalətinə göndərib.

Kalbalı xan Naxçıvanskinin məqsədi sanki Pəmbək əyalətinə hücuma yönəlib, ona görə də Rusiya komandanlığı 150 muşketyor və topu Pəmbək vilayətinə geri qaytarmağa məcbur oldu. "

(AKAK, c. 1 səh. 629)

*

Kalbalı xan Naxçıvanskinin silahlı hücumundan ehtiyat edən Qafqazdakı baş komandan general-leytenant Knorrinq 1802-ci il iyunun 8-də Rusiya İmperatoruna məruzə etdi:

"İranın Gürcüstana yaxın olan mülklərindən birində Ağa Məhəmməd xan tərəfindən kor edilmiş hakimiyyətsevən və cəsur **Kalbalı xan Naxçıvanski** var.

Kalbalı xan Gürcü şahzadəsi Aleksandra sığınacaq vermişdir.(...)

Şahzadə Aleksandr Gürcüstana hücum etməyə hazırlaşmaq üçün Axalsixi paşasının yanında bir müddət qaldı, sonra isə bir-birinə yaxın olan xanları Gürcüstanı mühafizə edən İmperator ordusuna qarşı vuruşmağa inandırmağa çalışır. Şahzadə Aleksandrın qənaətinə görə Kalbalı xan Axalsixi paşası ilə birləşməlidir, bunun üçün əvvəlcə onları ayıran türk Qars əyalətini darmadağın etmək lazımdır.

Qars paşasına olan şəxsi iradlarını əsas gətirərək Kalbalı xan ona qarşı silah gücündən istifadə etmək qərarına gəldi və Gürcüstanı Kars əyalətindən ayıran sərhəd xəttinə yaxınlaşdı. Bu şəraitdə mən əmr etdim ki, bizim ordu Gürcüstan sərhəd xəttində Kalbalı xanın ordusuna qarşı dayansın və onun hərəkətini müşayiət etsin. Gürcüstan sərhədinə onun yaxınlaşmasının səbəbini soruşduqda Kalbalı xan cavab verdi ki, Gürcüstana qarşı heç bir iddiası yoxdur və ona görə bura gəlməsinin səbəbini açıqlamağı lazım bilmir. Kalbalı xana qarşı dayanmağa gücü olmayan Qarslı Məmməd paşa məni İmperator hakimiyyətinə sadiq olduğunu inandıraraq məndən xahiş edir ki, İmperator ordusu ona kömək etsin.

Öz ötəri qələbələrindən ruhlanan Kalbalı xan keçən may ayının 28-də bütün gücü ilə eyni vaxtda Türkiyə və Rusiya ordusuna zərbə vurdu. Türkiyə atlı süvarisi əvvəlcə geri çəkildi, amma güclü silah atəşləri – üç Rusiya topundan və

üç Türkiyə topundan açılan atəşlər üç saat davam edən döyüşdə düşmənin xeyli itki verməsinə səbəb oldu.(...)

Kalbalı xana qarşı döyüşdə İmperator ordusundan 381, Gürcüstan Pəmbək tatarlarından isə 200-ə qədər əsgər iştirak etdi. Türk atlı süvariləri 6 minə, piyada qoşunu isə 2 minə qədər idi.

Kalbalı xanın atlı süvarilərində 12 minə yaxın, piyada qoşununda isə iki top və 2500-ə qədər əsgər var idi.

(AKAK, c. 1 səh. 627)

*

Qars paşasının mülklərini Kalbalı xanın silahlı hücumundan müdafiə etmək üçün Rusiya hakimiyyəti Qafqazda öz ordusunu daim hazır vəziyyətdə saxlamağa məcbur idi.

Bununla yanaşı rus ordusunu Kalbalı xan Naxçıvanskinin ordusu ilə silahlı toqquşmaya cəlb etmək üçün Qars paşası Kalbalı xanın ona hücum edə biləcəyi barədə daima haray salır.

1802-ci ilin noyabrında Qarslı Məmməd paşa Kalbalı xan Naxçıvanskidən ona qarşı təhlükə olduğunu bildirir, guya ki, Kalbalı xanın yanında İrəvan xanının bir neçə minlik qoşunu var. Paşa general-mayor Lazerevdən xahiş edir ki, polkovnik Karyaginə göstəriş versin ki, düşməni dəf etmək üçün ona kömək etsin. Bu göstəriş gecikmədən verilir. Göstərişi alan polkovnik Karyagin məruzə edir:

"... mənə gələn xəbərə görə (...) Kalbalı xanın qiyamçılarının bizim əyalətə qəddarcasına ziyan vurmasından qorumaq üçün 563 nəfər iki topla İrəvan sərhədinə daxil oldu."

(AKAK.T.1.C.629)

Lakin 1802-ci ilin dekabr ayının 5-də baş komandan general-leytenant Knorrinqə məlumat verildi ki, *"İrəvan qoşunlarını toplayaraq Qars paşasına hücum etməyə hazırlaşan Kalbalı xan qoşunları buraxdı...."* *(AKAK.T.1.C.630)*

Qars paşasının növbəti həyəcanı da yalan çıxdı, Kalbalı xanın hücumu baş vermədi. Lakin Qars paşası Kalbalı xan

tərəfindən haqlı cəzalandırılmağından ehtiyat edərək yeni baş komandan knyaz Sisianov P.D. zamanında da sakitləşmədi.

*

Qafqazdakı yeni baş komandan knyaz Sisianov etimadını qazanmaq üçün Qars paşası ona hədiyyə olaraq gümüşdən bəzədilmiş at göndərdi **və Kalbalı xan Naxçıvanski** tərəfindən onun əyalətinə qarşı təhlükə olması barədə baş komandana dayanmadan məktub yazırdı.

Knyaz Sisianov əvvəlcə Qars paşasının tərəfini tutdu və Əlahəzrət İmperatora yazdığı 1803-cü il 9 aprel tarixli raportunda öz mövqeyini Rusiyanın strateji faydası kimi izah edirdi:

> "İmperatorun ordusunun Qara dəniz sahilinə birinci hərəkət etməsi bizə əhəmiyyətli dərəcədə üstünlük gətirər, demək olar ki, Qarsı, Axalsixini, Potini, ola bilər ki, hətta Anapanı da həmişəlik tuta bilərik. "
>
> *(AKAK.T.2.C.905)*

Knyaz Sisianovun imperatora 1803-cü il 3 mart tarixli raportunda Qars Paşasının Kalbalı xandan növbəti şikayəti yer alır:

> " Sizə məlumat verirəm ki, Kalbalı xan tezliklə öz ordusu ilə bizim və sizin üstünüzə gəlmək niyyətindədir, İmperator ordusunu araşdırmadan öz qəddarlığına əsasən vəhşicəsinə hamı ilə düşmənçilik edir. Eşitdim ki, sizin Pəmbəyə yeritdiyiniz qoşunun sayı olduqca azdır, cürətimə görə sizdən üzr istəyirəm, əgər mümkünsə, oraya min nəfər yerləşdirin.(...) Biz sizə ümid bəsləyirik.
>
> Bu qeyri-qanuni və rəhmsiz xan bu günə kimi bizə 3 000 000 rubla yaxın ziyan vurub, indi də bizi narahat etməkdən və iflas etməkdən çəkinmir..."
>
> *(AKAK.T.2.C.906)*

Lakin knyaz Sisianov general-leytenant Knorrinq kimi etibarlı çıxmadı. Knyaz tezliklə Qars paşasının sədaqətsizli-

yini üzə çıxardı və "səmimi və təmiz ürəkli olmasını", "dostluqda sübut və mehriban qonşuluq qaydalarını" tələb edərək onu ifşa etməyə başladı. Və nəhayət, 1804-cü il avqustun 12-də knyaz Sisianov Qarslı Məmməd paşanın əslində kim olduğunu anladı və paşaya cavabında bildirdi: *" Sizin məktubunuzu aldım və tamamilə yalanla dolu məktubunuzu anlamadım..." (AKAK.T.2.C.909,911).*

Qars paşası ilə münasibətində Kalbalı xan Naxçıvanskinin hərəkəti haqlı çıxdı.

*

Kor olmasından təxminən altı il sonra, Rusiya-İran müharibəsi (1803-1814) ərəfəsində, 1803-cü ilin əvvəllərində Fətəli şah Naxçıvan xanlığını idarə etmək üçün Kalbalı xanı geri qaytardı.

Bu dövrdə xanlığı idarə edən Kalbalı xanın əmisi oğlu Abbasqulu xan buna mane olmağa çalışdı. Xanlığın İran Hakimiyyəti altında olmasına baxmayaraq Abbasqulu xan Rus silahının köməyinə arxalanırdı. Knyaz Sisianovun Kalbalı xana nifrət etdiyini bilən hakimiyyət hərisi Abbasqulu xan hətta öz əmisi oğlu Kalbalı xanı knyaza verməyə hazır idi. Lakin Abbasqulu xanın əxlaqsız niyyəti baş tutmadı. Şah da Abbasqulu xanı xanlığı idarə etməsindən uzaqlaşdırdı.

Fətəli şahın fərmanında Kalbalı xana etibar edilməsi aşağıdakı şəkildə ifadə edilmişdi:

> "Yüksək mənsəbli, xüsusilə yüksək mənsəbli, xoşbəxtlik sığınacağı, sədaqət göstərən Kalbalı xan köhnə xidmətçilər sırasına mənsub olduğuna və daim ədalət nümayiş etdirdiyinə görə şahın nəzərləri ona tərəf yönəlmişdir...
> 1218-ci ilin (1803) zilhiccətül-həram ayında yazıldı".
> *(Пер. Азия в док. Нахч. рук. док. Tiflis, 1836, səh. 25-27)*

*

Kalbalı xan yenidən Naxçıvan hakimi olan kimi knyaz Sisianov Rusiya imperiyasının siyasətini bu regionda həyata keçirmək üçün onun nüfuzundan və imkanlarından istifadə

etməyə çalışdı. Ermənilərin əlində alət olaraq və varlı ermənilərin maraqlarını müdafiə edərək Rusiya hakimiyyəti erməni patriarxının qeyri-qanuni şəkildə dəyişdirilməsini müdafiə etdi.

İmperator sarayının ermənilərin təlqin etdiyi iradəsini yerinə yetirərək knyaz Sisianov Kalbalı xandan xahiş etdi ki, Eçmiədzində guya qeyri-qanuni patriarx tacına sahib olan erməni patriarx Davidin əvəzinə taxta patriarx Danilin gəlməsinə köməklik göstərsin. 1803-cü il fevralın 3-də knyaz Sisianov Kalbalı xana baxın nə yazırdı:

> "Gürcüstan baş komandanı sifətində bura gələrkən bu şəhərə gəlişim haqda sizə məlumat verməyi özümə borc bilirəm (...) Sizdən xahiş edirəm ki, Ümumrusiya İmperatoru və möhtərəm sultanın icazəsilə ona hədiyyə edilmiş, eyni zamanda erməni xalqının ümumi rəyinə görə katolikos Danilin tezliklə Eçmiədzin patriarx taxtına (...) yüksəlməsi üçün sizdən asılı olan bütün səyinizi sərf edəsiniz.
>
> Mən tamamilə təsdiq edirəm ki, bu işin uğurla və tez bir zamanda həll edilməsində siz bütün vasitələrdən istifadə etməyi əsirgəməyəcəksiniz. Bununla da hər iki uca Saraya xeyirxahlıqla xidmət etmiş olarsınız."
>
> *(AKAK.T.2.C.633-634)*

Kalbalı xan knyaz Sisianovun xahişini qanuna zidd olduğu üçün rədd etdi. Kalbalı xanın iştirakı olmadan qanunu seçilmiş patriarx David Danili həbs etdi və onu Kalbalı xan və Məhəmməd xan İrəvanlının nəzarəti altında bir neçə il İran zindanında saxladı.

Yalnız 1807-ci il sentyabrinda yenə də Kalbalı xan Naxçıvanskinin iştirakı ilə Danili İran əsirliyindən azad etmək və onu patriarx Davidin yerinə taxta gətirmək mümkün oldu. Lakin 1808-ci ilin oktyabr ayının 9-da kilsə hakimiyyətinin zirvəsində heç bir il də qalmayan Danil vəfat etdi və beləliklə, ona bəslənən ümidləri doğrultmadı.

*

İmperatora yazdığı 1804-cü il 10 mart tarixli raportunda knyaz Sisianov İrəvan və Naxçıvanı işğal etmək üçün öz planını bəyan edir : *"Bu yaz biz ola bilər ki, Rusiya ştandartını İrəvan və Naxçıvan divarlarına sancaq, və ya heç olmasa, orda idarə edən xanları Rusiyaya xərac verən edək"*. Uca Saray knyaz Sisianovun bu yalanına inandı.

Kalbalı xan Naxçıvan xanlığının idarə edilməsindən uzaqlaşdırıldıqdan sonra 1804-cü ilin yazında İrəvanda olarkən o yenidən bəyan edir ki, rus hakimiyyətini fars hakimiyyətindən üstün tutur və 1804-cü ilin aprel ayının 3-də erməni mənbələri bu haqda o dəqiqə baş komandan Sisianova xəbər verirlər:

> "Öz məmurları ilə məsləhətləşərək **Kalbalı xan** İran şahının hakimiyyətini tanımamaq barədə qəti qərara gəldi. O deyir ki, mən kor adamam, yaxşısı budur ki, Rusiyaya tabe olum, nəinki İrəvana sahib olan İran şahına. Çünki o mütləq mənim boynumu vurduracaq. (...) Belə bir şəraitdə **Kalbalı xan** öz ölümünü hiss edərək Rus ordusunun İrəvana gəlməsini səbrsizliklə gözləyir."
>
> *(AKAK.T.2.C.806)*

Kalbalı xan belə bir bəyanat verməyə qadir deyildi, erməni mənbələrinin yalan və fantaziyaları barədə məlumat kifayət qədərdir, lakin knyaz Sisianova belə məlumatlar hətta yalan olsa da, son dərəcə lazım idi. Nüfuzlu Kalbalı xanın böyük imkanlarına inan knyaz Sisianov onun köməyi ilə İrəvanı döyüşsüz ələ keçirməyi fikirləşdi, Kalbalı xana isə köməyinə görə knyaz formal olaraq İran şahının hakimiyyəti altında olan Naxçıvan xanlığını söz verdi. Knyaz Sisianov sanki öldürülməmiş ayının dərisini bölüşürdü.

KNYAZ SİSİANOVUN KALBALI XANA
1804-CÜ İL 5 MAY TARİXLİ MƏKTUBUNDAN

"Mən çox razıyam ki, siz Rusiyanın tərəfini saxlayırsınız, iş uğurla başa çatanda və bunun həqiqiliyinə tam əmin olanda, mənim dostum, Allaha and içirəm ki, Naxçıvan xanlığında oturacaqsan."

(AKAK.T.2.C.634)

Həqiqətən də öz xüsusi ordusuna, İrəvan xanının ordusuna malik olaraq İrəvan əhalisinə güclü təsiri olan Kalbalı xan İran ordusunun qalada olmadığı vaxt İrəvanın tutulmasına köməklik göstərə bilərdi. Lakin knyaz Sisianov əlverişli şəraitdən istifadə etmədi və qalada olan ermənilərə arxayın oldu. İran ordusunun İrəvanı tutması halında farslar rus hakimiyyətinə sədaqətinə görə ermənilərı İranın dərinliklərinə köçürəcəyini bilən knyaz ermənilərə məsləhət gördü ki, nə qədər ki, fars ordusu qalaya girməyib, qalanın müdafiəsini zəiflətmək üçün qalada qiyam qaldırsınlar və rus ordusuna imkan versinlər ki, qalaya daxil olsun və qalanı ələ keçirsin.

Təxminən bir il yarım knyaz Sisianov öz ordusu ilə İrəvan qalasının divarları qarşısında boş-boşuna dayandı və zaman faktorundan istifadə etməyi bacarmadı. Ermənilər də knyaz Sisianovu aldatdılar və söz verdikləri kimi qalada qiyam qaldırmadılar, əksinə qalanı tərk edib qaçdılar. 1805-ci il avqustunda şahzadə Abbas Mirzənin ordusu qalanı tutandan sonra qalanı nəinki qansız, hətta hücumla da almaq mümkün deyildi. 1805-ci il sentyabrın 4-də mühasirəyə alınmış İrəvan qalasından mənəvi cəhətdən sınmış, döyüş qabiliyyəti olmayan, yarıçılpaq və aclıq içində knyaz A.D.Sisianovun komandanlığı altında rus korpusu geri çəkildi.

Knyaz Sisianov İmperator qarşısında özünü təmizə çıxarmağı bacardı, Kalbalı xanı isə faktiki olaraq Rusiyanın düşməni kimi təqdim etdi. Kalbalı xanın özünə gəlincə

isə o bu barədə qəti olaraq bəyan etdi: "*Mən knyaz Sisianova heç vaxt yalan danışmadım və danışmaram; mən ona dedim ki, qalanı tələb etsin , o bunu etmədi"*

(AKAK.T.2.C.634)

*

Yerli mülkədarların Rus təbəəliyini qəbul etmək nəsihətinə aludə olan Qafqazdakı baş komandan knyaz Sisianov **Kalbalı xan Naxçıvanskiyə** qarşı çıxmaqdan çəkindi. Cəfərqulu xan Xoylunu rus təbəəliyini qəbul etməyə razı salmağa çalışaraq və bilərək ki, bu məsələdə Kalbalı xan onu müdafiə etməyəcək, 1805-ci il 3 fevral tarixli məktubunda Kalbalı xanı pislədi:

> "Əlahəzrət, bu Kalbalı xan kifayət qədər məşhurdur və mən də onu çox sınadım, sizinlə danışıqları zamanı dediklərinin hamısı yalandı (...) Əgər mən onunla və ya İrəvan xanı ilə bir iş görsəm, onda mən onlarla o halda razılaşaram ki, onlar oğlanlarını girov qoymağa razı olsunlar."
>
> *(AKAK.T.2.C.860)*

Knyaz Sisianov dedi-qodusuz və intriqasız yaşaya bilmirdi və ona aludə olan ermənilər də bütün şayiələri və qeybətləri, həm də öz kinlərini onlara qarışdıraraq ona çatdırırdılar. İrəvandan olan hansısa bir Martirosun şəxsində knyaz Sisianovu inandırdılar ki, **Kalbalı xan** Cəfərqulu xanın rus vətəndaşlığını qəbul etməsinə imkan verməz, çünki onun Cəfərqulu xan üzərində çox böyük təsiri var. Eyni zamanda ermənilər knyaz Sisianovu inandırdılar ki, Kalbalı xan Rusiyanın düşmənidi:

> Kalbalı xan Cəfərqulu xanın yanına gəldi və ona dedi ki, o, Cəfərqulu xanın oğlunu, arvadını və qardaşını özü ilə götürüb Baba xanın hüzuruna gedəcək və Baba xandan Xoy xanlığının ona verilməsini istəyəcək, bir şərtlə ki, Cəfərqulu xan ruslardan uzaqlaşsın, amma Cəfərqulu xan Rusiyaya rəğbəti olduğu üçün, onu qorxutsalar belə, bununla razılaşmır.

Həmçinin Kalbalı xanla Məhəmməd xan öz aralarında məsləhətləşəndən sonra Şuşa xanına adam göndəriblər ki, o, rusları aldadıb öz üzərinə çəksin və onlar şahzadə ilə birlikdə çoxlu qoşun göndərməsi xahişi ilə Baba xana adam göndəriblər, ruslar Şuşada olanda, onlar Gürcüstana yürüş edəcək, onların taxıl və əkinlərini məhv edəcəklər ki, həm sakinlər, həm də ruslar ac qalsınlar və onlar rusları qırıb, Gürcüstanı ələ keçirəcəklər.

(AKAK, c. 2, səh. 634)

*

Eyni vaxtda hər iki qardaşa – **Kalbalı xana** və Abbasqulu xana Naxçıvan xanlığını vəd edən hiyləgər knyaz Sisianov onların arasını vurmağı bacardı. Abbasqulu xanın mənəvi cəhətdən zəif olduğunu bilərək knyaz onu öz tərəfinə çəkdi və onun köməyi ilə hətta kor Kalbalı xanı əsir götürməyə cəhd etdi.

KNYAZ SİSİANOVDAN – ABBASQULU XAN NAXÇIVANSKİYƏ 14 AVQUST 1805-Cİ İL

Bütün mülklərinizlə birlikdə Ümumrusiya İmperiyasının yüksək təbəəliyinə keçmək arzunuzu bildirdiyinizə görə sizə təşəkkür edirəm. Eyni zamanda sizi əmin edirəm ki, bu vasitə ilə siz öz xoşbəxtliyinizi və rifahınızı tapacaqsınız (..) Yaxşı olar ki, Naxçıvan qalasına həmişəlik orda qalmaq üçün bir qarnizon yerləşdirilsin (...) Qoşun bir illik azuqə ehtiyatına malik ola bilərmi, zira Naxçıvana heç yerdən azuqə göndərmək mümkün deyil və uzaqdır (...)

Nəhayət, mənə Kalbalı xanı ələ keçirmək lazımdır, o, ötən il mənə çox əngəl törədib, elə indi də ondan, bu əməllərindən əl çəkməyəcəyini, siz yüksək mənsəblinin faydalı işlərinə ziyan vuracağını gözləmək lazımdır.

(AKAK, c. 2, səh. 635)

ABBASQULU XAN NAXÇIVANSKİDƏN – KNYAZ SİSİANOVA

İzn verin (...) yazım, guya Naxçıvanda Rusiya qoşunları üçün heç yerdə azuqə tapmaq mümkün deyil, (...) başqa

məsrəflərdən savayı 10 il ərzaqla təmin edə bilərəm.

İzn verin, adını belə xatırlamanıza layiq olmayan **Kalbalı xan** barədə fikirlərimi yazım: o kimdir axı və nə edə bilər? Allah qoysa, o, əl-qolu bağlı halda sizin yanınıza göndəriləcək.

İndi isə xahiş edirəm ki, mənə lütfkarlıq göstərib, Naxçıvan xanlığına hakim təyin edilməyim barədə fərman, təlimat və xələti (...) göndərəsiniz.

Abbasqulu xan Naxçıvanskinin möhürü qoyulub.

(AKAK, c. 2, səh. 635)

*

Kor **Kalbalı xanı** qəti nüfuzdan salmaq və onun Naxçıvan xanlığına qaytarılmasının yolunu kəsmək üçün, – məlum olduğu kimi o, 1804-cü ilin yazında şah tərəfindən Naxçıvan hakimliyindən uzaqlaşdırılmışdı, – Sisianov Naxçıvanın nüfuzlu adamlarına müraciət edərək, Kalbalı xana böhtanlar yağdırır, şah tərəfindən İrana köçürüləcəkləri ilə qorxudaraq onlara Rusiya üsul-idarəsinin üstünlüklərini vəd edir.

KNYAZ SİSİANOVDAN – NAXÇIVANIN AXUNDLARINA, MOLLALARINA, BƏYLƏRİNƏ VƏ BÜTÜN KƏTXUDALARINA 14 AVQUST 1805-Cİ İL

...Rusiya qanunları və o mələksimalı Hökmdarlar Hökmdarın müqəddəs iradəsi bundan ibarətdir ki, hər kəsin həyatı və mülkiyyəti hökumət tərəfindən təmin, mühafizə və müdafiə edilmiş olsun. Beləliklə, əgər siz qarşınızda duran dinclik və səadətdən istifadə etmək arzusundasınızsa, onda mən sizə öz şəxsi xeyriniz üçün yüksək dərəcəli rəisiniz Abbasqulu xanla birləşməyi, onunla birlikdə mənim vasitəmlə mənim çox mərhəmətli Hökmdarlar Hökmdarımdan özünüzə himayədarlıq və təbəəlik istəməyinizi məsləhət görürəm.

Kalbalı xana gəldikdə isə, sərasər iki ildir iranlıları torpaqlarınıza gətirməklə sizə nə qədər ziyan vurduğunu özünüz görürsünüz, onlar sizin taxılınızı yandırır, sizi azuqədən məhrum edir, ən pisi də odur ki, onun məkri ilə, ola bilsin, sizi də irəvanlılar kimi sürgün etsinlər...

(AKAK, c. 2, səh. 636)

*

Üç Fransa vətəndaşı İrəvandan keçərək Fətəli şahın yanına getmək məqsədilə bir ermənin müşayiəti ilə 1805-ci ildə Bəyazitə gəlmişdi. Bəyazit paşası onları geri qaytarmağı əmr etdi, onlar geri qayıdarkən yolda erməni öldürüldü, üç fransız isə həbs olundu.

> "Bundan xəbər tutan **Kalbalı xan Naxçıvanski** Ərzurum paşasına məktub yazaraq, Bəyazit paşasına fransızların azad edilməsi barədə əmr verməsini xahiş etdi ki, onlar sərbəst şəkildə onun yanına gəlib, ordan da Fətəli şahın yanına gedə bilsinlər."
>
> *(AKAK, c. 2, səh. 853)*

Hansı vəziyyətdə olursa-olsun Kalbalı xan Naxçıvanski hər cür özbaşınalığın əleyhinə idi və öz imkanları daxilində qanunsuzluğun önünü kəsməyə çalışırdı. Yollarda qarətlə məşğul olan Qars paşasını, məlum olduğu kimi, o, silah gücünə cəzalandırmışdı.

*

1806-cı ildə kor Kalbalı xan İran şahı və şahzadəsindən asılı olmadığını nümayiş etdirərək, iranlıları Təbrizdən qovmaq və beləliklə də şahzadəni öz qərargahından və paytaxtından məhrum etmək niyyətində idi, bu barədə Maku xanı Xoy hakimi Cəfərqulu xana məlumat vermişdi.

> "...Siz mənim ağam **Kalbalı xana** arxayın ola bilərsiniz ki, o, gələcəkdə nə şahın, nə də şahzadənin yanına gedəcəkdir. O, ehtiyat üçün azuqəni İrəvan qalasına aparıb və hazır vəziyyətdədir.
>
> **Kalbalı xan** həmçinin Qarabağda və Yelizavetpolda olan ruslarla danışıq aparır. Siz Eçmiədzinə gələndə o, bu tərəfdən onları Naxçıvana aparacaq, siz Eçmiədzində qalacaqsınız, ancaq ona düşməni Təbrizdən qovmaq üçün 500 nəfər rus verəcəksiniz.
>
> Cari ayın 19-da yazılıb"
>
> *(AKAK, c. 3, səh. 429)*

*

1808-ci ildə Rus-İran müharibəsinin beşinci ilində rus ordusunun zəfər yürüşü İranın daxili torpaqlarına girmək təhlükəsi yaratdı. İran şahı Naxçıvan qalasını möhkəmləndirmək qərarına gəldi və inşaat işlərinin getdiyi dövrdə əhalinin qaladan çıxarılmasını buyurdu.

Əyalətin hakimi Kalbalı xan Naxçıvanskinin onun göstərişini yerinə yetirəcəyinə və Naxçıvan qalasının möhkəmləndirilməsi işini təşkil edəcəyinə, əhalinin isə yüksəkmənsəbli hakimə dəstək verəcəyinə ümid edərək İran şahı Kalbalı xana sədaqət andı içdi.

> Uca Allaha and içirəm, mərhəmətli Allaha and içirəm, alihəzrət şahzadənin qiymətli başına, dünyanın sığınacağı olan Hökmdarın duz-çörəyinə and içirəm ki, canım bədənimdən çıxmayanacan, mən sağ olduğum müddətcə yüksək mənsəbli Kalbalı xana, onun valiliyinə və əyalətinə münasibətdə, bütün kəngərlilərə münasibətdə mehribanlıq və yaxşılıqdan savayı, heç bir pis şey olmayacaq, bu şərtlə ki, o yüksək mənsəblilər də gah bu, gah da o tərəfə qaçmasınlar, Təbrizə məktub göndərməsinlər, özlərinə hər tərəfdə bir ev tikməsinlər və qorxu və hürkü səbəbindən yüksək mənsəbli Kalbalı xandan savayı başqasının ətəyindən yapışmasınlar...
>
> 1223-ci ilin (1808) zilhiccətül-həram ayında yazıldı.
>
> *(Пер. Азия в док. Нахч. рук. док. Tiflis, 1836, səh. 39-40)*

*

İran şahının şirin vədləri və onun sədaqət adının köməyi olmalıdı. Kalbalı xan şahın Naxçıvan qalasının sakinlərini köçürmək barədə əmrini yerinə yetirmədi. Qala sakinlərinin əmin-amanlığını mühafizə edərək, Kalbalı xan, ola bilsin ki, eyni zamanda rus qoşunlarının yoluna əngəl törətmək istəməmişdi.

Şah Kalbalı xanının bu itaətsizliyini bağışlamadı, 1808-ci ilin martında (aprelində) yenidən onu Naxçıvan xanlığının

idarəçiliyindən uzaqlaşdırdı.

1809-cu ilin əvvəlində Qafqazın baş komandanı Qudoviç **kor Kalbalı xanın** Naxçıvan xanlığının hakimliyindən kənar edilməsi və əmisi oğlu Abbasqulu xanın onun yerinə təyin edilməsi barədə məlumat aldı: *"Öz zənginliyi, nüfuzu və cəsurluğu ilə məşhur olan **Kalbalı xan Naxçıvanski** tutulmuşdur. Naxçıvana **Abbasqulu xan** adlı birisi rəis təyin olunmuşdur." (AKAK, c. 3, səh. 505)*

1809-cu il fevralın 19-da qraf Qudoviç Sankt-Peterburqa aşağıdakı məzmunda məlumat göndərdi:

> "Kor Kalbalı xan Naxçıvanski ötən ilin yazında, yenə də Rusiyaya sadiq olmaq şübhəsi ilə, Naxçıvan xanlığından məhrum edilmiş və bütün ailəsi ilə birlikdə İrana aparılmışdır; yalnız onun ən yaxşı oğullarından biri Şıxəli bəy xilas ola bilmiş, özünün bir neçə adamı ilə böyük Rusiya imperiyasının himayəsinə sığınmaq üçün Qarabağa qaçmışdır, buna görə də mən onu qəbul etdim və Əlahəzrət İmperatorun əbədi sadiq təbəəsi olmağına and içməyə dəvət elədim, o da Qarabağ qoşunlarının komandiri polkovnik Aseyevin iştirakı ilə buna and içdi".
>
> *(AKAK, c. 3, səh. 267)*

*

Qacar zamanında olduğu kimi, kor Kalbalı xan Naxçıvanski İran qoşunlarının tərkibində idi və döyüş əməliyyatlarında fəal iştirak edirdi. Qafqaz baş komandanı Tormasova İran qoşunlarını Qarabağa müdaxiləsi haqqında həyəcanlı xəbərlər gəlirdi.

13 iyun 1810-cu il tarixli məlumatdan:

> "Naxçıvandan guya etibarlı məlumat alınıb ki, şahzadə Abbas Mirzə 10 000 nəfərlik qoşunla Naxçıvana gəlir, oradan hara gedəcəyi məlum deyil, kor Kalbalı xan Naxçıvanskini isə çoxsaylı qoşunla əhalini qarət etmək və mal-qaranı aparmaq üçün Qarabağa göndərir".
>
> (AKAK, c. 4 , səh. 716)

29 iyun 1810-cu il tarixli məlumatdan:

"(...) Abbas Mirzə artıq Naxçıvandadır (...) Kalbalı xana digər üç xanla (qeyd edək ki, "digər xanlarla", çünki kor xan "digər" deyildi –R.İ.)və 30 topla birlikdə talançılıq etmək və rus qoşunlarını Mehriyə buraxmamaq üçün etibarlı mövqe tutmaq məqsədilə Qarabağın ərazisi olan Sisiana getmək əmr olunub (...) Abbas Mirzə Mehridə olan və rus qoşunlarının bu kəndə girməsinə yol vermiş sərbazların boyunlarının vurulmasını əmr edib"

(AKAK, c. 4, səh. 719)

8 iyul 1810-cu il tarixli üçüncü məlumat:

"Əskərana yürüş zamanı 1810-cu il iyulun 4-də xəbər alınıb ki, Kalbalı xan çoxsaylı qoşunla Mehriyə gedən yolu tutub və polkovnik Kotlyarevskinin dəstəsinin yolu kəsilib, Mehridə onun ən uzağı 20 günlük azuqəsi var, Şuşadan oraya kömək göndərməyə heç kim yoxdur. Mehri uğur qazanarsa, Qarabağ itaətdən çıxa bilər".

(AKAK, c. 3, səh. 558)

Bu əməliyyatın sonrakı taleyi haqda çox az şey məlumdur. Mehriyə gələn rus qoşunu polkovnik Kotlyarevskinin dəstəsinə qovuşmağa və ona ərzaq çatdırmağa nail olub. Çox güman ki, Kalbalı xan naxçıvanskinin dəstəsi döyüşə girməyib, amma Kalbalı xanın buraya qoşunla gəlməsi faktı rus qoşunlarının qərargahında ciddi həyəcan yaradıb.

*

Qafqazdakı baş komandan general Tormasova kor Kalbalı xanın böyük oğlu Nəzərəli xanın onun özünün və tabeliyində olan xalqın Rusiyanın himayəsinə qəbul edilməsi, Qarabağda onlara yer verilməsi və Qarabağa təhlükəsiz keçə bilmələri üçün müşayiət dəstəsi ayrılması haqda xahişi çatdırılıb. Ancaq təhlükəsiz keçid təmin olunmayıb və buna görə də Nəzərəli xan tabeliyində olan əhali ilə İranın hüdudlarını tərk etməyib. Bu situasiyada onun kiçik qardaşı Şıxəli bəy,

həyatını riskə ataraq, öz doğma qardaşı Nəzərəli xanla birləşmək və ona tabeliyində olan sakinlərlə birlikdə Qarabağa qayıtmaqda kömək etmək üçün Rusiyanı tərk edərək İrana qayıtmalı olub.

Rusiya Dövlət Hərb Tarixi Arxivində biz, Şıxəli bəyin üç ildən sonra, İran ordusunun polkovniki rütbəsində Rusiyaya qayıtdığını təsdiqləyən sənəd tapdıq.

QAFQAZDAKI BAŞ KOMANDAN GENERAL RTIŞŞEVDƏN – HƏRBİ NAZİRLİYİN RƏİSİ KNYAZ 1-Cİ QORÇAKOVA 22 NOYABR 1812-Cİ İL

1812-ci il oktyabrın 22-də Aslandüz yaxınlığında gedən döyüşdə əsir alınan İran polkovniki, Naxçıvanın sabiq xanı kor Kalbalı xanın oğlu Şıxəli bəyə gəlincə isə mən onu İran hökumətinin onların bütün ailəsinə inamsız münasibət bəslədiyi, buna görə də İranda özünü təhlükəsiz hiss etmədiyi, öz ailəsini və tabeliyindəki insanları bir yerə yığaraq, Qarabağa qayıdacağı və bu diyarın hüdudlarında məskunlaşaraq, həmişəlik Əlahəzrət İmperatorun himayəsinə keçəcəyi barədə verdiyi sözə əsasən azad etdim.

(РГВИА, f. 846, s. 16, q. 18253, v. 103)

Kalbalı xan Naxçıvanskinin ailəsində satqın olmamışdır və ola da bilməzdi.

*

1815-ci ilin ortalarında Kalbalı xan Naxçıvanski varislikdən məhrum edilmiş gürcü şahzadəsi Aleksandr İrakliyeviçin taleyi ilə yenidən məşğul oldu və Rusiya ilə İran hökumətləri arasında vasitəçilik etdi. Bu zaman şahzadə Aleksandr Dağıstanda yaşayırdı, burda onun halına yanır və köməklik göstərirdilər. İrəvan xanı şahzadənin Dağıstanda olmasını qanuni hesab etmirdi. İrəvan xanı və Kalbalı xanın fikrincə, şahzadə Aleksandr axır-nəhayət iki dövlətdən birinin, ya Rusiyanın, ya da İranın təbəəliyini seçməli idi. Dağıstanda qeyri-leqal şəraitdə yaşayan şahzadə qətiyyət-

sizlik göstərirdi.

Şahzadənin yaşayış ölkəsini seçməyini sürətləndirmək və ona maddi yardım göstərmək üçün 1815-ci ilin iyulunda İrəvan xanı Kalbalı xan Naxçıvanskini Rusiyaya göndərdi və general Rtişşevə bu barədə məlumat verdi:

> "Şahzadə Aleksandrın burada olan 3 adamını Kalbalı xanla birlikdə əlahəzrətinizin yanına göndərirəm, onların vasitəsi ilə şahzadəyə 1500 gümüş rubl, əşya və paltar yollayır və xahiş edirəm ki, onları göstərilən adamlar və bu baratı təhlükəsiz şəkildə çatdırmaq üçün ayırdığınız öz adamınızla birlikdə şahzadəyə göndərəsiniz, şahzadə məşhur Baqrtionlar nəslindən olduğu üçün (...) hər iki dövlətin yüksək himayəsi altındadır və siz onun hər iki böyük hökmdarın səxavətindən uzaqlaşıb, ləzgilərin himayəsi altında olması ilə razılaşmamalısınız (...) ki, bundan belə o orada qalmayıb yaşamaq üçün sizin yanınıza gəlsin (...) əgər İrana getmək istəyərsə, hansı yolla istəyirsə, o yolla buraya maneəsiz gəlsin, orada sakit yaşasın..."
>
> *(AKAK, c. 5, səh. 379)*

Şahzadə Aleksandr Qafqazdakı rus rəislərindən daha çox ləzgilərə etibar edirdi, rusların təxribatlarından, hətta onu həbs edə biləcəklərindən qorxurdu. O, hətta Rusiyanın hökmdar imperatorunu Rusiyada qalıb yaşamaqla bağlı dəvətinə belə inanmırdı və buna görə də İrana qayıtmaq qərarına gəldi.

Rus hökuməti isə şahzadə Aleksandrı ölkə hüdudlarından kənara buraxmaq istəmirdi, bu səbəbdən İrana geri qayıdarkən, ona cürbəcür əngəllər törətməyə çalışırdı; bu baxımdan həmin qayıdış şahzadəyə, himayədarı Kalbalı xan onu müşayiət etsəydi, həm də ona həyatları bahasına başa gələ bilərdi. Buna görə də şahzadə Aleksandr İrana, Dağıstan bələdçilərinin köməyi ilə, rus postlarından yan keçərək, qaçaqmalçıların getdiyi yolla gedib çıxdı.

Kor Kalbalı xan Naxçıvanski real situasiyanı düzgün

qiymətləndirərək, şahzadənin təhlükəsizliyi naminə İrana onsuz qayıtdı. 1816-cı il yanvarın 1-də general Rtişşev İrəvan xanına bu barədə məlumat göndərdi:

> "Sizə bildirməliyəm ki, məlum tapşırığınızla Tiflisə gələn Kalbalı xan parlaq cənabınızın mənim axırıncı məktubuma verdiyi eyni cavabla İrana qayıtdı, o cavabı mən Abbas Mirzəyə bildirdim; ki, o dövlətin himayəsi altına girmək üçün onunla birlikdə İrana getməkdə qərarsız olmağınızın başlıca səbəbi tək bu olub ki, parlaq cənabınız o zaman Abbas Mirzənin fərmanını almayıb..."
>
> (AKAK, c. 5, səh. 392)

*

GENERAL YERMOLOVUN KALBALI XAN NAXÇIVANSKİ İLƏ 1817-Cİ İLDƏKİ GÖRÜŞLƏRİ

Yüksək hakimiyyət tərəfindən İrana səfir təyin olunan general A.P.Yermolov 1817-ci il aprelin 17-də Tiflisdən Tehrana yola düşmüşdür. Naxçıvandan keçərkən **Kalbalı xan Naxçıvanski** haqda çox şey eşitmiş olan general onu üç dəfə: – 1817-ci il mayın 12-də İrana gedərkən və elə həmin il mayın 24 və 25-də Rusiyaya geri qayıdarkən ziyarət etmişdir.

1817-ci il mayın 12-də general Yermolov öz adamlarının müşayiəti altında Kalbalı xanın görüşünə getmişdir, xan özü onu ziyarət etmək niyyətində olmuşdur, ancaq general xanın yaşına və zavallı vəziyyətdə olmasına hörmət və ehtiram göstərərək özü kor Kalbalı xan Naxçıvanskinin evinə gəlmişdir.

1817-ci il sentyabrın 24-də general Yermolov yol gündəliyində bunları yazmışdır:

> "Burada məmnunluqla kor Xanı gördüm, zira bu hakimiyyətin iyrəncliyini bütün gücü ilə yalnız o duyur, ancaq çıxılmaz vəziyyət onu bu hakimiyyətə tabe olmağa məcbur edir..."

1817-ci il sentyabrın 25-də general Yermolov bir daha xanla görüşür, Tiflisə yola düşərkən onunla vidalaşır,

lakin Kalbalı xan sabahı günü general Yermolovun kortejini şəxsən yola salır *(РГАДА, f. 1406, s. 1, q. 345).*

*

NAXÇIVANIN DAŞ DUZ MƏDƏNLƏRİ HAQDA QEYDLƏR

Araz çayının sol sahili boyu uzanıb gedən geniş bir vadidə, Naxçıvandan on verst aralıda, Sust, Cəhri və Şıxmahmud kəndləri arasında zəngin daş duz yataqları olan bir dağ ucalır.

> "Kalbalı xan Naxçıvanski Naxçıvan hakimliyinə qaytarılana qədər (1816-cı ilin sonlarında Naxçıvanın qədim duz hasilatı ilə Cəhri kəndinin sakinləri məşğul olurdular, onlar bu işə görə çıxarılan duzun satışından alınan gəlirin üçdə birini alırdılar; bu zaman fəhlələrin öz alətləri olmalı, işin üçdə birini öz barıtları hesabına görməli idilər, ancaq Kalbalı xan ləzgilərlə döyüşdə göstərdikləri igidliyə görə Şıxmahmud kəndinin sakinlərini müstəsna duz çıxarmaq hüququ ilə mükafatlandırdı; bu zaman xan tərəfindən fəhlələr üçün müəyyən edilən əmək haqqı satılan duzdan alınan gəlirin yalnız dördə birini təşkil edirdi və duz çıxarmaq üçün barıtı onlara xan özü verirdi.
>
> *(AKAK, c. 7, səh. 92)*

*

Kalbalı xan 1787-ci ildən 1823-cü ilə qədər Naxçıvan xanlığına, – İran şahlarının onu xanlığın idarəçiliyindən uzaqlaşdırdığı dövrlər istisna olunmaqla – təxminən 23 il başçılıq etmişdir.

Kalbalı xan Naxçıvanski 1823-cü ildə Məkkədən Naxçıvana qayıdarkən Təbrizdə vəfat etmişdir.

Rusiya hökumətinin müdafiəsi altında olmaq, ancaq Naxçıvanın müstəqilliyini itirməmək və onun ərazi bütövlüyünü qoruyub saxlamaqla bağlı Kalbalı xanın çoxillik arzusu 1828-ci ildə, ölümündən beş il sonra, Türkmənçay sülh müqaviləsi imzalandığı zaman həyata keçmişdir.

Kalbalı xanın övladları və törəmələri öz ata və babalarının vəsiyyətlərini müqəddəs bir şey kimi yerinə yetirmiş, sonra isə əfsanəvi **Naxçıvan xanları** sülaləsinin qəhrəmanlıq və vətənpərvərliklə zəngin olan tarixinə qızıl hərflərlə öz layiqli adlarını yazdırmışlar.



Kalbalı xan Naxçıvanski
Rəssam Əsgər Məmmədov

“Böyük insanlar adi insanlardan ona görə fərqlənmirlər ki,ehtirasları az, ləyaqətləri çoxdur, ona görə fərqlənirlər ki, böyük fikirlərə malikdirlər”.

Fransua Laroşfuko (1613–1680)

NAXÇIVAN MUXTAR RESPUBLİKASI RİFAHIN VƏ MƏNƏVİYYATIN YÜKSƏK ZİRVƏSİNDƏ

Azərbaycan Respublikasının ayrılmaz bir hissəsi olan **Naxçıvan Muxtar Respublikası** Sosial və elmi-texniki tərəqqinin inkişafının yeni sürətli epoxasının parlaq şəfəqlərinin gur işığında təntənəli şəkildə öz muxtariyyətinin 85 illik Yubileyini qeyd etdi. Vaxtilə bir çox bəlalara düçar olmuş Naxçıvanın çiçəklənmə mərhələsi, bu qədim diyarın qəhrəmanlıq keçmişi haqda həqiqətin xalqa çatdırılması və Naxçıvan xanlarının əfsanəvi nəslinə dərin hörmət Azərbaycan dövlətçiliyinin dahi banisi və xalqın sevimlisi **prezident Heydər Əlirza oğlu Əliyevin** (10 may 1923-cü il – 12 dekabr 2003-cü il) rəhbərliyi ilə çoxdan gözlənilən Azərbaycan Respublikasının müstəqilliyini elan edilməsindən sonra başladı. Belə bir çiçəklənmə mərhələsini Naxçıvan Yer kürəsində mövcud olduğu beş min il ərzində görməmişdi.

Xalqa yenidən qaytarılan möhtərəm əcdadlarının çağırışına əsasən, demək olar ki, bizim nəslin gözləri qarşısında siyasi və mənəvi cəhətdən həmfikir olan yeni pleyadanın formalaşması baş verdi. Bu pleyadanın banisi, əlbəttə ki, **Heydər Əlirza oğlu Əliyev** idi.



Azərbaycanın
Böyük oğlu
Heydər Əlirza oğlu Əliyev



Azərbaycan
Respublikasının prezidenti
İlham Heydər oğlu Əliyev

Qədim Naxçıvan – nəinki respublikada, eyni zamanda dünya ictimaiyyətində ümummilli lider kimi qəbul edilən bu görkəmli azərbaycanlının vətənidir.

Bizim planetin sivil dünyası səhv etmədi. Dünya ictimai münasibətlərinin yeni mərhələsində Heydər Əliyevin rəhbərliyi altında həqiqi, de-yure, de-fakto, gözəl bir dövlət, müstəqil Azərbaycan Respublikası quruldu. Heydər Əliyev yeni Azərbaycanın dinamik inkişafına möhkəm sülh, sivilizasiya, iqtisadiyyatın tərəqqisi və xalqın mənəvi zənginliyini əlavə etdi. Naxçıvan xanlarının əfsanəvi sülaləsindən fərqli olaraq Heydər Əliyev, onun davamçıları və ideya silahdaşları nəsil şəcərəsinə qapanıb qalmırlar, hərçənd bunu da inkar etmirlər. Respublikada yeni siyasi hərəkətverici qüvvələrin iştirakçıları günəşli Azərbaycanın və onu ayrılmaz hissəsi – başıbəlalı, lakin itaət etməyən qədim Naxçıvanın rifahı və tərəqqisi naminə əxlaqi prinsiplər əsasında bir olaraq yaşayır və yaradırlar.

Hal-hazırda dahi naxçıvanlı Heydər Əliyevin mübarizə yoldaşlarının ikinci nəsli onun yolunu davam etdirir və uğurla fəaliyyət göstərir. Ona sadiq olan davamçılarından biri də

Azərbaycan xalqı tərəfindən sevilən və bütün dünyada tanınan hazırkı prezident **İlham Heydər oğlu Əliyevdir**.



HEYDƏR ƏLİYEVİN silahdaşlarından biri də onun şagirdi və hazırkı prezident İLHAM ƏLİYEVİN tərəfdarı görkəmli naxçıvanlı **Vasif Yusif oğlu Talıbovdur.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **VASİF MÜƏLLİM** Allah tərəfindən yaradılmış əsl qurucudur.

Xoşbəxtlikdən, günəşli Naxçıvanı gəzib dolaşırıq. Ətrafda və hər yerdə səliqə-sahman və xoşbəxt təbəssüm. Qədim şəhər yaşıllıqların ətrinə bürünüb. Bu gözəl qədim diyarın – bizim Planetdə həyatın ilk özəyi – maraqlı və zəngin tarixi istər-istəməz yada düşür. Naxçıvan sənətkarları – toxucuları, dulusçuları, zərgərləri və digər istedadlı ustaları səyahətçiləri və tacirləri, müxtəlif gəlmələri öz bədii əsərlərinin gözəlliyi və zərifliyi ilə məftun edirdi.

Qədim Naxçıvan dünyada bəşəriyyət üçün ən böyük monumental abidədir. Naxçıvan Muxtar Respublikası ərazisində hazırda 1162 memarlıq xəzinəsi var. Bunlardan 58-i ümumdünya əhəmiyyətli qiymətə malikdir, 455-i respublika əhəmiyyətli və 648-i isə yerli əhəmiyyətlidir. Naxçıvan memarları bütün Şərqdə şöhrət qazanmışdılar və abidələrin təkrarolunmaz gözəlliyini yaratmışlar. Bərəkətli Naxçıvan torpağı XII əsrdə Planetə görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvanini hədiyyə etmişdi. O sonrakı nəsillərə əbədi olaraq arxitekturanın çoxlu təkrarolunmaz əsərlərini bəxş etmişdir. Bunlardan biri də Möminə Xatın məqbərəsidir. Əsrarəngiz gözəlliyi və məqbərənin incə naxışlarındakı zərifliyi ilə bütövlükdə səni məst və hipnoz edir. Gözlərin önündə məqbərə nəhəng işıqsaçan firuzəyə -

Şərqin simvoluna çevrilir. Mömінə Xatın məqbərəsi bu yazılarla əhatə olunub:

“BİZ GEDİRİK, DÜNYA QALIR,
BİZ ÖLÜRÜK- XATİRƏLƏR YAŞAYIR”

Naxçıvanda qaldığım son günədək bu müdrik kəlamla silahlanaraq özümdə cəsarət toplayıb yalnız özüm üçün bu kəlamı belə dərk etdim: **“Biz gedərik, dünya qalar, amma özümüz haqda əziz bir xatirə qoymaq borcumuzdur.”**

Dahi Əcəmi nəinki öz adını əbədiləşdirdi, eyni zamanda doğma Naxçıvanın adını görkəmli dünya arxitektura abidələri siyahısına qızıl hərflərlə yazdırdı.

Təpədə müqəddəs Naxçıvan vilayətinin lideri və vətənpərvər Vasif Talıbov tərəfindən xalqa qaytarılmış Naxçıvan xanlarının ev–muzeyi parlayır. Oxuculara məlumdur ki, demək olar ki, iki yüz il əvvəl Yaxın Şərqdə böyük hörmətə sahib olan kor **Kalbalı xan Naxçıvanski** ilə görüşmək xatirinə bu evi İmperatorun İrandakı Fövqəladə səfiri, Qafqazdakı baş komandan A.P. Yermolov üç dəfə ziyarət etmişdi. Kor Kalbalı xan məşhur qonağa vaxtilə çiçəklənən Naxçıvanın kasıb vəziyyəti və bərbad şəraiti barədə həyəcanla danışırdı. Kor Kalbalı xanın ruhu yəqin ki, müasir Naxçıvanda firavan həyatı, sülhü rahatlıqla və ürək yüngüllüyü ilə hiss edir.



Kalbalı xan
Naxçıvanski.
Rəssam Əsgər Məmmədov

Naxçıvanda qaranlıq düşərkən birinci dərəcəli yollarda sayrışan işıqlar yanır. Bu cür çəkilmiş yollara Avropada rast gəlmək olar, amma hər yerində yox. Naxçıvanda geniş, gözəl və baxımlı küçələr var. Yaxın Şərqin ən böyük universitetlərindən biri olan Naxçıvan Dövlət Universitetinin gözəl uniformada

olan gənc tələbələrinin üzlərində təbəssüm saçır. Universitetin öz botanika bağı və müasir xəstəxanası, nəhəng və təmtəraqlı elektron kitab mərkəzi, prezident İlham Əliyevin şəxsən özünün açdığı konservatoriya və nəhayət, qısa bir müddətdə - cəmisi 8 ay ərzində tikilmiş və təhsil prosesinə hazır olan Beynəlxalq fakültə binası var.

Naxçıvanda olarkən bu yaxınlarda şüşə və plastikdən tikilmiş, arxitektonikanın şah əsəri və dünya tibbinin texniki nailiyyətləri təchiz olunmuş Diaqnostika Mərkəzindən yan keçmək olmur. Biz şəffaf liftə mindik, burdan bu möhtəşəm müəssisənin kabinetləri və laboratoriyalarını əlinin içi kimi görürsən, müəssisənin əməkdaşları ağ xələtdə öz müqəddəs vəzifələrini vicdanla yerinə yetirirlər. Bizim gözəl təəssüratlarımıza əlavə olaraq onu da öyrəndik ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında, ümumiyyətlə Azərbaycanın hər yerində səhiyyə istisnasız olaraq pulsuzdur.

Naxçıvanın yeraltı sərvətləri həyatda görmədiyimiz bir şəkildə qaynayır. Onun gözəlliyini hələ heç kim təsvir etməmişdir, hələ onun bütün zənginliyi məlum deyil. Məsələn, ulu babaları Nuh Naxçıvanda daş duz yataqlarının mövcudluğu haqda gələcək nəsillərə işarə verdi və onun qabaqgörənliyi düz çıxdı. Ulu babaları Nuhdan Vasif Talıbova kimi Naxçıvan duz sənayesi əhalinin və sənayenin müxtəlif sferalarının tələbini ödəyərək fasiləsiz olaraq işləyir.

Uzun müddətdir duz çıxarılmayan yeraltı duz mağaralarında indi nadir sağlamlıq müalicəxanası tikilmişdir. Naxçıvanın duz mağaralarında istirahət etmək və yatmaq sağlamlıq və uzunömürlülüyün zəmanətidir. Burada öz sağlamlıqlarını qorumaq istəyənlərin sayı çox olduğundan Naxçıvan hökuməti duz müalicəxanasının yaxınlığında beşulduzlu hotel tikməyə məcbur oldu. Böyük və rəhmli Allah Naxçıvanın duz mədənlərinin hələ uzun müddət xalqa xidmət etməsini qismət eləsin.

Naxçıvan torpağı yeraltı sularla zəngindir və vilayətdə

uzun müddət davam edən isti məhsula təhlükə yaratmır. Əməksevər naxçıvanlılar çoxdan bəri kəhriz suyundan istifadə edirlər. Kəhrizlərin tikintisi Naxçıvan yeraltı sənətinin xüsusi bölməsidir, onların kəhriz tikmə təcrübəsi illərlə nəsildən-nəsilə keçərək püxtələşib və naxçıvanlılar bu sənətdə yüksək nailiyyətlər əldə etmişlər. Lakin kəhrizlər Naxçıvanın nəhəng yeraltı mədənlərinin ancaq kiçik bir hissəsidir.

Bizə təqdim olunduğu kimi, Naxçıvan mineral suları qədər dadlı və faydalı su dünyada yoxdur: "Sirab", "Badamlı", "Vayxır", "Gülüstan", "Nəhəcir".



Məşhur naxçıvanlılar Vasif Talıbov və
İsa Həbibbəyli ilə birlikdə

Təkcə Naxçıvanın özündə faydalı və dadlı mineral suyun beş növündən ləzzət almaq üçün heç bir yerə, hətta uzağa getmək lazım deyil. Bütün bu beş növün bir mənbəyi var, o da məhsuldar Naxçıvan torpağıdır. Lakin Naxçıvan başqa bir suyu ilə də məşhurdur. Biz onu yuxarıda göstərdiyimiz beş növə

aid etmirik. Bu su növü rəqabətdən kənardır. Söhbət mineral suyun yeni keyfiyyətli, eyni zamanda həmçinin vanna qəbulu üçün də istifadə olunan növündən, Culfa Arsenli Termal suyundan – **"Darı dağ"** dan gedir.

"Darı dağ" sehrli xüsusiyyətlərə malikdir. Dəri, qadın, ostroxandroz və əsəb xəstəliklərinin müalicəsində böyük rol oynayır. Culfa Arsenli Termal suyu radikulit və revmatizmi müalicə edir, həmçinin "Darı dağ"ın böyrəyə, qan azlığına və immunitet sisteminə faydası var. Bu isti su virus və malyariyaya qarşı mübarizə aparır. Harada görülüb ki, bir borudan çıxan su 10 xəstəliyi müalicə etsin? Naxçıvan "Darı dağı" buna qadirdir.

Hələ də göz önündə "Darı dağı" ətrafındakı möcüzələrlə dolu əfsanəvi gözəllik bərq vurur. Culfa Arsenli Termal suyu əsrlər boyu **"Gözəllik möcüzəsi"** adı ilə sehrli dağ səltənətində məskən salıb.

Müstəqil ekspertlərin rəyinə əsasən "Darı dağ" isti suyu kimyəvi tərkibinin zənginliyinə görə nəyin ki, Qafqaz suları arasında birinci yer tutur, eyni zamanda İtaliyanın və Fransanın məşhur mənbələrini qabaqlayır.

Naxçıvanın bütün gözəlliklərini yəqin ki, biz tanıya bilmərik. Buna vaxt çatmaz, illah da ki, onu balaca bir oçerkə sığışdırasan. Xalq arasında yaxşı deyiblər: "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır!" Hansı ay arzumuz çin olacaq ki, tezliklə bizim səliqəli, qonaqpərvər və sevimli Naxçıvana geri qayıdaq.

Həddən artıq bolluğa heyran qalan hansısa daxili güclər bizi özümüzü və sehrli Naxçıvan vilayətinin ləyaqətli adını fikirləşməyə məcbur etməyə cəhd göstərdi, ancaq tarixin dərinliklərinə atılaraq anladıq ki, biz gecikdik və demək olar ki, yeddi yüz il gecikdik. Bizi, sən demə bu vilayətə ürəkdən sevən, əsil Naxçıvanlı **Məhəmməd Naxçıvanı** qabaqlayıb. Hələ XIV əsrdə o, Naxçıvana **"Dünyanı bəzəyən"** (Nəqşi-cahan) adını vermişdi. Naxçıvan diyarına bundan yaxşı ad vermək ağıla gəlmir.



Mehriban xanım:
“Mən Allaha və insanın imkanlarına inanıram”

Dövlət əzəməti ilə ailə möhkəmliyi arasında birbaşa və kəsilməz əlaqə mövcuddur. Azərbaycan Respublikasının bu müdrik dövlətçilik düsturu haqda biz **Heydər Əliyev Fondunun prezidenti,** Azərbaycan Respublikasının birinci xanımı **Mehriban xanım Əliyevanın** dilindən eşitdik. Dünya dövlətlərinin bir çoxundan fərqli olaraq Azərbaycan Respublikası həyat və fəaliyyətin bütün sferalarında maddi rifahını yaxşılaşdıraraq iqtisadi böhrandan yan keçə bildi, amma bu cəmiyyətin rifahı və sosial inkişafına hələ təminat verməyə xidmət edə bilməz.

Dövlətin diqqət mərkəzində Mehriban xanımın qeyd etdiyi kimi onun ilkin özəyi olan **AİLƏ** dayanır.

Müasir Azərbaycan prezidentin ailəsindəki harmoniyanı xalqa nümayiş etdirərək Respublikadakı ailələrdə münasibətlərin harmoniyasının yaradılması yolu ilə gedir. Respublika Prezidentinin ailəsinin həyatı Azərbaycan xalqının gözü qarşısında keçir. Bu bəzi dünya dövlətlərində olduğu kimi möhürlənmiş qapalı ailə həyatı tərzi deyil. Xoşbəxt demokratik cəmiyyətin qurulması praktikasında bu yeni baxış Naxçıvan xanları sülaləsinin mənəvi irsinin əks-sədası ilə formalaşır. Onların vəsiyyəti və xeyirxah fikirləri müasir nəsillərə zaman-zaman ötürülür.

Həqiqət naminə qeyd edək ki, bütün Azərbaycan xalqı – cavanından ağsaqqalına kimi hamı Mehriban Əliyevanı tanıyır, sevir və ona həsəd aparırlar. Onun xalqın sevimlisinə çevrilməsi onu göstərir ki, ona başqa heç bir titul lazım deyil. Lakin Mehriban Əliyevanın xidmətləri okeanın o tayında – Amerikada yüksək qiymətləndirilərək ona **“XXI ƏSRİN**

BÖYÜK QADINI” şərəfli titulu verilirsə, deməli Azərbaycan xalqı öz Birinci xanımının xidmətlərini şişirtmir. Azərbaycan xalqının və dünya ictimai təşkilatlarının baxışları üstüstə düşür. Dünya ictimaiyyəti Mehriban xanımın mənəvi nailiyyətlərini də çox yüksək qiymətləndirir.



Azərbaycan Respublikası Prezidentinin evindəki harmoniyadan Azərbaycan ailələrinin harmoniyasına

Mehriban xanım Əliyeva bir çox ölkələrin Birinci Xanımlarına ləyaqətli bir örnəkdir. Ola bilsin ki, kommunistlərin yaddan çıxmış **“Bütün dünya proletarları, birləşin!”** hərbi şüarını yenidən dünyəvi və mənəvi formaya salmağın vaxtı çatıb: ***“Bütün dünya Birinci Xanımları, birləşin!*** Yeni çağırışın yayılması bizim hələ də narahat dünyamızda parlaq dəyişmələrə gətirib çıxara bilər. Dünyadakı bu böyük hadisələrin mənşəyini izah etmək lazım gələrsə, aqillər cəmisi iki sözlə bunu ifadə etməyi üstün tuturlar:


“Qadınları axtarın!”

Azərbaycan Respublikası ağappaq okean layneri kimi doğru kurs tutaraq inamla irəliləyir və sualtı qayalar ona təhlükə yaratmır.

Müstəqil Azərbaycan Respublikası özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə sıx əməkdaşlıqla böyüməyə cəhd göstərir və bu şərəfli dövlətin əzəmətinə layiq müntəzəm surətdə onun sükanı arxasında dayanır.

Strateji cəhətdən sərhəd forpostu olan
Naxçıvanın mənəviyyatı və çiçəklənməsi keşiyində
duran dinc günəşli Azərbaycan
inamla Məbədə doğru hərəkət edir.
Əcdadlarının vəsiyyətinə əsasən!

YAXŞI YOL VƏ SÜKANI BELƏ SAXLA!



Əlavə 1

ARXİV SƏNƏDLƏRİ VƏ ƏDƏBİYYAT

ARXİV SƏNƏDLƏRİ

Акты, собранные Кавказской Археографической Комиссией (АКАК). Архив Главного управления Наместника Кавказского. Под ред. председателя Комиссии, ст. сов. Ад. П. Берже. Тифлис. 1866–1884. Тома I–IX.

Российский Государственный Архив Древних Актов (РГАДА), ф.1406 (Ермолова А.П.), оп. 1.

Российский Государственный Военно-Исторический Архив (РГВИА), ф.1 (Канцелярия Военного Министерства), оп. 1, 2, 2а, 3, 4.

РГВИА, ф. 36 (Канцелярия дежурного Генерала Главного Штаба Е.И.В., оп. 4.

РГВИА, ф. 217 (Ермолов А.П., генерал от артиллерии), оп. 1.

РГВИА, ф. 395 (Инспекторский Департамент), оп. 1–23. РГВИА, ф. 400 (Главный Штаб), оп. 1.

РГВИА, ф. 489 (Формулярные списки …о службе личного состава русской армии), оп. 1 (т. 1 и т. 2).

РГВИА, ф. 846 (Военно-Учетный Архив), оп. 16.

РГВИА, ф. 14719 (Гл. Штаб Кавказской Армии), оп. 1– 5, 9.

KİTABLAR, DÖVRİ VƏ SORĞU NƏŞRLƏRİ

Березин И.Н. Путешествие по Северной Персии. Казань, 1852, 422 с.

Военная энциклопедия. Т. 1–18. С.-П., Сытин, 1911–1915.

Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 годы. Ч. I–3. С.-П., 1869.

Берже А.П. Посольство Ермолова в Персию. «Русская Старина», т. XIX, кн. 6. 1877. С.с. 255–274.

Берже А.П. Посольство Ермолова в Персию. «Русская Старина», т. XIX, кн. 7. 1877. С.с. 261–267.

Гасанлы Джамиль. СССР – Иран. Азербайджанский кризис и начало холодной войны (1941–1945). М., Герои Отечества, 2006, 560 с.

Глинка С. Описание переселения Армян Адербиджанских в пределы России с кратким предварительным изложением исторических времен Армении. М, 1831, 142 с.

Грибоедов А.С. Сочинения. (1-е полное издание). Берлин, 1860, 326 с.

Грибоедов А.С. ПСС. Под ред. И.А. Шляпкина. Т. 1–2. С.-П., 1889.

Грибоедов А.С. Полное собрание сочинений. Под ред. Н.К. Пиксанова и И.А. Шляпкина. Т. 1–3. С.-П., 1911–1917.

Григорьев В.Г. Статистическое описание Нахичеванской провинции, печатанное с Высочайшего соизволения. С.-П, 1833, 264 с.

Дневник сношений с разными лицами за Кавказом во второй половине 1823 г. «Чтения Общества Истории и Древностей Российских», кн. 1. 1871.

Друвиль Гаспар. Путешествие в Персию в 1812–1813 г.г. (Пер. с фр.). Ч. 1–2. М., 1826, 209 с.

Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Т. 1–6. С.-П., 1871–1889.

Евецкий О.С. Статистическое описание Закавказского края с присовокуплением статьи: «Политическое состояние Закавказского края в исходе XVIII века и сравнение онаго с нынешним. Ч. 1–2. С.-П., 1835, 308 с.

Ермолов А.П. Биографический очерк. С.-П. 1912, 210.

Ермолов А.П. Журнал Посольства в Персию. М., 1863, 64 с.

Ермолов А.П. Записки. Ч. 2 1816 – 1827. М., 1868, 726.

Ермолов А.П. Материалы, собранные для его биографии М. Погодиным. М.,1864, 452 с.

Жизнеописание Ага-Магомед-хана Каджара, основателя ныне царствующей в Персии династии. С.-П., 1835, 55 с.

Зубов П.П. Персидская война в царствование Николая I. С.-П., 1837, 269 с.

Зубов П.П. Подвиги русских воинов в странах Кавказских (1800–1834). Т.т. 1–2. С.-П.,1835–1836, 215 с.

Зубов П.П. Поход графа В.А.Зубова в Персию в 1796 году. С.-П., 1838, 230 с.

История Ирана. М., Издательство МГУ, 1977, 488 с.

«Кавказский Сборник», т. XXX, Тифлис, 1910.

Кикодзе Г. Ираклий II. Тифлис. 1948, 145 с.

Корф Ф.Ф. Воспоминания о Персии (1834–1835). С.-П., 1838, 294 с.

Краткое описание путешествия Российско-Императорского посольства в Персию в 1817 году вас. Бороздны, Колежского Ассессора и орденов Св. Анны и Персидского Льва и Солнца второго класса кавалера. С.-П., 270 с.

Невежин В.А. Застольные речи Сталина. М., 2003, 544 с.

О гибели Грибоедова // Российский Архив: История Отечества в свидетельствах и документах XVIII—XX вв.: Альманах. – М., 2007. – [Т. II–III.]

Передняя Азия в документах. Нахичеванские рукописные документы XVI-XIX веков. Под ред. Ю.Н. Марра. Тифлис, АН Груз. ССР, 1936, 141 с.

Подробное описание Персии, …земли Хорассана, также Грузии и персидских провинций, присоединенных к России. С присовокуплением описания похода Персиян против России в 1826, 1827 и 1828 годах. Ч. 1–3. М., 1829, 377 с.

Попова О.И. Грибоедов в Персии. М., Жизнь и Знание, 1929, 123 с.

Попова О.И. Грибоедов – дипломат. М., ИМО, 1964, 219 с.

Потто В.А. История 44-го Драгунского Нижегородского Его Императорского Высочества Государя Наследника Цесаревича полка. Т. 1–11. С.-П., 1892-1906.

«Российский Архив (История Отечества в свидетельствах и документах XVIII–XX в.в.)». Выпуск II–III. М., 1992, 360 с.

«Русский Архив», 1893, № 13. С. 363

Русский биографический словарь (РБС). Т. 1–25. С.-П, 1896–1918

«Сборник материалов для описания местностей и племен Кавказа» (СМОМПК), вып. 26, Тифлис, 1869.

«Сборник материалов для описания местностей и племен Кавказа» (СМОМПК), вып. 29. Тифлис, 1901.

Сигов Ю. Азербайджан. Между Западом и Востоком. Заметки российского журналиста. Стокгольм, 2008, 266 с.

Томара М.Л. Экономическое положение Персии. С.-П., 1895, 172 с.

Ханыков Н. Очерк служебной деятельности генерала Альбрандта. Тифлис, 1850, 40 с.

Щербатов М.М. Генерал-Фельдмаршал Князь Паскевич И.Ф. Его жизнь и деятельность. Т. 1–2. С.-П., 1890, 610 с.

Шильдер Н.К. Император Николай Первый. Его жизнь и царствование. Т. 1–2. С.-П., 1903, 829 с.

Указатель по Кавказскому Военно-Историческому музею. Тифлис, 1907, 427 с.

Юзефович Т.П. Договоры России с Востоком, политические и торговые. СПб., 1869, 296 с.

QƏZETLƏR

«Кавказ», 1855 (№ 185); 1876 (№№ 48, 50, 52); 1895 (№ 94)
«Красная Газета», 1918 (№ 180)
«Русский Инвалид», 1829 (№№ 74, 220, 242, 275), 1837 (№268): 1877 (№ 279): 1909 (№32)
«Сенатские Ведомости», 1826 (№№ 11, 12)
«Санкт-Петербургские Ведомости», 1828 (№ 11).

Əlavə 2

UZUNLUQ VAHİDLƏRİ VƏ DİGƏR ÖLÇÜLƏR

Ağac (türkcə) – Azərbaycan xalq uzunluq vahidi; piyada üçün ağac 4 verstə, atlı üçün isə 7 verstə bərabərdir. Yaşayış məntəqələri arasında məsafəni göstərmək üçün istifadə olunurdu.

Arşın (türkcə) – bir sıra ölkələrə (XVI əsrdən Rusiyada) yayılmış uzunluq ölçüsü; 72,12 sm-ə bərabərdir.

Batman (və ya man) – İranda yayılmış qədim çəki ölçüsü, əyalətlərdən asılı olaraq 3 – 6 kq-a bərabərdir.

Verst – rus uzunluq ölçüsü 500 sajına və yaxud 1, 0668 km-ə bərabərdir. 1920-ci ilə qədər 1000 sajına və ya 2,136 km-ə bərabər olan mərz versti mövcud idi və ondan mərz və yaşayış məntəqələri arasında məsafəni müəyyənləşdirmək üçün istifadə olunurdu.

Kurur –500 000 tümən və ya 1,5 – 2,5 milyon rubl.

Pənahabadi – Şuşa xanlığının pul vahidi. İlk vaxtlar Şuşada kəsilirdi və 20 gümüş qəpiyə bərabər idi. Sonralar pənabad adını alaraq İranın bütün xanlıqlarında işlənirdi.

Pud – rus çəki ölçüsü. 1 pud 40 funta və ya 16,38 kq-a bərabərdir.

Sajın – rus uzunluq ölçüsü. 1 sajın 3 arşına və yaxud 2,1336 metrə bərabərdir.

Tümən – üç rus rubluna bərabər olan İran sikkəsi, qraf Paskeviçin İrana yürüşləri dövründə isə 4 rubla bərabər idi.

Xalvar – İranda dənəvər malların həcm ölçüsü, 18 pud 5 funtdan 72 pud 20 funta qədər dəyişkən bir ölçüdür.

Fərsəng – İranda uzunluq ölçüsü, 5 min metrə bərabərdir, əyalətlərdən asılı olaraq 5 – 6 verstə qədər çatır.

Funt (*latın sözü "podus"dan yaranıb)* – rus ölçü sistemində kütlə vahidi. 1 funt 0, 4095 kq-a, 1/40 puda bərabərdir.

Fut (*ingilis*.) **–** ingilis ölçü sistemində uzunluq ölçüsü. 1 fut 12 düymə və yaxud 0,3048 metrə bərabərdir. Rus ölçü sistemində isə 1 fut 1/7 sajına və yaxud 0,3048 metrə bərabərdir.

MÜNDƏRİCAT

Tədqiqatın və şəxsiyyətin miqyası
(Ön söz) 3
Kor Kalbalı xanın gələcək nəsillərə çağırışı:
Naxçıvan xanları şərəfin xidmətində..... 18

İran hökmdarı Ağa Məhəmməd Şah Kalbalı Xan
Naxçıvanskini yüksək qiymətləndirirdi
Ağa Məhəmməd Şah Qacarın
taxta çıxması və yürüşləri..... 54
Ağa Məhəmməd Şahın şəxsiyyətinə dair qeydlər..... 96
Tiranlar bu dünyadan izsiz getmirlər 100
Kalbalı Xan Naxçıvanski Ağa Məhəmməd Şahın
hakimiyyətini qəbul etmiş və onun bayrağı altında igidliklə
vuruşmuşdu, lakin Rusiyaya meyli üzündən kor edilmişdi..... 104
Sərt Ağa Məhəmməd Şah və cəsur Kalbalı Xan
Naxçıvanskini sevgini nifrətdən bircə addım ayıra bilər..... 110

Kalbalı Xan və Fətəli Şah Naxçıvanın
XVIII–XIX əsrə aid əlyazma sənədlərində
Kor Kalbalı Xan Naxçıvanski: İran sarayı
tərəfindən şəxsiyyətin qiymətləndirilməsi.....119
Şahın nəzərləri köhnə və ədalətli qulluqçuya –
yüksək mənsəbli Kalbalı Xana yönəlib.....124
Kalbalı Xanın Kəngərli tayfasının rəisi Lütfəli Xana və süvari
qoşununun komandiri Nəzərəli Xana əmrləri..... 127
İran hökmdarı Fətəli Şahın Naxçıvan valisi Kalbalı Xana andı.....130

Kalbalı xanın köməyi ilə İrəvan qansız tabe edilə
bilərdi, ancaq knyaz Sisianovun buna ağlı çatmadı
Mərkəzdə oturan yeni qəsbkarın –
Knyaz Sisianovun Qafqaza gəlişi..... 138
Knyaz Sisianov Kalbalı Xana Naxçıvanı
vəd edərək, əvəzində İrəvanı istəyir..... 146
Knyaz Sisianov Kalbalı Xana İrəvanın təhvil şərtlərini diqtə edir,
ancaq bir şərti də var: "erməni knyazları rəis olmamalıdırlar"..... 152
Gürcü knyazları İrəvan divarları önündə donmaqdan
yorulmuşdular, Gürcüstanda qızınmaq
qərarına gəldilər, ancaq iranlılara əsir düşdülər..... 163
İrəvanı hücumsuz və Kalbalı Xansız almaq üçün
göstərilən yeni cəhdlər uğursuzluqla nəticələndi.
İranlılar daha fəndgir tərpəndilər..... 171

Knyaz Sisianovun Kalbalı Xanı xoşu gəlməyən adamlarla
dostbazlığı və "İran qəlbli səbatsız ermənilərə" inam..... 180
İrəvan divarları önündə rus qoşunlarının məzarlığı qala bilərdi.
Kor Kalbalı Xan gözü salamat Sisianovdan daha uzağı görürdü... 189

Bakı qalasının qızıl haşiyəli gümüş qabda təqdim edilən açarı
İmperator I Aleksandrın sehrli yuxusu:
Onun gözünə mavi bir ilğımda Rusiyanın
Abşeron buxtası görünür..... 196
Rusiyadan Bakıya baxan rus sənayeçiləri və tacirləri
saysız-hesabsız zənginlik xəyalına düşmüşdülər..... 200
Knyaz Sisianov Bakı xanlığının Rusiya İmperiyasına
birləşdirilməsini Bakı Xanın iştirakı olmadan başa çatdırır..... 205
Knyaz Sisianov ümumrusiya imperatorunu aldatmışdı:
Bakılı Hüseynqulu xan Rusiyanın təbəəliyində olmaq istəmir..... 219
Desant donanması Bakı üzərinə hücuma yollanır..... 222
Knyaz Sisianov Bakı üzərinə qurudan hücuma keçir, ancaq
qalanın qalibə qansız təslim edilməsini arzulayır..... 227
Bakı qalasının açarlarını təhvil vermək əvəzinə Hüseynqulu Xan
Bakinski knyaz Sisianovu yaxın məsafədən güllələyir..... 238

General Yermolovun İran missiyası və
Kalbalı Xanla Naxçıvanski ilə görüşləri
Rusiya imperiyasının İran səfirliyi..... 240
General Yermolovun Kalbalı Xan
Naxçıvanski ilə görüşü..... 251
Səfirliyin marşalı kapitan P.N.Yermolov – səfirin
Kalbalı Xan Naxçıvanski ilə görüşləri haqqında..... 256
Səfirliyin müşaviri A.E.Sokolov – Kalbalı Xan
Naxçıvanski ilə görüşlər haqqında..... 259
Səfirliyin məmuru Vasili Borozdnya –
Naxçıvan və Kor Kalbalı Xan haqqında..... 260
Əlahəzrət imperatorun səfiri
A.P.Yermolov İranda..... 263
General Aleksey Petroviçin
qeyri-adi şəxsiyyəti haqqında..... 273

Diplomat Qriboyedov rus əsir və fərarilərini
İrandan çıxarır, Kalbalı Xan Naxçıvanski isə
buna qarşı çıxır
İrandakı rus əsir və fərariləri. Bunlar kimə – Rusiyayamı,
yoxsa İranamı daha çox lazımdır? 281

Diplomat Qriboyedov tarixdə ilk dəfə olaraq
rus əsir və fərarilərini İrandan çıxarmağa çalışır..... 286
Rusiyalıların vətənə çətin və riskli qayıdışı..... 292
Kor Kalbalı Xan rus əsir və fərarilərinin İrandan
çıxarılmasının əleyhinədir..... 296
"Bu dünyanın onlar üçün xoş olduğuna
inananlar xoşbəxtdirlər"..... 303

Rus ordusunun İran ərazilərinə zəfər yürüşü
Rus imperiyası ordusunun İranın
daxili ərazilərinə hücumu..... 308
Kalbalı Xanın övladları öz əfsanəvi
valideynlərinin vəsiyyətini yerinə yetirirlər..... 317
Rus qoşunları Sərdarabad və İrəvan qalalarına
həmlə edərək, Təbriz üzərinə hücuma keçir..... 323
General Paskeviç Təbrizdən İrana sülh şərtini diqtə edir,
İran Azərbaycanının Rusiyaya birləşdirilməsi istisna deyil..... 332
Təzminat olmasa, İran sülh danışıqlarına razıdır..... 349

İmperator Nikolay Pavloviç zamanında
İran Azərbaycanı Rusiyanın ola bilərdi
General Paskeviç İran ərazisində müstəqil Azərbaycanın
dövlət quruluşunu yaradır 354
General Paskeviçin ultimatumu: "Müharibə və ya pul!"
rus ordusu Tehrana hücum etməyə hazırdı..... 367
Rus ordusu İran Azərbaycanını işğal edənə kimi oradan
milli sərvətləri çıxarmağa vaxt və şərait var idi..... 387
Səlahiyyətli nazir Qriboyedov qraf Paskeviçin iradəsinə qarşı
təcili olaraq rus ordusunun Xoydan çıxmasını təkid edir..... 400
Rus ordusu İran Azərbaycanını tərk etdi,
Təbriz müctəhidi Mirfət Seyid də orada qalmadı..... 406
Parçalanmış Azərbaycanı birləşdirmək üçün
üç əsr və üç cəhd..... 413

Ermənilərin Rusiyadakı müsəlman torpaqlarına
kütləvi köçürülməsi
Erməni milləti Rusiya şərəfindən də üstündür..... 418
Polkovnik Lazerevin biabırçı səyləri
müqəddəs şərəf anlayışını küçümsəyir..... 422
Ermənilərin Rusiyaya köçürülməsi haqda həqiqət
diplomat Qriboyedovun qeydlərində..... 434
Ermənilərin müsəlman torpaqlarına köçürülməsi
çağrılmamış gəlmələrə qarşı düşmənçilik yaratdı..... 445

Diplomat Qriboyedovun qələbəsi və faciəsi.
Bu faciədə baş rolları ermənilər ifa etmişdi
Qriboyedov haqda söz..... 447
Hökmdar imperatorun özü tərəfindən əzizlənən
Qriboyedov İrana səlahiyyətli nazir təyin edildi..... 453
Səlahiyyətli nazir Qriboyedov Sankt-Peterburqu və
Rusiyanı tərk edir. Həm də həmişəlik!..... 459
Rusiyanın İrandakı səlahiyyətli
nazirinin ölümü..... 464
Baş konsul Amburger qorxu içərisində
Təbrizdən Naxçıvana qaçır, şah sarayı isə
Rusiyaya tövbə göndərir..... 474
Səfirliyin birinci katibi İ.S.Maltsev kim idi?..... 485
Rusiya səfirliyində qanlı qisası kütlə törətmişdi,
ancaq başlıca təhrikçilər beş nəfər: Bir iranlı,
iki erməni kişisi və iki erməni qadını olmuşdur..... 496
Ağsaçlı Naxçıvan Qriboyedovun cənazəsini
İrandan qəbul etdi və möhtəşəm matəm
mərasimi keçirdi..... 508
Naxçıvan əyalətinin başında Ehsan xan dayanıb.
Kalbalı xanın epoxası davam edir..... 516
Tiflis torpağında əbədi dinclik..... 520

Yaxın şərq və Rusiya tarixində Kalbalı xan Naxçıvanskinin izləri
(Əsas fakt və hadisələrin xronologiyası) 525

Naxçıvan Muxtar Respublikası rifahın və mənəviyyatın yüksək zirvəsində 553

Əlavə 1. **Arxiv sənədləri və ədəbiyyat** 563

Əlavə 2. **Uzunluq vahidləri və digər ölçülər** 567

R.N.İVANOV

Kalbalı xan Naxçıvanski
Dövrü və irsi
(Tarixi oçerklər)

Akademik İsa Həbibbəylinin
ön sözü ilə çap olunmuşdur

Rus dilindən tərcümə
edilmişdir

Yığılmağa verilmiş 01.02.2013.
Çapa imzalanmış 27.05.2013.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 36,0 ç.v.
Sifariş № 519 Tiraj 1000 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.